AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

**NAMİQ MUSALI**

# I ŞAH İSMAYILIN HAKİMİYYƏTİ

***(“TARİX-İ ALƏMARA-Yİ ŞAH İSMAYIL” ƏSƏRİ ƏSASINDA)***

BAKI – 2011

*Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi Şurasının qərarı əsasında nəşr olunur.*

Elmi redaktor: AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, prof. **O.Ə.Əfəndiyev**

Rəyçilər:

**| tarix elmləri doktoru, prof. V.Z.Piriyev |**

tarix üzrə fəlsəfə doktoru **R.M.Məmmədova**

**Musalı N.S. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləm-ara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı: "Nurlan", 2011, 481 s.**

Monoqrafiya Səfəvilər zamanında naməlum bir müəllif tərəfindən farsca qələmə alınmış iri həcmli "Tarix-i aləmara-yi Şah İsmayıl" ("Şah İsmayılın dünyanı bəzəyən tarixi") əsərinin zəngin materialları əsasında Azərbaycan Səfəvilər dövlətinin banisi I Şah İsmayılın hakimiyyəti dövrünün (1501-1524-cü illər) tədqiqinə həsr olunmuşdur.

© Əlyazmalar İnstitutu, 2011
© "Nurlan", 2011

## REDAKTORDAN

Dövlətçilik ənənəsinə sahib olmaq hər xalqın taleyinə yazılmış qismət deyildir. Biz Azərbaycan türkləri olaraq dünya mədəniyyətinə verdiyimiz əvəzsiz töhfələrlə yanaşı, həm də tarixin dərin qatlarına gedib çıxan zəngin dövlətçilik irsinin varisləriyik. Bu irsi yaşatmaq və öyrənmək çağdaş Azərbaycan tarixçilərinin vətən və millət qarşısında müqəddəs borcudur. Dövlətçilik tariximizin ən şərəfli səhifələrindən biri də, heç şübhəsiz ki, Səfəvilər xanədanının hakimiyyəti dövrü ilə başlamışdır.

1501-ci ildə görkəmli dövlət xadimi, sərkərdə və şair Şah İsmayıl Xətainin başçılığı altında yaradılan Azərbaycan Səfəvilər dövləti milli tariximizdə müsbət mənada silinməz bir iz qoydu. I Şah İsmayıl məmləkəti bürümüş feodal pərakəndəliyini, dərəbəyliyi, özbaşınalığı aradan qaldırdı, mərkəzləşdirilmiş dövlət sistemini bərqərar etdi, vergiləri yumşaltdı və xalqı zülmdən, sitəmdən qurtardı. Səfəvilərin rəhbərliyi ilə Azərbaycanın cənub və şimal torpaqlarının vahid dövlətin tərkibində birləşdirilməsi ölkəmizin sosial-iqtisadi və mədəni tərəqqisi üçün yeni üfüqlər açdı. Səfəvilər sülaləsinin himayəsi ilə anadilli Azərbaycan ədəbiyyatının sürətli inkişaf mərhələsi başladı. Azərbaycan türkcəsindən rəsmi yazışmalar və diplomatiya dili kimi istifadə edilməsi təcrübəsinin əsası qoyuldu.

I Şah İsmayılın müasiri olmuş klassik şairlərimiz – Füzuli, Kişvəri, Tüfeyli və digərləri öz şeirlərində onu hörmətlə yad etmiş, fəaliyyətini yüksək qiymətləndirmişlər. “Xalqın gözü tərəzidir” deyiblər müdriklərimiz. Şah İsmayıl Xətai xalqımızın yaddaşı sayılan folklorumuzda da istisnasız olaraq müsbət bir qəhrəman kimi qalmışdır. Xalq ozanlarımızdan Qurbaninin, Miskin Abdalın, Quşçuoğlunun yaradıcılığında, Anadoludakı Ələvi dədələrinin, Güney Azərbaycandakı Əhl-i Həqq aşıqlarının nəğmələrində, “Şah İsmayıl və Taclı xanım”, “Qurbani və Pəri”, “Qurbani və Sənəm” və s. kimi xalq dastanlarımızda, hekayələrimizdə ədalətli və xeyirxah mürşid-i kamil, vətənpər-

vər və şücaətli bir hökmdar kimi yaşayan Şah İsmayıl Xətai obrazı bu xüsusda tutarlı bir dəlildir.

Gənc tədqiqatçı Namiq Musalının oxuculara təqdim olunan monoqrafiyası bu baxımdan diqqətəlayiqdir. Burada Səfəvilər dövründə yaşamış bir soydaşımızın əsas etibarilə sadə xalq arasında dolaşan Şah İsmayıl rəvayətlərini toplayaraq tərtib etdiyi həcmli bir əsər tarixşünaslıqda ilk dəfə olaraq hərtərəfli tədqiqata cəlb edilmişdir. Farsca yazılmış olan bu qaynaq daha çox "Tarix-i aləmara-yi Şah İsmayıl" ("Şah İsmayılın dünyanı bəzəyən tarixi") adı ilə məşhurdur. O, həmçinin "Tarix-i aləmara-yi Səfəvi", "Tarix-i İsmayıl", "Mürşidnamə" kimi adlarla da tanınmışdır. Sözügedən əsərdə Azərbaycan Səfəvilər dövlətinin banisinin hakimiyyəti dövrünə aid real tarixi hadisələr dastançılıq tərzində şərh edilir. Əsərin ən qiymətli cəhəti odur ki, o, sıravi xalqın Şah İsmayıla və ümumiyyətlə öz tarixinə münasibətini öyrənmək üçün bizlərə çoxlu materiallar təqdim edir. Biz burada Şah İsmayıl Xətaiyə xalqın güzgüsündə, xalqın gözündə baxmaq imkanı qazanırıq. Bundan əlavə, "Tarix-i aləmara-yi Şah İsmayıl" tarixi hadisələrin təfərrüatları ilə zəngin olan bir əsərdir.

Monoqrafiyanın müəllifi N.S.Musalı 10 ilə yaxındır ki, bu əsərin tarixi dəyərini öyrənməklə məşğuldur. O, 2006-cı ildə bu sətirlərin müəllifinin elmi rəhbərliyi ilə bu məzmunda dissertasiya işini müdafiə etdikdən sonra da mövzudan uzaqlaşmamış, öz tədqiqatını daim yeni əlavələr, məlumatlar və ədəbiyyatlar hesabına zənginləşdirmişdir. O, araşdırdığı mənbənin çap variantları ilə yanaşı, bəzi əlyazma nüsxələrini də tədqiqata cəlb etmiş və onlardan bəhrələnmişdir. Monoqrafiyada həmçinin müxtəlif dillərdə yazılmış olan mənbələr və araşdırmalar nəzərdən keçirilmiş, maraqlı paralellər, dəqiqləşdirmələr və ümumiləşdirmələr aparılmışdır. Müəllifin bir sıra beynəlxalq elmi konfranslarda iştirakı, respublikamızın kitabxanaları ilə yanaşı, qonşu ölkələrin – Türkiyənin, İranın və Gürcüstanın kitab və əlyazma fondları ilə tanış olması, bu ölkələrə elmi ezamiyyətlərə getməsi, həmçinin əcnəbi alimlərlə səmərəli əməkdaşlıq yaratması kimi hallar monoqrafiyanın hazırlanması prosesinə öz faydalı təsirini göstərmişdir. Orta əsrlər tariximizin

araşdırılması xüsusi qabiliyyət və istedad tələb edir. Bu dövrü yerli mənbələr əsasında öyrənmək məqsədi güdən tədqiqatçı hər şeydən öncə şərq dillərini bilməli, əski qaynaqları, əlyazmaları oxuyub anlamağı bacarmalıdır.

N.S.Musalı müasir mənbəşünaslıq metodlarını tətbiq edərək, təhqiq etdiyi məxəzin geniş səpkidə tanıdılmasını və dəyərləndirilməsini həyata keçirə bilmişdir. Qaynağın üslubu və özəllikləri, əlyazma nüsxələri, yazılma və öyrənilmə tarixi ilə bağlı məlumatlar, onun digər mənbələrlə tekstoloji müqayisəsi, farsca mətndəki türk mənşəli sözlərin müəyyənləşdirilməsi və s. kimi hallar elmi baxımdan cəlbedicidir. Mənbənin xüsusiyyətlərini şərh edən tarixçinin çoxsaylı alimlərin müvafiq məsələlərə dair fikirlərinə yer verməsi və bəzi hallarda onlarla polemikaya girməsi xüsusi maraq doğurur.

Monoqrafiyada ən çox işıqlandırılmış problem I Şah İsmayılın hərbi-siyasi fəaliyyətinin təsvirindən ibarətdir. Müəllif mənbənin ruhunu oxucuya aşılamağa nail olmuşdur. Biz burada canlı bir Şah İsmayıl surətini, onun sevincini və kədərini, sevgisini və nifrətini, hissini və həyəcanını, düşüncəsini və niyyətini, uğurlarını və uğursuzluqlarını, doğrularını və yanlışlarını görürük. Şah İsmayılın və onun qızılbaş döyüşçülərinin "Aləmara"dakı obrazı bizlərə "Kitab-i Dədə Qorqud"dakı Qazan xanı və Oğuz bəylərini, "Koroğlu" dastanının qəhrəmanlarını xatırladır. Monoqrafiyada müfəssəl faktiki materiallara, mənbədən birbaşa tərcümələrə, döyüşlərin təsvirinə, diplomatik danışıqların və məktubların məzmununa yer verilmişdir.

Tədqiqatçı Şah İsmayılın və qızılbaşların geniş coğrafiyaya yayılmış fəaliyyətini mənbənin dolğun məlumatları əsasında araşdırmağa müyəssər olmuşdur. O, sərkərdələrimizin və əsgərlərimizin at çapdığı, qılınc vurduğu hər yeri öz tədqiqatında əks etdirmiş, istər Azərbaycanda, istərsə də ölkəmizdən kənarda baş verən hadisələr haqqında ətraflı şəkildə söz açmışdır. Bu, belə də olmalıdır. Çünki Azərbaycan türklərinin tarixi, Azərbaycanın coğrafi sərhədləri ilə məhdudlaşmır. Orta əsrlərdə əcdadlarımızın siyasi və mədəni nüfuzu zaman-zaman vətənimizin sərhədlərini aşaraq, Hələbdən və Bağdaddan tutmuş Xorasana qədər geniş bir regiona yayılmışdı. Mü-

vafiq dövrdəki hərbi-siyasi və mədəni tariximizi yazan tədqiqatçılar coğrafi stereotiplərə qapılmamalıdırlar.

Azərbaycan Səfəvilər dövlətinin idarəçilik sistemi, hərbi təşkilatı, ictimai-iqtisadi şəraiti də müəllifin diqqətindən yayınmamışdır. O, Şah İsmayılın dünyəvi və mənəvi hakimiyyəti özündə cəmləşdirən bir lider olaraq xarizmatik şəxsiyyətini, onun kadr siyasətini və sosial tədbirlərini tədqiq etmiş, XVI əsrin birinci rübündə Qarabağın tarixi ilə bağlı bəzi maraqlı nüanslara yer vermişdir.

Əsərin "Əlavələr" hissəsində təqdim olunmuş qızılbaş əmirlərinin siyahısı, Şah İsmayıl miniatürləri və s. də əyani vəsait kimi xüsusi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, N.S.Musalının "I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında)" adlanan monoqrafiyası tədqiqatçının uzun illər sürən gərgin əməyinin və yorulmaz axtarışlarının bəhrəsidir. O, qarşısına çətin bir vəzifə qoymasına baxmayaraq, işinin öhdəsindən layiqincə gəlmişdir. Monoqrafiya yeni faktlarla zəngindir. Biz bu əsəri Azərbaycan səfəvişünaslığının son nailiyyətlərindən biri hesab edirik və onun müəllifinə yeni-yeni uğurlar arzulayırıq. İki il bundan öncə N.Musalı ilə birlikdə ilk dəfə olaraq Səfəvilər dövrünün görkəmli Azərbaycan tarixçisi İsgəndər bəy Münşinin "Tarix-i aləmara-yi Abbasi" əsərinin birinci cildinin tərcüməsini başa vuraraq, bu kitabı nəşr etdirdik. Ümid edirik ki, gənc alim gələcəkdə "Tarix-i aləmara-yi Şah İsmayıl"ın farsca mətnini də tam şəkildə doğma dilimizə tərcümə edəcəkdir.

**Oqtay Əbdülkərim oğlu Əfəndiyev,**

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor, AMEA A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsinin müdiri

# GİRİŞ

I Şah İsmayıl tərəfindən qurulan və tamamilə türk qızılbaş oymaqlarının gücünə arxalanan Azərbaycan Səfəvilər dövləti bütün türk dünyası tarixində ən qüdrətli imperiyalardan biri olmuş və Azərbaycan tarixinin ən şərəfli səhifələrindən birini təşkil etmişdir. Çoxəsrlik tariximizdə özünəməxsus və əhəmiyyətli yer tutan Səfəvilər dövləti tarixinə dair qaynaqların mənbəşünaslıq baxımından tədqiq olunması Azərbaycan tarix elmi qarşısında duran mühüm vəzifələrdəndir. Həmin dövrdə Azərbaycanda və bütövlükdə Səfəvilər dövlətində baş vermiş proseslər barədə istər Osmanlı, Orta Asiya və Hindistan mənbələrində, istərsə də avropalı səyyahların və elçilərin səfərnamələrində xeyli məlumatların öz əksini tapmasına baxmayaraq, heç şübhəsiz ki, əsasən fars dilində yazılmış yerli mənbələrin əhəmiyyəti əvəzolunmazdır.

İslamiyyətin geniş ərazilərə yayılması ilə müşayiət olunan xilafətin qüdrətli çağlarında ərəb dili bütün islam dünyasında özünə hakim dil mövqeyini təmin etsə də, XI əsrdən etibarən fars dili tədricən bir sıra müsəlman ölkələrində ərəb dilini sıxışdıraraq, birinci dərəcəli yazı dili statusu qazanmaqda idi və fars dilindən istər diplomatiya və dəftərxana dili kimi, istərsə də ədəbi, elmi, həmçinin də tarixi əsərlərin yazılmasında geniş istifadə edilməsi ənənəsi getdikcə özünə daha möhkəm yer tutmaqda idi. Artıq XIII əsrin əvvəllərində Hindistandan Anadoluya qədər geniş bir ərazidə fars dilində tarixi əsərlər qələmə alınırdı[1]. XI-XIII əsrlərdən XIX əsrədək fars dilinin Ön və Mərkəzi Asiyadakı rolundan bəhs edən İ.P.Petruşevski qeyd edir ki, “təkcə İranda deyil, həm də Rumda (Anadoluda), Azərbaycanda, Orta Asiyada, Şərqi Türküstanda, Hindistanın müsəlman dövlətlərində farsca tarixi əsərlər yazılmaqda idi”[2]. XI əsrin səlcuq yürüşlərindən başlayaraq İranda və müsəlman dünyasının böyük bir hissəsində siyasi hakimiyyət müxtəlif türk

---

[1] В.В.Бартольд. Иран: исторический обзор. Ташкент, 1926, с.70.

[2] И.П.Петрушевский. Иранские источники по истории Азербайджана (XVI-XVIII вв.) // ССИА, вып. I, Баку, 1949, с.299.

sülalələrinin əlinə keçsə də, türk dili saray və ordunun danışıq dili kimi işlədilsə də, həmin dövlətlərin əksəriyyətində rəsmi yazı dili kimi fars dilinə üstünlük verilirdi. Lakin artıq Səfəvilər dövründə fars dilinin işlənmə dairəsi əhəmiyyətli dərəcədə məhdudlaşmışdı[1]. Türk dili Səfəvi sarayında və ordusunda danışıq dili olmaqla bərabər, bu dildən ölkə daxilində fərmanların verilməsində və diplomatik yazışma dili kimi xarici dövlətlərlə münasibətlərdə də istifadə olunurdu[2]. Səfəvilər sülaləsinin himayəsi altında türkdilli Azərbaycan ədəbiyyatı öz çiçəklənmə dövrünü yaşayırdı, türk dilində nəsrlə yazılmış bir sıra ədəbi, dini, tarixi və s. əsərlər meydana gəlirdi. Hətta əvvəllər farsca qələmə alınmış bəzi əsərlər türk dilinə tərcümə edilirdi[3]. Eyni zamanda, həmin dövrdə yaşamış müəlliflər farsca əsərlərinin müxtəlif yerlərində türkcə sözlərə, ifadələrə, cümlələrə, hətta bir neçə sətirdən və ya səhifədən ibarət parçalara yer vermişlər[4].

Lakin bütün bunlara baxmayaraq, fars dili tarixi əsərlərin və salnamələrin yazılmasında öz əvvəlki rolunu hələ də qoruyub saxlayırdı. Hətta Həsən bəy Rumlu, İsgəndər bəy Münşi Türkman, Vəliqulu bəy Şamlu, Barxudar bəy Türkman, gəncəli Hacı Məhəmmədqulu xan Qacar[5] kimi türk qızılbaş tayfalarının nümayəndələri də öz tarixi əsərlərini bu dildə yazırdılar. Səfəvi qaynaqlarının tədqiqi sahəsində böyük təcrübəsi olan O.Ə.Əfəndiyevin qeyd etdiyi kimi, "Səfəvi dövləti tarixinə dair əsas və ən çoxsaylı mənbələr qrupunu müxtəlif xalqların nümayəndələri, o cümlədən də azərbaycanlılar tərəfindən yazıl-

---

[1] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов в начале XVI века. Баку, 1961, с.9.

[2] Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s.184-190; X.S.Qasımov. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, 2008, s.269-270.

[3] M.Z.Nağısoylu. XVI əsr Azərbaycan tərcümə abidəsi "Şühədanamə". Bakı, 2003, s.3-4.

[4] H.H.Zərinəzadə. Fars dilində Azərbaycan sözləri (Səfəvilər dövrü). Bakı, 1962, s.17.

[5] Son iki müəllifin yaradıcılığı haqqında bax: N.S.Musalı. Unudulmuş salnamələr // Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri (X Respublika elmi konfransının materialları). Bakı, 2006, s.279-287.

mış farsdilli feodal xronikaları təşkil edirlər"[1]. Məhz bu səbəbdəndir ki, Səfəvi tarixinin öyrənilməsində farsdilli mənbələr xüsusi əhəmiyyət kəsb etməkdədir.

Artıq respublikamızda farsca yazılmış Səfəvi qaynaqlarına dair bir mənbəşünaslıq ənənəsi mövcuddur. Buna misal olaraq, ayrı-ayrı müəlliflərin "Tarix-i aləmara-yi Abbasi", "Əhsənüt-təvarix" və "Xülasətüt-təvarix" kimi mənbələr üzərində tədqiqatlarını nümunə göstərmək olar[2]. Bu dövrə aid dörd tarixi mənbə fars dilindən Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmuşdur[3]. Azərbaycan türkcəsində yazılmış daha iki Səfəvi qaynağı isə əlyazmalar əsasında ərəb qrafikalı əlifbadan latın qrafikalı əlifbaya çevrilərək yayımlanmışdır[4]. Lakin buna baxmayaraq, bu ənənənin davam etdirilməsinə və əsasən də bu vaxtadək ölkəmizdə tədqiqatlara nisbətən az cəlb olunmuş və lazımi diqqətdən kənarda qalmış bəzi mənbələrin xüsusi olaraq öyrənilməsinə ciddi ehtiyac duyulmaqdadır.

Belə mənbələrdən biri də anonim müəllif tərəfindən yazılmış və başlıca olaraq ilk Səfəvi hökmdarı I Şah İsmayılın fəaliyyətindən bəhs edən "Tarix-i aləmara-yi Şah İsmayıl" ("Şah İsmayılın dünyanı bəzəyən tarixi") və ya "Tarix-i aləmara-yi Səfəvi"("Səfəvinin dünyanı bəzəyən tarixi") əsəridir ki, bizim

---

[1] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке. Баку, 1981, с.7.

[2] А.А.Рахмани. «Тарих-и алам ара-йи Аббаси» как источник по истории Азербайджана. Баку, 1960; Ş.F.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə). Bakı, 1983: Ş.K.Məmmədova. "Xülasət ət-təvarix"Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991.

[3] Qızılbaşlar tarixi ("Tarix-e qezelbaşan"). Tərcümə və şərhlər M.Ə.Məhəmmədinindir. Bakı, 1993; Şah Təhmasibin təzkirəsi (fars dilindən tərcümə və müqəddimə Ə.H.Rəhimovundur). Bakı, 1996; Şirazi Xacə Zeynalabidin Əli Əbdi bəy. Təkmilətül-əxbar (Səfəvi dövrü – Şah İsmayıl və Şah Təhmasib dövrlərinin tarixi). Fars dilindən tərcümə, müqəddimə və şərhlər: Ə.H.Rəhimli. Bakı, 1996; İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. I cild. Farscadan tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri: O.Ə.Əfəndiyev və N.S.Musalı. Bakı, 2009.

[4] Səfəviyyə padşahları. Transfoneliterasiya edəni: C.Qəhrəmanov; çapa hazırlayanlar və ön sözün müəllifləri: H.Məmmədov və P.Kərimov // "Hikmət" jurnalı, 2004, № 4, s.79-99; Şeyx Səfi təzkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Tərtibçilər və nəşrə hazırlayanlar: M.Nağısoylu, S.Cabbarlı, R.Şeyxzamanlı. Bakı, 2006.

hazırkı araşdırmamız bu mənbənin tədqiqinə və onun əsasında Azərbaycan Səfəvilər dövlətinin I Şah İsmayıl dövründəki (1501-1524) vəziyyətinin öyrənilməsinə yönəldilmişdir. Müxtəlif əlyazma nüsxələri mövcud olan bu əsər iki dəfə İranda nəşr edilmişdir[1]. Bəzi tədqiqatçılar öz əsərlərində bu mənbəyə müəyyən istinadlar etmiş, türkmən tarixçisi O.Ekayev isə XV əsrin sonu – XVI əsrin I yarısında Türkmənistan tarixi ilə bağlı tədqiqatında bu mənbədən əsas qaynaq kimi yararlanmışdır[2]. Lakin son zamanlaradək "Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri Azərbaycan tarixşünaslığında kifayət qədər öyrənilməmiş və Səfəvilərlə əlaqədar olan bir sıra tədqiqatlara cəlb edilməmişdir. Elə I Şah İsmayıl Səfəvinin hakimiyyəti dövrünün adı çəkilən mənbənin materialları əsasında tədqiq edilməsi zərurəti də buradan doğmuşdur. "Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri üzərində aparılan araşdırmalar əcdadlarımızın dövlətçilik ənənələrinin öyrənilməsi baxımından xüsusi aktuallıq kəsb edir. Məmnuniyyət hissi ilə qeyd etməyi özümə borc bilirəm ki, hələ 2002-ci ildə, AMEA Tarix İnstitutunun aspiranturasına yenicə qəbul olunduğum zaman əsərin Y.Şükri tərəfindən hazırlanmış nəşrini görkəmli alimimiz O.Əfəndiyev öz şəxsi kitabxanasından mənə hədiyyə etmiş və bu əsəri tədqiq etməyi məsləhət görmüşdü.

"Tarix-i aləmara-yi Şah İsmayıl" əsərinin mətni dastançılıq ruhundadır, müəllifi isə naməlumdur. Buna baxmayaraq, sözügedən əsər I Şah İsmayılın hökmranlığı zamanına dair yetərincə dolğun məlumat verən nadir mənbələrdən biridir. Bu mənbə, əsasən I Şah İsmayılın hərbi yürüşlərinin və siyasi fəaliyyətinin təsvirinə həsr olunsa da, əsərdə Azərbaycan Səfəvilər dövlətinin daxili vəziyyətinə, ictimai-iqtisadi münasibətlərinə və dövlət quruluşuna dair dəyərli  informasiyalara, ha-

---

[1] Aləmara-yi Şah İsmail (ba müqəddime-yo təshih-o təliq-i Əsğər Müntəzir Sahib). Tehran, 1349, 31+708 s. – bundan sonra: Aləmara (Sahib); Aləmara-yi Səfəvi (be kuşiş-i Yədullah Şükri). Tehran, 1350, 55+688 s. – bundan sonra: Aləmara (Şükri).

[2] О.Экаев. Туркменистан и туркмены в конце XV – в первой половине XVI века (по данным «Алам ара-и Сефеви»). Ашхабад, 1981.

belə qonşu dövlətlər – Osmanlılar, Məmlüklər, Teymurilər və Şeybanilərlə əlaqədar məlumatlara da təsadüf olunur.

Oxucuların müzakirəsinə təqdim olunan hazırkı monoqrafiyanın başlıca məzmunu "Tarix-i aləmara-yi Şah İsmayıl" əsərinin Azərbaycan tarixinə dair mənbə kimi əhəmiyyətinin üzə çıxarılmasından və həmin mənbənin o dövrün digər qaynaqları ilə müqayisəsi əsasında, habelə müasir tədqiqat əsərlərindən faydalanmaqla I Şah İsmayılın hakimiyyəti zamanının işıqlandırılmasından ibarətdir. Monoqrafiyada bu vaxta qədər Azərbaycan Səfəvilər dövlətinin tarixinə dair xüsusi tədqiqat obyekti olmamış yeni bir mənbə kompleks şəkildə araşdırılmış və onun əsasında I Şah İsmayıl dövrünün hərbi-siyasi tarixi, sosial-iqtisadi vəziyyəti, idarəçilik məsələləri və s. problemləri haqqında bir sıra yeni müddəalar irəli sürülmüşdür.

Mənbənin öyrənilməsi və dəyərləndirilməsi zamanı zahiri və daxili tənqid üsulları tətbiq olunmuşdur. Zahiri tənqid üsulu əsasında əsərin tanıdıcı ünsürləri təsbit edilmiş, qaynağın adı, yazılma tarixi və yeri, orijinallığı, əlyazma nüsxələri müəyyənləşdirilmiş, onun müəllifinin kimliyi haqqında mülahizələr yürüdülmüşdür. Mənbənin elmi dəyərini müəyyənləşdirmək üçün daxili tənqid üsulundan istifadə edilmiş, müəllifin əsərdə əksini tapmış düşüncələri və onun təsvir etdiyi hadisələr bu üsul əsasında tənqid və təhlil olunmuşdur[1].

Mənbəşünaslıq nəzəriyyəsinə əsasən, mənbənin verdiyi tarixi məlumatların, təsvir etdiyi hadisələrin araşdırılması prosesi aşağıdakı mərhələlərdə aparılmışdır: 1) "heuristique" – bu mərhələ mənbədə mövzu ilə əlaqədar lazımi tarixi məlumatların üzə çıxarılmasını və toplanmasını ehtiva edir; 2) "critique" – mənbədəki məlumatların yoxlanmasını, onun digər qaynaqlarla müqayisəsini və tənqid süzgəcindən keçirilməsini əhatə edir; 3) "herméneutique" – mənbənin yorumlanmasın-

---

[1] Zahiri və daxili tənqid üsulları haqqında bax: M.Kütükoğlu. Tarih araştırmalarında usûl. İstanbul, 1991, s.28-35; Leon E. Halkin. Tarih tenkidinin unsurları. Ankara, 2000, s.23-24.

dan, idrak edilməsindən və dəyərləndirilməsindən ibarətdir[1]. Yəni mənbəşünas tarixçi müəyyən bir mövzu üzərində tədqiqat apararkən mənbədəki lazımi məlumatları toplamaq, yoxlamaq və anlamaq məcburiyyətindədir.

Monoqrafiya üç fəsildən ibarətdir. ***«"Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri və onun xüsusiyyətləri»*** adlanan birinci fəsildə mənbənin ümumi strukturundan, üslubi səciyyəsindən, əlyazma nüsxələrindən, elmi baxımdan dəyərləndirilməsindən bəhs edilmiş, məxəzin öyrənilməsi tarixinə nəzər salınmış, onun yazılma vaxtı aydınlaşdırılmış, mənbə mətnindəki faktlar əsasında anonim müəllifin etnik mənsubiyyəti, sosial statusu, təhsili və dünyagörüşünün səviyyəsi öyrənilmiş, onun öz əsərini yazarkən istifadə etdiyi mənbələr müəyyənləşdirilmişdir.

İkinci fəsil ***«I Şah İsmayılın hərbi-siyasi fəaliyyəti»*** mövzusunu əhatə edir. Əsərin bu hissəsində Səfəvi nəslinin əcdadları haqqında məlumat verilir, I Şah İsmayılın Azərbaycan Səfəvilər dövlətinin qurulması və möhkəmləndirilməsi uğrunda apardığı mübarizə mərhələlərlə şərh olunur, onun xarici siyasətdə qarşısına qoyduğu məqsəd və prinsiplər göstərilir, qonşu dövlətlərlə münasibətləri xarakterizə edilir, Şah İsmayıl Xətainin hərbi-siyasi xadim kimi şəxsiyyətinə mənbənin məlumatları əsasında qiymət verilir. Bu fəsildə həmçinin I Şah İsmayılın bir sıra hərbi-siyasi planlarının mahiyyəti açıqlanmış və onun bütün dövlətçilik fəaliyyətinin dövrləşdirilməsinə təşəbbüs edilmişdir. Müharibələrin gedişi, I Şah İsmayılın yürüşlərinin marşrutu və döyüşlərdəki qüvvələr nisbəti ilə bağlı müəyyən məsələlər dəqiqləşdirilmiş, ilk dəfə olaraq bəzi diplomatik yazışmaların məzmunu verilmiş, bir sıra tarixi hadisələrin məğzi, səbəb və nəticələri göstərilmişdir. I Şah İsmayılın həyatı və şəxsiyyəti, həmçinin onun müasirləri olmuş bəzi görkəmli tarixi şəxsiyyətlər haqqında yeni məlumatlar üzə çıxarılaraq, elmi dövriyyəyə daxil edilmişdir.

Monoqrafiyanın üçüncü fəsli ***«I Şah İsmayılın hakimiyyəti dövründə dövlət quruluşu məsələləri və ictimai-iqtisadi***

---

[1] Leon E. Halkin. Tarih tenkidinin unsurları, s.3,23. Həmçinin bax: И.А.Булыгин, Л.Н.Пушкарев. Источниковедение // СИЭ, т. VI, Москва, 1965, с. 592-601.

***münasibətlər»*** adını daşıyır. Bu son fəsildə Azərbaycan Səfəvilər dövlətinin xarakteri, ərazisi və əhalisi, əsaslandığı ideologiya, dövlət aparatındakı bir sıra vəzifələr və onların daşıyıcıları, qızılbaş ordusunun quruluşu və say tərkibi, hakim zümrələr, ölkənin iqtisadi həyatı haqqında məlumat verilmiş, Qarabağ bəylərbəyiliyinin yaradılmasına dair yeni faktlar üzə çıxarılmış, bəzi vergi növlərinin təyinatına aydınlıq gətirilmişdir.

Tədqiq etdiyimiz mənbənin adını qısaca olaraq "Aləmara" adlandırmağı məqsədəuyğun hesab etmişik. Farsca əsərlərin adları orijinalda səsləndikləri kimi deyil, Azərbaycan dilinə uyğunlaşdırılmış şəkildə transkripsiya edilmişdir.

Tarixi gerçəkliklərin üzə çıxarılması prinsipi əsas götürülərək, araşdırılan mənbənin o dövrün digər tarixi məxəzləri ilə müqayisəsinə xüsusi diqqət yetirilmişdir. Buna görə də monoqrafiya hazırlanarkən "Aləmara"nın nəşrləri və əlyazma nüsxələri ilə yanaşı, digər qaynaqlara da istinad edilmişdir.

Tədqiqat zamanı Səfəvi sülaləsinin zamanında yazılmış bir sıra farsdilli tarixi mənbələrdən istifadə olunmuşdur[1]. Bunlardan ən qədimi İbn Bəzzaz Ərdəbilinin Şah İsmayılın ulu babası Şeyx Səfiəddinin həyatına həsr etdiyi **"Səfvətüs-səfa"** ("Saflığın saflığı", 1358) əsəridir[2]. XVI əsr mənbələrindən Əli ibn Şəmsəddin Lahicinin **"Tarix-i xani"** ("Xanın tarixi"), İbrahim Əmininin **"Fütuhat-i şahi"** ("Şahın fəthləri"), Qiyasəddin Xandəmirin **"Tarix-i həbibüs-siyər fi-əxbar əfrad-i bəşər"** ("Bəşər fərdlərinə dair xəbərlər haqqında tərcümeyi-hal dostunun tarixi"), şərti olaraq "Şah İsmayılın anonim tarixi" adı ilə tanınan və Bicən adlı müəllif tərəfindən yazıldığı güman edilən **"Cahangüşa-yi xaqan-i sahibqiran"** ("Uğurlu ulduz qovuşması zamanı doğulmuş xaqanın dünyanı tutması"), Mir Yəhya Qəzvininin **"Lübbüt-təvarix"** ("Tarixlərin cövhəri"), Əmir Mah-

---

[1] Kitabımızın fəsillərində bir sıra mənbələrə istinadlar verilərkən bu əsərlərin sadəcə adları yazılacaqdır. Onların hansı nəşrlərindən və əlyazmalarından yararlandığımızı öyrənmək üçün ədəbiyyat siyahısına müraciət edə bilərsiniz.

[2] Biz bu əsərin AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda A-253/6047 şifrəsi ilə mühafizə olunan "Mənaqib-i Şeyx Səfi Ərdəbili" adlı əlyazma nüsxəsindən istifadə etmişik. Bax: Əlyazmaları kataloqu (Azərbaycan SSR EA Respublika Əlyazmaları Fondu). I c. Tərtibçi: M.Sultanov. Bakı, 1963, s.204.

mud ibn Xandəmirin **“Tarix-i Şah İsmayıl və Şah Təhmasib”** (“Şah İsmayılın və Şah Təhmasibin tarixi”), Şah İsmayıl Xətainin oğlu Sam mirzə Səfəvinin **“Töhfe-yi Sami”** (“Samın töhfəsi”), Qazı Əhməd əl-Qəffari əl-Qəzvininin **“Tarix-i cahanara”** (“Dünyanı bəzəyən tarix”) və ya “Nüsəx-i cahanara” (“Dünyanı bəzəyən nüsxələr”), Zeynalabidin Əli Əbdi bəyin **“Təkmilətül-əxbar”** (“Xəbərlərin təkmili”), Budaq Münşi Qəzvininin **“Cəvahirül-əxbar”** (“Xəbərlərin inciləri”), Həsən bəy Rumlunun **“Əhsənüt-təvarix”** (“Tarixlərin ən yaxşısı”) və Qazı Əhməd Quminin **“Xülasətüt-təvarix”** (“Tarixlərin xülasəsi”) adlı əsərləri istifadə etdiyimiz ilkin qaynaqlar sırasındadırlar.

“Aləmara” XVII yüzillikdə yazıldığı üçün paralellər aparmaq məqsədi ilə həmin əsrdə yazılmış tarixi mənbələrə də müraciət edilmişdir. Bunlar naməlum müəllifin **“Tarix-i qizilbaşan”** (“Qızılbaşlar tarixi”), Məlik Şah-Hüseyn Sistaninin “**Tarix-i ihyaül-müluk”** (“Hökmdarların canlandırılmış tarixi”), Mirzə bəy Cünabədinin **“Rövzətüs-Səfəviyyə”** (“Səfəvilər bağçası”), İsgəndər bəy Münşi Türkmanın **“Tarix-i aləmara-yi Abbasi”** (“Abbasın dünyanı bəzəyən tarixi”), Şeyx Hüseyn Zahidinin **“Silsilətün-nəsəb-i Səfəviyyə”** (“Səfəvilərin nəsil şəcərəsi”), Mirzə Məhəmməd Məsumun **“Tarix-i səlatin-i Səfəviyyə”** (“Səfəvi sultanlarının tarixi”) adlı əsərlərindən ibarətdirlər. Həmçinin II Şah Abbasın zamanına (1642-1666) aid iki qaynağa da nəzər salınmışdır. Bu iki əsərin Səfəvilərə dair hissələri İ.Dehqan tərəfindən **“Do kitab-i nəfis əz mədarek-i əvvəliyye-yi tarix-i Səfəviyan”** (“Səfəvilər tarixinin ilkin qaynaqlarından iki nəfis kitab”) adı altında yayımlanmışdır.

Səfəvilərin dövlət quruluşu məsələlərini araşdırarkən “Aləmara”da işlənmiş bəzi istilahların izahı üçün XVIII əsrin 20-ci illərində farsca yazılmış daha iki mənbəyə – Məhəmməd Rəfi Ənsarinin **“Dəsturül-müluk”** (“Hökmdarlar üçün təlimat”) və Mirzə Səmianın **“Təzkirətül-müluk”** (“Hökmdarlar üçün təzkirə”) əsərlərinə müraciət edilmişdir.

Səfəvilər dövründən sonra, XIX əsrdə yaşamış bəzi azərbaycanlı müəlliflər tərəfindən farsca yazılmış qaynaqlar – Abbasqulu ağa Bakıxanovun **“Gülüstan-i İrəm”** (“İrəm gülüstanı”), Hacı Zeynalabidin Şirvaninin **“Riyazüs-səyahə”** (“Səya-

hət bağları") və Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin **"Xeyrat-i hesan"** ("Gözəllər sərvəti") əsərləri də diqqətimizdən kənarda qalmamışdır.

Farsdilli mənbələrlə yanaşı, Səfəvilərə dair bəzi türkdilli qaynaqlardan da bəhrələnmişik. Şeyx Səfiəddin Ərdəbiliyə aid edilən **"Qara məcmuə"** əsəri, "Səfvətüs-səfa"nın 1542-43-cü illərdə Mövlana Məhəmməd ibn Hüseyn Katib Nişati tərəfindən **"Şeyx Səfi təzkirəsi"** adı ilə Azərbaycan türkcəsinə edilmiş tərcüməsi, I Şah İsmayılın şeirlərindən ibarət **"Xətai külliyatı",** Sadıq bəy Əfşarın **"Məcməül-xəvas"** təzkirəsi və 1733-cü ildə yazılmış **"Səfəviyyə padşahları"** əsəri, **"Kitab-i Dədə Qorqud"** və **"Koroğlu"** dastanları da araşdırdığımız dövrün müxtəlif cəhətləri haqqında təsəvvür yaratmağa və Səfəvi zamanını anlamağa kömək edən qaynaqlar sırasındadırlar.

Dövrün həqiqətlərini daha obyektiv surətdə dərk etmək üçün Səfəvilərlə sıx təmasda olmuş sülalə və dövlətlərə aid digər farsdilli tarixi mənbələrdən də yararlanmışıq. XV əsr Ağqoyunlu tarixçilərindən Əbu-Bəkr Tehraninin **"Kitab-i Diyarbəkriyyə"** ("Diyarbəkr kitabı") və Fəzlullah ibn Ruzbehan Xuncinin **"Tarix-i aləmara-yi Əmini"** ("Əmininin dünyanı bəzəyən tarixi") əsərlərinə istinad etmişik. Tədqiqat zamanı həmçinin XVI əsrin Mərkəzi Asiya tarixçilərinin salnamələrinə – Böyük Moğollara aid mənbələrdən Mirzə Məhəmməd Heydər Duqlatın yazdığı **"Tarix-i Rəşidi"** ("Rəşidi tarixi") və Əllami Əbülfəzl ibn Mübarəkin qələmə aldığı "**Əkbərnamə" və ya "Tarix-i Əkbəri"** ("Əkbərin tarixi") əsərlərinə, Şeybanilər sülaləsinin təəssübkeşi olan müəlliflərdən isə Hafiz Taniş Buxarinin **"Şərəfname-yi şahi"** ("Şahın şərəf kitabı") adlı kitabına – müraciət edilmişdir.

Osmanlı türkcəsində XVI yüzillikdə yazılmış mənbələrdən İbn Kamalın (Kamal Paşazadənin) **"Təvarix-i Al-i Osman"** ("Osmanlı sülaləsinin tarixləri"), Xoca Sədəddin Əfəndinin **"Tacüt-təvarix"** ("Tarixlərin tacı")[1], Lütfi paşanın **"Təvarix-i**

---

[1] Bu əsərin tariximiz üçün əhəmiyyəti haqqında bax: T.R.Cəfiyev. Azərbaycan feodal dövlətləri XV-XVI əsrin I rübündə (Xoca Sədəddin Əfəndinin "Tacüt-təvarix" əsəri əsasında). T.e.n. avtoreferatı. Bakı, 2007.

**Al-i Osman"** əsərləri, XVII əsrdə təlif edilmiş salnamələrdən isə Qoca Hüseyn Əfəndinin **"Bədayəül-vəqayə"** ("Heyrətamiz hadisələr")[1] və Mehmed Solakzadənin **"Tarix"** əsərləri mövzumuz üçün əhəmiyyət daşıyan qaynaqlardandırlar. Həmçinin Ankara Milli Kitabxanasından aşkarladığımız və Əli adlı bir müəllif tərəfindən Sultan III Mustafa dövründə (1757-74) yazıldığını güman etdiyimiz **"Zühur-i dövlət-i Səfəviyan"** ("Səfəvilər dövlətinin zühuru") adlı əlyazmadan bəhrələnmişik. XVI əsrdə Osmanlı müəlliflərinin farsca yazdıqları mənbələrdən isə Mövlana Məhəmməd Ədayi Şirazinin **"Səlimnamə"**, İdris Bidlisinin **"Səlimşahnamə"** və Şərəf xan Bidlisinin **"Şərəfnamə"** əsərləri araşdırmalarımız zamanı diqqətimizi cəlb etmişdir.

Avropa mənbələrindən XV əsrin sonları – XVI əsrin I yarısında Azərbaycanda olmuş venesiyalıların **(Katerino Zeno, Ciovan Mario Anciolello, anonim tacir, Mikele Membre)** səfərnamələrindən[2], Portuqaliya elçilik heyəti tərkibində 1524-cü ildə Azərbaycana gəlmiş **Antonio Tenreiro**nun yol qeydlərindən[3], "Aləmara" müəllifinin müasiri olmuş, XVII əsrin 60-70-ci illərində şərqə səyahət etmiş fransız səyyahı **Jan Şarden**in səyahətnaməsindən faydalanmışıq. Avropada "Don-Juan" ləqəbi ilə tanınmış azərbaycanlı **Oruc bəy Bayat**ın kitabı da nəzərimizdən yayınmamışdır.

Gürcü mənbələri arasından Parsadan Qorqicanidze tərəfindən XVII əsrin son onilliyində İsfahanda yazılmış **"Gürcüstan tarixi"**ni, Paris Milli Kitabxanasında aşkar edildiyi üçün **"Paris xronikası"** adlandırılan və 1373-1683-cü illərdə Gürcüstanda baş vermiş hadisələri əks etdirən anonim bir gürcü

---

[1] Müəllif və onun əsəri haqqında bax: C.C.İsmayılov. Osmanlı tarixçisi Hüseyn və onun "Bədayəül-vəqayə" əsəri haqqında // Elmi Araşdırmalar, VI/1-2, 2004, s.183-187.

[2] M.Membrenin səyahətnaməsi O.Əfəndiyev tərəfindən tərcümə edilmişdir. Bu mənbənin tariximiz üçün əhəmiyyəti Ə.S.Quliyev tərəfindən öyrənilmişdir: XVI əsrin ortalarında Azərbaycan Səfəvilər dövlətinin ictimai-siyasi vəziyyəti (M.Membrenin "Səyahətnamə"si əsasında). T.e.n. avtoreferatı. Bakı, 2007.

[3] S.Özbaran. Portekizli seyyahlar İran, Türkiye, Irak, Suriye ve Mısır yollarında. İstanbul, 2007, s.31-68,155-165.

salnaməsini, Vaxuşti Baqrationinin (1696-1757) **"Gürcü çarlığının tarixi"** və David Baqrationinin (1767-1819) **"Gürcüstan tarixi"** əsərlərini gözdən keçirmişik. Bir çox qüsurlu cəhətlərinə və məzmunlarındakı təhriflərə baxmayaraq, tədqiqat zamanı XVII əsr erməni tarixçiləri Təbrizli Arakelin **"Tarixlər kitabı"** və Zakari Kanakertsinin **"Xronika"** əsərlərindən, həmçinin XV əsr tarixçisi Foma Metsopskinin **"Teymurləngin və onun xələflərinin tarixi"** adlı kitabından bəzi gərəkli faktlar götürülmüşdür[1].

Səfəvi tarixi ilə bağlı respublikamızda və xarici ölkələrdə çap olunmuş sənədlərə də nəzər salınmışdır[2].

Eyni zamanda, müasir tədqiqat əsərlərindən, xüsusən də **Azərbaycan alimlərindən** O.Əfəndiyev, Ə.Rəhmani, M.Heydərov, S.Aşurbəyli, İ.Hüseynov, M.Abbaslı, Ə.Məmmədov, T.Musəvi, S.Onullahi, Ə.Rəcəbli, Ş.Fərzəlibəyli, Y.Mahmudov, S.Məmmədov, M.Qasımlı, H.Zərinəzadə, R.Məmmədova, Ş.Məmmədova, Ş.Mustafayev, F.Hüseyn, X.Qasımov, T.Nəcəfli, R.Ağayev, Z.Bayramov, S.Əhmədov, Ə.Quliyev, **Rusiya şərqşünaslıq məktəbinin yetirmələrindən** V.Bartold, A.Krımski, V.Minorski, İ.Petruşevski, M.İvanov, P.Petrov, **Türkiyə araşdırmaçılarından** F.Sümer, İ.H.Uzunçarşılı, F.Kırzıoğlu, T.Yazıcı, A.Y.Ocak, T.Gündüz, R.Kılıç, Ö.F.Teber, M.Çelenk, R.Yıldırım, **İran tədqiqatçılarından** N.Fəlsəfi, Ə.Tahiri, M.N.Şeybani, Ə.Vilayəti, Ə.Tacbəxş, H.Mircəfəri, M.K.Yusif-Cəmali, Y.Rəhimli, **gürcü tarixçilərindən** K.Kutsiya və N.Gelaşvili, **Orta Asiya alimlərindən** S.Əzimcanova, O.Ekayev, X.Kamolov, A.Dexkurdi, N.Atıqayev, **Qərb ölkələrinin tədqiqatçılarından** V.Hinz, E.Broun, R.Seyvori, H.R.Roemer, K.M.Rohrborn, A.Allouç, A.Lambton, A.Morton,

---

[1] Səfəvi tarixindən bəhs edən erməni mənbələrinin kobud yanlışlıqlara yol verdikləri V.Minorskinin diqqətini cəlb etmişdir: В.Ф.Минорский. Смерть султана Йакуба // Ф.Р.Хунджи. Тарих-и аламара-йи Амини. Баку, 1987, с.154.

[2] T.M.Musəvi. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVIII əsrlər). Bakı, 1977; Azərbaycan tarixi üzrə qaynaqlar (Tərtibçilər: S.S.Əliyarov və b.). Bakı, 1989; Ə.Nəvai. Şah İsmail-i Səfəvi: əsnad o mükatibat-i tarixi həmrah ba yaddaştha-yi təfsili. Tehran, 1347; E.Şeyxül-Hükəmayi. Fihrist-i əsnad-i büqe-yi Şeyx Səfiəddin Ərdəbili. Tehran, 1387.

Ş.A.Quinn, J.L.Bake-Qramon, E.Qlassen, **yapon şərqşünası** M.Haneda və digərlərinin araşdırmalarından istifadə edilmişdir.

Tədqiqat işinin ərsəyə gəlməsində öz müdrik məsləhətləri ilə daim mənə yol göstərmiş və özünün zəngin şəxsi kitabxanasından yararlanmağıma şərait yaratmış elmi rəhbərim, Azərbaycan səfəvişünaslıq məktəbinin banisi, Tarix İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü, Prof. Dr. Oqtay Əfəndiyevə dərin minnətdarlığımı bildirirəm.

Bu əsər hələ dissertasiya şəklində olarkən onu diqqətlə oxuyub, öz dəyərli təklif və məsləhətlərini məndən əsirgəməyən mərhum şərqşünas tarixçi Prof. Dr. Vaqif Piriyevin əziz xatirəsi önündə baş əyirəm.

Tədqiqat işinə verdiyi rəy və tövsiyələrə görə AMEA Əlyazmalar İnstitutunun "Farsdilli əlyazmaların tədqiqi" şöbəsinin böyük elmi işçisi Dr. Rəna Məmmədovaya minnətdarlıq edirəm. Doqquz il birlikdə çalışdığım AMEA Tarix İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsinin kollektivinə dəstək və təkliflərindən dolayı təşəkkürlərimi çatdırıram.

Bəzi çətin tapılan ədəbiyyatları böyük lütfkarlıqla mənə təqdim etdiklərinə görə AMEA Tarix İnstitutunun əməkdaşları Prof. Dr. Şahin Fərzəlibəyliyə, Dr. Xeyirbəy Qasımova, Dr. Tofiq Nəcəfliyə, Dr. Əhməd Quliyevə, Dilavər Əzimliyə, Mübariz Ağalarova, AMEA Əlyazmalar İnstitutunun əməkdaşları Aynurə Əliyevaya və Elxan Quliyevə, AMEA Folklor İnstitutunun Xarici Əlaqələr Bölməsinin müdiri Əli Şamil bəyə, AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun əməkdaşı Dr. Nazim Hüseynova, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun böyük elmi işçisi Dr. Şamil Nəcəfova, Xəzər Universitetinin müəlliməsi Dr. Zivər Hüseynovaya, AMEA Ədəbiyyat İnstitutunun dissertantı Qədim Qubadova, ABŞ-ın Ohayo Universitetinin Tarix Departamentinin əməkdaşı Associate-Professor Şoleh Alisiya Quinnə, İranın Tehran Universitetinin Arxeologiya Müəssisəsinin baş mütəxəssisi Ustad Emadəddin Şeyxül-Hükəmayiyə, ABŞ-ın Virciniya Universitetinin Orta Şərq və Cənubi Asiya Dilləri və Mədəniyyətləri Departamentinin müəllimi

Assistant-Professor Əli Rza Korangi İsfahaniyə, Türkiyənin Kocaeli Universitetinin Fən-Ədəbiyyat Fakültəsinin müəllimi Doç. Dr. Gencay Zavotçuya, Tbilisi Dövlət Universitetinin Qafqaz və Şərq Araşdırmaları Mərkəzinin işçisi Levan Kaçaravaya sonsuz təşəkkürlərimi yetirirəm.

Həmçinin apardığım araşdırmalar zamanı xidmətlərindən istifadə etdiyim AMEA mərkəzi kitabxanasının, Əlyazmalar İnstitutunun kitabxanasının, Tarix İnstitutunun elmi arxivinin, Azərbaycan Respublikası Prezident Kitabxanasının, M.F.Axundov adına Dövlət Kitabxanasının, Bakı Dövlət Universitetinin kitabxanasının, Qafqaz Universitetinin kitabxanasının, Ankara Milli Kitabxanasının, Türkiyə Cümhuriyyəti Yüksək Öyrətim Kurulu kitabxanasının, İran İslami Şura Məclisi kitabxanasının və Gürcüstan Parlament Kitabxanasının əməkdaşlarına təşəkkür edirəm.



Şah İsmayılın Əbülxeyr xanı öldürməsi
(Rza Abbasi Muzeyinə məxsus
“Aləmara” nüsxəsindən bir miniatür,
vər. 280a)

# I FƏSİL

## “TARİX-İ ALƏMARA-Yİ ŞAH İSMAYIL” ƏSƏRİ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ



Mazandarandakı Övlad qalası ətrafında
Səfəvi və Çəlavi qoşunları arasında döyüş
(İslami Şura Məclisi kitabxanasına məxsus
635 saylı "Aləmara" nüsxəsindən bir fraqment,
vər. 45a)

## 1.1. ƏSƏRİN ÜSLUBU, ƏLYAZMA NÜSXƏLƏRİ VƏ NƏŞRLƏRİ

### *A) Üslubi özəllikləri*

Səfəvilər zamanında yazılmış istər ümumi tarix səciyyəsi daşıyan əsərlərdə (məsələn, Qiyasəddin Xandəmirin "Tarix-i həbibüs-siyər", Budaq Qəzvininin "Cəvahirül-əxbar" əsərində və s.), istərsə də sülalə tarixi xarakterinə malik salnamələrdə (məsələn, Mirzə bəy Cünabədinin "Rövzətüs-Səfəviyyə", İsgəndər bəy Münşinin "Tarix-i aləmara-yi Abbasi" əsərində və s.) I Şah İsmayılın hakimiyyəti dövrü bu və ya digər dərəcədə öz əksini tapsa da, xüsusi olaraq Şah İsmayılın tarixinə həsr olunmuş cəmi üç narrativ mənbə məlumdur. Bunlar İbrahim Əmininin "Fütuhat-i şahi", Bicən adlı bir tarixçinin "Cahangüşa-yi xaqan-i sahibqiran" (bu əsər daha çox anonim "Tarix-i Şah İsmayıl" adı ilə məşhurdur) və naməlum bir müəllif tərəfindən qələmə alınmış "Tarix-i aləmara-yi Şah İsmayıl" (və yaxud "Tarix-i aləmara-yi Səfəvi") əsərləridir. İlk iki mənbənin müəllifləri I Şah İsmayılın müasirləri olmuş və öz əsərlərini rəsmi saray tarixçiliyi üslubunda yazmışlar[1].

"Aləmara" zaman etibarilə ilk iki mənbədən xeyli sonra, h. 1086-cı / m. 1675-76-cı ildə qələmə alınsa da (əsərin yazılış tarixinin necə müəyyənləşdirilməsi barədə aşağıda bəhs olunacaqdır), bir çox baxımdan diqqəti cəlb edir. Bu, ənənəvi feodal salnaməçiliyi üslubunda deyil, fars dilinin sadə danışıq tərzində, həm də xeyli sayda türkcə kəlmələr işlədilməklə, bir neçə müstəsna halları nəzərə almasaq, hadisələrin baş verdiyi konkret il, ay və günlər göstərilmədən, lakin xronoloji ardıcıllığa riayət edilməklə, hekayətlər formasında yazılmış epik əsərdir. Digər mənbələrdən götürülmüş bəzi hissələr istisna olmaqla, əsərin dili çox sadə və yüngüldür. Hadisələr dastansayağı və canlı bir üslubda təsvir edilir, tarixi hadisələrin iştirakçıları olan şəxslər arasında dialoqlara, hərbi əməliyyatların gedişi və digər hadisələr haqqında ətraflı şərhlərə rast gəlinir. Əsərdə tez-tez dastan və nağıllarda işlədilən ifadələrə, məsə-

---

[1] Bu mənbələr haqqında bax: О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке. Баку, 1981, с.8-15.

lən, keçid formulalarına[1] təsadüf olunur: *"Onları əylənməkdə və ov etməkdə qoy, bir neçə kəlmə Misir padşahı Sultan Qansudan eşit"; "Elçi yolda getməyində olsun, sən eşit xanın göndərdiyi adamdan"; "O getmək fikrində olsun, siz isə həzrət şahdan eşidin"* və s. Burada xalq arasında populyar olan deyimlərə və zərb-məsəllərə geniş yer verilmişdir: *"Aman vermək mərd adamın işidir"; "Əyan olan işə bəyan nə lazım?!"; "Hər yoxuşun bir enişi də var"; "On dərviş yerləşər bir kilimə, iki padşah sığışmaz bir iqlimə"; "Yaxşıya yaxşılıq düşər, pisə də pislik"* və s. Bu xüsusiyyətləri ilə yanaşı, sözügedən əsər tarixi mənbə kimi də əhəmiyyətlidir.

Qeyd etməliyik ki, "Aləmara" Səfəvilər zamanına aid olan heç də yeganə dastansayağı tarixi əsər deyildir. Bu səpkidə daha bir neçə kitab məlumdur: bunlardan biri Səfəvilər sülaləsinin tarixinə dair müxtəlif hekayətlərin yer aldığı "Tarix-i Səfəviyan" ("Səfəvilərin tarixi") əsəridir ki, Hindistanda tərtib olunmuşdur və həmədanlı Ağa Qasım Bürnanın şəxsi kitabxanasına məxsusdur; digəri h. 930-963 / m. 1524-1556-cı illərin hadisələrini əhatələyən və I Şah Təhmasibin hakimiyyətindən bəhs edən dastanvari tarixdir ki, hal-hazırda Tehrandakı Məclis kitabxanasında mühafizə olunur; başqa bir əsər isə Mir Mülayim bəy İsmayıl Hüseyni Mərəşi Təbrizi tərəfindən Səfəvilər sülaləsinin tarixinə dair "əfsanəvi və naqilanə tarix üslubunda" yazılmış olan bir mənbədir ki, Tehrandakı Məlik Milli kitabxanasında saxlanılmaqdadır[2]. 1638-ci ilin yazında Şamaxı sakini olan azərbaycanlı müəllif tərəfindən qələmə alınan və I Şah İsmayılın zamanından yazıldığı vaxta qədərki Səfəvi tarixini əhatə edən bir əsər də bu kateqoriyaya aid olunmaqdadır[3]. Bu

---

[1] Bax: Azərbaycan ədəbiyyatı tarixi. I c. Bakı, 2004, s.234.

[2] Nüsxəha-yi xətti (zir-i nəzər-i M.T.Daneşpəjuh və İ.Əfşar), dəftər-i V, Tehran, 1346, s.372-373; Ч.А.Стори. Персидская литература: био-библиографический обзор в трех частьях (перевел с английского, переработал и дополнил Ю.Э.Брегель). Москва, 1972, с.903-904 (bundan sonra: Ч.А.Стори, Ю.Э.Брегель. Персидская литература).

[3] Həmin əlyazma Səfəvilər dövlətinə gəlmiş alman diplomatı A.Oleari tərəfindən Almaniyaya aparılmışdır və indi Berlində saxlanılır: G.Rota. Three Little-Known Persian Sources of the Seventeenth Century // Iranian Studies, 31/2, 1998, p.164-169.

tipli narrativlər, əsasən Herat salnaməçilik məktəbinin ənənələrini davam etdirən rəsmi Səfəvi tarixçilərinin əsərlərinə alternativ olaraq meydana gəlmiş və xalq arasında populyarlıq qazanmışdı[1]. Səfəvi dövrünün bu cür alternativ tarixi əsərlərindəki hekayətlər ədəbi nöqteyi-nəzərdən Herat salnaməçilik məktəbinin nümunələri qədər nəfis olmasalar da, istər dinləyicilərdə, istərsə də oxucularda daha çox həyəcan və entuziazm oyadırdılar[2].

"Aləmara"nın əsas mahiyyəti I Şah İsmayılın hərbi-siyasi fəaliyyətinin və qəhrəmanlıqlarının işıqlandırılmasından ibarətdir. Əsərin əvvəlində Şah İsmayılın 13-cü əcdadı Firuzşah Zərrinkülahdan başlayaraq Səfəvi əcdadlarının ömür yolu qısaca şərh edilir, daha sonra I Şah İsmayılın həyat və fəaliyyətinin geniş təsviri öz əksini tapır, onun uşaqlıq illəri, hakimiyyətə gəlməsi, çoxsaylı yürüşləri, hərbi əməliyyatları və siyasi-diplomatik gedişləri xeyli ətraflı təsvir edilir. Burada I Şah İsmayılın hərbi-siyasi fəaliyyəti ilə bağlı kifayət qədər dolğun məlumat öz əksini tapmış, həmçinin Azərbaycan Səfəvilər dövlətinin daxili ictimai-iqtisadi vəziyyəti və dövlət quruluşu ilə əlaqədar informasiyalar da yer almışdır. Əsərdə Səfəvi xanədanına, xüsusən də Şah İsmayıla böyük rəğbət duyulur, o, *"mürşid-i kamil"* ("mükəmməl dini rəhbər"), *"zillullah fil-ərzi"* ("Allahın yer üzündəki kölgəsi"), *"xələf-i dudman-i vilayət"* ("peyğəmbər sülaləsinin xələfi"), *"şəhriyar-i kişvər-i imamət"* ("imamət ölkəsinin hökmdarı"), *"xaqan-i Süleyman-şən"* ("Süleyman şanlı xaqan"), *"xaqan-i İsgəndər-şən"* ("İsgəndər şanlı xaqan"), *"şəhriyar-i islam"* ("islam hökmdarı"), *"şəhriyar-i dövran"* ("dövrün hökmdarı"), *"nəvvab-i giytisitan"* ("dünyanı tutan hökmdar"), *"nəvvab-i əşrəf"* ("şərəfli hökmdar"), *"vəlinemət-i aləmiyan"* ("dünya sakinlərinin vəlineməti"), *"nəvvab-i cahanbani"* ("dünyanı qoruyan hökmdar"), *"padişah-i aləm-pənah"* ("dünyanın pənahı olan padşah"), *"əbül-müzəffər və əbül-*

---

[1] Sh.A.Quinn. Historiography of Safavid Period // Encyclopaedia Iranica. New York, 2004, vol. 12.

[2] B.D.Wood. The "Tarikh-i Jahanara" in the Chester Beatty Library: an illustrated manuscript of the "Anonymous Histories of Shah Isma'il" // Iranian Studies, 37/1, 2004, p.92.

*mənsur”* (“zəfər və qalibiyyət sahibi”), *“Şah İsmayıl Bahadır xan”* deyə yad olunur. Mənbədə qızılbaş sərkərdələrinin və döyüşçülərinin qəhrəmanlıqları da böyük bir şövqlə mədh edilir. Fanatik şiə təəssübkeşliyi ruhunda yazılmış bu əsərdə Şah İsmayılın və onun döyüşçülərinin qılınc gücünə şiəliyi yayması, bəzi əsir düşmüş rəqiblərin “Əliyyən-vəliyyullah” deyərək şiəliyi qəbul etməsi qürurla yad olunur. Müəllif sünnilərə qarşı kəskin mövqe nümayiş etdirir və Şah İsmayılın düşməni olan şəxsləri *“müşrik”, “xarici”, “münafiq”, “namərd”, “nakəs”* adlandırır.

Mütəxəssislər tarixi əsərləri yazılış tərzinə görə üç əsas qrupa ayırırlar: 1) hekayəçi (rəvayətçi) tarix; 2) öyrədici (praqmatik) tarix; 3) araşdırıcı tarix[1]. Biz “Aləmara”nı bu qrupların birincisinə aid edə bilərik.

### *B) Əlyazma nüsxələri və nəşrləri*

“Tarix-i aləmara-yi Şah İsmayıl” əsərinin avtoqraf variantı günümüzə gəlib çatmasa da, katiblər tərəfindən köçürülmüş bir sıra əlyazma nüsxələri üzə çıxarılmışdır[2].

Birinci nüsxə İran alimi Dr. Hüseyn Miftahın Tehrandakı şəxsi kitabxanasında aşkar edilmişdir. Bu nüsxə Şapur Gürci adlı bir katib tərəfindən qeyri-mükəmməl nəstəliq xətti ilə köçürülmüşdür. Fəsil başlıqları qırmızı tuşla yazılmışdır. Əlyazmanın kağızı noxudu rəngdədir, cildi dəridəndir. Ölçüsü 31 x 21 sm-dir. 412 səhifə həcmində olan əlyazmanın hər səhifəsində 19 sətir vardır.

Başlanır: نسبنامه شاه جنت مکان و فردوس آشیان شاه عباس ماضی غازی...

Bitir: ... مدفون نمودند و غریق رحمت حق سبحانه و تعالی گردید

[1] M.Kütükoğlu. Tarih araştırmalarında usûl. İstanbul, 1991, s.5-9.

[2] “Aləmara”nın bəzi əlyazma nüsxələri haqqında ilk dəfə AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun 23-24 sentyabr 2004-cü ildə təşkil etdiyi elmi konfransda məruzə etmişik: N.S.Musalı. “Tarix-i aləmara-yi Şah İsmayıl” əsərinin əlyazma nüsxələri // Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri (IX Respublika elmi konfransının materialları). Bakı, 2004, s.203-208. Hazırkı monoqrafiyada nüsxələr barədə bir sıra məlumatlar əlavə edilmiş, yeni aşkarlanmış nüsxələrin təsviri verilmişdir.

Nüsxə haqqında ilk dəfə M.T.Daneşpəjuh h.ş. 1346-cı (1967/68) ildə Tehranda nəşr edilmiş "Əlyazma nüsxələri" kataloqunun V cildində məlumat vermişdir[1]. Y.Şükri isə bu nüsxəni "Aləmara-yi Səfəvi" sərlövhəsi altında ayrıca kitab şəklində nəşrə hazırlamış və h.ş. 1350-ci (1971/72) ildə çap etdirmişdir. Nüsxənin sonundakı katib kolofonunda əsərin köçürülməsinin ayı və günü qeyd edilsə də, ili pozulmuşdur: *"Bu kitab Allahın izni ilə, Əmirülmöminin şiələrinin qədəmlərinin torpağı olan fəqirül-həqir Şapur Gürci tərəfindən ? ilinin rəbiülaxir ayının 12-də, yekşənbə günü köçürülüb tamamlanmışdır"*[2]. Əlyazmanın kətəbə hissəsindən bəlli olur ki, bu nüsxənin katibi gürcü mənşəli olub, islamın şiəlik cərəyanını qəbul etmiş bir şəxsdir. O, öz üçbucaqlı kolofonunun hər iki yan tərəfində çəpəki formada beytlər yazmışdır[3]. Lakin əsəri köçürərkən çoxsaylı hərf səhvlərinə yol verməsi və xətt üslubunun qüsurlu olması onun peşəkar bir katib olmadığını göstərir. Əlyazmanın köçürülmə tarixi silinsə də, Y.Şükri kağızın və yazının növünə əsasən bu nüsxənin əsərin nüsxələri içərisində ən qədimi olduğunu bildirmiş və orijinaldan köçürüldüyünü iddia etmişdir[4].

"Aləmara"nın Hüseyn Miftaha məxsus olmuş ikinci nüsxəsi haqqında ilk dəfə Y.Şükri məlumat verərək[5], "Aləmara-yi Səfəvi" əsərinin nəşri zamanı bir çox hallarda əsas nüsxə ilə bu nüsxəni müqayisə etmiş və əsas nüsxədə bəzi səhifələr itirildiyindən, nəşrdəki 534-589-cu səhifələrin yerini ikinci nüsxənin köməyi ilə doldurmuşdur. Bəhs olunan əlyazma Məhəmməd Mehdiqulu Sultan Nurinin göstərişi ilə Əli Rza ibn Mahmudcan əl-Bəhbəhani tərəfindən h. 1234-cü ilin rəbiüssani ayının 8-də (4 fevral 1819) tamamlanmışdır. Nüsxənin həcmi 326 səhifə, ölçüsü 30 x 20 sm-dir. Hər səhifədə 21 sətir vardır. Ustadanə

---

[1] Nüsxəha-yi xətti, dəftər-i V, s.372-373.
[2] Aləmara (Şükri), s.601.
[3] Nüsxənin katibi Şapur Gürcinin farsca şeiri və onun tərcüməsi:

| | |
|---|---|
| "Bunu yazdım ki, qoy qalsın yadigar, | "این نوشتم تا بماند یادگار |
| Mən qalmayım, xəttim qalsın ruzigar. | من نمانم خط بماند روزگار |
| Hər oxuyandan bir dua umaram, | هر که خواند دعای طمع دارم |
| Çünki mən bir bənde-yi günahkaram". | ز آنکه من بنده گنه کارم" |

[4] Aləmara (Şükri), müqəddimə, s.21,24.
[5] Aləmara (Şükri), müqəddimə, s.30-34.

və mükəmməl nəstəliq xətti ilə yazılmış, dəri cildə tutulmuşdur. Başlıqlar qırmızı rəngdədir.

Başlanır:

اما راویان اخبار و ناقلان آثار و طوطیان شکر شکن شیرین گفتار چنین آورده اند که...

Bitir: ... والتسعة المعصومین من ذریة الحسین علیه و علیهم السلام

Hal-hazırda bu əlyazma İranın İslami Şura Məclisi kitabxanasında 761 şifrəsi ilə mühafizə edilməkdədir və onun fotosurəti tərəfimizdən əldə edilmişdir[1].

Əsərin üçüncü nüsxəsi əslən azərbaycanlı (təbrizli) olan və Şirazda yaşayan İran alimi Əsgər Müntəzir Sahibə məxsus olmuş və bu haqda ilkin olaraq o, h.ş. 1344-cü ilin fərvərdin (1965-ci ilin mart-aprel) ayında Tehranda nəşr olunan bir jurnalda məlumat vermişdir[2]. Bu nüsxə Həsən ibn Məhəmməd Cəfər əl-Musəvi tərəfindən Mirzə Məsumun oğlu Mirzə İbrahim üçün h. 1240-cı ilin zilqədə ayının 20-də (1825-ci il iyulun 6-da) köçürülüb tamamlanmışdır. Y.Şükrinin müəyyənləşdirdiyinə görə, bu nüsxə eyniylə ikinci nüsxədən köçürülmüşdür[3]. Ölçüsü 28 x 19 sm-dir, həcmi 424 səhifədən ibarətdir. Hər səhifədə 19 sətir vardır. Pardaqlanmış sarımtıl kağızlar üzərinə nəstəliq xətti ilə köçürülmüş əlyazma qəhvəyi rəngli dəri cildə tutulmuşdur. Fəsillərin sərlövhələri qırmızı xətlə yazılmışdır.

Başlanır:

اما راویان اخبار و ناقلان آثار و طوطیان شکر شکن و شیرین گفتار چنین آورده اند که...

Bitir: ... ان شاء الله تعالی از چشم بدان در حفظ و حمایت ملك منان بوده باشد

H.ş. 1349-cu (1970/71) ildə həmin nüsxə “Aləmara-yi Şah İsmayıl” adı altında Ə.M.Sahib tərəfindən çap edilmişdir.

Əsərin dördüncü nüsxəsi ilahiyyat və fəlsəfə yönümlü Ali Sipəhsalar Mədrəsəsinin kitabxanasında mühafizə olunur. Bu əlyazma haqqında ilk məlumat İbn-Yusif Şirazi tərəfindən həmin mədrəsənin kataloqunun III cildində 1514 saylı nüsxə kimi

---

[1] Monoqrafiyanın müəyyən yerlərində bu nüsxəyə müraciət etmişik. Bundan sonra: Aləmara (Məclis kitabxanası – 761).

[2] Ə.M.Sahib. “Tarix-i aləmara-yi Şah İsmail” // Məcəlle-yi “Yəğma”, XVI/1, 1344, s.34-36.

[3] Aləmara (Şükri), müqəddimə, s.35-37.

verilmişdir[1]. Nüsxənin katibinin adı qeyd olunmur, köçürülmə tarixi kimi "129" göstərilir və aydındır ki, burada rəqəmlərdən biri əksini tapmamışdır. Qeyd edək ki, bu cür qüsur bir sıra orta əsr əlyazmalarına xasdır[2]. Tədqiqatçılar rəqəm artırmaq yolu ilə nüsxənin köçürülmə tarixini bərpa etməyə cəhd göstərmişlər. Belə ki, İ.Y.Şirazi bunun h. 1029-cu (1619/20) il ola biləcəyinə işarə etmişdir. Lakin əsərin özü h. 1086-cı (1675/76) ilə aid olduğu üçün bu cür izahat əsassızdır. Məhz bu səbəbdən Ə.M.Sahib əsərin köçürülmə tarixini h. 1129-cu (1716/17) ilə, Y.Şükri isə h. 1209-cu (1794/95) ilə aid etmişdir[3]. Nüsxənin ölçüsü 29 x 20 sm-dir, həcmi 241 vərəqdən ibarətdir. Hər səhifədə 15 sətir vardır. Nəstəliq xətti ilə Avropa istehsalı olan ağ kağıza köçürülmüş, qara rəngli dəri cildə tutulmuşdur. Bu əlyazmada da başlıqlar qırmızı tuşla yazılmışdır. Əlyazmanın ilk səhifələri itirilmişdir.

Başlanır:

لاعلاج خود را به قافله رسانید تا بگویم که به خدمت آن شهریار خواهد رسید...

Bitir:

... شاه طهماسی را آوردند در دارالسلطنه تبریز بر تخت نشاندند والسلام علیکم فی ۱۲۹

Ə.M.Sahib "Aləmara-yi Şah İsmayıl" kitabının nəşrində bəzi dəqiqləşdirmələr üçün bu nüsxəyə müraciət etmişdir[4].

"Aləmara"nın beşinci nüsxəsi İranın Mazandaran vilayətindəki Sari şəhərində fəaliyyət göstərən ədəbi əncümənin sədri Seyid Məhəmməd Tahiri Şihaba məxsus olmuş və o, bu haqda ilk dəfə 1969-cu ildə bir məcmuədə məlumat vermişdir[5]. Nüsxə h. 1126-cı ilin zilhiccə ayında (8 dekabr 1714 – 6 yan-

---

[1] İ.Y.Şirazi. Fihrist-i kitabxane-yi Mədrəse-yi Ali-yi Sipəhsalar (kütüb-i xətti-yi farsi və ərəbi). Tehran, 1318-1321, III c., s.298.

[2] Bax: Əlyazmaları kataloqu (Azərbaycan SSR EA Respublika Əlyazmaları Fondu). I c. Tərtibçi: M.Sultanov. Bakı, 1963, s.5-6.

[3] Aləmara (Sahib), müqəddimə, s.26; Aləmara (Şükri), müqəddimə, s.38.

[4] Aləmara (Sahib), s.133,135,144,255,281,287,296,326,413,432,612.

[5] Məcəlle-yi "Rəhnüma-yi kitab", 1348, XII/7-8; bax: Aləmara (Sahib), müqəddimə, s.26-27; Aləmara (Şükri), müqəddimə, s.38; Ч.А.Стори, Ю.Э.Брегель. Персидская литература, с.1468.

var 1715) köçürülmüşdür[1]. 364 səhifədən ibarətdir və hər səhifədə 21 sətir vardır, əvvəldən bir neçə səhifə düşmüşdür.

Başlanır:

حکایت سید جبرئیل: سید جبرئیل خلق را به راه راست تعلیم می داد...

Bitir:

... در تاریخ نهصد و سی فوت شد، تمام شد تاریخ مرحوم شاه اسمعیل بهادر خان
رحمة الله علیه بتاریخ شهر ذی الحجة الحرام سنه ۱۱۲٦ برحمتك یا ارحم الراحمین

Altıncı nüsxə əvvəllər Vəhidülmülk Şeybaniyə məxsus olmuş, lakin İ.Əfşarın 1965-ci ildə verdiyi məlumata görə, onun ölümündən sonra itirilmişdir[2]. Hələ 1950-ci illərdə bu nüsxədən istifadə etmiş N.Fəlsəfi həmin əlyazma haqqında bəzi məlumatlar vermişdir: "Aləmara-yi Şah İsmayıl" – Ağa Müin Müsəvvirin çəkdiyi 25 miniatürə malik çox nəfis bir əlyazma nüsxəsidir ki, I Şah Abbasın padşahlığının 15-ci ilində, hicri-qəməri 1010-cu ilin rəbiüləvvəl (1601-ci il sentyabr) ayında yazılmışdır, ağa-yi Vəhidülmülk Şeybaninin kitabxanasına məxsusdur"[3]. "Aləmara"nın özü h. 1086-cı (1675/76) ilə aid olduğu üçün N.Fəlsəfinin göstərdiyi istinsax tarixi şübhə doğurur. Yəqin ki, burada da, Ali Sipəhsalar nüsxəsində olduğu kimi, köçürülmə tarixində yanlışlığa yol verilmişdir. Çünki nüsxədə adı çəkilən Ağa Müin Müsəvvirin yaradıcılığı XVII əsrin ortalarına və ikinci yarısına aiddir. O, əsası Rza Abbasi tərəfindən qoyulan İsfahan miniatür məktəbinin davamçılarından olmuş, yaradıcılığa XVII əsrin 30-cu illərində, Şah Səfi zamanında (1629-1642) başlamış və II Abbasın hakimiyyəti dövrü (1642-1666) onun yaradıcılığında erkən mərhələni təşkil etmişdir. Müinin yaradıcılığının zirvəsi Şah Süleymanın hakimiyyəti illərinə (1666-1694) təsadüf etmiş və sənətkar, adı çəkilən Səfəvi hökmdarının qayğısı ilə əhatə olunmuşdu. İran incəsənətinin tədqiqatçısı olan ingilis alimi B.Qrey onu miniatür sahəsində "XVII əsrin ikinci yarısının ən məhsuldar sənətkarı" hesab

---

[1] Bəhs olunan ilk üç nüsxədə "Aləmara"nın mətni bitdikdən sonra geniş katib kolofonu verilmişdir. Lakin Ali Sipəhsalar Mədrəsəsinin və M.T.Şihabın nüsxələri bu xüsusiyyətdən məhrumdurlar və onlarda sadəcə köçürülmə tarixi qeyd olunmuşdur.

[2] Məcəlle-yi "Yəğma", XVIII/1, 1344, s.34.

[3] N.Fəlsəfi. Zindəgani-yi Şah Abbas-i Əvvəl. I c. Tehran, 1334, s.240.

edir. 1689-94-cü illər Müinin yaradıcılığının son dövrüdür[1]. Heç şübhəsiz ki, Müinin bəzədiyi həmin nüsxə "Aləmara" yazıldıqdan az sonra köçürmüşdür. Buna görə də biz N.Fəlsəfinin əlyazmanın köçürülmə tarixi kimi təqdim etdiyi h. 1010-cu il tarixini qəbul etmirik və bu nüsxənin h. 1100 (1688/89) və ya h. 1101-ci (1689/90) ildə köçürüldüyü fikrini irəli sürürük. Buradan belə nəticəyə gəlirik ki, həmin əlyazma "Aləmara"nın ən qədim nüsxələrindən biridir.

Apardığımız axtarışlar nəticəsində, uzun müddət itkin düşmüş bu əlyazma nüsxəsinin taleyini aydınlaşdıra bildik və onun tapıldığını müəyyənləşdirdik. Belə ki, bu nüsxə yoxa çıxdıqdan bir müddət keçdikdə Mehdi Məhbubiyanın Nyu-Yorkdakı şəxsi kolleksiyasına daxil olmuş, daha sonra isə yenə də İrana qaytarılaraq, Nigaristan Muzeyinin mülkiyyətinə verilmişdir. İrandakı islam inqilabından sonra "Aləmara"nın bu nüsxəsi Nigaristan Muzeyindən Rza Abbasi Muzeyinə nəql edilmişdir. O, hal-hazırda Tehrandakı Rza Abbasi Muzeyinin birinci mərtəbəsindəki kalliqrafiya qalereyasının 12-ci stendində 600 №-li eksponat kimi nümayiş etdirilir[2]. Əlyazma 353 vərəqdən ibarətdir, gözəl nəstəliq xətti ilə köçürülmüşdür, ölçüsü 35,5 x 21,5 sm-dir, hər səhifəsində 15 sətir vardır. Nüsxəni tədqiq etmiş Robert Eng də onu h. 1010-cu ilə aid etməyin yanlış olduğunu bildirmiş və əlyazmanın köçürülməsinin h. 1100-cü ilin rəbiüləvvəl ayının ortalarında / m. 1689-cu ilin yanvar ayında tamamlandığını göstərmişdir. R.Engin məlumatından aydın olur ki, nüsxə M.Məhbubiyanın ixtiyarına keçməzdən öncə onun bir neçə miniatürü naməlum şəxslər tərəfindən qoparıla-

---

[1] The Cambridge History of Iran, vol. VI, 1986, p.310,900,902,903. Müinin miniatürləri ilə bəzədilmiş "Şahnamə" əlyazması İrlandiyanın Dublin şəhərindəki Çester Bitti kitabxanasında saxlanır. Onun fırçasından çıxmış "Əjdahaların bir kişiyə hücumu" (Britaniya Muzeyi, 1676), "İnəyin sağılması" (Berlin Muzeyi, 1681) kimi rəsmlər, həmçinin Rza Abbasinin iki portreti (XVII əsrin 70-ci illəri) və s. sənət nümunələri məşhurdur. O, həmçinin Sadıq bəy Əfşarın yarımçıq qalmış "Teymur xan Türkmanın portreti" əsərini 1684-cü ildə tamamlamışdır və bu rəsm Sankt-Peterburqdakı Şərq Əlyazmaları İnstitutunda mühafizə edilir.

[2] Bu barədə muzeyin rəsmi internet saytında məlumat verilmişdir: www.rezaabbasimuseum.org.

raq, Parisdəki kolleksiyaçılara satılmışdır. Buna görə də hal-hazırda nüsxədə 25 deyil, cəmi 21 miniatür vardır (bu miniatürlərin siyahısına və onlardan bəzi örnəklərə kitabımızın "Əlavələr" hissəsində yer verilmişdir)[1].

"Aləmara"nın İranda aşkar edilmiş yeddinci nüsxəsi Əhməd Xan-Məlik Sasaninin şəxsi kitabxanasına məxsus olmuşdur. Bu əlyazma haqqında elmi ictimaiyyəti məlumatlandıran İ.Əfşar və M.T.Daneşpəjuh kitabın paleoqrafik xüsusiyyətləri barədə ətraflı informasiya vermirlər və nüsxənin h. 1239-cu (1823/24) ildə Mahmudcan ibn Məhəmməd Əli Bəhbəhani tərəfindən nəstəliq xətti ilə köçürüldüyünü göstərməklə kifayətlənirlər[2]. Bu nüsxənin katibinin yuxarıda bəhs etdiyimiz H.Miftaha məxsus ikinci nüsxənin köçürücüsü Əli Rza ibn Mahmudcan əl-Bəhbəhaninin atası olduğu şübhə doğurmur.

Əsərin səkkizinci nüsxəsinin İngiltərənin İndia-ofis kitabxanasında saxlandığını Y.E.Bregelin bilgiləri əsasında öyrəndik[3]. Bu nüsxə barədə daha öncə 1903-cü ildə həmin kitabxananın fars əlyazmaları kataloqunu hazırlamış Herman Ethe 536 saylı əlyazma kimi məlumat vermiş və bu əsərin Avropanın digər kitabxanalarında başqa nüsxəsinin olmadığını qeyd etmişdi[4]. Müxtəlif katiblər tərəfindən nəstəliq xətti ilə köçürülmüş bu əl-

---

[1] R.Engin məqaləsi və "Aləmara"nın həmin 21 miniatürü üçün bax: www.persianconnection.com/persianpainting/MoinMsM/index.html
İnternet saytlarından birində Müin Müsəvvir tərəfindən çəkilmiş və şəxsi kolleksiyaya məxsus olan iki miniatür nümayiş etdirilir. Bunlar vaxtı ikən "Aləmara"nın hansısa nüsxəsi daxilində yer almış və daha sonra əlyazma kitabının içindən çıxarılmış miniatürlərdir. Həmin miniatürlərdə Səfəvi elçisi Qənbər ağanın Ağqoyunlu Sultan Muradın sarayına gəlişi və Şah İsmayılın Xuzistan hökmdarı Sultan Fəyyazı öldürməsi mövzuları təsvir edilmişlər (www.christies.com). Yenə də Müin Müsəvvirin fırçasının məhsulu olan və Şah İsmayılın Əbülxeyr xanı öldürməsini əks etdirən bir miniatür də vardır ki, bu da əvvəllər "Aləmara"nın naməlum nüsxələrindən birini bəzəmişdir. İndi ABŞ-ın Smitson İnstitutunun Asiya İncəsənəti Muzeyinə məxsus olan (www.asia.si.edu) bu rəsm internetdə xüsusi bir populyarlıq qazanmışdır. Son miniatür haqqında həmçinin bax: The Great Empires of Asia. Ed. by J.Masselos. University of California Press, 2010, p.139.

[2] Nüsxəha-yi xətti, dəftər-i V, s.114,372.

[3] bax: Ч.А.Стори, Ю.Э.Брегель. Персидская литература, с.1467.

[4] H.Ethe. Catalogue of Persian Manuscripts in the Liberary of the India Office. London, 1980, p.213.

yazmanın həcmi 312 vərəqdir. Nüsxənin əvvəli və axırı naqisdir. Ölçüsü 8 1/8 x 5 ¼ düyüm[1] olan bu əlyazma "Tarix-i İsmayıl" adı ilə İndia-ofis kitabxanasında No.1877 şifrəsi altında mühafizə olunur. Əsərin öz mətni 305b vərəqində bitir:

... شاه طهماسب بهادر خان خلد الله ملکه را آوردند در دارالسلطنة تبریز بر تخت نشاندند

Son vərəqlərdə isə Səfəvilər sülaləsinə dair xronoloji və şəcərəvi cədvəllər verilir.

2006-cı ildə "Aləmara" ilə bağlı dissertasiya işimizi müdafiə edərkən yalnız yuxarıda sadaladığımız nüsxələr barədə məlumata malik idik. Lakin son zamanlarda bu əsərin bəzi digər nüsxələrinin mövcudluğunu müəyyənləşdirmişik və onların elmi-paleoqrafik təsvirini təqdim edirik.

Doqquzuncu nüsxə Tehran şəhərində yerləşən İran İslami Şura Məclisinin kitabxanasında 9421 şifrəsi ilə mühafizə edilir. Əsər kitabxananın kataloquna "Mürşidnamə" adı ilə daxil edilməsinə baxmayaraq, apardığımız tekstoloji müqayisələr bunun "Aləmara" nüsxələrindən biri olduğunu aşkara çıxardı[2].

Əlyazma naməlum bir katib tərəfindən təhriri nəstəliq xətti ilə qələmə alınmışdır. Sərlövhələr qırmızı rəngdədir. Bəzi yerlərdə sərlövhələrin yeri boş buraxılmışdır. Bir çox səhifələr qırmızı və qara xətlərlə haşiyəyə alınmışdır. Paleoqrafik xüsusiyyətlərinə görə bu nüsxəni h. XII / m. XVIII əsrə aid etmək mümkündür. Əlyazma kitabının ölçüsü 26 x 18 sm-dir. Vərəqlərin nömrələnməsi zamanı yanlışlığa yol verilməsi üzündən əlyazmanın son vərəqi 178-ci vərəq kimi qeydə alınsa da, əslində nüsxə 177 vərəqdən ibarətdir. Bunun səbəbi odur ki, 46-cı vərəq səhvən 47-ci vərəq kimi nömrələnmişdir. Halbuki mətnin həmin yerində (45-ci və 47-ci vərəqlər arasında) ardıcıllıq pozulmamışdır. Nüsxənin sonuna qədər bu yanlış paginasiyaya riayət edilmişdir. Hər səhifədə əsas etibarilə 18 sətir vardır. Mətndə bəzi boşluqlar nəzərə çarpır (məsələn, 3-4-cü

[1] Düyüm – 23 mm-ə bərabər uzunluq vahidi.
[2] Nüsxənin tam fotosurəti ixtiyarımızdadır və monoqrafiyanın bəzi yerlərində ona istinad edilmişdir. Bundan sonra: Aləmara (Məclis kitabxanası – 9421).

və 36-37-ci vərəqlər arasında). Əlyazmanın əvvəli və sonu naqisdir[1].

Başlanır:

صاحبقران بمرد خدای افتاد دید که از جانب قبله سیاه پوشی رسید...

Bitir: ...امیر خان از واهمه در ده منزلی هرات رسید بخان

"Aləmara"nın onuncu nüsxəsi də İslami Şura Məclisinin kitabxanasına məxsusdur və orada 635 şifrəsi ilə saxlanmaqdadır. H. XII / m. XVIII əsrə aid olan bu əlyazmanın ölçüsü 29 x 19 sm-dir, 176 vərəqdən ibarətdir və nəstəliq xətti ilə yazılmışdır. Hər səhifəsində 21 sətir vardır. Bu nüsxədə 15 miniatür mövcuddur (kitabımızın "Əlavələr" bölümünə baxın)[2]. Əlyazma kitabının başlanğıcında "Aləmara"ya aid olmayan farsca şeirlər vardır və əsərin öz mətni 2b vərəqindən etibarən qələmə alınmışdır.

Başlanır:

اما راویان اخبار و ناقلان آثار و طوطیان شکر شکن شیرین گفتار چنین آورده که...

Bitir: ...خواجه جلال الدین که بعد از میرزا شاه حسین بمنصب وزارت دیوان

Apardığımız müqayisələr onu göstərdi ki, Məclis kitabxanasındakı 9421 saylı nüsxə "Aləmara"nın Y.Şükri nəşrinin mətninə yaxın olduğu halda, 635 saylı əlyazma daha çox Ə.M.Sahibin nəşrinin mətni ilə bənzərlik təşkil edir.

Əsərin on birinci nüsxəsi İrlandiyanın Dublin şəhərindəki Çester-Bitti kitabxanasında "Tarix-i cahanara-yi Şah İsmayıl Bahadır xan" adı ilə mühafizə olunur. İngilis şərqşünası B.D.Vud bir neçə il öncə bu əlyazmanı tədqiq edərək, onun "Aləmara" nüsxələrindən biri olduğunu müəyyənləşdirmişdir[3]. Bu əlyazma adı çəkilən kitabxanada MS. Per. 278 şifrəsi ilə qorunur. 245 vərəqdən ibarət nüsxə Möhtəşəm İsfahani tərəfindən nəstəliq xətti ilə köçürülmüş, düşənbə günü, 6 səfər 1094 / 4 fevral 1683-cü ildə tamamlanmışdır. Bu sözlərlə başlayır:

---

[1] Н.С.Мусалы. О малоизвестной рукописи по истории шаха Исмаила I «Мюршид-наме» // «Модернизация и традиции»: XXVI Международная конференция по источниковедению и историографии стран Азии и Африки (тезисы докладов). Санкт-Петербург, 2011, с.62-63.

[2] Bu miniatürlərin hamısının və nüsxənin bəzi digər vacib fraqmentlərinin fotosurətlərini əldə etmişik.

[3] B.D.Wood. The "Tarikh-i Jahanara", p.89-107.

آورده اند که چون مفترض الطاعه واجب الاسماع امام موسی الکاظم...

Dublin nüsxəsinin sonunda II Şah Abbasa qədər Səfəvi şahları haqqında qısa məlumatlar əksini tapmışdır. Beləliklə, aydın olur ki, İndia-ofis kitabxanasına məxsus əlyazma "Aləm-ara"nın Avropadakı yeganə nüsxəsi deyildir.

Əsərin Dublin nüsxəsi 18 miniatürlə bəzədilmişdir (kitabımızın "Əlavələr" bölümünə baxın). B.D.Vud öz məqaləsinin sonunda bu illüstrasiyaların yeddisini nümunə kimi təqdim etmiş və onlarda Avropa rəssamlığının müəyyən təsirinin duyulduğuna diqqət çəkmişdir[1]. Fəqət o, Dublin nüsxəsini "Aləm-ara"nın yeganə rəsmli nüsxəsi hesab etməklə səhvə yol vermişdir. Çünki, yuxarıda qeyd etdiyimiz kimi, "Aləmara"nın rəsmlərlə bəzədilmiş daha iki nüsxəsi vardır ki, bunlar Tehrandakı Rza Abbasi Muzeyində və İslami Şura Məclisinin kitabxanasında saxlanılırlar. Həmçinin ABŞ-ın Hyuston şəhərindəki "Art and History Trust" adlı bir kolleksiyada "Aləmara"nın Müin Müsəvvirin ardıcıllarından biri tərəfindən illüstrasiyalarla bəzənmiş dağınıq və natamam bir nüsxəsi (ölçüsü: 36 x 23,3 sm) aşkara çıxarılmışdır (on ikinci nüsxə)[2].

Sadaladığımız əlyazmalardan savayı, B.D.Vud Hindistanın Heydərabad şəhərindəki Salar Cüng Muzeyində MS. Hist. 167 şifrəsi ilə qorunan, şikəstə xətti ilə köçürülmüş, 25 cəmadiyül-axir 1104 / 19 fevral 1693-cü ildə bitirilmiş "Təvarix-i İsmailiyyə" adlı nüsxəni də "Aləmara"nın variantlarından biri hesab edir (on üçüncü nüsxə)[3].

Göründüyü kimi, hal-hazırda ABŞ-ın, Avropa və Asiya ölkələrinin müxtəlif kitab fondlarında və kolleksiyalarında "Aləm-ara"nın 13 əlyazma nüsxəsinin, həmçinin bu əsərə aid ayrı-ayrı fraqmentlərin olduğu məlumdur.

Artıq qeyd etdiyimiz kimi, "Aləmara"nın iki çap variantı vardır. 1971-ci ilin əvvəllərində Ə.M.Sahib özünə məxsus olan nüsxəni "Aləmara-yi Şah İsmayıl" adı altında Tehrandakı "Büngah-i tərcümə və nəşr-i kitab" nəşriyyatının "Farsca mətnlər məcmuəsi" seriyasında 43-cü kitab kimi 2000 tirajla ofset

[1] B.D.Wood. The "Tarikh-i Jahanara", p.99,106-107.
[2] Bax: imagesvr.library.upenn.edu
[3] B.D.Wood. The "Tarikh-i Jahanara", p.104.

üsulu ilə çap etdirmişdir[1]. Əsər mündəricat, geniş müqəddimə, haşiyə qeydləri, şərhlər və göstəricilərlə təchiz edilmişdir. Onun ardınca, elə həmin ilin payızında sözügedən mənbə H.Miftaha məxsus olan nüsxələr əsasında Y.Şükri tərəfindən “Aləmara-yi Səfəvi” adı ilə Tehranda, “Bünyad-i Fərhəng-i İran” nəşriyyatının “İran tarixinin və coğrafiyasının mənbələri” seriyasından 38-ci kitab kimi 1500 tirajla nəşr edilmişdir[2]. Y.Şükri öz müqəddiməsində və şərhlərində bir çox halda Ə.M.Sahibin müddəalarından bəhrələnmişdir. O, mənbəni çapa hazırlamaq üçün iki nüsxədən istifadə etsə də, elmi-tənqidi mətn tərtib etməmiş, əsas etibarilə birinci nüsxəni nəşr etdirmiş, yalnız vacib bildiyi məqamlarda haşiyə qeydlərində ikinci nüsxənin birinci nüsxədən fərqlərini göstərmiş və birinci nüsxənin boşluqlarını ikinci nüsxənin vasitəsilə tamamlamağa çalışmışdır. “Aləmara”nın nəşrləri sayəsində bu əsərin populyarlığı yüksəlmiş və ondan istifadə edən elm adamlarının sayı artmışdır.

Qeyd etməliyik ki, əsərin əlyazma nüsxələri arasında ümumi məzmuna xələl gətirməyən müəyyən fərqlər mövcuddur. Bu fərqlərin katiblər tərəfindən meydana gətirildiyi şübhə doğurmur. Mətnşünas M.Adilov qeyd edir ki, “bir mətnin nə qədər çox nüsxəsi aşkara çıxarılsa, bu nüsxələrdə müəllif mətninin təhrifi ilə əlaqədar interpolyasiyaların sayı da o qədər çox olur; bu halda katiblərin mətndəki ayrı-ayrı sözləri, misra və beytləri, hətta bütöv-bütöv şeirləri və abzasları dəyişdirdiyi aşkara çıxarılır”. Belə ki, “katib çox vaxt həm də mətnşünas olur və buna görə də bir sıra hallarda özündə mətnə müdaxilə etmək səlahiyyəti hiss edirdi”[3].

“Aləmara”nın nəşr edilmiş nüsxələri arasındakı fərqləri bu cür qruplaşdırmaq mümkündür:

1) adi imla fərqləri:

---

[1] Təkrar nəşri 2005-ci ildə Tehrandakı “İntişarat-i elmi və fərhəngi” nəşriyyatında işıq üzü görmüşdür.

[2] Həmin əsər h.ş. 1363-cü (1984/85) ildə Tehranın “İttilaat” nəşriyyatında yenidən çap edilmişdir.

[3] M.M.Adilov. Azərbaycan paleoqrafiyası və tarixi orfoqrafiya məsələləri. Bakı, 2002, s.87-88.

Mənbənin mövcud nəşrləri arasında eyni hadisələrin fərqli cümlələr əsasında təqdim olunması hallarına rast gəlirik. Nümunə üçün Sultan Hüseyn Baraninin Şah İsmayılın hüzuruna elçi göndərməsi əhvalatı ilə bağlı Y.Şükri və Ə.M.Sahib tərəfindən nəşr edilmiş nüsxələr arasındakı fərqlərə diqqət yetirək:

| Y.Şükrinin nəşri, s.55 | Ə.M.Sahibin nəşri, s.51 |
| --- | --- |
| چون شاه از خواب بیدار شد، گفتند: کس از پی شما فرستاده است سلطان حسین بارانی. شاه فرمود که برو و دعا برسان و بگو امروز اندك درد دلی هست مرا با له له ام و جماعت من امروز صحبت می دارند و فردا همه همراه خواهیم آمدن<br><br>Tərcüməsi: “Şah yuxudan oyandıqda dedilər ki, Sultan Hüseyn Barani sizin arxanızca bir nəfər göndərib. Şah buyurdu ki, get və duamızı çatdır və de ki, bu gün bir az ürəyim ağrıyır, lələmlə və camaatımla bu gün söhbət etsin və sabah hamımız birgə gələcəyik”. | و نواب اشرف از خواب بیدار شد، به عرض رسانیدند که فرستاده سلطان حسین آمده است. آن شهریار فرمود که نواب همایون ما را مانعی هست و آمدن ممکن نیست شما امروز با له له و یاران صحبت بدارید که فردا باهم خواهیم بود.<br><br>Tərcüməsi: “Və şərəfli hökmdar yuxudan oyandı. Ərz etdilər ki, Sultan Hüseynin göndərdiyi adam gəlmişdir. O şəhriyar buyurdu ki, zati-alimizin maneəsi vardır və gəlməyimiz mümkün deyildir; siz bu gün lələmlə və dostlarımla söhbət edin ki, sabah birlikdə olacağıq”. |

2) faktlarda və adlarda fərqlər:

Y.Şükrinin nüsxəsində Mazandaran hakimi Hüseyn Kiya Çəlaviyə qarşı əməliyyatda Şah İsmayılın Abdal bəy Qorçubaşının komandanlığı ilə 1500 nəfərlik qüvvəni dağın arxasından düşmənə zərbə vurmağa göndərdiyi yazılsa da, Ə.M.Sahibin nüsxəsində həmin tapşırığın Bayram xan Qaramanlunun başçılıq etdiyi 3 minlik qoşun tərəfindən həyata keçirildiyi qeyd olunmuşdur[1]. Zülqədər bəyliyinin başçısı Əlaüddövlə Bozqur-

---

[1] Aləmara (Şükri), s.95; Aləmara (Sahib), s.119.

dun oğlu Sarı Qaplana qarşı savaş zamanı Hüseyn bəy Lələni ölümdən xilas edən qızılbaş döyüşçüsünün adı Y.Şükrinin variantında Şahrux bəy, Ə.M.Sahibin nəşrində isə Polad bəy kimi yazılmışdır[1].

3) müəyyən hekayətlərin yerlərinin dəyişdirilməsi:

Ə.M.Sahibin nüsxəsində Şah İsmayılın Taclı bəyimlə evlənməsi hekayəti Ağqoyunlu Sultan Murad üzərindəki qələbədən dərhal sonra verilsə də, Y.Şükrinin nüsxəsində həmin əhvalat Bağdadın fəthindən sonraya salınmışdır[2].

4) bir nüsxədə olmayan parçaların digərində verilməsi:

Buna tipik bir nümunə kimi onu göstərmək olar ki, Y.Şükrinin nüsxəsində mövcud olmayan bəzi şeir parçalarına Ə.M.Sahibin nüsxəsində rast gəlmək mümkündür[3]. Y.Şükrinin nüsxəsinin əvvəlində I Şah Abbasın ata və ana tərəfdən nəsəbnaməsi verilsə də[4], Ə.M.Sahibin nüsxəsində həmin hissə mövcud deyildir.

5) müəyyən hadisələrin qısa və ya geniş şərh olunmasındakı fərqlər:

Ə.M.Sahibin nüsxəsində Teymuri sultanı Hüseyn Bayqaranın Şah İsmayıla məktubu tam əks olunsa da, Y.Şükrinin nüsxəsində həmin məktub xeyli ixtisar edilmişdir[5]. İsfəndiyar sultanın başçılıq etdiyi Ağqoyunlu qoşunu ilə qızılbaş əmiri İlyas bəy Halvaçıoğlunun qüvvələri arasında baş vermiş döyüşün gedişi Ə.M.Sahibin nüsxəsi ilə müqayisədə Y.Şükrinin nüsxəsində daha geniş təsvir olunmuşdur[6].

6) struktur fərqləri:

Ə.M.Sahibin nüsxəsi 56 fəsilə bölündüyü halda, Y.Şükrinin nəşri 112 fəsildən ibarətdir. Bunun başlıca səbəbi odur ki, bir sıra hallarda Y.Şükrinin nüsxəsində bir neçə fəsilə ayrılmış əhvalatlar Ə.M.Sahibin nüsxəsində bir fəsil daxilində birləşdirilmişlər. Məsələn, Ağqoyunlu dövlətinin son illərindəki haki-

---

[1] Aləmara (Şükri), s.116; Aləmara (Sahib), s.207.
[2] Aləmara (Sahib), s.80-81; Aləmara (Şükri), s.148-149.
[3] Aləmara (Sahib), s.115-117,121,127,131,139.
[4] Aləmara (Şükri), müqəddimə, s.26-28.
[5] Aləmara (Sahib), s.143-144; Aləmara (Şükri), s.196-197.
[6] Aləmara (Sahib), s.71-72; Aləmara (Şükri), s.75-77.

miyyət çəkişmələri, Şah İsmayılın Ərdəbilə gəlişi, qoşun toplaması, Sultan Hüseyn Barani ilə münaqişəsi və Şirvanı fəth etməsi kimi hadisələr Y.Şükrinin nəşrində 4 fəsil daxilində əksini tapmış, fəqət Ə.M.Sahibin nüsxəsində bu hadisələrin məzmunu və həcmi saxlanılsa da, onlar bir fəsildə cəmləşdirilmişlər[1].

## 1.2. ƏSƏRİN ÖYRƏNİLMƏSİ VƏ DƏYƏRLƏNDİRİLMƏSİ

### *A) "Aləmara"nın tədqiq tarixinə baxış*

Azərbaycan tarixşünaslığında "Aləmara-yi Şah İsmayıl"ın adını ilk dəfə O.Əfəndiyev N.Fəlsəfinin Çaldıran döyüşü ilə əlaqədar məqaləsinə istinadən qeyd etmişdir[2]. Daha sonra M.Abbaslı yenə də N.Fəlsəfinin izahatı əsasında əsərin V.Şeybaniyə məxsus nüsxəsi barədə qısa bilgi vermişdir[3]. Ş.Fərzəlibəyli Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsərindən istifadə etmiş klassik müəlliflər arasında "Aləmara"nın anonim müəllifini də xatırlatmışdır[4]. S.Onullahi, Ş.Məmmədova, Z.Bayramlı, R.Ağayev, Ş.Əhmədov, Q.Şükürov və Z.Hüseynova öz araşdırmalarında bu əsərdən müəyyən dərəcədə bəhrələnmişlər[5]. "Aləmara" bu sətirlərin müəllifi tərəfindən

---

[1] Aləmara (Şükri), s.51-58; Aləmara (Sahib), s.47-54.

[2] О.А.Эфендиев. К некоторым вопросам внутренней и внешней политики шаха Исмаила I // Труды Института Истории АН Азерб. ССР, т. XII, Баку, 1957, с.170.

[3] M.Abbaslı. Şah İsmayıl Xətainin ömür yolu miniatürlərdə. Bakı, 1981, s.10.

[4] Ş.F.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə). Bakı, 1983, s.39. Müəllif digər bir əsərində Səfəvi ordusunun ön dəstəsindən (çərxçilərdən) bəhs edərkən bu mənbəyə müraciət etmişdir: XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı, 2003, s.55.

[5] S.M.Onullahi. Taclı xanım // Azərb. SSR EA-nın Xəbərləri (dil, ədəbiyyat və incəsənət seriyası), 1981, № 1, s.46-47; Ş.K.Məmmədova. "Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991, s.41,50,52,58; Z.H.Bayramlı. Azərbaycan Səfəvilər dövlətinin quruluşu və idarə sistemi. Bakı, 2006, s.22; R.Ə.Ağayev. Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri (XV-XVI əsrlər). Bakı, 2004, s.24,44,77,110; Ş.Ahmedov. Azerbaycan'da Şiîliğ'in yayılma süreci. YDT. Ankara Üniversitesi, 2005, s.6,85,108,109; G.Şükürov. Safevîler'de av geleneğinin oluşumu ve I. Şah İsmail dönemi av merasimleri // Acta Turcica, yıl 1, sayı 1, Ocak 2009,

Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq xüsusi tədqiqat obyektinə çevrilmiş və tariximizin mənbəyi kimi araşdırılmışdır[1].

XX əsrin başlanğıcından etibarən Qərbi Avropa ölkələrinin bir sıra alimləri öz tədqiqatlarında "Aləmara"ya müraciət etmişlər. İngilis şərqşünası H.Beveric "Cahangüşa-yi xaqan"ın London əlyazması üzərində araşdırma apararkən, sözügedən mənbə ilə müqayisə etmək üçün "Aləmara"nın İndia-ofis kitabxanasında saxlanan nüsxəsindən istifadə etmişdir[2]. Həmin nüsxə daha sonralar alman tədqiqatçılarından V.Hinzin, H.Horstun və E.Qlassenin də diqqətini çəkmişdir[3]. Əsərin nəşrlərindən yararlanmış digər avropalı tarixçilər sırasında J.L.Bake-Qramon, Ş.Adl, A.Lambton, A.H.Morton və A.Allouçun adlarını çəkə bilərik[4].

ABŞ tarixçilərindən C.Reyd, M.C.Mak-Kefri, V.Hanevey, Ş.A.Quinn "Aləmara"ya müraciət etmişlər[5]. R.Mak-Çesni ABŞ-

---

s.61; Z.Hüseynova. Təsir-i zəban-i türki dər farsi dər neveşteha-yi tarixi-yi doure-yi Səfəvi (risale-yi doktora). Daneşgah-i Tehran, 1388.

[1] N.S.Musalı. Azərbaycan Səfəvilər dövləti I Şah İsmayılın hakimiyyəti dövründə ("Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). T.e.n. avtoreferatı. Bakı, 2006.

[2] H.Beveridge. The Author of the Life of Shah İsmail Safavi // JRAS, vol. 34, 1902, p.889-895.

[3] W.Hinz. Uzun Hasan ve Şeyh Cüneyd. Ankara, 1992, s.9,16,27,35; H.Horst. Hoga Ali und Timur. Ein Beitrag zur Geschichte der Safawiden // Abhandlungen der Geistes und Sozialwissenschaftlichen Klasse, 1958, № 2, s.41; E.Glassen. Die Frühen Safawiden nach Qazi Ahmad Qumi. Freiburq, 1970, s.62-63,67-68,75,77; E.Glassen. Schah Ismāʼīl, ein Mahdī der anatolischen Turkmenen? // ZDMG, band 121, 1971, s.61-69.

[4] L.Basque-Qrammont et Ch.Adle. Notes sur les Safavides et la Georgie, 1521-1524 (Etudes Turco-Safavides – VIII) // Studia İranica, 1980, t. 9, fasc. 2, p.211-231; A.Lambton. State and Government in Medieval Islam. London, 1981, p.275; A.H.Morton. The Date and Attribution of the Ross Anonymous: Notes on a Persian History of Shah Ismail I // Pembroke Papers I: Persian and Islamic Studies in Honour of P.W.Avery. Cambridge, 1990, p.179-212; A.H.Morton. The Early Years of Shah Ismail in the "Afzal al-tavarikh" and Elsewhere // Safavid Persia: The History and Politics of an Islamic Society. London, 1996, p.27-51; A.Allouche. Osmanlı-Safevî ilişkileri (kökenleri ve gelişimi). İstanbul, 2001, s.59,64-68,100,117,118,120-122.

[5] J.J.Reid. Tribalism and Society in Islamic Iran (1500-1629). California, 1983, p.72,84,142,155,160,173,180-182; M.J.McCaffrey. Čâlderan // Encyc-

da nəşr olunan "İran Ensiklopediyası"nda "Aləmara" ilə bağlı məqalə ilə çıxış etmişdir[1]. O, burada dəyərli fikirlər irəli sürsə də, "Aləmara"da əksini tapmış bir hekayətdə Ağqoyunlu Uzun Həsəni Cəlairi hökmdarı Həsən Büzürglə səhv salaraq, yanlışlığa yol vermişdir. Çünki həmin hekayəti oxuyarkən açıq-aydın görünür ki, burada söhbət Cəlairi Həsən Büzürgdən deyil, Ağqoyunlu hökmdarı Həsən padşah Türkmandan gedir[2].

Səfəvi tarixi mütəxəssislərindən olan ingilisdilli tarixşünaslığın nümayəndəsi R.M.Seyvori əvvəlki tədqiqatlarında "Aləmara"dan istifadə etməsə də, daha sonrakı məqalələrindən birində onun bu əsərə müraciət etdiyini görürük[3].

Keçən əsrin ortalarında İran alimi N.Fəlsəfi "Aləmara"nın V.Şeybaniyə məxsus nüsxəsindən istifadə etmişdir[4]. Ə.Münzəvi farsdilli əlyazmalara həsr etdiyi çoxcildlik kataloqda "Aləmara"ya da yer vermişdir[5]. Öz tədqiqatları zamanı "Aləmara"nın çap variantlarından faydalanmış İran alimləri sırasında H.Mircəfərinin, N.Nadernejadın, Y.Rəhimlinin, Ə.Vilayətinin, M.F.Münfərdin, M.Gülmuğanizadə-Əslin, H.Yusifinin, M.B.Aramın və digərlərinin adlarını çəkmək olar[6]. Bu əsərə tarixi mən-

---

lopaedia Iranica. New York, 1990, vol. 4; W.Hanaway. Iranian Identity // Iranian Studies, vol. 26, 1993, p.150; Sh.Quinn. The Dreams of Shaykh Safi al-Din and Safavid Historical Writing // Iranian Studies, vol. 29, 1996, p.127-142; Sh.Quinn. Notes on Timurid Legitimacy in Three Safavid Chronicles // Iranian Studies, 31/2, 1998, p.157; Sh.Quinn. Rewriting Nimatullahi History in Safavid Chronicles // The Heritage of Sufism, vol. III, Oxford, 1999, p.201-222.

[1] R.McChesney. Alamara-ye Shah Esmail // Encyclopaedia Iranica. New York, 1985, vol. 1, fasc. 8, p.796-797.

[2] Bax: Aləmara (Sahib), s.87-93.

[3] R.Savory. Esmail I Safawi // Encyclopaedia Iranica. New York, 1998, vol. 8

[4] N.Fəlsəfi. Çənd məqale-yi tarixi və ədəbi. Tehran, 1342, s.67-68,77,87.

[5] Ə.Münzəvi. Fihrist-i nüsxəha-yi xətti-yi farsi. VI c. Tehran, 1353, s.4354-4355.

[6] H.Mircəfəri. Tacli xanim – zən-i setizənde-yi Çaldiran // Nəşriyye-yi Daneşkəde-yi Ədəbiyyat və Ülum-i İnsani. Təbriz, 1353, XXVI/112, s.471-473; N.Nadernejad. XVI. asırda İran kaynaklarına göre Osmanlı – Safevî münasebetleri. YDT. Erzurum: Atatürk Üniversitesi, 1986, s.1,17,113,133; Y.Rəhimlu. Ağaz-i səltənət-i Səfəviyan: aşüftəgiha dər rəvayat və təhqiq-i vaqiyyət-i tarixi // Məcəlle-yi Daneşkəde-yi Ədəbiyyat və Ülum-i İnsani-yi Daneşgah-i Firdovsi. Məşhəd, 1372, XVI/2, s.428; Ə.Vilayəti. Şah İsmayıl Səfəvi

bə kimi ən çox müraciət etmiş İran tarixçilərindən biri M.K.Yusif-Cəmalidir. O, Səfəvilər dövlətinin təşkilindən bəhs edən əsəri boyunca "Aləmara"ya xeyli istinadlar vermişdir[1]. Ə.Nəvai "Fars dilində tarixi mətnlər" adlı əsərində "Aləmara"ya bir paraqraf ayırmış, bu əsəri qısaca tanıtdıqdan sonra Şah İsmayılın Osmanlı sərkərdəsi Malqoçoğlunu öldürməsi haqqında hekayəti nümunə kimi oxuculara təqdim etmişdir[2]. K.Əzizi və M.Bəhramnejad isə nəşrə hazırladıqları əsərlərə verdikləri bəzi şərhlərdə "Aləmara"ya əsaslanmışlar[3]. İran tarixşünaslığında bu əsərə maraq getdikcə artmaqdadır. Təbriz Universiteti tərəfindən təşkil olunmuş Səfəvi tarixinə dair beynəlxalq elmi konfransın məqalələr toplusunda bir sıra İran tarixçilərinin "Aləmara" nəşrlərinə istinadlar verdiyinin şahidi oluruq[4].

---

dövründə İranın xarici əlaqələr tarixi. Tehran, 1998, s.415; M.F.Münfərd. Mühacirət-i üləma-yi şiə əz Cəbəlamil be İran dər əsr-i Səfəvi. Tehran, 1377, s. 53,55,56,57,95,99; M.Gülmuğanizadə-Əsl, H.Yusifi. Bastanşinasi və tarix-i hünər-i büqe-yi Şeyx Səfiəddin Ərdəbili. Ərdəbil, 1384, s.293,546; M.B.Aram. Əndişe-yi tarixnigari-yi əsr-i Səfəvi. Tehran, 1386, s.194,204, 234,235,257,265,299,300,345,372.

[1] M.K.Yusif-Cəmali. Təşkil-i doulət-i Səfəvi və təmim-i məzhəb-i təşöyye-yi dəvazdəh-imami be ünvan-i tənha məzhəb-i rəsmi. İsfahan, 1372.

[2] Ə.Nəvai. Mütun-i tarixi be zəban-i farsi. Tehran, 1375, s.171-174.

[3] R.Seyvori. İran-i əsr-i Səfəvi (tərcüme-yi K.Əzizi). Tehran, 1366, s.18,19, 26; Budaq Münşi Qəzvini. Cəvahirül-əxbar (müqəddime-yo təshih-o təliqat-i M.Bəhramnejad). Tehran, 1378, s.112,122.

[4] "Hemayeş-i Səfəviyyə dər güstəre-yi tarix-i İran-zəmin" (Təbriz, 1384) adlanan həmin topluda "Aləmara"ya istinadlar verilmiş məqalələr bunlardır: Ş.P.Xiyavi. Cameəşinasi-yi siyasi-yi peydayeş-i doulət-i Səfəvi: gerayeş-i niyakan-i Şeyx Səfi be ğazigəri dər Azərbaycan, s.111-120; P.T.Azər. Xanədan-i Səfəviyyə və şiəyan-i Gilan, s.120-132; N.T.Hümayun. Əvamil-i tarixi və ənasir-i müqəvvem-i fərhəngi dər təsis-i silsile-yi Səfəvi, s.133-146; C.Səvaqib. Təhəvvülat-i Gürcistan dər əsr-i Səfəviyyə (əz ağaz ta Şah Abbas-i Dovvom), s.175-218; N.Cədidi. Şah-Hüseyn İsfəhani: əz memari ta vəzarət, s.227-244; B.Dehmərdi. Bərrəsi-yi hokumət-i müstəqim-i Səfəvi dər Sistan, s.351-366; M.H.Razənhan. Şuriş-i Məhəmməd Zəman-i Teymuri dər douran-i Şah İsmail-i Səfəvi, s.367-380; Y.Rəhimlu. Təzadha və təarezha-yi saxtar-i hokumət-i Səfəvi, s.405-426; S.Mouliyani. Gürcistan: bohrani-tərin əyalət-i qələmrov-i Səfəvi, s.859-877; M.K.Yusif-Cəmali. Cəng-i Çaldiran və əvamil-i bəruz və peyamədha-yi an bə'd əz sal-i 920 h.q., s.995-1010; H.Mircəfəri. Şuridegan-i Şah İsmail dər Anatoli: dər güzəşte və hal, s.905-916.

İngilis şərqşünası Ç.A.Storinin "Farsca ədəbiyyat: bio-biblioqrafik icmal" əsərini rusca tərcümə etmiş Y.Bregel buraya bir sıra yeni məlumatları, o cümlədən də "Aləmara" haqqında bəzi bilgiləri əlavə etmişdir[1].

Türkmənistan tarixçisi O.Ekayev "Aləmara"nın Y.Şükri tərəfindən hazırlanmış nəşrinin materialları əsasında "XV əsrin sonu – XVI əsrin birinci yarısında Türkmənistan və türkmənlər" adlı monoqrafiya yazmış və orada mənbənin Türkmənistan tarixi ilə əlaqədar müəyyən parçalarının rusca tərcüməsini təqdim etmişdir[2]. O, ilk dəfə olaraq "Aləmara"nın Türkmənistan tarixi baxımından əhəmiyyətini üzə çıxarmışdır. Lakin tədqiqat zamanı O.Ekayevin bəzi qüsurlara yol verdiyi nəzərə çarpır. Əvvəla, o, öz əsərinin adından da göründüyü kimi, "Aləmara"nı Türkmənistanın XV əsrin sonu – XVI əsrin birinci yarısının tarixi üçün mənbə olaraq araşdırdığını bildirir. Halbuki "Aləmara" 1524-cü ilin hadisələrində qurtarır. Deməк, sözügedən mənbə heç də XVI əsrin bütövlükdə birinci yarısını deyil, həmin əsrin yalnız birinci rübünü əhatə edir. İkincisi, O.Ekayev "Aləmara"nın yazılış tarixini XVI əsrə aid etməklə səhvə yol verir. Üçüncüsü, o, "Aləmara"ya və bəzi digər ədəbiyyatlara yanlış istinadlar verir və həmin əsərlərdəki məlumatları təhrif olunmuş şəkildə təqdim edir. Məsələn, O.Ekayevin əsərində "Aləmara" barədə Ç.A.Storinin yuxarıda adı çəkilmiş kitabının rusca nəşrindəki faktlar və I Şah İsmayılın həyat yoldaşı haqqında "Aləmara"nın verdiyi məlumatlar təhrif edilmişdir. Dördüncüsü, O.Ekayev Səfəvi ordusu tərkibindəki türkman tayfasını ya səhvən, ya da bilərəkdən Türkmənistan tayfaları ilə eyniləşdirir[3]. Halbuki Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin idarəçiliyində yer almış türkman boyları Azərbaycan xalqının bir hissəsi olmuş, özlərini Orta Asiya və Osmanlı türklərindən fərqləndirmiş və Azərbaycan türkcəsində

---

[1] Ч.А.Стори, Ю.Э.Брегель. Персидская литература, с.858-859,1467-1468.

[2] О.Экаев. Туркменистан и туркмены в конце XV – в первой половине XVI века (по данным «Алам ара-и Сефеви»). Ашхабад, 1981, с.72-131.

[3] О.Экаев. Туркменистан и туркмены, с.46,63-65.

danışmışlar[1]. Bu məsələlərə monoqrafiyamızın müvafiq bölmələrində aydınlıq gətirəcəyik. O.Ekayevin bu kimi nöqsanlara yol verməsinə baxmayaraq, şübhəsiz ki, onun əsəri "Aləmara"nın bir mənbə kimi tədqiq və təbliğ edilməsində rol oynamış və o, bu mənbəyə dair bir sıra önəmli müddəalar irəli sürmüşdür.

Gürcü alimi N.Gelaşvilinin məqalələrində "Aləmara"nın Gürcüstan tarixi ilə əlaqədar məlumatları şərh edilmiş və dəyərləndirilmişdir[2]. Qazaxıstan tarixçisi N.Atıqayev qazax xanlığının tarixi ilə əlaqədar tədqiqatında O.Ekayevin "Aləmara"-dan tərcümə etdiyi parçalardan yararlanmışdır[3]. Tacikistanlı həmkarlarımızdan A.Dexkurdi və X.Kamolov "Aləmara"nın Y.Şükri nəşrindən istifadə etmişlər[4].

Türkiyə tarixçilərindən T.Gündüz "Aləmara"nın hər iki nəşrindən bəhrələnmişdir[5]. Onun həmvətənlərindən O.G.Özgüdenli, Ö.F.Teber və S.Şah "Aləmara"nın Y.Şükri nəşrinə mü-

---

[1] З.М.Буниятов, О.А.Эфендиев. От редакторов // Ф.Р.Хунджи. Тарих-и алам-ара-йи Амини. Баку, 1987, с.5.

[2] Н.Г.Гелашвили. Свидения о Грузии в персидском историческом сочинении «Аламара-йи Шах Исмаил» // «Мацне» (Известия АН Груз. ССР). Серия истории, археологии, этнографии и истории искусства. Тбилиси, 1984, № 3, с.18-31 (резюме на русском языке); Н.Г.Гелашвили. К изучению анонимного источника «Аламара-йи Шах Исмаил» // Восточное историческое источниковедение и специальные исторические дисциплины, вып. I. Москва, 1990, с.99-104.

[3] Н.А.Атыгаев. Казахское ханство в XV – середине XVI века. Автореферат к.и.н. Алматы, 2003, с.8,16-17,28. Müəllif "Aləmara"nın birbaşa öz mətninə istinad etsəydi, daha yaxşı olardı. Belə ki, "Aləmara"da Qazaxıstan tarixinə dair bir sıra faktlar var ki, onlar O.Ekayevin tərcüməsinə daxil edilməmişlər. Çünki O.Ekayev sözügedən mənbənin Qazaxıstana aid olan hissələrinin deyil, Türkmənistan tarixindən bəhs edən materiallarının tədqiqi və tərcüməsi ilə məşğul olmuşdur.

[4] А.М.Дехкурди. Взаимоотношения Ирана и Бухарского ханства в XVI – первой половине XVIII вв. Автореферат к.и.н. Душанбе, 2006, с.10; Х.Ш.Камолов. История вторжения кочевых племен Дашт-и Кипчака в Среднюю Азию (XVI в). Автореферат д.и.н. Душанбе, 2007, с.9,23,24.

[5] T.Gündüz. Safevîler // DVİA, 35. c., İstanbul, 2008, s.457; Şah İsmail'in eşi Taçlı Begüm // Türk Kültürü ve Hacı Bektaş Veli Dergisi, sayı: 51, 2009, s.224,226; Safevî Şeyhleri ve Anadolu Türkmenleri // Bozkırın Efendileri (Türkmenler üzerine makaleler). İstanbul, 2009, s.161; Son Kızılbaş Şah İsmail. İstanbul, 2010, s.10-11,14,18-19,23,25,36,47,68,75,129,133-135, 144.

raciət etmişlər[1]. Həmin nəşrə eyni zamanda M.Çelenk özünün dissertasiya işində istinadlar vermişdir[2]. Təəssüf ki, sonuncu müəllifin mənbədən iqtibas etdiyi parçalarda bəzi fikirlər və adlar təhrif olunmuşdur. Məsələn, əsərdə hansısa bir kütlənin altıda bir (1/6) hissəsi mənasını verən "dang" istilahı səhvən "kişi" mənasında, "nökər" sözü "danışman" ("müşavir") şəklində tərcümə edilmiş, Qulucan şəxs adı "Kalican" kimi təqdim olunmuşdur və s. Hörmətli məsləkdaşımızın bu kimi qüsurları gələcək araşdırmalarında ortadan qaldıracağını ümid edirik.

Başqa bir türkiyəli tədqiqatçı R.Yıldırım İran tarixçisi M.K.Yusif-Cəmalinin ingiliscə yazdığı dissertasiya işinə istinadən öz əsərinin bir çox yerində "Aləmara"nı xatırlatmış və onun məlumatlarına yer vermişdir[3]. Əslən Güney Azərbaycandan olan B.Cavanşir Türkiyədə müdafiə etdiyi dissertasiya işində "Aləmara" nəşrlərindən geniş şəkildə faydalanmışdır[4].

Adlarını çəkdiyimiz elm xadimlərindən savayı, əsərin əlyazmalarından bəhs edərkən bildirdiyimiz kimi, bir sıra digər tədqiqatçılar (Ə.M.Sahib, Y.Şükri, İ.Y.Şirazi, M.T.Daneşpəjuh, İ.Əfşar, M.T.Şihab, H.Ethe, B.D.Vud, R.Eng) "Aləmara" nüsxələrinin tanıdılması istiqamətində fəaliyyət göstərmişlər.

---

[1] O.G.Özgüdenli. Ortaçağ Türk – İran tarihi araştırmaları. İstanbul, 2006, s.478; Ö.F.Teber. XVI. yüzyılda Kızılbaşlık farklılaşması. YDT. Ankara Üniversitesi, 2005, s.55,122,155; S.Şah. Safvetü's-safâ'da Safiyyüddîn-i Erdebîlî'nin hayatı, tasavvufî görüşleri ve menkıbeleri. YDT. İstanbul: Marmara Üniversitesi, 2007, I c., s.27,82,83,87.

[2] M.Çelenk. XVI. ve XVII. yüzyıllarda Safevî Şiîliği. YDT. Bursa: Uludağ Üniversitesi, 2005, s.15,114,120,121-122,125,140-141,161.

[3] M.K.Youssef-Jamālī, The Life and Personality of Shāh Ismā'īl I (1487-1524). Ph.D. dissertation. University of Edinburgh, 1981, p.18-20,23,79, 131,135-136; bax: R.Yildirim. Turkomans between two empires: the origins of the Qizilbash identity in Anatolia (1447-1514). Ph.D. dissertation. Ankara: Bilkent University, 2008, p.169,179-180,183-184,214,251-252,296,302.

[4] B.Javanshir. İran'daki Türk boyları ve boy mensubu kişiler (Safevî dönemi – I Şah Tahmasp hâkimiyetinin sonuna kadar / 1576). YDT. İstanbul: Mimar Sinan Güzel Sanatlar Üniversitesi, 2007.

### B) Əsərin tarixi mənbə olaraq dəyərləndirilməsi

Lakin son zamanlara qədər "Aləmara"nın Azərbaycan Səfəvilər dövlətinin tarixinə dair mənbə kimi rolu xüsusu olaraq araşdırılmamış və onun tariximiz üçün elmi dəyəri müəyyənləşdirilməmişdir. Belə vəziyyətin yaranmasına səbəb olan amillərdən biri də "Aləmara"nın ənənəvi salnaməçilik üslubunda deyil, dastanvari tarix formasında yazılması olmuşdur ki, bu da bəzi tədqiqatçıların onun tarixi mənbə kimi əhəmiyyətini inkar etməsinə gətirib çıxarmışdır. Belə ki, E.Qlassen "Aləmara"nın "adlar və faktlar baxımından etibarlı bir mənbə olmadığını" vurğulamışdır[1]. Y.E.Bregel isə "Aləmara"nı "I Şah İsmayılın yarıməfsanəvi tarixi" hesab etmişdir[2]. Müasir İran tarixçisi M.B.Aram "Aləmara"nın naməlum müəllifinin tarixi həqiqətlərdən daha çox şişirdilmiş rəvayətlərə yer verdiyini iddia edir[3]. Onun həmvətəni M.F.Münfərd də "Aləmara"nı skeptik dəyərləndirənlər sırasındadır: "Bu kitabın etibarlılığı və tarixi əhəmiyyəti həm onun yazılması zamanı ilə I İsmayılın hakimiyyəti dövrü arasındakı fasilə, həm də dastançılıq və nəqqallıq üslubuna yaxın bir tərzdə yazılmış bu kitabın sadə və avamanə nəsri səbəbindən tərəddüd doğurur və orada əksini tapmış mətləbləri çox ehtiyatla qəbul etmək lazımdır"[4].

A.H.Morton "Aləmara"nı tarixilik baxımından aşağı qiymətləndirir və orada "hadisələrin motivlərinin uşaq təfəkkürünə xas bir tərzdə və sadəlövh şəkildə təsvir edildiyini" irəli sürür. Buna baxmayaraq, o, burada "erkən dövrdə qızılbaşların əməllərini dəqiq əks etdirən materiallara da rastlandığını" etiraf edir və bu əsərin əsas dəyərinin XVII əsr Səfəvi cəmiyyətinin tarixi rəvayətlərini və öz tarixinə baxışını öyrənməklə bağlı olduğunu bildirir[5].

---

[1] E.Glassen. Die Frühen Safawiden, s.15.

[2] Ч.А.Стори, Ю.Э.Брегель. Персидская литература, c.859.

[3] M.B.Aram. Əndişe-yi tarixnigari-yi əsr-i Səfəvi, s.234.

[4] M.F.Münfərd. Mühacirət-i üləma-yi şiə, s.19. Bu açıqlamasına rəğmən, müəllif özü elə həmin kitabında dəfələrlə "Aləmara"ya istinad etmişdir.

[5] A.H.Morton. The Date and Attribution, p.203.

Digər bir qrup tədqiqatçılar isə "Aləmara"nı faydalı bir tarixi mənbə kimi xarakterizə etmişlər. İngilis şərqşünası H.Ethe bu əsəri "Səfəvi sülaləsinin yüksəlişinin çox ətraflı tarixi" deyə qiymətləndirmiş və onu "yüksək dərəcədə dəyərli tarixi əsər" adlandırmışdır[1].

"Aləmara"nı "janr etibarilə bədii ədəbiyyata yaxın tarixi mənbə" kimi səciyyələndirən O.Ekayev mənbənin bəzi qüsurlardan xali olmadığını bildirsə də, "tədqiq olunan əsərin mühüm tarixi əhəmiyyət kəsb etdiyi" düşüncəsindədir. "Aləmara"nın Türkmənistan tarixinə dair qiymətli mənbələrdən biri olduğunu göstərən O.Ekayev, "onun dəyərinin nəzərdən keçirdiyimiz dövrün bizə yaxşı məlum olan digər əsərlərində olmayan faktiki məlumatları özündə əks etdirməsi ilə bağlı olduğunu" yazır[2]. "Aləmara"nın hər iki nəşrindən yararlanmış R.Ağayev "onların tarixi mənbə kimi əhəmiyyətinin inkaredilməz" olduğu qənaətinə gəlmişdir[3]. Ş.Əhmədov "Aləmara"nı dəyərləndirərkən bu mənbənin Səfəvi tarixi, xüsusən də I Şah İsmayıl dönəminin hadisələri haqqında önəmli məlumatlar verdiyini qeyd edir[4].

İran alimi İ.Əfşar "Aləmara-yi Şah İsmayıl"ı "Səfəvi tarixi və xüsusilə də Şah İsmaylın həyatı baxımından fövqəladə əhəmiyyətə malik olan bir əsər" kimi səciyyələndirmiş və bu əsərin "tədqiqatçılar üçün şirin və mötəbər bir mənbə" olacağını vurğulamışdır[5]. N.Fəlsəfi "Aləmara"nı "qiymətli tarix" adlandırmışdır[6]. Digər bir İran tarixçisi Ə.Nəvai də sözügedən mənbəni yüksək qiymətləndirmişdir: "Bu kitab danışıq dili şivəsində yazılmasına baxmayaraq, verdiyi dəqiq və cəlbedici təfərrüat baxımından çox əhəmiyyətlidir"[7]. "Aləmara"dan geniş şəkildə istifadə etmiş M.K.Yusif-Cəmali və B.Cavanşir bu əsəri Səfəvilər dövlətinin təşkilindən və I Şah İsmayılın hakimiyyətindən

---

[1] H.Ethe. Catalogue of Persian Manuscripts, p.213.
[2] O.Экаев. Туркменистан и туркмены, c.10,11,132.
[3] R.Ə.Ağayev. Azərbaycan və Mərkəzi Asiya, s.24.
[4] Ş.Ahmedov. Azerbaycan'da Şiîliğ'in yayılma süreci, s.6.
[5] Məcəlle-yi "Yəğma", XVIII/1, 1344, s.34.
[6] N.Fəlsəfi. Çənd məqale-yi tarixi və ədəbi, s.68.
[7] Ə.Nəvai. Şah İsmail-i Səfəvi: əsnad-o mükatibat-i tarixi həmrah ba yaddaştha-yi təfsili. Tehran, 1347, s.42.

bəhs edən önəmli qaynaqlardan biri hesab etmişlər[1]. N.Salehi Səfəvi dövrünün mühüm mənbələri sırasında "Aləmara"nın hər iki nəşrinin adını çəkmişdir[2].

Ə.M.Sahib "Aləmara"nı "Səfəvi dövlətinin banisinin iftixarlı həyatı dövründən bəhs edən bir tarixi epos" deyə səciyyələndirmişdir. Bu əsərin tədqiqinin I Şah İsmayılın həyat və fəaliyyətinin öyrənilməsinə yardımçı olacağına diqqət çəkən Ə.M.Sahib yazır: "Xoşbəxtlikdən, bu kitabın çapı və yayımı ilə təhqiq əhlinin ixtiyarında təzə bir məxəz qərar tutur. Bunun araşdırılması ilə Səfəvi dövlətinin banisinin bariz çöhrəsini və mümtaz şəxsiyyətini öyrənmək olar". Bununla yanaşı, naşir mənbənin o dövrün sosioloji, əxlaqi, mənəvi və linqvistik xüsusiyyətlərini, ictimai adət-ənənələrini araşdırmağa kömək edəcəyini vurğulayır, orada Mərkəzi Asiya və Osmanlı tarixinə dair məlumatların da olduğuna diqqət çəkir[3].

Y.Şükri "Aləmara"nı "dastanvari tarix və ya tarixi dastan" kimi xarakterizə edərək, buradakı "tarixi xətalara təəccüblə yanaşmamağı" təklif edir: "Çünki burada əhvalatlar tarixilik baxımından qələmə alınmamışdır və arzu olunduğu kimi zərurət hiss edilməmişdir ki, tarixi hadisələrin illərinə və zamanlarına işarə edilsin. Belə nəticəyə gəlirik ki, bu kitabın müəllifinin nəzərində hadisənin baş verdiyi gün, ay, il deyil, dastanın qəhrəmanı olan şəxs və əhvalatın mahiyyəti və nəticəsi mühüm olmuşdur"[4]. Eyni zamanda, Y.Şükri nəşr etdirdiyi əsərin mühüm tarixi mənbə olduğu qənaətindədir: "Cürətlə demək olar ki, Səfəvi sülaləsinin banisinin mübarizəsini, fədakarlığını, cəsurluğunu, əxlaqını, adətlərini və əqidəsini "Aləmara-yi Səfəvi" əsəri qədər əks etdirmiş olan az-az mənbə tapmaq mümkündür... Bu kitab təhqiq əhli və alimlər üçün ilkin, etimada və istinada qabil nisbətli bir məxəz ola bilər"[5].

---

[1] M.K.Yusif-Cəmali. Təşkil-i doulət-i Səfəvi, s.37-38; B.Javanshir. İran'daki Türk boyları, s.10.

[2] N.Salehi. Kitabşinasi-yi tovsifi-yi mənabe-yo mütun-i təshihşode-yi Səfəvi dər do dəhe-yi axir // Kitab-i mah (tarix və coğrafiya), IV/1-2, 1379 (mah-i azər), s.40.

[3] Aləmara (Sahib), müqəddimə, s.15-16.

[4] Aləmara (Şükri), müqəddimə, s.40.

[5] Aləmara (Şükri), müqəddimə, s.19.

R.Mak-Çesni "Aləmara"nın "şifahi xalq ənənəsinə əsaslanan tarixi narrativ" olduğunu bildirmiş, əsərdə "xronoloji ardıcıllığın çox və ya az dərəcədə izlənildiyinə" diqqət çəkmişdir. O, belə nəticəyə gəlir ki, "bir tarixi mənbə kimi "Aləmara-yi Şah İsmayıl"a böyük ehtiyatla yanaşmaq lazımdır". Lakin buna baxmayaraq, R.Mak-Çesni sözügedən əsərin o dövrün "siyasi, tarixi və dini ideologiyasının əks olunması baxımından son dərəcə maraq doğurduğunu" etiraf etmişdir[1].

Ş.A.Quinn "Aləmara"nı "Şah İsmayılın qəhrəmanlıq sərgüzəştlərinin qismən şişirdilmiş formasını özündə əks etdirən tarixi roman" kimi xarakterizə edir[2]. Bununla bərabər, o, "Aləmara"nın "nəticə etibarilə, son dərəcə əhəmiyyətli və faydalı mənbə" olması qənaətinə gəlir[3]. "Aləmara"nın miniatürlü Dublin əlyazmasından bəhs edən B.D.Vud bu əsərin "bizi o dövrün intellektual və emosional mənzərəsi ilə tanış etmək baxımından dəyərli olduğunu" qeyd edir və tədqiq etdiyi nüsxəni Səfəvilər dövrü tarixinin, ədəbiyyatının və incəsənətinin tədqiqatçıları üçün önəmli məxəz kimi qiymətləndirir[4].

V.Hanevey yazır: "Aləmara nəqqal üslubunda söylənilmiş populyar tarixi əsərdir və orada populyar dastançılığın bir çox təhkiyə devizlərindən istifadə olunmuşdur. Bu kitab bu günün termini ilə alternativ tarix əsəri adlandırıla bilər. Burada hadisələr və qəhrəmanlar saray tarixşünaslığında əks olunduğundan daha fərqli bir tərzdə təsvir edilmişlər. Söhbətlər populyar dilə uyğunlaşdırılmış və ya quraşdırılmış, hadisələr dramatik surətdə təsvir olunmuş və Şah İsmayılın hakimiyyətə yüksəlişi zamanı ayrı-ayrı şəxslərin şücaətləri və cəsurluqları həyəcanla şərh edilmişdir"[5].

Orta əsrlər dövrünün narrativ mənbələrinə məxsus olan subyektivizm və mədhiyyə elementlərinin "Aləmara"ya da xas olduğunu yazan N.Gelaşvili göstərir ki, "Aləmara-yi Şah İsma-

---

[1] R.McChesney. Alamara-ye Shah Esmail // Encyclopaedia Iranica, vol. 1, fasc. 8, p.796-797.
[2] Sh.Quinn. Safavid Historiography // Encyclopaedia Iranica, vol. 12.
[3] Sh.Quinn. Rewriting Nimatullahi History, p.211.
[4] B.D. Wood . The "Tarikh-i Jahanara", p.92,102.
[5] W.Hanaway. Iranian Identity, p.150.

yıl"ın istifadəsi və elmi cəhətdən öyrənilməsi yalnız onun ciddi tənqidi təhlili şəraitində mümkündür". O, "Aləmara"nın Gürcüstan tarixinə dair məlumatlarını bir sıra digər mənbə müəlliflərinin (Xandəmir, Budaq Qəzvini, Şərəf xan Bidlisi, Zeynalabidin Əli Əbdi bəy, Qazı Əhməd Qəffari, Həsən bəy Rumlu, Beri Eqnataşvili, Vaxuşti Baqrationi və s.) məlumatları ilə müqayisə edərək yazır: "Müqayisə göstərdi ki, bizi maraqlandıran mənbənin məlumatları əsas etibarilə adları yuxarıda çəkilən yazılı abidələrin məlumatları ilə oxşardır. Bununla yanaşı, "Aləmara-yi Şah İsmayıl"da bəzi orijinal faktlar da vardır"[1].

S.Şah "Aləmara"nı Səfəvi xanədanı haqqında meydana gətirilmiş ən başlıca tarixi-ədəbi əsərlərdən hesab etmişdir[2]. Türkiyə tarixçisi M.Çelenk "Aləmara"nı "rəsmi Səfəvi tarixşünaslığının ana qaynaqlarından biri" kimi təqdim etmiş[3], lakin, fikrimizcə, bu dəyərləndirməsi zamanı müəyyən dərəcədə ifrata varmışdır. Çünki yuxarıda bəhs etdiyimiz kimi, "Aləmara" heç də rəsmi Səfəvi tarixşünaslığının nümunəsi deyildir.

"Aləmara" nəşrlərindən söz açan T.Gündüz qeyd edir ki, "bu əsərlər çoxlu rəvayətləri və qeyri-adi hekayələri ehtiva etmələri baxımından etibarlı qaynaq olmaqdan uzaq görünsələr də, hadisələri sıralamaları, xronologiyaya riayət etmələri və hadisələrdə adı çəkilən şəxslərə dair bilgilər vermələri cəhətindən dəyərli olduqlarına şübhə yoxdur"[4].

Klassik narrativ mənbələr (salnamələr, xronikalar, tarixi povestlər və s.) tarixi hadisələri öz müəlliflərinin şüurunda həkk olunduğu şəkildə əks etdirirlər və bu mənbələrdə ifrat dərəcədə subyektiv mülahizələrə, bilərəkdən və bilməyərəkdən yol verilmiş təhriflərə, yanlışlıqlara rast gəlmək olur. Lakin narrativ mənbələrin üstünlüyü ondan ibarətdir ki, bu əsərlər tarixi hadisələri bir-biri ilə əlaqəli və ardıcıl şəkildə təqdim edirlər[5].

---

[1] Н.Г.Гелашвили. К изучению анонимного источника, с.101.
[2] S.Şah. Safvetü's-safâ'da Safiyyüddîn-i Erdebîlî'nin hayatı, I. c., s.33.
[3] M.Çelenk. Safevî Şiîliği, s.15.
[4] T.Gündüz. Son Kızılbaş, s.11.
[5] Л.Н.Пушкарев. Источники исторические // СИЭ, т. VI, Москва, 1965, с.592.

Heç şübhəsiz ki, “Aləmara” orta əsrlər dövrünün bir sıra digər mənbələri kimi qüsur və nöqsanlardan xali deyildir. İlk növbədə onu nəzərə almaq lazımdır ki, “Aləmara” bir tarixi salnamə olmayıb, I Şah İsmayılın ölümündən xeyli müddət keçdikdən sonra naməlum bir müəllif tərəfindən onun və əcdadlarının barəsində xalq arasında mövcud olan rəvayətlərin toplanması, həmçinin konkret tarixi mənbələrdən istifadə olunması nəticəsində yazılmış epik bir əsərdir.

“Aləmara”nı digər Səfəvi mənbələri ilə müqayisə etməyimiz nəticəsində məlum olmuşdur ki, bu əsərdəki tarixi hadisələrin və faktların şərhi həmin mənbələrlə elə bir ciddi ziddiyyət təşkil etmir. Sadəcə olaraq, ”Aləmara”nın bəzi yerlərində hadisələrin təsviri zamanı müəyyən səhvlərə və xronoloji uyğunsuzluqlara yol verilmişdir. Məsələn, “Aləmara”da Əmir Teymurun Misiri və İstanbulu fəth etməsi, Ağqoyunlu Sultan Muradla Əlvənd mirzənin bir-biri ilə qardaş olması, İsmayılın Şirvana ilk yürüşü zamanı Gülüstan qalasını ələ keçirməsi, Sultan Səlimin oğlu Sultan Süleymanın öz atasının sağlığında Səfəvilərə qarşı yürüşlərdə iştirak etməsi və s. kimi bəzi yanlış məlumatlar yer almışdır[1]. Əsərdə Şeyx Heydərin oğullarının 7 il ərzində dustaq olduğu qeyd edilsə də[2], yaxşı məlum olan faktdır ki, onlar əslində 4,5 il müddətində həbsdə olmuşlar[3]. Digər bir yerdə bizim müəllif Ağqoyunlu sərkərdəsi Aybə sultanın guya Şah İsmayılın böyük qardaşı Sultan Əliyə qarşı Ərdəbil yaxınlığındakı döyüşdə (1494-cü ildə) həlak olduğunu bildirir[4]. Halbuki Aybə sultan həmin döyüşdə deyil, ondan beş il sonra, 904-cü ilin şəvvalında / 1499-cu ilin may-iyun aylarında Ağqoyunlu şahzadələrindən Məhəmmədi mirzə ilə Əlvənd mirzə arasında Əzizkəndi yaxınlığındakı döyüşdə birincinin tərəfində

---

[1] Aləmara (Sahib), s.18,47-48,51-52,574-575; Aləmara (Şükri), s.22,51-52, 57-58,554-555.
[2] Aləmara (Sahib), s.29; Aləmara (Şükri), s.33.
[3] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов в начале XVI века. Баку, 1961, с.80.
[4] Aləmara (Sahib), s.34; Aləmara (Şükri), s.38.

iştirak edərək öldürülmüşdü[1]. Mənbədə 910 / 1504-05-ci ilə müvafiq gələn hadisələrdən bəhs olunarkən Əlişir Nəvainin Şah İsmayıla məktub yazdığı göstərilsə də[2], bu məlumat öz təsdiqini tapmır. Çünki Əlişir Nəvai Şah İsmayıl hakimiyyətə gəlməzdən bir qədər öncə, 1501-ci ilin yanvar ayının 3-də rəhmətə qovuşmuşdu[3].

Əsərdə əksər orta əsr mənbələrinə xas olan bir cəhəti də görmək mümkündür: yəni müəllifin bir sıra hallarda təəssübkeşlik etdiyi tərəfin ordusunun sayını az, rəqib qoşunlarının kəmiyyətini isə xeyli çox göstərməsi müşahidə olunur. Məsələn, Şah İsmayılın Mərəş və Əlbistan hakimi Əlaüddövlə Zülqədərə qarşı yürüşündə 12 minlik qızılbaş ordusunun on qat çox, yəni 120 min nəfərlik düşmən ordusuna qalib gəldiyi bildirilir[4]. Başqa bir fəsildə müəllif Şah İsmayılın 30 min qızılbaşla Orta Asiya xanlarının 160 minlik ordusuna üstün gəldiyini vurğulayır[5]. Qeyd etmək yerinə düşər ki, qızılbaşların sayının süni surətdə az göstərilməsi və bunun əksinə olaraq, qarşı tərəfin qüvvələrinin şişirdilməsi Qiyasəddin Xandəmir, Həsən bəy Rumlu kimi rəsmi Səfəvi tarixçilərinə də aid olan xüsusiyyətlərdəndir[6].

"Aləmara"da Şah İsmayılın düşmənlərini ləkələmək üçün onlar haqqında bəzi alçaldıcı uydurmalar yer almışdır. Məsələn, bizim müəllif iddia edir ki, Osmanlı sultanı Səlim Yavuz guya hələ şahzadə olduğu vaxtlarda, 10 yaşından 17 yaşınadək qız paltarı geyərək, hərəmxanada, kənizlər arasında yaşamışdır[7]. Digər mənbələrlə təsdiqlənməyən bu məlumat, əlbəttə ki, müəllifin öz təxəyyülünün məhsuludur və fikrimizcə,

---

[1] F.Sümer. Safevî Devletinin kuruluşu ve gelişmesinde Anadolu Türklerinin rolü. Ankara, 1992, s.16; J.E.Woods. The Aqquyunlu: Clan, Confedaration, Empire. Chicago, 1976, p.170-171.
[2] Aləmara (Sahib), s.140; Aləmara (Şükri), s.194.
[3] Bax: ASE, VII c., Bakı, 1983, s.216.
[4] Aləmara (Sahib), s.198-205; Aləmara (Şükri), s.109-115.
[5] Aləmara (Sahib), s.486,492; Aləmara (Şükri), s.438.
[6] И.П.Петрушевский. Азербайджан в XVI-XVII вв. // ССИА, вып. I, Баку, 1949, с.230; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.87.
[7] Aləmara (Sahib), s.233-234; Aləmara (Şükri), s.150-151.

Şah İsmayılın ən qatı düşməni olan Sultan Səlimi gözdən salmaq üçün uydurulmuşdur. Rəqib tərəfin barəsində alçaldıcı məlumatların dövriyyəyə buraxılması orta əsr tarixçiləri arasında geniş yayılmış bir metod idi və Osmanlı müəllifləri də yeri düşdükcə Şah İsmayılı təhqir etməyə yönəlmiş informasiyalar vermiş, Şeyx Balı Əfəndi isə bir qədər də uzağa gedərək, bütün etik normaları kənara qoymuş, öz əsərində Şah İsmayılın anası Aləmşah bəyimin ünvanına nalayiq sözlər işlətməkdən çəkinməmişdir[1].

"Aləmara"nın yuxarıda sadalanan nöqsanları ilə bərabər bir çox üstünlükləri də mövcuddur. Əvvəla, onu qeyd etmək lazımdır ki, "Aləmara"da hadisələr çox geniş və ətraflı təsvir edilir. Şah İsmayılın tarixinin əks olunduğu qaynaqlar arasında yalnız "Cahangüşa-yi xaqan" əsəri mövzu əhatəliliyi və həcmcə "Aləmara" ilə müqayisə edilə bilər. Bundan əlavə, "Aləmara"da rəsmi salnaməçilərə tanış olmayan və xalqın yaddaşında qalaraq nəsildən-nəsilə ötürülən bir sıra dəyərli informasiyalar öz əksini tapmışdır. "Aləmara"nın üstün cəhətlərindən biri də odur ki, əsər yüksək hakim təbəqənin nümayəndəsi və ya bir saray məmuru tərəfindən deyil, sadə xalqın təmsilçisi tərəfindən yazılmışdır və hadisələrə "aşağıların" münasibətinin öyrənilməsi baxımından cəlbedici bir mənbədir. "Aləmara"-nın başlıca olaraq xalq rəvayətləri əsasında tərtib olunması xalqın və ya onun müəyyən bir kəsiminin öz tarixinə və görkəmli şəxsiyyətlərinə baxışını ortaya çıxarır. Buradakı materiallar həm də folklorumuzun öyrənilməsi üçün əhəmiyyət kəsb edə bilər. "Aləmara"nın hekayətləri, vəfatından 150 il sonra Şah İsmayılın xalq yaddaşında necə qaldığını aşkara çıxarmaq üçün bizə əvəzsiz faktlar verir.

Qeyd etdiyimiz kimi, mənbədə Şah İsmayıla böyük sevgi izhar olunur. Saray tarixçisi olmayan, kimliyi bəlirsiz müəllifin bu sevgisi süni deyildir, təbiidir və onun Şah İsmayıl haqqındakı tərifləri sifariş əsasında yazılmamış, müəllifin öz qəlbindəki səmimi məhəbbətdən meydana gəlmişdir. Lakin buna baxmayaraq, anonim müəllif saray xadimi olmadığı üçün "bəzi

---

[1] V.Minorsky. Shaykh Bali Efendi on the Safavids // BSOAS, vol. 20, 1957, p.446-447.

hallarda Şah İsmayıla qarşı açıq tənqidlər yönəltməkdən çəkinmir"[1]. Məsələn, əsərin bir neçə yerində, ibrət olsun deyə, Şah İsmayılın yol verdiyi nöqsanlar və hərbi-siyasi səhvlər göstərilir, xüsusən də onun lovğalıq və özündənrazılıq kimi hissləri tənqid hədəfinə çevrilir[2]. Müəllifin xoş niyyətdən doğan tənqidləri də tərifləri qədər səmimidir. Bu amil bizim müəllifin, saray tarixçilərindən fərqli olaraq, öz əsərini daha sərbəst düşüncə tərzi ilə qələmə almasından qaynaqlanmışdır və əsərin dəyərini artıran cəhətlərdəndir.

Bir tarixi qaynaq olaraq "Aləmara"ya marağın getdikcə artdığını və onu qiymətləndirən, ondan istifadə edən müəlliflərin say çoxluğunu nəzərə alsaq, bu əsərin Səfəvi dövrünün mənbələri içərisində layiqli yer tutduğunu söyləyə bilərik. Onu da qeyd etmək istərdik ki, bu növdən olan dastansayağı mənbələrin tarixi dəyərini öyrənmək, onlardan bir məxəz olaraq istifadə etmək rəsmi salnaməçilik nümunələrini araşdırmaqdan qat-qat çətindir və tədqiqatçıdan daha artıq diqqət, müqayisə və təhlil tələb edir. "Aləmara"nın Ə.M.Sahib tərəfindən hazırlanmış nəşri üzərində apardığımız araşdırmalar zamanı bəlli olmuşdur ki, mənbənin cəmi iki yerində il (əsərin yazılması tarixi və I Şah Təhmasibin taxta çıxması ili), səkkiz yerdə müəyyən hadisələrin baş verdiyi ay göstərilmiş, bəzi yerlərdə isə əhvalatın ili ("Şah İsmayılın cülusunun 7-ci ilində") və ayı ("Novruzdan sonra", "həməl bürcünün əvvəllərində") dolayısı ilə göstərilmişdir. Buna görə də biz "Aləmara"dakı hadisələri şərh edərkən xronologiyanı digər mənbələrin və tədqiqatların köməyi ilə bərpa etməyə çalışmışıq. Bu işdə Ə.M.Sahibin "Aləmara"ya yazdığı şərhlərdən də bəhrələnmişik.

---

[1] R.Yildirim. Turkomans, p.252; M.K.Yusif-Cəmali. Təşkil-i doulət-i Səfəvi, s.37.

[2] Aləmara (Sahib), s.46,369,520; Aləmara (Şükri), s.50-51,314,477.

## 1.3. ƏSƏRİN YAZILMA TARİXİ

### *A) Əsərin yazılma tarixi ilə bağlı diskussiyalar*

"Aləmara"nın yazılış tarixi tədqiqatçılar arasında mübahisə predmeti olmuşdur. Əsər I Şah İsmayılın tarixinə həsr olunub və onun vəfatından sonra oğlu I Şah Təhmasibin 930 / 1524-cü ildə hakimiyyətə keçməsi ilə başa çatır. Əsərin sonunda Təhmasibin hakimiyyəti üçün dualar edilir:

"و بعد از قضیه هایله نواب علیین آشیان به تاریخ نهصد و سی حضرت جهانبانی المؤید من عند الله شاه طهماسب الصفوی الموسوی الحسینی بهادر خان ظل الله فی الارضین به تخت دولت جلوس سعادت مأنوس فرموده عالمیان را سروری تازه و بهجتی بی اندازه روی نمود. انشاء الله تعالی از چشم بدان در حفظ و حمایت ملك منان بوده باشد".

*"Və cənnət məskənli hökmdarın (Şah İsmayılın – N.M.) 930-cu ildəki dəhşətli hadisəsindən (ölümündən – N.M.) sonra dünyanı qoruyan həzrət, Allahın köməyini alan və Allahın yer üzündə kölgəsi olan Şah Təhmasib əs-Səfəvi əl-Musəvi əl-Hüseyni Bahadır xan dövlət taxtına öz səadət vərdişi ilə cülus etdi, dünya sakinləri yeni bir sərvərə və qeyri-məhdud sevincə qovuşdular. İnşallah ki, şəfqətli Tanrının hifz və himayəti sayəsində pis adamların nəzərlərindən qorunsun"*[1].

Məhz belə bir xüsusiyyət bəzi araşdırmaçıların əsəri XVI əsrə, I Şah İsmayılın və I Şah Təhmasibin dövrünə aid etmələrinə yol açmışdır. Belə ki, İ.Y.Şirazi hesab etmişdir ki, bu əsər I Şah İsmayılın "öz dövründə, hicri X əsrdə yazılmışdır"[2]. Əsərin İndia-ofis nüsxəsindən istifadə etmiş V.Hinz bu mənbənin 1530-cu ilə, Şah Təhmasib dövrünə aid ola biləcəyini güman etmişdir[3]. Həmin nüsxə ilə tanış olmuş və onu şərti olaraq "Anonymous İndia-office" adlandırmış E.Qlassen, Qazı Əhməd Quminin "Xülasətüt-təvarix" əsərindən öncə (yəni 1591-92-ci ildən əvvəl) yazılmış Səfəvi mənbələri sırasında bu

---

[1] Aləmara (Sahib), s.626; Aləmara (Şükri), müqəddimə, s.36.
[2] Fihrist-i kitabxane-yi Mədrəse-yi Ali-yi Sipəhsalar, III c., s.298.
[3] W.Hinz. Uzun Hasan ve Şeyh Cüneyd, s.131.

əsərin də adını çəkmiş və beləliklə, “Aləmara”nı XVI əsr mənbələrindən hesab etmişdir[1].

Məlumdur ki, orta əsr müəllifləri müəyyən hallarda öz əsərlərinin yazılış tarixini göstərməyi məqbul sayır, bu zaman daha çox əsərin yazılıb sona çatdığı günü, ayı və ili qeyd edir və bunu frontispisdə (əsərin əvvəlində) və ya daha çox hallarda müəllif kolofonunda verirdilər. Müəllif tarixlənməsi verilməyən mənbələrin bəzilərində isə mətnin içərisindən onun yazıldığı tarix haqqında informasiya əldə etmək olur[2]. “Aləmara”nın nə əvvəlində, nə də axırında əsərin təlif tarixi göstərilməsə də, mətnin daxilində belə bir informasiya mövcuddur. Belə ki, müəllif Şah İsmayılın əvvəllər Məmlüklərin xidmətində olmuş, sonra isə Osmanlılara qarşı çıxaraq Səfəvilərə sığınmış Qəzzali nəslinə pay torpaqları verməsi haqda bəhs edərkən yazır:

"حال كه مسوده اين اوراق تأليف شده كه سنه ست و ثمانين بعد الف است، اولاد غزالى در آن ولايت والى و حاكمند".

*“İndi bu vərəqlərin qaralaması təlif olunarkən 1086-cı ildir, Qəzzali övladları o vilayətdə vali və hakimdirlər”[3].* Məhz bu qeydə əsaslanan Ə.M.Sahib əsərin 1086 / 1675-76-cı ildə yazıldığını irəli sürmüşdür: “Kitabın sonundakı dualardan belə başa düşülə bilər ki, guya müəllif Şah Təhmasib zamanında yaşamışdır. Lakin kitabın bu ibarəsindən (yuxarıda sitat gətirilən cümlə nəzərdə tutulur – N.M.) aydın olur ki, bu əsər 1086-cı ildə təlif edilmişdir”. Əsərin sonunda Təhmasibin şəninə söylənən dualara gəldikdə isə, Ə.M.Sahib hesab edir ki, “müəllif əsərin sonundakı ibarələri Şah Təhmasibin səltənətinin əvvəlində yazılmış bir məxəzdən eyniylə köçürmüşdür”[4]. Mənbənin 1086 / 1675-76-cı ilə aid olması barədə bu mülahizə bir çox alimlər tərəfindən də dəstəklənmişdir[5].

---

[1] E.Glassen. Die Frühen Safawiden, s.15.

[2] M.M.Adilov. Azərbaycan paleoqrafiyası, s.81.

[3] Aləmara (Sahib), s.581; Aləmara (Şükri), s.560-561.

[4] Ə.M.Sahib. “Tarix-i aləmara-yi Şah İsmail” // “Yəğma”, XVIII/1, 1344, s.35.

[5] Nüsxəha-yi xətti (zir-i nəzər-i M.T.Daneşpəjuh və İ.Əfşar), dəftər-i V, s.372; Aləmara (Şükri), müqəddimə, s.20-21; A.Lambton. State and Government in Medieval Islam, p.275; R.McChesney. “Alamara-ye Shah Esmail”, p.796; Sh.A.Quinn. Rewriting Nimatullahi History, p.211; Ə.Nəvai. Mütun-i tarixi, s.171; B.D.Wood. The “Tarikh-i Jahanara”, p.91; M.F.Mün-

“Aləmara” üzərində xüsusi tədqiqat aparmış O.Ekayev isə mənbənin yazılma tarixi ilə bağlı müddəalar irəli sürərkən müəyyən təhriflərə yol vermişdir. Belə ki, o, farsca ədəbiyyatın bio-biblioqrafik icmalını tərtib etmiş məşhur ingilis şərqşünası Ç.A.Storinin guya “Aləmara”nın XVI əsrdə yazıldığı, lakin 1675-76-cı ildə yenidən redaktə edildiyi barədə fikir söylədiyini bildirərək qeyd edir: “Ç.A.Stori yazır ki, ola bilsin, “Aləmara-yi Səfəvi” və ya “Aləmara-yi Şah İsmayıl” əsərinin ilkin mətni XVI əsrdə yazılmış, 1675-76-cı ildə isə yenidən redaktə olunmuşdur”. Daha sonra O.Ekayev Ç.A.Storinin bu fikrini dəstəklədiyini bildirir[1]. Biz bu məsələni xüsusi olaraq araşdırdıq və aydın oldu ki, Ç.A.Stori adı çəkilən mənbənin yazılma tarixi ilə əlaqədar heç bir qeyd etməmiş və bu məsələyə toxunmamışdır. Ç.A.Storinin əsərinin ingiliscə variantında “Aləmara-yi Şah İsmayıl” və ya “Aləmara-yi Səfəvi” adlı mənbənin mövcudluğu barədə heç bir məlumata rast gəlmirik[2]. Sözügedən ingilis şərqşünasının əsərini ruscaya çevirərək əlavələrlə nəşr etdirmiş Y.E.Bregel həmin nəşrə Ç.A.Storiyə məlum olmayan 850 yeni mənbənin haqqında məlumatlar daxil etmiş və öz əlavələrini üçbucaqlı mötərizələr içərisində vermişdir[3]. O, əsərin rusca nəşrinin tərtibinin bu və digər məsələləri barəsində öz ön sözündə bəhs etmişdir. Həmin nəşrdə “Aləmara” haqqındakı məlumatlar da məhz Y.E.Bregelin əlavələrindəndir[4]. O.Ekayev isə bu əsərin rusca nəşrinin yalnız özünə lazım olan ikinci hissəsinə nəzər saldığı və Y.E.Bregelin birinci hissədə dərc olunmuş ön sözü ilə tanış olmadığı üçün üçbucaqlı mötərizələr daxilində verilmiş məlumatların Ç.A.Storiyə deyil, Y.E.Bregelə məxsus olduğunu müəyyənləşdirə bilməmiş və bio-biblioqrafik icmalın ikinci hissəsində “Aləmara-yi Şah İs-

---

fərd. Mühacirət-i üləma-yi şiə, s.19; M.K.Yusif-Cəmali. Təşkil-i doulət-i Səfəvi, s.38. A.H.Morton “Aləmara”nın mətnində mənbənin yazılış tarixi ilə bağlı cümləni oxuyarkən xəta buraxmış və nəticədə, yanlış olaraq, “Aləmara”nı 1087 / 1676-77-ci ilə aid etmişdir: The Date and Attribution, p.188,201.

[1] O.Экаев. Туркменистан и туркмены, с.6,9.

[2] bax: C.A.Storey. Persian Literature: A Bio-bibliographical Survey. Section II, fasc. 2, London, 1936.

[3] Ч.А.Стори, Ю.Э.Брегель. Персидская литература, с.40.

[4] Ч.А.Стори, Ю.Э.Брегель. Персидская литература, с.858-859.

mayıl" haqqında verilmiş informasiyanı səhvən Ç.A.Storiyə aid etmişdir.

Bundan əlavə, heç Y.E.Bregel də "Aləmara"nı XVI əsrə aid etmir və O.Ekayevin istinad etdiyi 858-ci səhifədə də bu barədə hər hansı bir qeydə rast gəlmək mümkün deyildir. Y.E.Bregel "Aləmara"nın yazılış tarixi ilə əlaqədar yalnız bunları bildirir: "Görünür, 1086-cı (1675-76) ildə yazılıb və ya yenidən redaktə olunub"[1]. Beləliklə, aydın olur ki, nə Ç.A.Stori, nə də Y.E.Bregel "Aləmara"nı XVI əsrə aid etməmişlər, bu fikir O.Ekayevin öz təxəyyülünün məhsulu olmuş, sadəcə olaraq, möhtərəm türkmənistanlı həmkarımız, yəqin ki, özünün tədqiq etdiyi mənbənin əhəmiyyətini artırmaqdan ötrü onu XVI əsrə aid etməyi lazım bilmiş və bunun üçün mənbənin özündən heç bir tutarlı fakt tapa bilmədiyinə görə, "Aləmara" barədə ümumiyyətlə heç bir bilgisi olmayan tanınmış ingilis tədqiqatçısının guya bu mənbənin yazılış tarixi barədə hansısa bir fikir irəli sürdüyünü iddia etmişdir. Həmçinin O.Ekayevin "Aləmara" ilə "Tarix-i Şah İsmayıl" ("Cahangüşa-yi xaqan") əsərlərini eyniləşdirmək cəhdləri də əsassızdır və bu barədə aşağıda bəhs olunacaqdır.

### *B) Yazılış tarixinin müəyyənləşdirilməsi*

Əslində "Aləmara"nın XVI əsrin mənbəyi olduğunu sübut edən heç bir tutarlı fakt yoxdur. Ə.M.Sahibin aşkar etdiyi kimi, bu mənbə 1675-76-cı ilə aiddir. Araşdırmalarımız nəticəsində mənbənin XVI əsrə deyil, XVII əsrə aid olmasına dair bir sıra əsaslı dəlillər ortaya çıxmışdır.

"Aləmara"nın anonim müəllifi öz əsərində Şah İsmayılın müasiri olmuş Babur şahın sonradan Hindistanı fəth etməsinə toxunarkən Böyük Moğolların tarixindən bəhs edən "Tarix-i Əkbəri" əsərinin adını çəkir[2]. Əgər nəzərə alsaq ki, Böyük Moğol hökmdarı I Əkbərə (1556-1605) həsr edilmiş "Tarix-i Əkbəri" və ya "Əkbərnamə" əsəri Əllami Əbülfəzl ibn Mübarək (1551-1602) tərəfindən 1004 / 1595-96-cı ildə yazılıb sona

---

[1] Ч.А.Стори, Ю.Э.Брегель. Персидская литература, с.858.
[2] Aləmara (Sahib), s.499; Aləmara (Şükri), s.453.

çatdırılmışdır[1] və bizim müəllif də öz əsərini yazarkən artıq onunla tanış olmuşdur, onda aydın olar ki, İ.Y.Şirazinin, V.Hinzin, E.Qlassenin iddialarının əksinə olaraq, “Aləmara” heç də erkən Səfəvi mənbələrindən deyildir.

Bundan əlavə, bütün əsər boyunca XVII əsrin terminologiyası hökm sürür. Məsələn, əsərdə hərbi komandan kimi XVI əsrə xas olan “əmirülümərа” termini ilə yanaşı “sipəhsalar” terminindən də geniş istifadə olunur[2]. Səfəvilərin dövlət quruluşu məsələlərini araşdırmış R.Seyvorinin açıqladığı kimi, sipəhsalar titulu erkən Səfəvilər zamanında işlədilmirdi və bu termin yalnız I Şah Abbas (1587-1629) zamanından ortaya atılmışdı[3].

Məlumdur ki, Səfəvi qoşunları 1614-cü ildə İran körfəzi sahilindəki Cərun limanını tutduqdan sonra həmin şəhər I Şah Abbasın şəninə “Bəndər-Abbas” adlandırılmağa başlandı. XVI əsrdə isə “Bəndər-Abbas” adlı liman mövcud deyildi[4]. “Aləmara”da isə keçmiş Cərun limanının adı çəkilmir, həmin liman “Bəndər-Abbas” adlandırılır:

"ا گر او لعنت بر اعدای دین می کند، به خدمت آمده تبرا کند، تولا نماید، از کنار قزل اوزن تا بندر عباسی و بندر کنگ را به او شفقت نموده، به شرط آنکه سکه و خطبه به نام ما بزند و بخواند".

*“Əgər o, dinin düşmənlərinə lənət etsə, xidmətimizə gəlib təbərra və təvəlla eyləsə, onda Qızılüzən sahilindən ta Bəndər-Abbasa və Bəndər-Kəngə qədər ərazini ona şəfəqqət edərəm, bir şərtlə ki, mənim adıma sikkə kəsdirsin və xütbə oxutsun”*[5].

Yaxud başqa bir yerdə:

"حضرت ظل اللهی به غزالی فرمودند که شوشتر و حویزه و دزفول و کوه گلویه تا بندر عباسی و از آنجا تا کنار شط بصره و تا دهنه لار شیراز که نشیمن گاه چهار پادشاه بوده، نواب همایون ما به شما شفقت فرموده بخشیدیم".

---

[1] Əllami Əbülfəzlin doğum tarixi bəzi digər əsərlərdə 1554-cü il kimi göstərilmişdir: А.Фарзалиев, Р.Мамедова. Сефевиды и Великие Моголы в мусульманской дипломатике. Санкт-Петербург, 2004, с.8.
[2] Aləmara (Sahib), s.29,317,554; Aləmara (Şükri), s.33,35,483,536.
[3] R.M.Savory. The Safavid State and Polity // Iranian Studies, vol. 7, 1974, p.207.
[4] R.M.Savory. Iran under the Safavids. Cambridge, 1980, p.115.
[5] Aləmara (Sahib), s.103; Aləmara (Məclis kitabxanası – 761), v.26b.

*"Allahın kölgəsi olan həzrət (Şah İsmayıl) Qəzzaliyə buyurdu ki, Şüştər, Hüveyzə, Dizful və Kuh-i Giluyədən ta Bəndər-Abbasa qədər və oradan ta Şətt-i Bəsrə kənarına, ta Şirazın Lar keçidinə qədər olan ərazini ki, dörd padşahın oturacağı olmuşdur, biz sizə şəfəqqət edərək bağışlayırıq"*[1]. Bu qeydlərdən açıq-aşkar görünür ki, "Aləmara"nı ən azından 1614-cü ildən əvvəlki dövrə aid etmək mümkün deyildir.

Həmçinin bizim anonim müəllif öz əsərinin bəzi yerlərində I Şah Abbasdan bəhs edir və onu vəfat etmiş insanlara şamil edilən "mazi", "rəhmətlik", "cənnət-məkan" kimi epitetlərlə yad edir:

"اما آقا رستم را پای تخت در شهر ساری بوده و در آن وقت به جهت سیر آبپاشان به قصبه طاحونه آمده که نواب رضوان مکان شاه عباس ماضی علیه الرحمة و الغفران آن قصبه مذکوره را شهر عظیمی ساخته فرح آباد نام نهاده است".

*"Amma Ağa Rüstəmin paytaxtı Sari şəhəri idi və həmin vaxt o, susəpənləri seyr etmək üçün, sonradan cənnət məkanlı hökmdar, rəhmətlik və bağışlanmış Şah Abbas Mazinin böyük bir şəhərə çevirərək Fərəhabad adlandırdığı Tahunə qəsəbəsinə gəldi"*[2]. Göründüyü kimi, burada I Şah Abbasın öz sağlığında Mazandarandakı Tahunə qəsəbəsinin yerində Fərəhabad şəhəri saldırmasından bəhs olunur, həmçinin I Şah Abbasın ölümünə işarə edən epitetlər sadalanır.

Və yaxud:

"هیچ پادشاهی از شش ماهگی پادشاهی نکرده است الا دو پادشاه زاده: یکی نواب غفران پناه شاه تهماسب و دویم نواب جنت بارگاه شاه عباس که او را نیز در شیر خوارگی، شاه تهماسب علیه الرحمة پادشاه کل خراسان نمود و به او بخشید".

*"İki padşahzadədən başqa heç bir padşah altı aylığından padşahlıq etməmişdir: [bunlardan] biri bağışlanmış hökmdar Şah Təhmasibdir və ikincisi cənnət bargahlı hökmdar Şah Abbasdır ki, onu da südəmər vaxtında rəhmətlik Şah Təhmasib bütün Xorasanın padşahı etmişdi və [oranı] ona bağışlamışdı"*[3].

"Aləmara"nın bütün nüsxələrində əksini tapmış bu kimi faktlar sübut edir ki, bu mənbənin yazılış tarixi I Şah Abbasın

---

[1] Aləmara (Sahib), s.581; Aləmara (Şükri), s.560.
[2] Aləmara (Sahib), s.377; Aləmara (Şükri), s.323.
[3] Aləmara (Sahib), s.451-452; Aləmara (Şükri), s.398-399.

ölümündən, yəni 1629-cu ildən sonrakı dövrə aiddir. Nəhayət, "Aləmara"nın ən köhnə nüsxələrindən birinin ilk səhifəsində əvvəli və axırı pozulmuş bir cümlənin daxilində 1666-1694-cü illərdə hökmranlıq etmiş Səfəvi şahı Süleymanın adı çəkilir:

"سلطان شاه سليمان الصفوى الموسوى الحسينى بهادر خان"

*"Sultan Şah Süleyman əs-Səfəvi əl-Musəvi əl-Hüseyni Bahadır xan"*[1].

Əsərin Dublin nüsxəsinin də iki yerində Şah Süleyman xatırlanmış, ona uzun ömür arzulanmış və onun hakimiyyətinin İmam Sahibüz-Zamanın zühuruna kimi davam etməsi üçün dua edilmişdir[2]. Həmçinin "Aləmara"nı XVI əsrə aid edən V.Hinz və E.Qlassenin istifadə etdikləri İndia-ofis nüsxəsinin sonunda, 306a-312b vərəqlərində I Şah İsmayılın anadan olmasından, yəni 892 / 1487-ci ildən başlayaraq Səfəvi xanədanına dair geneoloji-xronoloji cədvəllər verilir və əlyazmanın sonu naqis olduğundan bu şərh 1015 / 1606-cı ilin hadisələrində yarımçıq qalır. Lakin həmin cədvəllərdən öncə verilmiş indeksdən aydın olur ki, hadisələrin təsviri Şah Süleymanın hakimiyyəti dövrünə qədər davam etdirilməli imiş[3].

Beləliklə, "Aləmara" yazılarkən "Tarix-i Əkbəri"dən istifadə olunması, əsərdə XVII əsrə aid istilahların geniş işlənməsi, I Şah Abbas dövrü ilə əlaqədar meydana çıxmış Bəndər-Abbas və Fərəhabad şəhərlərinin adlarının qeyd olunması, I Şah Abbasın ölümünə dair məlumatların mövcudluğu, nəhayət, Şah Süleymanın adının çəkilməsi və əsərin yazılış tarixi kimi mətn daxilində 1086 / 1675-76-cı ilin verilməsi "Aləmara"nın XVI əsrin mənbəsi olması barədə fikirlərin yanlışlığını sübut edir. Bütün dəlillər onu göstərir ki, "Aləmara" I Şah Abbasın dövründən çox sonralar, Şah Süleyman zamanında, konkret olaraq h. 1086-cı ildə (28.03.1675 – 17.03.1676) qələmə alınmışdır[4].

---

[1] Aləmara (Şükri), müqəddimə, s.21.
[2] B.D.Wood. The "Tarikh-i Jahanara", p.91.
[3] H.Ethe. Catalogue of Persian Manuscripts, p.213.
[4] N.S.Musalı. "Tarix-i aləmara-yi Şah İsmayıl" əsərinin yazılma tarixinə dair // Elmi Araşdırmalar, VII/3-4, 2005, s.222-225.

## 1.4. ƏSƏRİN MÜƏLLİFLİYİ VƏ ONUN İSTİFADƏ ETDİYİ MƏNBƏLƏR

### *A) Əsərin müəllifliyi və yazılış səbəbi*

Öncədən qeyd edək ki, "Aləmara" əsas etibarilə müxtəlif şifahi rəvayətlərin və bəzi yazılı hekayətlərin toplanması nəticəsində dastançılıq üslubunda qələmə alındığı üçün bu əsərin yazarını "müəllif" adlandırmağımız müəyyən mənada şərti xarakter daşıyır və ona "tərtibçi" ifadəsinin aid edilməsinin daha müvafiq olduğunu söyləmək mümkündür.

Təəssüf ki, "Aləmara"nın heç bir yerində əsərin müəllifinin adı qeyd olunmamışdır. Buna baxmayaraq, mütəxəssislər tərəfindən mənbənin mətni əsasında müəllifin etnik mənsubiyyəti, ictimai statusu, təhsilinin və dünyagörüşünün səviyyəsi barədə müəyyən fikirlər söylənilmişdir. "Aləmara"nın dil-üslub xüsusiyyətlərinin öyrənilməsi nəticəsində tədqiqatçılar onun müəllifinin azərbaycanlı olması qənaətinə gəlmişlər. Y.Şükri yazır: "Bu kitabda işlədilmiş lüğətə, tərkibata və istilahata görə demək mümkündür ki, müəllif Şimali İranın, xüsusən də Azərbaycanın əhlindən olmuş və ya uzun bir müddət orada yaşamışdır"[1]. Ə.M.Sahib də müəllifin "daha çox Azərbaycan vilayətində ümumişlək olan kəlmələrdən, təbirlərdən və kinayətlərdən" istifadə etməsinə əsaslanaraq, onun azərbaycanlı olması fikrini irəli sürmüşdür[2]. Mənbədən yararlanmış digər əcnəbi alimlər də bizim anonim müəllifin azərbaycanlı olmasını öz əsərlərində qeyd etmişlər[3].

Biz müəllifin etnik mənsubiyyəti barədə yuxarıda göstərilən mülahizəni dəstəkləyirik. Məlumdur ki, ərəb və fars dillərində yazılmış orta əsr Azərbaycan kitablarının müəyyənləşdirilməsi üçün mətndə rast gələ biləcək milli-linqvistik faktların,

---

[1] Aləmara (Şükri), müqəddimə, s.20. Y.Şükrinin Azərbaycanı "Şimali İran" hesab etməsi ilə razılaşmasaq da, hər halda, onun "Aləmara" müəllifinin azərbaycanlı olduğunu etiraf etməsi təqdirəlayiq bir açıqlamadır.

[2] Aləmara (Sahib), müqəddimə, s.16.

[3] О.Экаев. Туркменистан и туркмены, с.3; Н.Г.Гелашвили. К изучению анонимного источника, с.99; Sh.A.Quinn. Rewriting Nimatullahi History, p.219.

azərbaycanlılara xas dil-təfəkkür münasibətlərinin aşkara çıxarılması mühüm əhəmiyyət kəsb edir[1]. “Aləmara” sadə fars dilində qələmə alınıb və mətni oxuyarkən belə təsəvvür yaranır ki, əsər türkcə düşünülüb farsca yazılmışdır. Bununla yanaşı, bizim müəllif öz əsərində xeyli türk sözləri işlətmişdir ki, bu sözlərin bəziləri hələ Səfəvilər dövründə (və ya ondan daha əvvəl) termin kimi fars dilinə keçsələr də, digərləri fars dilinin leksikonuna daxil olmamışlar. Araşdırmalarımız nəticəsində “Aləmara”nın mətnində 160-dan çox türkcə sözlər, terminlər, ifadələr müəyyən edilmişdir[2]. Müəllif bir sıra hallarda cümlə daxilində farsca kifayət qədər qarşılığı və sinonimləri olan müəyyən sözləri türkcə verməyi lazım bilmişdir. Bəzi nümunələrin farsca orijinalını və tərcüməsini təqdim edirik[3]:

"به آن گنج اوغلان گفت اگر بشنوم که با سلطان سلیم یا دیگری گفته باشی، بند از بند تو را جدا خواهم کرد"

(Həmin *gənc oğlan*a dedi: əgər eşitsəm ki, Sultan Səlimə və ya bir başqasına demisən, səni parça-parça etdirərəm);

"ای قرداش، این نامرد دو مرتبه آمده است و هر بار خرابی بسیار و پسر و دختر و مال و اسباب رعیت را برده است"

(Ey *qardaş,* bu namərd iki dəfə gəlmişdir və hər dəfə çoxlu dağıntı [törətmiş], rəiyyətin oğullarını, qızlarını, mallarını və əşyalarını aparmışdır);

"آتلان آتلان در آن دو سپاه کینه خواه افتاد و از جای در آمدند و روی به میدان نهادند"

(Hər iki qisasçı orduda *“atlan-atlan”* səsləri yayıldı və yerlərindən tərpənib meydana üz qoydular);

این مکان جنگ است، اردوی اطراق نمایند

(Bura döyüş məkanıdır, *ordu oturaq* olunsun);

"فرمودند که این مادیان از چه سوئی است؟ عرض نمود که این را سوی مشعشعی می گویند"

(Soruşdular ki, bu madyan hansı *soy*dandır? Ərz etdi ki, buna Müşəşəyi *soy*u deyirlər);

" چون رومیان علم سردار را نگونسار دیدند، قاچاقاچ در میان ایشان انداخته"

---

[1] M.M.Adilov. Azərbaycan paleoqrafiyası, s.43-44.

[2] Bu barədə monoqrafiyanın sonundakı əlavələrə baxın.

[3] Aləmara (Sahib), s.78,179,245,246,520,525; Aləmara (Şükri), s.80,158, 162,163,440,492,495.

(Rumilər sərdarın ələminin endirildiyini gördükdə, onların arasında *qaçaqaç* düşdü);

"البته آن قلقچی از پیش خود آن نامه و بقچه را فرستاده"

(Əlbəttə, o *qulluqçu* həmin məktubu və *boğça*nı öz tərəfindən göndərmişdir);

"همیشه می گفتند که حامی اوزی دور"

(Həmişə deyərdilər ki, hami *özüdür*);

"به یاران خود می گفت که بو شیخ اوغلی در"

(Öz dostlarına dedi ki, *bu, şeyx oğludur*).

Əsərdə həmçinin "səni deyib gəlmişəm", "qurbanın olum", "başına dönüm" və s. kimi türkcə ibarələrin farsca tərcüməsi, habelə bəzi Azərbaycan atalar sözlərinin ("kim bişirdi, kim yedi", "nə əkərsən, onu da biçərsən", "yaxşı oğul dayısına oxşayar", "əl mənimdir, ətək sənin" və s.) farsca variantı verilmişdir[1]. Müəllif Dərbənd şəhərindən bəhs edərkən oranın adının ərəbcə ("Babül-əbvab") və ya farsca ("Dərbənd") formalarını deyil, məhz türkcə formasını ("Dəmirqapı") qeyd etməyi üstün tutmuşdur[2]. Əsərdəki bu cür dil-üslub xüsusiyyətləri "Aləmara" müəllifinin Azərbaycan türklərindən olması barədə mülahizələrin doğruluğunu təsdiq edir. Onu da qeyd etmək yerinə düşərdi ki, müəllif bir çox hallarda kürdlərə "yezid" ("kürdan-i yezidi")[3], lurlara "yaramaz" ("əlvar-i əşrar") və "namərd" ("əlvaran-i namərd")[4], ərəblərə isə "imansız" ("ürban-i bi-iman") və "qaniçən" ("ürban-i xunxar")[5] damğası vursa da, türkləri "sadiq və təmiz qəlbli türk", "sadiq türk camaatı", "sevimli və şücaətli türklər" və s. deyə xarakterizə etmişdir[6].

Müəllifin öz əsərini ənənəvi saray və feodal salnaməçiliyi üslubunda deyil, sadə danışıq tərzində və digər əsərlədən köçürdüyü parçalar istisna olmaqla təmtəraqlı cümlələrə yer vermədən yazması, həmçinin əsərin bir sıra yerlərində rəiyyətin vəziyyətinin canlı şəkildə təsvir olunması və onların üzləşdik-

---

[1] Aləmara (Sahib), s.250,375; Aləmara (Şükri), s.53,279,321.
[2] Aləmara (Şükri), s.22; Aləmara (Məclis kitabxanası – 9421), v.2a.
[3] Aləmara (Sahib), s.151,152,163; Aləmara (Şükri), s.108,126.
[4] Aləmara (Şükri), s.131-132; Aləmara (Məclis kitabxanası – 9421), v.10a.
[5] Aləmara (Şükri), s.132,136; Aləmara (Məclis kitabxanası – 9421), v.12b.
[6] Aləmara (Sahib), s.228; Aləmara (Şükri), s.93; Aləmara (Məclis kitabxanası – 9421), v.38a.

ləri problemlərin qabardılması onu göstərir ki, "Aləmara" müəllifi aristokratiya və saray çevrələrinin deyil, sadə xalqın nümayəndəsi olmuşdur. Lakin buna baxmayaraq, qatı şiə olan müəllif öz əsərini islamın şiə cərəyanının, isna-əşəriyyə (on iki imam) əqidəsinin dayağı olan Səfəvilər sülaləsinin mədhi üzərində qurmuşdur.

Şah İsmayıl mövzusu xalq içərisində çox populyar idi. O.Əfəndiyev yazır ki, Şah İsmayılın "əsas döyüşlərdə şəxsən iştirak etməsi, misilsiz şücaət və qəhrəmanlıq nümayiş etdirməsi, həm də böyük şair istedadı onu xalq dastanları səviyyəsinə qaldırmışdı"[1]. B.D.Vudun göstərdiyi kimi, "cəmiyyətin müəyyən bir təbəqəsi arasında Şah İsmayıla dair xatirələr həmişə öz heyrətləndirmə və ruhlandırma gücünü qoruyub saxlamışdır"[2]. Buna görə də XVII əsrdə yaşamış müəllifin digər hansısa bir hökmdara deyil, məhz I Şah İsmayıla müraciət etməsi təəccüb doğurmamalıdır. Ə.M.Sahibin dəyərləndirməsinə görə, "sadə inşa ilə təhrir olunmuş bu əsər sıravi camaatın Şah İsmayıla olan məhəbbətinin bir nişanəsidir"[3]. Y.Şükri hesab edir ki, "Aləmara" müəllifi öz əsərini Şah İsmayılın yaşadığı dövrlə 150 illik zaman fasiləsinə malik olan geniş əhali kütləsinin, xüsusilə də Səfəvi ardıcıllarının bəhrələnməsi məqsədi ilə "Səfəvi sülaləsinin banisinin zəhmətlərinin qədrini bilmək, ona ehtiram göstərmək, onun fədakarlıqlarını və xariqüladə əməllərini bəyan etmək xatirinə, dastan nümunəsində" yazmış və bu əsər o dövrün ümumi yığıncaqlarında oxunaraq, dinləyicilərin zövqünü oxşamışdır[4]. A.H.Morton da "Aləmara" kimi əsərlərin ictimaiyyət arasında ucadan oxunmaq məqsədi ilə yazıldığını göstərmişdir[5]. İ.Əfşar özünün son yazılarından birində, Mirzə bəy Cünabədinin "Rövzətüs-Səfəviyyə" əsərinə müqəddimə kimi yazdığı Səfəvi tarixinin mənbəşünaslığı və tarixşünaslığı barədə məqalədə "Aləmara" haqqında söz aça-

---

[1] O.Əfəndiyev. Şah İsmayıl Xətainin şəxsiyyətinə dair // Şah İsmayıl və onun dövrü (beynəlxalq konfrans). Bakı: Xəzər Universiteti, 1997, s.42.
[2] B.D.Wood. The "Tarikh-i Jahanara", p.101.
[3] Aləmara (Sahib), müqəddimə, s.15.
[4] Aləmara (Şükri), müqəddimə, s.40.
[5] A.H.Morton. The Early Years of Shah Ismail, p.44-45.

raq bildirir ki, Səfəvi dövrünün bu tipli mənbələri "naqilanə xarakterə malik olsalar da, müraciət edilməyə qabil olan tarixi mənbələrdəndirlər. Səfəvi dövründə onları ədib və söz ustası olan nəqqallar tərtib etmişlər və bu əsərlər dastan kimi qəhvəxanalarda, meydanlarda və digər ictimai mərkəzlərdə oxunmuşdur"[1]. Sadə dildə, dastançılıq üslubunda yazılmış və sıravi xalqa ünvanlanmış "Aləmara" tezliklə hətta saray çevrələrinin də maraq dairəsinə daxil olmuşdu[2]. Bunu Şah Süleymanın ən mühüm saray rəssamı olan Müin Müsəvvirin çəkdiyi illüstrasiyalarla bəzədilmiş "Aləmara" nüsxəsinin mövcudluğu sübut edir (bu nüsxə haqqında hazırkı fəslin ilk paraqrafında məlumat verilmişdir).

Y.Şükri mənbədə sufiliyə xas olan çoxlu istilahların işlədilməsinə əsasən belə qənaətə gəlmişdir ki, "kitabın müəllifi təriqət və süluk əhlindən və Şeyx Səfi iradətməndlərindən olmuşdur"[3]. Bu fikrə O.Ekayev də şərik çıxır: "Anonim əsərin müəllifi, aydındır ki, yüksək təbəqələrin nümayəndəsi deyildir, lakin o, Səfəviyyə ordeninə sadiq bir adam olmuşdur"[4]. Doğrudan da, əsərdə dərvişlik və sufi həyat tərzinə dair geniş məlumatlar əksini tapmış, təsəvvüflə bağlı olan bir sıra istilahlardan bəhs olunmuş və müəllif "Şeyx Səfi ocağı"na, Səfəviyyə təriqətinə dərin rəğbətini izhar etmişdir.

### *B) "Aləmara"nın mənbələri*

"Aləmara" müəllifi öz əsərini yazarkən həm şifahi, həm də yazılı mənbələrdən istifadə etmişdir. Əsərin əvvəlində buna işarə edilmişdir:

اما راویان اخبار و ناقلان آثار و طوطیان شکر شکن و شیرین گفتار چنین آورده اند که...

Bu ifadələr bəzi digər klassik əsərlərdə rastlaşa biləcəyimiz şablon cümlə təsirini bağışlasa da, həqiqətən də, bizim müəllif nəsildən-nəsilə keçərək onun zamanına qədər gəlib

---

[1] İ.Əfşar. Yaddaşt // Mirzə bəy Cünabədi. Rövzətüs-Səfəviyyə. Tehran, 1378, s.14.
[2] Bax: B.D.Wood. The "Tarikh-i Jahanara", p.102.
[3] Aləmara (Şükri), müqəddimə, s.20,48.
[4] О.Экаев. Туркменистан и туркмены, с.4.

çatmış şifahi rəvayətlərlə ("raviyan-i əxbar") yanaşı, konkret tarixi məxəzlərdə əksini tapmış məlumatlardan ("naqilan-i asar") da yararlanmışdır[1]. Ümumiyyətlə, "Aləmara"nın mənbələrini aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür: 1) tarixi hadisələrlə bağlı xalqın yaddaşında qalan şifahi rəvayətlər; 2) folklor abidələri; 3) tarixi əsərlər, salnamələr; 4) yazılı ədəbiyyat nümunələri; 5) müəllifin öz müşahidələri və bilikləri.

Heç şübhəsiz ki, əsərin əsas hissəsi şifahi xalq rəvayətlərinə əsaslanmışdır. "Aləmara" müəllifi özünün də sıx bağlı olduğu Səfəviyyə təriqətinin müridləri arasında Şah İsmayılın və onun "sufi"lərinin şücaətləri barəsində yayılmış hekayətləri öz əsərinə daxil etmişdir. O zamanlar Şah İsmayıl mövzusu xalq arasında geniş yayıldığından, bizim müəllif öz əsərini yazarkən mövzuya dair şifahi rəvayətlərin bilicisi olan müxtəlif şəxslərlə görüşmüş və öz əsərini onların məlumatları ilə zənginləşdirmişdir. 1539-40-cı illərdə Azərbaycan Səfəvilər dövlətində olmuş Venesiya elçisi M.Membrenin səyahətnaməsində qeyd edilir ki, Təbriz meydanında "Şah İsmayılın savaşları barədə oxuyanlar var və hamı qulaq asmaq üçün onlara pul verir"[2]. Azərbaycan xalqı arasında dildən-dilə, nəsildən-nəslə keçən bu kimi hekayətlər sonradan "Aləmara"nın yazılması üçün qaynaq rolunu oynamışdır. B.D.Vud haqlı olaraq yazır: "Xilaskar hesab olunan Şah İsmayıl özünün fövqəladə xarizması və hərbi şücaətləri sayəsində, əlbəttə ki, haqqında dastanlar söylənməyə layiq olan bir şəxsiyyət idi. Şah İsmayılın qeyri-adi həyat yolunun ayrıntıları onun özünün, onun üçün yol açmış əcdadlarının və onun qəhrəman qızılbaş silahdaşlarının barəsində şifahi rəvayətləri özündə birləşdirən valehedici bir toplunun ("Aləmara"nın – N.M.) ortaya çıxması üçün nüvə rolunu oynamışdı"[3].

"Aləmara" müəllifi topladığı məlumatlara heç də kor-koranə yanaşmamış, onları müəyyən bir təhlil süzgəcindən keçirmişdir. O, eyni hadisə haqqında iki müxtəlif rəylə üzləşdikdə bu metoddan istifadə etmiş və öz mövqeyini ifadə etməyə ça-

---

[1] Aləmara (Sahib), s.1; Aləmara (Şükri), müqəddimə, s.36.
[2] O.Əfəndiyev. Venesiyalılar Şah I Təhmasibin sarayında. Bakı, 2005, s.74.
[3] B.D.Wood. The "Tarikh-i Jahanara", p.92.

lışmışdır. Məsələn, ona Xürrəmabadda hökmranlıq etmiş "Abbasi lurları" ("lur-i Abbasi") sülaləsinin adının mənası barəsində iki müxtəlif rəvayət söylənmiş, o isə bunların hər ikisini qələmə alsa da, ikinci rəvayəti üstün tutduğunu və daha doğru hesab etdiyini vurğulamışdır: *"Amma Abbasi lurları haqqında bir-iki müxtəlif izahat söyləyirlər. Əvvəlincisi odur ki, deyilənə görə, onlar peyğəmbərin əmisi Abbasın nəslindəndirlər. Digəri odur ki, onların indi sahib olduqları divan malı (mal-i divan) Bəni-Abbas xəlifələri zamanında Abbasilər sülaləsinin mətbəxinə aid olmuşdur və zahirən bu izahat daha dürüstdür"*[1]. Müəllif, Təhmasibin anadan olmasından bəhs edərkən yazır: *"Bəziləri deyirlər ki, doğuş Həmədan bölgəsində baş vermişdir. Lakin doğru olanı budur ki, doğuş İsfahan ətrafında baş vermişdir"*[2]. Digər bir yerdə isə bu cümləyə rast gəlirik: *"Bir rəvayətə görə, bir gün, başqa bir rəvayətə görə isə, üç gün yol getdi"*[3]. Göstərilən parçalar onu sübut edir ki, "Aləmara" müəllifi topladığı məlumatlara tənqidi yanaşmaq və hətta, bəsit də olsa, müəyyən təhqiqat aparmaq qabiliyyətinə malik olmuşdur. Lakin bu xüsusiyyətlər özünü əsərin heç də hər yerində büruzə vermir. Çünki mənbə müəllifinin məqsədi tarixi həqiqətləri üzə çıxarmaq deyil, qibtə etdiyi şahın həyatını və mübarizəsini mədh etməkdir.

Azərbaycan şifahi xalq ədəbiyyatı ilə yaxşı tanış olan müəllif bəzi hallarda xalq dastanlarında rast gəlinən motivləri tarixi faktlarla sintez etməyə çalışmışdır. Məsələn, Şah İsmayılın Taclı bəyimlə evlənməsi haqqındakı hekayətdə qeyd olunur ki, qızılbaş sərkərdəsi Əbdi bəy Şamlunun qızı və Durmuş xan Şamlunun bacısı olan Taclı bəyim gözəl olduğu qədər də şücaətli və cəsur bir qız idi və atası ilə şərt kəsmişdi ki, *"hər kim ki nizə və qılınc döyüşündə mənə qalib gəlsə və ya güləşmədə məni yıxsa, o, mənim ərim olacaqdır"*[4]. Bu adət Oğuz ellərində geniş yayılmışdı və "Kitab-i Dədə Qorqud"da Baybu-

---

[1] Aləmara (Sahib), s.171; Aləmara (Məclis kitabxanası – 761), v.44a.
[2] Aləmara (Şükri), s.164; Aləmara (Məclis kitabxanası – 9421), v.25b.
[3] Aləmara (Sahib), s.41; Aləmara (Məclis kitabxanası – 761), v.11b.
[4] Aləmara (Sahib), s.81; Aləmara (Məclis kitabxanası – 761), v.21a-b.

ra bəyin oğlu Bamsı Beyrəyin Baybecan bəyin qızı Banıçiçəklə evlənməsi boyunda da öz əksini tapmışdır[1].

"Aləmara"nın bəzi yerlərində pəhləvanların döyüşqabağı dialoqları, təkbətək döyüşləri, dəli nərə çəkmələri və şücaətləri Azərbaycan qəhrəmanlıq dastanları, xüsusən də "Koroğlu" dastanı ilə həmahəng olan üslubda şərh olunur. Fikrimizin isbatı üçün bir örnək təqdim edək. Əsərdə deyilir ki, Səfəvilərin Diyarbəkr bəylərbəyisi Məhəmməd xan Ustaclunun qoşunu ilə Mərəş və Əlbistan hakimi, Zülqədər bəyliyinin başçısı Əlaüddövlə Bozqurdun oğlu Kor Şahrux Zülqədərin qüvvələri arasında baş vermiş döyüşdən öncə bir gözü görməyən Kor Şahrux Zülqədər meydana çıxıb, təkbətək savaşmaq üçün qarşı tərəfdən ər tələb edir. Onun adaşı olan və onun kimi bir gözü kor olan bir ustaclu döyüşçüsü Məhəmməd xandan rüxsət alıb, meydana çıxır: *"Bu əsnada Kor Şahrux Ustaclu atını onun bərabərinə sürdü. Özü kimi bir təkgözlünün gəldiyini görən Kor Şahrux Zülqədər dedi: "De görüm, kimsən?" Söylədi: "Mənə Kor Şahrux Ustaclu deyərlər". Çox söz-söhbətdən sonra nizə çəkib, bir-birinə həmlə etdilər. Nizə döyüşündə tən gəldilər və oxla kamana əl atdılar. Bununla da bir-birini üstələyə bilmədilər. Hər ikisi qılıncını sıyırdı, bir-birinə tərəf üz qoydular. O qədər qılınc vurdular ki, axırda hər ikisinin qılıncı parça-parça oldu. At üstündə yüyənlərini dartıb, bir-birinin kəmərbəndinə əl atdılar. Kor Şahrux Ustaclu "ya Əli, mədəd!" deyib, onu yəhərin üzərindən qaldırıb yerə vurdu və sinəsinin üstünə çöküb, əllərini möhkəm-möhkəm bağladı"*[2].

Anonim müəllif əsərdəki fikirləri qüvvətləndirməkdən ötrü zərb-məsəllər və atalar sözləri kimi folklor nümunələrinə də yer vermişdir (bu atalar sözlərindən bəziləri əsərimizin "Əlavələr" hissəsində verilmişdir).

Apardığımız araşdırmalar nəticəsində "Aləmara"nın yazılması zamanı rəvayətlərlə yanaşı, yazılı mənbələrdən də istifa-

---

[1] Kitabi-Dədə Qorqud. Bakı, 2004, s.56.

[2] Aləmara (Şükri), s.145; Aləmara (Məclis kitabxanası – 9421), v.17a. Bu parçanı "Koroğlu" dastanında Koroğlunun Dəli Həsənlə döyüşməsinin təsviri və s. buna bənzər səhnələrlə müqayisə edə bilərik: Azərbaycan dastanları. IV c. Bakı, 2005, s.22.

də olunması faktları aşkarlanmışdır. "Aləmara" müəllifinin ən çox müraciət etdiyi mənbə 1540-48-ci illər arasında Bicən adlı tarixçi tərəfindən yazıldığı güman edilən və daha çox şərti olaraq "Şah İsmayılın anonim tarixi" adlandırılan "Cahangüşa-yi xaqan" əsəridir. Bu əsər də "Aləmara" kimi Səfəvi nəslinin ulu əcdadı Firuzşah Zərrinkülahdan başlayaraq I Şah Təhmasibin hakimiyyətə gəlişinə qədər Səfəvi şeyxlərinin qısa və I Şah İsmayılın olduqca ətraflı tarixini əhatə edir. Mənbənin Londondakı Britaniya Muzeyində və Kembric Universitetinin kitabxanasında mühafizə olunan əlyazma nüsxələri vardır. XIX əsrin sonlarında ingilis şərqşünası E.D.Ross bu mənbənin London nüsxəsinin bir hissəsini nəşr etdirmişdi[1]. Biz "Cahangüşa-yi xaqan"ın Pakistan alimi A.Müztər tərəfindən hazırlanmış nəşrindən istifadə etmişik[2]. Naşir bu kitabda mənbənin London nüsxəsinin surətini faksimile şəklində çap etdirmiş, daha sonra isə mənbənin Kembric əlyazması ilə London əlyazmasının fərqli cəhətlərini göstərmişdir. O.Əfəndiyev Bicənin əsərini Şah İsmayıl dövrünün tarixinə aid ən mühüm mənbə kimi səciyyələndirmişdir[3].

"Cahangüşa-yi xaqan"la "Aləmara"nın arasındakı bəzi oxşarlıqlara hələ H.Beveric diqqət çəkmişdir[4]. "Aləmara"nın özünə aid nüsxəsi ilə "Cahangüşa-yi xaqan"ın E.D.Ross tərəfindən nəşr edilmiş hissəsi arasındakı müəyyən bənzər cəhətlər M.T.Şihabın nəzərini cəlb etmişdir[5]. R.Seyvorinin "İran Səfəvilər zamanında" adlı monoqrafiyasını farsca nəşr etdirib ona şərhlər yazmış K.Əzizi də R.Seyvorinin istinad etdiyi "Şah İsmayılın anonim tarixi"nin bəzi parçalarının Ə.M.Sahibin çap

---

[1] E.D.Ross. The Early Years of Shah Ismail – founder of the Safawi Dinasty in Persia // JRAS, vol. 29, 1896 p.249-340

[2] Cahangüşa-yi xaqan (Tarix-i Şah İsmail). Müqəddimə və peyvəstha: A.Müztər. İslamabad, 1986 (bundan sonra: Cahangüşa-yi xaqan).

[3] O.Ə.Əfəndiyev. Salnaməçi Bicən Şah İsmayıl Xətai haqqında // Şah İsmayıl Xətai (məqalələr toplusu). Bakı, 1988, s.25.

[4] H.Beveridge. The Author of the Life of Shah İsmail Safavi, p.889-895.

[5] Bax: Ч.А.Стори, Ю.Э.Брегель. Персидская литература, с.1468.

etdirdiyi "Aləmara-yi Şah İsmayıl" əsəri ilə səsləşdiyinin fərqinə varmışdır[1].

O.Ekayev "Aləmara" ilə həmin mənbənin iki müxtəlif parçasından müqayisəli nümunələr (Şah İsmayılın 13-cü əcdadı Firuzşah Zərrinkülahın həyatına və Ağqoyunlu Rüstəmin azyaşlı İsmayılı Lahican hakimi Karkiya Mirzə Əlidən tələb etməsinə dair) verərək, belə nəticəyə gəlmişdir ki, bu əsərlərin mətni "əsas etibarilə üst-üstə düşür". Onun fikrincə, "Şah İsmayılın anonim tarixi" "Aləmara"nın ilkin, XVI əsrdə yazılmış mətnidir və "Aləmara" müəllifi guya bu mətnə bəzi dəqiqləşdirmələr və əlavələr edərək, onu redaktə etmiş və yenidən köçürmüşdür. Beləliklə, O.Ekayev bu iki mənbənin fərqli əsərlər olmasını şübhə altına almış və onları eyniləşdirərək, "Aləmara"nı "Cahangüşa-yi xaqan"ın yenidən redaktə olunmuş forması hesab etmişdir[2].

"Cahangüşa-yi xaqan"ın iki əlyazma nüsxəsi əsasında elmi-tənqidi mətnini hazırlamış Pakistan alimi A.Müztər də bu məsələyə toxunmuş, lakin tamam başqa mövqe nümayiş etdirmişdir. Onun fikrincə, "Aləmara"nın və "Cahangüşa-yi xaqan"ın Şah İsmayılın əcdadlarından bəhs edən əvvəlinci hissələri üst-üstə düşsə də, Şah İsmayılın özünün tarixinə gəldikdə, bu iki mənbənin mətni "bir-birindən tam fərqlidir"[3].

Biz "Aləmara" ilə "Cahangüşa-yi xaqan"nın mətnlərinin tam müqayisəsini apararaq, söylənilən hər iki versiyada müəyyən yanlışlıqların olduğu qənaətinə gəlmişik. İlk növbədə onu qeyd etməliyik ki, hər iki mənbənin, A.Müztərin göstərdiyi kimi, Şah İsmayılın tarixinə qədərki hissəsi deyil, Şah İsmayılın babası Şeyx Cüneydin ölümünə qədərki hissəsi, tamamilə olmasa da, əsasən üst-üstə düşür. Məsələn:

| **"Cahangüşa-yi xaqan", s.9.** | **"Aləmara-yi Şah İsmayıl", s.4.** |
|---|---|
| صلاح الدین رشید نورالله مرقده در کمال | صلاح الدین رشید مردی بود در |

[1] R.Seyvori. İran-i əsr-i Səfəvi (tərcüme-yi K.Əzizi). Tehran, 1366, s.18,19, 26.
[2] О.Экаев. Туркменистан и туркмены, с.7-9.
[3] Cahangüşa-yi xaqan, müqəddimə, s.5-6.

| | |
|---|---|
| صلاح و تقوی و دانش بود و اسباب و اموالی که داشت تمام در راه خدا صدقه نمود و به لباس درویشی در آمده به جانب قریه کلخوران رفت و در آن قریه به سرمی برد.<br><br>Tərcüməsi: “Səlahəddin Rəşid – Allah qəbrini nurla doldursun – yaxşılıqda, möminlikdə və bilikdə kamala çatmışdı və sahib olduğu əşyaların və malların tamamını Tanrı yolunda sədəqə etmişdi və dərviş libası geyərək, Kəlxuran kəndi tərəfə getmiş və o kənddə yaşamışdı”. | کمال صلاح و تقوی و دانش و اسباب و اموالی که داشت تمام را در راه خدا به مسلمانان صدقه داد و خود به لباس درویشی بر آمده در قریه کلخوران رفت و در آنجا به سر می برد.<br>Tərcüməsi: “Səlahəddin Rəşid yaxşılıqda, möminlikdə və bilikdə kamala çatmış bir kişi idi və sahib olduğu əşyaların və malların tamamını Tanrı yolunda müsəlmanlara sədəqə vermişdi və özü dərviş libası geyərək, Kəlxuran kəndinə getmiş və orada yaşamışdı”. |

| **“Cahangüşa-yi xaqan”, s.36.** | **“Aləmara-yi Şah İsmayıl”, s.23.** |
|---|---|
| چون نامه میرزا جهانشاه به آن حضرت رسید مریدان خود را طلبیده و گفت در جواب این مرد چه نویسم؟ مریدان گفتند آنچه به خاطر شریف مرشد می رسد در جواب بنویسند.<br><br>Tərcüməsi: “Mirzə Cahanşahın naməsi o həzrətə çatdıqda öz müridlərini çağırdı və dedi: “Bu kişinin cavabında nə yazım?”. Müridlər dedilər: “Mürşidin şərəfli  xatirinə nə gəlirsə, cavabda [eləcə] yazılsın”. | چون نامه میرزا جهانشاه به حضرت سلطان جنید رسید مریدان را طلب نموده گفت که در جواب نامه چه نویسم؟ مریدان گفتند آنچه به خاطر شریف می رسد جواب بنویسند.<br><br>Tərcüməsi: “Mirzə Cahanşahın naməsi Həzrət Sultan Cüneydə çatdıqda müridləri çağırıb dedi ki, namənin cavabında nə yazım? Müridlər dedilər: “Şərəfli  xatirinizə nə gəlirsə, cavab [eləcə] yazılsın”. |

Lakin Şeyx Cüneydin həlak olması hadisəsinin təsvirindən başlayaraq bu iki mənbə arasında hadisələrin şərhi bir-birin-

dən fərqlənir. “Cahangüşa-yi xaqan”da əhvalatların baş verdiyi dəqiq tarixlər göstərilir və konkret tarixi faktlar şərh olunur. Halbuki, artıq qeyd etdiyimiz kimi, “Aləmara”da tarixi hadisələrin vaxtları, demək olar ki, göstərilməmiş və daha çox rəvayətlərə üstünlük verilmişdir. Buna görə də Cüneydin ölümündən sonrakı hadisələrin təsvirində, eləcə də Şah İsmayılın tarixinin şərhində bu iki mənbə bir-birindən A.Müztərin iddia etdiyi kimi tamamilə olmasa da, əksər hallarda fərqlənir. Bu isə O.Ekayevin bu iki mənbəni eyniləşdirmək cəhdlərini heçə çıxarır. Ancaq buna baxmayaraq, Cüneydin ölümündən sonrakı hadisələrin təsvirində də “Aləmara” müəllifi bəzi hallarda “Cahangüşa-yi xaqan” əsərinə müraciət etmişdir. Mətnlərin müqayisəsi nəticəsində müəyyənləşdirmişik ki, “Aləmara” müəllifi Şeyx Heydərin qızılbaş tacı düzəltməsi[1], Ağqoyunlu Rüstəm padşahın İsmayılın böyük qardaşı Sultan Əlini öz varisi təyin etməsi[2], Rüstəm padşahın Gilanda gizlənmiş Səfəvi İsmayılı Karkiya Mirzə Əlidən tələb etməsi və Mirzə Əlinin hiylə işlədərək, Ağqoyunlu elçilərini aldatması[3], İsmayılın İmam Sahibüz-Zamandan xüruc izni alması[4], Ağqoyunlu Əlvənd mirzənin Şərur döyüşündən öncə Şah İsmayılla məktublaşması[5], Şah İsmayılın Təbrizdə şiə xütbəsi oxutdurması[6], Şah İsmayılın öz elçisi Qənbər ağanı Ağqoyunlu Sultan Muradın sarayına göndərməsi[7], Hüseyn Kiya Çəlavinin əsirliyi[8], Əlaüddövlə Zülqədərlə dö-

---

[1] Cahangüşa-yi xaqan, s.41-42; Aləmara (Sahib), s.26; Aləmara (Şükri), s.30.

[2] Cahangüşa-yi xaqan, s.51-52; Aləmara (Sahib), s.29-30; Aləmara (Şükri), s.34.

[3] Cahangüşa-yi xaqan, s.69-75; Aləmara (Sahib), s.36-41; Aləmara (Şükri), s.40-45.

[4] Cahangüşa-yi xaqan, s.86-88; Aləmara (Sahib), s.42-43; Aləmara (Şükri), s.46-47.

[5] Cahangüşa-yi xaqan, s.135-136; Aləmara (Sahib), s.57-58; Aləmara (Şükri), s.61-62.

[6] Cahangüşa-yi xaqan, s.147-149; Aləmara (Sahib), s.60-61; Aləmara (Şükri), s.64-65.

[7] Cahangüşa-yi xaqan, s.164-167; Aləmara (Sahib), s.67-69; Aləmara (Şükri), s.71-74.

[8] Cahangüşa-yi xaqan, s.209; Aləmara (Sahib), s.131; Aləmara (Şükri), s.98.

yüşdən əvvəl Şah İsmayılın öz lələsi Hüseyn bəy Şamlu ilə birlikdə gecə vaxtı gizlicə ordugahı dolaşması[1], qızılbaş sərkərdəsi Məhəmməd xan Ustaclunun ordusunun Şahrux bəy Zülqədərin qoşunları ilə döyüşündən öncə ustacluların və zülqədərlərin itlərinin boğuşması[2], Əlaüddövlə Zülqədərin Məmlük və Osmanlı sultanlarına qarşı hiylə işlətməsi[3], özbək hökmdarı Şeybani xanın Teymuri şahzadəsi Babura rəğbət bəsləyən Səmərqənd kələntərini[4] və Heratda xoşlamadığı rübaini oxuyan xanəndəni edam etdirməsi[5], Şah İsmayılın Şeybani xanın kəsilmiş əlini itaətsizlik göstərən Mazandaran hakimi Ağa Rüstəmə göndərməsi[6], ustacluların Misir sultanı Qansu Qurinin göndərdiyi həbəş qulamları ilə döyüşü[7] və Sultan Səlimin Təbrizi işğal etdiyi vaxt xətibin xütbəni səhvən Şah İsmayılın adına oxuması[8] ilə bağlı əhvalatları “Cahangüşa-yi xaqan” əsərindən əxz etmişdir. Mülahizəmizin təsdiqi üçün bəzi nümunələrə nəzər salaq:

| **“Cahangüşa-yi xaqan”, s.136,622.** | **“Ələmara-yi Şah İsmayıl”, s.58.** |
|---|---|
| مرا داعیه سلطنت و جهانداری نیست. می خواهم که دین آبا و اجداد خود حضرات ائمه معصومین صلوات الله علیهم اجمعین را رواج دهم و تا جان داشته باشم، در راه دین مبین شمشیر بزنم که حق به مرکز | مرا داعیه سلطنت و پادشاهی نیست و می خواهم که دین آبا و اجدادم حضرات معصومین را رواج دهم و تا جان در تن خواهم داشت، در راه خدا و رسول و دین مبین شمشیر خواهم زد تا حق به |

[1] Cahangüşa-yi xaqan, s.251-252; Aləmara (Sahib), s.202-203; Aləmara (Şükri), s.112-113.
[2] Cahangüşa-yi xaqan, s.273; Aləmara (Sahib), s.228; Aləmara (Şükri), s.140.
[3] Cahangüşa-yi xaqan, s.278; Aləmara (Sahib), s.62; Aləmara (Şükri), s.66.
[4] Cahangüşa-yi xaqan, s.326; Aləmara (Sahib), s.262; Aləmara (Şükri), s.191.
[5] Cahangüşa-yi xaqan, s.341-342; Aləmara (Sahib), s.307-308; Aləmara (Şükri), s.256.
[6] Cahangüşa-yi xaqan, s.385-386; Aləmara (Sahib), s.377-379; Aləmara (Şükri), s.324-326.
[7] Cahangüşa-yi xaqan, s.480-485; Aləmara (Sahib), s.236-240; Aləmara (Şükri), s.153-157.
[8] Cahangüşa-yi xaqan, s.506-507; Aləmara (Sahib), s.533; Aləmara (Şükri), s.503.

| | |
|---|---|
| خود قرار بگیرد.<br>Tərcüməsi: “Mənim səltənət və cahandarlıq iddiam yoxdur. İstəyirəm ki, öz ata-babamın, əlahəzrət məsum imamların – hamısına Allahın salamı olsun – dininə rəvac verim və nə qədər ki canım var, doğru dinin yolunda qılınc vurum ki, haqq öz mərkəzində qərar tutsun”. | مرکز خود قرار گیرد.<br>Tərcüməsi: “Mənim səltənət və padşahlıq iddiam yoxdur və istəyirəm ki, ata-babamın, əlahəzrət məsumların dininə rəvac verim və nə qədər ki bədənimdə canım olacaqdır, Allahın, Rəsulun və doğru dinin yolunda qılınc vuracağam, ta ki haqq öz mərkəzində qərar tutsun”. |

| **“Cahangüşa-yi xaqan”, s.166.** | **“Aləmara-yi Şah İsmayıl”, s.68.** |
|---|---|
| شاه می خواهد که فرصت به دست او آید و مرا هم از میان بر دارد و در این مدت که به جنگ من نیامد از امیر الوند برادرم خاطرش جمع نبود و می گفت که تا کار الوند پادشاه را نسازیم به جانب سلطان مراد حرکت نباید کرد و مرا مراد نامراد لقب داده.<br>Tərcüməsi: “Şah istəyir ki, əlinə fürsət düşsün və məni də aradan qaldırsın və bu müddət ərzində ona görə mənimlə döyüşməyə gəlməmişdir ki, qardaşım Əmir Əlvənddən xatircəm deyildi və deyirdi ki, Əlvənd padşahın işini bitirməyincə Sultan Muradın üstünə hərəkət etməməliyəm və mənə “Murad-i namurad” ləqəbi vermişdi”. | شاه می خواست که فرصت به دست او افتاده مرا از میان بردارد و بدین جهت در این مدت به جنگ من نیامد و خاطرش از الوند جمع نبود و با خود می گفت تا کار الوند را نسازم سلطان مراد حرکت نخواهد کرد و مرا نامراد می دانست.<br>Tərcüməsi: “Şah istəyirdi ki, əlinə fürsət düşsün və məni aradan qaldırsın və o cəhətdən bu müddətdə mənimlə döyüşməyə gəlmirdi ki, Əlvənddən xatircəm deyildi və öz-özünə deyirdi ki, Əlvəndin işini bitirməyincə Sultan Murad hərəkət etməyəcəkdir və məni “namurad” hesab etmişdir”. |

Bu müqayisələr “Aləmara” ilə “Cahangüşa-yi xaqan”ın Şah İsmayılın tarixinə aid olan hissələrinin üst-üstə düşmədiyi barədə A.Müztərin yürütdüyü fikirlərin yanlış olduğunu üzə çıxa-

rır. Eyni zamanda, O.Ekayevin bu mənbələri tamamilə eyniləşdirmək cəhdləri də əsassızdır. Çünki yuxarıda sadaladığımız əhvalatların təsvirindən savayı, bu iki mənbənin digər hissələri bir-birindən fərqlidir[1].

Beləliklə, "Cahangüşa-yi xaqan" əsəri "Aləmara" müəllifinin müraciət etdiyi ən mühüm yazılı mənbədir. Bizim müəllif əsasən eşitdiyi şifahi rəvayətlərdəki məlumatları tamamlamaq məqsədi ilə məlumatının heç olmadığı və ya az olduğu hadisələrlə, hökmdarlar arasındakı diplomatik yazışmalarla əlaqədar, bəzən isə sadəcə maraq doğura biləcək məlumatlarla bağlı qeydləri bu mənbədən götürmüşdür[2].

"Aləmara" müəllifinin istifadə etdiyi digər mənbə XVI əsr Azərbaycan tarixçisi Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsərinin 900-985 / 1494-1578-ci illəri əhatə edən X cildi olmuşdur[3]. Məsələn, Şah İsmayılın Şiraz şəhərinə daxil olmasını bizim müəllif eyniylə "Əhsənüt-təvarix"dən əxz etmişdir:

---

[1] R.Mak-Çesni "Aləmara" müəllifinin "Cahangüşa-yi xaqan"la yanaşı, "Həbibüs-siyər"dən də istifadə etdiyini bildirir: Encyclopaedia Iranica, vol. 1, fasc. 8, p.797. Lakin onun bu fikri sübutsuzdur. Çünki hələ Ə.M.Sahib bu məsələni araşdırmış və belə qənaətə gəlmişdir ki, "Aləmara" müəllifi "məşhur və mötəbər bir tarixi əsər olan "Həbibüs-siyər"dən istifadə etməmiş və ona nəzər salmamışdır": Aləmara (Sahib), müqəddimə, s.17. Biz də öz növbəmizdə apardığımız tekstoloji tədqiqat zamanı "Aləmara" ilə "Həbibüs-siyər"in mətnləri arasında R.Mak-Çesninin müddəasını təsdiqləyə biləcək oxşarlıq tapa bilmədik.

[2] Uzun zaman tarixşünaslıqda qəbul olunmuş ümumi fikirə əsasən, "Cahangüşa-yi xaqan" əsəri 1540-48-ci illər arasında yazılmışdır (bax: G.Sarwar. History of Shah Ismail Safawi. Aligarh, 1939, p.10; O.A.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.12). Lakin A.H.Morton bu mənbənin XVII əsrin 80-ci illərinə aid olduğunu bildirmiş və Azərbaycan bəylərbəyisi Rüstəm xanın tərcümeyi-halını yazmış Bicən adlı tarixçini eyni zamanda "Cahangüşa-yi xaqan"ın müəllifi hesab etmişdir. A.H.Mortona görə, "Aləmara" müəllifi "Cahangüşa-yi xaqan"dan istifadə etməmiş, əksinə, "Cahangüşa-yi xaqan"ın müəllifi Bicən öz əsərini yazarkən, bir sıra hallarda "Aləmara"dan bəhrələnmişdir: The Date and Attribution, p.201. Lakin sübutlarının yetərsizliyi üzündən onun bu fərziyyəsini birmənalı şəkildə qəbul etmək mümkün deyildir. Mənbənin naşiri A.Müztər də "Cahangüşa-yi xaqan"ın 1540-48-ci illərdə yazıldığını göstərmişdir: Cahangüşa-yi xaqan, müqəddimə, s.1-2.

[3] "Əhsənüt-təvarix" on cilddən ibarət olsa da, onun sadəcə son iki cildi dövrümüzə qədər gəlib çatmışdır (bax: Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsr-

| “Əhsənüt-təvarix”, s.73 | “Aləmara-yi Şah İsmayıl”, s.110-111 |
|---|---|
| و حضرت جهانبانی بدولت و کامرانی<br>عروس مملکت شیراز را بی کلفت اغیار<br>در آغوش تصرف کشید. نظم:<br><br>گلستان شیراز بی خار بود<br>چنان گنج بی کلفت مار بود<br>گرانمایه باغی رسیده برش<br>نه در بسته نه باغبان بر درش<br><br>همای دولت سایه سعادت بدان دیار<br>انداخت و آفتاب طلعت همایون آن خطه<br>میمون را مشرف و منور ساخت پیک<br>گردون اخبار فتخ و نصرت را بمسامع<br>جهانیان رسانید.<br><br>Tərcüməsi: “Və dünyanı qoruyan həzrət dövlət və kamranlıqla Şirazın məmləkət gəlinini əğyarın maneəsi olmadan öz yiyəlik ağuşuna çəkdi. Nəzm:<br><br>Xarsız idi Şirazın gülüstanı,<br>Yoxdu böylə xəzinənin ilanı.<br>Zəngin bağın bəhrələri çox idi,<br>Qapısı açıq, bağbanı yox idi.<br><br>Dövlət quşu səadət kölgəsini | پس آن حضرت به دولت و کامرانی<br>عروس مملکت شیراز را بی کلفت<br>اغیار در آغوش تصرف آورده. بیت:<br><br>گلستان شیراز بی خار بود<br>چنان گنج بی کلفت اغیار بود<br>گرانمایه باغی رسیده برش<br>نه در بسته نه باغبان بر درش<br><br>و اما همای دولت و سعادت سایه اقبال<br>بدان دیار انداخته و آفتاب طلعت<br>همایون آن خطه میمون را مشرف و<br>معزز ساخت و پیک گردون سیر<br>اخبار فتح و تصرف را به مسامع<br>عالمیان رسانیده.<br><br>Tərcüməsi: “Sonra o həzrət dövlət və kamranlıqla Şirazın məmləkət gəlinini əğyarın maneəsi olmadan öz yiyəlik ağuşuna çəkdi. Beyt:<br><br>Xarsız qalmışdı Şirazın gülzarı,<br>Yoxdu böylə xəzinənin əğyarı.<br>Zəngin bağın bəhrələri çox idi,<br>Qapısı açıq, bağbanı yox idi.<br><br>Və amma dövlət və səadət quşu iqbal kölgəsini o diyarın üzərinə saldı və hökmda- |

lərdə, s.11-14). Biz IX cildin Ə.Nəvai, X cildin isə Ç.N.Seddon tərəfindən hazırlanmış nəşrlərindən istifadə etmişik. Son illərdə IX cild tamamilə, X cildin isə I İsmayıla aid hissəsi türkcəyə tərcümə edilmişdir: Hasan-ı Rumlu. Ahsenü’t-tevarih. Çeviren: M.Öztürk. Ankara, 2006; Rumlu Hasan. Şah İsmail tarihi (Ahsenü’t-tevarih). Çeviren: C.Cevan. Ankara, 2004.

| | |
|---|---|
| o diyarın üzərinə saldı və hökmdarın parlaq günəşi həmin bəxtiyar bölgəni şərəfləndirdi və nurlandırdı. Fələyin peyki fəth və zəfər xəbərlərini cahan sakinlərinin qulaqlarına çatdırdı". | rın parlaq günəşi həmin bəxtiyar bölgəni şərəfləndirdi və əzizlədi və fələyi seyr edən peyk fəth və zəbt xəbərlərini aləm sakinlərinin qulaqlarına çatdırdı". |

Bizim anonim müəllif "Cahangüşa-yi xaqan" və "Əhsənüt-təvarix" kimi tarixi əsərlərdən istifadə edərkən onlardan götürdüyü parçalara şifahi rəvayətlər və şəxsi bilikləri əsasında bəzi əlavələr etmiş və dəqiqləşdirmələr aparmışdır. Məsələn, o, Şah İsmayılın Təbrizdə xütbə oxutması ilə bağlı əhvalatın təsvirini "Cahangüşa-yi xaqan"dan əxz etsə də, həmin əsərdə olmayan bir məlumatı vermiş, yəni xütbəni oxuyan şəxsin adının Mövlana Əhməd Ərdəbili olduğunu göstərmişdir[1]. Həmçinin əsərin sonunda Şah İsmayılın həyatı və şəxsiyyətinə dair ümumiləşdirilmiş məlumat verən müəllif həmin hissədəki bir sıra fikirləri "Əhsənüt-təvarix"dən köçürmüş, lakin şəxsi mülahizələrini də əlavə etməyi unutmamışdır. Belə ki, Həsən bəy Rumlu, Şah İsmayılın hərbi fəaliyyətinə dair ümumiləşdirmədə onun beş böyük müharibəsinin olduğunu yazaraq, bu siyahıya Şirvanşah Fərrux Yəsara qarşı Cəbani döyüşünü, Ağqoyunlu Əlvəndə qarşı Şərur döyüşünü, Ağqoyunlu Sultan Murada qarşı Almaqulağı döyüşünü, özbək hökmdarı Şeybani xana qarşı Mərv döyüşünü və Osmanlı sultanı I Səlimə qarşı Çaldıran döyüşünü daxil edir[2]. Bizim müəllif isə həmin döyüşləri sadaladıqdan sonra bu sıraya Şah İsmayılın Əlaüddövlə Zülqədərlə müharibəsini də əlavə etməyi lazım bilir[3]. Bu faktlar "Aləmara" müəllifinin tarixi mənbələrdən yaradıcı şəkildə istifadə etdiyinin göstəricisidirlər.

"Aləmara" müəllifi əvvəlcə folklor nümunəsi kimi yaranmış, XVI əsrin sonlarında ayrı-ayrı hissələri yazıya alınmış "Şah İsmayıl və Taclı xanım vaqiəsi"ndən də istifadə etmişdir. "Va-

---

[1] Aləmara (Sahib), s.60-61; Aləmara (Şükri), s.64-65.
[2] Əhsənüt-təvarix (Seddon), s.182.
[3] Aləmara (Sahib), s.625; Aləmara (Məclis kitabxanası – 761), v.162b.

qiə”nin təhkiyə (nəsr) hissəsi farsca olsa da, şeirləri Azərbaycan dilində yazılmış 11 hecalı qoşmalardan ibarətdir. Ə.Məmmədov müəyyənləşdirmişdir ki, əslində əsərin təhkiyə hissəsi də Azərbaycan dilində olmuş, yalnız sonradan farscaya çevrilərək yazıya alınmışdır[1]. “Vaqiə”nin I Şah Abbas dövrünün məşhur xəttatı Mir İmad tərəfindən qələmə alınmış ilkin mətni itib-batsa da, onun sonradan köçürülmüş cüzi hissələri AMEA Əlyazmalar İnstitutunda saxlanılan, qədim dövrlərdən başlayaraq Nadir şah Əfşarın hakimiyyətə gəlməsinə qədər İran və Azərbaycan tarixindən bəhs edən “Xülase-yi tarix-i padişahan-i Əcəm” adlı əsərlə eyni cildə daxil edilmiş və günümüzə qədər gəlib çatmışdır[2]. “Vaqiə”nin həmin hissəsi iki parçadan ibarətdir: Çaldıran döyüşündən geri çəkilərkən bataqlığa düşən Şah İsmayılın Xızır ağa tərəfindən oradan çıxarılması və ondan sonra şahın Qaradaş qalasına gedərək, orada öz yaxınları, həmçinin həyat yoldaşı Taclı xanımla görüşməsi. Apardığımız müqayisə nəticəsində müəyyənləşdirmişik ki, bizim müəllif öz əsərini yazarkən XVI əsrin sonlarında qələmə alınmış bu “Vaqiə”nin farsca mətnindən istifadə etmişdir. Belə ki, Şah İsmayılın Çaldıran döyüşündən geri çəkilərkən başına gələn hadisələrin təsviri bu iki mənbədə əsasən üst-üstə düşür. Məsələn:

| **“Şah İsmayıl və Taclı xanım vaqiəsi”, v.34b.** | **“Aləmara-yi Şah İsmayıl”, s.528.** |
|---|---|
| چون چشم خضر آقا به شاه افتاد، خود را از اسب پائین انداخت، گفت: قربانت شوم، در اینجا چه می کنی؟ شاه گفت: مرا در آور! رفت که پا به جمجمه نهد، شاه گفت: زینهار پیش میا، کمند بینداز! کمربند میان را گشود انداخت، شاه سر کمربند را گرفته | چون خضر آقا چشمش بر شاه افتاد، خود را از استر به زیر انداخت و گفت: قربانت شوم، اینجا چه می کنی؟ شاه گفت: پیش میا، کمند بگشا و سرکمند را بینداز! او به فرموده شاه عمل نموده، شاه را بیرون آورد. |

[1] Ə.H.Məmmədov. Xətai haqqında dastan // Elm və Həyat, 1977, № 10, s.17; yenə onun. Şah İsmayıl Xətai. Bakı, 1988, s.102-103.
[2] Xülase-yi tarix-i padişahan-i Əcəm. AMEA M.Füzuli adına Əlyazmalar İnstititutu, B-200/9935, v.33a,33b,34a,34b. Bu əlyazma kitabı haqqında bax: F.Seyidov. Tarixə dair əlyazmaları // Azərb. SSR EA Respublika Əlyazmaları Fondunun Əsərləri. II c. Bakı, 1963, s.15.

| | |
|---|---|
| بيرون آمد.<br>Tərcüməsi: "Xızır ağanın gözü şaha sataşdıqda özünü atdan yerə atdı, dedi: "Qurbanın olum, burada nə edirsən?". Şah dedi: "Məni çıxart!". Getdi ki, ayağını bataqlığa qoysun, şah dedi: "Əsla irəli gəlmə! Kəmənd at!". O, belinin kəmərbəndini açıb tulladı. Şah kəmərbəndin ucundan tutub oradan çıxdı". | Tərcüməsi: "Xızır ağanın gözü şaha sataşdıqda özünü qatırdan yerə atdı və dedi: "Qurbanın olum, burada nə edirsən?". Şah dedi: "İrəli gəlmə! Kəməndini aç və kəməndin ucunu buraya tulla!". O, şahın buyurduğuna əməl edib, şahı oradan çıxardı". |

"Aləmara" müəllifi yuxarıda örnək gətirdiyimiz qaynaqlardan istifadə etsə də, onların adını xatırlatmağı lazım bilməmişdir. Onun öz əsərində adını çəkdiyi yeganə mənbə Hindistan tarixçisi Əllami Əbülfəzl ibn Mübarəkin 1004 / 1595-96-cı ildə yazdığı "Tarix-i Əkbəri" və ya "Əkbərnamə" əsəridir. Bu əsər əsasən Böyük Moğol hökmdarı Əkbərin (1556-1605) tarixinə həsr edilsə də, əsərin ilk hissələrində onun əcdadları, o cümlədən də Böyük Moğollar dövlətinin banisi Babur şah haqqında məlumat verilmişdir. Mənbədə Zəhirəddin Babur şahın həyat və fəaliyyətinə geniş yer verilmiş[1], lakin Şah İsmayılın ona göstərdiyi hərbi yardımın üzərindən sükutla keçilmişdir. Buna baxmayaraq, Babur şahın Nəcm bəy (Şah İsmayılın vəkili Yar Əhməd Nəcm-i Sani nəzərdə tutulur – N.M.) ilə birlikdə Orta Asiyada hərbi əməliyyatlar apardığı qeyd olunmuşdur. İbn Mübarək yazır ki, 1512-ci ildə Babur şah "Nəcm bəy ilə ittifaqda Qicduvan qalası yaxınlığında özbəklərlə güclü bir döyüş etmiş, Nəcm bəy öldürülmüş, o həzrət (Babur şah – N.M.) isə Kabilə yollanmış və bundan sonra qeybdən gələn ilhamla Mavəraünnəhrdən əl çəkib, Hindistan mülkünü zəbt etməyi qarşısına qoymuşdu"[2].

---

[1] Əllami Əbülfəzl ibn Mübarək. Əkbərnamə (Tarix-i Əkbəri). AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, D-120/7567, v.39b-56a. Bax: Каталог персидских рукописей (АН Азербайджана, Институт Рукописей им. М.Физули), т. I, редактор тома: Н.Дж.Геюшев. Баку, 1994, с.155.
[2] Əkbərnamə (Tarix-i Əkbəri), v.42a.

“Əkbərnamə”nin bu məlumatı ilə tanış olan bizim müəllif Babur şaha “qeybdən gələn ilhamı” Şah İsmayılla əlaqələndirmişdir. Belə ki, “Aləmara”da qeyd olunduğuna görə, *“peyğəmbər və imamlar nəslinin”* bir hökmdarı olan Şah İsmayıl öncəgörənlik edərək, Babur şaha *“onun bəxtiyarlıq ulduzunun Hindistan tərəfdə parlayacağı”* müjdəsini vermiş və ona Türküstandan əl çəkərək, Hindistanı zəbt etməyi məsləhət görmüşdü. Guya məhz bu məsləhətdən sonra Babur şah Hindistanı istila etməyi qərara almışdı və *“bu əhvalatın şərhi “Tarix-i Əkbəri”də müfəssələn qeyd olunmuşdur”*[1]. Əsərin bu yerində müəllifin “Tarix-i Əkbəri”ni xatırlaması Baburun sonrakı fəaliyyəti və onun Hindistanı istila etməsi ilə maraqlanan oxucuları həmin mənbəyə müraciət etməyə istiqamətləndirməsi ilə əlaqədardır.

Bundan əlavə, “Aləmara” müəllifinin bəzi digər hallarda da “Əkbərnamə”dən bəhrələndiyi hiss olunur. Məsələn, “Əkbərnamə”də göstərilir ki, Sultan Hüseyn Bayqara öz oğullarını toplayaraq, Şeybani xan üzərinə yürüşə çıxmağı qərara almış, lakin bu zaman vəfat etmişdir. Əmirlər onun iki oğlunu – Bədiüzzaman mirzəni və Müzəffər Hüseyn mirzəni şərikli hökmdar elan etmişlər. Bu iki hökmdarın dəvəti ilə Şeybani xana qarşı vahid cəbhədə çıxış etmək üçün Babur Herata gəlmiş, lakin onlardan razı qalmayaraq, Kabilə qayıtmışdı[2]. “Aləmara” müəllifi bütün bu sadaladığımız cəhətləri olduğu kimi saxlamş, lakin daha geniş məlumat vermişdir[3].

Diqqətimizi çəkən məqamlardan biri də görkəmli Azərbaycan tarixçisi İsgəndər bəy Münşinin “Tarix-i aləmara-yi Abbasi” əsəri ilə araşdırdığımız mənbə arasında bəzi oxşar parçaların (Məhəmməd əl-Hafizin həyatı, Şeyx Səfiəddinin öz mürşidi Şeyx Zahidlə münasibətləri, Əmir Teymurun Xoca Əli ilə görüşü, Məhəmməd xan Ustaclunun Əlaüddövlə Zülqədərin oğulları ilə döyüşü, Əlaüddövlənin hiyləgərliyi, Mazandaran padşahı Ağa Rüstəm Ruzəfzunun ölümü, Osmanlı sultanı Qanuni Süleymanın Sinan bəy adlı elçisini Şah Təhmasibin sarayına gön-

---

[1] Aləmara (Sahib), s.499; Aləmara (Şükri), s.453.
[2] Əkbərnamə (Tarix-i Əkbəri), v.41b.
[3] Aləmara (Sahib), s.287-288,291-292; Aləmara (Şükri), s.236-237,239-240.

dərməsi və s.) olmasıdır[1]. Lakin məsələ burasındadır ki, həmin parçalar "Cahangüşa-yi xaqan"da və ya "Əhsənüt-təvarix"də də vardır və bizim anonim müəllif bu məlumatları "Tarix-i aləmara-yi Abbasi"dən deyil, adı çəkilən mənbələrdən də götürə bilərdi. Amma İsgəndər bəyin əsərinin Səfəvi dövrünün ən məşhur tarixi qaynağı olduğunu və bu əsərin adı ilə "Aləmara"nın adının bənzərliyini nəzərə alsaq, anonim müəllifin "Tarix-i aləmara-yi Abbasi" ilə tanış olduğunu və öz əsərini onun təsiri ilə "Tarix-i aləmara-yi Şah İsmayıl" adlandırdığını fərz edə bilərik.

"Aləmara"da hökmdarlar arasında yazışmalara dair bir sıra sənədlərə rast gəlirik. Bunlardan bir qisminin (məsələn, Şeyx Cüneydin Qaraqoyunlu Cahanşahla və İsmayılın Ağqoyunlu Əlvəndlə yazışmalarının) "Cahangüşa-yi xaqan"dan köçürüldüyünü müəyyənləşdirsək də, "Aləmara"da digər mənbələrin heç birində əksini tapmamış diplomatik sənədlərin də mövcudluğunu üzə çıxarmışıq. Bu əsərdə Şah İsmayılın Təbəs mahalına yürüşü vaxtı Sultan Hüseyn Bayqaranın ona göndərdiyi məktubun və İsmayılın ona cavabının, Baburun Şeybanilərə qarşı hərbi yardım istəmək məqsədi ilə Şah İsmayıla, Şah İsmayılın göstərişi ilə vəkil Mirzə Şah-Hüseynin Qəndəhar insidenti ilə bağlı Babura yazdığı məktubların, həmçinin Səfəvilərə sığınmış Osmanlı şahzadəsi Muradın taleyi ilə əlaqədar Sultan Səlimlə Şah İsmayıl arasındakı yazışmaların heç bir mənbədə rast gəlinməyən mətnləri əks olunmuşdur[2]. Mümkündür ki, mənbə müəllifi dövrümüzə qədər gəlib çıxmayan hansısa münşəat toplusundan istifadə etmişdir.

Bizim müəllif adları çəkilən tarixi mənbələrlə yanaşı, bir sıra şairlərin yaradıcılığı ilə də tanış olmuş və öz əsərində bəzən onlardan sitat gətirmişdir. O, bir neçə yerdə Firdovsinin, Sədi Şirazinin, Hafizin və Caminin şeirlərindən parçalar ver-

---

[1] Aləmara (Sahib), s.3-4,8-13,19-21,62,228-230,244,379-380; Aləmara (Şükri), s.5-6,11-16,23-25,66,140,145,160,326; Tarix-i aləmara-yi Abbasi (Bakı), s.45, 51-52,57,96-97,108,258.

[2] Aləmara (Sahib), s.143-144,147-148,402,511-512,600; Aləmara (Şükri), s.196-197,199-200,349-350,472-473,579.

mişdir[1]. Bunlardan savayı, “Aləmara”da Şah İsmayılın şairliyindən də söhbət açılır və bizim müəllif onun Həzrət Əlinin mədhinə bədahətən şeir deməsindən bəhs edir: *“O həzrət (Şah İsmayıl – N.M.) köməklikdən naümid oldu, Həzrət Əmirülmömininin ətəyinə təvəkkül əlini uzadaraq, o həzrətin mədhinə qəsidə söyləməyə başladı və 35 beyti tamam etdi”*[2]. Həqiqətən də, Şah İsmayılın “Xətai” təxəllüsü ilə yazdığı türkcə şeirlər divanında Həzrət Əli haqqında qəsidələrə rast gəlirik[3].

Anonim müəllif yeri gəldikdə öz şəxsi müşahidə və biliklərinə də istinad etmişdir. Müəllifin özünün yaxından bələd olduğu təsəvvüf ədəb-ərkanına, dərvişlik, sufilik, nasufilik, mürşid, mürid, dədə, xəlifə, qələndər, zaviyə, çilləxana, xanəgah və s. terminlərə yer verib onlardan bəhs etməsi, nücum elminə və münəccimliyə dair məlumatları, habelə qızılbaş tayfalarının mərasimləri və inancları, Səfəvilər dövründə sadə xalqın məişəti, gündəlik qayğıları, sənətkarlıq növləri, ticarət məsələləri barədə verdiyi məlumatlar öz şəxsi müşahidə və biliklərinin məhsuludur.

Y.Şükri “Aləmara” müəllifinin “kəmsavad və avam” bir şəxs olduğunu bildirir, onun “elmi bünövrə və səviyyəyə malik olmadığını” iddia edir[4]. Lakin yuxarıda göstərdiyimiz nümunələrdən aydınlaşır ki, bizim müəllif aşağı təbəqənin nümayəndəsi olsa da, hər halda, öz zəmanəsinə görə müəyyən dərəcədə elmi səviyyəyə malik və savadlı bir şəxs idi. O, şifahi rəvayətlər və xalq dastanları ilə yanaşı, öz dövrünün “Cahangüşa-yi xaqan”, “Əhsənüt-təvarix”, “Tarix-i Əkbəri” və s. kimi tarixi salnamələri ilə yaxından tanış olmuş, türk və fars dillərini bilmiş, Firdovsinin, Sədinin, Hafizin, Caminin farsdilli poeziyasını, Xətainin türkcə divanını oxumuş və onlardan bəhrələnmişdir.

---

[1] Aləmara (Sahib), s.177,203,227,261,469,522; Aləmara (Şükri), s.113,189, 415,558.

[2] Aləmara (Sahib), s.528; Aləmara (Şükri), s.497.

[3] Şah İsmayıl Səfəvi (Xətai) külliyyatı (mətnin elmi-tənqidi tərtibatçısı: M.R.İsmayılzadə). Tehran, 1380, s.372-377,380-385; Şah İsmail Hatâî külliyatı (giriş ve eklerle yayına hazırlayanlar: B.Cavanşir, E.N.Necef). İstanbul, 2006, s.410-415, 418-421.

[4] Aləmara (Şükri), müqəddimə, s.20,40. Həmçinin bax: Ə.Nəvai. Mütun-i tarixi, s.171.

Müəllifin Yaxın və Orta Şərqdəki bir çox ərazilərlə yanaşı, Firəng, Portuqal, Venedik, Zəngibar, Çin və Maçin kimi uzaq ölkələrin adını çəkməsi, eləcə də Dəşt-i Qıpçaq qazaxlarının hökmdarı Qasım xanın İdil (Volqa) çayı kənarındakı düşərgəsinin təsvirini verməsi, bizim fikrimizcə, onun geniş coğrafi təsəvvürlərə malik olduğunun göstəricisidir[1].

Bütün bu deyilənlərdən belə nəticəyə gəlirik ki, "Aləmara" müəllifi XVII əsrdə yaşamış, azərbaycanlı imiş, sadə xalqın içərisindən çıxmış, Səfəvilər sülaləsinin təbəələrindən olub, həmin sülaləyə rəğbətlə yanaşmış, Səfəviyyə sufi təriqətinin ardıcıllarından olmuş, öz dövrünə görə müəyyən tarixi, ədəbi və coğrafi dünyagörüşünə yiyələnmişdir. Onu Şah İsmayılın tarixini yazarkən orijinal məlumatlar verməyən və əsasən özündən əvvəlki müəlliflərə müraciət edən digər XVII əsr müəlliflərindən fərqləndirən ən başlıca cəhət ondan ibarətdir ki, o, bəzən yazılı mənbələrdən istifadə etsə də, bir çox hallarda bizə yeni tarixi materiallar təqdim etmişdir. "Aləmara"da Səfəvi sülaləsinin əcdadları, Şah İsmayılın hakimiyyətə yüksəlişi, onun hərbi yürüşləri və siyasi, diplomatik fəaliyyəti, fərdi keyfiyyətləri və şəxsiyyəti, onun dövründə Səfəvilərin Osmanlılar, Məmlüklər, Teymurilər, Şeybanilər və gürcü knyazlıqları ilə münasibətləri, dövlət quruluşu və ordu sistemindəki bir sıra vəzifə və titulların izahatı, qızılbaş ordusunun say tərkibi və strukturu, ictimai-iqtisadi vəziyyət, şəhər mühiti, ticarət həyatı, bəzi vergi növləri və s. haqqında verilmiş məlumatlar Azərbaycan Səfəvilər dövlətinin tarixinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

---

[1] Aləmara (Sahib), s.240,244,384,412,482,484-485,512-513,560-561,571-573; Aləmara (Şükri), s.119,149,157,160,246,331,399,429,432-433,473, 483,486-487, 541-542,551-554.

# II FƏSİL

# I ŞAH İSMAYILIN HƏRBİ-SİYASİ FƏALİYYƏTİ



Əmir Teymurun Ərdəbildə Xoca Əli Səfəvini ziyarət etməsi
(Rza Abbasi Muzeyinə məxsus
“Aləmara” nüsxəsindən bir miniatür, vər. 17a)

## 2.1. I ŞAH İSMAYILIN ƏCDADLARI

### *A) Səfəvilərin soykökü*

Səfəvilər sülaləsi öz adını I Şah İsmayılın altıncı əcdadı, mərkəzi Ərdəbildə yerləşən nəhəng bir sufi təriqətinin əsasını qoymuş Şeyx Səfiəddin İshaqın (1252-1334) adından götürmüşdür. Bir sıra Səfəvi mənbələrində, o cümlədən də "Aləmara"da Səfəvi əcdadlarının tarixçəsi Şeyx Səfiəddinin yeddinci əcdadı olan və XI əsrdə yaşadığı güman edilən[1] Firuzşah Zərrinkülahın həyatının təsviri ilə başlayır və onun yeddinci şiə imamı Musa əl-Kazimin nəslindən gəldiyi bildirilir[2].

Hələ XIV əsrdən Səfəvilərin hansısa bir şəkildə seyid nəsəbli olmaları barədə müəyyən rəvayətlər mövcud olmuş, Səfəvilər hakimiyyətə gəldikdən sonra öz hökmranlıqlarının legitimliyini əsaslandırmaqdan ötrü bu amildən geniş surətdə istifadə etmişlər[3]. Hətta Səfəvi müəllifləri müxtəlif şəcərə cədvəlləri tərtib edərək, Firuzşahı İmam Musa əl-Kazim vasitəsilə peyğəmbər və imamlar nəslinə bağlamağa çalışmışlar. Belə şəcərələrdən biri də "Aləmara"nın Y.Şükri tərəfindən əsas götürülmüş nüsxəsində əksini tapmışdır[4]. Lakin araşdırmalar nəticəsində belə bir fikir irəli sürülmüşdür ki, "Firuzşahdan Şeyx Səfiyə qədərki şəcərə cədvəli ümumən səhih olsa da, Firuzşahı yeddinci imam Musa əl-Kazimə bağlayan 14 nəsilli şəcərə Səfəvi sarayında yaşamış sonrakı müəlliflərin işidir"[5].

Bu vaxta qədər tarixşünaslıqda Səfəvi əcdadlarını qeyri-türk etnoslarla əlaqələndirmək üçün müəyyən cəhdlər edilmiş, Firuzşahın Cənubi Ərəbistandan (Yəməndən)[6], "Kürdüstan"-dan[7] və hətta Fars vilayətindən köçərək, Azərbaycanın Ərdə-

---

[1] R.Savory. Iran under the Safavids. Cambridge, 1980, p.2.
[2] Aləmara (Sahib), s.1; Aləmara (Şükri), s.3.
[3] Daha ətraflı bax: M.Abbaslı. Safevîler'in kökenine dair // TTK, "Belleten", sayı: 158, Ankara, 1976, s.287-329.
[4] Aləmara (Şükri), müqəddimə, s.26-27.
[5] M.Mazzui. Peydayeş-i doulət-i Səfəviyyə. Tehran, 1363, s.126.
[6] W.Hinz. Uzun Hasan ve Şeyh Cüneyd. Ankara, 1992, s.5,109; F.Musəvi. Tarix-i Ərdəbil və daneşməndan. I c. Nəcəf, 1347, s.277.
[7] Ə.Kəsrəvi. Azəri ya zəban-i bastan-i Azərbaygan. Tehran, 1304, s.26; Z.V.Togan. Sur l'origines des Safawides // Melanges Louis Massignon, t. III.

bil nahiyəsinə gəldiyi[1] barədə iddialar ortaya atılmışdır. Lakin tədqiqatlar dərinləşdikcə bir sıra yerli və əcnəbi alimlər Səfəvi əcdadlarının türk mənşəli olduqlarını təkzibedilməz dəlillərlə təsbit etmişlər[2].

Orta əsr mənbələrində Səfəvi əcdadlarının türk olduqlarını göstərən külli miqdarda faktlar mövcuddur[3]. Bu cəhətdən "Aləmara" da istisnalıq təşkil etmir. Bu əsərdə Səfəvi nəslinin gerçək tarixi şəxsiyyət olaraq qəbul edilən ilk nümayəndəsi Firuzşahın vətəninin Ərdəbil olduğu qeyd edilmişdir: *"Firuzşahın vətəni darülirşad Ərdəbil idi. Həqqi-taala gizli elmlərin və ay-*

---

Damascus, 1957, p.345-357; К.Э.Босворт. Мусульманские династии. Москва, 1971, с.266; История человечества, т. V, Москва, 2004, с.262.

[1] R.Ghirshman, V.Minorsky and R.Sanghvi. Persia – the Immortal Kingdom. London, 1971, p.140.

[2] М.Аббаслы. К вопросу о происхождении Сефевидов // «Известия» АН Азерб. ССР (серия литературы, языка и искусства), 1973, № 2, с.36-53; О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке. Баку, 1981, с.39-41; В.В.Бартольд. Иран: исторический обзор. Ташкент, 1926, с.45; В.В.Бартольд. Сочинения, т. II, ч. I. Москва, 1963, с.748,780; И.П.Петрушевский. Государства Азербайджана в XV веке // ССИА, вып. I, Баку, 1949, с.205; Я.Рипка. История персидской и таджикской литературы. Москва, 1970, с.275; D.Ayalon. Gunpowder and firearms in the Mamluk Kingdom. London, 1956, p.109; J.R.Walsh. The Historiography of Ottoman-Safavid Relations in 16-th and 17-th Centuries // Historians of the Middle East. Oxford University Press, 1962, p.204; R.Nur. Türk tarihi, V. c., İstanbul, 1923, s.114; A.Caferoğlu. Azerbaycan tarihine umumî bir bakış // Azerbaycan Yurt Bilgisi. I c., sayı: 1. İstanbul, 1932, s.13; İ.H.Uzunçarşılı. Osmanlı tarihi. II. c. Ankara, 1988, s.225; H.Algar. İslâm devriminin kökleri. Ankara, 1990, s.22; F.Başar. Safevîler // Doğuştan Günümüze Büyük İslam Tarihi, IX. c. İstanbul, 1992, s.543; M.Yaman. Erdebilli Şeyh Safi ve Buyruğu. İstanbul, 1994, s.18; E.Güngör. Tarihte Türkler. İstanbul, 1995, s.259; S.Şah. Safvetü's-safâ'da Safiyyüddîn-i Erdebîlî'nin hayatı, tasavvufî görüşleri ve menkıbeleri. YDT. İstanbul: Marmara Üniversitesi, 2007, I c., s.26-33. Kembric Universitetində nəşr olunmuş çoxcildli "İran tarixi"nin müəlliflərindən olan X. De Planhol da Səfəviləri Qaraqoyunlular və Ağqoyunlular kimi türk mənşəli sülalə hesab edir (bax: Р.А.Муганлинский. Азербайджанские государства XV-XVI вв. в английской историографии. Афтореферат к.и.н. Баку, 1997, с.16,21).

[3] Mənaqib-i Şeyx Səfi Ərdəbili, v.18b,20a,20b; Fütuhat-i şahi, v.247a; Cahangüşa-yi xaqan, s.15,16; Tarix-i aləmara-yi Abbasi (Bakı), s.50; Silsilətünnəsəb-i Səfəviyyə, s.19,20; Qara məcmuə (Tehran), s.108; Şeyx Səfi təzkirəsi, s.67,68,71,72,73,252,826 və s.

*dınlıq varidatının nurundan o gözəl taleli şəhriyarı hədd və hüduddan daha yüksək mərtəbəli bir insana çevirmişdi"*[1]. Buradan aydın olur ki, bəzilərinin iddialarının əksinə olaraq, Firuzşah heç də kənar yerlərdən köç edərək Azərbaycana gəlməmişdi. Azərbaycanın Ərdəbil bölgəsi Səfəvi nəslinin ən qədim əcdadının öz doğma vətəni idi. Firuzşahdan sonra onun xələfləri – Əvəz əl-Xəvas, Məhəmməd əl-Hafiz, Səlahəddin Rəşid, Qütbəddin, Saleh və Cəbrayıl Ərdəbil bölgəsində yaşamış və əsasən ruhani həyat tərzi keçirmişlər[2].

"Aləmara" müəllifi Səfəvi nəslinin əcdadlarının türk etnosuna mənsubluğunu aşkar surətdə nəzərə çatdırmışdır. Mənbəyə görə, I Şah İsmayılın yeddinci əcdadı Əminəddin Cəbrayıl Şiraza səfər etdiyi zaman orada bir "türk dərvişi" kimi şöhrət tapmışdır: *"Deyirlər ki, Seyid Cəbrayıl da xalqı doğru yola dəvət etdi və şərəfli ömründən otuz il keçdikdə səfərə çıxmaq qərarına gələrək, Şiraz səmtinə hərəkət edib, dərviş libasında özünü Şiraza daxil etdi. Dərvişlərin gözü ona sataşdıqda bir* ***türk dərvişi****ni gördülər ki, Tanrının nurunun parlaqlığı onun camalında parlayır və işıldayırdı"*[3].

Mənbədə həmçinin Əminəddin Cəbrayılın oğlu və Şah İsmayılın altıncı əcdadı olan Şeyx Səfiəddin İshaq da dəfələrlə türk adlandırılmışdır. Anonim müəllifin yazdığına görə, Şeyx Səfi də gənc yaşlarında atası kimi Şiraza səfər etmiş, oranın məşhur şəxsiyyətləri ilə görüşmüş və onların arasında daim "türk oğlu" kimi tanınmışdır. Onun Mövlana Abdulla Şirazi ilə görüşünün təsviri bu baxımdan diqqəti cəlb edir: *"Mövlananın zaviyəsinin qapısına çatdıqda və Mövlananın gözü Həzrət Şeyxin (Səfiəddinin – N.M.) camalına sataşdıqda onun bir* ***türk oğlu*** *olduğunu gördü"*[4].

Sonralar məşhur təriqət başçısı Şeyx Zahid Gilaninin xanəgahına gedən və onun mürşidliyini qəbul edən Şeyx Səfi orada da elə ilk gündən etibarən "türk gənci" adlandırılmışdır:

---

[1] Aləmara (Sahib), s.1; Aləmara (Şükri), s.3.
[2] Aləmara (Sahib), s.3-7; Aləmara (Şükri), s.5-9.
[3] Aləmara (Sahib), s.6; Aləmara (Məclis kitabxanası – 761), v.2b-3a.
[4] Aləmara (Sahib), s.8; Aləmara (Məclis kitabxanası – 761), v.3a.

*"Şeyx Zahidin qaydası belə idi ki, mübarək ramazan ayının əvvəli olduqda öz çilləxanasına gedərdi, bayram gününə qədər heç kim onu görməzdi və ibadətlə məşğul olardı. Həmin vaxt bildi ki, Şeyx Səfi gəlmişdir. Özünün Şeyx Cəmaləddin adlı böyük oğluna dedi:*

*- Zaviyənin ortasına get! Orada bu geyimdə, bu nişanda bir **türk gənci** vardır ki, ömründə ilk dəfə buraya gəlmişdir və namazdadır. Ona salam verib de ki, atam Şeyx Zahid səni çağırır"*[1].

"Aləmara"da ramazan bayramı günü Şeyx Zahidin Səfiəddini öz müridlərinə təqdim etməsi zamanı yenə də Səfiəddin türk gənci kimi təsvir edilmişdir: *"Bayram günü müridlər gördülər ki, şeyx **türk gəncin** əlindən tutub evdən çıxdı. Müridləri qısqanclıq bürüdü, hər birisi bəzi sözlər dedilər. Şeyx (Zahid – N.M.) mərifət nuru ilə anlayıb dedi ki, bu gəncin barəsində xatirinizə şəkk gətirməyin!"*[2].

Beləliklə, araşdırdığımız mənbənin materialları Səfəvi sülaləsinin türk olması ilə bağlı digər məxəzlərdəki faktları bir daha təsdiqləyir və onları tamamlayır. Şah İsmayılın məşhur ulu babaları haqqında xalq arasında əsrlər boyunca dolaşan rəvayətlərə əsaslanan "Aləmara"nın bu məlumatları Səfəvi sülaləsinin ən ulu əcdadlarının əzəldən Azərbaycanın Ərdəbil bölgəsində yaşamış bir türk nəsli olduğunu göstərir[3].

### B) Firuzşah Zərrinkülah və xələfləri

Anonim müəllif Səfəvi tarixinə Firuzşahın həyatının təsviri ilə başlayır. Firuzşah yaraşıqlı və nurani simaya malik, son dərəcə dindar və ziyalı bir adam olmaqla yanaşı, həm də çoxlu sərvətə və əmlaka sahib idi. Onun yerli hakimlərlə də yaxşı münasibətləri vardı. Rəvayətə görə, İbrahim Ədhəm nəslindən olan və Bəlxdən gələrək İranı və Azərbaycanı fəth edən Sultan Ədhəm şah adlı bir hökmdar Firuzşahı Ərdəbil hakimi təyin etmiş, ona qiymətli cavahiratla bəzədilmiş bir külah (pa-

---

[1] Aləmara (Sahib), s.9; Aləmara (Şükri), s.11.
[2] Aləmara (Sahib), s.10; Aləmara (Şükri), s.12.
[3] N.S.Musalı. "Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri Səfəvi əcdadlarının etnik mənsubiyyəti haqqında // Elmi Araşdırmalar, VI/1-2, 2004, s.180-183.

paq) hədiyyə vermiş və guya Firuzşah məhz bu hadisədən sonra “Zərrinkülah” (Qızılpapaq) ləqəbini qazanmışdı. Firuzşah həm də mənəvi bir öndər olub, *“xalqı düzgün yola hidayət edir və yönləndirirdi”*[1]. O, Ərdəbil vilayətinin Rəngin məntəqəsində vəfat etmişdir[2].

Firuzşahın oğlu Əvəz əl-Xəvas Ərdəbildə uzun ömür sürmüş, dindar və bilikli bir şəxs olmuş, əhaliyə mühazirələr oxumuş, şagirdlərə dərs vermişdir[3]. Bir müddət sonra o, Ərdəbilin İsfərəncan kəndinə köçmüş və ömrünün sonuna kimi orada yaşamışdır[4].

Əvəz əl-Xəvasın oğlu Məhəmməd 14 yaşına çatdıqda “Quran-i kərim”i əzbərdən bildiyi üçün Hafiz ləqəbi almışdı. O, dürüst və sağlam düşüncəli bir insan kimi xarakterizə edilir. Məhəmməd əl-Hafizin oğlu Səlahəddin Rəşid ruhani həyat tərzi keçirmiş, malik olduğu var-dövləti kasıb müsəlmanların rifahına sərf etmişdir. O, dərviş libası geyərək, Ərdəbilin Kəlxuran kəndinə getmiş və orada məskunlaşmışdı. O zamandan etibarən bu kənd Səfəvi əcdadlarının məkanına çevrildi[5].

Səlahəddin Rəşidin oğlu Qütbəddinin və nəvəsi Salehin zamanında gürcülərin Azərbaycana hücumu baş verdi. Qüt-

---

[1] Aləmara (Sahib), s.1-2; Aləmara (Şükri), s.3-5. Firuzşahın İbrahim Ədhəm nəslindən olan bir hökmdarla münasibətlərini əks etdirən bu rəvayət bir sıra digər Səfəvi mənbələrində də əksini tapmışdır: Mənaqib-i Şeyx Səfi, v.10a; Şeyx Səfi təzkirəsi, s.48; Cahangüşa-yi xaqan, s.5-6; Silsilətün-nəsəb-i Səfəviyyə, s.11; Tarix-i aləmara-yi Abbasi (Bakı), s.44-45. İbrahim Ədhəm VIII əsrdə yaşamış, Bəlx hakimləri nəslindən gəlmiş, lakin ruhani həyat tərzi keçirmiş, məşhur sufi şeyxlərindən olmuşdur. Onun xələflərindən heç bir hökmdar çıxmamışdır. Buna görə də tədqiqatçılar bu rəvayəti əsassız sayırlar: E.G.Browne. A History of Persian Literature in the Modern Times (A.D.1500-1924). Cambridge, 1924, p.36; R.M.Savory. Iran under the Safavids, p.3-4. Fikrimizcə, bu hekayə Firuzşahın Mərkəzi Asiyadan gəlmiş səlcuq bəyləri ilə yaxşı münasibətlərə malik olduğu haqqında gerçəkliyin əsrlər ərzində rəvayətə dönmüş bir formasıdır.

[2] Silsilətün-nəsəb-i Səfəviyyə, s.11.

[3] Aləmara (Sahib), s.3; Aləmara (Şükri), s.5.

[4] Şeyx Səfi təzkirəsi, s.48; Həbibüs-siyər, s.410; Tarix-i aləmara-yi Abbasi (Bakı), s.45.

[5] Aləmara (Sahib) s.3-4; Aləmara (Şükri), s.5-7. Kəlxuran kəndi Ərdəbil şəhərindən 3 km. şimal-qərbdə yerləşir: B.Səfəri. Ərdəbil dər güzərgah-i tarix. I c. Tehran, 1353, s.60.

bəddinin bu hücumda boynundan yaralanması digər mənbələrdə qeyd olunmuşdur[1]. Lakin onun oğlu Salehin bu hadisələr zamanı qətlə yetirilməsi haqqında məlumatı biz “Aləmara”dan alırıq. Burada nəql olunan rəvayətə görə, həmin zaman Gürcüstanın Kartil (Kartli) vilayəti padşahının 12 minlik ordusu Ərdəbilə həmlə etmişdi. Ətraf kəndlərin əhalisindən 10 min nəfərə qədər adam (kişilər, qadınlar, uşaqlar), o cümlədən də Saleh öz ailəsi ilə birlikdə evlərini çarəsizcəsinə tərk edərək, Ərdəbilə sığındılar. Gürcülər *“Ərdəbilə gəldikdə orada xeyli qətl və qarət törətdilər. Müsəlman camaatdan çoxlarını öldürdülər. Pozğun kafirlər bazarlarda kimi gördülərsə, qətlə yetirdilər. Onlar üç gün Ərdəbildə qaldılar, qırğın və dava atəşini şöləlondirdilər. Dördüncü gün gürcü ordusu Ərdəbili tərk edib, şəhərin kənarında düşərgə saldı”.* Həmin günlərdə Saleh Ərdəbildəki dostlarından birinin evində ailəsi ilə birlikdə gizlənmişdi. Vəziyyət nisbətən sabitləşəndən sonra Saleh qohumlarını, tanışlarını və ardıcıllarını yoxlamaq üçün evdən çıxmış, lakin təsadüfən orada gəzən bir gürcü döyüşçüsü ilə üzləşmişdi. Gürcü nizə ilə onu ağır bir şəkildə yaralasa da, öz evinin damından bu hadisəni müşahidə edən cəsur bir ərdəbilli qadın damın üzərindən var gücü ilə gürcünün başına bişmiş bir kərpic ataraq, onun başını partlatmış və ərini də köməyə çağıraraq, Salehi xilas etmişdi. Lakin Salehin aldığı yara ağır olduğundan o, üç gündən artıq yaşaya bilmədi[2].

Salehin oğlu və Səfiəddinin atası Əminəddin Cəbrayıl da əcdadları kimi mömin ömür sürmüşdür. O, otuz yaşında olarkən dərviş libası geyərək Şiraza getmiş, Fars seyidlərindən birinin qızı ilə evlənərək, iki il orada qalmış və Saleh adlı bir oğ-

---

[1] Вах: О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.61.

[2] Aləmara (Sahib) s.5-6; Aləmara (Şükri), s.7-8. N.V.Xanıkova istinad edən V.F.Minorski bu yürüşü 1209-cu ilə, Z.M.Bünyadov isə 1210-11-ci illərə aid etmişdir. Həmin zaman Gürcüstanda çariça Tamar (1184-1213) hökmranlıq edirdi: V.Minorsky. A Mongol Decree of 720/1320 to the Family of Shaykh Zahid // BSOAS, XVI/3, 1954, p.521; Z.M.Bünyadov. Azərbaycan Atabəyləri dövləti. Bakı, 2004, s.98-99. Bu hücum vaxtı Salehin oğlu Əminəddin Cəbrayıl bir aylıq körpə idi: O.A.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.61.

lu olmuşdu. Lakin anası məktub göndərib, onu israrla Ərdəbilə dəvət etmiş və orada onu Dövləti xanım adlı bir qızla evləndirmişdi. Bu izdivacdan Səfiəddin dünyaya gəldi[1].

### *C) Səfəviyyə təriqətinin yaranması və inkişafı*

Səfiəddin altı yaşında ikən onun atası vəfat edir. Öz anası Dövləti xanımın himayəsində böyüyən Səfiəddin gənc yaşlarında məşhur ruhani Şeyx Nəcibəddindən dərs almaqdan ötrü Şiraza yollanır. Lakin həmin ərəfədə Şeyx Nəcibəddin rəhmətə getdiyi üçün Səfiəddin bu məqsədinə nail ola bilmir. O, Şirazda qardaşı Salehi tapır, onun vasitəçiliyi ilə bəzi alimlərlə görüşür, məşhur şair Şeyx Sədi Şirazi ilə iki saata yaxın söhbətləşir, amma onların səviyyəsi Səfiəddini qane etmir. Axırda Mövlana Abdulla Şirazi bu gənc türkə Şeyx İbrahim Zahid Gilaninin (1218-1301) yanına getməyi məsləhət görür[2].

Şeyx Zahid öz zamanının ən məşhur şeyxlərindən olub, öz adı ilə "Zahidiyyə" adlanan sufi təriqətinin dini rəhbəri idi. *"Onun yer üzündə 100 minədək müridi var idi ki, bunlardan 12 min nəfəri birbaşa xidmətində dururdu, həmçinin 400 xəlifəsi vardı".* Səfiəddin Ərdəbilə qayıdaraq, onun yanına yollandı, onun mürşidliyini qəbul edib, məşhur bir ruhani kimi formalaşdı. Çox keçmədi ki, bu gənc türk dərin zəkası və yüksək mənəviyyatı sayəsində müridlər arasında ən üstün mövqeyə sahib oldu və Zahid öz qızı Fatiməni ona ərə verdi. Səfiəddinin mürşidin yanında bu cür yüksəlişə nail olması Zahidin böyük oğlu Cəmaləddini və müridlərin bir dəstəsini narahat edirdi. Lakin Zahidin daim Səfiəddini dəstəkləməsi onların antipatiyasını neytrallaşdırırdı. Zahid hələ ölümündən iki il əvvəl oğlu Cəmaləddinin tərəfdarı olan bir qrup müridin etirazlarına məhəl qoymayaraq, Səfiəddini özünün vəliəhdi elan etmiş, ölü-

---

[1] Aləmara (Sahib) s.6-7; Aləmara (Şükri), s.8-9. Dövləti xanım Ərdəbilin Baruq kəndindən idi. Cəbrayılın ondan altı oğlu və bir qızı dünyaya gəlmişdi. Səfiəddin onun dördüncü oğlu idi: Qara məcmuə (Tehran), s.16.

[2] Aləmara (Sahib), s.7-8; Aləmara (Şükri), s.9-10; Mənaqib-i Şeyx Səfi Ərdəbili, v.19a-21a. Şeyx Zahid əslən lənkəranlı idi və onun türbəsi Lənkəranın Şıxakəran kəndindədir: V.Minorsky. A Mongol Decree, p.521; M.Nemət. Azərbaycanda pirlər. Bakı, 1992, s.38-40.

münə üç gün qaldıqda isə öz mürşidlik əbasını və qurşağını Səfiəddinə geyindirərək, onu öz yerinə, yəni irşad səccadəsinə əyləşdirmiş və müridlərinin ona biət etməsinə nail olmuşdu. Şeyx Zahidin vəfatından və dəfnindən bir qədər sonra Səfiəddin Ərdəbilə qayıdaraq, orada gələcəkdə öz adı ilə "Səfəviyyə" adlanacaq sufi təriqətinin əsasını qoydu. Ərdəbil əhalisinin dərin sevgisini qazanan Şeyx Səfi *"Həzrət-i Həqqin fikrini və zikrini edir, camaatı haqq yoluna rəğbətləndirirdi"*[1].

Bir sıra müəlliflər Şeyx Səfini Şafii məzhəbinə bağlı olan sünni şeyxi hesab etmiş və Səfəvilərin şiəliyi sonradan qəbul etdiyini irəli sürmüşlər[2]. "Aləmara"ya görə, hələ Firuzşah zamanında Azərbaycanın əksər bölgələrinin, xüsusən də Muğanın əhalisi əsasən sünni idi və sayca az olan şiə icmaları gizli fəaliyyətə üstünlük verirdilər. Buna baxmayaraq, anonim müəllifin təsvirinə əsasən, Şeyx Səfinin başçılıq etdiyi sufi təriqətinin içində şiə qrupları fəaliyyət göstərirdilər, lakin ümumi kütlə ilə müqayisədə onların sayı məhdud idi. Onlar on nəfərlik, iyirmi nəfərlik qruplar halında Ərdəbil şəhərində zirzəmilərə yığışar və söhbətlər edərdilər[3]. "Səfvətüs-səfa"nı tədqiq edən M.Abbaslı da eyni qənaətə gəlmişdir. Onun yazdığına görə, Şeyx Səfinin müridlərinin çoxu Şafii və Hənəfilərdən ibarət sünnilər olsalar da, onların arasında bir çox şiələr (xüsusən də isna-əşərilər və İsmaililər) və arifanə məslək tərəfdarları mövcud idi. Ümumiyyətlə, Şeyx Səfi özü hər hansı bir konkret məzhəbin çərçivəsinə bağlı qalmamış, məzhəblər üstündə bir təsəvvüf şeyxi və hər kəsin qəbul edəcəyi bir arif olmuşdur[4].

---

[1] Aləmara (Sahib), s.8-14; Aləmara (Şükri), s.10-17.

[2] Şeyx Səfini sünni hesab edən müəlliflər onun xələflərindən Sədrəddinin, Xoca Əlinin və ya Şeyx Cüneydin ilk olaraq şiəliyi qəbul etdiyi haqqında mülahizələr yürütmüşlər (bax: О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.66).

[3] Aləmara (Sahib), s.1,14; Aləmara (Şükri), s.4,17.

[4] M.Abbaslı. Safevîler'in kökenine dair, s.290; həmçinin bax: Ə.Tacbəxş. İran dər zəman-i Səfəviyyə. Təbriz, 1340, s.22; The Cambridge History of Iran, vol. VI, ed. by P.Jackson and L.Lockhart, Cambridge, 1986, p.196-198. Şeyx Səfiyə aid edilən "Qara məcmuə"də təsəvvüf ideyaları ilə yanaşı, həm şiəliyə, həm də sünniliyə xas olan meyillər nəzərə çarpır (bax: Tehran nəşri, s.58-59,85,97-98). Ümumiyyətlə, sufi Səfəvi şeyxlərinin şiələşməsi

“Aləmara”da Şeyx Səfiəddin *“din başçısı”, “alimlərin böyüyü”* və *“ariflərin şeyxi”* adlandırılır[1]. O, türk tarixində Əhməd Yəsəvi, Mövlana Cəlaləddin Rumi, Hacı Bektaş Vəli kimi irşad rəhbərləri ilə müqayisə edə biləcəyimiz bir şəxsiyyətdir. Səfəvi nəslinin sonrakı uğurlarının təməlində mənəvi lider kimi Yaxın Şərqdə böyük nüfuz qazanmış Şeyx Səfiəddinin gərgin zəhməti dayanmaqdadır. Qaynaqların məlumatları göstərir ki, onun müridlərinin əsas hissəsi türklərdən ibarət idi[2] və “bütün türklər o həzrətə bağlılıq halqasını öz qulaqlarına taxmışdılar”[3].

Şeyx Səfiəddinin ölümündən sonra yerinə keçən oğlu Şeyx Sədrəddin Musanın (1305-1392) mürşidliyi dövründə maddi baxımdan daha da güclənən təriqətin sıraları çoxsaylı dərvişlər hesabına genişlənmiş və böyük nüfuza sahib olmuşdur[4].

Sədrəddinin ölümünün ardından mürşidlik vəzifəsi onun oğlu Xoca Əlinin çiyinləri üzərinə düşdü. *“Sultan Xoca Əli elə bir səviyyəyə çatmışdı ki, dindarlıqda və dürüstlükdə, qeybdən gələn sirləri kəşf etməkdə, riyazi və ilahi elmləri bilməkdə dünyanın ən qabaqcıl adamı olmuşdu. Onun zamanında çoxlu müridlər yetişmişlər. Adamlar ondan neçə-neçə möcüzələr və kamilliklər müşahidə etmişlər və onun sadiq müridlərinə çevrilmişdilər. Əksər vaxtlarda qara xirqə geyindiyi üçün ona Sultan*

---

birdən-birə olmamış, bu proses tədricən baş vermiş və Şeyx Cüneyd dövründə sona çatmışdı.

[1] Aləmara (Sahib), s.102; Aləmara (Məclis kitabxanası – 761), v.26b.

[2] Qara məcmuə (Tehran), s.130; O.Əfəndiyev, N.Musalı. Şeyx Səfiəddin Ərdəbillinin yeni nəşr edilmiş “Qara məcmuə” əsəri haqqında // “Elm” qəzeti, 17.07.2002, s.5; T.Gündüz. Safevî Şeyhleri ve Anadolu Türkmenleri // Bozkırın Efendileri (Türkmenler üzerine makaleler). İstanbul, 2009, s.160.

[3] Xülasətüt-təvarix, s.19; Rövzətüs-Səfəviyyə, s.79.

[4] Aləmara (Sahib), s.14; Aləmara (Şükri), s.17; Тарих-и аламара-йи Амини, с.78. Şeyx Səfinin birinci arvadı Şeyx Zahidin, ikinci arvadı isə Əxi Süleymanın qızı olmuşdur. Onun birinci qadından üç oğlu, ikinci qadından isə iki oğlu və bir qızı vardı. Sədrəddin Musa onun Şeyx Zahidin qızı Fatimədən doğulmuş ikinci oğlu idi: Silsilətün-nəsəb-i Səfəviyyə, s.36.

*Xoca Əli Siyahpuş deyirdilər. Onun zamanında Ərdəbil bir başqa cür rövnəqə qovuşdu"*[1].

Rəvayətə görə, Xoca Əli, Əmir Teymurla yaxşı münasibətlərə malik olmuş və onunla üç dəfə (Ceyhun çayı kənarında, Dizfulda və Ərdəbildə) görüşmüşdür. Onun zamanında təriqətin şöhrəti o qədər artmışdı ki, ariflərə və şeyxlərə ehtiramı ilə seçilən Əmir Teymur "Rum qeysəri" üzərindəki qələbədən (1402-ci ildə Əmir Teymurla Osmanlı sultanı İldırım Bayəzid arasında baş vermiş Ankara vuruşması nəzərdə tutulur – N.M.) sonra Anadoludan qayıdarkən Ərdəbildə olmuş, Xoca Əli ilə görüşüb, Ərdəbil bölgəsində *"Həzrət Şeyx Səfi övladına və onun astanasına vəqf olaraq"* torpaqlar bağışlamışdı. Onun fərmanına əsasən, Ərdəbildəki Səfəviyyə xanəgahı "bəst"[2] elan edilmişdi: *"Əgər bir şəxs min günah etmiş olsa, istər məşriq, istərsə məğrib tərəfdən qaçıb o astanaya pənah gətirsə, həmin müqəddəs rövzədə olduğu və oranı öz iradəsi ilə tərk etmədiyi müddət ərzində amanda olacaqdır".* Teymur həmçinin şeyxin xahişi ilə Anadoludan gətirdiyi minlərlə əsiri azad etmişdi. Azadlığa çıxanların *"hamısı Şeyx Səfi ocağının müridlərinə çevrildilər, bir parası Sultan Xoca Əlinin xidmətində qaldılar, qalanları isə öz vətənlərinə getdilər"*[3].

Xoca Əli xanəgahda saatlarla sürən dini mərasimlər təşkil edər, özü şəxsən müridləri ilə birlikdə zikrlər edər, vəcd halında sufilərə xas olan semai rəqslər oynayardı. Onun kəramət-

---

[1] Aləmara (Sahib), s.14; Aləmara (Şükri), s.17-18. Xoca Əli, Şeyx Sədrəddinin üç oğlundan ən böyüyü idi. O, şiə imamlarının matəmini saxlamaq üçün qara geyinirdi: Silsilətün-nəsəb-i Səfəviyyə, s.40,47. Bu fakt Xoca Əli dövründə Səfəvilərin sufi təriqəti daxilində şiəlik meyillərinin tədricən gücləndiyini göstərməkdədir.

[2] Bəst elə bir müqəddəs yer idi ki, təqib olunan bir kimsə orada sığınacaq alsaydı, onu orada həbs etmək mümkün olmazdı. Bu statusu alan məkanlar toxunulmazlıq imtiyazına malik idilər və oraya hökumət dairələri zorakı müdaxilələr edə bilməzdilər.

[3] Aləmara (Sahib), s.19-21; Aləmara (Şükri), s.23-26; B.Səfəri. Ərdəbil, s.73; О.А.Эфендиев. Тимур и сефевидский шейх Хадже Али // «Известия» АН Азербайджана (серия истории, философии и права), 1997, № 1-4, с.98-102. Bu görüş 806-cı ilin şəvvalında / 1404-cü ilin aprelində baş tutmuşdu: V.Minorsky. "Tadhkirat al-muluk": A Manual of Safavid Administration. London, 1943, p.189.

ləri və söhbətləri hətta Əmir Teymurun üzərində dərin təsir buraxmışdı. Öz mürşidliyi dövründə (1392-1429) təriqəti xeyli gücləndirmiş Xoca Əli ömrünün sonlarında oğlu ilə birlikdə həcc ziyarətinə getmiş və geri qayıdarkən Qüds-i Xəlildə (Fələstinin Qüds şəhərində) vəfat edərək, oğlu tərəfindən orada dəfn olunmuşdur[1]. Ondan sonra yerinə oğlu Şeyx İbrahim (1429-1447) keçdi. "Aləmara"nın Y.Şükri nüsxəsinin nəsəbnamə hissəsində onun adı qeyd olunsa da[2], əsərin mətnində onun barəsində heç bir məlumat verilmir[3].

### *D) Səfəvi şeyxləri hərb və siyasət meydanında*

851 / 1447-ci ildə Şeyx İbrahimin ölümündən sonra mürşidliyə onun altı oğlundan ən kiçiyi[4] olan Cüneyd keçdi. Digər mənbələrdə onun neçənci ildə anadan olması və şeyxliyə neçə yaşında başlaması barədə heç bir məlumat verilmir. "Aləmara" yeganə mənbədir ki, bu haqda konkret informasiyaya malikdir. Bizim müəllifə görə, Cüneyd şeyxliyə başlayarkən 20 yaşında idi: *"Sultan Cüneyd iyirmi yaşında ikən atasının yerinə irşad səccadəsi üzərində əyləşdi"*[5]. Beləliklə, aydın olur ki, Cüneyd 831 / 1427-28-ci ildə anadan olmuşdur.

"Aləmara"da bildirilir ki, Cüneyd şeyxliyə başladıqda müridlər ona iradət göstərdilər və o, onları *"irşada rəhnüma eylədi"*[6]. Səfəvi nəslindən şiəlik şüarları altında Azərbaycan torpaqlarını siyasi cəhətdən birləşdirmək uğrunda açıq siyasi mübarizəyə qalxan ilk şəxs Şeyx Cüneyd olmuşdur[7]. Məhz

---

[1] Aləmara (Sahib), s.21-22; Aləmara (Şükri), s.26. Q.Ə.Qumi bu hadisəni 832-ci ilin rəbiülaxir ayına / 08.01-05.02.1429-cu ilə aid edir: Xülasətüt-təvarix, s.33.

[2] Aləmara (Şükri), müqəddimə, s.26.

[3] Xoca Əlinin üç oğlu vardı və İbrahim bunların sonuncusu idi: Silsilətün-nəsəb-i Səfəviyyə, s.50. O, ətrafa xəlifələr göndərərək, Səfəviyyə təriqətinin təbliğatını gücləndirmiş (Tarix-i aləmara-yi Abbasi, Bakı, s.60) və 1440-cı ildə öz müridləri ilə birlikdə Qaraqoyunlu Cahanşahın Gürcüstana yürüşündə iştirak etmişdi (F.Metsopski. Teymurləngin və onun xələflərinin tarixi. Bakı, 1957, s.38-39).

[4] Silsilətün-nəsəb-i Səfəviyyə, s.66.

[5] Aləmara (Sahib), s.21; Aləmara (Şükri), s.26.

[6] Aləmara (Sahib), s.22; Aləmara (Şükri), s.26.

[7] И.П.Петрушевский. Государства Азербайджана в XV в., с. 207.

onun zamanından etibarən Şeyx Səfinin qurduğu, sufiliyə əsaslanıb məzhəbçilik davalarından kənarda duran Səfəviyyə təriqəti açıq şiə xarakteri aldı[1] və Səfəvi şeyxləri dini şüarlar altında hakimiyyət uğrunda mübarizəyə atıldılar[2].

O zamanlar Təbriz taxtında əyləşib padşahlıq edən Qaraqoyunlu Mirzə Cahanşah (1436-1467) Cüneydin siyasi planlarından və ətrafına qüvvələr toplamasından bərk narahat olmuşdu: *"Ərdəbil mülkündəki Şeyx Səfi müridlərinin avazəsi, Şeyx Cüneydin oranı atəş saçan bir yerə çevirməsi və onun müəyyən haqq-hüquq iddiaları ilə çıxış etməsi Mirzə Cahanşaha çatdıqda özünün bilikli adamlarını və doğru görən münəccimlərini çağıraraq, onlarla Şeyx Səfi övladları barədə məsləhətləşdi və dedi:*

*- Eşitmişəm ki, Sultan Cüneydin ətrafına çoxlu adam toplaşıb. Mən qorxuram ki, Şeyx Səfi övladlarından biri qiyam qaldırar və dövlət bizim sülaləmizin əlindən çıxıb, Şeyx Səfi xanədanına keçər".*

Məşvərət iştirakçıları hökmdarın narahatçılığına şərik olduqlarını bildirdilər. Bu toplantıdan sonra Cahanşah Cüneydə yüksək tonla yazılmış bir xəbərdarlıq məktubu göndərdi: *"Mənim məktubum sənə çatdıqda, gərəkdir ki, xalqı özündən və öz söhbətindən uzaq edəsən, yanında olan müridləri pərakəndə edəsən və sakit dolanasan ki, mən sənin sufilərindən xatircəm deyiləm. Məbada ki, qalmaqalçı cahillərə uyub, qiyamdan dəm vurasan, ürəyində səltənət arzusu yer tapsın, asan gedən işlər müşkülə düşsün və hər iki tərəfdən neçə min nəfərin nahaq qanı axmış olsun. Əgər mənim sözümü eşitməsən və bu həddini aşan hərəkətlərini tərk etməsən, yəqin ki, sənin və müridlərinin dəf edilməsi mənim üçün vacib olacaqdır".*

Məktubu alan Cüneyd müridlərini çağırıb, bunun cavabında nə yazmaq lazım olduğu barədə məsləhətləşdi və onlar

---

[1] M.Yaman. Erdebilli Şeyh Safi ve Buyruğu, s.32.
[2] R.M.Savory. The Struggle for Supremacy in Persia after the Dealth of Timur // Der Islam, band. 40, 1964, p.56; Тарих-и аламара-йи Амини, с.78; Cəvahirül-əxbar, s.109; Rövzətüs-Səfəviyyə, s.92; Do kitab-i nəfis əz mədarek-i əvvəliyye-yi Səfəviyan, s.1-2; O.Əfəndiyev, N.Musalı. Şeyx Cüneyd Səfəvi // "Təməl" jurnalı, 2007, № 1 (3), s.20-23.

bunu şeyxlərinin öz öhdəsinə buraxdılar. Cüneyd cavab məktubunda özünə qarşı ittihamları rədd edərək, qiyam qaldırmaq niyyətində olmadığını bildirsə də, müəyyən hədələyici eyhamlar vurmağı da unutmurdu: *“Əgər sən Şeyx Səfi övladları tərəfdən xatircəm deyilsənsə, onda bil ki, bu, səni azdırmaq istəyən şeytan-i rəcimin vəsvəsəsidir. Mən xəlvət guşəsində əyləşib, öz əcdadımın astanasında Ulu Yaradana ibadət etməklə məşğulam və öz sufilərimə də ibadət etdirirəm. Mənim əsla qiyam qaldırmaq və ölkə tutmaq iddialarım yoxdur. Əgər sənə xoş gəlməyə çalışan münəccimlərin səni qorxudublarsa ki, Şeyx Səfi övladları arasından bir qiyamçı peyda olacaqdır, o, mən deyiləm və yəqin ki, mənim oğullarımdan və nəvələrimdən də beləsi çıxmayacaqdır. Axı bizə nə düşüb ki, bir-birimizlə ədavət edək?! Yox, əgər Allah-taalanın istəyi bu olsa ki, Şeyx Səfi övladlarından kimsə qiyam qaldırsın, onda bu asimani qəzanın qarşısını almağa lap bütün aləm də yığışsa, yenə də müyəssər olmayacaqdır. Bəs, asudə ol və bizi də öz halımızda burax ki, bizim səninlə heç bir düşmənçiliyimiz yoxdur. Məndən xatircəm ol və Həzrət-i Xuda-yi aləmin qəzəbindən qorx! Gerisini özün bilərsən”.*

Bu cavabı alan Cahanşah yenidən öz dövlət ərkanı ilə məsləhətləşərək, bir müddət gözləmə mövqeyi tutub, Cüneydə toxunmamağı qarara aldı. Lakin iki il sonra (1449-cu ildə) Qaraqoyunlu casusları Cahanşaha xəbər çatdırdılar: *“Günbəgün onun sufilərinin sayı artır və əgər istəsələr ki qiyam qaldırsınlar, dərhal 20 min süvari öz ailələri və köçləri ilə birlikdə gəlib, özlərini Ərdəbilə yetirərlər. Məğribdən tutmuş Bəlxə və Buxaranın hüdudlarına qədər Şeyx Səfi övladlarının müridləridirlər”.* Yenidən vahiməyə düşən Cahanşah Cüneyd qarşısında ikinci dəfə, lakin daha sərt tələb qoyur: *“Hərçənd sənə mane olmağa çalışsaq da, yenə də öz bildiyini elədin. Deyəsən, ürəyində böyük bir ləzzətli arzu yer tutmuşdur. Yenə də, hər halda, qalx və mənim dövlətimin ərazisini tərk et! Yoxsa gəlib Ərdəbili xaraba qoyaram, bəlkə, lap qətliam edərəm”.* Cahanşahdan təhdid dolu məktub alan Cüneyd Qaraqoyunluların üstün qüvvələrinə qarşı dura bilməyəcəyini anladı və öz iddiaları üzündən Ərdəbilin viran edilməsinə yol verməyərək, oranı tərk

edib, Anadoluya getməyi qarara aldı. Cüneyd müridlərini yığaraq, onların onunla gedib-getməməkdə sərbəst olduqlarını bildirdi. Bir çox müridlər *"Sizin qədəm qoyduğunuz yerə biz baş qoyarıq; Siz haraya, biz də oraya!"* deyərək, onunla bərabər yola düşdülər[1]. Cüneydin Ərdəbildən çıxarılmasından sonra onun əmisi Şeyx Cəfər 1470-ci ilədək Ərdəbildə şeyxlik vəzifəsini icra etdi[2]. Cahanşahın qızlarından biri onun oğlu Seyid Qasımın həyat yoldaşı idi[3].

Beləliklə, özünün siyasi iddiaları və "Azərbaycana, Anadoluya və Şimali Suriyaya yayılmış" yarımköçəri türkman elatlarından[4] ətrafına silahlı qüvvələr toplaması üzündən Qaraqoyunlu hökmdarı Cahanşahla münaqişəyə girən Cüneyd onun təzyiqi ilə Azərbaycanı tərk edib Anadoluya getməli oldu. 1449-1456-cı illərdə Anadoluda yaşadığı hərbi-siyasi macəralardan sonra o, Diyarbəkrdə hökmranlıq edən və Cahanşahla rəqabət aparan Ağqoyunlu Uzun Həsənin sarayına sığındı[5]. *"Diyarbəkr mülkündə Həsən bəy Ağqoyunlu türkman camaatının hakimi idi... Eşitdi ki, Mirzə Cahanşahın vahiməsi üzündən öz vətənindən ayrılan [Cüneyd] onun yanına, Diyarbəkrə gəlməkdədir. Buyurdu ki, el ağsaqqalları atlara minib, onu 2-3 mənzil məsafədən qarşılasınlar və özü də şəxsən qohumları ilə birlikdə atlara süvar olaraq, [Cüneydi] qarşılamaq üçün 1 mənzil yol qət etdi. O, Sultan Cüneydi uzaqdan gördükdə piyada oldu, bir-birilərinə yaxınlaşdılar, qucaqlaşıb görüşdülər. [Həsən bəy] onun müridlərinə xeyli izzət göstərdi və Sultan Cüneyd üç il onun yanında mehman oldu"*[6].

Bu müddətdə Cüneyd Uzun Həsənin bacısı Xədicə bəyimlə evləndi. Lakin Azərbaycanda siyasi hakimiyyətə nail olmaq xəyalı Cüneydin fikrindən çıxmaq bilmirdi. Bu məqsədlə o,

---

[1] Aləmara (Sahib), s.22-24; Aləmara (Şükri), s.26-29; Cahangüşa-yi xaqan, s.35-38.
[2] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов, с.42.
[3] Əhsənüt-təvarix (Nəvai), s.407; W.Hinz. Uzun Hasan ve Şeyh Cüneyd, s.16.
[4] The Cambridge History of İran, vol. VI, p.206.
[5] H.M.Yinanç. Cüneyd b. İbrahim // İA, III. c., 1988, s.242-244; W.Hinz. Uzun Hasan ve Şeyh Cüneyd, s.16-22,26-27.
[6] Aləmara (Sahib), s.24; Aləmara (Şükri), s.29.

1459-cu ildə "vətən sevgisi imandandır" deyərək, müridləri ilə birlikdə Azərbaycana qayıtmağı qərara aldı və Diyarbəkrdən Ərdəbilə doğru yola çıxdı[1]. Cüneydin gəlişi barədə Cahanşaha xəbər verən casuslar həyəcan təbili çalırdılar: *"Sultan Cüneyd Diyarbəkrə getmiş, Ağqoyunlu Həsən bəy Türkmanın bacısı ilə evlənmiş və onunla qohum olduqdan sonra qüvvəsi daha da artmışdır. İndi isə köçünü yığıb, Ərdəbilə doğru gəlməkdədir".* Cahanşah Cüneydlə savaşmaq üçün ordu toplanmasını əmr etdi. Bu xəbəri alan Cüneyd Ərdəbildə dura bilməyəcəyini anlayıb, Şirvanşahlar dövlətinə son qoymaq və Şirvanı ələ keçirmək məqsədi ilə yürüşə çıxmağı qərara aldı. Lakin o, əsl niyyətini açıq elan etmir, Çərkəz nəsranilərinə (Şimali Qafqazdakı xristianlara – N.M.) qarşı cihad etmək istəyində olduğu üçün səfərə çıxdığını bəyan edirdi. Cüneyd özünün *"sufilərdən və müridlərdən"* ibarət 20 minlik qoşunu ilə birlikdə Araz çayını keçib, Qarabağa getdi və oradan da Kür çayını adlayıb, Şirvana qədəm qoydu[2].

Cüneydin əmisi Şeyx Cəfər şirvanşaha məktub yazaraq, qardaşı oğlunun əsl məqsədlərini açıqladı və onun dəf edilməsinin vacib olduğunu bildirdi[3]. Cüneydin *"Çərkəz ölkəsinə getmək bəhanəsi ilə Şirvanı tutmağa gəldiyini"* öyrənən Şirvanşah Sultan Xəlil (1417-1465) 20 minlik mükəmməl bir ordu hazır etdi. Onun müraciəti əsasında Təbərsəran hakimi Əbül-Məsum xan və Qaraqoyunlu Cahanşah da onun köməyinə hərəyə 5 minlik qoşun göndərdilər. Müttəfiqlərin 30 minlik birləşmiş ordusu ilə Cüneydin "sufiləri" üz-üzə gəldilər. Gərgin ke-

[1] Tarix-i aləmara-yi Abbasi (Bakı), s.63.
[2] Aləmara (Sahib), s.24-25; Aləmara (Şükri), s.29. Bir çox müəlliflər Cüneydin qoşununun 10 min nəfərdən (Həbübüs-siyər, s.425; Cahangüşa-yi xaqan, s.39; Xülasətüt-təvarix, s.35; Rövzətüs-Səfəviyyə, s.94; Гюлистан-и Ирам, c.92; Ə.Tahiri. Tarix-i siyasi-yo ictimai-yi İran əz mərg-i Teymur ta mərg-i Şah Abbas. Tehran, 1347, s.137; R.Savory. Iran under the Safavids, p.17), bəzi tarixçilər isə 12 min nəfərdən ibarət olduğunu yazırlar (Əhsənüt-təvarix (Nəvai), s.408; H.M.Yinanç. Cüneyd, s.244; T.Yazıcı. Safevîler // İA, XI c., 1979, s.53).
[3] Əhsənüt-təvarix (Nəvai), s.408.

çən döyüş nəticəsində Səfəvi qoşunu ağır məğlubiyyətə uğradı, Cüneyd isə qətlə yetirildi[1].

Cüneydin əvəzinə *"irşadlıq mövqeyinə əyləşmiş"* azyaşlı oğlu Heydər öz dayısı Uzun Həsənin hərtərəfli qayğısı ilə əhatə olunmuşdu. 1467-ci ildə Ağqoyunlularla Qaraqoyunlular arasında həlledici toqquşma baş verdi və nəticədə, Cahanşahın ordusu darmadağın edildi, özü isə öldürüldü. "Aləmara"-dan aydın olur ki, Uzun Həsən Cahanşaha qarşı savaşda öz yeznəsi Cüneydin qanının intiqamını almaq bəhanəsindən də istifadə etmişdi. Azərbaycanın fəthindən sonra Uzun Həsən xüsusi hörmət bəslədiyi bacısı oğlu Heydəri yenidən Ərdəbil zaviyəsinə təyin etdi və öz qızı Aləmşah bəyimi ona ərə verdi[2].

---

[1] Aləmara (Sahib), s.25; Aləmara (Şükri), s.29-30. Bu döyüş 11 cəmadiyüləvvəl 864 / 4 mart 1460-cı ildə Təbərsəranda, Samur çayının sol sahilindəki Qıpçaq kəndi yaxınlığında baş vermişdi: W.Hinz. Uzun Hasan ve Şeyh Cüneyd, s.35; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.72; S.Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı, 1997, s.297. "Aləmara" müəllifi Cüneydin cəsədinin "sufilər" tərəfindən Ərdəbilə aparılıb orada dəfn edildiyini bildirsə də, məlumdur ki, döyüşdən sonra şeyxin cəsədi indiki Qusar rayonunun Həzrə kəndində basdırılmış, 951 / 1544-45-ci ildə Şah Təhmasib orada onun xatirəsinə türbə tikdirmişdi: M.Nemət. Azərbaycanda pirlər. Bakı, 1992, s.54; Гюлистан-и Ирам, с.92. Cüneydin Xədicə bəyimdən Heydər, bir çərkəz cariyədən isə Xoca Məhəmməd adlı oğulları, həmçinin Paşa xatun adlı bir qızı vardı: W.Hinz. Uzun Hasan ve Şeyh Cüneyd, s.27,110. Bəzi digər mənbələrdə onun Cəmşid adlı başqa bir oğlunun və daha iki qızının olduğu göstərilir: S.Şah. Safvetü's-safâ'da Safiyyüddîn-i Erdebîlî'nin hayatı, II c., s.604.

[2] Aləmara (Sahib), s.25-26; Aləmara (Şükri), s.30. Şeyx Heydərin bu qadınla nikahından 3 oğlu dünyaya gəldi: Sultan Əli, İbrahim və İsmayıl (Aləmara, Sahib, s.29; Aləmara, Şükri, s.33). Gələcəkdə Səfəvi dövlətinin banisi olmuş sonuncu oğlan – İsmayıl 25 rəcəb 892 / 17 iyul 1487-ci ildə sübh çağı Ərdəbildə doğulmuşdu: Xülasətüt-təvarix, s.46; Tarix-i Şah İsmayıl və Şah Təhmasib, v.27b; Lübbüt-təvarix, v.154a; Tarix-i səlatin-i Səfəviyyə, s.8. İtaliya mənbələrinə görə, Heydərin Uzun Həsənin qızından bu 3 oğlu ilə yanaşı 3 qızı da vardı ki, onlar sonradan Şah İsmayılın sərkərdələri Bayram bəy Qaramanlunun, Məhəmməd xan Ustaclunun və Həsən-Keyf hakimi Sultan Xəlilin həyat yoldaşları olmuşlar: Travels of Venetians, s.185,203; Seyyahların gözüyle, s.175,209-210. Bundan savayı, şeyxin digər qadınlardan daha 4 oğlu (Həsən, Süleyman, Davud və Mahmud) vardı: T.Musəvi. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər. Bakı, 1977, s.54.

Uzun Həsənə arxalanan Heydər Səfəviyyə təriqətinin qüvvətləndirilməsi üçün tədbirlər gördü. Rəvayətə görə, o, yuxuda Həzrət Əlini görərək, ondan öz müridləri üçün üzərində 12 imam əlaməti olan 12 yarıqlı al qırmızı tac düzəltmək məsləhəti alıb, buna əməl etdi. Sonradan Səfəvi tərəfdarlarının səciyyəvi nişanəsi hesab olunan bu baş örtüyü *"tac-i Heydəri"* adlandırıldı, onu örtənlərə isə *"türk adətincə qızılbaş deyildi".* Məhz həmin zamandan etibarən Səfəvi sülaləsinin sadiq tərəfdarları olan yarımköçəri türk tayfaları qızılbaş adını aldılar. Kürəkəninin tədbirlərinə qarşı Uzun Həsən heç bir etiraz etmədi, əksinə, bu addımlara icazə verdi[1].

Lakin onun oğlu Sultan Yaqubun zamanında (1478-1490) Ağqoyunlu – Səfəvi münasibətləri xeyli gərginləşdi. Öz hərbi qüvvələrini komplektləşdirərək, Şimali Qafqaz xristianlarına qarşı uğurlu cihad yürüşləri keçirən Heydərin qüdrətinin artması Yaqubu bərk narahat edirdi. Çünki o, "öz krallığı daxilində yaxşı silahlanmış və təlim görmüş Səfəvi qoşununun mövcudluğunu getdikcə öz şəxsi mövqeyinə potensial təhlükə kimi görürdü"[2]. "Aləmara"nın məlumatına görə, hələ Uzun Həsənin sağlığından etibarən Heydəri görməyə gözü olmayan Yaqub *"ona qarşı ədavət kəmərini belinə bağlamışdı".* Çox keçmədi ki, o, *"Şeyx Səfi övladlarına düşmən oldu", "paxıllıq və həsəd üzündən əhalini Şeyx Səfi müridlərinin tacını örtməməyə çağırdı".* Yaqubla münasibətlərin getdikcə pisləşdiyini və Ərdəbildə fəaliyyət göstərməyin mümkünsüzlüyünü dərk edən Heydər 1488-ci ildə öz atasının çoxdankı planını həyata keçirib

---

[1] Aləmara (Sahib), s.26; Aləmara (Şükri), s.30. Həmçinin bax: Cahangüşa-yi xaqan, s.41-42; Tarix-i aləmara-yi Abbasi (Bakı), s.66. Qızılbaşlar qırmızı tac örtməklə yanaşı, saqqallarını qırxıb, uzun bığ buraxır, saçlarını kəsib, yalnız bir lopa tük saxlayırdılar: Н.В.Пигулевская и др. История Ирана с древнейших времен до конца XVIII века. Ленинград, 1958, с.252. Bu səbəbdən onlar rəqibləri tərəfindən həqarətlə "qizilbaş-i bəd-məaş o riş-təraş" ("pozğun həyat tərzi sürən və saqqalı qırxıq olan qızılbaş") adlandırılırdılar: Aləmara (Sahib), s.380; Aləmara (Şükri), s.327.

[2] R.Savory. Iran under the Safavids, p.19. Şeyx Heydər qızılbaş ordusu ilə 1483 və 1487-ci illərdə Şimali Qafqaz kafirlərinə ("çərkəzlər"ə) qarşı uğurlu cihad yürüşü təşkil etmişdi: Тарих-и аламара-йи Амини, с.84-85; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.74.

Şirvanı zəbt etmək və atasının qisasını almaq üçün yürüşə çıxdı.

Şeyx Heydərin planından xəbər tutan Sultan Yaqub dərhal Şirvan padşahının yanına adam göndərib onu məlumatlandırdı: *“Sultan Heydər səninlə vuruşmağa gəlir. Bacardığın tərzdə ona qarşı bir əlac qıl, onu öldür və müridlərinin hamısını qətlə yetir!”.* Şirvanşah bunun cavabında Sultan Yaqubdan kömək istədi: *“Əgər doğru deyirsənsə və sabah Sultan Heydərin qanını məndən tələb etməyəcəksənsə, onda sən də öz qoşununu buraya göndər ki, mən xatircəm olum”*[1]. Qeyd edək ki, Sultan Yaqubun Şirvanşahlarla qohumluq əlaqəsi vardı. O, Fərrux Yəsarın qızı Gövhər-sultanla evlənmiş və ondan gələcək Ağqoyunlu hökmdarları Baysunqur və Murad doğulmuşdular[2].

Şeyx Heydər Şirvanda bəzi hərbi uğurlar əldə etsə də, müharibənin sonu onun üçün fəlakətli oldu. Sultan Yaqub, Süleyman bəy Bicənoğlu Türkman adlı sərkərdəsini 10 minlik qoşunla şirvanşaha yardım etməyə göndərdi və onlar Lənkərandan keçib, Şirvana gəldilər. Fərrux Yəsarın yazılı müraciətindən sonra Təbərsəran hakimi də 5 minlik dəstəsi ilə onun köməyinə tələsdi. Şirvanşah özü də 25 minlik qoşun hazır etdi. Beləliklə, Şeyx Heydərlə həlledici döyüşə şirvanşah və müttəfiqləri 40 minlik ordu çıxarmağa nail oldular[3].

9 iyul 1488-ci ildə Təbərsəranda, Şahdağın ətəklərində baş vermiş[4] həlledici döyüşdə Ağqoyunluların, Şirvanşahların və təbərsəranlıların birləşmiş qüvvələri qızılbaş ordusu ilə qarşılaşdılar. Döyüş zamanı qızılbaş ordusunun mərkəzinə Şeyx Heydər, sağ cinahına Qara Piri bəy Qacar, sol cinahına isə

---

[1] Aləmara (Sahib), s.27; Aləmara (Şükri), s.31.

[2] S.Aşurbəyli. Şirvanşahlar, s.302.

[3] Aləmara (Sahib), s.27; Aləmara (Şükri), s.31. Bir sıra mənbələr Bicənoğlunun 4 minlik qoşunla şirvanşaha köməyə gəldiyini yazırlar: Həbibüs-siyər, s.433; Əhsənüt-təvarix (Nəvai), s.617; Xülasətüt-təvarix, s.38; Tarix-i aləmara-yi Abbasi (Bakı), s.67; Bədayəül-vəqayə, v.322b. Lakin venesiyalı tacirin səyahətnaməsi “Aləmara”nın məlumatını təsdiq edərək, bu döyüşdə 10 min Ağqoyunlu əsgərinin iştirak etdiyini və onların 1/3 hissəsinin qızılbaşlar tərəfindən öldürüldüyünü göstərir: Travels of Venetians, p.186; Seyyahların gözüyle, s.177.

[4] Тарих-и аламара-йи Амини, с.93; О.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.76.

Hüseyn bəy Şamlu komandanlıq edirdi. Müttəfiqlər ordusunun mərkəzində və sol cinahında şirvanşah qoşunları, sağ cinahında təbərsəranlılar dayanmışdı, ön dəstə (çərxçilər) isə Ağqoyunlu əsgərlərindən ibarət idi. Eyni zamanda, müttəfiqlər ordusuna ümumi komandanlığı həyata keçirən Bicənoğlu 7 min döyüşçünü ehtiyatda saxlamışdı. Anonim müəllif, Şeyx Heydərin şəxsi rəşadətindən, onun Bicənoğlunu atdan aşırmasından və qarşı tərəfin xeyli əsgərini həlak etməsindən söz açır[1]. Digər Səfəvi müvərrixləri, hətta Ağqoyunlu tarixçisi Xunci də bu döyüşdə Heydərin göstərdiyi şücaətlərdən və onun bir çoxlarını həlak etməsindən bəhs edir[2].

Lakin bütün bunlar onun qələbəsi üçün yetərli olmadı. Vuruşmanın qızğın çağında Bicənoğlunun ehtiyat qüvvələrinin qızılbaş qoşununun arxasına keçməsi döyüşün taleyini həll etdi. Şeyx Heydər, Ağqoyunlu əsgərlərinin həmləsi zamanı böyüründən nizə yarası aldı və təbərsəranlı döyüşçülər tərəfindən atdan endirilərək qətlə yetirildi. Qızılbaşlar öz mürşidlərinin cəsədini götürə bilmək üçün irəli atıldılar və 300-400 nəfər itki vermək bahasına Heydərin cənazəsini döyüşdən çıxara bildilər[3]. Xunci yazır ki, "şeyxin öldürüldüyünü görən sufilər dərhal fədailər kimi döyüşə qayıtdılar və igidliklə savaşdılar. Hələ heç bir canlı heç bir zaman öz başçısının ölümündən sonra bu cür döyüşən bir qoşun görməmişdi"[4].

Heydərin qətli və qızılbaşların məğlubiyyəti haqqında xəbər alan Sultan Yaqub xeyli şad oldu. Heydərin qətlindən son-

---

[1] Aləmara (Sahib), s.27-28; Aləmara (Şükri), s.31-32.

[2] Əhsənüt-təvarix, s.618; Xülasətüt-təvarix, s.40; Тарих-и аламара-йи Амини, с.82-83,94.

[3] Aləmara (Sahib), s.28; Aləmara (Şükri), s.32. Xunci qeyd edir ki, Heydər oxla boyun damarından ağır yaralanmış, Ağqoyunlu əsgərləri onu dövrəyə almış və Əli ağa Qapıçı onun başını kəsmişdi: Тарих-и аламара-йи Амини, с.95. Şeyx Heydərin cəsədi ilk öncə Təbərsəranda dəfn olunsa da, 22 il sonra, 1510-cu ildə onun oğlu Şah İsmayıl tərəfindən Ərdəbilə köçürülmüşdür: Tarix-i aləmara-yi Abbasi (Tehran), s.20-21. A.Bakıxanov şeyxin ilkin qəbrinin Təbərsərandakı Ətək mahalında, Rubas çayının sol sahilində, Tinid kəndindən 1 fərsəx aralıda olduğunu qeyd etsə də (Гюлистан-и Ирам, с.93), tədqiqatlar nəticəsində məzarın Xızı rayonunun Tıxlı kəndi yaxınlığında yerləşdiyi müəyyənləşdirilmişdir (M.Nemət. Azərbaycanda pirlər, s.56).

[4] Тарих-и аламара-йи Амини, с.95.

ra Sultan Əli atasının yerinə keçdi: *"Sultan Heydər hələ döyüşə yollanarkən özünün Sultan Əli mirzə adlı böyük oğlunu öz varisi və vəliəhdi təyin etmiş, nə etmək lazım olduğu haqqında onun qulağına nəsihətlər demişdi"*[1]. O, Ərdəbildə atası üçün matəm mərasimi təşkil etdi və istər Səfəviyyə təriqətinin sufiləri, istərsə də şəhər əhalisi onun başına toplanıb, öz sədaqətlərini izhar etdilər. Ağqoyunlular bundan narahat oldular. Tezliklə Aləmşah bəyim və onun 3 oğlu həbs edilərək, Şiraz hakimi Mənsur bəy Pornaka tapşırıldılar və *"sərt bir qalada"* (İstəxrdə) saxlanıldıar. Mənsur bəy onlarla ədəblə və hörmətlə rəftar etdi[2].

Lakin Ağqoyunlu səltənəti daxilində baş verən gözlənilməz hadisələr Səfəvi hərəkatının canlanması üçün ümid yaratdı. 24 dekabr 1490-cı ildə Sultan Yaqub vəfat etdi. Onun oğlu Baysunqurun il yarımlıq hakimiyyəti taxt-taca iddiaçı şahzadələrin qətl və həbs olunması, həmçinin müxtəlif əmirlər arasındakı çarpışmalarla yadda qaldı[3]. "Aləmara"ya görə, onun hakimiyyətinin ikinci ilində Baysunqurdan incik düşmüş qüdrətli Ağqoyunlu sərkərdəsi Aybə sultan Uzun Həsənin digər bir nəvəsini, Maqsud bəyin oğlu Rüstəm mirzəni həbsdən azad edərək, Təbriz üzərinə hərəkət etdi. Məğlubiyyətə uğrayan Baysunqur öz ana babası şirvanşahın yanına qaçdı[4] və 28 may 1492-ci ildə hakimiyyətə Rüstəm padşah keçdi[5].

Babası Fərrux Yəsardan hərbi yardım alan Baysunqur tezliklə Təbriz taxtını qaytarmaq üçün hazırlıqlara başladı. Bundan qorxuya düşən Rüstəm padşah dərhal *"türkman camaatı ilə məsləhətləşdi ki, nə etməliyik?".* Məşvərətdə iştirak edən əmirlər çox hiyləgər bir plan qurdular. Onlar təklif etdilər ki, Şeyx Heydərin övladları həbsdən azad edilsin, onlara böyük

---

[1] Aləmara (Sahib), s.28; Aləmara (Şükri), s.32.

[2] Aləmara (Sahib), s.29; Aləmara (Şükri), s.33; Tarix-i aləmara-yi Abbasi (Bakı), s.72. Heydərin oğlu Mahmud şeyxzadələr İstəxrə aparılan zaman vəfat etmiş və Şiraz bölgəsində dəfn olunmuşdur: Tarix-i aləmara-yi Abbasi (Bakı), s.70.

[3] В.Минорский. О царствовании Байсунгура // Ф.Р.Хунджи. Тарих-и аламара-йи Амини. Баку, 1987, с.143-144.

[4] Aləmara (Sahib), s.29; Aləmara (Şükri), s.33.

[5] В.Минорский. О царствовании Байсунгура, с.144.

izzət göstərilsin, bunun əvəzində Sultan Əlinin qızılbaş tərəfdarlarından Baysunqura qarşı istifadə olunsun və Baysunqur məğlub edildikdən sonra şeyxzadələr də sakitcə aradan götürülsün[1]. Rüstəm və onun yaxın ətrafı öz hakimiyyətlərinə qarşı yönəlmiş iki potensial təhlükəli qüvvəni – Baysunqurun və şirvanşahın birləşmiş qoşunları ilə Səfəvilərin fanatik tərəfdarlarını üz-üzə qoyaraq, onların hər ikisini zəiflətməyi və sıradan çıxarmağı düşünürdülər. Bu planın incəliyi onda idi ki, ya müharibəyə öyrəşmiş Səfəvilər Baysunquru ortadan qaldıracaqdılar, yaxud Baysunqurla yapacaqları savaşda Səfəvilər məhv olacaqdılar. Hər iki nəticə Rüstəmə sərf edirdi[2].

Rüstəm padşah Heydərin ailəsini həbsdən azad edərək Təbrizə gətirdi və onları mehribanlıqla qarşıladı. O, Sultan Əli ilə söhbətində Səfəvi ailəsinə edilən pisliklərin arxada qaldığını, keçmişdəki mənfi münasibətin əvəzini yaxşılıqla ödəyəcəyini vəd edərək, Sultan Əlini özünə oğul saydığını dilə gətirdi. Rüstəmin əmri ilə Sultan Əlini başdan-ayağa xələtə tutdular, ona tac, cıqqa (taca və ya bayrağa bağlanan qotaz), gürz, xəncər, qiymətli daş-qaşla bəzədilmiş qılınc və qızıl yəhəri olan bir ərəb atı bağışladılar. Rüstəm ona "Sultan Əli padşah" ləqəbini verdi.

Heç şübhəsiz ki, bütün bu mərasim və təmtəraq hiylə xarakteri daşıyırdı və Səfəvilərin Baysunqura qarşı döyüşə cəlb edilməsi planının tərkib hissəsi idi. Öz növbəsində Sultan Əli, Baysunqura və şirvanşaha qarşı mübarizədə Rüstəm padşahla ittifaqa girdi. Bunu eşidən Səfəvi təriqət mənsubları öz mürşidlərinin bayrağı altında müharibədə iştirak etmək üçün hər tərəfdən axışıb gəlməyə başladılar. Nəticədə, altı ay ərzində Sultan Əlinin sərəncamında 11-15 min nəfərlik qızılbaş qoşunu toplandı[3]. Məsələyə şirvanşah da qarışdığı üçün Sultan Əli və onun döyüşçüləri təkcə "Baysunqurun fitnəsini dəf etməyə"

---

[1] Aləmara (Sahib), s.29; Aləmara (Şükri), s.33-34.
[2] W.Hinz. Uzun Hasan ve Şeyh Cüneyd, s.80.
[3] Aləmara (Sahib), s.29-30; Aləmara (Şükri), s.34. Həsən bəy Rumlu da bizim müəllifin təklif etdiyi rəqəmlərə uyğun say göstərərək, həmin zaman Sultan Əlinin xidmətinə 12 min qızılbaş qoşununun cəmləşdiyini bildirir: Əhsənüt-təvarix (Nəvai), s.633.

deyil, həm də Şirvanda qətlə yetirilmiş Səfəvi şeyxlərinin qanını almağa gedirdilər[1].

Qızılbaş qoşunu hazır vəziyyətə gəldikdən sonra Rüstəm də onlara Aybə sultanın komandanlığı altında 20 minə qədər Ağqoyunlu döyüşçüsü əlavə etdi və onlar Baysunqurun üzərinə yollandılar. Rüstəm padşah bu yürüşə o qədər önəm verirdi ki, şəxsən özü Təbrizdən çıxaraq, yürüşə gedənləri iki mənzil müşayiət etmiş, sonradan paytaxta qayıtmışdı. Sultan Əli döyüşdən öncə Ərdəbilə gələrək, öz qohumları və şəhərdəki sufiləri ilə görüşdü. Daha sonra onun və Aybə sultanın 30-35 minlik birləşmiş qoşunları Qarabağa daxil oldu. Baysunqurla Fərrux Yəsar da 30 minlik ordu ilə Kür çayını keçib Qarabağa gələrək, onların yolunu kəsdilər. Döyüş ərəfəsində səflər qurularkən Sultan Əli və Aybə sultan ordunun mərkəzində, qızılbaş əmirlərindən Hüseyn bəy Şamlu sağ cinahda və Dədə bəy Talış[2] sol cinahda mövqe tutdular. Aybə sultan beş minlik Ağqoyunlu qoşununu çərxçi mövqeyində qərarlaşdırdı. Rəqib düşərgədə isə Fərrux Yəsar mərkəzdə, Baysunqur mirzə sağ cinahda, Şirvan sipəhsaları Bəhmən Səlimi sol cinahda, onun oğlu Məlik isə çərxçi mövqeyində dayandılar. İlk öncə çərxçilər bir-birilərinə həmlə etdilər. Şirvan sərkərdəsi Məlik şücaət göstərərək, əsgərləri öz arxasınca aparır və Ağqoyunlu qoşunlarını sıxışdırırdı. Lakin belə bir anda təcrübəli Aybə sultan özünü çatdıraraq, gənc və cəsur şirvanlı sərkərdəni qətlə yetirdi. Bu, Şirvan çərxçiləri arasında qısa müddətdə pərakəndəliyə səbəb oldu. Buna baxmayaraq, arxa səflərdə dayanmış Şirvan ordusu əzmlə irəli atıldı və Ağqoyunluları geri çəkilməyə vadar etdi. Aybə sultan nizə yarası aldı. Bunu görən Sultan Əli qızılbaşları hücuma səslədi və onlar öz mürşidlərinin əmri ilə hər tərəfdən həmləyə keçdilər. Bu döyüş Baysunqurun ölümü və şirvanşahın qaçması ilə sona çatdı. Böyük zəfər qazan-

---

[1] Tarix-i aləmara-yi Abbasi (Bakı), s.74.

[2] Bu şəxs həm də Abdal bəy Dədə kimi xatırlanır. Onu bəzən zülqədər tayfasına da aid edirlər (bax: Aləmara, Məclis kitabxanası – 9421, v.105b,110b; F.Sümer. Safevî Devletinin kuruluşu, s.15,22).

mış Sultan Əli şirvanşah ordusunun mallarını və çadırlarını ələ keçirərək Təbrizə qayıtdı[1].

Qələbə xəbərini sevinclə qarşılayan Rüstəm şəxsən özü Təbrizin üç fərsəxliyində[2] Sultan Əlini qarşılamağa çıxaraq, onun alnından öpüb şəhərə gətirdi, ona və döyüşçülərinə mehribanlıq göstərdi, onları mükafatlandırdı. Fəqət altı ay sonra o, şeyxzadələri və onların sərkərdələrini aldadıb ziyafətə dəvət etməyi və orada xaincəsinə öldürməyi qərara aldı. Anonim müəllif yazır ki, *"Sultan Əliyə paxıllıq edən bəzi düşmənlər Rüstəm şahı o şəhriyarı öz sifiləri ilə birlikdə qətlə yetirməyə təşviq etdilər".* Onlarla razılaşan Rüstəm öz əmirlərinə göstəriş verdi ki, günü sabah məclis təşkil edilsin, Sultan Əli öz qardaşları və sərkərdələri ilə birgə oraya dəvət edilsin və onlar məclisə daxil olan kimi hamısı qətlə yetirilsin. Bu hadisədən sonra məmləkətin hər tərəfində Səfəvi müridlərinin qətliam edilməsi planlaşdırılırdı. Lakin Səfəvilərə simpatiya bəsləyən Ağqoyunlu rəislərindən biri gecə ikən Sultan Əlini bu gizli plandan xəbərdar etdi. Hüseyn bəy Şamlu, Dədə bəy Talış, Qara Piri bəy Qacar və İlyas bəy Halvaçıoğlu kimi qızılbaş əmirləri dərhal şeyxzadələri götürüb, Təbrizi gizlicə tərk etdilər və 400 nəfərlik atlı dəstənin müşayiəti ilə Ərdəbilə yollandılar. Səhər çağı Rüstəm padşah bundan xəbər tutub qəzəbləndi. Sultan Əlinin Ərdəbilə getməsi hökmdarı bərk narahat edirdi.

---

[1] Aləmara (Sahib), s.30-31; Aləmara (Şükri), s.34-35. Bu döyüş 1493-cü ilin avqustun ikinci yarısında Gəncə və ya Bərdə hüdudlarında baş vermişdi: В.Минорский. О царствовании Байсунгура, с.144. "Aləmara"ya görə, şeyxzadələr bundan 6 ay öncə, yəni 1493-cü ilin fevralında həbsdən azad edilmişdilər. Əgər onların 4,5 il məhbus həyatı yaşadıqlarını nəzərə alsaq, o zaman Şeyx Heydərin ölümündən bir az sonra, yəni 1488-ci ildə yayın sonlarında, avqust-sentyabr aylarında onun ailəsinin həbs edildiyini təxmin edə bilərik. R.Seyvori şeyxzadələrin 1489-cu ilin martından 1493-cü ilin avqustuna kimi həbsdə olduqlarını bildirir: The Struggle, p.57. Lakin biz onun fikri ilə razılaşmırıq. Çünki əgər Sultan Əli 1493-cü ilin avqustunda azadlığa çıxsaydı, elə həmin ay İstəxrdən Təbrizə gələrək, bir neçə gün ərzində minlərlə döyüşçüdən ibarət ordusunu toplayıb döyüşə gedə bilməzdi. Bunun üçün bir neçə ay vaxt lazım idi. Fikrimizcə, "Aləmara" müəllifi Sultan Əlinin azadlığa çıxması ilə onun Baysunqura qarşı döyüşü arasında 6 ay keçdiyini qeyd etməkdə haqlıdır.

[2] Fərsəx – təxminən 6 km-ə bərabərdir.

O, həyəcanla deyirdi ki, *"əgər [Sultan Əli və tərəfdarları] Ərdəbilə daxil olarlarsa, onların orada ələ keçirilməsi üçün 10 min nəfər itki verməyimiz lazım gələcəkdir".* Rüstəm padşah dərhal Aybə sultanın başçılığı ilə onların ardınca 5 minlik qoşun göndərdi. Ağqoyunlu qoşunu Sultan Əlinin dəstəsini Ərdəbilin bir fərsəxliyində haqlaya bildi.

Ağqoyunlu qoşununun tozanağını uzaqdan müşahidə edən Sultan Əli bu döyüşdən sağ çıxacağına inanmayaraq, qardaşı İsmayılı Səfəviyyə ordeninin rəhbəri təyin etdi, öz tacını onun başına qoydu, özünün və ata-babasının qanını almağı vəsiyyət etdi və öz lələsi Hüseyn bəy Şamluya İsmayılın lələsi olmağı tapşırdı. Sultan Əli öz qardaşları İsmayıl, İbrahim və Süleymanı Hüseyn bəy Şamlu başda olmaqla yeddi nəfər etibarlı qızılbaş sərkərdəsi ilə birlikdə Ərdəbilə yola saldı. Onlar getdikdən sonra Aybə sultanın qoşunu Sultan Əlini və tərəfdarlarını mühasirəyə aldı və baş verən döyüşdə Ağqoyunlular min nəfərə qədər itki vermələrinə baxmayaraq qalib gəldilər, Sultan Əli isə qətlə yetirildi[1].

Sultan Əlinin meyiti bir dəstə sufi tərəfindən Ərdəbilə gətirildi. Anası Aləmşah bəyim oğlunun cəsədi üzərində *"xeyli fəryad və fəğan qopardı",* özü Ağqoyunlu xanədanına mənsub olmasına baxmayaraq, Ağqoyunluların ünvanına qarğışlar və nifrinlər yağdırdı, oğlunun intiqamının *"bu azğın yağı qövmündən"* alınmasını Allahdan istədi. Şeyxzadənin meyiti gətirildikdən az sonra Təbrizdən gələn əlavə qüvvələrlə birlikdə Ağqoyunlu qoşunları Ərdəbilə daxil oldular[2].

Beləliklə, Səfəvilər XV əsrin ikinci yarısında öz dövlətlərini qurmaq uğrunda üç dəfə mübarizəyə qalxsalar da, istəklərinə nail ola bilmədilər. Bu, ilk növbədə Səfəvi hərəkatının uğurla sona çatmasına kömək edə biləcək əlverişli ictimai-siyasi şəraitin yetişməməsi, habelə Səfəvilərə qarşı çıxan Qaraqoyun-

---

[1] Aləmara (Sahib), s.31-34; Aləmara (Şükri), s.35-38. İsgəndər bəy Münşi, Sultan Əlinin 700, Aybə sultanın isə 4 min döyüşçüyə malik olduğunu yazır: Tarix-i aləmara-yi Abbasi (Tehran), s.23. Bu döyüş 1494-cü ilin yazında Ərdəbilin 1 fərsəxliyindəki Şəmasi kəndi yaxınlığında baş vermişdi: W.Hinz. Uzun Hasan ve Şeyh Cüneyd, s.82.

[2] Aləmara (Sahib), s.34; Aləmara (Şükri), s.38-39.

lu, Ağqoyunlu və Şirvanşahlar dövlətlərinin onları dəf etmək üçün hələ yetərincə gücə sahib olmaları ilə əlaqədar olmuşdur.

## 2.2. I ŞAH İSMAYILIN AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİNİN YARADILMASI VƏ MÖHKƏMLƏNDİRİLMƏSİ UĞRUNDA MÜBARİZƏSİ

### *A) Səfəvi şeyxzadələrinin Lahicana mühacirəti*

Ağqoyunlu Rüstəm tərəfindən Ərdəbil hakimi təyin edilmiş Əlixan sultan Çabuklu[1] *"Sultan Heydərin sufilərindən çoxusunu qətlə yetirib, onların mallarını qarət eylədi və onların qohumlarının da əksəriyyətini Sultan Əli mirzə ilə bərabər döyüşdə iştirak etmələri bəhanəsi ilə qətlə yetirdi. O, Ərdəbildə çoxlu azğınlıqlar törətdi".* Həmin zaman Aləmşah bəyim Şeyx Heydərin Ərdəbildəki evində idi. *"O haramzadə (Əlixan sultan – N.M.) hətta Həsən padşahın ruhundan utanmayaraq"* Aləmşah bəyimin olduğu evi də tarac etmiş, *"dünya malından bir dinar belə buraxmamışdı".* Lakin bu çətin vaxtlarda Səfəvi ailəsinin sadiq müridləri Aləmşah bəyimi sıxıntı çəkməyə qoymurdular və gecələr gizlicə onun mülazimləri vasitəsilə bəyimin dolanışığını təmin edən maddi vəsaitlər göndərirdilər[2].

---

[1] Digər mənbələrdə bu şəxsin adı Sultan Əli bəy Cagirlü kimi verilmişdir (bax: О.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с. 85). "Aləmara"nın da bəzi yerlərində onun mənsub oduğu tayfanın adı "Çakirlü" deyə qeyd olunmuşdur: Aləmara (Şükri), s.49.

[2] Aləmara (Sahib), s.34-35; Aləmara (Şükri), s.39. Digər Səfəvi mənbələrindən fərqli olaraq, "Aləmara"da Aləmşah bəyimin sonrakı taleyi haqqında maraqlı məlumatlar verilmişdir. Bizim müəllif qeyd edir ki, Ərdəbildə yaşayan Aləmşah bəyim 1499-cu ildə Gilandan Ərdəbilə hərəkət edən İsmayılı mühüm kəşfiyyat məlumatları ilə təmin etmiş, 1500-cü ilin yazında onunla Ərdəbildə görüşmüşdü. 1503-cü ildə Aləmşah bəyim sağ idi. Belə ki, həmin il Şah İsmayıl İsfahanı tutarkən orada öz xalası Məryəm bəyimlə görüşmüş və xalası ondan Aləmşah bəyimin, İbrahim mirzənin və Süleyman mirzənin əhvalını soruşmuş və onların salamat olduqlarını öyrənmişdi: Aləmara (Şükri), s.174; Aləmara (Məclis kitabxanası – 9421), v.29b. Aləmşah bəyimin 929 / 1522-23-cü ilə aid olan məzarı Şeyx Səfi məqbərəsi kompleksinin həyətində, "Allah-Allah" günbəzinin böyüründədir (bax: M.Gülmuğanizadə-əsl,

Ağqoyunlu əsgərləri şəhərin hər yerində şeyxzadələri axtarırdılar. Müridlər Şeyx Heydərin oğulları İbrahim və İsmayılı 40 gün ərzində Ərdəbilin müxtəlif yerlərində gizlədə bildilər[1]. Lakin bu, təhlükəli olduğundan tezliklə qızılbaş sərkərdələri onları Gilana aparmaq qərarına gəldilər. O zaman Ağqoyunlulardan asılı vəziyyətdə olan Gilan iki əmirlikdən ibarət idi: Əmir İshaqın rəhbərliyi altında paytaxtı Rəşt olmaqla Biye-pəs və Mirzə Əli Karkiyanın başçılıq etdiyi, paytaxtı Lahican olan Biye-piş əmirlikləri[2]. Mirzə Əli Karkiya Ağqoyunluların vassalı olmasına baxmayaraq, Səfəvi ailəsi ilə yaxşı münasibətlərə malik idi[3]. Seyid nəslindən və Səfəvi tərəfdarlarından olan bu şəxsin adı "Aləmara"da qısaca olaraq Əmir Kiya deyə qeyd edilir.

*"Hüseyn bəy Lələ yoldaşları ilə birlikdə şeyxzadələri götürüb, Lahican Gilanına yollandı. Onlar Şeyx Səfi müridlərindən olan Əmir Kiyanın yanına gəldilər. Onların gəlişindən xəbər tutan Əmir Kiya böyük qonaqpərvərlik göstərdi və onları öz sarayında elə gizlətdi ki, yadlar onların əhvalından xəbər tutmasınlar".* Lahican hakimi İsmayılın və qardaşlarının təhsilinə, xüsusən də "Quran" elminə yiyələnmələrinə diqqət yetirərək, onlar üçün müəllimlər ayırmışdı[4]. İsmayıl həm də öncül qızılbaş rəislərinin hərtərəfli qayğıkeşliyi ilə əhatə olunmuşdu. Burada gələcək hərbi əməliyyatlar üçün ciddi hazırlıq işləri aparılırdı. Həmin vaxt İsmayıl hələ azyaşlı olduğundan Səfəvi hərəkatının idarə edilməsində "Aləmara"nın *"yeddi nəfər pak etiqadlı sufi"* kimi xarakterizə etdiyi qızılbaş sərkərdələri qrupu mühüm rol oynayırdı. Bizim müəllif onların fədakarlıqlarını yüksək qiymətləndirir: *"Həmin yeddi nəfər sufi Həzrət Sultan Heydərin və Sultan Əlinin vəsatəti ilə şərəfli hökmdarı (Şah İs-*

---

H.Yusifi. Bastanşinasi və tarix-i hünər-i büqe-yi Şeyx Səfiəddin Ərdəbili. Ərdəbil, 1384, s.263-283).

[1] Tarix-i aləmara-yi Abbasi (Tehran), s.25. Bu barədə ən geniş məlumat "Cahangüşa-yi xaqan"da verilmişdir (bax: O.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, s.43-45).

[2] И.П.Петрушевский. Государства Азербайджана в XV в., с.210, прим. 287.

[3] C.Brockelmann. İslâm ulusları ve devletleri tarihi. Ankara, 1992, s.262.

[4] Aləmara (Sahib), s.35; Aləmara (Şükri), s.39.

*mayılı) darülirşad Ərdəbildən Gilana aparmışdılar və onların yeddisi də ona yoldaş olmuşdular. Onlar qızılbaşlar arasında öz arvad-uşaqlarından, mallarından və varlarından əl çəkərək, öz başlarını bu yolda qoymuşdular və şəhidlik dərəcəsini öz mərtəbələri bilmişdilər ki, sabah məhşər günündə üzüağ olsunlar"*[1].

Lakin Rüstəm padşah və onun yaxın ətrafı Şeyx Heydər oğullarından əl çəkmək niyyətində deyildi. Ağqoyunlu casusları məmləkətin hər tərəfində onları axtarırdılar. Bu casuslardan biri Gilana gələrək, özünü Şeyx Səfi ocağının sadiq müridlərindən biri kimi göstərir, şeyxzadələrlə görüşmək, *"onların ayağını öpmək istədiyini",* lakin onların yerini bilmədiyini ərz edərək, yerli əhalidən ona yardım göstərməyi xahiş edirdi. Nəhayət, günlərin birində "*sadəlövh giləklərdən (gilanlılardan – N.M.) biri öz ağılsızlığı ucbatından"* Şeyx Heydər övladlarının Əmir Kiyanın sarayında gizləndiklərini ona açıb dedi. Casus bu xəbəri dərhal Ərdəbil hakimi Əlixan sultana çatdırdı, Əlixan sultan isə Rüstəmi məlumatlandırdı. Ağqoyunlu padşahı onları necə ələ keçirmək barədə öz dövlət xadimləri ilə müşavirə təşkil etdi. Əmirlər dedilər: "*Əgər Lahican hökmdarı Sizə dost olsaydı, gərək onları ətraflarındakı adamlarla birlikdə qolubağlı Sizin xidmətinizə göndərəydi və ya Sizə xəbər çatdıraydı ki, Siz də adam göndərərək, onları tutdurub gətirəydiniz. Şübhəmiz yoxdur ki, Lahican hökmdarı da onların müridlərindəndir və məhz bu səbəbdən onları gizlətmişdir".*

Rüstəm öz saray adamlarının məsləhəti ilə şeyxzadələri hiylə ilə ələ keçirməyi qərara aldı və bir qorçu ilə Əmir Kiyaya belə bir məktub göndərdi: *"Təəssüf ki, mən bəzi adamların sözünə aldanıb, öz qohumum və sipəhsalarım olan bir cavanı (Sultan Əli mirzə Səfəvini – N.M.) aradan götürdüm. Lakin indi*

---

[1] Aləmara (Sahib), s.170; Aləmara (Məclis kitabxanası – 761), v.44a. Hüseyn bəy Şamlu, Abdal bəy Dədə, Xadim bəy Xüləfa, Rüstəm bəy Qaramanlu, Bayram bəy Qaramanlu, İlyas bəy Ayqutoğlu Xınıslu və Qara Piri bəy Qacardan ibarət olub "əhl-i ixtisas" adlanan bu qrupu R.Seyvori "Səfəvi hərəkatının nüvə mərkəzi" deyə səciyyələndirmiş və həmin illərdə hərəkatın uğurla sona çatdırılmasında bu qrupun xüsusi rolunu qeyd etmişdir: Some Reflections on Totalitarian Tendencies in the Safavid State // Der Islam, band. 53, 1976, p.234.

*ki Sultan Əli mirzənin taleyi bu cür oldu, mənim ondan sonra elə bir adamım yoxdur ki, ona etibar edə bilim. Buna görə də istəyirəm, mənim övladlarım yerində olan qardaşlarını bir ata kimi tərbiyə edim ki, mənə arxa və dayaq olsunlar. Axır vaxtlarda eşitmişəm ki, onlar sənin yanına gəliblər və sən bizim xatirimizə onlara izzət göstərmişsən, yaxşılıqlar etmişsən. Biz səndən məmnun qalmışıq. Lakin gərək bu məktubum sənə çatdıqda onları tezliklə mənim hüzuruma yollayasan ki, mən o oğulların və onların xidmətində dayananların didarını görmək üçün həsrət çəkirəm. Əsla onların xatirinə bir pis xəyal gəlməsin. Onları burada şahanə şəfqətimizin gözlədiyi haqqında ümidvar edib yollayın! İnşallah, hüzuruma gəldikləri vaxt onlara əvvəlkindən daha çox mehribanlıq göstərəcəyəm. Vəssəlam!".*

Əmir Kiya bu məktubda yazılanlardan şad olsa da, ehtiyatlı hərəkət edərək, əhl-i ixtisas qrupu ilə məsləhətləşməyi lazım bildi və məktubu gətirən qorçuya dedi ki, *"şəxsən mənim onlardan xəbərim yoxdur; əgər Gilanda olsalar, axtarıb taparam".* Sonra qorçuya ehtiram göstərib, onu yerbəyer etdi və Rüstəm padşaha nə cavab vermək lazım olduğu haqqında öz yaxınları və qızılbaş sərkərdələri ilə gizlicə məsləhətləşdi. Həmin müşavirədə Əmir Kiya *"məktubdan xoşhal olduğunu"* və orada yazılanların *"doğruluğuna inandığını"* dilə gətirdi. Lakin Hüseyn bəy Lələ başda olmaqla qızılbaş əmirləri bu fikirə qarşı qəti etiraz etdilər, Rüstəmin hiyləgərlik etdiyini bildirdilər və onların diktəsi ilə Əmir Kiya, Ağqoyunlu hökmdarına aşağıdakı məzmunda cavab yazdı: *"Məndə elə bir bəxt yoxdur ki, o iqbal bürcünün Müştəri ulduzları mənim evimdə parlasınlar və mən onlara belə bir xidmətkarlıq təqdim edə bilim. Padşahın əziz başına and olsun ki, Sultan Heydərin övladları mənim yanımda deyillər və həmçinin onların Gilana gəlmələri barədə də bir söz deyə bilmərəm. Şəhriyar mən bəndədən xatircəm olsun. Mən nəinki şəhriyarın düşmənlərini, heç dostlarını da onun razılığı olmadan öz yanıma buraxmaram".* Məktub Ağqoyunlu qorçusu vasitəsilə Rüstəmə göndərildi. Bu cavab Rüstəm padşahın Əmir Kiyadan şübhələnməsini müvəqqəti aradan qaldırsa da, buna son qoymadı.

Lahicanda bir müddət qaldıqdan sonra İbrahim mirzə anası üçün darıxdığını və Ərdəbilə geri dönmək istədiyini açıqladı. İsmayıl əvvəlcə buna etiraz etdi: “*Ay qardaş! Məbada, fələkdən bir qəziyyə və fitnə baş versin və Əlixan sultan səni ələ keçirsin. Əgər o, səni tutarsa, ya həlak edəcək, ya da Rüstəm padşahın yanına göndərəcək. Onsuz da ürəyimiz çox yanıb. İndi də sən ürəyimizi yandırma! Əziz anamıza yazığın gəslin”.*

Amma İbrahim öz fikrində qəti olduğu üçün məsləhətləşmələrdən sonra qərara alındı ki, o, başındakı qızılbaş tacını türkman taqiyəsi ilə əvəz etsin və bir nəfərin müşayiəti ilə gizlicə Ərdəbilə yollansın. Bu minvalla Ərdəbilə gedən İbrahim orada anası ilə görüşdü. *“Bundan xəbər tutan sufilər gecələr gəlib, onun əl-ayağına düşürdülər və xidmət göstərirdilər”*[1].

---

[1] Aləmara (Sahib), s.35-38; Aləmara (Şükri), s.39-42. Şeyxzadələr Lahicanda olarkən Şah İsmayılın qardaşı İbrahim mirzənin gizlicə Ərdəbilə səfər etdiyi məlumdur. Lakin onun sonrakı aqibəti qeyri-müəyyəndir. Əksər Səfəvi müvərrixləri bu barədə susmağı üstün tutmuşlar. Onun Ərdəbilə qayıtdıqdan sonra öz əcəli ilə öldüyü (Xülasətüt-təvarix, s.45; M.Tərbiyət. Danişməndani-Azərbaycan. Bakı, 1987, s.321) və ya Gilanda olarkən vəfat etdiyi haqqında fikirlər mövcuddur (J.Malcholm. Histoire de la Perse, t. II, Paris, 1821, s.266; B.Səfəri. Ərdəbil, I c., s.79). Bəzi müəlliflər isə İsmayılın Gilana sığınmasından öncə İbrahimin düşmənlər tərəfindən qətlə yetirildiyini bildirirlər: Silsilətün-nəsəb-i Səfəviyyə, s.68; C.R.Markham. A General Sketch of the History of Persia. London, 1874, p.264. Lakin “Aləmara”da onun Şah İsmayılın hakimiyyəti dövründə sağ olduğu və hərbi-siyasi proseslərdə iştirak etdiyi göstərilir. Şah İsmayıl hakimiyyətə gəldikdən sonra İbrahim mirzə Təbrizdə yaşayırdı və möhürdar Sarı Əli Təkəlü onun lələsi idi. O, 1503-cü ildə Ağqoyunlu Murada, 1506-cı ildə kürd əmiri Sarom xana, 1507-ci ildə Əlaüddövlə bəyə, 1508-ci ildə Luristan hökmdarı Məlikşah Rüstəmə, 1509-cu ildə Şeybanilərə qarşı hərbi səfərlərə qatılmış, 1510-cu ildə Mərv döyüşü zamanı Təbrizdə qalmış, 1514-cü ildə Çaldıran vuruşmasında iştirak etmişdi: Aləmara (Sahib), s.71-75,151-152,156-157,160,204,329,333-335,361-363, 521; Aləmara (Şükri), s.75-81,103-104,114,133,271-272,279,306,308,309, 485. Osmanlı müəllifləri 1508-ci ildə Ərzincanda Osmanlılarla qızılbaşlar arasında baş vermiş toqquşmadan bəhs edərkən Şah İsmayılın qardaşı İbrahim mirzənin adını çəkirlər: F.Kırzıoğlu. Osmanlılar’ın Kafkas-ellerini fethi. Ankara, 1993, s.94-95; J.V.Hammer. Osmanlı tarihi. I c. İstanbul, 1991, s.341; M.Solakzadə. Tarix. Bakı, 1992, s.22. Osmanlı mənbələrinin bu yöndəki məlumatları “Aləmara”nın İbrahim mirzənin sağ olması ilə bağlı yazılarını təsdiq edir.

Lakin altı ay sonra Rüstəm padşaha daha bir kəşfiyyat məlumatı çatdı ki, Şeyx Heydərin oğulları Gilandadır və Əmir Kiya da bundan xəbərdardır. Ağqoyunlu hökmdarı bu dəfə məqsədini gizlətmədən Əmir Kiyaya hədələyici bir məktub göndərdi: *"Nə üçün keçmiş münasibətlərimizin üstündən xətt çəkirsən və mənim düşmənlərimi öz evində saxlayırsan? Əgər bu dəfə onları bizim yanımıza göndərsən, onda bizim üçün sən elə həmin köhnə dost olaraq qalacaqsan. Yox, əgər buna əməl etməsən, saysız qoşun göndərəcəyəm ki, gedib Lahicanın bütün ağaclarını yandırsınlar və Gilanın hamısını qətliam etsinlər. Əlbəttə, mənim məktubumu alan kimi ya şeyxzadələri öldür, ya da əgər onların qanına şərik olmaq istəmirsənsə, onda onları diri-diri mənim hüzuruma göndər ki, intizar gözüm yoldadır".*

Bu məktubu alan Əmir Kiya bu dəfə dərhal öz adamları ilə məsləhətləşdi. Gilan əyanları Ağqoyunlularla Səfəvilərin bir-birinə qohum-əqrəba olduqlarını əsas gətirərək, Əmir Kiyaya bu münaqişəyə qarışmamağı, Lahicanı təhlükəyə məruz qoymamağı və İsmayılla qardaşlarını Rüstəmin adamlarına təhvil verməyi tövsiyə etdilər. Lakin gecə vaxtı vəziyyəti bir daha dərindən götür-qoy edən Əmir Kiya şeyzxadələri Rüstəmə təslim etməmək qərarına gəldi. O, ertəsi gün Ağqoyunlu elçisini çağırıb and-aman etdi və Səfəvi şeyxzadələrinin onun yanında olmadığını bildirdi: "*Padşaha bizim duamızı çatdır və de ki, Sizə yanlış məlumat vermişlər. Axı Ağqoyunlu ocağından bizə nə pislik dəyib ki, mən onların düşmənlərinə öz evimdə yer verim və gizlədim?!".* Daha sonra Əmir Kiya, Şeyx Heydər övladları haqqında ümumiyyətlə heç bir bilgisinin olmadığını israrla təkrar etdi.

"Aləmara" müəllifi Əmir Kiyanın Ağqoyunlu elçilərinə ikinci dəfə rədd cavabı verməsini onun yuxuda Həzrət Əlini görməsi ilə izah edir. Bizim fikrimizcə, burada mistik və mənəvi nüanslarla yanaşı, hərbi-siyasi gerçəkliklər heç də az rol oynamamışdı. Belə ki, Əmir Kiya Rüstəmdən olduğu qədər, bəlkə, daha artıq dərəcədə qızılbaş əmirlərindən ehtiyat edirdi. O, yaxşı bilirdi ki, Səfəvilərə xəyanət edəcəyi təqdirdə onların fanatik və çılğın tərəfdarları olan döyüşkən qızılbaşlar bunun intiqa-

mını almaq üçün əllərindən gələni edəcəklər. Yuxarıda nəzərdən keçirdiyimiz kimi, Rüstəm padşahdan birinci elçi gəldikdən sonra da Əmir Kiya şeyxzadələri təhvil vermək istəmiş, lakin qızılbaşların kəskin müdaxiləsi nəticəsində mövqeyindən imtina etməli olmuşdu.

Elçinin bu cavabı Rüstəmə çatdırması qısa müddət üçün gərginliyi aradan qaldırsa da, Əmir Kiyanın satqın bir qohumunun Lahican hakiminin Şeyx Heydər oğullarını öz yanında gizlətməsi barədə Ağqoyunlu padşahına dəqiq məlumat gətirməsi Rüstəmin xeyli qəzəblənməsinə səbəb oldu. O, minbaşı rütbəsində olan Qasım bəy Türkman adlı bir zabiti 300 nəfər qorçu ilə birlikdə Lahicana göndərib, Səfəvi şeyxzadələrini növbəti dəfə, lakin daha sərt və qətiyyətli bir şəkildə tələb etdi. Rüstəm padşah, Əmir Kiyaya göndərdiyi məktubda yazırdı: *"Bundan daha artıq dərəcədə bizi özündən incik salma! Sultan Heydərin uşaqlarını dərhal Qasım bəyə ver ki, bizim xidmətimizə gətirsin. Yoxsa özüm gələrəm, bütün Gilanı çapıb-talayaram və qətliam törədərəm".*

Əmir Kiya vaxt qazanmaq üçün möhlət istədi, ciddi axtarışlar aparacağına söz verdi və Ağqoyunlu heyətini qonaq saxladı. Bu xəbər Hüseyn bəy Lələ başda olmaqla əhl-i ixtisasa çatdı. Nəticədə, tədbir tökərək, Ağqoyunlu zabitini aldatmağı qərara aldılar. On gün sonra Əmir Kiyanın göstərişi ilə iki ağac arasında kəndir çəkdilər və kəndirdən zənbil asaraq, İsmayıl gili oraya qoydular. Yalnız bundan sonra Əmir Kiya, Qasım bəyi yanına çağıraraq, *"adam göndərib, bu vilayəti ev-ev, kənd-kənd axtardığını, lakin Sultan Heydərin övladlarından bir nişanə zahir olmadığını"* dedi və əlini "Quran"a basaraq and içdi ki, *"onlar Gilan torpağında deyillər".* Həmin vaxt şeyxzadələr iki ağac arasında asılı qalan zənbilin içində olduqlarından, həqiqətən də, "Gilan torpağında deyildilər". O dövrün məşhur seyidlərindən olan Lahican hakiminin "Quran"a əl basması Qasım bəyi inandırdı və o, sakitcə öz dəstəsini götürüb, Təbrizə qayıtmalı oldu[1].

---

[1] Aləmara (Sahib), s.38-41; Aləmara (Şükri), s.42-45. Bəzi müəlliflər "zənbil əhvalatı"nı yanlış olaraq Rəşt hakimi Əmir İshaqa aid etmişlər: S.Ə.Rəhim-

Beləliklə, Rüstəm padşah 1494-97-cı illərdə üç dəfə İsmayılı və onun qardaşlarını Əmir Kiyadan tələb etsə də, Lahican hakimi hər dəfə müxtəlif bəhanələrlə onları təhvil verməkdən imtina etdi.

### *B) Şah İsmayılın Azərbaycan taxt-tacına yiyələnməsi*

1497-ci ildə Ağqoyunlu dövlətini bürümüş böhran özünü tam şəkildə büruzə verməyə başladı. Həmin ilin may ayında Aybə sultan başda olmaqla bir qrup əmir Rüstəmi devirib qətlə yetirdilər və yerinə Gödək Əhmədi taxta yüksəltdilər. Lakin sonradan onun daxili siyasətindən razı qalmadıqları üçün dekabrda onu da hakimiyyətdən salıb öldürdülər. Bundan sonra Ağqoyunlu imperiyasını hakimiyyət uğrunda amansız daxili savaş bürüdü[1]. "Aləmara"nın məlumatına görə, bu münaqişələrdə başlıca rol nüfuzlu əmirlərə məxsus idi və onlar hakimiyyətə çıxardıqları şahzadələrdən siyasi alət kimi istifadə edir, şahzadələr isə onlardan tam asılı vəziyyətdə olur, hətta *"onların razılığı olmadan su da içə bilmirdilər".* Ağqoyunlu dövlətinin son illərindəki vəziyyətə kinayəli münasibət bildirən bizim müəllifin sözlərinə görə, hakimiyyət çevrilişləri o qədər sürətlə baş verirdi ki, bir hökmdar yemək bişirmək haqda göstəriş verir, bu arada hərbi çevrilişlə onu əvəz etmiş digər bir hökmdar həmin yeməyin süfrəyə gətirilməsini əmr edir, nəhayət, daha bir çevriliş baş tutur və həmin yeməyi taxta yeni çıxmış növbəti hökmdarlar əyləşib yeyirdilər və guya *"kim bişirdi, kim yedi"* atalar sözü də məhz o vaxtlar yaranıbmış[2].

Beləliklə, Budaq Qəzvininin təbirincə desək, "İraq-i Əcəm və Azərbaycan məmləkətlərində hərc-mərclik idi və hər iki

---

zadə. Şərh-i cəngha və tarix-i zindəgani-yi Şah İsmail-i Əvvəl. Tehran, 1341, s.117.

[1] И.П.Петрушевский. Государства Азербайджана в XV веке, с.178-179; С.А.Мамедов. Азербайджан по источникам XV – первой половины XVIII вв. Баку, 1993, с.160; J.E.Woods. The Aqquyunlu: Clan, Confedaration, Empire. Chicago, 1976, p.168-171; R.M.Savory. The Struggle, p.60-61.

[2] Aləmara (Sahib), s.47-49; Aləmara (Şükri), s.51-53.

gündən bir kimsə padşah olurdu"[1]. Lakin Səfəvi hərəkatının aktivləşməsi Ağqoyunlu səltənətinin sağ qalmış iki varisinin – Uzun Həsənin nəvələri Muradla Əlvəndin və onları dəstəkləyən əmirlərin öz aralarında dil tapmalarına səbəb oldu. Sülalədaxili münaqişənin davam edəcəyi təqdirdə Səfəvilərin hakimiyyəti asanlıqla ələ ala biləcəklərini anlayan Ağqoyunlular Əlvənd tərəfin təşəbbüsü ilə öz aralarındakı savaşa son qoymağı qərara aldılar. Razılaşmaya əsasən, Qızılüzən çayı sərhəd olmaqla Ağqoyunlu dövləti iki hissəyə bölündü, yəni həmin çaydan cənubdakı ərazilər (Fars, Yəzd, Kirman, İsfahan, Kaşan, Qum, Qəzvin, Həmədan, Kuh-i Giluyə) Şiraz paytaxt olmaqla Muradın, çaydan şimaldakı ərazilər (Azərbaycan və Şərqi Anadolu) isə mərkəzi Təbriz olmaqla Əlvəndin ixtiyarına keçdi. Lakin istisna hal kimi, Qızılüzənin sağ sahilində yerləşən Lahican əmirliyinin də Əlvəndə tabe olması nəzərdə tutulurdu[2]. Həmin saziş 906-cı ilin əvvəllərində / 1500-cü ilin yayında bağlanmışdır[3]. Lakin bu hökmdarların hakimiyyəti bəzi bölgələrdə yalnız simvolik xarakter daşıyırdı. Bir sıra ərazilərdə Ağqoyunlu əmirləri faktiki olaraq müstəqil siyasət yürüdürdülər və bundan əlavə, Şirvan, Gilan, Mazandaran, Luristan və s. kimi vilayətlər yerli hökmdar sülalələri tərəfindən idarə edilirdi[4].

Əhalinin amansız istismarı, yüksək vergilər, ödənclər, mükəlləfiyyətlər və arasıkəsilməz feodal çəkişmələri Azərbaycan tarixinin XV əsrin sonuna aid dövrü üçün səciyyəvi hal idi. Yaranmış gərgin vəziyyət ölkənin ictimai-iqtisadi və siyasi həyatında dəyişikliklərin baş verməsini diktə edirdi. Mərkəzləşmiş dövlətin yaranması, feodal dağınıqlıqlarının ləğvi, dövlət aparatının gücünün möhkəmləndirilməsi Azərbaycanın o dövrkü

---

[1] Cəvahirül-əxbar, s.112.
[2] Aləmara (Sahib), s.48-49; Aləmara (Şükri), s.52-53.
[3] J.E.Woods. The Aqquyunlu, p.173.
[4] И.П.Петрушевский. Азербайджан в XVI-XVII вв. // ССИА, вып. I, Баку, 1949, с.225-226; Ş.F.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə. Bakı, 1983, s.112; Ш.М.Мустафаев. Восточная Анатолия: от Ак-коюнлу к Османской империи. Москва, 1994, с.12-13.

tarixi inkişafının obyektiv tələbləri idilər[1]. Feodal pərakəndəliyi ölkənin ayrı-ayrı hissələri arasında təsərrüfat əlaqələrinin möhkəmlənməsinə mane olur və məhsuldar qüvvələrin inkişafını ləngidirdi. Mərkəzləşmiş dövlətin yaranması əhalinin geniş təbəqələrinin tələblərinə cavab verirdi[2]. Beləliklə, Ağqoyunlu dövləti daxilindəki vəziyyət, səltənətin parçalanması və zəifləməsi Səfəvilərin hakimiyyət uğrunda mübarizəsi üçün əlverişli şərait yaradırdı. Həmçinin beynəlxalq vəziyyət Səfəvilərin yüksəlişi üçün xeyli münasib idi[3].

İsmayıl Lahicanda qaldığı beş il ərzində özünün Anadoluda, Cənubi Qafqazda, Azərbaycanda yaşayan və azəri türkcəsində danışan türkman müridləri ilə gizli əlaqə saxlayırdı[4]. "Aləmara"nın məlumatına görə, qızılbaş hərəkatı üçün hazırlıqlar Rüstəm padşahın ölümündən sonra xüsusilə intensivləşmişdi. Əmir Kiya əvvəlcə İsmayılın yaşının az olduğunu bildirib, "xüruc etməyin" və hakimiyyət uğrunda savaşa atılmağın hələ tez olduğunu bildirmiş, lakin hadisələrin sürətlə cərəyan etməsi onu öz mövqeyini dəyişməyə vadar etmişdi[5]. H. 905-ci ilin məhərrəm ayının ortasında (təxminən 22 avqust 1499-cu ildə)[6] İsmayıl hakimiyyət uğrunda mübarizəyə başlamaq məqsədi güdərək, yaxın tərəfdarları ilə birlikdə Lahicanı tərk etdi. Bundan sonra o, Deyləmdən keçməklə Taroma hərəkət etmiş, oradan isə Xalxala, Qızılüzən sahillərinə yönəlmişdi. 905 / 1499-1500-cü ilin qışını Astaranın Ərcüvan kəndində keçirdikdən sonra Ərdəbilə gəlmiş, oradan da Qarabağ – Göyçə – Çuxursəəd istiqamətində irəliləyərək, Şərqi Anadoludakı Ərzincan məntəqəsinə gedib çıxmışdı[7]. Bütün bu hərəkətlərin

---

[1] Дж.М.Ибрагимов. Феодальные государства на территории Азербайджана XV века. Баку, 1962, с.49-50.
[2] S.A.Məmmədov. Azərbaycan XV-XVIII əsrin birinci yarısında. Bakı, 1981, s.32.
[3] The Cambridge History of Iran, vol. VI, p.210.
[4] R.Savory. Iran under the Safavids, p.21-22.
[5] Aləmara (Sahib), s.41; Aləmara (Şükri), s.45.
[6] Y.Rəhimlu. Ağaz-i səltənət-i Səfəviyan // Məcəlle-yi Daneşkəde-yi Ədəbiyyat və Ülum-i İnsani-yi Daneşgah-i Firdovsi, XXVI/2, Məşhəd, 1372, s.413.
[7] О.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с. 85-86; F.Sümer. Safevî Devletinin kuruluşu, s.17-18.

əsas məqsədi daha çox qızılbaş döyüşçülərinin cəlb edilməsindən ibarət idi. Mənbələrdə İsmayılın ilkin gedişləri zamanı onun hərbi qüvvələrinin sayı barədə müxtəlif məlumatlar verilməkdədir. K.Zeno səyahətnaməsinə görə, İsmayıl “müridlərindən 200 nəfəri Gilanda yanına almışdı və onların sayı Ərdəbilə gəldikdən sonra daha 200 nəfər artdı”[1]. Lakin digər mənbələr bu informasiyanı təsdiqləmir və İsmayılın kiçik bir dəstə ilə Gilanı tərk etdiyini bildirirlər. Bu hadisələrin müasiri olmuş salnaməçi Bicən Gilanı tərk edərkən İsmayılı yalnız əhl-i ixtisas üzvü olan 7 əmirin müşayiət etdiyini[2], Budaq Qəzvini isə həmin zaman onun yanında 17 nəfərlik dəstənin olduğunu qeyd etmişdir[3]. İsmayıl “bir deyimə əsasən, saflıq şüarlı sufilərdən 7 nəfərlə, digər bir rəvayətə görə isə, canını qurban edən fədailərdən 70 kəslə” birlikdə Gilandan çıxmışdı[4].

Bizim müəllifin şərhinə görə, İsmayıl Gilandan çıxarkən yanında *“həmin 7 nəfər pak etiqadlı sufi”* vardı. Lakin Gilanı tərk edən kimi onlara daha 70 nəfər qoşulmuş, qoşunun kəmiyyəti *“günbəgün 5-10 nəfər artmış, nəticədə, Tarom ətrafında onların sayı 130 nəfərə çatmışdı”.* Məhz Taromun 4 fərsəxliyində İsmayılın Ağqoyunlu qoşunları ilə ilk toqquşması baş verdi. Tarom hakimi Hüseyn sultan Türkman (onun adı bəzi mənbələrdə Hüsaməddin kimi qeyd olunur) 700 nəfərlik dəstə ilə onun yolunu kəssə də, baş vermiş döyüşdə qızılbaşlar qalib gəldilər və Hüseyn sultan başda olmaqla 400 Ağqoyunlu əsgəri həlak oldu. Əsirlərin bir qismi şiəliyi qəbul edib İsmayıla qoşuldu. Bu qələbədən sonra İsmayıl *“Taroma daxil oldu və qoşununun sayı 200 nəfərə çatdı”*[5]. Digər Səfəvi mənbələrinin heç birində İsmayılın bu ilk döyüşü və ilk qələbəsi haqda məlumat verilməmişdir. Yalnız gilanlı salnaməçi Əli ibn Şəmsəddin ötəri olaraq yazır ki, “Biye-pəs hakimləri İsmayılın yolunu Taromda kəssələr də, bu təhlükə aradan qaldırıldı və Ərdəbilə

---

[1] Travels of Venetians, p.48; Doğuda Venedik elçileri, s.52.
[2] O.Ə.Əfəndiyev. Salnaməçi Bicən Şah İsmayıl Xətai haqqında // Şah İsmayıl Xətai (məqalələr toplusu). Bakı, 1988, s.20-21.
[3] Cəvahirül-əxbar, s.112.
[4] Riyazüs-səyahə, s.41.
[5] Aləmara (Sahib), s.44-45; Aləmara (Şükri), s.48-49.

rəvan oldular”[1]. Lakin İsmayıl Ərdəbilə birbaşa yolla deyil, həm bizim müəllifin, həm də Bicənin və Həsən bəy Rumlunun göstərdiyi kimi, cənuba və cənub-qərbə, Xalxala yönələrək gedirdi. O.Əfəndiyevin fikrincə, “bu manevr həmin ərazidə yaşayan şamlu tayfasını qızılbaş bayraqları altına cəlb etmək məqsədi ilə həyata keçirilmişdi”[2].

Salnaməçi Bicən və Həsən bəy Rumlu Taromda qızılbaşların sayının 1500 nəfərə çatdığını, İsmayılın Tarom hakimi Hüsaməddindən çəkinərək Xalxala yönəldiyini bildirsələr də[3], bizim müəllifin şərhi bundan fərqlidir. ”Aləmara”ya əsasən, Taromda İsmayılın döyüşçüləri 200 nəfər təşkil etdiyi halda, o, Xalxala hərəkət edərək, oranın da hakimini məğlubiyyətə uğratmış və Xalxala daxil olmuşdu. Xalxala gəldiyinin ilk günündə qoşunu 700 nəfərə çatsa da, orada qaldığı bir neçə gün ərzində bu rəqəm 1500 nəfərə qədər artmışdı[4]. Həmçinin Bicən və Rumlu, İsmayılın Xalxaldan Ərdəbilə yönəldiyini, lakin Ərdəbil hakimi Sultan Əli bəy Cagirlünün təhdidindən sonra Ərdəbil bölgəsini tərk edib, qışlamaq üçün Astaranın Ərcüvan kəndinə getdiyini qeyd etməkdədirlər[5]. Öz əsərində bu əhvalatın başqa bir versiyasına yer vermiş bizim müəllif bu hadisəni digər mənbələrdə rast gəlinməyən təfərrüatla əks etdirmişdir. Onun yazdığına görə, İsmayılın qoşunu 1500 nəfərə çatandan sonra o, Xalxaldan Ərdəbilə doğru irəliləmiş, Qaradərə adlı yerə çatmışdı. Lakin vəziyyət heç də onun xeyrinə deyildi. Çünki Ərdəbil bölgəsində yaşayan və Səfəvi tərəfdarı olan yarımköçəri tayfalar hələ Qarabağdakı yaylaqlarından qayıtmamışdılar. Bundan əlavə, İsmayılın Qaradərəyə gəldiyindən xəbər tutan Ərdəbil hakimi Əlixan sultan bütün yolları bağlayaraq, Ərdəbil sakinlərini İsmayılın gəlişindən məlumatsız saxlaya bilmişdi. O, eyni zamanda, Ərdəbil camaatını şübhələndirməmək üçün öz qoşununu *“şikar bəhanəsi ilə”* şəhərdən çı-

---

[1] Tarix-i xani, s.105.
[2] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.46.
[3] Cahangüşa-yi xaqan, s.90; Əhsənüt-təvarix (Seddon), s.26.
[4] Aləmara (Sahib), s.45; Aləmara (Şükri), s.49.
[5] Cahangüşa-yi xaqan, s.91; Əhsənüt-təvarix (Seddon), s.27.

xarmış və bütün bunlardan xəbərsiz olan İsmayılın 1500 nəfərlik dəstəsini Qaradərədə pusquya salıb məhv etmək üçün 7 minlik qoşun hazırlamışdı. Amma bu zaman Əlixan sultanın tabeliyindəki Ağqoyunlu əmirlərindən birinin mülazimi olan bir Səfəvi tərəfdarı gecə yarısı bu plandan Aləmşah bəyimi agah etmiş və o da dərhal öz oğlu İsmayılın yanına adam göndərərək, *"indi gəlmək vaxtı deyil, şəhərdə heç kəs yoxdur, müridlərin hamısı yaylaqdadırlar və gərək daha altı ay səbr edəsən"* deyə, onu təhlükə barədə məlumatlandırmışdı. Sübh namazı vaxtı bu xəbəri alan İsmayıl, Hüseyn bəy Lələnin və digər əmirlərin təkidi ilə öz qoşununu götürüb, gündoğar vaxtı Qaradərəni tərk etmiş, Əlixan sultanın ordusu çaşt vaxtı oraya gəldiyində heç kimi görməmişdi[1]. Bu məlumatdan aydın olur ki, İsmayıl heç də Ərdəbil hakiminin xəbərdarlığından sonra geri çəkilməmişdi. Əksinə, Ərdəbil hakimi Əlixan sultan Çabuklu (Sultan Əli bəy Cagirlü) xəbərdarlıq etmədən onu pusquya salmaq istəmiş, lakin Aləmşah bəyimin qətiyyəti sayəsində buna nail ola bilməmişdi.

Əlvəndə xəbər çatdı ki, İsmayıl qiyam qaldırmaq üçün Ərdəbil ətrafına gəlmiş, lakin Əlixanın həmləsindən sonra döyüşə girməyərək, guya yenidən Gilana qayıtmışdır. Bu xəbərdən xoşhal olan Əlvənd, Əlixan sultan üçün xələt yolladı, lakin həm də ehtiyat tədbirləri görərək, qoşunlarına Təbrizdə toplaşmaq haqqında əmr göndərdi.

Qışı başa vurduqdan sonra İsmayıl Novruzun əvvəlində (1500-cü ilin yazın əvvəllərində) *"münacat vaxtı"* Əlixan sultan öz evində rahat bir şəkildə yatarkən qəflətən Ərdəbil şəhərinə daxil oldu. Qızılbaş qoşununun gəlişindən xəbər tutan şəhər sakinləri Ağqoyunlu administrasiyasına qarşı üsyan qaldırdılar. "Aləmara"dan aydın olur ki, üsyana qoşulan sakinlərin sayı 14-15 min nəfərə çatmış və onlar şəhərdəki 2 minlik Ağqoyunlu qarnizonunu darmadağın etmişdilər. Əlixan sultan isə

---

[1] Aləmara (Sahib), s.45-47; Aləmara (Şükri), s.49-51. Çaşt – səhər və günorta arasında olan vaxtdır. "Aləmara"da Şah İsmayılın qışlamaq üçün "Tarom tərəfinə" getdiyi yazılsa da, daha dəqiq məlumata görə, o, həmin qışı Astaranın Ərcüvan kəndində keçirmişdi.

səhər vaxtı ələ keçirilərək qətlə yetirilmişdi[1]. Ərdəbil hadisələri Azərbaycanın oturaq əhalisinin Səfəvilərin mərkəzləşdirilmiş dövlət qurmasında maraqlı olduğunun bariz nümunəsidir[2]. Lakin oturaq əhali öz evindən və təsərrüfatından ayrılaraq uzunmüddətli yürüşlərdə iştirak imkanında deyildi. Türk hərbi sisteminə əsasən, ordu köçəri tayfaların qüvvələrindən formalaşdırılır, hərbi iş oturaq əhalinin deyil, köçərilərin məşğuliyyəti hesab olunurdu. Buna görə də hərəkata yarımköçəri türk qızılbaş tayfalarının yetərincə döyüşçü qüvvəsini cəlb etmədən hakimiyyət uğrunda mübarizə aparmağın qeyri-mümkünlüyünü anlayan qızılbaş qərargahı Azərbaycan ərazilərindən keçməklə Ağqoyunlu dövlətinə daxil olan Şərqi Anadolunun Ərzincan bölgəsinə getməyi və bu manevrlə Azərbaycan və Anadoludakı daha çox qızılbaş hərbi birliklərini hərəkata qoşmağı qərara aldı. Mənbənin məlumatına görə, İsmayıl Ərdəbildən *"Göyçə dəryası kənarına"* getmək, oradan da Şərqi Anadoluya keçmək fikrində idi[3].

İsmayıl 1500-cü ilin yazında Ərzincana gedən yolda, Qarabağ vilayəti ərazisində, Araz çayı ilə Göyçə gölü arasında hökmranlıq edən və Qaraqoyunlu Cahanşahın nəvəsi olan Sultan Hüseyn Barani ilə üzləşməli oldu. 20 min evlik elata başçılıq edən bu şəxs hər il Ağqoyunlu hökmdarına sovqat

---

[1] Aləmara (Sahib), s.49; Aləmara (Şükri), s.53-54. Münacat – Allaha dua etmək mənasını ifadə edən bir dini termindir. Özü təbrizli olan Ə.M.Sahib Təbriz camaatının əski adət-ənənəsinə əsasən, xalq arasında ramazan ayında, gecə yarısından bir pas (gecənin 1/8 hissəsi qədər) vaxt keçdikdən sonra sübh azanına bir saat qalanadək olan zamanın "münacat vaxtı" hesab olunduğunu yazır və "Aləmara"da əksini tapmış "münacat vaxtı"nın məhz bu adətlə əlaqədar olduğunu bildirir: Aləmara (Sahib), s.633. İsmayılın Ərdəbilə gəldiyi h. 906-cı ildəki ramazan ayı miladi təqviminə görə, 1500-cü ilin aprel ayına təsadüf edir. Əgər Ə.M.Sahibin şərhini qəbul etsək, onda İsmayılın Ərdəbil şəhərinə məhz 906-cı ilin ramazan / 1500-cü ilin aprel ayında, bir gecə vaxtı daxil olduğunu fərz edə bilərik.

[2] "Aləmara"da göstərilir ki, İsmayıl qızılbaş qoşunu ilə birlikdə Ərdəbili tərk etdikdən sonra da şəhər üsyançıların faktiki nəzarəti altında qalmış və orada Ağqoyunlu idarəçiliyi bərpa edilməmişdi.

[3] Aləmara (Şükri), s.51.

verməsinə baxmayaraq, qiyam qaldırıb hakimiyyətə gəlmək niyyətində idi[1].

Məhz buna görə də o, öz silahdaşlarına *"mən xüruc etmək istəyirdim, lakin Şah İsmayıl məndən əvvəl xüruc etdi"* deyərək, hakimiyyətə iddiaçı bir şəxs kimi, İsmayılı özünə siyasi rəqib hesab edirdi və *"öz elinin ağsaqqalları"* ilə keçirdiyi məşvərətdə onu mehribanlıqla qarşılayıb ziyafətə dəvət etməyi və orada hiylə yolu ilə zəhərləyib öldürməyi qərara almışdı. Barani özü bir fərsəxlikdən İsmayılı qarşılamağa çıxmış, özünün 12 minlik qoşunla ona birləşəcəyinə və Ağqoyunluların taxtdan salınmasına, İsmayılın Təbriz mülkündə hökmdar olmasına yardımçı olacağına söz vermiş, İsmayılı səhəri gün keçirəcəyi ziyafətə dəvət etmişdi[2]. Lakin qızılbaşlar onun hərəkətlərindən şübhələndikləri üçün səhəri gün ziyafətə bir qrup əmir getdi. İsmayıl isə xəstə olduğunu bəhanə edərək, növbəti gün təşrif buyuracağını bildirdi. Əmirlər qayıdan kimi gecə ikən qızılbaş qoşunu öz düşərgəsini xəlvətcə tərk edib oradan uzaqlaşdı[3]. Səhəri gün Barani İsmayılın Çuxursəəd tərəfə getdiyini anlayıb, onları təqib etdi və qızılbaş qoşununu haqlaya bildi. Lakin "xaqan-i sahibqiran düşmənin çoxluğundan qorxmadı, ayağını möhkəm tutub, düşmənlərin ürəyinə böyük bir xof saldı, onları geri çəkilməyə məcbur etdi"[4]. Baraninin 7-8 minlik qoşunu ilə İsmayılın 3 min qızılbaşı arasında döyüş "Qaraqo-

---

[1] Aləmara (Sahib), s.49-50; Aləmara (Şükri), s.54. "Sultan Hüseyn Barani Cahanşah Qaraqoyunlunun nəvələrindən idi və Azərbaycan səltənətinə öz varislik hüququnu irəli sürürdü": S.Ə.Rəhimzadə. Şərh-i cəngha, s.123. Baraninin siyasi planlarını ifşa edən Cünabədi yazır ki, o, "məmləkəti Həsən bəyin övladlarından və nəvələrindən (Ağqoyunlulardan – N.M.) alıb, Azərbaycan diyarında yenidən Qara Yusif nəslinin rəhbərlik çırağını yandırmaq" məqsədi güdürdü: Rövzətüs-Səfəviyyə, s.119. Onun özünü "Barani" adlandırması təsadüfi deyildi, çünki Qaraqoyunluların hakim sülaləsi Barani və ya Baranlu adını daşıyırdı: T.H.Nəcəfli. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı, 2000, s.27; R.M.Şükürova. Əbu Bəkr Tehrani və onun "Kitabi-Diyarbəkriyyə" əsəri. İstanbul, 2006, s.71.

[2] Aləmara (Sahib), s.50; Aləmara (Şükri), s.54-55.

[3] Aləmara (Sahib), s.51-52; Aləmara (Şükri), s.55-56; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.85.

[4] Xülasətüt-təvarix, s.53; Cahangüşa-yi xaqan, s.104; Əhsənüt-təvarix (Seddon), s.35.

yunlular"ın məğlubiyyəti və onlardan 4 min nəfərin həlak olması ilə nəticələndi[1].

İbrahim Əmini "Göyçə-dəniz nahiyəsində" Barani ilə görüş zamanı "ləşkər-i hümayun"un, yəni İsmayılın qoşununun 1500 nəfərə çatdığını qeyd edir[2]. Lakin fikrimizcə, "Aləmara"da əks olunmuş 3 min rəqəmi daha məqbuldur. Çünki O.Əfəndiyevin də müəyyənləşdirdiyi kimi, yolun başlanğıcında qızılbaş qoşununun miqdarı 1500 nəfər olsa da, Azərbaycandan keçərkən İsmayıla çoxsaylı tərəfdarlar qoşulmuşdu və Anadoluya daxil olana qədər onun qoşunu xeyli artaraq, bir neçə min nəfərə çatmışdı[3]. İsgəndər bəy Münşinin yazdıqlarından aydın olur ki, Ərdəbildən Qarabağa və Göyçəyə hərəkət edərkən, yəni Azərbaycan ərazilərdən keçərkən İsmayıla hər gün çoxlu könüllülər qoşulmuş, Şərqi Anadoluda isə onlara daha 3-4 min mürid qatılmış və nəticədə, qızılbaş qoşununun sayı 7-8 min nəfərə çatmışdı[4]. Bir Osmanlı müəllifi Şah İsmayılın "Qarabağda babasının və atasının müridlərini cəmləşdirdiyini" qeyd edir[5]. Bu məlumatlardan görünür ki, İsmayıl öz ordusunun yarıya qədərini, bəlkə, yarıdan da çoxunu Azərbaycandan toplamışdı.

İsmayıl Çuxursəəd, Doqquz-Ulam, Kağızman və Ərzurumdan keçməklə Tərcanın cənubundakı Sarıqaya yaylağına çatdı və iki ay orada qaldıqdan sonra Ərzincana getdi. Salnaməçilərin məlumatına görə, 906-cı ilin əvvəllərində / 1500-cü ilin iyul-avqust aylarında Ərzincanda onun şamlu, ustaclu, rumlu, təkəlü, zülqədər, əfşar, qacar, varsaq tayfalarının döyüşçülərindən və "Qaracadağ sufiləri"ndən ibarət ordusu 7 min nəfərə

---

[1] Aləmara (Sahib), s.52; Aləmara (Şükri), s.56. Baraninin bu döyüşdə öldürüldüyü bildirilsə də, digər məlumata görə, o, qəti olaraq 1500-cü ilin payızında Gəncə yaxınlığında Əlvənd tərəfindən darmadağın edilmişdi: C.A.Мамедов. Азербайджан по источникам, с.161; Tarix-i cahanara, v.195a.

[2] Fütuhat-i şahi, v.6b.

[3] О.А .Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.47.

[4] Tarix-i aləmara-yi Abbasi (Bakı), s.82. Osmanlı tarixçisi Lütfi paşa (Tevârîh-i Âl-i Osmân, s.193) Ərzincanda İsmayılın ətrafına Rum vilayətindən cəmi 2-3 min adamın toplaşdığını qeyd edir.

[5] Zühur-i dövlət-i Səfəviyan, v.67a.

çatmışdı[1]. Məhz bu məlumatdan istifadə edən bəzi tədqiqatçılar Səfəvi dövlətinin qurulmasında Azərbaycanın türk tayfalarının rolunu inkar etməyə və bu prosesdə Anadolu və Suriyada məskunlaşmış türk tayfalarının həlledici faktor olduğunu sübut etməyə çalışmışlar[2]. Halbuki O.Əfəndiyevin ilkin mənbələr əsasında sübut etdiyi kimi, Səfəvilərin əsas zərbə qüvvəsini təşkil edən rumlu və şamlu tayfaları Azərbaycanda XVI əsrdən xeyli əvvəl yaşamışlar. "İsmayıl Azərbaycan hüdudlarını tərk edib Anadoluya daxil olmazdan öncə onun hərbi kontingentləri içərisində şamlu, rumlu, ərəşlü, zülqədər tayfalarının, həmçinin Qaradağ, Əhər və Talış sufilərinin adları çəkilməkdədir"[3]. "Aləmara"nın materialları bu faktları bir daha təsdiq edir. Mənbədən aydın olur ki, Əmir Teymurun Rumdan (Anadoludan) gətirdiyi əsirlərdən törəmiş rumlu tayfası hələ XV əsrin əvvəllərindən, Xoca Əli zamanından Ərdəbil ətrafında məskunlaşmışdı. Şamlu tayfasından olan Hüseyn bəy Lələnin qardaşı Həsən bəyin evi Ərdəbil şəhərində idi ki, bu fakt şamluların da Ərdəbil bölgəsində sakin olduqlarını göstərir. Həmçinin İsmayılın xürucunun lap əvvəlində adları çəkilməyən tərəkəmə qızılbaş tayfalarının yaylaqlarını Qarabağda, qışlaqlarını isə Ərdəbil bölgəsində keçirdikləri, eyni zamanda, zülqə-

---

[1] Cahangüşa-yi xaqan, s.106; Əhsənüt-təvarix (Seddon), s.41; Do kitab-i nəfis əz mədarek-i əvvəliyye-yi Səfəviyan, s.3; Lübbüt-təvarix, v.155a; O.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.47.

[2] Məsələn, P.İ.Petrovun fikrincə, "Səfəvi dövlətinin qurulmasında Azərbaycanda deyil, Anadoluda və Suriyada məskunlaşmış köçərilərdən ibarət hərbi qüvvə həlledici rol oynamışdı": П.И.Петров. Данные источников о составе воинских контингентов шаха Исмаила I // Народы Азии и Африки, 1964, № 3, с.79. Bu məsələyə dair xüsusi tədqiqat ərsəyə gətirmiş F.Sümer Səfəvi dövlətini quran ünsürün "Anadolunun orta və güney bölgələrinə mənsub yeni bir türk topluluğu" olması barəsində israr etmişdir: Safevî Devletinin kuruluşu, s.3. Amma onun həmvətəni T.Gündüz bu fikirləri tənqid edərək, Səfəvi dövlətinin yaradılmasında Azərbaycan başda olmaq üzrə Ağqoyunlu ölkəsinə daxil olan vilayətlərin (qismən də Suriyanın) türk tayfalarının əsas rol oynadığını göstərmişdir: Son Kızılbaş Şah İsmail. İstanbul, 2010, s.56.

[3] O.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.46-47.

dər tayfasının bir hissəsinin artıq Azərbaycanın Araz çayı sahillərində yaşadığı qeyd olunur[1].

Səfəvi dövlətinin qurulmasında Anadolu tayfalarının da iştirakı danılmaz bir fakt olsa da, onu qeyd etməliyik ki, XV əsrin sonu – XVI əsrin əvvəli üçün qızılbaş tayfalarını "Anadolu türkləri" və "Azərbaycan türkləri" deyə, iki qismə bölmək düzgün olmazdı. Çünki həmin zaman Azərbaycanda, Anadoluda, İraqda və Suriyada məskunlaşmalarından asılı olmayaraq, Azərbaycan türkcəsində danışan və "türkman" etnik adı altında ümumiləşdirilən bu tayfalar vahid bir ulusa aid idilər və istinadgahı Azərbaycanda yerləşən Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərini qurmuş və inkişaf etdirmiş türkman elləri hələ XV əsrin əvvəllərindən özlərini Osmanlı və Orta Asiya türklərindən fərqləndirirdilər[2].

Ərzincanda qızılbaş qərargahı Şirvan üzərinə hərəkət etməyi qərara aldı. İlkin hədəf kimi Şirvanın seçilməsi heç də təsadüfi deyildi və əsasən iki səbəblə əlaqədar idi: əvvəla, İsmayıl Ağqoyunlularla həlledici savaş ərəfəsində nisbətən zəif düşmənə qarşı döyüşdə öz ordusunu sınaqdan keçirmək istəyirdi və ikincisi, bunun üçün onun psixoloji motivi də var idi, yəni o, Şirvan hökmdarları tərəfindən öldürülmüş əcdadlarının intiqamını almaq arzusunda idi[3]. Maraqlıdır ki, İsmayıl Ərzincana gedərkən və oradan Şirvana yürüş edərkən Ağqoyunlu Əlvəndin ərazisindən keçmişdi. Hətta onun bir neçə ay qaldığı, hazırlıqlarını tamamladığı Şərqi Anadolu bölgəsi də Əlvəndin dövlətinin tərkibinə daxil idi. Belə bir sual yaranır ki, bütün bu zaman ərzində, İsmayıl hələ öz qoşunlarını müharibəyə tam hazır vəziyyətə gətirməzdən öncə Əlvənd və onun əmirləri nə üçün qızılbaş hərəkatına mane olmaq cəhdləri göstərməmişlər? Fikrimizcə, İsmayılın Şirvana yürüşü Əlvəndə və onun əmirlərinə sərf edirdi. Çünki Şirvanşah Fərrux Yəsar, Əlvəndin

---

[1] Aləmara (Sahib), s.49-50; Aləmara (Şükri), s.50-51,54.
[2] Ə.B.Tehrani. Kitabi-Diyarbəkriyyə. Bakı, 1998, s.59; Azərbaycan dövlətçilik tarixində Səfəvilər dövlətinin yeri (elmi-praktiki konfransın materialları). Bakı, 2001, s.117-118; З.М.Буниятов, О.А.Эфендиев. От редакторов // Ф.Р.Хунджи. Тарих-и аламара-йи Амини. Баку, 1987, с.5.
[3] R.M.Savory. Iran under the Safavids, p.25.

rəqibi olan Ağqoyunlu Muradın ana babası idi. O, bir neçə il öncə Ağqoyunlu taxtı uğrunda mübarizədə Muradın böyük qardaşı Baysunqura fəal dəstək vermişdi. XV əsrin son illərində Ağqoyunlu səltənəti uğrunda gedən mübarizədə Muradın tərəfində şirvanşah qoşunları da iştirak etmişdilər[1]. Cənubdan Muradla, şimaldan isə onun babası Fərrux Yəsarla həmsərhəd olan Əlvənd və onun əmirləri çətin vəziyyətdə idilər. Heç kim Muradla Əlvənd arasında bağlanmış sülhün sürəkli olacağına təminat verə bilməzdi. Sülhün pozulacağı təqdirdə şimaldan Fərrux Yəsarın, cənubdan isə Muradın hücumlarına məruz qalacaq Əlvəndin hakimiyyətinin devrilməsi ehtimalı çox yüksək idi. Məhz buna görə də Təbriz sarayındakı Ağqoyunlu əmirləri, Rüstəmlə Baysunqurun ixtilafında olduğu kimi, bu dəfə də qızılbaş döyüşçüləri vasitəsilə şirvanşaha zərbə vurmağı, daha doğrusu, İsmayılın Şirvana yürüşünə mane olmamağı, Şirvan müharibəsinin Səfəvilər üçün uğurlu bitəcəyi təqdirdə isə münasib bir məqamda fürsət tapıb, İsmayılı da aradan qaldırmağı planlaşdırırdılar. Lakin sonrakı hadisələrin göstərdiyi kimi, bu dəfə onların niyyəti axıradək baş tutmadı.

"Aləmara"da Ərzincan hadisələri şərh olunmasa da, Şirvan yürüşünə geniş yer verilmişdir. 1500-cü ilin payızın əvvəllərində qızılbaş ordusu Ərzincanı tərk edib, Şirvan üzərinə yürüşə başladı. Bəzi Səfəvi mənbələrinə görə, İsmayıl Bayram bəy Qaramanlunu təkəlü və zülqədər döyüşçüləri ilə ordunun əsas hissəsindən ayıraraq, Qoyun-ölümü mövqeyindən Kür çayını keçməyə göndərmiş, lakin onlar çayı keçməyin çətinliyini görüb, qeyri-müəyyənlikdə qalmışlar. Arxadan ordu ilə gəlib çıxan İsmayıl özünü atla birgə suya vuraraq çayı keçmiş, onun ardınca bütün ordu hərəkət edərək, o taya keçməyə müyəssər olmuşdu[2]. Bizim mənbəyə görə isə, İsmayıl Qara Piri bəy Qacarı 2 min nəfərlik dəstə ilə Kür üzərindən körpü salmağa göndərsə də, Şirvanşah Fərrux Yəsar buna mane olmaq üçün həmin mövqedə 3 minlik qoşun yerləşdirdiyindən qızılbaşların körpü salmaq cəhdi baş tutmadı. Kür sahilinə gəlib çatan İsmayıl *"Həzrət-i Pərvərdigarın pak zatına təvəkkül edərək, özü-*

---

[1] Bax: Tarix-i cahanara, v.195b.
[2] Həbibüs-siyər, s.455.

*nü nüsrət dəstgahlı ordu ilə birlikdə həmin sonsuz dəryaya vurub çayı keçdi, həmçinin zəfər pənahlı ordudan heç kimi su aparmadı".* Çayı keçən qızılbaş ordusu dərhal şirvanşahın sahildə yerləşdirdiyi qoşuna hücum edib, onları məğlubiyyətə uğratdı[1]. Salnaməçi Bicən və Həsən bəy Rumlu İsmayılın Kürdən keçdikdən sonra Şəki hakiminin silahlı dəstələri ilə üzləşdiyini və "qazilərin odlu-alovlu amansız qılıncları ilə onların həyat xırmanını yandırdıqlarını" qeyd edirlər[2]. "Aləmara"dakı məlumatla bu qeydləri müqayisə etsək, belə nəticəyə gələ bilərik ki, şirvanşahın müttəfiqi, bəlkə də, vassalı olan Şəki hakimi öz qoşununu Fərrux Yəsarın göstərişi ilə Kür sahilində yerləşdirərək, qızılbaşların yolunu kəsməyə cəhd göstərmişdi. İbrahim Əmini Qoyun-ölümü keçidini "Kürlə Arazın qovuşduğu və Cavad adı ilə məşhur olan yerin yaxınlığında"[3] lokalizə etsə də, Şəki qoşunu ilə bağlı əhvalat bu keçidin Kürün nisbətən yuxarı axarlarında yerləşdiyini göstərir[4].

906-cı ilin cəmadiyüləvvəl / 1500-cü ilin dekabr ayında Fərrux Yəsarın və İsmayılın qoşunları arasında həlledici döyüş baş verdi[5]. Bizim müəllif Çobanı (və ya Cəbani) düzündə baş vermiş bu döyüşü Şah İsmayılın ilk böyük döyüşü və ilk böyük qələbəsi hesab edir[6]. Həmin döyüşdə qızılbaş ordusunun sayının 7 min nəfər olduğunu bildirən bir çox Səfəvi mü-

---

[1] Aləmara (Sahib), s.52-53; Aləmara (Şükri), s.56-57.
[2] Cahangüşa-yi xaqan, s.112; Əhsənüt-təvarix (Seddon), s.43.
[3] Fütuhat-i şahi, v.14a.
[4] Bunu 1578-1590-cı illər Səfəvi-Osmanlı müharibəsinin şahidi olmuş Osmanlı müəllifi Rəhimizadənin qeydləri də təsdiq edir. Həmin mövqeyi "Qoyun keçidi" adlandıran müəllif göstərir ki, Osmanlı ordusu Qabırrı çayını keçərək, Kür üzərindəki Qoyun keçidi yaxınlığında qızılbaşlara qalıb gəlmiş, daha sonra Ərəş şəhərinə yiyələnmişdi: Ф.Гусейн. Османо-сефевидская война 1578-1590 гг. Баку, 2005, с.111-114. Qabırrı çayının indiki Mingəçevir şəhəri ətrafında Kürə töküldüyünü, Ərəş şəhərinin isə müasir Yevlax rayonunun Xaldan kəndi yaxınlığında yerləşdiyini nəzərə alaraq, Qoyun-ölümü və ya Qoyun-keçidi mövqeyinin məhz həmin ərazilərə yaxın yerdə yerləşdiyini söyləyə bilərik.
[5] G.Sarwar. History of Shah Ismail, p.35; The Cambridge History of Iran, vol. VI, p.211; M.K.Yusif-Cəmali. Təşkil-i doulət-i Səfəvi. İsfahan, 1372, s.137.
[6] Aləmara (Sahib), s.625; Aləmara (Məclis kitabxanası – 761), v.162b.

vərrixləri şirvanşahın qüvvələrinin sayını bundan qat-qat artıq göstərirlər[1]. Lakin "Aləmara"da Şirvan yürüşündən dönərkən qızılbaş ordusunun 10 min, Çobanı vuruşması vaxtı isə şirvanşahın qüvvələrinin 20 min olduğu qeyd edilir[2]. Əbdi bəy 12 min qızılbaşın 20 minlik şirvanşah ordusuna qarşı vuruşduğunu yazır[3]. Mənbələrdəki rəqəmləri müqayisə etdikdə "Aləmara"da və "Təkmilətül-əxbar"da əksini tapmış qüvvələr nisbətini daha inandırıcı hesab edirik. O.Əfəndiyev Səfəvi mənbələrində Şirvanşah Fərrux Yəsar və Ağqoyunlu Əlvəndlə döyüşlərdə rəqib tərəfin sayının qızılbaş qoşunundan təxminən 4 dəfə çox göstərilməsinə şübhə ilə yanaşdığını bildirməkdədir[4]. Eyni zamanda, F.Sümer qızılbaş qoşununun sayı üçün Əbdi bəyin qeyd etdiyi 12 min rəqəmini daha məqbul hesab etmişdir[5]. Y.Rəhimli haqlı olaraq göstərir ki, əgər mənbələr Cüneydin və Sultan Əlinin zamanında Səfəvi qoşununun miqdarının 10-12 min nəfərdən ibarət olduğunu bildirirlərsə, mümkün deyildir ki, İsmayılın zamanında onların sayı azalmış olsun[6].

Çobanı döyüşündə şirvanşah ordusu ağır məğlubiyyətə düçar oldu. Fərrux Yəsar qaçarkən öldürüldü. Onun oğlu Şeyxşah xəzinəsini Gülüstan qalasında yerləşdirib, oranın müdafiəsini qulamı Xosrova tapşırdı, özü isə Elburz (Şahdağ)

---

[1] Səfəvi mənbələrində şirvanşah ordusunun sayı aşağıdakı kimi təqdim olunmuşdur: "20 min süvari və 5 min piyada" (Xülasətüt-təvarix, s.60); "20 min süvari və 6 min piyada" (Əhsənüt-təvarix (Seddon), s.43; Tarix-i cahanara, v.200a); "20 min süvari və 6-7 min piyada" (Həbibüs-siyər, s.457); "20 min süvari və 10 min piyada" (Tarix-i Şah İsmayıl və Şah Təhmasib, v.48b); "20 min süvari və bir neçə min piyada" (Tarix-i aləmara-yi Abbasi (Tehran), s.27); "25 min nəfər" (Cəvahirül-əxbar, s.115). Cünabədi şirvanşah qoşunlarının 20 min nəfər olduğunu qeyd etmişdir (Rövzətüs-Səfəviyyə, s.134). Salnaməçi Bicən öz əsərinin bir yerində Fərrux Yəsarın bu döyüşə 20 min döyüşçü, digər bir yerində isə 20 min süvari və 6 min oxatan piyada çıxardığını bildirmişdir (Cahangüşa-yi xaqan, s.115,163). Nisbətən sonrakı mənbələr İsmayılın 5 minlik qoşununa qarşı şirvanşahın 22 minlik süvarisinin olduğunu iddia edirlər (Riyazüs-səyahə, s.41).

[2] Aləmara (Sahib), s.53; Aləmara (Şükri), s.57-58.

[3] Təkmilətül-əxbar (Bakı), s.32.

[4] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов, с.53.

[5] F.Sümer. Safevî Devletinin kuruluşu, s.20.

[6] Y.Rəhimlu. Ağaz-i səltənət-i Səfəviyan, s.429.

dağlarına çəkildi[1]. Qara Piri bəy Qacar 4 minlik qoşunla Gülüstanı mühasirəyə alsa da, *"həmin qalanı tutmağın müşkül olduğunu anlayıb",* İsmayıla xəbər göndərdi[2]. Bizim müəllif İsmayılın qala ətrafına gəlməsindən, Xosrova elçi göndərərək təslim olmağı tələb etməsindən, Xosrovun isə elçini qətlə yetirməsindən, məhz bundan sonra İsmayılın əmri ilə *"qızılbaş qazilərinin"* qalanı ələ keçirməsindən bəhs etsə də, heç şübhəsiz ki, o, bu zaman Bakı qalasının alınması əhvalatını səhvən Gülüstan qalasına şamil etmişdir. Çünki 1501-ci ilin yazında məhz Bakı qalasında İsmayılın elçisi öldürülmüş və bundan sonra qala hücumla alınmışdı[3]. Gülüstan qalasını ələ keçirmək isə qızılbaşlara nəsib olmamışdı. İsmayıl Gülüstanı mühasirə edən vaxt Əlvəndin Naxçıvanda iri hərbi qüvvələr yığması haqqında məlumat gəlmiş və o, öz sərkərdələri ilə keçirdiyi məşvərətdə Gülüstan qalasının mühasirəsindən əl çəkib, Azərbaycan taxtı uğrunda mübarizəyə başlamağı məqsədəuyğun saymışdı[4].

"Aləmara"ya əsasən, İsmayılın Şirvanı ələ keçirməsi xəbərini alan kimi Əlvənd *"ordu toplanması haqqında əmr verdi və Şirvana yürüş üçün 30 minlik qoşun cəm etdi"*[5]. İsmayılın Kürü keçib irəlilədiyini eşidən Əlvənd, Osman sultan Türkman adlı sərkərdəsini 10 minlik qoşunla onun yolunu kəsməyə göndərdi. İsmayıl bu maneəni dəf etmək üçün Qara Piri bəy Qacarın və İlyas bəy Halvaçıoğlunun komandanlığı ilə 5 minlik qoşun yolladı. Baş vermiş döyüşdə Osman və onun oğlu Məhəmməd

---

[1] Aləmara (Sahib), s.53; Aləmara (Şükri), s.57. O, sonradan Xəzər sahilindəki Şəhrinov limanından gəmi ilə Biye-pəs Gilanına qaçmış, 1502-ci ildə Şirvana qayıdaraq, hakimiyyətə keçmişdi: S.B.Aşurbəyli. Şirvanşahlar, s.312-313,317.
[2] Aləmara (Sahib), s.53-54; Aləmara (Şükri), s.57.
[3] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.88; С.Б.Ашурбейли. История города Баку (период средневековья). Баку, 1992, с.101-102.
[4] Tarix-i aləmara-yi Abbasi (Bakı), s.83; А.А.Рахмани. «Тарих-и алам арайи Аббаси» как источник по истории Азербайджана. Баку, 1960, с.35; О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.52.
[5] Aləmara (Sahib), s.54; Aləmara (Şükri), s.58.

də daxil olmaqla 5 min Ağqoyunlu əsgəri həlak oldu. Qızılbaşlar qələbə qazandılar və çoxlu qənimət ələ keçirdilər[1].

Osmanın məğlubiyyəti xəbəri Əlvəndə çatdıqda qorxuya düşərək, Naxçıvanı tərk edib, Şərura doğru çəkildi[2]. "Aləmara"da deyilir: *"Ordunun məğlubiyyəti və Osman sultanla oğlu Məhəmmədin qətlə yetirilməsi xəbəri Əlvəndə çatdıqda qorxaq və ürkək olub əmr etdi ki, köç etsinlər. Elə üç mənzil getmişdi ki, dünyanı qoruyan hökmdarın (Şah İsmayılın – N.M.) onun iki fərsəxliyində olduğunu xəbər gətirdilər".* Belə olduqda Əlvənd münaqişəni sülh yolu ilə həll etməyə təşəbbüs göstərdi. O, İsmayıla yazdığı məktubda Ağqoyunlularla Səfəvilərin qohumluq əlaqələrini xatırladaraq, onunla heç bir savaşının olmadığını bildirir, *"bir halda ki Fərrux Yəsar şahı öz əcdadlarının intiqamı üçün qətlə yetirmişsən və Şirvan vilayətini zəbt eləmişsən, biz də Ərdəbil vilayətini sənə bağışlayırıq"* deyə, onu bu güzəştin müqabilində Ağqoyunlu səltənətinə qarşı müharibə açmamağa çağırırdı. O, İsmayılın *"yad ölkələri"* fəth etməsinə etirazının olmadığını yazaraq, bu işdə hətta ona kömək edəcəyinə vəd verirdi. Məktubun sonunda, savaşmaq üçün yetərincə qüvvəyə malik olduğunu vurğulayan Əlvənd irəli sürdüyü sülh təklifinin zəiflikdən irəli gəlmədiyini nəzərə çatdırırdı.

Özünün cavab məktubunda İsmayıl Ağqoyunlu padşahlarının Şeyx Səfi övladlarına etdikləri *"səbəbsiz ədəbsizlikləri, hörmətsizlikləri və mürvətsizlikləri"* bağışlamağa hazır olduğunu, özünün *"heç bir səltənət və padşahlıq iddiasının olmadığını"* bildirir, yeganə məqsədinin *"doğru dinə rəvac verməkdən*

---

[1] Aləmara (Sahib), s.55-57; Aləmara (Şükri), s.58-61. "Aləmara"da Qara Piri bəy Qacarın bu döyüşdə həlak olduğu bildirilsə də, digər mənbələrə görə o, həmin vaxt ölməmiş və 1503-cü ildə Sultan Murada qarşı döyüşdə də iştirak etmişdi: Təkmilətül-əxbar (Bakı), s.36. "Qızılbaşlar tarixi"nin (Bakı, 1993, s.36) anonim müəllifi onun 1512-ci ildə özbəklərə qarşı Qicduvan vuruşmasında həlak olduğunu yazmışdır. "Aləmara"da Şah İsmayılın 1513-cü ildə baş vermiş ikinci Xorasan yürüşündə Qara Piri sultan Qacar adlı bir əmirin adı çəkilsə də (Aləmara, Sahib, s.465; Aləmara, Şükri, s.412), araşdırmalarımız nəticəsində bu şəxsin əslində Fuşənc hakimi Piri sultan Rumlu olduğu aydınlaşmışdır (bax: Xülasətüt-təvarix, s.126).

[2] Həbibüs-siyər, s.464; Xülasətüt-təvarix, s.70.

*ibarət olduğunu”* yazaraq, Əlvənddən şiəliyi qəbul etməyi, *“Əliyyən-vəliyyullah”* kəlməsini deməyi tələb edirdi. Əks təqdirdə Əlvəndlə münaqişəni müharibə meydanında həll edəcəyini qeyd edən İsmayıl *“günahsız qardaşımın (Sultan Əlinin – N.M.) qanını səndən alacağam”* deyə, onu hədələyirdi.

İsmayılın təklifinə qəti etiraz edən Əlvəndin cavabı lakonik oldu: *“Mən heç vaxt bu işi etmərəm və savaşmağı üstün tutaram. Sənin də əlindən nə gəlirsə əsirgəmə!”.* Bu cavabın ertəsi günü məşhur Şərur döyüşü baş verdi. “Aləmara”da qeyd olunur ki, döyüş İlyas bəy Halvaçıoğlunun başçılıq etdiyi qızılbaşların ön dəstəsinin – “çərxçi”lərin hücumu ilə başladı və vuruşma nəticəsində Ağqoyunlu ordusu darmadağın edildi. Şəxsən döyüşə atılan İsmayıl Əlvəndin ələmdarını qətlə yetirdi[1]. Bizim müəllif 18 min Ağqoyunlu əsgərinin həlak olduğunu bildirsə də, bəzi digər mənbələr bu döyüşdə Ağqoyunluların cəmi 8 min itki verdiklərini göstərirlər[2].

Ağır məğlubiyyətə düçar olmuş Əlvənd Şərqi Anadoludakı Ağqoyunlu ərazilərinə qaçmağa məcbur oldu. Bizim müəllif göstərir ki, məğlubiyyətdən sonra Əlvənd dağınıq qüvvələrini toparlayaraq, Gəncə şəhərində möhkəmlənmək istəmiş, lakin qızılbaşların hücum təhlükəsindən çəkinərək, Diyarbəkr və Qara-Həmid bölgələrinə qaçıb, Mərəş və Əlbistan torpaqlarının hakimi Əlaüddövlə Zülqədərlə alyans qurmağı qət etmişdi[3].

Səfəvi mənbələrinə görə, Şərur qələbəsindən sonra 907 / 1501-ci ildə “aləmin pənahı olan şah Təbrizə yollandı və Azərbaycan səltənətinin taxtına əyləşdi”[4] . Bununla da Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. Səfəvi qaynaqlarına əsaslanan O.Ə.Əfəndiyev Səfəvilər dövlətinin bir Azərbaycan dövləti kimi yarandığını ilk dəfə olaraq elmi dəlillər vasitəsilə sübut

---

[1] Aləmara (Sahib), s.57-59; Aləmara (Şükri), s.61-63.
[2] Təkmilətül-əxbar (Bakı), s.33; Шараф-наме, т. II, с.146; Rövzətüs-Səfəviyyə, s.151; Riyazüs-səyahə, s.42; Ş.K.Məmmədova. “Xülasət ət-təvarix” Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991, s.65.
[3] Aləmara (Sahib), s.59; Aləmara (Şükri), s.63.
[4] Cəvahirül-əxbar, s.118-119.

etmişdir[1]. Əksər mənbələrdə I Şah İsmayılın "Azərbaycan taxtına" əyləşdiyi göstərilir və onun qurduğu dövlət "Azərbaycan səltənəti" və "Azərbaycan məmləkəti" kimi vəsf edilir[2]. Bir sıra əcnəbi tədqiqatçılar da Şah İsmayılın hakimiyyətə gələrkən özünü məhz "Azərbaycan şahı" elan etdiyini göstərirlər[3]. Bütün bu faktlar Şah İsmayılın qurduğu və idarə etdiyi dövlətin Azərbaycan dövlətçiliyinin ayrılmaz hissəsi və şanlı səhifəsi olduğunu nümayiş etdirir.

Şah İsmayılın Təbrizə daxil olduğu və Azərbaycan Səfəvilər dövlətinin yarandığı konkret gün müəyyənləşdirilməmişdir. Bir sıra müəlliflər Səfəvilərin hakimiyyətə yiyələnməsinin 1501-ci ilin iyul və ya avqust aylarına aid olduğunu təxmin etmişlər, lakin dəqiq gün göstərməmişlər[4]. Əmir Mahmud ibn Xandəmirin "Tarix-i Şah İsmayıl və Şah Təhmasib" əsərinin Britaniya Muzeyində mühafizə olunan 1042 / 1632-ci ilə aid nüsxəsinin sonunda katib tərəfindən əlavələr şəklində Səfəvilərə dair xronoloji cədvəllər verilmişdir. Bu məlumatlardan birində Şah İsmayılın taxt üzərinə cülusunun tarixi kimi "məhərrəm ayının 15-i" göstərilmişdir[5]. Lakin burada iki dolaşıq mə-

---

[1] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.89,92,100.

[2] Aləmara (Sahib), s.625; Cahangüşa-yi xaqan, s.130; Əhsənüt-təvarix, s.47; Tarix-i aləmara-yi Abbasi (Bakı), s.83; Lübbüt-təvarix, v.156a; Тарих-и ихйа ал-мулук, с.66; İbn Kemâl. Tevârîh-i Âl-i Osmân, s.232; Zühur-i dövlət-i Səfəviyan, v.67a; Riyazüs-səyahə, s.42.

[3] L.Lokhart. The Fall of the Safavi Dinasty and Afghan Occupation of Persia. Cambridge, 1958, p.19; R.Tapper. The Shahsevan in the Safavid Era // BSOAS, vol. 37, 1974, p.324; R.Yildirim. Turkomans between two empires: the origins of the Qizilbash identity in Anatolia (1447-1514). Ph.D. dissertation. Ankara: Bilkent University, 2008, p.298-299.

[4] T.Musəvi. Orta əsr Azərbaycan tarixinə dair, s.52; R.Tapper. The Shahsevan, p.324; L.Lokhart. The Fall of Safavi Dinasty, p.19; E.Glassen. Die Frühen Safaviden, s.85, H.R.Roemer. Die Türkmenishen Qizilbaş – Gründer und Opfer der Safawidischen Theokratie // ZDMG, band. 135, 1985, s.233, F.Sümer. Safevî Devletinin kuruluşu, s.21; G.Sarwar. History of Shah İsmail, p.38; S.Ə.Rəhimzadə. Şərh-i cəngha, s.147. Fəqət İran tarixçisi Y.Rəhimli fərqli mövqe nümayiş etdirərək, Şah İsmayılın 907 / 1501-ci ilin payız fəslinin sonlarında, qışa yaxın hakimiyyətə gəldiyini bildirir: Ağaz-i səltənət-i Səfəviyan, s.423.

[5] Tarix-i Şah İsmayıl və Şah Təhmasib, v.230b.

qam vardır. Birincisi, Şah İsmayılın cülusu tarixi cədvəldə səhvən h. 906-cı ilin hadisələri içində qeyd olunmuşdur. Əslində isə, qeyd etdiyimiz kimi, Şah İsmayıl h. 907-ci ildə hakimiyyətə gəlmişdir. İkincisi, hadisənin düşənbə (bazar ertəsi) gününə təsadüf etdiyi yazılmışdır. Halbuki 15 məhərrəm nə 906-cı, nə də 907-ci ildə düşənbə gününə düşmür. Əgər h. 906-cı il və düşənbə günü ilə bağlı qeydlərin yanlışlıq olduğunu nəzərə alsaq və hadisənin h. 907-ci ilin məhərrəm ayının 15-də baş verdiyini fərz etsək, onda Şah İsmayılın hakimiyyətə gəlməsinin tarixi m. 31 iyul 1501-ci ilə bərabər olur[1]. Təklif etdiyimiz tarixi günün mütləq surətdə həqiqət olduğunu iddia etmirik. Lakin bu tarix Azərbaycan Səfəvilər dövlətinin yaranması günü ilə bağlı qarşımıza çıxmış hələlik yeganə konkret məlumatdır və onu elmi ictimaiyyətin nəzərinə çatdırmağı lazım bildik.

İsmayılın hakimiyyətə yiyələnməsi bir sıra mühüm tədbirlərin həyata keçirilməsi ilə müşayiət olundu. Bunlardan birincisi onun öz ana babası Uzun Həsənin padşahlıq taxtına əyləşməsi ilə əlaqədar idi: *"Həzrət şahın bayraqları Təbrizə çatdıqda Təbiz sakinləri şahı qarşıladılar, o həzrəti pişvaz etdilər və hər neçə qədəmində başına tabaqlarla qızıl tökdülər. O həzrəti Həsən padşahın evinə apardılar, Həsən padşahın kürsüsünü gətirdilər və o şəhriyar xoşbəxtlik saatında qızıl taxtda qərar tutdu"*[2]. Bu aksiya, yəni İsmayılın məhz Ağqoyunlu paytaxtı Təbrizdə, həm də məhz babası Uzun Həsənin sarayında və onun taxtında özünü şah elan etməsi heç də təsadüfi deyildi. Şah İsmayıl bununla yenicə qurduğu Səfəvilər dövlətinin Ağqoyunlu xanədanının hüquqi varisi olduğunu nümayiş etdirirdi.

Əlvəndin xəzinəsini qızılbaşlara paylayan İsmayıl növbəti mühüm tədbir kimi şiə islahatının həyata keçirilməsini qərara aldı. Qızılbaş əmirləri Təbrizin 200-300 minlik əhalisinin 2/3 hissəsinin sünni olduğunu əsas gətirərək, rəiyyətin açıq etiraz-

---

[1] İsmayıl Şərurda Əlvəndə qalib gəldikdən sonra əsgərlərinin dincəlməsi üçün 4 gün ərzində döyüş meydanında qalmış, daha sonra Təbriz üzərinə hərəkət etmişdi: Travels of Venetians, p.194; Seyyahların gözüyle, s.185. Deməli, Şərur döyüşü h. 907-ci ilin başlandığı 17 iyuldan sonrakı günlərdə baş vermiş, 31 iyulda isə İsmayıl Təbrizə daxil olmuşdu.

[2] Aləmara (Sahib), s.59-60; Aləmara (Şükri), s.63.

larından çəkindiklərini bildirdilər və bu islahatı təxirə salmağı məsləhət gördülər. Lakin öz qərarının qəti olduğunu söyləyən Şah İsmayıl bu yolda hətta qan tökülməsindən də çəkinməyəcəyini bəyan etdi. Şahın Hüseyn bəy Lələ, Abdal bəy Dədə, İlyas bəy Halvaçıoğlu və s. kimi qızılbaş sərkərdələri ilə keçirdiyi məşvərətdə cümə günü məsciddə şiə xütbəsi oxunan zaman görüləcək təhlükəsizlik tədbirləri müzakirə olundu və qərara alındı ki, qızılbaşların hamısı yaraqlanıb məscidə gəlsin və Təbriz əhlindən olan hər iki nəfərin arasında bir qızılbaş dursun, əgər əhalidən etiraz edən olarsa, dərhal qətlə yetirilsin.

Cümə günü şah özü şəxsən Təbrizdəki cümə məscidinə gedərək, *"şiə böyüklərindən olan"* Mövlana Əhməd Ərdəbiliyə minbərə çıxıb, 12 imam adına xütbə oxumağı əmr etdi, özü isə minbərin aşağısında dayanıb qılıncını sıyırdı. Xütbə oxunan zaman əhali arasında çaxnaşma düşdü. Təbriz sakinlərinin 1/3 hissəsini təşkil edən şiələr xütbəni alqışladılar, əhalinin 2/3 hissəsini əhatə edən sünnilər isə etiraz səslərini ucaltdılar: *"Şəhərin 1/3 hissəsi şükür etdi, dedilər ki, dodaqlarına və ağzına qurban, ey Həzrət Mövlana! Amma qalan 2/3 hissəsi yerlərindən hərəkət etmək istəyirdilər ki, qızılbaş cavanları iki tərəfdən onlara hücum çəkdilər".* Bununla da etiraz dalğası heç başlamadan sona çatdı. Şiə xütbəsi oxunduqdan sonra təbərra deyildi, yəni "peyğəmbər nəslinin hakimiyyətini qəsb etmiş ilk üç xəlifə" (sünnilərin pərəstiş etdikləri Əbu-Bəkr, Ömər və Osman) lənətləndi: *"Xütbə oxunduqdan sonra həzrət şah qılıncını qaldırdı, dedi ki, təbərra eyləyin! 900 il müddətində belə bir təbərranı heç bir qulaq eşitməmişdi və həmin 1/3 hissə (şiələr – N.M.) avazla ucadan dedi və həmin 2/3 hissə (sünnilər – N.M.) gördü ki, qızılbaş cavanları xəncərlərini və qılınclarını əllərində tutublar və bildilər ki, deməsələr öldürüləcəklər, hamısı qorxudan dedilər"*[1]. Bu məlumat digər mənbələrlə də təsdiq olunur. Həsən bəy Rumlunun yazdığına görə, Şah İsmayıl göstəriş vermişdi ki, "Əbu-Bəkr, Ömər və Osman lənətlənsinlər və buna qarşı çıxan hər kəsin başını bədənindən

[1] Aləmara (Sahib), s.60-61; Aləmara (Şükri), s.64-65.

ayırsınlar"[1]. İtaliyalı səyyahlar İsmayılın Təbrizi tutduqdan sonra burada öz ideoloji və siyasi rəqiblərinə qarşı repressiyalar həyata keçirdiyini bildirirlər[2]. Əslində Təbriz əhalisinə şiəliyi qəbul etməklə ölmək arasında seçim etmək təklif olunmuşdu. Lakin buna baxmayaraq, mənbələr Təbriz əhalisinin şiə islahatına qarşı hər hansı bir aktiv çıxışları barədə məlumat vermirlər[3].

Təbrizdə şiə islahatının həyata keçirilməsi və isna-əşəri (on iki imam) şiəliyinin özlərini peyğəmbər və imamlar nəslindən hesab edən Səfəvilər xanədanı tərəfindən rəsmi dövlət dini elan edilməsi dini hadisədən daha çox siyasi əhəmiyyət kəsb edən bir aksiya idi. Çünki "şiəlik heç vaxt sadəcə bir dini sekta olmamışdır; o, həmişə Əli nəslinin başçılıq etdiyi dövlət ideyası ilə sıx bağlı olmuşdur"[4]. Şiə əqidəsinə uyğun olaraq, hakimiyyət məsələsində "vilayət" prinsipini önə çəkən, yəni hakimiyyətin yalnız Həzrət Əli və Həzrət Fatimə vasitəsilə peyğəmbər nəslinə mənsub olduğunu bəyan edən Səfəvi sülaləsi özünü "vilayət dudmanı"nın və Həzrət Əli xilafətinin qanuni varisi hesab edərək, islam şərqində hökm sürən bütün digər sülalələrin hakimiyyətini qeyri-legitim hesab edir, şiəlikdən onlara qarşı ideoloji silah kimi yararlanırdı. Ata tərəfdən şəcərəsi şiə imamlarına bağlanılan ərdəbilli türk şeyxlərinin xələfi, ana tərəfdən isə Ağqoyunlu dövlətinin banisi Uzun Həsənin nəvəsi olan Şah İsmayıl, növbəti fəsildə nəzərdən keçirəcəyimiz kimi, öz hakimiyyətinin legitimliyini əsaslandırmaqdan ötrü hər iki faktordan geniş istifadə edirdi.

Beləliklə, Fərrux Yəsar və Əlvənd şah üzərindəki qələbələrdən sonra İsmayıl, Səfəvi şeyxlərinin hələ XV əsrin ikinci yarısından etibarən uğrunda mübarizə apardıqları ilkin məqsədə – Azərbaycanın şiəlik bayrağı altında feodal birləşdiril-

---

[1] Əhsənüt-təvarix (Seddon), s.61; И.П.Петрушевский. Ислам в Иране в VII-XV веках. Ленинград, 1966, с.370.

[2] Travels of Venetians, p.105; Seyyahların gözüyle, s.79.

[3] О.А.Эфендиев. К некоторым вопросам внутренней и внешней политики шаха Исмаила I // Труды Института Истории АН Азерб. ССР, т. XII, Баку, 1957, с.155-156.

[4] П.И.Петров. Данные источников, с.78.

məsi xarakteri daşıyan[1] hədəfə nail olaraq, Təbrizdə Azərbaycan şahı kimi taxta çıxdı.

Şah İsmayılın hərbi-siyasi fəaliyyətinin 1503-1508-ci illəri əhatə edən ikinci mərhələsi keçmiş Ağqoyunlu imperiyasına daxil olan bütün ərazilərin ələ keçirilməsindən ibarət olmuşdur. Çünki "I Şah İsmayıl özünü babası Uzun Həsənin qanuni varisi hesab edirdi və dövlətini Ağqoyunlu sərhədləri daxilində bərpa etməyə can atırdı"[2]. "Ələmara"nın məlumatına görə, hələ Təbriz taxtında qərar tutduqdan dərhal sonra İsmayıl ətrafdakı Ağqoyunlu valilərinə məktub yazaraq, onlardan itaət göstərməyi tələb etmiş və tabe olacaqları təqdirdə vali olduqları ərazilərin onların ixtiyarında qalacağına söz vermişdi. Ağqoyunlu valilərinin bir qismi itaət etsə də, qalanları Şiraza – Sultan Muradın, yaxud Qara-Həmidə – Əlvəndin yanına qaçıb, onlara sığındılar.

Öz növbəsində 10 minlik qoşunla Şərqi Anadoluda qərar tutmuş Əlvənd Mərəş və Əlbistan hakimi Əlaüddövlə Zülqədərlə birlikdə Şah İsmayıl əleyhinə ittifaq yaradaraq, ondan 20 minlik qüvvə alıb, Azərbaycan üzərinə yürüş üçün hazırlıqlara başladı[3]. Əlvəndin Ərzincana qoşun yığması barədə məlumat alan Şah İsmayıl 24 şəvval 907 / 2 may 1502-ci ildə Təbrizi tərk edərək, "din və dövlət müxaliflərinin dəf edilməsi üçün Ərzincan üzərinə hərəkət etdi"[4]. Şah İsmayılın 12 minlik qızılbaş ordusu ilə onun üzərinə gəlmək üçün Van istiqamətində irəlilədiyini eşidən Əlvənd *"digər bir yolla"* gedərək, Təbrizə daxil oldu. Şəhər şiələrinə divan tutulmasını əmr edən Əlvənd onlardan 7 min nəfəri qırdırdı[5]. Lakin onun işləri Təbrizdə heç də yaxşı getmirdi. Hər şeydən əvvəl, İsmayıl şəhərdə sarayı mühafizə etmək üçün İlyas bəy Halvaçıoğlu başda olmaqla güclü qarnizon qoyub getmişdi və məhz bu səbəbdən Əlvəndin dö-

---

[1] И.П.Петрушевский. Государства Азербайджана в XV веке, с.210.
[2] Azərbaycan tarixi (yeddi cilddə). III c. Bakı, 1999, s.190.
[3] Aləmara (Sahib), s.61-64; Aləmara (Şükri), s.65-67.
[4] Cahangüşa-yi xaqan, s.159.
[5] Yəqin ki, burada qüvvələr nisbəti təhrif olunub, qızılbaşların miqdarı azaldılıb, Ağqoyunlu ordusunun sayı şişirdilib və Əlvəndi vəhşi obrazında təsvir etmək üçün onun əsgərlərinin öldürdüyü şəhər sakinlərinin sayı çox göstərilib. Bu kimi cəhətlərə "Aləmara"nin bəzi digər yerlərində də rast gəlirik.

yüşçülərinin ilk həmlədəcə *"Həsən padşahın evini"*, yəni hökmdar sarayını ələ keçirmək və İsmayılın qardaşlarını əsir apararaq, *"onun ürəyinə dağ çəkmək"* cəhdləri baş tutmadı. Şahın qorçuları damlarda əlverişli mövqe tutaraq, onları *"ox və tüfəng"* atəşləri ilə dəf etdilər. Həmçinin təbrizli cavanların bir qismi məhəllələrdə barrikadalar ("küçəbənd"lər) quraraq, Əlvəndin qoşununa ciddi müqavimət göstərdilər. Təbriz əhalisinin Əlvəndi dəstəkləməməsi və əksinə, ona qarşı çıxması Ağqoyunlu ordusunun vəziyyətini daha da pisləşdirdi: *"Təbriz sakinlərindən kimlər ki şiə idilər, Halvaçıoğluya himayət və köməklik edirdilər və kimlər ki sünni idilər, bilirdilər ki, Əlvənd Şah İsmayılla bacara bilməyəcək, ona görə də heç bir addım atmırdılar".* Əlvəndin Təbrizə üz tutduğunu eşidən İsmayıl dərhal öz ordusu ilə paytaxta geri döndü və Əlvəndin Təbrizə gəlməyinin dördüncü günündə günorta vaxtı şəhərə daxil oldu. Müqavimət göstərə bilməyən Əlvənd öz qoşunları ilə Diyarbəkrə qaçmağı üstün tutdu. Zülqədər dəstələrinin kortəbii müqaviməti isə dəf edildi və onların bir qismi tabe olub, Səfəvi xidmətinə keçdi[1]. Şah İsmayılın Təbrizə ikinci dəfə daxil olması 908-ci ilin əvvəllərində / 1502-ci ilin iyulunda baş vermişdi[2]. Qeyd etməliyik ki, Əlvəndlə Şah İsmayılın ikinci müharibəsi ilə bağlı Əlaüddövlənin Əlvəndə kömək etməsi, Təbrizdəki küçə döyüşləri və bu zaman qızılbaşların tüfəngdən istifadə etməsi kimi təfərrüatlar yalnız "Aləmara"da əksini tapıb və sözsüz ki, bunları şərh edərkən "Aləmara" müəllifi Azərbaycan əhalisi arasında mövcud olan şifahi rəvayətlərə əsaslanıb.

Şərqi Anadoludakı Ağqoyunlu ərazilərinə nəzarət uğrunda Əlvəndlə Uzun Həsənin qardaşı Cahangir bəyin oğlu Qasım bəy Bayandur arasında münaqişə baş vermiş və nəticədə, Mardin yaxınlığındakı döyüşdə Əlvənd qalib gəlmiş, Qasım bəy əsir alınaraq öldürülmüşdü[3]. "Aləmara"nın materiallarından aydın olur ki, Əlvənd Şərur məğlubiyyətindən sonra bir neçə dəfə Qasım bəyə Şah İsmayıla qarşı mübarizədə kömək

---

[1] Aləmara (Sahib), s.64-65; Aləmara (Şükri), s.68-69.
[2] Lübbüt-təvarix, v.157a; Do kitab-i nəfis əz mədarek-i əvvəliyye-yi Səfəviyan, s.4.
[3] Ш.М.Мустафаев. Восточная Анатолия, с.13.

göstərməyi tələb etsə də, hər dəfə rədd cavabı almışdı. Nəticədə, İsmayıla ikinci dəfə məğlub olduqdan sonra Əlvənd Qasım bəyi aradan qaldırmaq qərarına gəlmiş və bunun üçün hətta "Rum qeysəri"ndən, yəni Osmanlı sultanı II Bayəziddən də hərbi yardım almışdı[1].

Beləliklə, Əlvənd üzərindəki ikinci qələbədən sonra Şah İsmayılın hərbi-siyasi fəaliyyətinin 1499-1502-ci illəri əhatə edən və Azərbaycanın birləşdirilməsi məqsədi güdən ilk mərhələsi başa çatdı və Səfəvi müvərrixlərinin təbirincə desək, "Azərbaycan məmləkəti qüdrətli dövlətin düşmənlərinin vücudunun xəbisliyindən pak oldu"[2]. Məhz bundan sonra İsmayıl bütövlükdə keçmiş Ağqoyunlu ərazilərini ələ keçirməkdən ötrü mübarizəyə başladı və 1503-08-ci illəri əhatə edən bu kampaniya onun hərbi-siyasi fəaliyyətinin ikinci mərhələsini təşkil etmişdir.

---

[1] Aləmara (Şükri), s.71-72. Bir sıra mənbələrə görə, Əlvənd 910 / 1504-cü ildə Diyarbəkrdə öz əcəli ilə vəfat etmişdir: Cahangüşa-yi xaqan, s.162; Həbibüs-siyər, s.469; Rövzətüs-Səfəviyyə, s.161. Lakin Venesiya səyyahları onun Diyarbəkr hakimi Əmir bəy Mosullu tərəfindən hiylə ilə tutulub, Şah İsmayıla təhvil verildiyindən və İsmayıl tərəfindən öldürüldüyündən bəhs edirlər: Travels of Venetians, p.109-110,197-198; Seyyahların gözüyle, s.86-87,198. "Aləmara" müəllifi Əlvəndin 1503-cü ildə Şah İsmayılla Sultan Murad arasında Həmədan ətrafındakı döyüşdən öncə Murada köməyə gəldiyini və döyüş ərəfəsində baş vermiş gecə toqquşması zamanı şəxsən İsmayıl tərəfindən qətlə yetirildiyini qeyd edir: Aləmara (Sahib), s.75; Aləmara (Şükri), s.80. Buna bənzər informasiyaya Oruc bəy Bayatda da rast gəlirik: Книга Орудж-бека Байата, с.70. Maraqlıdır ki, Şah İsmayılın oğlu Sam mirzə də Əlvəndin şəxsən İsmayıl tərəfindən "qılıncdan keçirildiyini" yazır: Töhfe-yi Sami, s.8. Məşhur ədəbiyyatşünas H.Araslı qeyd edir ki, Əlvənd "1504-cü ildə Diyarbəkrdə tutularaq edam olunmuşdur": Böyük Azərbaycan şairi Füzuli. Bakı, 1958, s.89. Hələ yeniyetmə yaşlarında olan Əlvənd, bəlkə də, öz əcəli ilə vəfat etməmişdi. Ola bilsin ki, onun ölümündə, həqiqətən də, Əmir bəy Mosullunun hansısa bir iştirakı olmuşdur. Məlumdur ki, Əmir bəyin çox sonralar Şah İsmayılla da konflikti yaranmış və həbsə atılaraq, orada dünyasını dəyişmişdi: Aləmara (Sahib), s.617; Aləmara (Şükri), s.594; Cəvahirül-əxbar, s.134; O.Экаев. Туркменистан и туркмены в конце XV – в первой половине XVI века (по данным «Алам ара-и Сефеви»). Ашхабад, 1981, с.64-65. Bəlkə də, bu səbəbdən rəsmi Səfəvi tarixçiləri Əlvəndin ölümündə onun göstərdiyi xidmətlər haqqında susmuşlar.

[2] Do kitab-i nəfis əz mədarek-i əvvəliyye-yi Səfəviyan, s.4.

### C) İraq-i Əcəm və Fars vilayətlərinin Azərbaycan Səfəvilər dövlətinə birləşdirilməsi

Şah İsmayıl "özünü məmləkətin varisi hesab edən Sultan Murad ibn Yaqubdan" narahat idi və onun aradan qaldırılmasını vacib sayırdı[1]. Çünki "Yaqub sultanın oğlu Murad xan hüquqi baxımdan özünə məxsus olan taxt-tacı geri qaytarmaq" niyyətində idi[2]. Eyni zamanda, özünü Uzun Həsənin qanuni varisi hesab edən Şah İsmayıl bütün keçmiş Ağqoyunlu səltənətinə yiyələnmək iddiasında idi. "Aləmara"da göstərilir ki, Şah İsmayıl özünü Sultan Muradın *"böyük qardaşı"* hesab edir və onu Səfəvi şahının adına sikkə vurdurmağa, xütbə oxutdurmağa çağırırdı, yəni Muraddan Səfəvilərin vassallığı altına keçməyi tələb edirdi[3]. Bu məqsədlə o, 1503-cü ilin yazında Sultan Murada məktub yazaraq, İraq-i Əcəm vilayəti üzərində hakimiyyətinin tanınmasını tələb etdi[4]. "Aləmara"nın məlumatına əsasən, Şah İsmayıl bundan öncə ciddi hazırlıq işləri gördü: *"Buyurdu ki, ustaclu və şamlu oymaqlarına, həmçinin Gəncəyə, Şirvana və Qarabağa məktublar göndərilsin ki, qoşunlar cahanın pənahı olan dərgaha üz tutsunlar. Qısa müddət ərzində 15 minlik qoşun toplandı".* Məhz bu tədbirdən sonra o, istehza ilə "Namurad" adlandırdığı dayısı oğlu Sultan Murada məktub göndərib, ondan itaət tələb etməyi qərara aldı. Məktubda xüsusi vurğulanırdı ki, *"biz Həsən padşah süləsinin birdəfəlik aradan qalxmasını istəmirik və əgər sən bizə*

---

[1] Rövzətüs-Səfəviyyə, s.165.

[2] Travels of Venetians, p.192; Seyyahların gözüyle, s.189. Sultan Muradın babası Fərrux Yəsarın Şah İsmayıl qarşısında məğlubiyyəti Əlvəndə sərf etdiyi kimi, Əlvəndin də sonrakı məğlubiyyəti Muradı qane edirdi: Aləmara (Sahib), s.68; Aləmara (Şükri), s.73. Şah İsmayılın Azərbaycanda əməliyyatlar apardığı iki-üç il ərzində Murad böyük ordu toplamağı bacarmışdı. O, qızılbaşları üstələyəcəyini və atasından qalmış Ağqoyunlu səltənətinin tək sahibinə çevriləcəyini ümid edirdi. Lakin növbəti hadisələr onun bu ümidini puça çıxardı. Ağqoyunlu xanədanı daxilindəki təfriqədən istifadə edən Şah İsmayıl öz rəqiblərini tək-tək sıradan çıxarmağa nail oldu.

[3] Aləmara (Sahib), s.61; Aləmara (Şükri), s.65. Sultan Murad, Şah İsmayıldan üç yaş kiçik idi: Qızılbaşlar tarixi, s.11.

[4] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.54; R.M.Savory. The Consolidation of Safavid Power in Persia // Der Islam, band. 41, 1965, p.72.

*itaət edərsənsə, Allah-taalanın amanında olacaqsan".* Məktubu aparmaq üçün vaxtı ikən Cüneydin və Heydərin xidmətində olmuş 70 yaşlı Səfəvi müridi Qənbər ağa şahdan izin aldı və o, 40 nəfərlik nümayəndə heyəti ilə Şiraza, Sultan Muradın sarayına göndərildi. Mənbədə göstərilir ki, həmin zaman Muradın ətrafındakı *"qalmaqalçı cahillər"* müharibə tərəfdarı idilər və belə düşünürdülər ki, müharibədə xidmət göstərib, əvəzində əyalət alacaqlar. Müharibə istəməyən Ağqoyunlu əyanlarına isə öz etirazlarını açıq ifadə etməyə iki faktor mane olurdu: birincisi, onlar Səfəvi tərəfdarı olmaqda ittiham edilə bilərdilər və ikincisi, onlara qatı şiə olan Səfəvilərlə dil tapmağa məzhəb təəssübkeşliyi əngəl törədirdi.

Qənbər ağanın qarşısına tapşırıq qoyulmuşdu ki, *"nəsihət vermək yolu ilə"* Muradı *"qəflət yuxusundan oyatsın",* yəni danışıqlar vasitəsilə Sultan Muradın Şah İsmayılın tabeçiliyinə keçməsini təmin etsin. Lakin onun Şirazda apardığı danışıqlar səmərə vermədi. Səfəvi hökmdarının məsələni sülh yolu ilə nizamlamaq təklifinin səmimiliyinə inanmayan Murad, Osmanlı dövlətinə güvənərək, Şah İsmayıla itaət göstərməkdən imtina etdi. O, bildirirdi ki, tezliklə *"Rum qeysəri"* 120 minlik ordusunu İsmayılın üzərinə göndərəcək və *"belə bir şəraitdə mən niyə kənarda qalmalı və bu fürsəti əldən verməliyəm?!".* O, İsmayıla tabe olmağı qüruruna sığışdırmırdı: *"Bir halda ki mən özüm padşaham, yaxşı deyildir ki, bir digərinin mülazimətini ixtiyar eyləyim".* İsmayılın Osmanlıdan heç bir qorxusunun olmadığına eyham vuran Qənbər ağa onun etdiyi sülh təklifinin Murad üçün faydalı olacağını qeyd etsə də, Ağqoyunlu sultanı heç bir halda bu təkliflə razılaşmayacağını bildirdi: *"Öz ağana de ki, əgər düzünü bilmək istəyirsənsə, deyirəm ki, səninlə düşmənəm və heç kəs öz düşməninin cahanda sağ olmasını istəməz".* Murad hərbi əməliyyatların başlayacağı təqdirdə qızılbaşların məğlubiyyətinə əmin olduğunu deyərək, onların ünvanına bəzi nalayiq ifadələr işlətdi. Bunun cavabında qızılbaş elçisi Sultan Muradı hədələməkdən çəkinmədi: *"Ey ədəbsiz, o gündən qorx ki, səni tutub mürşid-i kamilin yanına aparsınlar, o, səndən əhval soruşsun, sən xəcalətdən başını aşağı dikib, cavab verməyə aciz qalasan və istədiyi hər cür cəzanı sənə*

*hökm etsin"*[1]. "Aləmara" müəllifi Qənbər ağanın diplomatik missiyası ilə bağlı əsasən Bicənin məlumatları ilə üst-üstə düşən informasiya versə də, ondan fərqli olaraq, əhvalatın axırında, Qənbər ağanın sərt cavabından sonra onun və qızılbaş nümayəndə heyətinin əksər üzvlərinin Muradın əmri ilə qətl olunduğunu və yalnız 5-6 nəfərin geri qayıtmağa müyəssər olduğunu yazmışdır. Halbuki Bicən, Qənbər ağanın sağ-salamat geri qayıdıb, Şah İsmayıla öz səfarəti barədə məruzə etdiyini bildirir[2]. Ola bilsin ki, bu fərq bizim müəllifin əhvalatın sonu ilə bağlı hansısa şifahi rəvayətə əsaslanmasından irəli gəlmiş və ya sadəcə olaraq, "Aləmara" müəllifi elçinin öldürülməsini Muradı vəhşi obrazında təsvir etmək üçün uydurmuşdur.

Hər halda, İsmayılın münaqişəni dinc yolla həll etmək təşəbbüsü baş tutmadı və 24 zilhiccə 908 / 21 iyun 1503-cü ildə Həmədan yaxınlığında tərəflər arasında həlledici döyüş baş verdi[3]. Döyüşdən öncə Murad öz ordusunun hazırlıqlarını tamamlayaraq, Şirazı tərk edib, İsfahana, oradan da Bəhmənzar yolu ilə Cərfədqana gəldi. Qeyd edək ki, Səfəvi casusları Ağqoyunlu ordusu İsfahanda olarkən onun barəsindəki kəşfiyyat məlumatlarını operativ surətdə Şah İsmayıla ötürmüşdülər. İsmayıl isə öz qüvvələri ilə Sultaniyyə şəhərinə gəlib, oradan da Həmədan üzərinə hərəkət etdi. Cərfədqanda düşərgə qurmuş Muradın İsfəndiyar sultan Türkman adlı sərkərdəsini 20 ədəd artilleriya və 5 minlik qoşunla Cərfədqan yaxınlığındakı bir mövqedə yerləşməyə göndərdiyini öyrənən İsmayıl öz qardaşı İbrahim mirzəni və sərkərdəsi İlyas bəy Halvaçıoğlunu 1500 nəfərlik dəstə ilə onların üzərinə yolladı. Gecə yarısı qəflətən həmlə edən qızılbaşlar qalib gəlib, 20 ədəd top və "xərpa-yi cəng" ələ keçirdilər və dərhal Dərcəzinə çəkildilər. İsfəndiyar isə 70 nəfərlə birlikdə əsir düşüb, İsmayılın yanına apa-

---

[1] Aləmara (Sahib), s.66-69; Aləmara (Şükri), s.71-74.

[2] Cahangüşa-yi xaqan, s.167; Qənbər ağanın missiyası haqqında həmçinin bax: Əhsənüt-təvarix (Seddon), s.65; Xülasətüt-təvarix, s.77; Tarix-i aləmara-yi Abbasi (Bakı), s.86.

[3] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.54; R.M.Savory. The Consolidation, p.72; F.Sümer. Safevî Devletinin kuruluşu, s.23.

rıldı və şiəliyi qəbul etməkdən imtina etdiyi üçün qətlə yetirildi[1].

Bu toqquşmadan sonra Almabulağı və ya Almaqulağı adlanan mövqedə iki tərəfin əsas qüvvələri üz-üzə gəldilər. "Aləmara"ya görə, İsmayılın ordusu 12 min nəfərdən ibarət idi. Qızılbaş ordusu yolda olarkən Abdal bəy Dədə pişxana komandiri kimi ən irəlidə gedirdi, onun dəstəsinin ardından *"müzəffər qızılbaş ordusunun çərxçisi"* İlyas bəy Halvaçıoğlu 2 min nəfərlik qacar döyüşçüsü ilə, onların arxasınca topxana rəisi kimi İbrahim mirzə 2 minlik dəstə ilə və ən axırda şah özü əsas qüvvələrlə birlikdə irəliləyirdi. Döyüş meydanına yerləşdikdə isə Şah İsmayıl mərkəzdə qərar tutdu. Sağ cinahda Abdal bəy Dədə və Əbdi bəy Şamlu qorçularla birlikdə səf çəkdilər. Sol cinaha isə Məhəmməd xan Ustaclu və qardaşı Qaraxan Ustaclu rəhbərlik edirdilər. Çərxçilər İlyas bəy Halvaçıoğlunun, ehtiyat qüvvələr isə İbrahim mirzənin komandanlığı altında idilər.

Sultan Murad bu döyüş ərəfəsində II Bayəziddən mühüm hərbi yardım – odlu silahlar və əsgəri qüvvə ala bilmişdi. Onun ordusunda Mustafa paşa, Yaqub paşa, Dilavər paşa və s. Osmanlı sərkərdələri öz qoşunları ilə birgə yer almış, həmçinin döyüş mövqeyində onun ordusunun hər iki tərəfində toplar düzülmüşdü[2]. Osmanlı sultanının Muradın köməyinə artilleriya və bir neçə min əsgər göndərməsi haqqında məlumata digər bir Səfəvi qaynağında da rast gəlirik[3]. Həmçinin Venesiya və gürcü mənbələrində də Murad xanın ordusunda Osmanlı yardımçı dəstələrinin olması göstərilmişdir[4]. Lakin bizim müəllif Muradın ordusunun sayını xeyli şişirdərək, onun köməyə gəlmiş Osmanlı qoşunları ilə birgə 135 min nəfərdən ibarət oldu-

---

[1] Aləmara (Sahib), s.70-72; Aləmara (Şükri), s.74-77.
[2] Aləmara (Sahib), s.76-77; Aləmara (Şükri), s.81.
[3] bax: O.Efendiyev. Sultan II. Bayezid ve Şah İsmail // XIII. Türk Tarih Kongresine Sunulan Bildiriler. Ankara, 2002, s.90.
[4] Travels of Venetians, p.53; Doğuda Venedik elçileri, s.56; П.Горгиджанидзе. История Грузии. Тбилиси, 1990, с.27-28.

ğunu yazmışdır[1]. Halbuki digər Səfəvi mənbələri bu döyüşdə 12 minlik qızılbaş ordusuna qarşı Muradın 70 minlik qüvvə çıxardığını bildirirlər[2]. Venesiya müəlliflərindən Anciolello İsmayılın "20 min cəsur səfəvilərdən ibarət ordusuna" qarşı Murad xanın 50 minlik qüvvəyə malik olduğunu göstərir. K.Zeno və anonim tacirin səyahətnamələrində isə həmin döyüşdə Səfəvi ordusunun ümumi sayı qeyd edilməsə də, Muradın ordusunun 30 min nəfərdən ibarət olduğu yazılmışdır[3]. "Aləmara"da əksini tapmış bir sıra döyüşlərdə, o cümlədən də Almabulağı döyüşündə Şah İsmayılın ordusunun sayı bilərəkdən az göstərilir və xüsusən də 12 min rəqəminə üstünlük verilir. Lakin elə bu mənbənin faktlarından bəlli olur ki, artıq həmin zaman qızılbaş ordusunun sayı xeyli çox idi. Belə ki, Əlvəndin Səfəvilərə qarşı çıxmaq təklifini rədd edən 20 minlik ordunun komandanı Qasım bəy Ağqoyunlu öz cavab məktubunda yazırdı ki, *"axı mən bu qədər az adamla (yəni 20 minlik ordu ilə – N.M.) qızılbaşlara nə edə bilərəm?!"*[4].

Almabulağı döyüşü günəş çıxan kimi başladı. Şah İsmayıl sürətli və qəti hücumla Sultan Muradın ordusunun səflərini dağıtdı və onları ağır məğlubiyyətə uğratdı. Qızılbaş hücumu o qədər sürətli oldu ki, Sultan Muradın topçuları artilleriyanı vaxtında işə salmağa imkan tapa bilmədilər. Döyüşdə II Bayəzidin göndərdiyi xüsusi tüfəngçilər dəstəsi *"sufilərdən neçəsini tüfəng zərbi ilə qətlə yetirdilər".* Lakin Ağqoyunlu və Osmanlı qoşunları qızılbaşların təzyiqinə tab gətirməyib qaçmağa başladılar. Şah İsmayıl şəxsən Mustafa paşanı təqib etdi. Mustafa paşa *"kiçik xəzinəli tüfəngdən"* İsmayıla atəş açsa da, güllə onun tacının bir küncünə dəydi və əvəzində şah paşanı nizə

---

[1] Ağqoyunluların sayı 35 min nəfər göstərilir ki, bu, fikrimizcə, reallığa yaxındır. Lakin köməyə gəlmiş Osmanlı qoşununun sayı fantastik dərəcədə şişirdilərək, 100 minə çatdırılır: Aləmara (Şükri), s.81.

[2] Təkmilətül-əxbar (Bakı), s.35; Cahangüşa-yi xaqan, s.163,169; Həbibüssiyər, s.470; Əhsənüt-təvarix (Seddon), s.64-66; Xülasətüt-təvarix, s.76-77; Rövzətüs-Səfəviyyə, s.162. Budaq Qəzvini Ağqoyunlu ordusunun sayının 50 min olduğunu yazmışdır: Cəvahirül-əxbar, s.120.

[3] Travels of Venetians, p.53,105,192; Doğuda Venedik elçileri, s.56; Seyyahların gözüyle, s.81,189.

[4] Aləmara (Şükri), s.70-71.

ilə vurub yerə salaraq, Durmuş xan Şamluya onun başını kəsməyi əmr etdi. Durmuş xan paşanın başını kəsib, nizəyə taxdı. Əsirlərin bir qismi şiəliyi qəbul edib xilas oldular. Döyüş nəticəsində qızılbaşlar xeyli hərbi qənimət, o cümlədən də toplar ələ keçirdilər. Muradın ordusundan o qədər var-dövlət qalmışdı ki, hər qorçuya ən azı *“yüklə dolu 3-4 dəvə”* qənimət düşürdü[1]. Xandəmirə görə, “həmin döyüşdə qazilərin əlinə xeyli sayda qənimət və nəfis əşyalar düşmüşdü; Namuraddan və onun adamlarından ələ keçirilən atların, qatırların və dəvələrin miqdarı o qədər çox idi ki, onların sayı-hesabı bilinmirdi”[2]. Almaqulağında Ağqoyunlular 10 min nəfər itki vermiş, həmçinin onların Əli bəy Türkman, Gözəl Əhməd Bayandur, İslamiş bəy kimi sərkərdələri qətlə yetirilmişdi[3].

Sultan Muradın məğlubiyyəti İranda hökmranlıq edən Ağqoyunlu əmirləri arasında daxili savaşın başlamasına səbəb oldu. 3 səfər 909 / 29 iyul 1503-cü ildə Kirman hakimi Əbülfəth bəy Bayandur Şiraza yürüş edib, Muradın oradakı valisi, Aybə sultanın qardaşı Yaqubcan bəyi Beyzaya qaçmağa məcbur etdi. Şiraz və Kazerunu ələ keçirmiş Əbülfəth bəy Firuzabada da yiyələndi, lakin orada dağdan yıxılaraq öldü. Onun ölümündən sonra sərkərdələrindən Şeyx Həsən bəy Şirazda, Mahmud bəy isə Kirmanda hakimiyyəti ələ keçirdilər. Bu zaman, əvvəllər Əbərqu hakimi olsa da, Rəis Məhəmməd Kərrəyə məğlub olub Əbülfəth bəyə sığınmış Şeyx Əli bəy qiyam qaldırdı və Şiraza hücum etdi, lakin məğlubiyyətə uğradılıb, Əbərquya qaçdı və orada Kərrə tərəfindən ələ keçirilib öldürüldü. Beyzaya qaçmış Yaqubcan İsfahanda türkman tayfasından ordu toplayaraq, Şiraza hücum etdi və Şeyx Həsən bəyi qətlə yetirib, orada yenidən hakimiyyəti ələ keçirdi[4].

Məhz belə bir şəraitdə Şah İsmayıl Ağqoyunluların Qərbi İrandakı torpaqlarına daxil oldu. “Aləmara” qızılbaşların bu əməliyyatları haqqında digər mənbələrlə müqayisədə ən geniş

---

[1] Aləmara (Sahib), s.77-79; Aləmara (Şükri), s.82-83.
[2] Həbibüs-siyər, s.472.
[3] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.54.
[4] Cahangüşa-yi xaqan, s.176-181; Tarix-i cahanara, v.195b-196a.

və təfərrüatlı məlumat verən bir qaynaqdır. Bizim müəllifə görə, İsmayıl iki gün Almabulağı döyüş meydanında qaldıqdan sonra oranı tərk edib, Muradın ardınca hərəkət etdi və Cərfədqan məntəqəsinə gələrək, orada Muradın İsfahana getməsi xəbərini aldı. Qızılbaş ordusunun yaxınlaşdığını görən Murad İsfahan şəhərinin müdafiəsini gücləndirdi, özü isə şəhərdəki Təbərrük qalasına sığındı. Şəhərin müdafiəsinin əsas ağırlığı İsfahan daruğası Hacı Kövsəc Bayandurun üzərinə düşürdü. İsfahanı birbaşa hücumla almağın mümkünsüzlüyünü anlayan İsmayıl şəhəri mühasirədə saxlamağı qərara aldı. Ətraf yerlərin əhalisi Muradın qadağalarına əməl edərək, qızılbaşlara ərzaq vermirdilər ki, bunun da nəticəsində İsmayılın ordusu ciddi ərzaq çatışmamazlığı hiss edirdi. Belə olduqda Şah İsmayıl həmin vilayətin ağsaqqallarından olan Rəis Yusif Rənanini çağırıb, ondan orduya ərzaq yardımı göstərilməsini tələb etdi. Rəis Yusif öz malından bir neçə dəfə buğda, arpa və s. gətirsə də, ətraf bölgələrin əhalisi yardım etməkdən boyun qaçırdı: *"Həmin ağılsız camaatın gümanı o idi ki, Şah İsmayıl İsfahanı fəth etməyib gedəcəkdir".* Lakin "islam hökmdarı"na yardımçı olmaq barədə ciddi xəbərdarlıqdan sonra bölgələrin kətxudaları şahın hüzuruna gəlib, üzrxahlıq etmək məcburiyyətində qaldılar.

Mühasirə uzun çəkdiyindən şəhərin daxilində də azuqə qıtlığı yarandı, *"rəiyyət və ordu fəryada gəldi".* Sultan Murad *"artıq azuqəsi olub gizlədənlərin, onu meydana çıxarmayanların cəzalandırılacağı"* haqqında car çəkdirsə də, heç bir faydası olmadı. Əmr verildi ki, *"evlərdə axtarış aparılsın, hər kimdə azuqə olarsa, alınıb gətirilsin".* Bu isə şəhərdə vəziyyəti daha da gərginləşdirdi və çaxnaşmaların düşməsinə səbəb oldu. Bundan istifadə edən Durmuş xan Şamlunun komandanlığındakı qızılbaş qoşun dəstələri gecə vaxtı Həsənabad darvazalarından İsfahana daxil oldular. Bunu görən Ağqoyunlu əsgərlərinin *"əksəri fərar etdi və bəziləri hərb etməyə dayandılar ki, onların da çoxusu qətlə yetirildi".* Bir qrup Ağqoyunlu döyüşçüsü isə təslim olub, qızılbaşların tərəfinə keçdi. Səhəri gün şah İsfahana daxil oldu və *"seyidlər, böyüklər, qazılar, şeyxlər, ərbablar, əhali və kətxudalar"* tərəfindən qarşılandı.

Şəhər qızılbaşların əlinə keçsə də, Murad hələ də 5 min döyüşçüsü ilə Təbərrük qalasında idi. Onun bibisi və İsmayılın xalası Məryəm bəyim Muradın əfv edilməsi üçün İsmayıla müraciət etmiş, cavabında İsmayıl onu yalnız şiəliyi qəbul edəcəyi təqdirdə əfv edəcəyini və əvvəllər hökmranlıq etdiyi Fars və s. vilayətləri də ona bağışlayacağını bildirmişdi. Murad guya peşkəş hazırlamaq üçün 3 gün möhlət istəsə də, elə həmin gecə öz adamları ilə qala divarını dələrək yol açmaqla oranı tərk edib qaçmağa nail oldu. Onun məqsədi *"Farsa gedərək, təzə ordu toplamaq və yenidən müharibəyə başlamaq idi".* O, öz qoşunun 3 min nəfərini Şiraza göndərib, özü 2 min nəfərlə Yəzd şəhərinə getdi. Lakin şahın Yəzdə yaxınlaşdığını görən Murad oranı tərk etdi, Ərjən çölündə Yaqubcan bəyin qüvvələri ilə birləşərək, Əbərquya çəkildi. Orada hakimlik edən 10 min evlik kərrəhi camaatının başçısı Rəis Məhəmməd Kərrə əvvəlcə Muradı yaxşı qarşılasa da, qızılbaş ordusunun Əbərquya yaxınlaşdığını gördükdə onlara müqavimət göstərməyin çətin olacağını anladı və Muradı həbs edərək, İsmayılın tərəfinə keçdiyini bildirdi. Bunu görən Ağqoyunlu sərdarları *"fərar edib, Şiraz səmtinə üz tutdular".* Lakin elə həmin gecə Murad, üzərinə nəzarətçi təyin edilmiş qorçu Süleyman ağa Rumluya külli miqdarda qiyməti olan bazubənd rüşvət verərək, həbsdən qaçmağa nail oldu. Səhəri gün bu məsələ aydın olduqda qorçu qaçışda iştirakının olmadığını sübut etməyə çalışsa da, İsmayılın əmri ilə edam olundu[1]. Sultan Muradın həbsi və qaçışı barədə digər mənbələrdə heç bir məlumat yoxdur. Ola bilsin ki, rəsmi Səfəvi tarixçiləri "mürşid-i kamil"in yaxın silahdaşlarından birinin rüşvət alıb satqın çıxması faktını qabartmamağı üstün tutmuşlar.

Murad qaçdıqdan sonra Ağqoyunlu əmiri Mənsur bəy Pornak Şirazdan gəlib, şaha itaətini bildirdi[2] və İsmayıl onu İlyas

---

[1] Aləmara (Sahib), s.96-107; Aləmara (Şükri), s.83-86,171-175.

[2] Bu həmin şəxs idi ki, İsmayıl öz qardaşları ilə həbsdə olarkən onun nəzarətində idi və o, onlarla "kamal-i izzət və hörmətlə rəftar etmişdi". "Aləmara"-nın Şapur Gürci tərəfindən köçürülmüş nüsxəsində onun adı Zöhrab kimi qeyd edilsə də, Y.Şükri digər nüsxəyə əsasən onun adının Mənsur bəy Pornak olduğunu göstərmişdir: Aləmara (Şükri), s.87. "Aləmara"nın Ə.M.Sahib

bəy Halvaçıoğlunun 3 minlik qoşunu ilə, Şiraza qaçmış Sultan Muradın üzərinə göndərdi, özü isə onların ardınca gələcəyini bildirdi. Eyni zamanda, Murad Şirazda müəyyən qüvvələr toplamağa nail oldu: *"Sultan Murad Şiraza daxil olduqda Əbülfəth bəy Ravəndi, Qazi Qeybi və Ağqoyunlu əmirləri xəbər tutub, onun xidmətinə gəldilər".* Lakin Mənsur bəyin tayfadaşları olan pornaklar şəhərdə Murada qarşı müqavimət təşkil etdilər. Bu döyüşlərdə hətta tüfəngdən də istifadə olunurdu. Murad öz ordusunu Şiraz əhalisinin hesabına gücləndirmək istədi və *"əclaf adamlardan 10 min nəfərə qədər şəxs cəm oldu".* Lakin Şiraz ağsaqqalları qızılbaş qoşunu qarşısında tab gətirməyin mümkünsüzlüyünü və müqavimət göstərəcəkləri təqdirdə Şirazın qətliam olunacağını əsas gətirərək, Muradın tərəfində vuruşmaqdan imtina etdilər. Beləliklə, Sultan Murad *"Fars əhlinin üz döndərdiyini görüb, ümidsiz oldu və Şulistan yoluna çıxaraq, 5 min nəfərlə qaçıb getdi".* Səhəri gün əsr vaxtı İlyas bəyin və Mənsur bəyin başçılığı ilə qızılbaş qoşun dəstəsi Allahu-Əkbər keçidindən Şiraza daxil oldu. Üç gün sonra Şah İsmayıl əsas qüvvələrlə birlikdə Şiraza gəldi. Kətxudalar peşkəş və hədiyyələrlə onu qarşılamağa çıxdılar[1].

Sultan Murad Şulistandakı Səfid qalasına, sonra isə Şüştərə sığınmaq istəsə də, qızılbaşların yaxınlaşması ilə oraları tərk edib, Bağdada qaçdı. O, Bağdad hakimi Barik bəy Pornak tərəfindən qəbul edilmiş, oradan Məmlük sultanı Qansu Qurinin ərazisində yerləşən Hələb şəhərinə getmiş, daha sonra Əlaüddövlə Zülqədərin hüzurunda sığınacaq tapmışdı. Muradın öncül sərkərdələrindən biri olan Yaqubcan bəy Mosula qaçmış və orada Bəşarət bəy Pornak tərəfindən şəxsi düşmənçilik zəminində qətlə yetirilmişdi[2]. Yəzd şəhərindəki Ağqo-

---

nüsxəsində də Mənsur bəy Pornak yazılmışdır və bu ad digər mənbələrlə də təsdiqlənir.

[1] Aləmara (Sahib), s.107-110; Aləmara (Şükri), s.87-89. Şah İsmayıl 2 rəbiüssani 909 / 24 sentyabr 1503-cü ildə Şiraza daxil olmuşdu: Tarix-i cahanara, v.202a; G.Sarwar. History of Shah İsmail, p.46. "Aləmara"da İsfahanın alınmasından İsmayılın Şiraza daxil olmasına qədər 27 gün keçdiyi bildirilir: Aləmara (Şükri), s.85-89. Buradan belə qənaətə gəlmək olar ki, İsfahan şəhəri avqust ayının sonlarında qızılbaşların əlinə keçmişdi.

[2] Cahangüşa-yi xaqan, s.181.

yunlu hakimi Murad bəy Bayandur qızılbaş ordusunun qorxusundan Yəzdi tərk edib, Herata üz tutdu[1]. Kirmanı nəzarətdə saxlayan Ağqoyunlu əmiri Mahmud bəy ixtiyarında 2 minlik qoşun olmasına baxmayaraq, qızılbaş sərkərdəsi Məhəmməd xan Ustaclunun 600 nəfərlik süvari dəstəsinin yaxınlaşdığını görüb, Xorasana qaçdı[2].

Şah İsmayıl 909-cu ilin 1 cəmadiyüləvvəlində / 1503-cü ilin 22 oktyabrında Şirazı tərk edərək, qışlamaq üçün Qum şəhərinə getdi[3]. Bununla da Fars və İraq-i Əcəm vilayətlərinin fəth edilməsi üçün aparılan hərbi kampaniya uğurla sona çatdı. Bu əməliyyatlar nəticəsində İsfahan, Kaşan, Qum, Yəzd, Kirman, Şiraz, Kazerun, Şüştər və s. şəhərlər qızılbaş ordusunun əlinə keçdi. Artıq bu zaman Şah İsmayılın ordusunun say tərkibi xeyli artmışdı. Səfəvi mənbələrində bu barədə konkret rəqəmlər göstərilməsə də, bu artımı sübut edən faktlar mövcuddur. “Aləmara”ya görə, 10 min evlik kərrəhi elinin rəhbəri Rəis Məhəmməd Kərrə qızılbaşların Əbərquya yaxınlaşdığını müşahidə etdikdə öz yaxın adamlarına *“bu qızılbaş ordusunun ki say çoxluğunu mən gördüm, dinin pənahı olan padşahla vuruşmağa qüvvətimiz və qüdrətimiz yoxdur”* demişdi[4]. Eyni zamanda, Həsən bəy Rumlunun da əsərində anoloji faktlara rast gəlmək olur. O yazır ki, Yaqubcan bəy Ərjən çölündə Muradla birləşərkən “xəbər gəldi ki, kama çatmış hökmdar saysız-hesabsız ordu ilə onlara tərəf irəliləyir”[5]. İtaliya mənbələrinə görə, Qərbi İran torpaqlarında aparılan əməliyyatlar zamanı İsmayılın təxminən 40 minlik ordusu olduğu halda, həmin ərazidəki piyada və süvari Ağqoyunlu qoşunlarının ümumi sayı 36 min nəfər olmuşdur. Anonim venesiyalı tacirin şahidliyinə əsasən, İsmayılın ordusu cəsur adamlardan ibarət idi, Ağqoyunlu ordusu isə “savaş meydanına məcburən və könülsüz gəlmişdi”. Buna görə də bir çox sərkərdə və əsgərlər Ağqoyunlu ordusunu tərk

---

[1] Aləmara (Sahib), s.132-133; Aləmara (Məclis kitabxanası – 761), v.34a.
[2] Tarix-i cahanara, v.202a.
[3] Təkmilətül-əxbar (Bakı), s.36.
[4] Aləmara (Sahib), s.105; Aləmara (Məclis kitabxanası – 761), v.27a-b.
[5] Əhsənüt-təvarix (Seddon), s.72-73.

edib, İsmayılın düşərgəsinə qaçırdılar[1]. “Aləmara”da da bu cür məlumatlar mövcuddur. Qeyd etdiyimiz kimi, Ağqoyunlu tayfa ittifaqına daxil olan, Şirazda məskunlaşmış pornak tayfası kütləvi surətdə İsmayılın tərəfinə keçmişdi. Eyni zamanda, Fars vilayətində məskunlaşmış zülqədərlər də Zöhrab sultan başda olmaqla könüllü surətdə Səfəvi xidmətinə daxil olmuşdular[2]. Bicən yazır ki, Şah İsmayıl tabe olan Ağqoyunlu hakimlərini öz vəzifələrində saxlayırdı, öz vilayətlərini tərk edib gedən Ağqoyunlu valilərinin hər birinin yerinə isə həmin mahala yeni, “adil bir hakim” təyin edirdi[3].

### *D) Qiyamçı hakimlərin cəzalandırılması*

1503-cü ilin sonlarında Səfəvi dövləti artıq Azərbaycanı, Fars vilayətini və İraq-i Əcəmin böyük bir hissəsini əhatə edirdi. Lakin hələ də bəzi Ağqoyunlu əmirləri və İranın müxtəlif bölgələrindəki yerli hakimlər təhlükə törətməkdə idilər. Bunların arasında Mazandarandakı Firuzkuh, Dəmavənd, Xəvar, Simnan və Rüstəmdar ərazilərinin hakimi Əmir Hüseyn Kiya Çəlavi xüsusi yer tuturdu. Mazandaranın şiə məzhəbli və seyid mənşəli Çəlavilər sülaləsinə mənsub olan Əmir Hüseyn Kiya Almabulağı döyüşündən sonra çoxsaylı Ağqoyunlu qoşunlarına sığınacaq vermiş və Səfəvi hakimiyyətini qəbul etməmişdi. Peyğəmbər və imamlar nəslindən olması ilə öyünən, İran şiələrinin lideri roluna iddia edən və üstəlik, Səfəvi hakimiyyətini tanımaqdan imtina edən Çəlavi, Şah İsmayıl üçün təkcə siyasi deyil, dini-ideoloji baxımdan da təhlükəli opponent idi[4].

Bizim mənbənin faktları göstərir ki, Almabulağı döyüşündən sonra Murad bəy Cahanşahlu adlı Ağqoyunlu sərkərdəsi 2 min tərəfdarı ilə qaçıb Çəlaviyə sığınmış və ona Dəmavənddə yer ayrılmışdı. Digər bir Ağqoyunlu qoşunu isə Firuzkuhda yerləşdirilmişdi. İsmayılın Şiraz səmtinə getdiyini və Qəzvində

---

1 Travels of Venetians, p.54,199; Doğuda Venedik elçileri, s.57; Seyyahların gözüyle, s.201-202.
2 Aləmara (Sahib), s.107-108; Aləmara (Şükri), s.87.
3 Cahangüşa-yi xaqan, s.187.
4 R.M.Savory. The Consolidation, p.73.

yolu kəsmək üçün qızılbaş qoşununun olmadığını dəqiqləşdirən Çəlavi və Murad bəy hələ 1503-cü ilin payızında Tehran ətrafındakı 300 evlik qızılbaş eli üzərinə həmlə edib qırğınlar törətdilər, xeyli əsir və qənimətlər ələ keçirib, Vəramin qalası üzərinə getdilər. Belə olduqda Şah İsmayıl İlyas bəyi[1] 300 nəfərlik dəstə ilə Vəraminin müdafiəsinə göndərərək, özü qoşunları hazır edən kimi Çəlavi üzərinə hərəkət edəcəyini bildirdi. İlyas bəy Vəraminə gedərək, qaladakı 400 nəfərlik qarnizonla birləşdi. Çəlavinin və Murad bəyin qoşunu qalanı mühasirəyə aldı. Onların ordusunun sayı "Aləmara"da 16-20 min, "Cahangüşa-yi xaqan"da 12 min nəfər, İsgəndər bəy Münşinin əsərində isə "12 min süvari və xeyli piyada" deyə qeyd olunmuşdur[2].

Qala 40 gün mühasirədə qalsa da, süqut etmədi. Hadisələrin bu cür gedişindən qəzəblənən Çəlavi öz əmirləri ilə keçirdiyi məşvərətdə Şah İsmayıl gəlib çıxana qədər İlyas bəyi aradan qaldırıb qalanı tutmağın vacibliyini bildirdi: *"Mən bu türk kişisinin əlacını görməliyəm. Yoxsa məqsədimə çatmamış Rüstəmdar tərəfə gedə bilmərəm və bu eyib Çəlavilər ailəsinin üzərində həmişəlik qalar".* Bu məqsədlə o, hiyləyə əl atdı: Çəlavi, İlyas bəyə məktub yazaraq, Şah İsmayıla qarşı çıxmaqla səhv iş tutduğunu, indi peşman olduğunu, sülh təklif etdiyini bildirir və İlyas bəydən vasitəçi olmağı xahiş edərək, onunla görüşmək istədiyini açıqlayırdı. İlyas bəy onun hiyləsinə aldanaraq, 30-40 nəfərlə birgə qaladan çıxıb, onun düşərgəsinə gəldi və orada onlar xaincəsinə öldürüldülər: *"Yemək yeyən zaman dörd tərəfdən Hüseyn Kiyanın adamları qılınclarını çəkib məclisə tökülüşdülər və İlyas bəyi dostları ilə birlikdə qətlə yetirdilər".* İlyasın öldürüldüyünü görən qarnizon qalanı tərk edib getdi. Şirazdan çıxdıqdan sonra İsfahana, oradan da Quma gələn Şah İsmayıl İlyasın öldürülməsi xəbərini alıb, xeyli

---

[1] "Aləmara"da onun İlyas bəy Halvaçıoğlu olduğu göstərilsə də, digər mənbələrlə müqayisə nəticəsində Vəraminə göndərilən sərkərdənin Rey hakimi İlyas bəy Ayqutoğlu Xınıslu olduğunu müəyyənləşdirmişik (bax: Cahangüşa-yi xaqan, s.192; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.149).

[2] Aləmara (Sahib), s.112; Cahangüşa-yi xaqan, s.193; Tarix-i aləmara-yi Abbasi (Tehran), s.30.

kədərləndi və and içdi ki, *"Hüseyn Kiyanı odda yandıracağam, necə ki, o, mənim ürəyimi yandırdı"*[1].

Quma gələrək orada düşərgə salan Şah İsmayıl 9 ramazan 909 / 25 fevral 1504-cü ildə Çəlaviyə qarşı yürüşə başladı və 12 ramazanda / 28 fevralda Deyro-kacdan keçərək, Rey şəhərinə gəldi[2]. Çəlavi Vəramin qalasına 5 minlik qüvvə qoyaraq, əvvəlcə Gülxəndan, oradan da Firuzkuh qalasına çəkildi. Rey və Tehran hüdudlarından hücuma başlayan qızılbaşlar ilk növbədə Vəramini ələ keçirdilər. Bu qələbədən sonra şahın ordusu Gülxəndan qalasına yaxınlaşdı. Qalanı Çəlavinin əmisi Kiya Əşrəfin başçılıq etdiyi qarnizon qoruyurdu. Şah İsmayıl Kiya Əşrəfə elçi göndərib, onun təslim olmasını tələb etdi. Bunun cavabında qarnizon rəisi şahın elçisini qətlə yetirdi. Şah İsmayılın şəxsən rəhbərlik etdiyi qətiyyətli hücum əməliyyatı nəticəsində ramazan bayramı günündə (17 martda) Gülxəndan fəth olundu. Gülxəndan uğrundakı döyüşdə *"Çəlavilərdən 5 min qadın və kişi öldürüldü"* və *"şahın əmri ilə müzəffər qazilər hündürlükdə çərx-i fələyə bərabər olan, ucalığı ilə asimanın zirvəsinə baş aparan və möhkəmliyi ilə məşhurlaşan o qalanı yerlə yeksan etdilər"*.

Şəvval ayının əvvəllərində Şah İsmayıl Firuzkuh qalası istiqamətində yürüşə başladı. Qızılbaşlar yol boyu itaətsizlik göstərən yerli camaatdan ibarət dəstələri qılıncdan keçirərək irəliləyirdilər. Bu xəbəri eşidən Çəlavi öz qardaşı Əmir Əli Kiya Zəmandarı Firuzkuh qalasında qoyub, özü geri çəkildi. Mənbənin təsvirinə görə, Firuzkuh qalası *"möhkəmlikdə İsgəndər səddi kimi idi"*. Əmir Əli Kiya və onun sərkərdələri Şah İsmayılın bu qalanı ala bilməyərək, *"bir qədər gözlədikdən sonra qayıdıb Azərbaycana gedəcəyinə"* əmin olduqlarından təslim olmaqdan imtina etdilər. Öz sərkərdələri ilə hərbi müşavirə *("kənkaş")* keçirdikdən sonra Şah İsmayıl hərbi hiylə işlətməyi qərara alaraq, qoşunun bir hissəsini gecə vaxtı məğribə tərəf – qalaya dağın arxasından hücum etməyə göndərdi. Üç günlük mürəkkəb manevrlərdən sonra həmin dağda əlverişli mövqe tutan qızılbaşlar dağ başında tonqal qalamaqla İsmayıla bu

---

[1] Aləmara (Sahib), s.113-114; Aləmara (Şükri), s.92-93.
[2] R.M.Savory. The Consolidation, p.73; Təkmilətül-əxbar (Bakı), s.36.

barədə xəbər verdilər. Beləliklə, qızılbaşlar qala müdafiəçilərinin gözləmədikləri yerdən onlara həmlə etdilər və bunun ardınca hər tərəfdən qalaya hücum başladı. Qalaya ilk olaraq Mahmud bəy Qacarın qoşun dəstəsi daxil oldu və onun ardınca digər qızılbaş birlikləri də oraya soxuldular. Əmir Əli Firuzkuhun narınqalasına sığınsa da, müqavimətin mənasızlığını görüb, təslim olmağı və Səfəvilərin tərəfinə keçməyi qərara aldı. O, Səfəvi saray məmurlarından olan Əmir Nəcm Rəştinin vasitəçiliyi ilə itaət etməsi barədə ərzini şaha çatdırdı. O, özünün şiə olduğunu xatırladaraq, bundan sonra *"dünya hökmdarının (Şah İsmayılın – N.M.) ən aşağı dərəcəli qulamı"* sayılmasını xahiş edir, özünü *"aciz və biçarə"* adlandıraraq, canının bağışlanmasını istəyir və söz verirdi ki, *"nə qədər ki sağam, o həzrətin mülazimlik xidmətində dayanıb, canımı ona fəda etməklə məşğul olacağam".* Əfv edildiyi ilə bağlı cavab aldıqdan sonra Əmir Əli qorxa-qorxa qaladan çıxıb, şahın hüzuruna gəldi. İsmayıl onu bağışlamaqla yanaşı, həm də Hüseyn Kiyanın əvəzinə vali təyin edəcəyini vəd etdi, Firuzkuh qalası isə xarabalığa çevrildi[1]. Bicənin məlumatına görə, Firuzkuh 11 şəvvalda (28 martda) mühasirəyə alınmış və 24 şəvvalda (10 apreldə) ələ keçirilmişdi[2].

Bundan sonra Mazandaranın içərilərinə hərəkət edərək, Çəlavinin ən mühüm müqavimət ocağı olan Marankuh dağındakı Usta qalasına doğru irəliləməyi qət edən qızılbaş komandanlığı yolun üzərindəki strateji bir aşırımı hiylə ilə ələ keçirdi: Səfəvilərin tərəfinə keçmiş Əmir Əli oraya göndərildi və qardaşının şaha tabe olduğundan xəbərsiz olan Çəlavi aşırımı ona təhvil verərək, öz ordusunun əsas hissəsi ilə Marankuh dağındakı istehkamlara çəkildi. Əmir Əli isə əvvəlcədən planlaşdırıldığı kimi, keçidi qızılbaşlara təslim etdi. Aşırımdan keçən qızılbaşlar Çəlavinin bacısı oğlu Kiya Şərəfin başçılıq etdiyi 3 minlik qarnizon tərəfindən qorunan Övlad qalasını mühasirəyə aldılar. Onun təslim olmaq tələbini rədd etməsindən sonra Əbdi bəy Şamlunun və Bayram bəy Qaramanlunun qoşunları qalaya həmlə etdilər. Onların ardınca şəxsən İsmayılın başçılıq et-

---

[1] Aləmara (Sahib), s.115-120; Aləmara (Şükri), s.93-95.
[2] Cahangüşa-yi xaqan, s.199-204.

diyi qoşun hücuma keçdi və Kiya Şərəf təslim olmaq məcburiyyətində qaldı. O, çoxlu peşkəşlər götürdü, boynundan qılınc asdı, əyninə kəfən getdi və şahı qarşılamağa çıxıb, itaətini bildirdi.

Çəlavi son ümid yeri kimi, hər iki tərəfindən Həbəlrud çayı axan, güclü istehkamlara malik olan və hücumla alınması qeyri-mümkün sayılan Marankuh dağına sığınmışdı. Dağın ətəklərinə gələn Şah İsmayıl Marankuha hücum etməyin səmərəsiz olduğunu görüb, qızılbaşlara qazıntı işləri apararaq çayın axarını dəyişməyi əmr etdi. Bununla da qala müdafiəçiləri su mənbəyindən tamamilə məhrum oldular[1]. Bu məlumatı təsdiq edən Xandəmir yazır ki, "bu cəhətdən mühasirədəkilərin canına möhnət atəşi vuruldu, onların dodaqları qurudu və ürəkləri yandı". Onun məlumatına görə, bu hadisədən 3 gün sonra qızılbaşlar qalanı fəth etməyə nail oldular[2]. Həsən bəy Rumlu Usta qalasının süqutunu 27 zilqədəyə (13 maya), Əbdi bəy isə Çəlavinin əsir tutulmasını 1 zilhiccəyə (16 maya) aid etmişlər[3]. "Aləmara"nın şərhinə əsasən, çayın axarının dəyişdirilməsindən sonra çıxış yolu tapa bilməyən bir qrup müdafiəçi öz aralarında qərara gələrək, Çəlavini əsir tutub, Şah İsmayılın hüzuruna aparmış, məhz bundan sonra düşmənin müqaviməti qırılmışdı. Hücuma keçən qızılbaşlar istehkamları fəth etdilər, Çəlavi tərəfdarlarından 10 minə qədər adam qətlə yetirildi. Bununla da Şah İsmayılın Mazandaranda apardığı 3 aylıq hərbi kampaniya tam qələbə ilə sona çatdı. Çəlaviyə qarşı süvari qızılbaş ordusunun öyrəşmədiyi yüksək dağlıq ərazilərdə aparılan bu müharibə Şah İsmayılın sərkərdəlik məharətini bir daha üzə çıxardı. "Aləmara"ya görə, Çəlavinin yerinə onun qardaşı Əmir Əlini təyin edən İsmayıl 3 zilhiccədə (18 mayda) Usta qalasını tərk edib, Rey və Savucbulağ (Savuxbulağ) bölgələrinə yollandı. Əsir alınaraq *"bayquş kimi qəfəsə salınmış"* Çəlavi Vəramin qalası yaxınlığında özünü qəfəsin şişlərinə vurub intihar etdi. Onun cəsədi İsfahanın köhnə meydanında yandı-

---

[1] Aləmara (Sahib), s.129-130; Aləmara (Şükri), s.98.
[2] Həbibüs-siyər, s.477.
[3] Əhsənüt-təvarix (Seddon), s.79; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.150.

rıldı[1]. Şah İsmayılın Çəlaviyə qarşı yürüşündə iştirak etmiş Səfəvi tarixçisi Mir Yəhya Qəzvini qeyd edir ki, bu yürüş zamanı Çəlavi tərəfdarlarından ümumiyyətlə 30 min nəfərə qədər şəxs qətlə yetirilmişdi[2].

1504-cü ilin payızında Şah İsmayıl Savucbulağ yaylağından İsfahana gəldikdən sonra məlumat aldı ki, bir il öncə Səfəvi hakimiyyəti altına keçən Əbərqu hakimi və İranın kərrəhi tayfasının başçısı Rəis Məhəmməd Kərrə qiyam qaldırmışdır. O, Əbərqudan yürüş edərək, Yəzd şəhərini ələ keçirmişdi.

Ağqoyunlu hakimiyyətinin sonunda Yəzd şəhəri Murad bəy Bayandura məxsus idi. O, 1503-cü ildə qızılbaşların qorxusundan Yəzdi tərk edib, Xorasana qaçdı. Bundan sonra onun divan vəziri Xoca Sultan Əhməd Saruyi şəhərdə hakimiyyəti ələ keçirdi. Şah İsmayıl Yəzdi Hüseyn bəy Lələyə verdi. O da öz adından buranı idarə etmək üçün Şüeyb ağanı şəhərə daruğa təyin edib göndərdi. Xoca Sultan Əhməd Saruyi əvvəlcə itaət göstərdi və hakimiyyəti Şüeyb ağaya təhvil verdi. Lakin 1504-cü ildə o, xəyanət edərək, Şüeyb ağa hamamda ikən onun üzərinə basqın təşkil edib, onu qətlə yetirdi və şəhərdə təkrarən söz sahibinə çevrildi. Bu iğtişaşdan istifadə edən Rəis Məhəmməd Kərrə Yəzdi işğal etdi və Saruyini öldürdü. Lakin o, artıq Səfəvilərə də tabe olmadı və itaətsizlik göstərdi[3].

Bizim müəllif yazır ki, Məhəmməd Kərrə Yəzdin məşhur seyidlərindən olan Nemətullahi şeyxinin qızı ilə evlənmək, onu özünə müttəfiq etmək və bu yolla əhalinin rəğbətini qazanmaq cəhdi göstərmiş, lakin şeyx onu aldadaraq, ailəsi ilə birgə Mibədə qaçmış və Şah İsmayılın gəlişinədək orada qalmışdı. O, öz qulamlarından biri ilə şah üçün məktub göndərmiş və onu Məhəmməd Kərrənin əməlləri barədə məlumatlandıraraq kömək istəmişdi[4]. 1504-cü ilin dekabrında Şah İsmayıl Yəzdi

---

[1] Aləmara (Sahib), s.131-132; Aləmara (Şükri), s.98-99.
[2] Lübbüt-təvarix, v.158a.
[3] Aləmara (Sahib), s.132-133; Aləmara (Məclis kitabxanası – 761), v.34a.
[4] Aləmara (Sahib), s.133-137; Aləmara (Şükri), s.99-101. Nemətullahi təriqətinin əsası Şah İsmayıldan çox əvvəllər Hindistanda seyid nəsəbli Şah Nemətulla Vəli (ölümü: 1431) tərəfindən qoyulmuşdur. Onun bəzi nəvə-nəticələrinin Yəzddə məskunlaşması səbəbindən bu şəhər təriqətin İrandakı

mühasirəyə alıb[1], Kərrəyə *"nəsihətnamə"* yazaraq, ondan təslim olmağı tələb etsə də, rədd cavabı aldı. Bundan sonra *"şahın əmri ilə səngərlər qazıldı, bir ay müddətində döyüş oldu, hər gecə Məhəmməd Kərrə qaladan çıxaraq, səngərlərə hücum etdi və qızılbaşlardan çox adamı o namərd qətlə yetirdi".* Lakin nəticədə Durmuş xan Şamlunun qoşun dəstəsi şəhərə daxil oldu və kərrəhi tayfasının şəhəri qoruyan 7 min döyüşçüsündən 4 min nəfəri öldürüldü, qiyamçıların başçısı isə 3 minlik qüvvə ilə narınqalaya sığındı[2].

20 gün sonra narınqala da süqut etdi. Rəis Məhəmməd Kərrə bir neçə nəfər yaxın tərəfdarı ilə birgə "Nağaraxana" adlanan bürcdə əsir tutularaq, qəfəsə salındı və onlar İsfahana aparılaraq, Nəqş-i Cahan meydanında yandırıldılar[3]. Yəzdin fəthindən sonra Əbdi bəy Şamlunun başçılıq etdiyi qızılbaş qoşunu Əbərqunu zəbt etdi. Məhəmməd Kərrənin oradakı canişini Rəis Qeybi qətlə yetirildi[4]. Şah Yəzddə olarkən, 910-cu ilin şabanında / 1505-ci ilin yanvarında Xorasanın Təbəs bölgəsinə həmlə edərək, Yəzddən qaçıb oraya sığınmış Murad bəy Türkmanın komandanlığı altındakı Ağqoyunlu qoşununu darmadağın etdi[5].

---

mərkəzinə çevrilmişdi. Şah İsmayılın hakimiyyətə gəlişindən sonra təriqət özünün şiə əqidəsində olduğunu bəyan etmiş və Səfəvilərlə möhkəm bir alyans qurmuşdu. Həmin zamanlar Şah Nemətullanın xələflərindən biri – Mir Nizaməddin Əbdülbaqi təriqətin Yəzddəki mürşidi idi və o, İsmayıl tərəfindən 917 / 1511-12-ci ildə ali ruhani postu olan sədr, sonra isə vəkil vəzifəsinə təyin olunmuşdu: S.A.Arjomand. Religious Extremism (Ghuluw), Sufism and Sunnism in Safavid Iran (1501-1722) // Journal of Asian History, XV/1, 1981, p.17-19. Bu faktları "Aləmara"nın məlumatları ilə tutuşdurduqda bəlli olur ki, mənbədə haqqında bəhs olunan Nemətullahi şeyxi Əbdülbaqi olmuşdur. "Aləmara" müəllifi "Yəzd camaatının ona pərəstiş etdiyini və onun ocağına çox etiqad bəslədiklərini" yazır: Aləmara (Şükri), s.101.

[1] Aləmara (Sahib), s.133; Lübbüt-təvarix, v.159a; Əhsənüt-təvarix (Seddon), s.83-84; Təkmilətül-əxbar (Bakı), s.37; Rövzətüs-Səfəviyyə, s.181-182.

[2] Aləmara (Sahib), s.138-139; Aləmara (Şükri), s.102-103.

[3] Aləmara (Sahib), s.139; Aləmara (Şükri), s.103.

[4] Cahangüşa-yi xaqan, s.218.

[5] Aləmara (Sahib), s.140-142; Aləmara (Şükri), s.195-196. Yəqin ki, Yəzd və Təbəs əməliyyatları arasında sıx bağlılıq vardır. Murad bəyin keçmiş vəziri Xoca Sultan Əhməd Saruyinin Yəzdi ələ keçirməsi və eyni zamanda, Murad

Məmləkət daxilində nizam-intizam yaratmaq istiqamətində Şah İsmayılın atdığı növbəti addım, zahirən itaətini bildirsə də, hələ lap əvvəldən Səfəvilərə heç də xoş münasibət bəsləməyən, paytaxtı Rəşt olan Gilandakı Biye-pəs əmirliyinin ram edilməsindən ibarət oldu. Biye-pəs əmiri Hüsaməddin 1501-02-ci illərdə Şirvanşah Fərrux Yəsarın qızılbaşların təqibindən qaçan oğlu Şeyxşaha sığınacaq vermişdi[1]. "Aləmara"ya əsasən, Əlvənd mirzənin məğlubiyyətindən sonra Azərbaycandan qaçan 4 min Ağqoyunlu döyüşçüsü Rəştə toplanmışdı. Biye-pəs hakimi onları öz ətrafına cəm edərək, Səfəvilərə sadiq olan Biye-piş (Lahican) əmirliyinə, daha sonra isə Qəzvinə həmlə etməyi planlaşdırırdı[2]. İbrahim Əmini yazır ki, Şah İsmayıl Qəzvin yaxınlığındakı Tarom məntəqəsində qışlayarkən (1505-06-cı ilin qışında) "Rəşt və Fumən valisi" Hüsaməddin qiyam qaldırdı və onunla İsmayıl arasında münaqişə baş verdi[3].

"Aləmara"nın məlumatına görə, Biye-pəs əmirinin qiyam hazırlıqlarından xəbər tutan İsmayıl Qəzvinə gəlmiş və casuslar göndərib, Gilandakı vəziyyəti öyrəndikdən sonra qızılbaş ordusu ilə Rəşt üzərinə hərəkət etmişdi. Şahın yolunu kəsməli olan Ağqoyunlu əsgərləri qızılbaş ordusunun yaxınlaşdığını gördükdə qaçıb dağılışdılar. Şah İsmayıl əvvəlcə Rəştə daxil oldu, sonra Fumənə hərəkət etdi. Çıxılmaz vəziyyətə düşən Biye-pəs hakimi vaxtı ikən İsmayıla Lahicanda dərs demiş din xadimi Mirzə Zeynalabidin Rəştini əlində "Quran"la Səfəvi hökmdarının hüzuruna göndərib, əfv olunmasını xahiş etdi. Şah onu bağışlasa da, şərt qoydu ki, *"onu yoldan azdırmış o*

---

bəyin Təbəsdə fəallaşması, 7 minlik qoşun toplaması və Kirmana basqın etməsi düşünülmüş bir planın tərkib hissələri idi.

[1] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.127.

[2] Aləmara (Sahib), s.156; Aləmara (Şükri), s.105-106. "Aləmara"da onun adı Əmir Müzəffər deyə qeyd olunsa da, əslində həmin zaman Biye-pəsin hakimi Əmir Müzəffərin atası Əmir Hüsaməddin idi. Müzəffər isə atasının ölümündən sonra hakimiyyətə keçmişdi. Onun əsl adı Əmirə Dübac olsa da, daha çox Müzəffər sultan ləqəbi ilə tanınmışdı: О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.151; yenə onun. Азербайджанское государство Сефевидов в XVI веке, с.80.

[3] Fütuhat-i şahi, v.60a.

*camaat ki var (Ağqoyunlu əmirləri nəzərdə tutulur – N.M.), onları əli bağlı gətirsin və özü isə boynuna qılınc asıb gəlsin".* Biye-pəs əmiri bir qisim Ağqoyunlu döyüşçülərini həbs edərək, o zamanlar təslimçilik əlaməti sayılan əməli yerinə yetirdi, yəni boynuna qılınc asıb, kəfən geyindi, şahın hüzuruna gəldi. İsmayıl, Ağqoyunlu əsgərlərini cəzalandırdı, Biye-pəs əmirini isə öz vəzifəsində saxlayaraq, elə həmin gün "*səadət və iqbal ilə köç edib, darüssəltənə Təbrizə rəvan oldu".* Cəmi 11 gün davam etmiş Gilan əməliyyatı nəticəsində Biye-pəs əmirliyi qəti olaraq Səfəvilərin tabeçiliyi altına düşdü[1]. Xandəmir yazır ki, qızılbaş ordusu Biye-pəsə soxulub, qiyamçıları darmadağın etdikdən sonra Şah İsmayılla Əmir Hüsaməddin arasında bağlanmış sazişə əsasən, Biye-pəs hakimi qəbul etmişdi ki, "üsyançılıqdan əl çəksin və ilbəil xərac və mal verərək, özünü xidmətkar bəndələrdən biri hesab etsin"[2]. Anciolellonun səyahətnaməsinə görə, qiyamçı "Gilan kralı" Şah İsmayılın yanına elçi göndərib, əfv olunmasını xahiş etmiş, şah onu bağışlasa da, onun ödədiyi xəracın miqdarını iki dəfə artırmışdı[3].

### *E) Şərqi Anadolu Səfəvi hakimiyyəti alında*

Azərbaycanı və İranın böyük bir hissəsini öz hakimiyyəti altına almış İsmayıl məmləkət daxilindəki bəzi yerli əmirləri məğlub etdikdən sonra öz babası Uzun Həsənin səltənətini tam ələ keçirmək üçün Şərqi Anadolu və İraq-i Ərəb ərazilərini də tamamən fəth etməli idi. Xüsusilə də Şərqi Anadolu gənc Səfəvi hökmdarının diqqətini bir neçə baxımdan cəlb edirdi. Əvvəla, Şah İsmayılın Şərqi Anadolu fəaliyyətində ciddi siyasi səbəblər rol oynayırdı. "Şah İsmayıl özünü Uzun Həsənin legitim varisi hesab etdiyindən Əlvənd və Murad üzərindəki qələbələrdən sonra öz işğallarını şərqə doğru deyil, Uzun Həsənin köhnə vətəni olan Diyarbəkrə yönəltdi"[4]. İkincisi, Şərqi Anadolunu ələ keçirmək strateji baxımdan çox önəmli idi. Çünki bununla Səfəvilər həmin bölgədəki türkman qızılbaş oymaqlarını

---

[1] Aləmara (Sahib), s.156-157; Aləmara (Şükri), s.107-108.
[2] Həbibüs-siyər, s.484.
[3] Travels of Venetians, p.107; Seyyahların gözüyle, s.84.
[4] The Cambridge History of Iran, vol.VI, p.215-216.

öz bayraqları altına cəmləmiş olur, həmçinin Məmlük və Osmanlı sərhədlərinə birbaşa çıxış əldə edərək, Anadolu və Suriyanın şiə simpatiyalarına malik yarımköçəri türk tayfaları arasında daha rahat təbliğat aparmaq imkanına yiyələnirdilər. Nəhayət, üçüncü faktor ondan ibarət idi ki, "Şərqi Anadoludan keçən karvan ticarəti yollarında ağalıq Səfəvilərin xəzinəsinə mühüm gömrük mədaxilləri verə bilərdi"[1]. İsmayılın Şərqi Anadoluda həmin regionu ələ keçirməyə mane ola biləcək üç rəqibi vardı: kürd əmirləri, Ağqoyunlu bəyləri, Mərəş və Əlbistan hakimi Əlaüddövlə Zülqədər.

XVI əsrin əvvəllərində kürd əmirləri arasında mükri tayfasının başçısı Seyfəddin oğlu Sarom xüsusilə fərqlənirdi[2]. Bu əmir Səfəvilərə qarşı baş qaldırmaqdan, hətta Azərbaycan hüdudlarına basqınlar etməkdən də çəkinmirdi. Sarom ilk dəfə 1505-ci ildə "Sarı-Qurğan mövqeyində kürdləri ətrafına cəm edərək qiyam qaldırmışdı"[3]. Lakin bu ilk cəhd onun üçün uğursuzluqla nəticələndi. Buna baxmayaraq, 912 / 1506-cı ildə şah Surluq yaylağında olarkən Saromun növbəti dəfə qiyam qaldıraraq Urumi (Urmiya) qalasına həmlə etməsi xəbəri gəldi və şah "adlı-sanlı əmirlərdən" Bayram bəy Qaramanlunu, Xadim bəy Xəlifətül-Xüləfanı, Əbdi bəy Şamlunu, Sarı Əli bəy Möhürdar Təkəlünü "pis xilqətli kürdlərin şər əməllərinin dəf edilməsinə" göndərdi[4].

Bu hadisə barədə geniş məlumat verən "Aləmara" müəllifi qeyd edir ki, 40 min evlik tayfanın başçısı olan kürd əmiri Sarom xan Azərbaycana hücum edib, Urumlu (Urmiya) qalasını mühasirəyə almış, lakin Qaragünə sultanın başçılıq etdiyi 300 nəfərlik qarnizonun qoruduğu qalanı bir ay mühasirədə saxlasa da, tuta bilməmişdi. Vəziyyətin get-gedə ağırlaşdığını görən Qaragünə, Saromla danışıqlara girərək, qaladan çıxıb Təbrizə tərəf gedəcəkləri təqdirdə qızılbaşlara hücum edilməyəcəyi barədə ondan vəd almışdı. Amma qızılbaşlar qalanı

---

[1] Ш.М.Мустафаев. Восточная Анатолия, с.15.
[2] M.İ.Şəmsi. Şərəf xan Bidlisinin "Şərəfnamə" əsəri kürd xalqının tarixi mənbəyi kimi. Bakı, 1972, s.52-53.
[3] Fütuhat-i şahi, v.59a.
[4] Cahangüşa-yi xaqan, s.241.

tərk etdikdən sonra Sarom öz vədini xaincəsinə pozaraq, onlara hücum etdi. Kürdlər qızılbaşları qırıb, onların qadınlarını və uşaqlarını əsir tutdular.

Təbrizdəki qardaşı İbrahim mirzədən bu barədə məlumat alan İsmayıl, Sarı Əli bəy Möhürdarı 3 minlik qoşunla Təbrizə göndərdi və onlar Təbrizdəki qoşunlarla birləşib, Azərbaycanın qərb sərhədlərinə irəlilədilər. 12 minlik qızılbaş ordusu Xoy və Səlmas şəhərləri yaxınlığında təqribən iki dəfə çox olan kürdlərlə döyüşə girdi və hər iki tərəf böyük itkilər verdi: kürdlərdən 3 min, qızılbaşlardan isə 1500 nəfər həlak oldu. Ölənlər arasında Sarom xanın iki oğlu və qızılbaş əmiri Sarı Əli bəy Möhürdar da var idi. Sarom və İbrahim mirzə isə yaralanmışdılar. Bu döyüşdən sonra Məntəş sultan Ustaclu və şahzadə İbrahim qoşunu götürərək, şahın köməyə göndərdiyi yeni qüvvələrə qovuşmaq üçün bir qədər geri çəkilib, Əbdi bəy Şamlunun yardıma gəlmiş 6 minlik qoşunu ilə birləşdilər. İlk döyüşdə sayca az olan qızılbaşların şücaəti kürdlərə elə təsir etmişdi ki, onlar öz aralarında *"qızılbaşlar adam deyillər, onların bədəni poladdandır"* deyirdilər.

Kürdlərə qarşı ikinci döyüşdə məşhur qızılbaş sərkərdəsi Əbdi bəy Şamlu həlak oldu, onun oğlu Durmuş xan, eləcə də Məntəş sultan Ustaclu yaralandılar. Əvvəlcə kürdlər üstünlük qazansalar da, müharibədə iştirak etmək üçün Qəzvin – Ərdəbil – Təbriz yolu ilə özünü yetirmiş Şah İsmayılın başçılıq etdiyi əsas qüvvələr qəflətən döyüşə atıldıqdan sonra kürd ordusu darmadağın olundu[1]. Sarom xanın sonrakı aqibəti qaranlıq olaraq qalır: bəzi məlumatlara görə, o, qızılbaşlar tərəfindən əsir tutularaq edam edilmiş[2], digər məlumatlara görə isə, onun bir sıra yaxınları əsir alınıb qətlə yetirilsə də, Sarom özü qaçıb aradan çıxmışdı[3]. Çox qəribədir ki, bu ixtilaf "Aləmara"nın nəşr edilmiş nüsxələri arasında da mövcuddur: Y.Şükrinin nüsxəsində Saromun şəxsən İsmayıl tərəfindən öldürüldüyü yazılsa

---

[1] Aləmara (Sahib), s.151-159; Aləmara (Şükri), s.103-108.

[2] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.95; M.N.Şeybani. Təşkil-i şahənşahi-yi Səfəviyyə. Tehran, 1350, s.105.

[3] Rövzətüs-Səfəviyyə, s.193-194; S.Ə.Rəhimzadə. Şərh-i cəngha, s.178.

da, Ə.M.Sahibin nüsxəsində onun *"fərar yolunu tutub, bad-i sərsər kimi qaçıb aradan çıxdığından"* bəhs olunmaqdadır.

Bu qələbədən sonra qızılbaşlar bir saat ərzində Sarom xanın ordugahını talan etdilər. Şah İsmayılın əmri ilə Bayram xan Qaramanlu, Xadim bəy Xüləfa və Hüseyn bəy Lələnin başçılığı ilə *"zəfər nişanlı qızılbaş ordusu"* qiyamçı kürdlərin məskəni üzərinə göndərildi. Saromun ərazisinə gedən *"qızılbaş ordusu evləri tarac edib yandırdı, qətl və qarət törədib, onun bütün ölkəsini viran qoydu"*[1]. Bu məlumatı təsdiq edən İsgəndər bəy Münşi yazır ki, Sarom xan qızılbaşlara məğlub olduqdan sonra "onun bütün eli və ulusu tarac edildi"[2].

Sarom xan təhlükəsinin aradan qaldırılması Şah İsmayılın Şərqi Anadoluya ekspansiyasının ilk fazasını təşkil edirdi. Növbəti hədəf Şərqi Anadoludakı Ağqoyunlu torpaqlarına göz dikmiş Mərəş və Əlbistan hakimi Əlaüddövlə Bozqurd (1480-1515) idi. "Aləmara"da qeyd olunduğu kimi, 80 min evlik zülqədər tayfasının başçısı[3] olan bu şəxs Osmanlı və Məmlük sultanları arasında hiyləgərcəsinə manevr edib, müstəqil siyasət yürüdürdü. Bizim müəllif Əlaüddövlənin zahiri görünüşünü *"qəddi minarə kimi düz olan qoca kişi"* deyə təsvir edir, onu mahir və bacarıqlı siyasətçi hesab edərək yazır ki, *"məkrdə, hiyləgərlikdə və fırıldaqçılıqda lənətəgəlmiş iblisə dərs keçərdi"*[4]. O, hələ 1502-ci ildə Təbrizi yenidən ələ keçirməyə cəhd edən Əlvəndə hərbi yardım göstərmiş[5], 1504-cü ildə onun ölümündən sonra, öz sarayında saxladığı digər bir Ağqoyunlu şahzadəsi, Gödək Əhmədin oğlu Zeynalı Diyarbəkrdə taxta çıxarmaq istəmiş, lakin Diyarbəkr hakimi və mosullu tayfasının başçısı Əmir bəyin müqaviməti üzündən buna nail ola bilməmişdi[6]. 1506-cı ildə isə Ağqoyunlu Sultan Murad Əlaüddövlənin yanına gəlib, ondan sığınacaq aldı[7]. Əlaüddövlə əvvəllər

---

[1] Aləmara (Sahib), s.159-160; Aləmara (Məclis kitabxanası – 761), v.41a.
[2] Tarix-i aləmara-yi Abbasi (Tehran), s.31.
[3] Aləmara (Sahib), s.200; Aləmara (Şükri), s.65,110.
[4] Aləmara (Sahib), s.62-63,196,248; Aləmara (Şükri), s.66-67,109.
[5] Aləmara (Sahib), s.62-64; Aləmara (Şükri), s.66-67.
[6] F.Sümer. Safevî Devletinin kuruluşu, s.29; Ш.М.Мустафаев. Восточная Анатолия, с.13.
[7] M.İ.Şəmsi. Şərəf xan Bidlisinin "Şərəfnamə" əsəri, s.54.

Əlvəndə nişanladığı qızını ona ərə verdi və müttəfiqlər Təbriz taxtını İsmayıldan almaq üçün Azərbaycan üzərinə yürüş hazırlıqlarına başladılar[1]. Muradla qohum olmuş Əlaüddövlə "onu hakimiyyətə qaytaracağı barədə ümidləndirmişdi"[2].

Muradla Əlaüddövlənin ittifaqı Şah İsmayılın qəti hərəkətə keçməsinə səbəb oldu. 913 / 1507-ci ilin yayın əvvəllərində qızılbaş ordusu yürüşə başladı[3]. Ərzincana gəlib 40 gün orada qalan İsmayıl, Osmanlı sultanına Qulu bəy və Məmlük sultanına Zəkəriyya bəy adlı elçilərini göndərərək, onlara yürüşün yalnız Əlaüddövlənin cəzalandırılması məqsədi güddüyünü bildirdi[4]. Əslində, bizim müəllifin işarə etdiyi kimi, dikbaş Əlaüddövləyə "qulaqburma" verilməsi Osmanlı və Məmlüklərə də sərf edirdi[5]. II Bayəziddən icazə alan İsmayıl Qeysəriyyəyə bağlı Sarız yolundan keçməklə Əlbistana daxil oldu[6]. Venesiya mənbələrinə əsasən, İsmayıl 29 iyul 1507-ci ildə Əlaüddövlənin ölkəsinə qədəm qoymuş, oktyabr-noyabr aylarına qədər orada qalmışdı[7]. "Aləmara"da bu yürüşə cəlb olunmuş qızılbaş döyüşçülərinin 12 min nəfər olduğu yazılsa da, İtaliya mənbələri bu rəqəmin 60-70 min nəfərdən ibarət olduğunu göstərirlər[8].

Xandəmir, Əlaüddövlənin və Şah İsmayılın qüvvələri arasında üç günlük döyüş baş verdiyini qeyd etsə də, Həsən bəy Rumlu bunu inkar edərək, belə bir hadisənin olmadığını bildi-

---

[1] Aləmara (Sahib), s.197-198; Aləmara (Şükri), s.108-109. Gözəlliyi ilə məşhur olan bu qızın adı Benlü xatun idi: R.Yinanç. Dulkadir Beyliği, s.91. "Aləmara"ya görə, Muradın bu xatundan Süleyman və Həsən adlı iki oğlu olmuşdu: Aləmara (Sahib), s.563; Aləmara (Şükri), s.544. Qəffari bu məlumatı təsdiqləsə də, Muradın həmin qadından olan ilk oğlunun adını Süleyman deyil, Yaqub kimi qeyd edir: Tarix-i cahanara, v.196a.

[2] Travels of Venetians, p.55; Doğuda Venedik elçileri, s.58.

[3] Əhsənüt-təvarix (Seddon), s.93; İbn Kemâl. Tevârîh-i Âl-i Osmân, s.251.

[4] Travels of Venetians, p.108; Seyyahların gözüyle, s.85-86.

[5] Aləmara (Sahib), s.248; Aləmara (Məclis kitabxanası – 761), v.64a.

[6] İbn Kemâl. Tevârîh-i Âl-i Osmân, s.251; R.Yinanç. Dulkadir Beyliği, s.93.

[7] Travels of Venetians, p.109,197; Seyyahların gözüyle, s.86,196.

[8] Aləmara (Sahib), s.198; Aləmara (Şükri), s.109; Travels of Venetians, p.53,108; Seyyahların gözüyle, s.85; Doğuda Venedik elçileri, s.56.

rir[1]. Lakin bizim mənbəyə əsasən, həmin üç günlük döyüş, həqiqətən də, baş vermişdi. Döyüşdən əvvəl Əlaüddövlə öz oğlu Sarı Aslanı (və ya Sarı Qaplanı) şahın hüzuruna göndərib, İsmayılla Muradı barışdırmaq məqsədi ilə onların arasında *"İranı bölüşdürmək"* təklifini irəli sürdü və təbiidir ki, rədd cavabı aldı. Eyni zamanda, Əlaüddövlə və Murad da Şah İsmayılın onları itaətkarlığa çağırmasına əhəmiyyət vermədilər. Belə olduqda Əlaüddövlə *"savaş təbillərinin vurulmasını"* əmr etdi.

Rəvayətə görə, döyüşdən öncə gecə yarısı Şah İsmayıl Hüseyn bəy Lələ ilə birgə əsgərlərin əhvalından xəbər tutmaq üçün xəlvətcə ordugahı gəzməyə çıxır və təsadüfən, əmirlərdən birinin *"qılıncı biz vururuq, lakin padşahın adı ucalır"* deməsini eşidib, bərk qəzəblənir. Səhəri gün hər iki ordu səf çəkərkən İsmayıl üzünü qoşununa tutaraq, dünən gecə eşitdiyi söhbəti xatırladır və özü şəxsi qvardiyası ilə döyüşə girməyərək, əmirlərə hücuma keçməyi və şücaətlərini göstərməyi əmr edir. Bu minvalla iki gün döyüş getsə də, tərəflərdən heç biri üstün gəlmədi və nəhayət, üçüncü gün Şah İsmayıl öz qvardiyası ilə hücuma keçib, döyüşün taleyini həll etdi. Vuruşmada şah özü şəxsən bir çoxlarını qətlə yetirdi və nəticədə, *"Pərvərdigarın köməyi ilə zülqədər ordusu məğlubiyyətə düçar olub, fərar yolunu tutaraq, təfriqəyə düşdü".* Qızılbaşlar xeyli qənimət ələ keçirdilər.

Əlaüddövlə və Murad Ceyhan çayını keçərək, Durna dağına sığındılar. İsmayıl Hüseyn bəy Lələni 4 minlik qoşunla çayın sahilində mövqe tutmağa göndərdi. Əlaüddövlə də öz oğlu Sarı Aslanın qüvvələrini çayın digər sahilində yerləşdirdi. Qoşunlar 20 gün çayın müxtəlif sahillərində mövqe tutdular və nəhayət, bir gecə yarısı Sarı Aslanın qoşunu qəflətən gəmilərlə çayı keçib, qızılbaşlara həmlə etdi. Səhərə qədər davam edən döyüşdə qızılbaşlar ağır məğlubiyyətə uğradılar. Lələ

---

[1] Həbibüs-siyər, s.488; Əhsənüt-təvarix (Seddon), s.94; Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, s.15; Tarix-i aləmara-yi Abbasi (Bakı), s.94-95. Bir Osmanlı müəllifi Əlaüddövlə ilə qızılbaşların arasında üç günlük döyüşün baş verdiyini təsdiq edərək, "üçüncü gün əsr vaxtından sonra Əlaüddövlənin əsgərlərinin məğlubiyyətə uğradıqlarını və qızılbaş qoşununun müzəffər və qalib olduğunu" göstərir: Zühur-i dövlət-i Səfəviyan, v.67b.

qoşunun qalıqlarını götürərək, böyük çətinliklə mühasirəni yarıb, geri çəkilməyə nail oldu[1]. Qızılbaşların itkilərini azaltmağa çalışan rəsmi Səfəvi tarixçiləri bu döyüşdə cəmi "300 nəfərə qədər qızılbaş dilavərinin şəhidlik dərəcəsinə çatdığından" bəhs etsələr də[2], əslində itkilər qat-qat çox idi. "Aləmara" müəllifinin etirafına görə, həmin döyüşdə 2 min nəfərə yaxın qızılbaş həlak olmuşdu. Hətta geri çəkilərkən Hüseyn bəy Lələ ölüm təhlükəsi ilə üzləşmiş, yalnız öz mühafizəçisinin fədakarlığı sayəsində qurtula bilmişdi.

Lələsinin məğlubiyyəti xəbərini alan və həmin yerin 4 fərsəxliyində olan Şah İsmayıl dərhal yürüş edib, zülqədərlərin çay kənarındakı mövqeyinə həmlə etdi. Sarı Aslan çayın o tayına qaça bilsə də, onun əsgərlərinin bir qismi öldürüldü və ya çayda qərq oldu. İsmayıl çayı keçib, Əlbistana daxil oldu və sonra Durna dağını mühasirəyə aldı. Lakin *"başı asimana çatan və üzərində çox güclü istehkama malik bir qalası"* olan Durna dağını fəth etmək mümkün olmadı[3]. Həmçinin mühasirədə olan Əlaüddövlənin də vəziyyəti çətin idi. O, öz əmirləri ilə məşvərətdə qərara almışdı ki, *"gərək özümüzü bu oğlana (Şah İsmayıla) dost göstərək ki, Azərbaycana qayıdıb getsin".* Bu səbəbdən hər iki tərəf sülhə meyilli idi və elçi mübadiləsi etməklə sülh bağlamaq mümkün oldu. Razılaşmaya əsasən, Əlaüddövlə vəd etdi ki, *"mən bundan sonra Durna (Fərat) çayının sahilindən o tərəfə keçməyəcəyəm və Diyarbəkr vilayətini sizin qulamlarınıza peşkəş edərək, oradan əl çəkirəm".* O, bu barədə "qəsəmnaməçə" (and məktubu) yazıb, şaha yolladı. Tərəflər bir-birilərinə qiymətli hədiyyələr göndərdilər. Şah İsmayıl Əlaüddövləyə padşahanə xələt, tac, tumar, cıqqa, kəmərlə birlikdə qılınc və xəncər, qəba, bala-puş (palto), daşqaşla bəzədilmiş yəhəri olan at göndərdi. Əlaüddövlə də öz növbəsində Məmlük sultanı Qansu Qurinin ona bağışladığı

---

[1] Aləmara (Sahib), s.200-207; Aləmara (Şükri), s.110-116.
[2] Bax: Cahangüşa-yi xaqan, s.257.
[3] Aləmara (Sahib), s.208-209; Aləmara (Şükri), s.117-118. Səfəvi qoşunları ərzaq çatışmamazlığından və sərt soyuqdan əziyyət çəkməyə başlamışdılar: Travels of Venetians, p.109,197.

bahalı toppuzu, nizə, qalxan və s. kimi hədiyyələri, ümumi dəyəri 30 min tümən olan peşkəşləri şah üçün yolladı[1].

Şah İsmayılın 1507-ci ildə baş vermiş bu yürüşü nəticəsində Şərqi Anadolu Səfəvilər dövlətinin tərkibinə birləşdirildi. Bir sıra keçmiş Ağqoyunlu əmirləri Səfəvi hakimiyyəti altına keçdilər. Onların arasında Birəcük hakimi Abdal sultan Türkman və Diyarbəkr valisi Əmir xan Mosullu da var idi. Keçmiş Ağqoyunlu oymaqlarını öz ətrafına cəlb etməyi vacib hesab edən Şah İsmayıl şəxsən Abdal sultana məktub yazıb, onu qalasının hündürlüyünə ümid etməyərək itaətə gəlməyə çağırdı və belə olacağı təqdirdə ona mənsəb verəcəyini vəd etdi. Birəcük hakimliyinə vaxtı ikən Əlvənd tərəfindən təyin olunmuş Abdal sultan səhəri gün *"cavahir əşyalardan ibarət çoxlu töhfələr və saysız peşkəşlər götürdü, boynundan qılınc asaraq qaladan çıxıb, aləmin pənahı olan dərgaha varid oldu".* Şah İsmayıl onu və əmirlərini mükafatlandırdı, Abdal sultana qılıncı boynundan açıb belinə bağlamaq haqqında göstəriş verdi və yenidən Birəcük hakimi olmağı ona təklif etdi. Lakin Abdal sultan şahın üzəngisinin həndəvərində durub ona xidmət etməyi hakimlikdən üstün tutduğunu bildirdi. Belə olan təqdirdə şah onu öz ordusuna daxil etdi, Birəcük qalası isə Əhməd sultan Qacara tapşırıldı[2].

Səfəvi şahı üçün Əlaüddövlənin rəqibi olan Diyarbəkr hakimi Əmir xan Mosullunu öz tərəfinə çəkmək elə də çətin iş olmadı[3]. İsmayılın göstərişi ilə Durmuş xan Şamlu Əmir xanla məktublaşaraq, onu Səfəvilərin tərəfinə keçməyə razı saldı. Durmuş xan öz məktubunda Əmir xanı *"əmirlər əmiri"* adlandırır və ona böyük ehtiramla müraciət edir, *"dünya hökmdarının cah-calallı bayraqlarının bu vilayətə gəlişi"* barədə məlumat

---

[1] Aləmara (Sahib), s.210-211; Aləmara (Şükri), s.118-121. İştirak etdiyimiz son konfransların birində bu mövzuda geniş məruzə ilə çıxış etmişik: Anonim bir Safevî müellifinin gözüyle Dulkadir Beyliğinin son 20 yıllık tarihine bakış // Uluslararası Dulkadir Beyliği Sempozyumu. Kahramanmaraş, 29 Nisan – 1 Mayıs 2011.

[2] Aləmara (Sahib), s.190,199; Aləmara (Şükri), s.109-110.

[3] Mosullu tayfasının irsi başçısı olan Əmir xanın atası Gülabi bəy Sultan Yaqubun, babası Əmir bəy isə Uzun Həsənin sərkərdələrindən olmuşlar: F.Sümer. Safevî Devletinin kuruluşu, s.30.

verərək, Şah İsmayılı təmtəraqlı ifadələrlə tərifləyirdi: *"Əlahəzrət hökmdarın dövlətinin və iqbalının günəşi fələk üfüqündən doğmuş və parlamışdır".* Bu müraciətin ailələri arasındakı keçmiş dostluq rabitəsindən irəli gəldiyinə işarə edən Durmuş xan, şahın keçmiş Ağqoyunlu əmirlərinin öz xidmətinə cəlb edilməsinə böyük önəm verdiyini qeyd etdikdən sonra əsas mətləbə gələrək, Əmir xanı Səfəvilərin tərəfinə keçməyə çağırır: *"Hər halda, əgər o uca məkanlı xan etiqad üzündən ulu dərgaha gələrsə, yəqin bilirəm ki, kama çatmış hökmdar ona qohumları və yoldaşları ilə bərabər öz himayəsinin kölgəsində yer verəcək, onlara nisbətdə şəfqətlər edəcəkdir. Mən bəndə də öz növbəmdə öhdəlik götürürəm ki, hər bir cəhətdən xatircəm olunuz. Yox, əgər bu sözlərə qulaq asmasanız, işlər başqa cür olacaqdır ki, bunun da səbəbini bizdə axtarmayasınız. Daha artıq vaxtınızı almaq istəmirəm. Günləriniz xoş keçsin! Vəssəlam!".*

Səfəvi hakimiyyətini həvəslə qəbul edən Əmir xan özünün cavab məktubunda Durmuş xana *"yüksək şöhrətli xan"* deyə xitab edərək yazırdı: *"İtaətdən və qulluqdan boyun qaçırmaq heç vaxt bu bəndənin xəyalından keçməmişdir və keçməyəcəkdir. Mən ulu dərgaha gəlməkdən yayınmaq fikrində deyiləm. Yüksək məqamınızdan rica edirəm ki, xoşbəxt taleli hökmdarı bir neçə gün şikar bəhanəsi ilə buralarda saxlayasınız ki, bu həqir, peşkəşlər sərəncam edib, xidmətə müşərrəf olsun".* Bir neçə gün sonra Əmir xan və oğulları çoxlu peşkəşlərlə şahın düşərgəsinə yollandılar. Şahın əmri ilə Bayram xan Qaramanlu, Hüseyn bəy Lələ, Abdal bəy Dədə, Xadim bəy Xüləfa, Mənsur bəy Qıpçaq, Həsən bəy Halvaçıoğlu və Durmuş xan Şamlu, Əmir xanın yoluna çıxıb, *"onu tam hörmət, ikram və ehtiramla qarşıladılar".* Şah İsmayıl onu yüksək mənsəb sayılan möhürdar vəzifəsinə təyin etdi, onu ordugahda qarşılayıb, *"padşahanə nəvaziş göstərdi"*[1]. Lakin Əmir xanın qardaşı, Qara-Həmid qalası hakimi Qayıtmaz bəy Səfəvilərə tabe olmaqdan imtina etdi və qətlə yetirildi[2]. Şah İsmayılın fər-

---

[1] Aləmara (Sahib), s.190-193; Aləmara (Şükri), s.121. Bu görüş Malatyada baş tutmuşdu: Travels of Venetians, p.109; Seyyahların gözüyle, s.86.

[2] Aləmara (Sahib), s.196; Aləmara (Şükri), s.123.

manı ilə Məhəmməd xan Ustaclu Diyarbəkr hakimi təyin edildi[1]. Beləliklə, *"tamam Diyarbəkr mülkü Azərbaycan məmləkətinin əlavəsinə çevrildi"*[2].

Diyarbəkrin Səfəvi dövlətinin tərkibinə birləşdirilməsi böyük əhəmiyyət kəsb edən hadisə idi. Bu məsələni şərh edən O.Əfəndiyev yazır: "Babası Uzun Həsənin vətəni Diyarbəkrin Qızılbaş dövlətinin hakimiyyəti altına girməsi Şah İsmayıl üçün çox önəmli idi. Çünki İsmayıl özünü Ağqoyunlu dövlətinin qanuni varisi sayırdı"[3].

Şah İsmayıl Anadolu yürüşündən Təbrizə qayıdarkən məşhur salnaməçi Şərəf xan Bidlisinin babası, Bidlis hakimi Əmir Şərəf Kürd də Səfəvilərə tabe oldu. O, əvvəlcə şaha itaət ərizəsi göndərdi, daha sonra çoxlu peşkəşlərlə Bidlisin 3 mənzilliyində şahın hüzuruna gələrək, öz itaətini bildirdi. *"Əmir Şərəf öz oğulları və qohumları ilə birlikdə o həzrətin üzəngisini öpmək şərəfinə müşərrəf oldu"*[4]. Lakin o, sonradan Səfəvilərə xəyanət edərək, Osmanlıların tərəfinə keçmiş, hətta Sultan Səlimin Azərbaycana yürüşündə iştirak etmişdi. M.İ.Şəmsi[5] Şah İsmayılı kürdlərə qarşı sərt siyasət yürütməkdə ittiham etsə də, bu cür siyasətə kürd əmirlərinin Səfəvi dövlətinə qarşı satqınçılıq mövqeyi səbəb olmuşdur. Həmin hadisələrin şahidi olmuş bir venesiyalı tacir yazır ki, "kürdlər itaətsiz və sözəbaxmayandırlar və onlar qırmızı başlıqlar geymələrinə baxmayaraq, qəlbən Səfəvi tərəfdarı deyillər, yalnız zahirən özlərini belə göstərirlər". Həmin müəllif digər bir yerdə qeyd edir ki, "iranlılar Səfəvi doktrinasını qəbul etdikləri halda, kürdlər onu qəbul etməmişlər və qırmızı başlıqlar geymələrinə baxmayaraq, hələ də qəlblərində onlara (Səfəvilərə – N.M.) öldürücü nifrət bəsləyirlər"[6]. Sünni məzhəbli kürd əmirləri Osmanlılara meyilli idilər və fürsət düşdükcə Səfəvilərə qarşı qiyam qaldırırdılar.

---

[1] Aləmara (Sahib), s.192,205; Aləmara (Şükri), s.110,115,121.
[2] Aləmara (Sahib), s.625.
[3] O.Efendiyev. Sultan II. Bayezid ve Şah İsmail, s.93.
[4] Aləmara (Şükri), s.121. "Aləmara"nın Şükri nüsxəsində Bidlisin adı səhvən "Tiflis" yazılsa da, Məclis kitabxanasına aid nüsxədə (9421, v.5b-6a) doğru olaraq "Bitlis" (Bidlis) qeyd edilmişdir.
[5] M.İ.Şəmsi. Şərəf xan Bidlisinin "Şərəfnamə" əsəri, s.67.
[6] Travels of Venetians, p.152,157; Seyyahların gözüyle, s.137,143.

Şərqi Anadolu ələ keçirildikdən sonra Məhəmməd xan Ustacluya verilmiş Diyarbəkr vilayəti Səfəvi dövlətinin hərbi-strateji baxımdan ən önəmli ərazilərindən birinə çevrildi. Məhəmməd xanın üzərinə ağır yük düşürdü: o, həm Səfəvi hakimiyyətini tanımayan Ağqoyunlu əmirlərinə, həm qiyamçı kürd tayfalarına, həm Zülqədər bəyliyinin aramsız basqınlarına qarşı mübarizə aparır, bəzən isə Osmanlı və Məmlük dövlətlərinə qarşı sərhəd münaqişələrinə girməli olurdu. "Aləmara"nın göstərdiyi kimi, Şah İsmayıl Azərbaycana qayıtdıqdan sonra Əlaüddövlə onunla bağladığı müqaviləni pozdu və 1508-ci ildə onun oğullarının başçılıq etdikləri zülqədər qoşunları iki dəfə Diyarbəkr üzərinə həmlə etsələr də, hər dəfə Məhəmməd xan və onun qardaşı Qaraxan tərəfindən ağır məğlubiyyətə uğradıldılar. Bu yürüşlərdə Əlaüddövlənin oğulları Sarı Qaplan, Ərdüvanə, Məhəmməd (Əhməd) və Kor Şahrux həlak oldular[1]. Məhəmməd xan Ustaclu bu qələbələr barəsində şaha "fəthnamələr" yazmış, ona Əlaüddövlənin oğullarının başlarını göndərmişdi.

İtaət etməyən bəzi keçmiş Ağqoyunlu əmirlərinə qarşı fəal mübarizə aparan Məhəmməd xan Ustaclu kürdlərin mahmudi tayfasının başçısı İsgəndərin qiyamını da yatırdı və onun 7 minlik qoşununu darmadağın etdi[2]. İsgəndər bəy Münşi bu döyüş barədə bizim müəllifin məlumatına oxşar bilgi verir: "O ətrafdakı kürdlər qızılbaş ordusuna qarşı çoxlu basqınlar etdilər. Xan Məhəmməd kürdlərin üstünə getdi. Onların arasında böyük bir vuruşma oıdu. Kürdlərdən 7 min nəfər öldürüldü. Xan Məhəmməd kürdlərlə hərbdən qalib və müzəffərcəsinə qayıt-

---

[1] Aləmara (Sahib), s.219-231; Aləmara (Şükri), s.140-148; R.Yinanç. Dulkadir Beyliği, s.93-94. "Aləmara"ya görə, Kor Şahrux Zülqədərin bir gözü kor idi. Döyüş zamanı onun 12 yaşlı oğlu qızılbaşlar tərəfindən əsir alınmışdı. Başqa əsərlərdən məlumdur ki, həmin döyüşdə Şahruxun iki oğlu (Məhəmməd və Əli) Şah İsmayıla əsir düşmüş, şah onlara əmirlik vermiş və onlar Səfəvi dövlətinin xidmətində olmuşdular. Lakin bu iki əmir Sultan Süleymanın İraqeyn səfəri zamanı (1534-35) Səfəvilərdən üz döndərib, Osmanlıların tərəfinə keçmişdilər: F.Sümer. Safevî Devletinin kuruluşu, s.31,49.

[2] Aləmara (Sahib), s.214-218; Aləmara (Şükri), s.146-147.

dı"[1]. Ümumiyyətlə, Məhəmməd xanın Şərqi Anadoluda gördüyü tədbirlər həmin ərazidə Səfəvi hakimiyyətinin, müvəqqəti də olsa, möhkəmlənməsinə səbəb oldu. O, cəsur döyüşçü və istedadlı sərkərdə olmasına baxmayaraq, bacarıqlı siyasətçi deyildi. Bölgəyə hakim təyin edildiyindən bəri sadəcə qılıncının gücü ilə hökm etməyə çalışdı və qarşısına çıxan hər kəslə savaşdı.

### *F) İraq-i Ərəbin fəthi*

914 / 1508-ci ildə Şah İsmayıl Həmədan yaylaqlarında olarkən öz elçisi Xəlil bəyi hədiyyələrlə Bağdad hakimi Barik (Bayrək) bəy Pornakın yanına göndərərək, ondan itaət tələb etdi. Barik bəy təklifi yaxşı qarşıladı, hətta qızılbaş tacı örtərək, Səfəvilərin tərəfinə keçdiyini bildirdi və öz adamlarından Əbu-İshaq Şirəçini Xəlil bəylə birgə Şah İsmayılın hüzuruna yolladı. Lakin İsmayıl Barikin səmimiliyinə inanmayaraq, onun itaət etmək üçün şəxsən özünün dərgaha gəlməsinin zəruriliyini bildirdi. Bu tələbə rədd cavabı verən Barik müdafiə hazırlıqlarına başladı[2]. Şah İsmayıl Bağdad üzərinə yürüşə çıxdı. O, Mahidəşt adlı yerə çatdıqda Hüseyn bəy Lələnin komandanlığı ilə 5-6 minlik qoşunu irəli göndərərək, özü də əsas qüvvələrlə onların ardınca hərəkət etdi. Qarapu adlı mövqeyə gələn Hüseyn bəy Lələ şahın adından Barikə daha bir müraciət edərək, onu əlverişli şərtlə tabe olmağa çağırdı: *"Barik sultana elan edirik ki, cah-calal bayraqları bu vilayətə gəlirlər. Sizin qalaya qapanmağınız və mühasirədə oturmağınız yaxşı deyildir. Gərəkdir ki, itaət edib, qaladan çıxasınız. Əgər on iki imamın haqq dininə və məzhəbinə rəvac verən bu padşaha tabe olsanız, İraq-i Ərəbin hakimi olaraq qalacaqsınız".* Bu təklifin müqabilində Barikdən yenə də rədd cavabı alındı. İraqdakı Həzrət Əli məqbərəsinin mütəvəllisi olan məşhur şiə ruhanisi Seyid Məhəmməd Kəmunə şahla dost olmağı məsləhət

---

[1] Tarix-i aləmara-yi Abbasi (Bakı), s.95. Məhəmməd xan Ustaclunun kürd əmirlərinə qarşı əməliyyatları barədə venesiyalı tacirin səyahətnaməsində də maraqlı faktlar vardır: Travels of Venetians, p.152-154; Seyyahların gözüyle, s.137-139.
[2] Həbibüs-siyər, s.492.

görsə də, Barik dərhal onu həbs etdirdi. Hüseyn bəy Lələnin başçılıq etdiyi ön dəstələrə zərbə vurmaq üçün şəhərdən çıxan Barik Şah İsmayılın ordusunun yaxınlaşdığını gördükdə müqavimətin mənasız olduğunu anlayıb aradan çıxdı. Bu zaman Bağdadın bir sıra sakinləri "şahısevən" olub, Kəmunəni zindandan azad etdilər və geri çəkilən Bariki şəhər darvazasından içəri buraxmadılar. Sakinlər Barikin şəhərə sığınacağı təqdirdə şahın şəhəri mühasirəyə alacağını və bu döyüşlərdə əhalinin ziyan çəkəcəyini düşündükləri üçün belə bir addım atmalı oldular. Barikin 10 minlik qoşununun çox hissəsi qaçıb dağılışdı, yanında cəmi 2-3 min nəfər qaldı. Onlar geri çəkilərkən Şətt-i Bağdad körpüsünü uçurtdular. Lakin İsmayıl Şirvana yürüş zamanı olduğu kimi yenə də özünü çaya vurdu və 12 minlik ordu onun ardınca Dəclə çayını keçib, Bariki təqib etməyə başladı. Pornaklar Barikdən üz döndərməyə davam edirdilər və həmin vaxt onun yanında 500 nəfər qalmışdı. Fərat çayı sahillərində qızılbaşlar Barikin qoşununun qalıqlarına çatıb, onları darmadağın etdilər. Vəziyyətin çətinliyini görən Barik *"on nəfərlə birlikdə elə fərar etdi ki, heç kəs onları görmədi".* Əsir tutulanlardan *"hər kəs ki canü-dildən Həzrət Əmirülmöminin Əleyhissəlamın şiəsi oldu, onlara aman verildi, qalanları isə qətlə yetirildi"*[1].

25 cəmadiyülaxir 914 / 21 oktyabr 1508-ci ildə Şah İsmayıl Bağdad şəhərinə daxil oldu. Əhali *"dövlət – Şah İsmayıl Bahadır xanın dövlətidir, qılınc – qızılbaş qazilərinin qılıncıdır"* deyərək küçələrə töküldü. Şahın fərmanı ilə Xadim bəy Xüləfa Bağdad hakimi təyin edildi[2]. Bununla da Şah İsmayılın öz babası Uzun Həsənin məmləkətinə sahib olmaq istiqamətində apardığı fəaliyyət əsasən başa çatdırıldı. Abbasilər sülaləsindən olan keçmiş ərəb hökmdarlarının 5 əsr ərzində paytaxtı olmuş Bağdad şəhərinin öz türkman döyüşçüləri tərəfindən

---

[1] Aləmara (Sahib), s.161-164; Aləmara (Şükri), s.123-127. Barik sonradan Osmanlıya sığınmış və "axırda cismən zəifləyib, Məkkədə mücavir olmuş və orada vəfat etmişdi": Qızılbaşlar tarixi, s.11.

[2] Aləmara (Sahib), s.165; Əhsənüt-təvarix (Seddon), s.103. Digər bir məlumata görə, Şah İsmayıl Bağdada cəmadiyülaxir ayının 20-də daxil olmuşdu: Tarix-i aləmara-yi Abbasi (Bakı), s.99; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.153.

fəthinə xüsusi əhəmiyyət verən Şah İsmayıl bu tarixi hadisəni bir şeirində vəsf etmişdir:

"Yetdikcə tükənir ərəbin kuy-i məskəni,
Bağdad içində hər necə kim türkman qopar"[1].

Bu beytə istinad edən M.Qasımlı haqlı olaraq yazır ki, "Xətai özünün mənəvi kökünü Həzrət Əliyə bağlasa da, ərəb mənşəli olmağı qəbul etmir və ərəblərə təəssübkeşlik hissi ilə yanaşmır". Tədqiqatçının fikrincə, yuxarıda qeyd olunan "misralar onun məhz türk-türkman oymaqlarından qürur duyduğunu açıq şəkildə göstərməkdədir"[2].

Mühüm şiə mərkəzlərinin yerləşdiyi İraqın fəthi dini-ideoloji cəhətdən də önəmli idi. Şah İsmayıl Nəcəf, Kərbəla, Samirə və Kazimeyndəki şiə ziyarətgahlarında olub, həmin məqbərələrə qiymətli hədiyyələr bağışladı, həmçinin orada bəzi təmir-tikinti işləri apardı[3]. Şah həmçinin İraq-i Ərəbdə əvvəllər mövcud olmuş bir suvarma kanalını bərpa etdirib, onu Həzrət Əlinin Nəcəfdəki məqbərəsinə vəqf etdi. Bu kanal "Nəhr-i şahi" adı ilə məşhurlaşdı[4].

### *G) Luristan və Xuzistan əmirliklərinin tabe edilməsi*

1508-ci ilin sonlarında İsmayılın ordusu İraqdan İranın cənub-qərb bölgələrinə daxil oldu. Həmin regionda Səfəvi hakimiyyətini tanımayan iki müstəqil əmirlik mövcud idi: Məlikşah Rüstəmin başçılığı ilə mərkəzi Xürrəmabad olan Luristan əmirliyi və paytaxtı Hüveyzədə yerləşən, Sultan Fəyyaz tərəfindən idarə olunan Xuzistandakı Müşəşə əmirliyi. Xandəmirin və Bicənin məlumatına görə, Şah İsmayıl Hüveyzə üzərinə gedərkən yolüstü Məlikşah Rüstəmə qarşı Əmir Nəcməddin Məsud, Bayram bəy Qaramanlu və Hüseyn bəy Lələ başda olmaqla 10 minlik qoşun göndərmiş, özü isə əsas qüvvələrlə birgə Müşəşə ordusunu məğlub edib, Hüveyzəni tutmuşdu.

---

[1] Şah İsmayıl Xətai. Əsərləri. I c. Bakı, 1975, s.154.
[2] M.Qasımlı. Şah İsmayıl Xətayinin poeziyası. Bakı, 2002, s.63.
[3] Aləmara (Sahib), s.166-168; Aləmara (Şükri), s.127-129.
[4] Zühur-i dövlət-i Səfəviyan, v.67b.

Daha sonra Məlikşah Rüstəm onun Şüştər yaxınlığındakı düşərgəsinə gəlib itaətini bildirmişdi[1].

Lakin bizim müəllifin şərhinə əsasən, Şah İsmayıl özü şəxsən əvvəlcə Rüstəmin, sonra isə Fəyyazın üzərinə getmişdi. Mənbədə qeyd olunur ki, Bağdadın fəthindən sonra Xürrəmabad bölgəsində hökmranlıq edən və 40 min evlik lur tayfasının başçısı olan Məlikşah Rüstəm, Səfəvi hakimiyyətini tanımaqdan imtina etdi. Bu irandilli tayfa şiə məzhəbli olub, heç bir dövlətin birbaşa tabeçiliyinə keçməmiş, hətta fürsət düşdükdə Qaraqoyunlu və Ağqoyunlulara da xərac verməmişdi. Tacir karvanlarına aramsız basqınlar təşkil edən lurlar bölgədən keçən ticarət yollarını iflic vəziyyətinə salmışdılar.

Zəncir qalasına gələn Şah İsmayıl oradan Luristan hökmdarına qarşı əməliyyatlara başladı. Qızılbaş ordusunun yaxınlaşdığını eşidən Rüstəm öz sərkərdəsi olan əmisi oğlu Şah-Mənsuru 15-20 minlik qoşunla yolun üstünü kəsməyə göndərdi. Şah İsmayıl isə Həsən bəy Halvaçıoğlunu qızılbaşların 5 min nəfərlik ön dəstəsinə komandan təyin edib irəli yolladı. Əksəriyyəti piyada olan və dağlarda yaxşı döyüşə bilən lurlardan fərqli olaraq, qızılbaşların hamısı süvari olduqlarından və düzənlikdə döyüşməyə alışdıqlarından onlar üçün dağlarda hərbi əməliyyat aparmaq çətin idi. Qızılbaşları dağlara cəlb edən və yüksəkliklərdə əlverişli mövqe tutmuş lurlar döyüşün əvvəlində Səfəvi ordusunu ağır itkiyə məruz qoydular və qızılbaşlardan 500 nəfəri qətlə yetirdilər. Lakin qızılbaş komandanlığı “Turan taktikası” və ya “qurd oyunu” adlanan qədim türk savaş üsuluna uyğun hərbi manevr edərək, yalandan yarım fərsəx geri çəkilib, lurları tələyə salmağa nail oldu. Belə ki, lur ordusunun yalnız ¼ hissəsi süvari, qalanları isə piyada idilər. Qızılbaşlar geri çəkilərkən onları təqib edən lurların piyadaları öz süvarilərindən xeyli arxada qaldılar, bəzi lur döyüşçüləri qızılbaşların atıb getdikləri malları toplamağa başladılar və lur ordusu arasında böyük bir nizamsızlıq və pərakəndəlik yarandı. Qızılbaşlar lur süvarilərini məğlub etdikdən sonra rəqibin piyadalarının da öhdəsindən gəldilər. Nəticədə, lurlardan minlərlə döyüşçü qətlə yetirildi. Qolundan yaralanmış Şah-

---

[1] Həbibüs-siyər, s.496-499; Cahangüşa-yi xaqan, s.293-296.

Mənsur qoşununun qalıqları ilə meydandan qaçdı və özünü zorla yaxınlıqdakı dağlara yetirdi.

Bu qələbədən sonra Şah İsmayılın başçılıq etdiyi əsas qüvvələr gəlib çatdı. Qızılbaş ordusunun Xürrəmabad üzərinə yeridiyini görən Rüstəm öz paytaxtını tərk edərək, Sədmərə dağına çəkildi. Xürrəmabadı döyüşsüz ələ keçirən İsmayıl Sədmərəyə hərəkət etdi. Bu yürüşdə Durmuş xan Şamlu, Həsən bəy Halvaçıoğlu, Məntəş sultan Ustaclu, Div sultan Rumlu, Mirzə Məhəmməd Talış, Mənsur bəy Qıpçaq, Hüseyn bəy Lələ, Abdal bəy Dədə, Çayan sultan Ustaclu, Köpək sultan Ustaclu, Badımcan (Badincan) sultan Rumlu kimi adlı-sanlı qızılbaş sərkərdələri, həmçinin şahın qardaşı İbrahim mirzə də iştirak edirdi. Şah İsmayıl Sədmərəyə yaxınlaşıb, Rüstəmə məktub yazaraq, özünün Həzrət Əli nəslindən olduğunu, şiəliyə rəvac verdiyini vurğulayaraq, şiə məzhəbli Luristan hökmdarını itaət etməyə və *"qalxıb, xəlayiqin pənahı olan dərgaha gəlməyə"* dəvət etdi. Lakin Rüstəm vaxtı ikən Şeyx Heydərin qulamlarından olmuş qızılbaş elçisi Fərrux ağaya şahın təklifini rədd etdiyini bildirdi. Bu cavabdan sonra şahın başçılığı altında qızılbaş ordusu piyada olub, çətin, lakin qəti əməliyyat nəticəsində Sədmərəni fəth etdi. Əsir alınmış Rüstəm bağışlanmasını xahiş edərək, Səfəvi hakimiyyəti altına keçdiyini bildirdi və İsmayıla biət etdi. Şah İsmayıl onu əfv edərək, Luristan hakimliyinə təsdiq etdi, həmçinin ona hədiyyələr bağışlayaraq, onun saqqalının cavahirlə bəzədilməsini əmr etdi. Rüstəm də öz növbəsində şaha çoxlu peşkəş (cavahir, at, qatır, dəvə, qızıldan və gümüşdən hazırlanmış, daş-qaşla bəzədilmiş məclis ləvazimatı, üzərinə qiymətli qaşlar vurulmuş yəhər və yüyən) təqdim etdi[1].

Xuzistandakı Müşəşə hərəkatının ram edilməsi Şah İsmayıl üçün daha vacib idi. Bədəvi ərəb mühitində yaranmış Müşəşə hərəkatının banisi Seyid Məhəmməd ibn Fəllah 1441-ci ildə öz dövlətini qurmuş və ondan sonra nəsli həmin bölgədə hökmranlıq etmişdi. Müasir italiyalı şərqşünas B.S.Amorettinin

---

[1] Aləmara (Sahib), s.171-179; Aləmara (Şükri), s.130-135.

tədqiqatından bəlli olur ki, Əliallahi əqidəsində olan Müşəşə liderləri ifrata vararaq, hətta özlərini ilahiləşdirirdilər[1].

"Aləmara"da Müşəşə hərəkatının dini inancları ilə bağlı unikal məlumatlar mövcuddur. Bu baxımdan Müşəşə barədə İsmayılı məlumatlandıran Məlikşah Rüstəmin informasiyası maraq doğurur: *"Cənub vilayətində bir ölkə var ki, oraya Hüveyzə deyərlər. Oranın ərəb camaatı bundan əvvəl Əliallahi dininə etiqad edirdi. İndi isə onların arasında Məlik Fəyyaz Müşəşəyi adlanan bir şəxs peyda olub ki, Firon kimi tanrılıq iddiasına düşüb və hal-hazırda ona sitayiş edirlər".* Şiəliyin isna-əşəri cərəyanını rəsmi dövlət dini elan etmiş Şah İsmayıl üçün seyid mənşəli bir sülalənin başçılıq etdiyi belə ifrat hərəkat ideoloji cəhətdən olduqca təhlükəli idi.

Yerli şəraiti yaxşı bilən lurların bələdçiliyi ilə Xuzistana daxil olan qızılbaşlar elə ilk döyüşdəcə ərəb ordusunu ağır məğlubiyyətə uğratdılar. Döyüşün əvvəlində Hüseyn bəy Lələnin çərxçi dəstəsi ərəblərə həmlə etdi. Ərəb sərkərdələri Neəm ibn Numan və Sultan Məni başda olmaqla 5 min ərəb döyüşçüsü qətlə yetirildi. Fəyyazın döyüşə əlavə qüvvələr atması da onun vəziyyətini xilas edə bilmədi. Şah İsmayılın başçılığı altında ehtiyatda durmuş qızılbaş ordusu qəti həmlə ilə ərəb qoşunlarını darmadağın etdi. Səfəvi hökmdarının şəxsi igidliklərindən bəhs edən "Aləmara" müəllifi yazır ki, *"o həzrət atını mahmızladı, iti qılıncının qəbzəsinə əl ataraq, o bədbəxtlərin başlarına vurmağa başladı, qılınc zərbi ilə həmin qoşun dəryasını yardı və onların hamısını tar-mar eylədi; elə bil ki, tülkü sürüsünə aslan soxulmuşdu".* Döyüşün gedişində bir sıra ərəb döyüşçülərini öldürən İsmayıl, Fəyyazın kürəkəni Nəimin başına qılınc zərbəsi vurub, onu qətlə yetirdi, həmçinin Pəhləvan Möhsün adlı ən məşhur ərəb sərkərdələrindən birini atdan aşırıb, onu yaxınlıqda olan şamlu tayfasının bir döyüşçüsünə tapşırdı.

Vahiməyə düşən Fəyyaz ordusunun qalıqlarını götürüb, Hüveyzə şəhərinə çəkildi. Hüveyzədə keçirilən müşavirədə ərəb sərkərdələri sabah səhranın dərinliklərinə çəkilib gözdən itməyi, şahın Hüveyzəyə yeni hakim təyin edib getməsindən

---

[1] The Cambridge History of Iran, vol.VI, p.625-629.

sonra yenidən hücuma keçib Hüveyzəyə daxil olmağı planlaşdırdılar. Lakin belə bir variantın mümkünlüyünü anlayan İsmayıl gecə ikən səhraya gedən yolu bağladı. Səhəri gün baş vermiş həlledici döyüşdə ərəb ordusu tamamilə darmadağın edildi[1]. Döyüşün qızğın çağında Fəyyazla üzləşən İsmayıl onu qətlə yetirdi: *"Məlik Fəyyazın gözü o həzrətə sataşdıqda onu tanımadı, gördü ki, bir qızılbaş cavanı ərəblərə qılınc vuraraq, cəsarətlə döyüşür. O həzrətin üzərinə gəldi və öz nizəsini onun mübarək sinəsinə tuşladıqda o həzrət onun nizəsini özündən rədd edib, öz nizəsini Məlik Fəyyazın qarnına elə soxdu ki, nizənin ucu o kafirin arxasından çıxdı və onu yəhərindən qaldırıb yerə elə çırpdı ki, onun sümüklərinin hamısı sındı".* Bu qələbə nəticəsində Xuzistanı tabe edən qızılbaş ordusu xeyli qənimət ələ keçirərək, Təbrizə yollandı. Şah İsmayıl qayıdarkən Məlik Fəyyazın qohumlarından Səfəvi tərəfdarı olan Sultan Vəhhab adlı birisini Xuzistana vali təyin etdi[2]. Bununla da Müşəşə hökmdarlarının Xuzistandakı müstəqil hakimiyyətinə son qoyuldu və Səfəvilərin vassalı olmuş Müşəşə hakimlərinin dövrü başladı[3].

1509-cu ilin sonlarında Şah İsmayıl bac-xərac ödəməkdən imtina edən Şirvanşah II İbrahım Şeyxşahın (1502-24) üzərinə yürüş edərək, Şirvanın Səfəvilər dövlətindən asılılığını gücləndirdi[4]. Beləliklə, alman tarixçisi H.Braunun qeyd etdiyi kimi, "1501-ci illə 1510-cu il arasında Səfəvi orduları Şimali və Qərbi İranda, Mesopotamiyada və Şərqi Anadoluda Ağqoyunlular tərəfindən idarə olunan səltənətə ərazicə uyğun gələn bir

---

[1] "Aləmara"da qızılbaşların Müşəşə ərəblərinə qarşı döyüşdəki əhval-ruhiyyəsinə həsr olunmuş şeir əksini tapıb (Aləmara, Sahib, s.183; Aləmara, Məclis kitabxanası – 761, v.47a):

| | |
|---|---|
| "روز جنگست جنگ باید کرد | "Döyüş günüdür, hərb etmək gərəkdir, |
| کوشش نام و ننگ باید کرد | Çalışıb ad-sana yetmək gərəkdir, |
| جنگ با این سگان روبه باز | Bu tülkübaz köpəklərlə döyüşə |
| همچه شیر و پلنگ باید کرد" | Şir-ü pələng kimi getmək gərəkdir". |

[2] Aləmara (Sahib), s.179-188; Aləmara (Şükri), s.135-138.

[3] Fəqət H.R.Roemer Sultan Fəyyazın qardaşı Seyid Fəllahın Səfəvi vassalı olan ilk Xuzistan hakimi olduğunu yazmışdır: The Cambridge History of Iran, vol.VI, p.217.

[4] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.67.

məmləkət fəth və bərqərar etdilər" ki, bütün bu imperiyanın da ürəyi, istinadgahı (ingiliscə: "heartland") Azərbaycan idi[1]. Bununla da Şah İsmayılın öz dövlətini Ağqoyunlu sərhədləri çərçivəsində qurub möhkəmləndirmək uğrunda apardığı mübarizə öz uğurlu sonluğuna çatmış və tarix səhnəsində metropoliyası Azərbaycan olan yeni bir türk dövləti – Qızılbaş-Səfəvi imperatorluğu peyda olmuşdu.

## 2.3. I ŞAH İSMAYILIN QONŞU DÖVLƏTLƏRLƏ MÜNASİBƏTLƏRİ

### *A) I Şah İsmayılın xarici siyasətinin başlıca cəhətləri*

Ərəb xilafətinin tənəzzülü, xüsusən də səlcuq yürüşləri dövründən başlayaraq müsəlman şərqinin böyük bir hissəsində siyasi hakimiyyət türklərin əlinə keçmişdi. Misirdən tutmuş Hindistana və Xətaya qədər geniş bir ərazidə hökmranlıq edən müxtəlif türk sülalələri daim bir-biri ilə rəqabət halında olmuş, bu isə vaxtaşırı hərbi toqquşmalara aparıb çıxarmışdır. XVI əsrin əvvəllərində islam şərqində dörd türk xanədanı söz sahibi idi: Osmanlılar, Məmlüklər, Səfəvilər və Şeybanilər. Şah İsmayılın öz babası Uzun Həsənə məxsus olmuş məmləkəti bütünlüklə ələ keçirməsindən sonra Səfəvilər dövləti qərbdə Osmanlılar və Məmlüklər, şərqdə isə Şeybanilərlə həmsərhəd olmuşdu. Əslində gənc Səfəvi dövlətinin belə sürətlə genişlənməsi və inkişaf etməsi zəngin Azərbaycan, İran, İraq ərazilərini zəbt etməyi planlaşdıran Şeybanilər və Osmanlılar üçün arzuolunmaz bir sürpriz idi. Şah İsmayılın qonşu dövlətlərlə münasibətlərdəki mövqeyi onun babası Ağqoyunlu Uzun Həsənin xarici siyasəti ilə, demək olar ki, tam eyni idi. Uzun Həsən də şərqdəki Teymurilər və qərbdəki Osmanlılarla müharibələr aparmış, hərbi müttəfiqlik yaratmaq məqsədi ilə Qərbi Avropa dövlətləri, xüsusən də Venesiya ilə sıx əlaqələr sax-

[1] The Muslim World: A Historical Survey, part III: The Last Great Muslim Empires (translated and adaptations by F.R.C.Bagley). Leiden, 1969, p.184-185.

lamış, Gürcüstana hərbi səfərlər etmişdir və s. Bütün bu aspektləri eyniylə Şah İsmayılın da xarici siyasətində görmək mümkündür. Sadəcə olaraq, Səfəvilər sülaləsi hakimiyyətə gəldikdən sonra qonşu dövlətlərlə münasibətlərdə bütün bu siyasi cəhətlərlə yanaşı, dini-ideoloji amil də dövriyyəyə daxil olmuşdu.

İslamın sünni cərəyanının bayraqdarı olan Osmanlı və Şeybani dövlətləri rəsmi şiə məzhəbli Səfəvilər dövlətini təkcə hərbi-siyasi baxımdan deyil, ideoloji cəhətdən də özlərinə ciddi rəqib hesab edirdilər. Müasir italiyalı tarixçi A.Bauzani yazır ki, "din bu mübarizədə mühüm rol oynayırdı; özbək Şeybanilər də Səfəvilərin qərbdəki düşmənləri olan Osmanlılar kimi sünni idilər, buna baxmayaraq, bu üç qruplaşmanın hər biri türk mənşəli idi"[1]. Eyni zamanda, Səfəvilər də geniş şiə təbliğatı aparmaqla özlərinə rəqib hesab etdikləri qonşu sünni sülalələrinin hakimiyyətini sarsıtmağa çalışır, şiə əqidəsindən onlara qarşı ideoloji silah kimi istifadə edirdilər. Seyid olduqlarını iddia edərək, hakimiyyət məsələsində "vilayət" (peyğəmbər nəslinin hökmranlıq sürməsi) prinsipini sərt şəkildə ortaya qoyan Səfəvilər özlərindən savayı islam şərqindəki digər müsəlman sülalələrinin hakimiyyətini qeyri-qanuni sayırdılar. Öz şeirlərində peyğəmbər və imamlar nəslinə mənsubluğunu qabardan Şah İsmayıl "müsəlmanəm deyənə rəhbərəm mən" misrasından[2] da göründüyü kimi, özünü bütün islam aləminin lideri hesab edirdi. Bəzi islamşünas Qərb alimləri doğru qeyd edirlər ki, "Səfəvi xanədanı Məhəmməd peyğəmbərin yeganə legitim varisi olduğunu iddia edirdi və beləliklə də, bütün yaxşı müsəlmanların onların rəhbərliyinə tabe olmalarını tələb edirdi. Bu iddia, əlbəttə ki, bütün digər müsəlman hökmdarlarını onların düşməninə çevirmişdi"[3].

---

[1] A.Bausani. The Persians from the Earliest Days to the Twentieth Century. London, 1971, p.138.

[2] Xətai külliyyatı (Tehran), s.254; Hatâî külliyatı (İstanbul), s.290; V.Minorsky. The Poetry of Shah Ismail I, p.1037a.

[3] Readings in World History, vol. VI: The Islamic World. Ed. by W.H.MacNeill and M.R.Waldman. Oxford University Press, 1973, p.373.

Tarixi faktlar göstərir ki, bu münaqişələrin başlamasında ilk addım məhz Osmanlı və Şeybani dövlətləri tərəfindən atılmışdır və həmin dövlətlərin Səfəvi ərazisinə olan işğalçılıq iddiaları müharibələrin baş verməsində mühüm rol oynamışdır. Etiraf etmək lazımdır ki, qonşu dövlətlərin işğalçılıq planlarına qarşı Şah İsmayıl heç də təkcə müdafiə olunmaq fikrində deyildi, onun özünün də geniş işğalçılıq planları mövcud idi. O, ata xətti (Ərdəbil şeyxləri) tərəfdən Məhəmməd peyğəmbərə, ana xətti (Ağqoyunlular) tərəfdən əfsanəvi türk hökmdarı Oğuz xana aparılıb çıxarılan şəcərəsinə əsaslanıb, sadiq türk qızılbaş tayfalarına arxalanaraq, bütün türk-islam dünyasının birləşdiricisi rolunda çıxış etməyə çalışırdı. "Aləmara"da onun öz dilindən *"Rum ölkəsi üzərinə yürüşə çıxmaq", "Toqatdan tutmuş Üsküdaradək"* bütün Anadolunu[1], Mərkəzi Asiyada isə *"Ceyhun çayı kənarından ta Dəşt və Xətay vilayətlərinə qədər"*[2] uzanan geniş əraziləri fəth etmək kimi işğalçılıq planları açıqlanır. Hətta qeyd olunur ki, Şah İsmayıl 1510-cu ildə Mərv yaxınlığında özbək hökmdarı Şeybani xanın öldürülməsi ilə başa çatan məşhur qələbəsindən sonra Çin imperatorunun *("fəğfur-i Çin")* Xətaya (həmin ərazi türk tayfalarının vətəni olub, Şərqi Türküstan adı ilə də məşhur idi – N.M.) olan iddialarına işarə edərək, onu da eyni cür cəzalandıracağını ifadə etmişdi. Şeybani xanın başını Osmanlı sultanı II Bayəzidə göndərən Şah İsmayıl qürurla bəyan edirdi: *"Əgər [Sultan Bayəzid] öz ədəb ayağını hədd ətəkləri daxilinə yığışdırmasa və özbaşınalıq atına minərək bizim diyarımıza basqın etsə, onun da başını [Şeybani xanın] başı kimi kəsəcəyəm və Hind racasının dərgahına yüz həşəmət və ayin ilə göndərəcəyəm. Əgər Hind racası da [Sultan Bayəzidin] başını görüb ədəb-ərkan saxlamasa, onun da başını bədənindən ayırıb, Çin fəğfuru üçün sovqat göndərəcəyəm. Və əgər o da dargözlük edərək Xətadan dəm vurarsa, başını bədən yükündən azad edib, Fi-*

[1] Aləmara (Sahib), s.510; Aləmara (Şükri), s.471.
[2] Aləmara (Sahib), s.396; Aləmara (Şükri), s.344.

*rəngdəki Portuqal padşahına yollayacağam"*[1]. "Aləmara"dan götürdüyümüz bu parça gənc Səfəvi şahının böyük iddialarını simvolizə edir. Mərv qələbəsindən sonra Səfəvi padşahı özünü *"Türküstan taxtının və tacının varisi"* kimi qələmə verməyə başlamışdı[2]. Şah İsmayılın hərbi işğalçılıq planlarının açıqlanması baxımdan mühüm əhəmiyyət kəsb edən bir şeirindəki bəzi beytlər "Aləmara"nın bu yöndəki faktlarını təsdiq edir:

"Qamu Rum-u Çin-ü Xorasan-u Şam,
Açar bir bəy igid bunları tamam".
"Alıb Şam-u Rumı müsəxxər qılıb,
Pəs ondan həva-yi Firəng eylərəm"[3].

H.Braunun təbirincə desək, "onun məqsədi özünün və öz ardıcıllarının hökmranlığını bütün istiqamətlərdə mümkün olduqca uzağa yaymaq və bu hökmranlığı sərəncamında olan bütün vasitələrdən, o cümlədən də dindən istifadə etməklə qorumaq idi"[4].

Beləliklə, yarandığı ilk dövrdən başlayaraq Azərbaycan Səfəvilər dövləti beynəlxalq münasibətlər sisteminə ciddi təsir göstərirdi[5]. Keçmiş Ağqoyunlu məmləkətinin fəthindən sonra Şah İsmayılın hərbi-siyasi fəaliyyətində yeni bir mərhələ başlamışdı ki, bu da özündə qonşu dövlətlərin mümkün hücumlarından qorunmaq və həmin dövlətlərin ərazisi hesabına öz imperiyasının sərhədlərini genişləndirmək planlarını ehtiva edirdi.

### *B) Azərbaycan Səfəvilər dövlətinin Şərq qonşuları (Teymurilər və Şeybanilər) ilə münasibətləri*

Səfəvilər dövlətinin bərqərar olması ilə təxminən eyni vaxtda Orta Asiyada köçəri özbək tayfalarının səyləri ilə Şeybani-

---

[1] Aləmara (Sahib), s.384; Aləmara (Şükri), s.331. Burada bir söz oyunu vardır. Cümlədəki "xəta" kəlməsi həm "yanlışlıq" mənasında işlədilmiş, həm də Xəta (Xətay) vilayətini ifadə etmək üçün istifadə olunmuşdur.
[2] Aləmara (Şükri), s.325; Aləmara (Məclis kitabxanası – 9421), v.85b.
[3] Xətai külliyyatı (Tehran), s.518-519; Hatâî külliyatı (İstanbul), s.503; V.Minorsky. The Poetry of Shah Ismail I, p.1041a.
[4] The Muslim World: A Historical Survey, part III, p.189.
[5] M.Ağalarov. XVI əsrdə Azərbaycan Səfəvilər dövlətinin beynəlxalq münasibətlər sistemində yeri və rolu // "Renessans" jurnalı, № 3-4, 2006, s.115.

lər dövləti yüksəlməkdə idi. Həmin sülalənin banisi Şeybani xan Çingiz xanın nəslindən olub, Teymurilər xanədanının hakimiyyətini devirməyə cəhd edirdi[1]. 1500-1501-ci illərdə o, bu arzusunu reallaşdırmağa nail oldu. Onun 20 minlik qoşunu Buxaranı və Səmərqəndi ələ keçirdi və Mavəraünnəhrin Teymuri hökmdarı Sultan Əli mirzə qətlə yetirildi. Səmərqənd əhalisinin və əyanlarının Şeybani üsuli-idarəsindən narazı olmasından istifadə edən Əndican vilayətinin hakimi, Teymurilər nəslinin nümayəndəsi Babur Səmərqəndi müvəqqəti ələ keçirməyə nail olsa da, tezliklə Şeybani xan qarşısında ağır məğlubiyyətə uğrayaraq, Əndicana qaçdı[2]. 1504-cü ildə isə Şeybani xanın 30 minlik ordusu Əndican üzərinə hərəkət etdi. Cəmi 7 minlik qoşuna malik olan Babur müqavimət göstərməyə özündə güc tapmayıb, Əndicanı tərk etdi və Xorasanın Teymuri hökmdarı Sultan Hüseyn Bayqaranın razılığı ilə Kabildə yerləşdi[3]. Ceyhun çayını keçən özbəklər Bayqaranın böyük oğlu Bədiüzzaman mirzənin ixtiyarındakı Bəlx qalasına basqınlar etdilər[4].

Beləliklə, Orta Asiyanı ələ keçirmiş Şeybani xan Xorasan Teymurilərini təhdid etməyə başladı. "Aləmara"nın materialları Bayqaranın qocalığına təsadüf edən həmin illərdə Xorasan Teymuriləri dövlətinin şahzadələr arasında gedən daxili çəkişmələr üzündən xeyli dərəcədə böhranlı vəziyyətdə olduğunu göstərir[5].

---

[1] Əsl adı Məhəmməd Şahbəxt xan olan bu şəxs mənbələrdə Şeybək və Şahibəy adları ilə də qeyd olunur: Tarix-i aləmara-yi Abbasi (Bakı), s.104. "Aləmara" müəllifi Şahibəy adına üstünlük vermişdir.

[2] Aləmara (Sahib), s.252-259; Aləmara (Şükri), s.179-186; Х.Ш.Камолов. История вторжения кочевых племен Дашт-и Кипчака в Среднюю Азию (XVI в). Автореферат д.и.н. Душанбе, 2007, с.16-17.

[3] Aləmara (Sahib), s.279-281; Aləmara (Şükri), s.228-229; С.А.Азимджанова. Государство Бабура в Кабуле и Индии. Москва, 1977, с.48.

[4] Aləmara (Sahib), s.281-286; Aləmara (Şükri), s.229-234; Шараф-наме-йи шахи, с.82.

[5] Aləmara (Sahib), s.262-279; Aləmara (Şükri), s.212-228; О.Экаев. Туркменистан и туркмены, с.28. Bizim müəllif Bayqaranın hakimiyyətini xarakterizə edərək yazır ki, o, "dünya fatehi Sahibqiran Əmir Teymurun nəslindən olub, Herat mülkündə eyş və işrət qapılarını Herat əhlinin və Xorasan camaatının üzünə açmışdı". Elm və mədəniyyətə qayğı göstərən Bayqaranın

Belə bir şəraitdə Şeybanilərə qarşı müttəfiq axtarmaq zərurəti hiss edən Bayqara Səfəvilər dövlətinə üz tutmalı oldu. İ.P.Petruşevskinin şərhinə əsasən, "Teymurilərin dostluq mövqeyi bu sülalənin Orta Asiya özbəkləri tərəfindən hiss etdiyi təhlükə ilə əlaqədar idi"[1]. Adı çəkilən tədqiqatçı, Bayqaranın Şah İsmayılla ilk təmas qurmaq cəhdini 1504-cü ilə aid etmişdir. Lakin "Aləmara"dan aydın olur ki, hələ 1503-cü ilin yayında, Almabulağı döyüşündən dərhal sonra İsmayıl Cərfədqanda olarkən onun yanına Bayqaradan *"Cəmşid bəy adlı bir cağatayın"* başçılığı ilə 100 nəfərlik nümayəndə heyəti gələrək, peşkəşlər və məktub gətirmiş, daha sonra Kaşan yolu ilə Xorasana qayıtmışdı. Elçilər Şah İsmayılın şövkət və qüdrətindən heyrətə gəlmiş və bunu Bayqaranın hüzurunda ərz etmişdilər[2]. 1504-cü ilin yazında Şah İsmayılın Çəlavini məğlub etdiyi zaman onun yanına Bayqaranın oğlu, Teymuri şahzadələri arasında Astarabad vilayəti uğrunda gedən mübarizədə məğlub olmuş Məhəmməd Hüseyn mirzə gəlib sığınacaq aldı[3]. Onu hörmətlə qarşılayan İsmayıl, Çəlaviyə qarşı qazandığı qələbə münasibətilə Bayqaraya yazdığı məktubda həmin şahzadəni geri göndərəcəyini bildirir və ona lazım olan hörmətin göstərilməsini istəyir, bunun iki hökmdar arasında dostluq

---

sarayında çox sayda alimlər, 300-dək şairlər və nədimlər yaşayırdı və o, vaxtaşırı onlarla həmsöhbət olurdu. Məşhur şair Əmir Əlişir Nəvai onun vəziri və Bədiüzzaman mirzənin lələsi idi və sarayda böyük nüfuza malik idi. Bayqara Heratdakı Gövhərşad-bəyim mədrəsəsində təhsil alan 1200 tələbəni dövlət hesabına evləndirərək, onların hər birinə ayrıca mənzil vermişdi. Onun sarayında tez-tez əyləncə məclisləri qurular və burada xanəndələr, sazəndələr, nağılçılar, mütrüblər və rəqqasələr öz məharətlərini göstərərdilər. Lakin ömrünün sonlarında o, qocalıb əldən düşmüş və dövlət işlərinə nəzarət imkanlarını xeyli itirmişdi. Buna görə də Xorasan Bayqaranın oğulları olan Teymuri şahzadələri arasında çəkişmələrə səhnə olmuş, dövlət hakimiyyəti sarsılmışdı. Bu daxili münaqişələrdə Bayqaranın oğlu, əvvəlcə Astarabad, daha sonra Bəlx hakimi olan Bədiüzzaman mirzə fəal rol oynayırdı.

[1] И.П.Петрушевский. Азербайджан в XVI-XVII вв, с.237.

[2] Aləmara (Sahib), s.80; Aləmara (Şükri), s.191. Səfəvi mənbələrində bir qayda olaraq, "cağatay" adı altında Teymurilər, onların tərəfdarları və qoşunları nəzərdə tutulur, "özbək" yazıldıqda isə Şeybanilər və onların qüvvələri başa düşülür.

[3] Aləmara (Sahib), s.264; Aləmara (Şükri), s.202; Шараф-наме, т. II., c.147.

əlaqələrinin möhkəmlənməsinə səbəb olacağını vurğulayırdı. Şahın Yaqub ağa vasitəsilə göndərdiyi bu məktubu 910-cu ilin rəbiüləvvəl ayının ortalarında / 1504-cü ilin avqustun sonu – sentyabrın əvvəlində alan Bayqara cavab məktubunda İsmayılın şərtinin yerinə yetiriləcəyinə söz verirdi[1]. Lakin Astarabada göndərilmiş Məhəmməd Hüseyn mirzə orada sülalədaxili çəkişmələrin qurbanı olub öldürüldü[2].

Şah İsmayıl 1504-05-ci ilin qışında Yəzd şəhərini mühasirədə saxladığı vaxt onun yanına Bayqaradan Əmir Kəmaləddin Hüseyn Sədrin elçi heyəti gəldi. Bu elçilik Bədiüzzaman mirzənin hərəkətlərinə görə üzrxahlıq etmək[3] və Səfəvilərlə müttəfiqlik yaratmaq məqsədi güdürdü. Lakin məktubda İsmayıla şahzadələrə xas olan "mirzə" titulu ilə xitab edildiyindən, bu, onun xoşuna gəlməmişdi. Əmir Kəmaləddin bunun məktubu yazan məmurun səhvi olduğunu və "mirzə" sözünün cağatayca "padşah" mənası verdiyini dilə gətirsə də, cavab İsmayılı qane etməmişdi.

Bundan bəhanə kimi yararlanaraq, 910-cu ilin *"şabanülmüəzzəm ayının əvvəlində"* (1505-ci il yanvarında) Şah İsmayıl *"qələbə şüarlı ordu ilə"* Bayqaranın ərazisindəki Təbəs mahalına yürüş etdi[4]. Digər mənbələr bu yürüşü sadəcə olaraq "məktub insidenti"ndən doğan qəzəblə əlaqələndirsələr də, "Aləmara"ya görə, şahı bu yürüşə çıxmağa vadar edən daha ciddi səbəblər vardı. Əvvəla, o, başda Bədiüzzaman olmaqla, Bayqaranın siyasətinə tabe olmayaraq Səfəvilərə qarşı özbaşınalıq edən Teymuri şahzadələrinə xəbərdarlıq etmək və ikincisi, Səfəvilərin təqibindən qaçaraq keçmiş Yəzd hakimi Murad bəy Türkmanın rəhbərliyi ilə Təbəsə sığınmış Ağqoyunlu qoşunlarını darmadağın etmək məqsədi güdürdü. Qeyd edək ki, həmin ərəfədə Bayqara özü də Murad bəyin Təbəsdəki hərəkətlərindən, orada qoşun toplayıb Səfəvi ərazisi olan

---

[1] Ə.Vilayəti. Şah İsmayıl Səfəvi, s.265,270.
[2] Aləmara (Sahib), s.265; Aləmara (Şükri), s.204.
[3] Bədiüzzaman atasını saymır və özbaşına siyasət yürüdürdü. Onun Şah İsmayıla münasibəti mənfi idi və Səfəvilərin düşməni olan Çəlavi ilə dostluq əlaqələri yaratmışdı, həmçinin İsmayılın dəstəklədiyi qardaşı Məhəmməd Hüseyn mirzə ilə daim rəqabət aparmışdı.
[4] Aləmara (Sahib), s.140-142; Aləmara (Şükri), s.195-196.

Kirmana basqın etməsindən narahat olmuş və ona Təbəsi tərk etmək haqqında əmr vermişdi. Lakin, görünür, artıq Bayqaranın öz dövlətinin heç də bütün ərazisində hökmü keçmirdi.

Qızılbaşlar Təbəs mahalına hücum edib, Ağqoyunlu qüvvələrini darmadağın etdilər və onların komandanı olan Murad bəyi qətlə yetirdilər. Təbəsin ağsaqqallarından və idarəçilərindən olan Tərdi Babanın uşaqlıqdan bəsləyib yetişdirdiyi qara bir qulamı vardı. Bu qulam kəmfürsətlik edərək, Səfəvi hökmdarından "cəldu" (ənam) almaq həvəsi ilə öz ağasının başını kəsmiş və şahın hüzuruna aparmışdı. Lakin Şah İsmayıl onun bu əməlini bəyənməmiş, Teymuri əmirlərinə və bölgə əhalisinə qarşı deyil, Ağqoyunlu ordusuna qarşı savaşdığını dilə gətirmiş və bu cinayəti törətmiş qulamın dərhal öldürülməsini əmr etmişdi.

Təbəs hakimi Əmir Məhəmməd Vəli bəy böyük bir həyəcanla Herata qaçaraq, Şah İsmayılın Teymuri ərazilərinə daxil olması xəbərini Bayqaraya çatdırdı. Bu xəbər Heratda dərin narahatlıq yaratmış və nəticədə, Bayqara, şahın düşərgəsinə öz vəziri Xoca Nizamülmülkün başçılıq etdiyi 50 nəfərlik elçiliklə itaətkar ruhda yazılmış məktub və hədiyyələr (daş-qaşlı yəhər və cilova malik 9 baş bədöv at, əlvan cavahiratla bəzədilmiş 12 ədəd qızıl nəlbəki və 12 ədəd Bədəxşan ləli) göndərərək, İsmayıldan Teymurilər dövlətinin ərazisini tərk etməyi xahiş etmişdi. Bayqaranın saray məmuru Mirzə Lütfulla Münşi tərəfindən qələmə alınmış, Teymurilər dövlətinin tənəzzülünü açıq-aydın göstərən həmin məktub tam formada yalnız "Aləmara"da əksini tapmışdır və onun bütöv tərcüməsini təqdim edirik.

Bayqaranın məktubu: *"Dua deyən müxlis Sultan Hüseyndən bəndələrin ən üstünü, böyük hörmətli, yüksək ad-sanlı hökmdar, qəmər rikablı, xurşid şöhrətli, zəfər nisbətli cənab, Xəlil çəməninin gülü və İsmayıl bostanının sərvi, Əbdül-Mütəllib bağının bəhrəsi, Haşim ibn Mənafın parlaq tacının daş-qaşı*[1]*, lovğalıq etməyən və boş söz deməyən padşah, savaş gü-*

[1] Burada Xəlil və İsmayıl adı ilə İbrahim peyğəmbərlə onun oğlu İsmayıl peyğəmbər nəzərdə tutulmuşlar. Məhəmməd peyğəmbər İbrahim peyğəm-

*nündə "Yədullahi fouqə əydihim"*[1] *badəsinin nəşəsi, alimlərin şeyxi və ariflərin başçısı Şeyx Səfiəddin İshaq əl-Musəvi əl-Hüseyninin göz bəbəyi, böyük şeyxlərin və ariflərin sultanı Sultan Cüneydin sevimli fərzəndi, şəhriyarlıq hökmünün dürrü, cənab-i Allahın və məsum imamların lütfünün məzhəri, on iki imamın – onlara salam olsun – dininin yayıcısı, həm hökmdarların, həm də şeyxlərin sultanı olan hər iki iqtidara sahib Sultan Heydərin gözünün nuru və igid oğlu, Kəyan taxt-tacının bəzəyi, Süleyman mülkünün və İsgəndər tacının varisi, ali məqamlı padşah, Allahın yer üzündə kölgəsi, Əbül-müzəffər və Əbül-mənsur Şah İsmayıl Bahadır xana! Ümid odur ki, Məhəmməd peyğəmbərin və onun şanlı nəslinin xatirinə o şəhriyarın (Şah İsmayılın) ədalətli kölgəsi çox-çox illər və saysız qərinələr ərzində səltənətin ən yüksək qatında möhkəm və davamlı olsun! Amma mərdlik, mürvətlilik, şücaət və səxavət fəzasının möhürünün (Şah İsmayılın) rəyindən gizli qalmasın ki, xoşbəxt şəhriyarın (Şah İsmayılın) mübarək uğurlu qədəmlərinin parlaqlığının Xorasan ərazisinə yetişərək behişti bu torpağa həsəd aparmağa vadar etməsi barədə könül oxşayan müjdəni eşitdikdə cahanın canı sevinc, şadlıq və fərəhlə doldu. Əgər yüksək məqamlı padşah (Şah İsmayıl) öz iqbal bürcünün şahinini Xorasan mülkünün ələ keçirilməsi üçün pərvaza gətirmişdirsə, onda ona deyirəm ki, sən elə bir yüksək uçan şahbazsan ki, ən kiçik ovun qaraquşdur və mən bəndə isə elə bir zəif sərçəyəm ki, uça bilmək qüvvətinə malik deyiləm. Axı Süleyman bargahının qabağında qarışqa nə edər və yüksək uçan şahbazın cah-calalının yanında bir qaraquşun uçuşundan nə olar?! Bir halda ki ruzigar məni fəqir, həqir və şikəst etmişdir, əgər mən bəndənin qocalığına və qəlbimin sınıqlığına baxıb rəhm etsən, yəqin ki, bunun əvəzini fələkdən*

---

bərin oğlu İsmayılın nəslindən idi. Məktubda adları çəkilən Əbdül-Mütəllib Məhəmməd peyğəmbərin babası, Haşim isə Əbdül-Mütəllibin atasıdır (bax: Tarix-i aləmara-yi Abbasi, Bakı, s.37-42). Bayqaranın öz məktubunda Şah İsmayılı bu şəxslərlə əlaqələndirməsi onu seyid kimi tanımasından irəli gəlirdi.

[1] "Quran-i kərim"in Fəth surəsinin 10-cu ayəsi. Peyğəmbərə biət edənlər haqqında nazil olmuş bu ayənin mənası belədir: "Allahın əli onların əlinin üzərindədir".

*görərsən. Məlum deyildir ki, bundan sonra fələk dəyirmanının gərdişindən bir dağarcıq un qismətim olsun və mənim elə bir oğlum yoxdur ki, məndən sonra padşahlıq edə bilsin. Mən gözlərimi həyata bağlayan kimi öz mübarək qədəmlərinizin parlaqlığı ilə Xorasan ərazisini müşərrəf edib, ali mülazimlərinizə buyurarsınız ki, zəbt etsinlər və öz mübarək seçkinliyinizin təsdiqi üçün mənim övladlarıma da bir parça çörək verib, onları öz himayənizə götürərsiniz. Aydındır ki, sizin əvəzinizə bir başqası olsaydı, bu sözlərə görə Xorasan vilayətini tərk etməzdi. Lakin mən yəqin bilirəm ki, siz dünyaya üç talaq demiş[1] bir həzrətin oğlusunuz. Gərəkdir ki, zati-aliniz Xorasan mülkünü bu qoca qulamına bağışlasın və dövlət yüyənini öz səltənətinin paytaxtına döndərsin. Mən fəqir, imamların haqq məzhəbinə rəvac vermək arzusunda idim. Lakin o işi görmək bu müxlisə nəsib olmadı və bu qüvvət Allah-taala tərəfindən o şəhriyara (Şah İsmayıla) verildi. Həmd olsun Allaha ki, öz məqsədinə çatdın və imamların haqq məzhəbinə rəvac verməyə səy etdin. Bəzi sözlərim qaldı ki, onları da, inşallah, şahla görüşməli olsam, ərz edəcəyəm. Ziyadə vaxtınızı almaq istəmirəm. Vəssəlam!".*

Bayqaranın elçilərini mehribanlıqla qarşılayan Şah İsmayıl onlara ziyafət verdi və Teymuri hökmdarının məktubu onu kövrəltdi. İsmayıl üzünü Bayqaranın vəzirinə tutaraq, yürüşün məqsədini və özünün Bayqaraya münasibətini açıqladı: *"Allah haqqı, Həzrət Rəsulun – Allahın salamı olsun ona və nəslinə – pak ruhuna and olsun ki, mənim ürəyimdə sultana (Bayqaraya) qarşı bir damcı da ikrah hissi yoxdur. Yəqin ki, onun da ürəyində bizdən bir qübar olmayacaqdır. Mən Allah qarşısında söz vermişəm ki, sultan həyatda olduğu və ya onun oğullarının Xorasanda hökmran olduqları müddətdə məndən hər nə kömək istəsələr, boyun qaçırmayacağam. Sultan mənim atam yerindədir və əgər o da məni öz oğlu bilərsə, bu, mənim üçün fəxr olardı. Zati-alimizin bu mülkə gəlişi isə xain Murad bəyin tənbeh edilməsi və cəzalandırılması səbəbindən irəli gəlmişdir*

---

[1] Üç talaq demək – şəriətə görə, kişinin öz qadınını boşaması anlamına gəlir. Burada bu ifadə məcazi mənada işlənmişdir. "Dünyaya üç talaq demək" maddi dünyadan əl çəkmək və mənəvi kamilliyə ucalmağı ifadə edir.

*və o, öz cəzasına giriftar edilmişdir. Yoxsa əsla sultanın qərb sərhədlərində bu cür qarışıqlıqlar baş verməzdi".* Bayqaraya göndərdiyi cavab məktubunda ona böyük padşahlara layiq təmtəraqlı titullarla (*"ədəb mənbəyi", "ad-san və tac sahibi olan xaqanların əzəmətlisi", "nəcabət asimanının günəşi", "cahan sahəsinin Sahibqiranının (Əmir Teymurun) taxtının və tacının zinəti"* və s.) müraciət edən, onu *"həzrət-i əbəvi",* yəni "ata" adlandıran İsmayıl yürüşünün səbəblərinə bir daha aydınlıq gətirdi, həmçinin Xorasanı Bayqaranın və onun oğullarının torpağı kimi tanıdı, öz səmimi dostluğunu izhar etdi. Məktubun sonunda Bayqaraya olan hörmətini bildirmək üçün Şah İsmayıl öz xətti ilə imza yerinə *"mühibbül-müştaq"* ("həsrət çəkən dost") yazmışdı. Şah İsmayıl geri qayıdan Teymuri nümayəndə heyəti ilə birlikdə öz elçisi Mənsur bəy Qıpçağı məktub və hədiyyələrlə (daş-qaşla, almazlarla, mirvarilərlə, yaqutlarla bəzədilmiş yəhər və yüyənə malik 9 dəvə, 9 ərəb atı, 3 madyan, bahalı tac və xələt) Herat sarayına göndərib, Bayqara ilə mehriban münasibətlər qurdu. Eyni zamanda, Bayqara da şaha daha bahalı peşkəşlər (ləl-cavahirat, qumaş və zərbafta parçalar, qızıl əşyalar, samur dərisi, Çin və Xətay əmtəələri və müşkü, kalmık, rus, gürcü, çərkəz kənizləri və qulamları, gürcü və hindli xacəsaraylar, yemək-içmək) göndərdi[1].

Təsadüfi deyildir ki, mənbələr Bayqara ilə İsmayıl arasında "ata-oğul münasibətlərinin qurulduğunu" qeyd edirlər[2]. E.Broun yazır ki, "Səfəvilərin özbəklər tərəfindən təhdid olunan Teymurilərlə münasibətləri nisbətən dostcasına və bəzən hətta mehribancasına olmuşdur"[3]. Bunu şərtləndirən əsas amil Şeybani təhlükəsi olsa da, bu iki hökmdarı yaxınlaşdıran digər bir cəhət də şiəlik idi. "Aləmara"ya və digər mənbələrə görə, Bayqara öz hakimiyyətinin əvvəlində Heratda şiə xütbəsi

---

[1] Aləmara (Sahib), s.140-150; Aləmara (Şükri), s.194-202.
[2] А.А.Рахмани. «Тарих-и алам ара-йи Аббаси» как источник, с.37.
[3] E.G.Browne. A History of Persian Literature, p.63.

oxutdurmaq istəmiş, lakin əhalinin etirazları üzündən buna nail olmamışdı[1].

Bayqaranın ölümündən (11 zilhiccə 911 / 5 may 1506) sonra Xorasanda hərc-mərclik yarandı. Onun oğulları Bədiüzzaman mirzə və Müzəffər Hüseyn mirzə bir-biriləri ilə keşməkeşdən sonra razılaşıb, özlərini şərikli hökmdar elan etsələr də, digər şahzadələr onların hakimiyyətini tanımadılar və hərəsi öz vilayətində müstəqilliyini elan etdi. Heç Bədiüzzamanla Müzəffər Hüseynin öz aralarında da tam yekdillik yox idi. Bundan istifadə edən Şeybani xan özünün Molla Mahmud adlı elçisini Herata göndərib, Teymuri şahzadələrindən öz vassallığı altına keçməyi tələb etdi. Bu yöndəmsiz tələbdən hiddətlənən Bədiüzzaman elçinin öldürülməsi əmrini verdi. Bahar vaxtı Ceyhun çayını keçən Şeybani xanın 40 minlik ordusu Murğab çayı vadisində, Badğis mahalında Bədiüzzamanın və Müzəffər Hüseynin 30 minlik qoşunu ilə üzləşdi (1 məhərrəm 913 / 13 may 1507). Teymurilərin cəsur sərkərdəsi Əmir Zünnun Ərğunun və Şeybani xanın qardaşı Mahmud sultanın həlak olduqları bu döyüşdə vahid komandanlığın olmaması və daxili ixtilaflar üzündən Teymurilərin ordusu darmadağın olundu və Şeybani xan Heratı ələ keçirdi[2]. 1508-09-cu illər ərzində özbəklər Xorasanın digər ərazilərini də işğal etdilər və Səfəvilər dövlətinin birbaşa hüdudlarına çıxdılar. Bəzi Teymuri şahzadələri Bədiüzzaman başda olmaqla canlarını qurtarıb, Şah İsmayıla sığındılar. Bədiüzzamanla Sultaniyyə şəhərində görüşən İsmayıl onu mehribanlıqla qarşıladı və hətta Şeybaninin hücumu barədə vaxtında xəbər vermədiyinə və kömək istəmədiyinə görə onu məzəmmət etdi. Şaha üzrxahlıq edən Bədiüzzamana Səfəvi sarayında hörmətlə yer verildi[3]. Qeyd edək ki, sonradan Bədiüzzamanın Şah İsmayılla münasibətləri pisləşmiş və o, Təbrizdəki Şənb-i Qazan (Şam-Qazan) məqbərəsində məhbus edilmişdi. Bədiüzzaman 1514-cü ildə Çal-

---

[1] Aləmara (Sahib), s.344; Aləmara (Şükri), s.287; Xülasətüt-təvarix, s.65; Tarix-i cahanara, v.201b.

[2] Aləmara (Sahib), s.288-309; Aləmara (Şükri), s.237-258; R.M.Savory. The Consolidation, p.78.

[3] Aləmara (Sahib), s.311-313; Aləmara (Şükri), s.259-262.

dıran döyüşündən sonra Osmanlılar Təbrizə daxil olduqları vaxt Sultan Səlimin tərəfinə keçmiş, ona qoşulub, Türkiyəyə getmişdi[1].

Yarandıqları vaxtdan etibarən Səfəvi və Şeybani dövlətləri arasındakı münasibətlər düşməncəsinə idi. Bu münasibətlər ilk növbədə hər iki dövlətdə başlıca siyasi güc olan türk hərbi-köçəri əyanlarının işğalçılıq səyləri ilə bağlı idi. İki türk feodal sülaləsinin toqquşmasını əks etdirən və bütün XVI əsr boyunca davam etmiş bu mübarizə əsasən Xorasana hökmranlıq uğrunda aparılırdı[2]. Şeybani xan hələ 1501-ci ildə Səmərqənddəki çıxışında "islamı zibilləyənlərə" qarşı vuruşacağını elan etmiş və bu zaman ilk növbədə Şah İsmayılı nəzərdə tutmuşdu[3].

Səfəvi – Şeybani münasibətlərini ətraflı əks etdirən "Aləmara"nın materialları göstərir ki, Çingiz xanın nəslindən olması ilə lovğalanan, özünü *"zəmanənin imamı", "əsrin xəlifəsi"* hesab edən Şeybani xan Yaxın və Orta Şərq regionunda geniş işğalçılıq planlarına malik idi və bunun üçün ilk növbədə Səfəvilər dövlətinə qarşı ərazi iddiaları irəli sürürdü. O, Şah İsmayılın hakimiyyətini tanımır və onu müstəqil hökmdar kimi qəbul etmirdi. Şeybani xan Heratı tutduqdan dərhal sonra Şah İsmayıla yazdığı məktubda onu həqarətlə *"İraq daruğası İsmayıl mirzə"* adlandıraraq, *"hal-hazırda şikar etmək məqsədi ilə iqbal və səadətlə darüssəltənə Herata gəldiyini",* oradan da Məkkə və Mədinəni ziyarət etmək üçün öz ordusu ilə Səfəvilərin ixtiyarındakı İraq vilayətinə yola düşəcəyini bildirir və hətta Şah İsmayıla alçaldıcı göstərişlər verməkdən də çəkinmirdi:

---

[1] Aləmara (Sahib), s.529-534; Aləmara (Şükri), s.498-503; Lütfi Paşa. Tevârîh-i Âl-i Osmân, s.218-219. Bədiüzzamanın Sultan Səlimin Misir səfəri zamanı Məmlüklərə qarşı döyüşdə həlak olması barədə "Aləmara"da verilmiş məlumat (Aləmara, Sahib, s.569; Aləmara, Şükri, s.550) yanlışdır. Çünki Bədiüzzaman Səlimlə birgə İstanbula getmiş, 4 ay sonra orada vəfat etmişdi: Шараф-наме, т. II, с.163.

[2] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.109; Я.Рипка. История персидской и таджикской литературы, с. 275.

[3] R.Ə.Ağayev. Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri (XV-XVI əsrlər). Bakı, 2004, s.99.

*“Əgər İraq vilayətində bizim keçəcəyimiz yerlərdə sınıq körpülər və nahamar yollar olarsa, onları təmir etdirin ki, qiyamət əlamətli ordumuz keçib getsin”.* O, həmçinin Səfəvi hökmdarına özbək ordusunun keçəcəyi yolun hər mənzilliyində *“azuqə və savəri*[1] *tədarük edib, öz xidmətinin keyfiyyətini zahir etməyi”* əmr edirdi. Şeybani xan özünün işğalçılıq ambisiyalarına işarə edərək yazırdı: *“Bizim nəzərlərimiz Misir, Şam və Hələb mülkünə dikilmişdir. Yoxsa İraq və Azərbaycan nədir ki, biz bu cür dərya təlatümlü ordu ilə xaraba İraq mülkü və susuz Ərəbistan üçün səfərə əzm etmiş olaq?!”.* Şah İsmayılı hədələyən Şeybani xan öz məktubuna hətta bir beyt də əlavə edərək:

"ما را طمع به ملك عراق خراب نيست
تا مكه و مدينه نگيرم حساب نيست"

*“Xaraba İraq deyildir məqsədim,*
*Gərək Məkkə, Mədinəni zəbt edim!”*

– deyə öyünürdü.

Bu məktubu Azərbaycana, Təbrizdəki hökmdar sarayına gətirən qoca özbək elçisini hörmətlə qarşılayan İsmayıl, Şeybani xanın hədələyici beytini özünün şiə əqidəsinə uyğun bir beytlə cavablandırdı:

"هر كس ز جان غلام شه بو تراب نيست
گر صد هزار مكه بگيرد حساب نيست"

*“Hər kim deyil candan Əli qulamı,*
*Yüz min Məkkə tutsa, yoxdur anlamı!”*[2].

Alman şərqşünası A.Müller göstərir ki, ilk vaxtlar Şah İsmayıl yalnız Ağqoyunlu səltənətinin ələ keçirilməsi və onların əvvəlki siyasətinin davam etdirilməsi haqqında düşünürdü. Lakin tezliklə “gözlənilməz hadisələr” baş vermiş, Xorasanı fəth edən Şeybani xan onu rahat buraxmaq istəməmiş, sülh təşəbbüsü göstərən İsmayılın göndərdiyi elçilərə kəskin, hətta təhqiramiz cavablar verib, onları geri qaytarmış və məhz özbək xanının təcavüzkar siyasəti bu münaqişənin alovlanmasına

---

[1] Savəri – vassalın öz ağasına və ya rəiyyətin feodala təqdim etdiyi bir vergi növüdür. Daha ətraflı monoqrafiyamızın III fəslinin 3-cü paraqrafına baxa bilərsiniz.

[2] Aləmara (Sahib), s.309-310; Aləmara (Şükri), s.258-259.

səbəb olmuşdur[1]. Şah İsmayıl hüsn-rəğbətini sübut etmək məqsədi ilə Məhəmməd bəy Rumlu, Qazı Nurulla Sədr kimi elçilərini Şeybani xanın sarayına yollasa da, heç bir nəticə hasil olmamışdı[2].

Artıq bütün Teymuri şahzadələrini məğlub etmiş və Məvəraünnəhrin, Xorasanın və Bədəxşanın sahibinə çevrilmiş Şeybani xan 915 / 1509-10-cu ilin qışında Səfəvi dövlətinin tərkibindəki Kirman vilayətinə basqın etmək üçün ordu yolladı[3]. "Aləmara"da qeyd olunur ki, bundan öncə Şeybani xan İsmayıla daha bir təhdidedici məktub göndərmişdi: *"Şahibəy xan bütün Xorasan vilayətini öz ixtiyarında görəndən sonra onu lovğalıq bürüdü. Buyurdu ki, Şeyxoğlunun yanına elçi göndərmək lazımdır ki, bizdən qaçıb ona sığınan düşmənlərimizi bizim mülazimlərə təslim etsin və bizim şərəfli adımıza sikkə vurdurub xütbə oxutsun. Yoxsa İrana gələrəm və o vilayəti başdan-başa viran edərəm, Hüseyn mirzənin (Bayqaranın – N.M.) övladlarını da qətlə yetirərəm, oradan da Məkke-yi Müəzzəməyə gedərəm".*

Elçinin göndərilməsindən dərhal sonra Şeybani xan öz bacısı oğlu Canvəfa mirzəyə və *"köhnə hərbçilərdən olan, padşahların xidmətində müharibələrdən çıxmış, xüsusən də Sultan Əbu-Səid zamanında Həsən padşahla döyüşdə[4] iştirak etmiş"* Bayaqu Bahadıra 10 minlik qoşun verib, onları Şah İsmayıla xəbərdarlıq etmək və özbək ordusunun gücünü göstərmək üçün Kirman və Yəzd əyalətlərinə basqın etməyə göndərmiş, onlara əsirlər və qənimət ələ keçirərək, geri qayıtmağı tapşırmışdı. Özbək komandanlığı əmin idi ki, *"bu mülkdə heç kimsə yoxdur, Şeyxoğlu isə Azərbaycan vilayətindədir və onun göndərdiyi kömək gəlib çatanadək biz Xorasana qayıdarıq".* Təbəsdən keçərək Kirmana qəfil həmlə edən özbəklər

---

[1] А.Мюллер. История Ислама, т. III. Санкт-Петербург, 1896, с.382.
[2] Ə.Vilayəti. Şah İsmayıl Səfəvi, s.46-47.
[3] Əhsənüt-təvarix (Seddon), s.109; Ş.F.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, s.114.
[4] Burada 1469-cu ildə Ağqoyunlu hökmdarı Uzun Həsənlə Teymuri hökmdarı Əbu-Səid arasında Azərbaycanın Mahmudabad adlı yerində baş vermiş və Ağqoyunlu ordusunun qələbəsi ilə nəticələnmiş döyüşdən söhbət gedir (daha ətraflı bax: R.Ə.Ağayev. Azərbaycan və Mərkəzi Asiya, s.73-79).

oranın hakimi Məhəmməd xan Əfşar başda olmaqla 500 qızılbaş döyüşçüsünü qətlə yetirdilər və əyaləti talan etdilər. Daha sonra Canvəfa özü 6 minlik qoşun götürüb, Musa bəy Şamlunun başçılığı altındakı 300 nəfərlik qarnizonun qoruduğu Yəzd şəhərinə hücum etdi. Lakin əfşar tayfasından bir şəxsin Yəzd müdafiəçilərini təhlükədən xəbərdar etməsi nəticəsində, bu şəhəri tutmaq özbəklərə nəsib olmadı və ölkə daxilindən 5 minlik qızılbaş qoşununun hadisə yerinə gəlib çatması özbəkləri Səfəvi ərazisini tərk edib Xorasana çəkilməyə vadar etdi[1].

Bu insidentdən dərhal sonra Şeybani xan Şah İsmayıla yenə də alçaldıcı məktubla müraciət etdi: *"Aşağı dərəcəli bir hakim olan İraq daruğası İsmayıl mirzəyə məlum olsun ki, neçə dəfədir biz sizə elan edirik ki, İraqdakı sınıq körpüləri və yolları təmir etdirin və dərya təlatümlü ordumuz üçün hər mənzil başında sursat və ehtiyatlar tədarük edin. Lakin sizdən bir xəbər gəlmədi. Hər halda, yaxşı olar ki, bizim əmrimizdə qərar verilən və buyurulan məsələlərə əməl edərək, bizim adımıza sikkə vurdurub xütbə oxudasınız ki, biz sizdən razı qalaq, İraq hakimliyini sizə tapşıraq. Yoxsa sizin barənizdə cürbəcür cəzalar hökm olunacaqdır".* Bu məktubu istehzalı təbəssümlə qarşılayan İsmayıl şiə ruhanisi Şeyxzadə Lahicini[2] cavab məktubu ilə özbək sarayına yolladı. Cavab məktubunda Şeybaniyə hökmdarlara layiq titullarla müraciət edən Səfəvi şahı ironiya ilə *"körpülər və yollar, savəri və tədarüklər hər mənzil başında sərəncam edilib, şərəfli qədəmlərinizin intizarındadır"* deyə qeyd etdikdən sonra özbək qoşunlarının Kirman və Yəzd üzərinə basqınlarını pisləyir, *"müsəlmanların qətlə yetirilməsinin, onların mallarının qarət olunmasının Həzrət Rəsulun şəriətinə zidd olduğunu"* bildirir, Şeybani xanı bu əməllərdən çəkinməyə çağıraraq, ona xəbərdarlıq etməyi də unutmurdu: *"O ali-şan xan gərək müsəlmanların qanının nahaq yerə axmasına səbəb olan bu cür işlərə imkan verməsin. Çünki axırda bunun əcri xan həzrətlərinin ruzigarına təsir edəcəkdir. Bundan*

---

[1] Aləmara (Sahib), s.326-335; Aləmara (Şükri), s.270-279.

[2] Əsl adı Şeyx Möhyəddin Əhməd olan Şeyxzadə Lahici Şah İsmayılın ilk müəllimlərindən olan Mövlana Şəmsəddin Lahicinin oğludur: M.Abbaslı. Şah İsmayıl Xətainin ömür yolu miniatürlərdə. Bakı, 1981, s.5.

*sonra gərək siz də aramızda dostluğun bərqərar olmasına çalışasınız. Əks halda, Ulu Yaradan nəyi təqdir etmişsə, o da olacaqdır"*[1].

Özbəklərin basqınına etiraz etməklə yanaşı, Şah İsmayıl Ağqoyunlularla qohumluq əlaqələrinə işarə edərək, Kirmanın öz irsi torpaqlarının bir hissəsi olduğunu bildirirdi. Buna cavab olaraq Şeybani xan öz elçisi Əmir Kəmaləddin Əbivərdi ilə Səfəvi sarayına yolladığı məktubda onun taxt-tac iddialarının əsassız olduğunu qeyd edərək, vərəsəliyin ana xətti ilə deyil, ata xətti ilə müəyyənləşdiyini vurğulayırdı. O, özünün hökmdar sülaləsindən olması ilə öyünür, Şah İsmayılın isə fəqir dərvişlər nəslinə aid olduğunu göstərərək, hər adamın öz əcdadlarının peşəsi ilə məşğul olmasını tövsiyə edirdi. O, hətta Şah İsmayıla rubənd, əsa və kəşkül göndərərək, bununla onun ata-babasının sufi şeyxləri olduğuna işarə edir, Səfəvi şahına taxt-tacdan əl çəkib, dərvişliklə məşğul olmağı məsləhət görürdü. Əks təqdirdə, özbək xanı Səfəvi şahının başını bədənindən ayıracağı ilə hədələyirdi[2].

"Aləmara"da Şeyxzadə Lahiciyə qoşulub Səfəvi sarayına gəlmiş özbək elçisinin adı "Taclı Bahadır" (və ya "Nacubi Bahadır") kimi qeyd olunur. Güman etmək olar ki, "Taclı Bahadır" Əbivərdinin təxəllüsü olmuşdur. Şeybani xanın məktubunun və "hədiyyələr"inin məzmunundan qəzəblənən Şah İsmayıl, nəhayət ki, kəskin əhval-ruhiyyəli, faktiki müharibə elanı demək olan bir cavab məktubu göndərdi: *"Buyurmuşdunuz ki, yolları və körpüləri təmir edib iqamətlər hazırlayaq. Xeyli müddətdir ki, buyurduqlarınız hazır edilib. Təşrif gətirməməyinizin səbəbi nədir? Hər halda, elan edirəm ki, özüm cah-calal ilə sizin üzərinizə gəlirəm!"*[3].

Ə.Nəvainin dərc etdirdiyi sənədlər toplusundan aydın olur ki, Şah İsmayıl məktubunda Şeybani xanın "həcc ziyarətinə getmək" təşəbbüsünə cavab olaraq özünün Xorasan yürüşünü səkkizinci şiə imamının Məşhəddəki məzarını ziyarət et-

---

[1] Aləmara (Sahib), s.335-336; Aləmara (Şükri), s.281.
[2] Тарих-и Рашиди, с.310; M.N.Şeybani. Cəng-i Şah İsmail-i Səfəvi ba özbəkan // Bərrəsiha-yi tarixi, II/2, 1346, s.48-49.
[3] Aləmara (Sahib), s.337; Aləmara (Şükri), s.282.

mək niyyəti ilə əlaqələndirirdi: “Tanrının bir qəzası baş verməsə, Novruz bayramından sonra övliyaların sultanı, möminlərin sübutu, Əbül-Həsən Əli ibn Musa ər-Rzanın – ona salam olsun – məzarını ziyarət etməyə yollanacağam. Çünki o həzrətin müqəddəs məzarının ətrafını düzəltmək üçün daş-qaşla bəzədilmiş 70 batman qızıl tədarük etmişik”[1]. Şeybani xan öz məktubunda hər kəsin ata-babasının işi ilə məşğul olmasının zəruriliyini vurğuladığı üçün Şah İsmayıl buna cavab olaraq bildirdi ki, “əgər sən dediyin kimi olsa, bütün insanlar Adəm peyğəmbərin nəslindən olduqları üçün gərək hamı peyğəmbərliklə məşğul olsun... Onu bil ki, öz əməlləri ilə deyil, yalnız ata-babalarının məzardakı sümükləri ilə fəxr edən bir adamın, qarşısındakı sür-sümüklə öyünən bir köpəkdən heç fərqi yoxdur”[2]. Şah İsmayıl öz növbəsində özbək hökmdarına “hədiyyələr” göndərməyi də unutmadı və ip əyirmək üçün cəhrənin qərqərə və yivini göndərdi. Qadınlara xas olan bu əşyaları göndərməklə İsmayıl qələbələrə qərq olmuş lovğa işğalçının nəzərinə çatdırmaq istəyirdi ki, “söz – qadınların silahıdır!”[3].

“Aləmara”dan məlum olur ki, Şah İsmayıl faktiki müharibə elanı təsiri bağışlayan bu məktubunu Xəlil ağa Rumlunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə Heratda olan Şeybani xana göndərmişdi. Xəlil ağanın missiyası heç də təkcə diplomatik xarakter daşımırdı. Mənbədən məlum olur ki, elçilər yola salındıqdan dərhal sonra Şah İsmayıl qızılbaş ordusu ilə Təbrizi tərk edib, Təbriz – Qəzvin – Tehran – Xəvar yolu ilə hərəkət edərək, Xorasana doğru yürüşə başlamışdı. Səfəvi və Şeybani dövlətləri arasındakı mühüm sərhəd məntəqəsi sayılan Pülkörpü mövqeyindən Xorasana daxil olan Xəlil ağa müxtəlif vasitələrlə sərhəd ərazilərindəki özbək qoşunlarının sayı və onların yerləşməsi, habelə Şeybanilər dövlətinin daxili vəziyyəti haqda kəşfiyyat xarakterli, maraqlı informasiyalar toplayaraq, bu barədə dərhal şahın yanına çapar göndərmişdi və bu bilgilər qızılbaş ordusu Qəzvində olarkən şaha çatdırılmışdı. Bu

---

[1] Ə.Nəvai. Şah İsmail-i Səfəvi: əsnad-o mükatibat-i tarixi həmrah ba yaddaştha-yi təfsili. Tehran, 1347, s.73; Ə.Vilayəti. Şah İsmayıl Səfəvi, s.66.
[2] Тарих-и Рашиди, с.310-311.
[3] C.R.Markham. A General Sketch, p.268.

məlumatlardan aydın olurdu ki, bir müddət öncə Şeybani xan 40 minlik ordu ilə Əfqanıstandakı Qur və Qərcistan vilayətləri üzərinə getmiş, lakin müvəffəqiyyətsizliyə düçar olub, geri dönmək məcburiyyətində qalmışdı. Qış fəsli gəldiyi üçün özbək əmirlərinin hərəsi öz məmləkətinə getmiş, Şeybani xan da cəmi 4 minlik qoşunla Heratda qalmışdı[1].

Şahın məktubu Şeybani xanın əsəbiləşməsinə və Xəlil ağanı zindana salmasına səbəb oldu. Lakin artıq gec idi. Çünki qızılbaş ordusu qəflətən Pül-körpü sərhəd məntəqəsinə[2] yaxınlaşmaqda idi. Əslində, bu, Şeybani xan üçün fəlakət mənasını verirdi. Çünki həmin zaman özbək ordusunun əsas hissəsi Mavəraünnəhrdə idi, Şeybani xan isə Şah İsmayılın öz məktubunda yazdığı kimi "Novruzdan sonra" yürüşə çıxacağına əmin olaraq, arxayıncasına qışı Heratda keçirməyə hazırlaşırdı, yanındakı qoşun azsaylı idi və qızılbaş hücumu onu qəflətən yaxalamışdı. O zamanlar hökmdarlar böyük yürüşlərə əsas etibarilə yaz və yay aylarında çıxdıqlarından, Səfəvi şahının 1510-cu ilin payızında gerçəkləşdirdiyi bu səfər Şeybani xan üçün tam gözlənilməz olmuşdu. Şah İsmayıl sərhədə yaxınlaşdıqda Həsən bəy Halvaçıoğlunu ön dəstə ilə irəli göndərdi və onun dəstəsi Pül-körpüdə mövqe tutmuş Bayaqu Bahadırın qüvvələrini darmadağın etdi. Özbəklərdən 300-400 nəfər öldürüldü, Bayaqu isə 100 nəfərə qədər əsgərlə Simnana qaçmağa nail oldu. Sərhədi keçən şah Mirzə Məhəmməd Talışı min nəfərlik qoşunla Simnan üzərinə göndərdi. Təcrübəli Bayaqu Bahadır bütün qüvvələri götürüb Herata çəkilməyi təklif etsə də, Şeybani xanın kürəkəni Seyid Məhəmməd[3] bundan imtina etdi. O, 1700 nəfərlik qoşunu ilə Simnan yaxınlığın-

---

[1] Aləmara (Sahib), s.338; Aləmara (Şükri), s.283. Həmin zaman Şeybani xan öz qoşunlarının digər bir qismini də Kaşğarı fəth etməyə göndərmişdi. Xorasana yürüş etməzdən öncə Şah İsmayıl bütün bu hadisələri diqqətdə saxlayır, dərviş və sufi qiyafəsində Xorasanda rahatca gəzib-dolaşan casusları vasitəsilə məlumatlar alırdı: Х.Ш.Камолов. История вторжения кочевых племен, с.23.

[2] Pül-körpü Xəvar bölgəsi ilə Simnan şəhəri arasında yerləşən daş körpü idi: Aləmara (Sahib), s.645.

[3] Digər mənbələrdə bu şəxsin adı Əhməd sultan deyə yazılmışdır: Cahangüşa-yi xaqan, s.360-361; Həbibüs-siyər, s.506; Tarix-i cahanara, v.205a.

da qızılbaşlarla döyüşə girdi, lakin ağır məğlubiyyətə uğrayaraq, qaçmaqla canını qurtardı. Həmin toqquşmada özbəklər 800 nəfər itki verdilər. Qələbədən ruhlanmış Mirzə Məhəmməd əsas qüvvələrin gəlməsini gözləmədən Damğan üzərinə yürüşə başladı. İsmayıl dərhal xəbər göndərib, ona yürüşü dayandırmağı əmr etdi. Simnana gələn şah oradan Damğana irəlilədi və Mirzə Məhəmmədi özbaşınalıq etdiyi üçün danladı.

Rüstəm Bahadırın başçılıq etdiyi özbək qoşununun qoruduğu Damğan şəhəri qızılbaşlar tərəfindən mühasirəyə alındı. Özbəklər güclü müqavimət göstərir, bəzi vaxtlar isə hətta qaladan çıxıb, qızılbaş səngərlərinə həmlə edirdilər. Mühasirədəkilərin vəziyyəti çətinləşdikdə onların bir hissəsi Rüstəm Bahadır və Şeybani xanın xalası oğlu Mehdi Xocanın rəhbərliyi ilə gecə vaxtı qəfil hücumla Dədə bəyin qoruduğu istiqamətdən qızılbaş mühasirəsini yarıb qaçmağa nail oldular. “Nasufilik”də ittiham olunub öldürüləcəyindən qorxan Dədə bəy dərhal onları təqib etməyə başladı, lakin yolu azdı. Digər tərəfdən, onun yaxın dostu Durmuş xan Dədə bəyin cəzalandırılmasını istəmədiyi üçün öz qoşunu ilə hərəkətə keçib, qaçan özbəklərin ardınca düşdü və Məzinan adlı yerin bir fərsəxliyində onları haqlayaraq, Mehdi Xocanı əsir almağa nail oldu. Durmuş xan geri qayıdarkən Dədə bəylə rastlaşıb, əsiri ona təhvil verdi və Dədə bəy də öz səhvini yumaq üçün adlı-sanlı özbək əsirini şahın hüzuruna apardı. Lakin Şah İsmayılın reaksiyası sərt oldu: *“Gecə çadırda yatıb, indi dustaq gətirməyin mənası yoxdur!”.* Səfəvi hökmdarının suallarının cavabında hədyan sözlər danışdığı üçün Mehdi Xocanın qətlə yetirilməsi əmr olundu.

Şəhərdə qalmış digər özbək qoşunları mühasirəni yarmaq üçün cəhdlər etsələr də, onların az bir hissəsi buna nail ola bildi. Beləliklə, qızılbaşlar Damğanı, onun ardınca Bistam və Məzinanı da zəbt etdilər. Şah İsmayıl Hüseyn bəy Lələni və Mirzə Məhəmmədi 2 minlik ön dəstə ilə əhalisi əsasən şiələrdən ibarət olan *“darülmöminin”* (“möminlər məkanı”) Səbzəvar şəhərinə göndərib, özü əsas qüvvələrlə onların ardınca irəlilədi. Səbzəvarda yerləşmiş 3 minlik özbək qarnizonu Seyid Xocanın komandanlığı altında müqavimət göstərməyə təşəbbüs

etsə də, qızılbaşlar onları darmadağın etdilər. Özbək qarnizonunun 2500 döyüşçüsü öldürüldü, qalan 500 nəfəri isə Seyid Xoca ilə birlikdə şəhəri tərk edib, Nişapura qaçdılar. Orada öz əmisi oğlu Hadi Xocanın qüvvələri ilə birləşən Seyid Xoca onlarla bərabər Məşhədə doğru geri çəkildi[1].

Səbzəvarı tutduqdan sonra özbək qoşunlarının tərk etdikləri Nişapur şəhərinə döyüşsüz yiyələnən Şah İsmayıl iki-üç gün orada qalandan sonra şiələrin müqəddəs şəhəri Məşhəd üzərinə hərəkətə keçdi. *"Cah-calallı bayraqların"* yaxınlaşdığını öyrənən özbək sərkərdələri Canvəfa, Seyid Xoca, Hadi Xoca və digərləri müqavimətsiz surətdə Məşhədi tərk edib, Şeybani xanla birləşmək məqsədi ilə Herata getməyi qərara aldılar. Məşhədə daxil olan İsmayıl, Şeybani xana yazdığı məktubda söz verdiyi kimi, İmam Rzanın məzarını ziyarət etdi, məqbərəyə qızıl və gümüş qəndillər və şamdanlar bağışladı[2].

Üç gün Məşhəddə qaldıqdan sonra Şah İsmayıl orduya Şeybani xanın yerləşdiyi Herat şəhəri üzərinə yürüşə başlamağı əmr etdi. Lakin bu zaman ordu daxilində yürüşün davam etdirilməsi ilə bağlı müəyyən tərəddüdlər yarandı: *"Böyük əmirlər ərz etdilər ki, dinimizə və əbədi ömürlü dövlətimizə sərfəli ola biləcək bəzi mülki işlər var ki, biz bəndələr onları Sizin müqəddəs ərzinizə çatdırmağı lazım bilirik. Sözümüzün canı ondan ibarətdir ki, şərəfli hökmdar səadət və xoşbəxtliklə Azərbaycandan ta müqəddəs Məşhədə qədər yürüş edib gəldiyindən qızılbaş ordusunun atları və dəvələri, minik və yük heyvanlarının hamısı yorulub əldən düşüb zəifləyiblər və bir çoxusu isə tələf olublar. Belə bir şəraitdə külli Türküstanın və Xorasanın müstəqil padşahı Şahibəy xanla müharibə etmək*

---

[1] Aləmara (Sahib), s.339-346; Aləmara (Şükri), s.283-290. "Aləmara"da göstərilir ki, əsasən şiələrin məskunlaşdığı Səbzəvar şəhərinin seyidləri və əhalisi, Seyid Muxtar başda olmaqla, qızılbaş ordusunu qarşılamağa çıxdılar. Seyid Muxtar hələ Bayqara dövründə qohumlarından 40 ailə ilə birlikdə indiki Livanın Cəbəlamil bölgəsindən köç edib, Səbzəvara gəlmişdi və orada böyük nüfuz sahibi idi. O, Şah İsmayılla görüşüb, onun buraya gələcəyini hələ 17 il öncə yuxuda gördüyünü söylədi və şah tərəfindən Səbzəvar hakimi təyin olundu (bu şəxs haqqında həmçinin bax: Tarix-i aləmara-yi Abbasi, Bakı, s.325-326).

[2] Aləmara (Sahib), s.346-347; Aləmara (Şükri), s.290-291.

*sərfəli deyildir və başqa bir tədbir görmək daha yaxşı olardı. Hərgah şanlı ordumuzun müqəddəs Məşhəddə dayanacaq edib təhiyyə və tədarük tutduqdan sonra iqbal və uğurla hərəkətə keçməsi əmr olunsaydı, ağıl və düşüncə, qayğıkeşlik mənası və dövlətin faydası baxımından heç də pis olmazdı".* Əmirlər qışı Məşhəddə keçirməyi və dincəldikdən, hazırlıq gördükdən sonra yenidən yürüşə başlamağı təklif edirdilər. Lakin Şah İsmayıl öz qərarında israr edərək, əmirlərini yürüşün davam etdirilməsinə inandıra bildi[1]. Sonrakı hadisələr onun haqlı olduğunu göstərdi.

Eyni zamanda, Şeybani xanın Heratdakı düşərgəsində vəziyyət özbəklər üçün heç də ürəyaçan deyildi. Simnandan qaçan Bayaqu Bahadır qızılbaşların sərhədi keçməsi haqqında məlumat gətirən kimi Şeybani xan dərhal qardaşı oğlu Übeydulla xana, öz oğlu Məhəmməd Teymur xana, Urgənc hakimi Barsil xana və Türküstanın digər əmirlərinə məktub yazıb, onları köməyə çağırdı: *"Bizim məktubumuz sizə çatan kimi öz ordunuzu götürüb, dərgahımıza yollanın ki, Şeyxoğlu Xorasan vilayətinə yürüş edib, bizim valilərimizin əlində olan neçə-neçə şəhərləri və qəsəbələri zəbt edib, Herata doğru irəliləyir. Vəssəlam!".* Lakin qızılbaş ordusunun günbəgün sürətlə irəliləməsi və Orta Asiyadan özbək sərkərdələrinin hələ də gəlib çıxmaması Şeybani xanı təşvişə saldı. Qızılbaşların Məşhəddən yürüşə başlayaraq, Cam şəhərinə də yiyələndikləri xəbərini alan Şeybani artıq Heratda qalmağın mümkün olmadığını anlayıb, Mərv qalasına sığınmaq qərarına gəldi və bu barədə Şah İsmayıla qısa bir məktub yazdı: *"Biz öz dərya təlatümlü ordumuzu götürüb, Mərvə yollanırıq. Bizim sizinlə vədəmiz Mərvdə olacaqdır. Vəssəlam!".* Bu tədbir ona hesablanmışdı ki, şah Mərv üzərinə gəlməkdən çəkinəcək, lap əgər gəlsə də *"Türküstan vilayəti bizə yaxındır, Mərv qalası da çox möhkəmdir və oranı heç kim döyüşlə tuta bilməz".* "Türküstan ümərasına" Mərvə gəlməyi tələb edən yeni məktublar göndərən Şeybani xan Canvəfanı Heratda qoymuş və ona şəhəri qızılbaşlara qarşı bacardıqca çox müdafiə etməyi, bununla da özbək ordularının Orta Asiyadan gəlib yetişməsi üçün vaxt qazanmağı

---

[1] Aləmara (Sahib), s.347-349; Aləmara (Şükri), s.291-292.

tapşırmışdı. Şeybani xan Orta Asiyadan özbək sərkərdələrinin gəlib çıxacağı təqdirdə öz sərəncamında 100 minlik ordunun olacağını güman edir və bu qüvvələrlə Şah İsmayıla asanlıqla qalib gəlməyin mümkünlüyünə inanırdı[1].

Şeybani xanın məktubunu Cam şəhərində alan İsmayıl Herat üzərinə getməyərək, dərhal Mərvə yönəldi. Ələmdarbaşı Danə Məhəmməd sultanı 700 nəfərlik ön dəstə ilə irəli göndərən şah, onun ardınca Mirzə Məhəmməd Talışın 1500 nəfərlik, daha sonra Həsən bəy Halvaçıoğlunun 500 nəfərlik dəstələrini yola saldı. Heratda qalmağın mənasızlığını başa düşən Canvəfa mirzə öz qoşunu ilə Mərvə gedib, Şeybani xanın qüvvələrinə birləşdi[2]. İsmayıl Mərv qalasını mühasirəyə almazdan öncə Tahirabad kəndi yaxınlığında qızılbaşların və özbəklərin ön dəstələri arasında toqquşma baş verdi[3]. Qızılbaş əmiri Danə Məhəmmədin və özbək sərkərdəsi Sarı Oğlanın həlak olduqları bu gərgin döyüş qızılbaşların qələbəsi və özbək qoşununun qalıqlarının Mərv qalasına çəkilməsi ilə başa çatdı[4].

20 şaban 916 / 22 noyabr 1510-cu ildə qızılbaş ordusu Mərv qalasını mühasirəyə aldı[5]. Şah İsmayıl üç gün gözlədikdən sonra mühasirənin dördüncü günü Şeybani xana məktub yazıb, onu açıq döyüşə atılmağa sövq etmək istədi. Bu məktubda Allaha şükür, peyğəmbərə və imamlara tərif olunduqdan sonra deyilirdi: *"Türküstan padşahının ali rəyinə məxfi qalmasın ki, sizi bürümüş qürurun, lovğalığın və dikbaşlığın təsirindən idi ki, Məkke-yi Müəzzəməyə gedəcəyinizi bildirib, hər gün bizə sınıq körpüləri və xarab olmuş yolları təmir etməyi, hər mənzil başında ləvazimat hazırlamağı əmr edirdiniz. Bizim göstərişimizə əsasən bütün ehtiyaclar sərəncam edildi. İntizarınızı çox çəkdiksə də, nəhs aqibətli ali-şan xandan heç bir*

---

1 Aləmara (Sahib), s.349-351; Aləmara (Şükri), s.293-294. Şeybani xan rəcəb ayının (04.10-03.11.1510) sonlarında Heratı tərk edib, Mərvə qaçdı: Xülasətüt-təvarix, s.109.
2 Aləmara (Sahib), s.351-352; Aləmara (Şükri), s.294-295.
3 Əhsənüt-təvarix (Seddon), s.117; Rövzətüs-Səfəviyyə, s.234.
4 Aləmara (Sahib), s.352-355; Aləmara (Şükri), s.295-298; О.Экаев. Туркменистан и туркмены, с.90-93.
5 R.M.Savory. The Consolidation, p.79.

*nişanə zahir olmadı və özümüz cah-calal ilə Çingiz xan nəvəsinin istiqbalına çıxaraq ümid etdik ki, yolüstü qarşılaşacağıq. Lakin bu, mümkün olmadı. Dünya insanları ("mərdom-i aləm"), xüsusən də adlı-sanlı padşahlar gərək dediklərindən dönməsinlər, son günə qədər səy etsinlər. Hər halda, qaladan çıxıb bizim ayağımızı öpmək şərəfinə nail olun ki, sizin təqsirinizi əfv edib bağışlayım. Əks təqdirdə, qızılbaş cavanları və aslan ovlayıcı sufilər fələk divarlı hasarı (Mərv qalasını) iti qılıncları ilə fəth edəcəklər".* Şeybani xan açıq döyüşə girməkdən çəkinərək, şahın elçisinə bildirdi: *"Şeyxoğluya deyərsən ki, siz Türküstanın qiyamət əlamətli ordusunun yanımızda olmamasından istifadə edib, bizim üstümüzə gəlmişsiniz. Hər halda, hər kəs öz işinə nəyin sərfəli olduğunu yaxşı bilir və hərbçiliyin bir çox cəhətləri vardır ki, siz hələ onlardan xəbərsizsiniz. Hərgah bir ay da qala ətrafında gözləsəniz, onda bilərəm ki, sizdə mərdliyin olmasına şübhə yoxdur"*[1].

Açıq vuruşmalara öyrəşmiş və qalaların fəthində çətinlik çəkən süvari qızılbaş ordusu üçün Orta Asiya xanlarının orduları gəlib çatana qədər, tez bir zamanda Mərvi zəbt etmək olduqca mürəkkəb vəzifə idi. Bu döyüşlə bağlı həmin problemə diqqət çəkən İsgəndər bəy Münşi yazır ki, "Süleyman şanlı xaqan həmişə səf çəkməyi və düşmənlə üzbəüz vuruşmağı qala döyüşündən daha çox sevirdi" və bu səbəbdən də o, özbəkləri qaladan çıxarıb darmadağın etməyi planlaşdırırdı[2].

Eyni zamanda, özbək komandanlığı da mühasirədən qurtulmaq təşəbbüsü göstərdi. Lakin Kuçum xanın başçılığı ilə qaladan çıxan özbək qoşun dəstəsinin qızılbaş mövqelərinə etdiyi həmlə onlar üçün tam uğursuzluqla nəticələndi. Daha bir neçə gün keçdikdən sonra Urgənc hakimi Barsil xandan İsmayılın hüzuruna elçi gəlib, 20 şaban tarixində yazılmış ərizə gətirdi. Barsil xan həmin ərizədə Məhəmməd Teymur sultan, Übeydulla xan və Canibəy sultanın komandanlığı ilə 60 minlik özbək ordusunun Mərvə gələcəyi barədə Şah İsmayıla xəbərdarlıq edir və *"Şahibəy xanın işini onlar gələnə qədər bitirmə-*

---

[1] Aləmara (Sahib), s.356; Aləmara (Şükri), s.298-299.
[2] Tarix-i aləmara-yi Abbasi (Tehran), s.37.

*yi"* məsləhət görürdü[1]. Barsil və ya İlbars xan zahirən Şeybani xanın vassalı olsa da, əslində ona qarşı düşmən mövqedə dururdu. O.Ekayev bu düşmənçiliyi onun atası Burge sultanın hələ XV əsrin sonunda Şeybani xan tərəfindən öldürülməsi ilə əlaqələndirmişdir[2].

Belə olduqda Şah İsmayıl Şeybani xana aldadıcı məktub göndərərək, onu hiylə ilə qaladan çıxarmağı qərara aldı. Xandəmirin məlumatına görə, Şah İsmayıl özbək hökmdarına məktub yazaraq, qışı münasib bir yerdə keçirmək üçün Mərv ətrafından getdiyini və baharda təkrarən müharibəyə başlayacağını elan etdi. İsgəndər bəy Münşi isə qeyd edir ki, şah həmin məktubda "Azərbaycanda iğtişaşlar baş verməsi səbəbindən" Mərvin mühasirəsindən əl çəkib geri qayıtdığını bildirmişdi[3]. Lakin Şah İsmayılın bütün Xorasan əməliyyatları və Mərv döyüşü haqda digər mənbələrdən daha ətraflı və nadir məlumatlar verən "Aləmara" müəllifi qeyd edir ki, Barsil xanın məktubunu alan İsmayıl *"böyük əmirlərdən"* Hüseyn bəy Lələni, Əmir Nəcm-i Sanini, Durmuş xan Şamlunu, Mirzə Məhəmməd Talışı, Abdal bəy Dədəni, Mənsur bəy Qıpçağı və Həsən bəy Halvaçıoğlunu çağıraraq, onlarla məsləhətləşmiş və qərara alınmışdı ki, özbəkləri qaladan çıxarmaq məqsədi ilə *"şayiə yayılsın ki, rumilər gəlib Azərbaycan vilayətini zəbt ediblər və biz geri qayıdırıq",* bundan sonra isə ordu geri çəkilsin və Şeybani xan qaladan çıxıb onları təqib etmək istədikdə pusquya salınıb darmadağın edilsin. Bu məqsədlə Azərbaycanda olan İbrahim mirzənin adından şaha ünvanlanmış saxta ərizə tərtib edildi: *"Sultan Səlim Rum qoşununun 120 min nəfəri ilə Təbrizə daxil olub və biz fərar edib Ərdəbilə getmişik. Bu ərizə nəzərinizə çatan kimi dərhal yola düşüb özünüzü yetirin ki, Sultan Səlim Ərdəbil vilayətini işğal etmək niyyətindədir".* Ərizəni bir çapara verib, gizlicə ordugahdan kənara göndərdilər və ona bu ərizəni çaşt vaxtı şaha çatdırmağı tapşırdılar. Səhəri gün həmin çapar gəldikdə şah dərhal orduya ən zəruri əşyaları götürüb yola çıxmağı əmr etdi.

---

[1] Aləmara (Sahib), s.357-360; Aləmara (Şükri), s.299-303.
[2] О.Экаев. Туркменистан и туркмены, с.45.
[3] Həbibüs-siyər, s.510-511; Tarix-i aləmara-yi Abbasi (Tehran), s.37.

Qızılbaş düşərgəsindəki bu qalmaqalı qala divarları üzərindən seyr edən Şeybani xan heyrətə düşdü. Bu zaman şahdan elçi gəlib, Azərbaycanda qarışıqlıqların baş verdiyini, İsmayılın bu səbəbdən geri qayıtmalı olduğunu bildirdi və şahın Xorasanı Şeybani xana vermək surəti ilə sülh bağlamağa razı olduğunu qeyd etdi. Bir qədər sonra qızılbaş ordugahından özbək casusu gəlib təsdiqləyici xəbər gətirdi: *"Sultan Bayəzidin oğlu Sultan Səlim Diyarbəkrə hücum edib, sipəhsalar Məhəmməd xanı və onun qardaşı olan Qara-Həmid hakimi Qaraxanı öldürmüş və bütün Azərbaycan ölkəsini zəbt etmişdir. İbrahim mirzə Təbrizdən köç və binəsi ilə fərar edib, Ərdəbilə gəlmişdir. Qızılbaşlar bu xəbəri eşitdikdə hamısı ağlamağa və zarımağa başlamışlar və günün çaşt vaxtından indiyə qədər artıq onlardan 2-3 min nəfəri yola düşüblər. Nəhayət, Şeyxoğlu ordunun əsas hissəsi ilə qalmışdır və belə görünür ki, gecə vaxtı köç edəcəkdir"*[1].

"Aləmara"nın və digər mənbələrin məlumatına görə, bəzi özbək sərkərdələri qızılbaş ordusunun geri çəkilməsinin hiylə ola biləcəyini söyləyərək, Şeybani xana Mavəraünnəhrdən kömək gələnə qədər qaladan çıxmamağı məsləhət görmüş, lakin Şeybani xan öz arvadı Moqol xanımın təhriki ilə Şah İsmayılı təqib etmək qərarına gəlmişdi[2]. Beləliklə, sübh vaxtı Şeybani xan Mərv qalasını tərk edib, "geri çəkilən" qızılbaş ordusuna "həlledici zərbə" vurmaq üçün hərəkət etdi. Özbək ordusu Mahmudi çayını keçərək, qızılbaş ordusunun "arxada qalmış" hissələrinə – Abdal bəy Dədə və Əmir xan Mosullunun qüvvələrinə həmlə etdi. Lakin İsmayılın əvvəlcədən planlaşdırdığı kimi, pusquda durmuş Hüseyn bəy Lələnin 400 nəfərlik dəstəsi Mahmudi çayı üzərindəki körpünün iki aşırımını uçurub, özbəklərin Mərvə tərəf qayıtmaq yolunu kəsdi. Digər istiqamətlərdə pusquda dayanmış qızılbaş qoşunları hər tərəfdən özbək ordusuna qarşı hücuma keçdilər[3].

---

[1] Aləmara (Sahib), s.361-363; Aləmara (Şükri), s.305-308.

[2] Aləmara (Sahib), s.364; Aləmara (Şükri), s.309; M.N.Şeybani. Cəng-i Şah İsmail-i Səfəvi ba ozbəkan, s.55.

[3] Aləmara (Sahib), s.365-366; Aləmara (Şükri), s.309-311. Mərv döyüşünün 1 dekabr 1510-cu ildə (О.А.Эфендиев. Образование азербайджанского

Məhz burada, Mərvdən üç fərsəx cənubda yerləşən Mahmudabad adlı yerin yaxınlığında Səfəvi və Şeybani orduları arasında həlledici vuruşma baş verdi. Mənbələr bu döyüşdə iştirak edən orduların sayı haqqında müxtəlif məlumatlar verirlər. Bizim müəllif öz adətinə uyğun surətdə rəqib tərəfin qüvvələrinin sayını şişirdərək, onları 30 min, qızılbaşların sayını isə azaldaraq, 12 min nəfər göstərir[1]. Lakin elə “Aləmara”nın öz məlumatları bu rəqəmləri təkzib edir. Belə ki, Səfəvi elçisi Xəlil ağa Rumlunun Xorasandan şah üçün göndərdiyi xəbərdə bildirilirdi ki, Heratda olan Şeybani xanın yanında cəmi 4 minlik qoşun vardır. “Aləmara” üzərində apardığımız hesablamalar bunu deməyə əsas verir ki, qızılbaşlar Xorasana daxil olub orada irəliləməyə başladıqdan sonra Pül-körpü və Simnandan 1 min, Damğandan 4 min, Nişapur və Səbzəvardan 2 min, Məşhəddən və bəzi digər Xorasan şəhərlərindən də daha bir neçə min özbək döyüşçüsü qaçıb, Şeybani xanın yanına gəlmişdi[2]. Belə olan təqdirdə Şeybani xanın birdən-birə 30 minlik orduya malik olması haqqında informasiya həqiqətə uyğun deyildir.

İsgəndər bəy Münşi də qüvvələr nisbətinin özbəklərin xeyrinə – 30 minə qarşı 17 min nəfər olduğunu bildirir[3]. İngilis müəllifi P.Sayks da, görünür, Səfəvi mənbələrinin təsiri altında qalaraq, Mərv ətrafında 17 min Səfəvi döyüşçüsünün Şeybani xanın 28 minlik ordusuna qarşı vuruşduğunu yazır[4]. Lakin digər mənbə və araşdırmalara görə, Şah İsmayılın 30-40 minlik ordusu müqabilində[5] Şeybani xanın cəmi 15 minlik qoşunu vardı[6]. Həmin hadisələrin müasiri olmuş Mirzə Məhəmməd

---

государства Сефевидов, с.110; R.Ə.Ağayev. Azərbaycan və Mərkəzi Asiya, s.103) və ya 2 dekabr 1510-cu ildə (30 şaban 916) baş verdiyi haqqında fikirlər mövcuddur (R.M.Savory. The Consolidation, p.79).

[1] Aləmara (Sahib), s.365-366; Aləmara (Şükri), s.310-311.

[2] Aləmara (Sahib), s.338-350; Aləmara (Şükri), s.282-293.

[3] Tarix-i aləmara-yi Abbasi (Tehran), s.38.

[4] P.A.Sykes. A History of Persia, vol. II, London, 1921, p.160.

[5] Bax: M.N.Şeybani. Cəng-i Şah İsmail-i Səfəvi ba ozbəkan, s.56; X.Bəyani. Nizam-i İran dər doure-yi Səfəvi. Tehran, 1353, s.378.

[6] Bax: Шараф-наме, т. II., с.155; Tarix-i cahanara, v.205b; Rövzətüs-Səfəviyyə, s.237; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.110.

Heydər Duqlat Mərv döyüşündə özbəklərin 20 minlik ordusuna qarşı Səfəvi döyüşçülərinin sayının 40 min olduğunu qeyd etmişdir[1]. Beləliklə, reallıq bundan ibarətdir ki, həmin vuruşmada qızılbaşların sayı özbəklərin sayından təxminən iki dəfə çox idi. Mərv döyüşündə qızılbaş ordusunun “böyük əmirlərindən” Bayram bəy Qaramanlu, Çayan sultan Ustaclu, Div sultan Rumlu, Badincan sultan Rumlu, Hüseyn bəy Lələ, Abdal bəy Dədə, Durmuş xan Şamlu, Zeynal xan Şamlu, Əmir xan Mosullu, Mirzə Məhəmməd Talış, həmçinin vəkil Nəcm-i Sani iştirak edirdilər[2].

“Aləmara”ya görə, cəmi üç saat ərzində özbək ordusunun sağ və sol cinahları sıradan çıxarıldı. Özbəklər vahimə içərisində pərən-pərən düşüb, o taya keçmək üçün özlərini çaya atırdılar. Bəzi özbək döyüşçüləri isə çayı keçməyə macal tapmayıb, bataqlıqda qərq oldular. Belə ki, hələ Səlcuq hökmdarı Sultan Səncər (1118-1157) ova çıxarkən həmin çöldən keçməli olmuş, bəzi adamları ilə birlikdə bataqlığa düşmüş, onun həyatını xilas etmək mümkün olsa da, sultanın gözləri qarşısında 10 nəfər süvari bataqlıqda həlak olmuşdu. Bunu görən Sultan Səncər bataqlıq ərazinin dörd tərəfdən hasarlanmasını əmr etmişdi. Səlcuq sultanının göstərişi ilə tikilmiş həmin hasarın bir tərəfi əsrlər ərzində çökmüş, üç tərəfi isə salamat qalmışdı. Bu əhvalatdan xəbərsiz olan təxminən yüzə qədər özbək döyüşçüsü həmin hasarı istehkam zənn edib, daldalanmaq, müqaviməti davam etdirmək üçün oraya sığındılar. Başqa çıxış yolu görməyən Şeybani xan da öz alaşa atını onların ardınca çapıb, oraya daxil oldu. Tez bir zamanda hasarın içindəki özbək əsgərlərini bataqlıq udmağa başladı. Həmin bataqlığa düşmüş Şeybani xanı Şah İsmayılın Adi Mehtər ləqəbli mehtəri oradan çıxardı, daha sonra isə onu qətlə yetirdi və şahın əmri ilə onun əvvəlcə başını, sonra isə əllərini dirsəyədək və ayaqlarını dizədək kəsdi[3]. Digər məlumata görə isə, Şeybani xan öz ordusunun tapdaqları altında həlak olmuş, da-

---

[1] Тарих-и Рашиди, с.311-312.
[2] Cahangüşa-yi xaqan, s.376.
[3] Aləmara (Sahib), s.366-369; Aləmara (Şükri), s.311-314.

ha sonra onun başı bozcalu tayfasından olan Adi Bahadır ləqəbli Əziz ağa tərəfindən kəsilib şaha aparılmışdı[1].

Beləliklə, pusquya salınmış özbək ordusu darmadağın edildi: *"Həmin döyüşdə Durmuş xan özünü Canvəfa mirzəyə yetirib, onu tanımadan qətlə yetirdi və özbək ordusundan çoxları həmin döyüşdə həlak oldu. Uzun sözün qısası, Çingiz xan nəslindən olan 400 sultan o döyüşdə öldürüldü və özbək ordusunun qalıqları qaçıb özlərini qalaya çatdırmaq istədilər. Lakin körpü uçurulduğundan, bu, mümkün olmadı. Bəziləri özlərini suya vurub, fəna bəhrində qərq oldular və əksəriyyəti o səhrada pərakəndə olub, Türküstan tərəfə getdilər".* "Aləmara" müəllifinin məlumatına görə, Mərv döyüşündə iştirak edən özbək döyüşçülərindən yalnız 2 min nəfəri xilas ola bildi[2]. Daha dəqiq faktlara əsasən, Mərv döyüşündə Şeybanilərin 10 min döyüşçüsü həlak olmuşdu[3]. "Aləmara"nın və digər mənbələrin məlumatlarından aydın olur ki, əslində Şah İsmayıl Mərv döyüşündə "qurd oyunu"ndan, yəni qədim Turan taktikasının incəliklərindən istifadə etməklə qalib gəlmişdi[4]. Bir venesiyalı səyyahın təbirincə desək, "cəmi dörd saat çəkmiş bu döyüş İsmayılın üstün bacarığını, onun böyük şücaətini və sərkərdəlik məharətini göstərdi"[5]. Hətta qızılbaşlara qarşı mənfi münasibət bəsləyən Mirzə Məhəmməd Heydər Duqlat bu vuruşmada iştirak edən bütün özbək sərkərdələrinin həlak olduqlarını və tarixdə buna bənzər bir döyüşün olmadığını qeyd edir[6].

Mərv döyüşünün qızılbaşların qələbəsi ilə bitməsində Şah İsmayılın hərbi istedadı ilə yanaşı, Şeybani xanın buraxdığı səhvlərin də rolu olmuşdur. Belə ki, Şeybani xan Orta Asiyada qazax xanlarına, Əfqanıstanda Qur və Qərcistan hakimlərinə, həmçinin Kabildə məskən salmış Teymuri şahzadəsi Babura qarşı intensiv əməliyyatlar apardığı, özbək xanlarının öz ara-

---

1 Cahangüşa-yi xaqan, s.380.
2 Aləmara (Sahib), s.369; Aləmara (Şükri), s.314.
3 О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.110; M.N.Şeybani. Cəng-i Şah İsmail-i Səfəvi ba ozbəkan, s.56.
4 Bu taktika barədə kitabımızın III fəslinin 2-ci paraqrafında məlumat verilmişdir.
5 Travels of Venetians, p.117; Seyyahların gözüyle, s.96.
6 Тарих-и Рашиди, с.312.

sında müxtəlif ixtilafların mövcud olduğu bir vaxtda Şah İsmayılla toqquşmaya girmiş və bu, onun üçün fəlakətlə nəticələnmişdi. Başqa sözlə desək, yenicə qurduğu dövlətə qarşı şimaldan – Dəşt-i Qıpçaqdan və cənubdan – Əfqanıstandan olan təhdidləri tam kənarlaşdırmadan, öz dövləti daxilində birliyi təmin etmədən Şeybani xanın Azərbaycan Səfəvilər dövlətinə açıq-aşkar meydan oxuması hərbi-siyasi strategiya baxımından çox ciddi səhv idi. Onun bu səhvlərini başa düşmək, onlardan məharətlə istifadə etmək və Şeybani xanın gözləmədiyi, onun öz qüvvələrini Orta Asiyanın və Xorasanın müxtəlif yerlərinə səpələdiyi bir məqamda müharibəyə başlamaq isə Şah İsmayılın bir dövlət xadimi və komandan kimi yüksək səriştəsindən xəbər verir.

Şah İsmayıl iki gün döyüş meydanında qalıb, körpünü təmir etdirəndən sonra, üçüncü gün Mərv şəhərinə daxil oldu. Şeybani xanın vəziri Xoca Mahmud Sağərçi bir qrup Mərv zadəganı ilə birlikdə əllərində qızıl dolu tabaqlar tutaraq, şahı qarşılamağa çıxdı. Şah Mərvə gəlməzdən öncə Übeydulla xan 10 minlik qoşunla qala ətraflna gəlmiş, lakin Şeybani xanın məğlubiyyəti və öldürülməsi xəbərini eşidib, onun arvadı Moqol xanımı götürərək, Buxaraya qaçmış, digər özbək sərkərdələri də məğlubiyyət xəbərini alıb, öz vilayətlərinə qayıtmışdılar[1]. Bununla da Şah İsmayılın Xorasanı fəth etmək üçün keçirdiyi iki aylıq hərbi kampaniya müvəffəqiyyətlə başa çatdı. Mərv qələbəsi Səfəvilər dövlətinin beynəlxalq nüfuzunu xeyli gücləndirdi. İtaliya mənbələrinin məlumatına görə, “bu qələbədən sonra Osmanlı və Misir sultanları İsmayılın gücündən xeyli qorxuya düşmüşdülər”[2].

Şah İsmayıl Xorasan yürüşünün əvvəlində Damğana yiyələndikdən sonra paytaxtı Sari şəhəri olan Şərqi Mazandaranın hökmdarı Ağa Rüstəm Ruzəfzuna xəbər göndərərək, itaət etməsini tələb etmişdi. Bu mazandaranlı hökmdar, Şeybani xanla müttəfiqlik edirdi və öz qızını onun oğlu Məhəmməd Teymur sultana nişanlamışdı. Şahın Ağa Rüstəmə yolladığı mək-

---

[1] Aləmara (Sahib), s.369-372; Aləmara (Şükri), s.314-318; О.Экаев. Туркменистан и туркмены, с.104-107.

[2] Travels of Venetians, p.57; Doğuda Venedik elçileri, s.60.

tubda deyilirdi: *"Hal-hazırda zati-alilərimiz Şahibəy xanla döyüşmək iradəsi ilə cah-calalla Damğan qalasına varid olub, Xorasana irəliləməkdədir. Gərək zati-alilərimizin imzası olan bu məktub sizə çatdıqda Mazandaranın divlər ordusunu götürüb, qarşısında aləmin müti olduğu dərgahımıza üz tutasınız. İnşallah-taala, Pərvərdigar-i aləmin köməyi və həzrət imamların – onlara salam olsun – mədədi sayəsində Şahibəy xanı dərya təlatümlü qızılbaş ordusu ələ keçirəcək, Xorasan və Türküstan vilayətləri qüdrətli dövlətimizin valilərinin ixtiyarına keçəcəkdir. Onda biz külli Mazandaranın padşahlığını sizə şəfəqqət edib, hörmətinizi saxlayacağıq. Yox, əgər etinasızlıq göstərsəniz, onda siz də Hüseyn Kiya Çəlavi kimi qəfəsə salınıb, zati-alilərimizin qəhredici atəşində yanacaqsınız".* Lakin Ağa Rüstəm Şah İsmayılın elçisinə *"mənim əlim Şahibəy xanın ətəyindədir"* deyərək, özbək hökmdarına güvəndiyini bildirmiş və Səfəvilərə tabe olmaqdan imtina etmişdi. Buna görə də Şah İsmayıl Mərv qələbəsindən sonra Şeybani xanın kəsilmiş əlini bu hadisədən hələ xəbərsiz olan Mazandaran hökmdarı üçün göndərdi. Həmin vaxt Ağa Rüstəm Qülzüm (Xəzər) dənizinə tökülən Təcinərud çayı vadisində, Tahunə qəsəbəsində mazandaranlıların su bayramı şənliklərində iştirak edirdi. O, orada 300-400 nəfər Mazandaran əyanının iştirakı ilə böyük bir məclis tərtib etmişdi və məclisdə Firdovsinin "Şahnamə" əsərinin qəhrəmanlarından söhbət düşmüşdü. Elə bu zaman Ağa Rüstəmin hüzuruna gələn qızılbaş elçisi Şeybani xanın əlini onun ətəyinə ataraq, şahın sözlərini çatdırdı: *"Siz deyirdiniz ki, mənim əlim Şahibəy xanın ətəyindədir. Lakin sizin əliniz onun ətəyinə çatmadı. İndi, budur, Şahibəy xanın əli sizin ətəyinizdədir!".* Bu hadisədən dəhşətə gələn və Şah İsmayılın ondan intiqam alacağından çəkinən Ağa Rüstəm ah çəkib özündən getmiş və qorxudan ölmüşdü. Onun yerinə oğlu Ağa Məhəmməd Ruzəfzun keçdi və Səfəvilərə itaət göstərdi[1].

---

[1] Aləmara (Sahib), s.342-343,375-381; Aləmara (Şükri), s.321-328. Bu hadisə digər mənbələrdə də əksini tapmışdır (bax: Cahangüşa-yi xaqan, s.385-386; Tarix-i aləmara-yi Abbasi, Bakı, s.108 və s.).

Eyni zamanda, Şeybani xanın başının dərisi soyulub, samanla doldurularaq, Osmanlı sultanı II Bayəzidə göndərildi[1]. Şeybaninin başının qafa tası isə qızıla tutulub, kasaya və ya piyaləyə çevrildi və ondan şəxsən İsmayıl tərəfindən ziyafətlərdə istifadə olunurdu[2]. H.Roemerin sübut etdiyi kimi, bu, islamaqədərki qədim türk inanclarına bağlı bir ayin olmuşdur. Çünki qədim türk adət-ənənəsinə görə, qalib şəxs öldürdüyü düşmənin başından cam düzəldib ondan içdikdə, guya bu vasitə ilə ölmüş düşmənin bütün gücü-qüvvəsi qalib şəxsə keçirdi[3].

Şah İsmayılın əmri ilə Qulucan bəyin başçılıq etdiyi qızılbaş dəstəsi müdafiəsiz qalmış Herata göndərildi. Lakin şəhər zadəganları qızılbaşları qarşılamağa çıxmayıb, onların qabağına "bazar adamları"nı göndərməyi qərara aldılar. Bundan qəzəblənən Qulucan bəy orada zorakılıq və qırğınlarla müşayiət olunan şiə islahatı həyata keçirdi. Sünni məzhəbli şəhər qazısı, xətibi, kələntəri, şeyxülislamı başda olmaqla bir sıra şəxslər şiəliyi qəbul etmədikləri üçün qətlə yetirildilər. Həmçinin Herat çarşısındakı mühafizə dəstəsinin başçısı Pəhləvan Məhəmməd Ehdas qızılbaş zabitinin qəzəbinə düçar oldu və dərhal öldürüldü[4]. Həmin hadisənin canlı şahidi olmuş məşhur tarixçi Zeynəddin Mahmud Vasifi də bu məsələləri özünün "Bədayəül-vəqayə" ("Heyrətamiz hadisələr") əsərində qeyd etmiş, hətta şəxsən ölümlə üzləşdiyini, lakin təsadüf nəticəsində sağ qaldığını bildirmişdir[5]. Qulucan bəyin bu "islahat"ının ardından, 20 ramazan 916 / 21 dekabr 1510-cu ildə Şah İsmayıl Sultan Hüseyn Bayqaranın keçmiş paytaxtına daxil oldu və həmin qışı orada keçirdi. Bayqaranın sarayına qədəm qoyan Şah İsmayıl onun ruhuna hörmət əlaməti olaraq fatihə oxudu[6].

---

[1] Aləmara (Sahib), s.382-384; Aləmara (Şükri), s.329-331.
[2] Tarix-i səlatin-i Səfəviyyə, s.33-34.
[3] H.R.Roemer. Die Türkmenishen Qizilbaş, s.234.
[4] Aləmara (Sahib), s.397-399; Aləmara (Şükri), s.344-346.
[5] А.Н.Болдырев. Очерки из жизни гератского общества на рубеже XV-XVI вв. // Труды Отдела истории культуры и искусства Востока Государственного Эрмитажа, т. IV. Ленинград, 1947, с. 372-377.
[6] Aləmara (Sahib), s.400-401; Aləmara (Şükri), s.346-347; R.M.Savory. The Consolidation, p.79.

Beləliklə, Xorasanın və Heratın fəthindən sonra şahın ərazisi Amudəryadan İran körfəzinə, Əfqanıstandan Fərat çayına qədər uzanırdı[1]. Hələ ortaya çıxdığı zaman çökməkdə olan Ağqoyunlu ölkəsini ələ keçirmək surəti ilə şiə dövləti qurmağı planlaşdıran Şah İsmayıl qısa zaman ərzində arzuladığından daha artığına sahib olmuşdu[2].

Şeybani xanın məğlubiyyətindən sonra Mərkəzi Asiyanın bir sıra hakimləri Şah İsmayıla itaət etdilər. Hələ Mərvin mühasirəsi zamanı Şah İsmayılla yaxşı münasibətlər saxlayan Urgənc hakimi Barsil xan özbək ordusunun məğlubiyyətindən dərhal sonra Şah İsmayılın adına sikkə kəsdirib, on iki imam xütbəsi oxudub, Səfəvi hakimiyyəti altına keçdiyini bəyan etdi. Onun əmisi Şərif Sufi qardaşı oğlunun bu hərəkətindən narazı qalıb, Məhəmməd Teymur sultandan yardım aldı və Urgənci mühasirə etdi. Özünün 2 minlik qüvvəsini şəhərin müdafiəsində qoyan Barsil xan min döyüşçüsü ilə Şah İsmayılın Mərvdəki düşərgəsinə gəlib, ondan 6 minlik qızılbaş qoşunu aldı və Urgənc ətrafında baş vermiş döyüşdə Şərif Sufi məğlubiyyətə uğradılıb qətlə yetirildi[3].

Şah İsmayıl Herat ətrafında olarkən Sistan vilayətinin irsi hakimi Məlik Sultan Mahmud 500 nəfərlik bir heyətlə onun hüzuruna gələrək, itaətini bildirdi və Səfəvilərin vassalına çevrildi[4].

Mərv qələbəsindən sonra Şah İsmayılın Kabildə hökmranlıq edən Teymuri şahzadəsi, Şeybanilərin qatı düşməni, Ömərşeyx mirzənin oğlu Babur şahla mehriban münasibətləri quruldu. İlk addım İsmayıl tərəfindən atıldı: o, öz qələbəsinin ardından Baburun bacısı Xanzadə bəyimi Şeybani xanın on illik əsirliyindən azad edərək, onu böyük ehtiramla Baburun hüzuruna göndərmişdi. Şah İsmayıl tərəfindən göstərilmiş bu dostluq təşəbbüsü Babura öz irsi torpaqlarını qaytarmaq uğ-

---

[1] S.Lane-Poole. The Mohammadan Dinasties. New-York, 1965, p.255-256.
[2] T.Yazıcı. Şah İsmail b. Şeyh Haydar // İA, XI. c., 1979, s.277.
[3] Aləmara (Sahib), s.386-387; Aləmara (Şükri), s.334-335; O.Экаев. Туркменистан и туркмены, c.52.
[4] Тарих-и ихйа ал-мулук, c.69.

runda apardığı mübarizədə onun dəstəyinə ümid bağlamağa imkan verdi[1].

Əvvəlcə Baburun əmisi oğlu, Bədəxşan hakimi Üveys mirzə həm öz adından, həm də Baburun adından Şah İsmayılın qərargahına gələrək, orada hörmətlə qarşılandı. Səfəvi hökmdarı şiəliyi qəbul etmiş Üveysə "Xan-Mirzə" ləqəbini verib, onu öz vassalı kimi Bədəxşan hakimliyinə təsdiq etdi. Eyni zamanda, Babur da başına qızılbaş tacı qoyub, özünü Şah İsmayılın vassalı elan etdi[2]. Bu məlumatı hətta Mirzə Məhəmməd Heydər Duqlat da təsdiq edərək, Baburun qızılbaş paltarı geydiyini və qızılbaş tacı örtdüyünü yazır[3].

1510-11-ci ilin qışında qızılbaş ordusu Bəlx vilayətinə daxil olub, oranı ələ keçirdi. Öz oğulları Gəskən Qara sultan və İsgəndər sultanla birlikdə Bəlx qalasını bir ay ərzində müdafiə etmiş Şeybani xanın əmisi oğlu Canibəy sultan Otrar vilayətinə qaçmalı oldu. Şah İsmayıl ustalara Ceyhun (Amudərya) çayında bərə körpü düzəltməyi əmr etdi. Qızılbaşların Ceyhun çayını keçib Məvəraünnəhrə soxulmaq istəyindən xəbər tutan Buxara hakimi Übeydulla xan və Səmərqənd hakimi Məhəmməd Teymur sultan 1511-ci ilin yaz fəslinin əvvəllərində öz elçilərini şahın hüzuruna göndərib, ona itaət ərizəsi və qiymətli peşkəşlər – qırğız atları, samur dərisi, yaqutlar, bəzək və zinət əşyaları, Çindən gətirilmiş dərman otları (rivənd və s.), müşk, ipək parçalar, kənizlər və s. təqdim etdilər. Şah İsmayılın özbək elçiləri ilə danışıqlarının nəticəsi olaraq, Səfəvilər və Şeybanilər dövlətləri arasında Ceyhun çayı sərhəd elan olunmaqla sülh bağlandı[4].

---

[1] Р.М.Мамедова. Взаимоотношения шаха Исмаила и основателя империи Великих Моголов Бабура // Вопросы истории культуры Азербайджана. Баку, 1988, с.44; Шараф-наме-йи шахи, с.85.

[2] Aləmara (Sahib), s.388-391; Aləmara (Şükri), s.335-339. "Aləmara"da Baburun şəxsən Şah İsmayılın hüzuruna gəlib, onunla görüşdüyü qeyd olunmuşdur. Səfəvi dövrünün rəssamlarından olan Əliqulu bəy 1665-ci ildə II Şah Abbasın sifarişi ilə Baburun Şah İsmayılla görüşünü əks etdirən bir miniatür çəkmişdir (bax: O.Ə.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, 2007, 5-ci şəkil).

[3] Тарих-и Рашиди, с.323; Р.М.Мамедова. Взаимоотношения, с.45.

[4] Aləmara (Sahib), s.392-396; Aləmara (Şükri), s.339-343.

Şah İsmayıl yeni fəth olunmuş ərazilərdə mövqeyini möhkəmlətmək üçün Mərvi Abdal bəy Dədəyə, Heratı Hüseyn bəy Lələyə, Bəlxi öz yeznəsi Bayram xan Qaramanluya verdi və oralarda qızılbaş qarnizonları yerləşdirildi. 1511-ci ilin yazında İsmayıl üçün özbəklərlə sülh bağlayıb Azərbaycana qayıtmaq əlverişli idi. Çünki Osmanlı ərazisində maraqlı hadisələr (şahzadələr arasında rəqabətin alovlanması, ölkədaxili qiyam və üsyanlar) cərəyan edirdi və İsmayıl belə bir şəraitdə Orta Asiyada ilişib qalmaq istəmirdi. Lakin sonrakı hadisələr göstərdi ki, özbək xanları üçün bu sülh, əslində, formal xarakter daşıyırdı.

1511-ci ildə Canibəy sultanın oğlu, Daşkənd hakimi Qara Gəskən Bahadır Səfəvilərin vassalı olan Xan-Mirzəyə məxsus Bədəxşan vilayətini işğal etdi. Amma şahın əmri ilə Bəlxdəki qızılbaş əmiri Bayram xan Qaramanlunun göndərdiyi 5 minlik qoşun özbək dəstələrini həmin ərazidən vurub çıxardı və orada Xan-Mirzənin hakimiyyətini bərpa etdi[1]. Hələ özbək xanları ilə sülh bağlayarkən İsmayıl xüsusi fərman imzalamışdı ki, *"əgər Türküstan padşahları öz əhdü-peymanlarından dönsələr, onda biz Ceyhun çayı kənarından ta Dəşt və Xətay vilayətlərinə qədər uzanan Türküstan vilayətini Sahibqiranın (Əmir Teymurun) nəvəsi Babur padşaha bəxş edəcəyik ki, onun mülazimlərinin ixtiyarında qalsın"*[2]. Bədəxşan insidentindən istifadə edən Babur İsmayıla aşağıdakı məzmunda məktub yazıb, Türküstanın fəthi üçün icazə və hərbi yardım istədi: *"Pis niyyətli özbək padşahları aləmin pənah gətirdiyi dərgahın vassallarından biri olan Xan-Mirzəyə məxsus Bədəxşan vilayətinə əl uzadıb, oranı zəbt etmiş, bununla da ulu dərgahın qarşısında puç və ziyankar olmuşlar. Xahiş edirəm ki, dünya hökmdarı nüsrət dəstgahlı qızılbaş ordusundan bir qədərini bu kəmtər bəndənin yanına göndərsin ki, biz cağatay qoşununu da götürüb, dünya hökmdarının hüsn-rəğbəti ilə və Həzrət Əmirülmömininin Xeybəri açan qolunun*[3] *qüvvətinin zoru sayə-*

---

[1] Aləmara (Sahib), s.401; Aləmara (Şükri), s.348-349.
[2] Aləmara (Sahib), s.396; Aləmara (Şükri), s.344.
[3] Xeybər – güclü istehkama malik bir yəhudi şəhəri olub, 628-ci ildə Həzrət Əlinin başçılıq etdiyi müsəlman ordusu tərəfindən fəth edilmişdi. Rəvayətə

*sində Türküstan vilayətini pis fikirli özbək ordusunun qeyri-məhdud mövcudluğunun çirkabından pak edib, o vilayəti qüdrətli dövlətin valilərinin ixtiyarına keçirək. Qoy bununla Türküstan padşahlarına da zahir olsun ki, kama çatmış hökmdarın düşmənləri barəsində mürvəti və ehsanı nə qədərdir və indi xəlayiqin pənahı olan dərgahın mülazimləri həmçinin güc yolu ilə onların vilayətlərini zəbt edə bilərlər"*[1]. O, göndərdiyi elçilər vasitəsilə Səfəvilərdən kömək alıb Səmərqəndə yiyələnəcəyi təqdirdə Şah İsmayılın şərəfinə xütbə oxudacağını və sikkə zərb etdirəcəyini vəd edirdi[2].

Baburun məktubunu alan və özbəklərin müqaviləni pozmasından qəzəblənən Şah İsmayıl Əlişəkər bəy Türkman Baharlu, Zeynal xan Şamlu, Məhəmməd sultan Sufioğlu Ustaclu və Badincan sultan Rumlu başda olmaqla 5 minlik qoşunu Bəlxə, Bayram xanın sərəncamına göndərdi və onlara Baburla birlikdə Türküstanı fəth etmək tapşırıldı. "Aləmara"ya görə, Babur özü də 20 minlik cağatay ordusu təşkil etmişdi[3]. R.Məmmədovanın məlumatına əsasən, Mavəraünnəhrə yürüşə hazırlaşan Baburun və qızılbaşların birləşmiş qüvvələrinin sayı 60 min nəfərdən ibarət idi və yerli əhalidən çox sayda könüllülər Babura qoşulmuşdular[4].

Birləşmiş ordu Şurqan ərazisini tutmaqla fəaliyyətə başladı və Ceyhun çayını keçib, Türküstana daxil oldu. Səmərqənd yaxınlığında baş vermiş həlledici döyüşdə qızılbaş və cağatay qoşunları Übeydulla xan, Məhəmməd Teymur sultan və Canibəy sultanın başçılıq etdikləri 60 minlik özbək ordusunu ağır məğlubiyyətə uğratdılar və böyük itki verən özbək xanları fərar etdilər[5]. Beləliklə, Böyük Moğolların rəsmi saray tarixçisi Əlla-

---

görə, Həzrət Əli öz əli ilə Xeybərin qala qapısını qoparıb çıxarmışdı. Burada həmin əhvalata işarə edilir.

[1] Aləmara (Sahib), s.402; Aləmara (Şükri), s.349-350.

[2] А.Фарзалиев, Р.Мамедова. Сефевиды и Великие Моголы, с.52.

[3] Aləmara (Sahib), s.402; Aləmara (Şükri), s.350. Əlişəkər bəy, Hümayun şah dövründə (1530-1556) Böyük Moğollar dövlətinin "xanlar xanı" ("xan-i xanan") olmuş Bayram xan Türkmanın babası idi: Aləmara (Şükri), s.353; Tarix-i aləmara-yi Abbasi (Bakı), s.216.

[4] Р.М Мамедова. Взаимоотношения, с.45.

[5] Aləmara (Sahib), s.403-404; Aləmara (Şükri), s.350-351.

mi Əbülfəzlin xronologiyasına görə, 917-ci ilin rəcəb ayının ortalarında / 1511-ci ilin oktyabrında Səmərqənd şəhəri Baburun əlinə keçdi[1]. “Aləmara”da qeyd olunur ki, qızılbaşlarla birgə Səmərqəndə daxil olan Babur özünü Şah İsmayılın *“bu mülkdəki canişini və vəkili”* elan etdi, həmçinin Səfəvi hökmdarının adına xütbə oxudub sikkə kəsdirdi. *“Dəşt-i Qıpçaq kənarından Ceyhun çayına qədər uzanan ərazidəki bütün özbək hakimləri dərya təlatümlü qızılbaş ordusunun qorxusundan öz vilayətlərini tərk edib, hərəsi bir guşəyə sığındılar. Bütün o vilayətlərdən Babur padşahın yanına adamlar gəldilər, o da hakimlər təyin edib, həmin ərazilərə yolladı”*[2].

Lakin Mavəraünnəhr əhalisinin mütləq əksəriyyəti sünni olduqlarından onlar Baburun şiə islahatını narazılıqla qarşıladılar[3]. “Aləmara”ya görə, iki aydan sonra *“qızılbaş və cağatay orduları arasında bir balaca narazılıq yarandı”.* Belə ki, cağataylar qızılbaş qoşununun çıxıb getməsini tələb etməyə başlamışdılar. Qızılbaş sərkərdələri özbək xanları tərəfdən təhlükənin hələ sovuşmadığını irəli sürüb, daha bir il qalmaq istəsələr də, Babur öz qoşununun tərəfini saxladı. O, Orta Asiyadakı qızılbaş qoşununun baş komandanı Bayram xan Qaramanluya üzrxahlıq və minnətdarlıq edərək, qızılbaş ordusunun Mavəraünnəhri tərk etməsini istədi. Babur qızılbaş əmirlərinə çox sayda peşkəşlər və hədiyyələr (qulamlar, kənizlər, qumaşlar, cavahirlər, qızlıllar) verib, onları hörmətlə yola saldı və Səfəvi hökmdarı üçün də sovqatlar göndərdi[4]. Şah İsmayıl bu hədiyyələrə görə təşəkkür etmək məqsədi ilə Qulucan bəyi elçi kimi Səmərqəndə yolladı. Şahın Babur üçün göndərdiyi qiymətli töhfələrin arasında Osmanlı sultanı II Bayəzidin Səfəvi sarayına yolladığı bəzi hədiyyələr da vardı. Bir ay orada qalan və Baburla görüşən qızılbaş səfiri Mavəraünnəhrdən narazı qa-

---

[1] Tarix-i Əkbəri, v.42a.
[2] Aləmara (Sahib), s.404-405; Aləmara (Şükri), s.352.
[3] С.А.Азимджанова. Государство Бабура, с.94; Шараф-наме-йи шахи, с.86; R.Ə.Ağayev. Azərbaycan və Mərkəzi Asiya, s.107.
[4] Aləmara (Sahib), s.405; Aləmara (Şükri), s.352-353.

yıtdı və Səfəvi sarayına gələrək, Baburun fəaliyyətindən gileyləndi[1].

Qızılbaş ordusunun Mavəraünnəhri tərk etməsindən istifadə edən Übeydulla xan qışı keçirdiyi Dəşt-i Qıpçaqdan baharın əvvəllərində qəti hərəkətə keçərək, Orta Asiyanın mərkəzinə soxuldu. 28 aprel 1512-ci ildə Buxara yaxınlığındakı Qul-i Malik gölü yanında baş vermiş döyüşdə Baburun qoşunu məğlub oldu və Mavəraünnəhr yenidən özbək xanlarının ixtiyarına keçdi[2]. Kabilə qaçan Babur məcbur olub, yenidən Şah İsmayıldan kömək istədi. O, öz məktubunda tədbirsizliyi üzündən Türküstan vilayətini əldən verdiyini etiraf edir, böyük bir hökmdar olan Şah İsmayılın onu sona qədər dəstəkləyəcəyinə ümidvar olduğunu bildirir, Səfəvi və Teymuri sülalələri arasındakı köhnə dostluq münasibətlərini xatırlayaraq, yenidən səltənətinə qovuşması üçün hərbi yardım xahiş edirdi. Şah İsmayıl bunun cavabında qızılbaş ordusunu Türküstan üzərinə göndərdiyini bildirir və Baburu da Bəlxə gedərək, onlarla birləşmək barədə təlimatlandırırdı. Şah İsmayıl qızılbaşların *“Dəşt-i Qıpçaq özbəklərini dəşt-i ədəmə (yoxluq çölünə) qədər qovacaqlarına”,* yəni onları məhv edəcəklərinə əmin olduğunu vurğulayırdı[3].

Lakin onsuz da qızılbaş ordusu hələ Baburun məğlubiyyətindən öncə Orta Asiyaya doğru yolda idi. Mavəraünnəhrdə olan qızılbaş zabiti Məhəmmədcan bəyin 1512-ci ilin əvvəllərində Şah İsmayıla verdiyi hesabatdan aydın olur ki, “Babur Səmərqənd və Buxara ətrafındakı qələbələrdən sonra təkəbbürlü olub, Səfəvilər dövləti ilə ittifaqı pozmaq istəyirdi”[4]. Əbdi bəyin məlumatına görə, 917 / 1511-12-ci ilin qışında şah Qumda olarkən ona Baburun dönük çıxması xəbəri çatdırılmış

---

[1] Aləmara (Sahib), s.409-410; Aləmara (Şükri), s.357.

[2] Aləmara (Sahib), s.406-409; Aləmara (Şükri), s.353-356; С.А.Азимджанова. Государство Бабура, с.96.

[3] Aləmara (Sahib), s.410-411; Aləmara (Şükri), s.358.

[4] С.А.Азимджанова. Государство Бабура, с.97; Y.E.Məmmədova. I Şah İsmayıl – Zəhirəddin Babur alyansına dair // Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), 2008, № 1, s.100.

və o, vəkil Əmir Nəcm-i Sanini Baburu cəzalandırmaq üçün Xorasana yollamağı qərara almışdı[1].

"Aləmara"nın materiallarından bəlli olur ki, Orta Asiyaya göndərilən Nəcm-i Saninin qarşısına ilkin olaraq özbək xanlarını tam darmadağın etmək və artıq Səfəviləri təmin etməyən Baburu hakimiyyətdən kənarlaşdırıb, onun yerinə Xan-Mirzəni təyin etmək tapşırığı qoyulmuşdu. Bu məqsədlə elə bir əzəmətli ordu hazırlanmışdı ki, bizim müəllifin yazdığına görə, həmin ordu ilə nəinki Türküstanı, lap "Çin və Maçin" ölkələrini də fəth etmək olardı. Lakin Nəcm-i Sani Bəlxə gəldikdə Baburun özbəklər tərəfindən məğlub edildiyini öyrənib, şahın əmri ilə onunla birləşərək, Orta Asiyada özbək xanlarına qarşı əməliyyatlara cəlb olundu. Nəcm-i Saninin Bəlxdə dislokasiya edilmiş ordusuna Abdal bəy Dədə, Hüseyn bəy Lələ, Vəlican sultan Əfşar, Zeynal xan Şamlu, Məhəmməd sultan Sufioğlu, Bayram xan Qaramanlu və onun kürəkəni Mirzə Məhəmməd sultan kimi sərkərdələr daxil idilər[2].

"Aləmara"ya görə, bu yürüşə 50 minlik qızılbaş qoşunu səfərbər edilmiş və Babur da 15 minlik qoşunla onlara qatılmışdı. Beləliklə, Mavəraünnəhrə yürüşə hazırlaşan müttəfiq qüvvələrin sayı 65 min nəfərə çatırdı[3]. Xandəmir bu yürüşə qatılan qızılbaş ordusunun 10-12 min, Mirzə Məhəmməd Heydər Duqlat 60 min, keçmiş Ağqoyunlu salnaməçisi Xunci Şeybanilərə sığındıqdan sonra yazdığı "Sülukül-müluk" ("Hökmdarların davranışları") əsərində 70 min, heratlı tarixçi Vasifi isə 80 min olduğunu yazırlar[4]. Göründüyü kimi, Xandəmirin timsalında rəsmi Səfəvi tarixçiləri qızılbaşlar üçün uğursuzluqla bitmiş bu yürüşə qatılan Səfəvi ordusunun sayını xeyli az göstərirlər, Xunci və Vasifi kimi Səfəvilərə mənfi münasibət bəsləyən müəlliflər isə qızılbaşların sayını biləərəkdən şişirdirlər. "Aləmara"nın təklif etdiyi rəqəm bizə daha real və obyektiv görünür.

---

[1] Təkmilətül-əxbar (Bakı), s.45.
[2] Aləmara (Sahib), s.411-412; Aləmara (Şükri), s.358-359.
[3] Aləmara (Şükri), s.359,371.
[4] Həbibüs-siyər, s.526; Тарих-и Рашиди, с.355; Х.Ш.Камолов. История вторжения кочевых племен, с.26.

Hərbi işdən başı çıxmayan və fitnəkar xasiyyətə malik olan Nəcm-i Saninin səriştəsiz komandanlığı üzündən bu kampaniya qızılbaş ordusu üçün fəlakətli məğlubiyyətlə sona çatdı[1]. Heç vaxt Mavəraünnəhrdə olmamış Nəcm-i Sani yerli şəraitə dərindən bələd olan Baburun təklif etdiyi əlverişli marşrutla deyil, özünün seçdiyi yöndəmsiz istiqamətdə irəliləməyi üstün tutdu. Doğrudur, əvvəlcə yürüş uğurla davam edirdi. Qızılbaşlar yol üstündəki bəzi qalaları ələ keçirib, irəliləməyə nail oldular. Lakin Nəcm-i Saninin əmirlərin məsləhətlərini qulaqardına vurması, əsgərlərə qarşı yersiz cəzalar verməsi, dinc sakinləri qırğına və zülmə məruz qoyması həm qızılbaş, həm də cağatay ordusu arasında narazılıqlara səbəb oldu. Çılğın və əsəbi Nəcm-i Sani Qərşi qalasının mühasirəsi zamanı səhlənkarlığa yol vermək üstündə hətta çox sevdiyi bacısı oğlu Məhəmməd Kazımı da edam etdirdi, lakin sonra əməlindən peşman olub, dəli olmaq dərəcəsinə çatdı. Qərşi alındıqdan sonra isə Şeyxüm mirzə başda olmaqla qalanın bütün qarnizonu və dinc əhalisi onun əmri ilə qətliam olundu. Hətta qaladakı itlərə və pişiklərə də rəhm olunmadı[2].

918-ci ilin şaban / 1512-ci ilin oktyabr ayında qızılbaş ordusu Buxara üzərinə hərəkət edərək, güclü istehkamlara malik Qicduvan (“Aləmara”da səhvən Büğlan yazılmışdır) qalasını mühasirəyə aldıqda Babur Nəcm-i Saniyə soyuqların düş-

---

[1] “Tarix-i həbibüs-siyər”, “Zeyl-i tarix-i rövzətüs-səfa” kimi farsdilli mənbələrə, həmçinin özbək xanlarının cağatayca yazılmış tarixlərinə istinad edən M.F.Axundov Nəcm-i Sanini “heç bir istedada” və “üstün keyfiyyətlərə malik olmayan”, korrupsiyaya qurşanmış, “müharibə aparmaq qaydaları barədə heç bir anlayışı olmayan” bir şəxs kimi xarakterizə etmişdir: М.Ф.Ахундов. Избранные произведения. Баку, 1987, с.218-224.

[2] Aləmara (Sahib), s.411-425; Aləmara (Şükri), s.359-371. Bu əməliyyat zamanı 15 min insan öldürülmüşdü: Ə.Vilayəti. Şah İsmayıl Səfəvi, s.79. Qərşi qalasında qırğın törədən Nəcm-i Sani bu hərəkəti ilə yerli əhalini qorxudacağını və onları daha asan tabe edəcəyini düşünürdü. Lakin onun bu planı tamamilə əks-effekt verdi. Bu əməliyyat həm qızılbaş ordusunun bir sıra əmirləri arasında narazılıq doğurdu, həm də yerli əhalinin Səfəvilərə və onların müttəfiqi olan Babura qarşı antipatiyasını gücləndirərək, onların daha qəti surətdə Şeybanilərin tərəfinə keçməsini təmin etdi: А.М.Дехкурди. Взаимоотношения Ирана и Бухарского ханства в XVI – первой половине XVIII вв. Автореферат к.и.н. Душанбе, 2006, с.15.

düyünü və azuqənin tükəndiyini bildirib, geri çəkilmək zərurətini qeyd etsə də, Nəcm-i Sani mühasirəni davam etdirməkdə israr etdi. Bayram xanın əsgərlərinin ətrafı çapıb-talayıb azuqə axtarması da ciddi səmərə vermədi. Qızılbaş komandanlığı əvəzini ödəmək şərti ilə qırğızlardan azuqə almaq istəsə də, qırğız əyanları özbək xanlarından ehtiyat edərək, ərzaq satmaqdan imtina etdilər. Nəticədə, ramazan ayının əvvəlində *"qızılbaş ordusunda qəhətlik o həddə çatdı ki, adamların qolunda qüvvət qalmadı, nə qədər ki qatırları və dəvələri vardı, hamısını kəsib yemişdilər".* Bundan istifadə edən Übeydulla xan, Məhəmməd Teymur sultan və Canibəy sultan 60 minlik özbək ordusu ilə Qicduvan ətrafında peyda olaraq, yorulub əldən düşmüş qızılbaş ordusuna həmlə etdilər. Babur və qızılbaş əmirləri hələ imkan var ikən geri çəkilməyi təklif etsələr də, Nəcm-i Sani *"özbəklər mənim adımı eşidən kimi onların zəhri yarılacaqdır"* deyə mənasız sözlər söyləyərək, yersiz lovğalıq etdi və qəti döyüşə girməyi qərara aldı. 3 ramazan 918 / 12 noyabr 1512-ci ildə baş vermiş həlledici döyüşdə Babur öz qoşunları ilə birlikdə vuruşmayaraq fərar etdi. Döyüş qızılbaş ordusunun tam məğlubiyyəti ilə sona çatdı. Bayram xan Qaramanlu və qardaşı Əlican sultan başda olmaqla minlərlə qızılbaş döyüşçüsü həlak oldu. Bəzi əmirlər özbaşına surətdə döyüşü yarımçıq tərk edib aradan çıxdılar. Nəcm-i Sani isə əsir düşüb, Übeydulla xan tərəfindən qətlə yetirildi. Digər qızılbaş sərkərdələri öz dəstələrinin qalıqları ilə pərakəndə şəkildə müxtəlif istiqamətlərdə qaçdılar[1].

Bu qələbədən ruhlanan özbək xanları qızılbaşları təqib edərək Xorasana soxuldular. Bayram xanın oğlu Hüsam bəy Qaramanlu Bəlxdə möhkəmlənmək istəsə də, buna nail olmayıb, Fəryaba qaçdı, orada yeznəsi Ağa Məhəmmədin oğlu Ağa Əhmədlə birləşərək, Murğab çayı sahilinə çəkildi. Həmin yerdə 2 minlik qızılbaş qoşunu ilə onları təqib edən Bayaqu Bahadırın 3 minlik qoşunu arasında baş vermiş döyüşdə Ba-

---

[1] Aləmara (Sahib), s.433-440; Aləmara (Şükri), s.379-388. Bu döyüş Qicduvan qalasından şərqdə, Zərəngari kanalı sahilində baş vermişdi: Шарафнаме-йи шахи, с.87.

yaqu Bahadır həlak oldu. Hüsam bəy oradan Maruçaqa getdi[1].

Abdal bəy Dədə 4 minlik dəstə ilə əvvəlcə Mərvə, sonra Astarabada qaçdı. Hüseyn bəy Lələ Mavəraünnəhr yürüşünə gedərkən əmisi nəvəsi Musa sultan Şamlunu öz əvəzinə Heratda qoymuşdu. Qicduvan döyüşündən sonra Hüseyn bəy Lələ və Zeynal xan Şamlu 3 minlik dəstə ilə Herata gəldilər. Onların gəlişindən təxminən 40 gün sonra özbəklər şəhəri mühasirəyə aldılar. Qızılbaşlar ərzaq qıtlığı şəraitində iki aya kimi müdafiə olundular. Nəticədə, Heratı mühasirə etmiş 25-30 minlik özbək ordusunun sərkərdələri olan Übeydulla xanla Canibəy sultan arasında köhnə ədavət baş qaldırdı və onlar bir-birinin bəhsinə, 919-cu ilin ramazan ayının 3-də / 11 mart 1513-cü ildə mühasirədən əl çəkib, öz ölkələrinə yollandılar[2]. Lakin 40 minlik qoşunla Ceyhun çayını keçib Herat üzərinə hərəkət edən Məhəmməd Teymur xan yol üstündə Übeydulla xanla rastlaşdı, onu təkrarən Herata getməyə razı saldı və bu iki xan öz qüvvələrini birləşdirib, Herata doğru yürüşə başladılar. Ərzaq ehtiyatının azlığı şəraitində özbəklərin üstün qüvvələri qarşısında dayana bilməyəcəyini anlayan Hüseyn bəy Lələ Heratı tərk edib, Səfəvilərin vassalı olan Sistan hakimi Məlik Mahmudun ölkəsinə çəkilməli oldu, oradan da Kirman və Yəzddən keçməklə İsfahana getdi. Onunla birgə Heratın müdafiəsində iştirak etmiş Zeynal xan Şamlu isə Astarabada qaçdı. Übeydulla xan heç bir müqavimətə rast gəlmədən Məşhədi də ələ keçirdi.

Qicduvandan qaçan 4 min nəfərlik digər bir qızılbaş dəstəsi Badğis bölgəsində yerli türkmənlərin qərəvi qəbiləsinin hücumuna məruz qalıb darmadağın edildi və onların sağ qalanları böyük çətinliklə özlərini Astarabada çatdırdılar. Herat və Məşhədi tutan özbək xanları oradakı şiələrə qarşı qırğınlar törətdilər. Beləliklə, 1513-cü ilin baharının əvvəli üçün Xorasanın əksər ərazisi təkrarən özbəklərin əlinə keçdi[3].

---

[1] Aləmara (Sahib), s.442-451; Aləmara (Şükri), s.389-398.

[2] Aləmara (Sahib), s.451-457; Aləmara (Şükri), s.398-404; R.Savory. The Consolidation, p.81.

[3] Aləmara (Sahib), s.458-463; Aləmara (Şükri), s.404-411.

İsfahanda qışladığı vaxt bu xəbərləri alan Şah İsmayıl dərhal *"qalibiyyətli qoşunların Xorasan və Türküstanın işğalına yollanmaq üçün yazın əvvəllərində Sultaniyyə çəmənlərində hazır olması"* barədə hökmlər yazdıraraq, onları özünün *"günəş timsallı mübarək möhürü ilə zinətləndirdi".* Bu hökmlər çaparlar vasitəsilə məmləkətin hər tərəfinə çatdırıldı. Novruzdan əvvəl Sultaniyyəyə gələn şah bayramdan bir qədər[1] sonra 40 minlik ordu ilə Xorasana yürüşə başladı və Div sultan Rumlu ilə Şiraz hakimi Xəlil xan Zülqədəri çərxçi təyin edərək, onları 10 minlik qoşunla irəli göndərdi. Şahın yaxınlaşdığını görən özbəklər bir sıra şəhərləri tərk edib qaçdılar və qızılbaşlar Məşhədə qədər heç bir müqavimətə rast gəlmədilər. 20 minlik qoşunla Məşhəddə olan Übeydulla xan Div sultan Rumlunun və Xəlil xan Zülqədərin qoşunları ilə qısa toqquşmadan sonra Herata qaçdı, oradan Məhəmməd Teymur sultanı da götürüb, Mavəraünnəhrə çəkildi. Məşhəddə əsir tutulan 30 özbək əsilzadəsi və öldürülmüş özbəklərin kəsilmiş başları Səbzəvardakı şah düşərgəsinə göndərildi. Heratın üç fərsəxliyində Div sultanın və Xəlil xanın üstün qüvvələri Şeybanilərin müttəfiqinə çevrilmiş Qur və Qərcistan hakimi Məlik Nizaməddinin 4 minlik dəstəsini "qurd oyunu" taktikasından faydalanaraq darmadağın etdilər. Öz ölkəsinə qaçmaq istəyən Məlik Nizaməddin təqib olunaraq öldürüldü. Xəlil xan Herata daxil oldu. Div sultanın qoşunları Səfəvi hakimiyyətinə itaətsizlik edən Qərcistan və Badğis vilayətlərini fəth etdilər[2].

Şah İsmayıl üç ay Heratda qalıb, Xorasanda Səfəvi hakimiyyətini möhkəmlətmək istiqamətində addımlar atdı. Şah Heratda olarkən onun yanına Qicduvandan biabırçıcasına fərar edib, hakimi olduğu Mərv qalasını döyüşsüz özbəklərə təhvil

---

[1] Y.Şükrinin nüsxəsində Şah İsmayılın Novruzdan 10 gün, Ə.M.Sahibin nüsxəsində isə 2 ay 2 gün sonra Xorasan yürüşünə başladığı qeyd olunmuşdur. Əmir Mahmud ibn Xandəmir yazır ki, 919-cu ilin məhərrəm ayında (09.03.-07.04.1513) Xorasanın Herat və Məşhəd şəhərlərini tutan özbək xanları Şah İsmayılın yürüşünə qədər 2-3 ay müddətində orada hökmranlıq etdilər: Tarix-i Şah İsmayıl və Şah Təhmasib, v.75b-76b. Buradan belə nəticəyə gəlirik ki, 1513-cü ilin iyun ayında Xorasanın Məşhəd və Heratı əhatə edən əsas hissəsi yenidən qızılbaşların əlinə keçmişdi.

[2] Aləmara (Sahib), s.464-473; Aləmara (Şükri), s.411-419.

verərək, Astarabada qaçmış sabiq qorçubaşı Abdal bəy Dədə gəlib, əfv olunmasını xahiş etdi. İsmayıl əvvəlki xidmətlərini nəzərə alaraq, onu öldürmək fikrindən daşınsa da, rüsvayçılıqla cəzalandırmaq qərarına gəldi: onun bığı-saqqalı qırxıldı, üzünə "ğazə" və "sefidac" adlanan qadın parfümeriyası çəkildi, əyninə qadın paltarı geyindirildi və bir ulağa tərsinə mindirilib, hamıya ibrət olsun deyə gəzdirildi. Bundan sonra şah əmr etdi ki, *"onu darülirşad Ərdəbilə aparın ki, orada yaşasın və bundan sonra bir də şanlı orduya qatılmasın!"*[1].

Həmçinin Xan-Mirzənin vasitəçiliyi ilə Babur Heratda olan Şah İsmayılla yenidən əlaqə yaradıb, Qicduvan döyüşündə baş verənlər üçün üzrxahlıq və təəssüfünü izhar etdi, məğlubiyyətə Nəcm-i Saninin lovğalığının və səriştəsizliyinin səbəb olduğunu bildirdi, ona qızılbaş əmirlərinin hüzurunda dəfələrlə nəsihət verməsinə baxmayaraq, Nəcm-i Saninin buna məhəl qoymamasından gileyləndi. Baburla münasibətlərinin tam korlanmasını istəməyən Şah İsmayıl onun bu açıqlamalarına təmkinlə yanaşdı və ona layiqli xələt hədiyyə etdi[2].

Qızılbaş ordusunun yaxınlaşdığını görən Canibəy sultan Bəlxi tərk edib, Məvarəünnəhrə qaçdı. Şah İsmayıl Ceyhun çayının sağ sahilinə keçərək, indiki Tacikistan ərazisindəki Hisar-i Şadman bölgəsində özbək qarnizonlarına qarşı əməliyyatlara başladı[3]. Lakin tezliklə Mərkəzi Asiya xanlarının iri hərbi birləşmələrinin gəlməsi xəbəri yetişdi. Həlledici döyüşə girmək üçün Şah İsmayıl Ceyhun çayının sol sahilinə qayıtmağı daha əlverişli hesab etdi. Ceyhun çayından 4 fərsəx cənubda, Bəlx şəhərindən 13 fərsəx aralıda qızılbaşların 30 minlik ordusu özbək xanlarının və onlara köməyə gəlmiş Dəşt-i Qıpçaq qazaxlarının hökmdarı Qasım xanın[4] oğlu Əbülxeyr xanın bir-

---

[1] Aləmara (Sahib), s.471-472; Aləmara (Şükri), s.417-418.
[2] Aləmara (Sahib), s.473-475; Aləmara (Şükri), s.421-423.
[3] Aləmara (Sahib), s.476-478; Aləmara (Şükri), s.420,423-425.
[4] Çingiz xanın nəslindən olan Qasım xan, sərəncamında İdil (Volqa) çayından Xətay vilayətinin Ağceyran çölünə qədər geniş ərazilərə yayılmış döyüşkən qazax tayfalarının olduğu qüdrətli bir hökmdar idi. O, Şeybani xanın iltimas məktubundan sonra onun Mavəraünnəhrdə Teymurilərə qarşı apardığı əməliyyatlara hərbi dəstək vermiş, lakin Şeybaninin Mavəraünnəhrdə möhkəmlənməsindən sonra onunla münasibətləri pisləşmiş, hətta bəzən

ləşmiş qüvvələri ilə üzləşdi. Say üstünlüyünə güvənən Əbülxeyr xan vuruşmadan öncə Şah İsmayıla elçi göndərib, hədə-qorxu gəlsə də, Səfəvi hökmdarı onun təhdidlərindən çəkinmədiyini bildirdi. Qızılbaş ordusunda Div sultan Rumlu çərxçibaşı təyin olundu, Durmuş xan Şamlu sağ cinahda, qorçubaşı Sarı Pirə Ustaclu sol cinahda, şah özü isə Hüseyn bəy Lələ ilə birlikdə mərkəzdə qərar tutdu. Orta Asiya xanlarının ordusunun mərkəzində Əbülxeyr xan və Übeydulla xan, sağ cinahında Bayram Atalıq və Məhəmməd Teymur xan, sol cinahında isə Avlab Atalıq və Canibəy sultan mövqe tutdular. Döyüşün əvvəlində Div sultan Rumlunun 6 minlik qoşunu özbək çərxçilərini geri oturtdu. Qəflətən özbək və qazax qoşunlarına qarşı əsməyə başlayan şiddətli külək böyük bir tozanaq yaratdı, onların görmə qabiliyyəti məhdudlaşdı və nizam-intizamları pozuldu. Sağdan və soldan qəti hücuma keçən qızılbaşlar qarşı tərəfin cinah qüvvələrini darmadağın etdilər. Qazax sərkərdələrindən Bayram Atalıqla Avlab Atalıq öldürüldü və birləşmiş özbək-qazax qoşunu qaçmağa üz qoydu. Savaş meydanının mərkəzində baş verən çarpışmada Əbülxeyr xan şəxsən Şah İsmayıl tərəfindən qətlə yetirildi. Özbək xanları döyüş meydanında minlərlə cəsədlərini buraxaraq, qoşunlarının qalıqları ilə birgə Ceyhun çayının o biri tərəfinə çəkildilər.

Lakin şərq sərhədlərində sabitliyin yaranmasını istəyən İsmayıl özbək xanlarının məşhur Nəqşbəndiyyə sufi təriqətinin Buxaradakı şeyxi Xoca Əbdürrəhimin başçılığı ilə göndərdikləri 300 nəfərlik elçi heyətinin sülh təklifini qəbul etdi. Bu qocaman şeyx Nəqşbəndiyyə təriqətinin banisi Xoca Bəhaəddin Nəqşbəndinin nəslindən idi, Mavəraünnəhrdə böyük nüfuza

---

qazax qoşunları Şeybanilərin ərazilərinə şimaldan basqınlar həyata keçirmişlər. Şeybani xanın ölümündən sonra Qasım xanın özbək əmirləri ilə münasibətləri qaydasına düşmüş və o, 1513-cü ildə İdil sahilindəki yaylaqda olarkən özbək xanları öz rəsmi nümayəndələri kimi Canibəy sultanı onun yanına göndərib, Şah İsmayıla qarşı hərbi yardım xahiş etmiş və o da özünün 30 yaşlı şücaətli oğlu Əbülxeyr xanı böyük hərbi qüvvələrlə Mavəraünnəhrə göndərmişdi. Qasım xan Şah İsmayılla eyni ildə, 930 / 1523-24-cü ildə vəfat etmiş və sonradan oğlu Haqnəzər xan Dəşt-i Qıpçaq hökmdarı olmuşdu: Aləmara (Sahib), s.252-253,286-287,315-316,406,482-485,625-626.

malik idi və Moqol xanımın məsləhəti ilə Şeybanilər sülaləsi adından danışıqlar aparmaq üçün Ceyhun çayı kənarındakı Səfəvi ordugahına göndərilmişdi. Nümayəndə heyəti özü ilə şah üçün qiymətli ərməğanlar (Çin və Xötən qumaşları, Buxara və Səmərqənd məmulatları, Bədəxşan ləl-cavahiratı və Oman inciləri) yüklənmiş dəvə karvanı və özbək xanlarının şaha məktubunu gətirmişdi. Məktubda Şah İsmayıla təmtəraqlı titullarla müraciət edilir və ondan Ceyhun çayı sərhəd olmaq şərti ilə sülh istənilirdi. Ağsaqqal sufi liderini və onun heyətini böyük bir ehtiramla qarşılayan Şah İsmayıl sülh şərtlərini cəlbedici hesab edərək, barışıq bağlanmasına razı oldu. Müzakirələrin yekununda Ceyhun çayı Səfəvi və Şeybani dövlətləri arasında sərhəd elan olundu və Xorasan Səfəvilərin ixtiyarında qaldı. Şah İsmayıl hədiyyə kimi özbəklərə padşahlara layiq xələtlər, atlar, daş-qaşla bəzədilmiş yəhərlər, kəmərlər, xəncər və qılınclar təqdim etdi[1]. Beləliklə, bu əməliyyatlardan sonra "Amudərya çayı uzun müddət qızılbaş və özbək torpaqları arasında sərhəd olaraq qaldı"[2].

1514-cü ildə, Çaldıran savaşı ərəfəsində Übeydulla xanın Sultan Səlimlə yazışmalarından aydın olur ki, özbəklər Səfəvilər dövlətinin şərq sərhədlərinə həmlələr etmək planlarından əl çəkməmişdilər[3]. "Aləmara"nın materialları göstərir ki, 1514-

---

[1] Aləmara (Sahib), s.486-499; Aləmara (Şükri), s.434-452. Qazax tarixçisi N.Atıqayev "Aləmara"da əksini tapmış bu döyüşü 1514-cü il qışın sonuna və ya yazın əvvəlinə aid edir: Н.А.Атыгаев. Казахское ханство в XV – середине XVI века. Автореферат к.и.н. Алматы, 2003, с.17. Lakin bizim fikrimizcə, bu hadisə 1513-cü ilin payızında baş vermişdir. Çünki 919-cu ilin rəcəb / 1513-cü ilin sentyabr ayında Şah İsmayıl Div sultan Rumlunu və Əmir xan Mosullunu Bəlx üzərinə göndərmiş (Həbibüs-siyər, s.540), sonra özü də əsas qüvvələrlə oraya gedərək, bir ay Bəlxdə qalmışdı: Aləmara (Sahib), s.476; Aləmara (Şükri), s.420. Hisar-i Şadmanın alınması və Əbülxeyr xana qarşı döyüş də bunun ardınca baş vermişdi. Ona görə də bu hadisələr 1513-cü ilin payızına, oktyabr-noyabr aylarına aid edilməlidir. 1513-14-cü ilin qışında Şah İsmayıl Xorasandan İsfahana qayıtmış və orada qışlaq etmişdi: Cahangüşa-yi xaqan, s.469.

[2] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.111.

[3] Ş.F.Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı, 1995, s.99.

cü ilin payızında, Çaldıran döyüşündən dərhal sonra *"Xorasan və Türküstan vilayətlərində Şah İsmayılın döyüşdə öldürülməsi barədə şayiələr yayılmışdı".* Vaxtı ikən Səfəvilərə sığınmış Teymuri Bədiüzzaman mirzənin oğlu Məhəmməd Zaman mirzə Təbrizdən qaçıb, Astarabada gəlmiş, orada *"öz irsi torpaqlarına sahib olmaq"* arzusu ilə Qazi xan başda olmaqla yakatürkmən tayfasını ətrafına cəm edib qiyam qaldırmış və qızılbaş valisi Pirqeyb xanı Damğana qovmuşdu[1]. Məhəmməd Zaman hətta Osmanlı ərazisində olan atası ilə əlaqə yaratmağa cəhd etmiş, ona məktub yazaraq kömək istəmişdi. Lakin onun məktubunu aparan elçi Xəvar bölgəsində qızılbaşların əlinə keçmiş və məsələnin üstü açılmışdı[2]. Pirqeyb xana köməyə göndərilmiş yüzbaşı Bülənd bəy öz qüvvələrini onunla birləşdirdi və 2700 nəfərlik qızılbaş dəstəsi gecə ikən şəhərə həmlə edərək, üsyançılara zərbə endirdi. Gözlənilməz hücumun nəticəsində 6 min döyüşçüsündən 4 min nəfəri itirən Məhəmməd Zaman mirzə Astarabadı tərk edib, şəhərin ətrafına çəkildi. Ertəsi gün Xoca Müzəffərin başçılıq etdiyi qızılbaş qoşunu ilə döyüşdə qəti məğlubiyyətə uğrayan Məhəmməd Zaman mirzə qaçıb, Qərcistan hakimi Ərdüvan-şaha sığınmağa məcbur oldu[3]. Xoca Müzəffərin Məhəmməd Zaman üzərindəki qələbəsi

---

[1] Aləmara (Sahib), s.547-548; Aləmara (Şükri), s.527-528; Əhsənüt-təvarix (Seddon), s.150.

[2] Məktubda özünün Astarabadı tutması ilə bağlı məlumat verən Məhəmməd Zaman atasını Şimali Qafqazdan keçməklə Şirvan və Gilana soxulmağa, Sultan Səlimi isə yenidən Azərbaycanın paytaxtı Təbrizə, Şeyxoğlunun üzərinə getməyə səsləyirdi: Aləmara (Şükri), s.532; Aləmara (Məclis kitabxanası – 9421), v.152a; M.H.Razənhan. Şuriş-i Məhəmməd Zəman-i Teymuri dər douran-i Şah İsmail-i Səfəvi // Hemayeş-i Səfəviyyə dər güstəre-yi tarix-i İran-zəmin. Təbriz, 1384, s.374.

[3] Aləmara (Sahib), s.550-553; Aləmara (Şükri), s.531-535. Xoca Müzəffər Tupçi (Bitikçi) – cağatay əmirlərindəndir. Əvvəlcə Teymurilərin xidmətində olmuş, Bədiüzzaman mirzə Xorasanı tərk edib Azərbaycana qaçdığı vaxt onu öz əvəzinə Astarabad hakimi təyin etmişdi. Özbək ordusunun Astarabada yaxınlaşdığını görən Xoca Müzəffər müqavimətsiz təslim olaraq, Şeybanilərin tərəfinə keçmişdi və Astarabad hakimliyinə təsdiq olunmuşdu. Qızılbaş ordusunun Xorasan yürüşü zamanında isə Səfəvi düşərgəsinə gələrək itaətini bildirmiş və ondan sonra Səfəvilərin xidmətində olmuşdu: Aləmara (Sahib), s.311,317,318,381,552; Aləmara (Şükri), s.260,263,326,328,533.

16 ramazan 920 / 4 noyabr 1514-cü ilə təsadüf etmişdir[1]. Sonradan Məhəmməd Zamanla Ərdüvan-şah 10 minlik qoşunla Herat üzərinə gəlsələr də, Zeynal xan Şamlunun ciddi müqaviməti ilə üzləşib geri çəkildilər[2].

Digər tərəfdən, 1515-ci ildə Übeydulla xan 30 minlik və Canibəy sultan 20 minlik ordu ilə Səfəvilərin vassalı olan Xan-Mirzəyə məxsus Hisar-i Şadman qalasına həmlə etdilər. Onlar Hisar-i Şadmana köməyə tələsən Bəlx hakimi Div sultan Rumlunu dəf etdilər. Bir neçə ox yarası almış Div sultan Əlişəkər xan Baharlunun oğlu Məhəmmədi xanı Bəlx qalasına komandan təyin edib, özü kömək istəmək üçün Şah İsmayılın hüzuruna yollandı. Təbrizdə şahla görüşən Div sultan ona bədənindən çıxarılmış oxları göstərdi. Şah da hər oxun müqabilində Div sultana bir xələt bağışladı[3]. Maraqlıdır ki, həmin zaman Xorasandakı qızılbaş əmirləri arasında ixtilaf yaranmışdı. Herat hakimi Zeynal xan Şamlu Məhəmməd Zaman mirzəyə, Ərdüvan şaha və Şeybanilərə qarşı vahid cəbhədə çıxış etmək haqqında Div sultanın irəli sürdüyü təklifi laqeydliklə rədd etmişdi[4]. Elə bu səbəbdən Xorasandan şahın hüzuruna gəlmiş Div sultan və Qain hakimi Əmir xan Mosullu özbək basqınlarından, qiyamlardan, əyalətdəki yiyəsizlikdən şikayətlənmiş, xüsusilə də Zeynal xanın fəaliyyətini tənqid etmişdilər. Bunun nəticəsində Şah İsmayıl azyaşlı oğlu Təhmasibin lələliyini Əmir xan Mosulluya vermiş və onu bütün Xorasanın bəylərbəyisi təyin edib, Zeynal xanın əvəzinə Herata göndərmişdi[5].

Növbəti ildə Məhəmməd Zaman mirzənin və Ərdüvan-şahın qüvvələri Bəlx şəhərini mühasirəyə aldılar. Şəhərin sünni əhalisi darvazaları açıb, onları içəri buraxdı. Narınqalaya sığınan Məhəmmədi xan Baharlu iki aya yaxın müqavimət göstərsə də, qüvvələrin qeyri-bərabərliyini və vəziyyətin ümidsizliyini görüb, Məhəmməd Zaman mirzə ilə razılığa gəldi və mallarını

---

[1] Шараф-наме, т. II, с.164.
[2] Aləmara (Sahib), s.553; Aləmara (Şükri), s.535.
[3] Aləmara (Sahib), s.548-550,554; Aləmara (Şükri), s.529-531,535.
[4] Aləmara (Sahib), s.554; Aləmara (Şükri), s.535.
[5] Aləmara (Sahib), s.603; Aləmara (Şükri), s.582; Əhsənüt-təvarix (Seddon), s.154; Cahangüşa-yi xaqan, s.520-521; Rövzətüs-Səfəviyyə, s.295.

qalada tərk etmək şərti ilə qızılbaşlar və onların ailələri ilə birlikdə şəhəri maneəsiz tərk edib getməyə nail oldu[1]. Lakin 1517-ci ildə Məhəmməd Zaman ilə Ərdüvan-şahın arasında baş vermiş münaqişə ikincinin ölümü ilə nəticələndi və bundan yararlanan Babur şah Bəlxi tutub, Məhəmməd Zamanı özündən vassal asılılığına saldı[2]. "Aləmara"nın məlumatları göstərir ki, Şah İsmayılın hakimiyyətinin sonlarında onunla Babur şah arasında narazılıq yaranmışdı. Bəlx problemi yetmirmiş kimi, Babur Səfəvilərin vassalı olan, keçmiş Teymuri sərkərdəsi Əmir Zünnun Ərğunun[3] oğlu Şüca bəyin hakimlik etdiyi Qəndəhar şəhərini Məhəmməd Baqi bəy Cağatayın xəyanəti nəticəsində işğal etdi. Bu insidentlərdən qəzəblənən Şah İsmayılın göstərişi ilə Babura etiraz məktubu yazılmışdı: *"Bu nə ədəbsizlikdir ki, etmişsiniz və etməkdəsiniz? Gah Bəlxin üzərinə gedərək, o vilayəti tutub, aləmin pənah gətirdiyi dərgaha nankor çıxan, yağı olan Məhəmməd Zaman mirzəyə verirsiniz, gah da ki, qoşun götürüb, Qəndəharın üzərinə gəlirsiniz".* Məktubda daha sonra Babur bu cür hərəkətlərdən çəkindirilir və ona bunların "dostluq yoluna" uyğun olmadığı xatırladılırdı. "Aləmara"ya görə, bu məktubdan sonra Babur şah öz qardaşı Nasir mirzənin məsləhəti ilə Şah İsmayılla aralarındakı münaqişəni nizamlamağa çalışmışdı. Şah İsmayıla cava-

---

[1] Aləmara (Sahib), s.555; Aləmara (Şükri), s.536-537. Məhəmmədi xanın atası Əlişəkər xan Baharlu Şah İsmayıl tərəfindən Babura köməyə göndərilmiş qızılbaş əmirlərindən idi. Məhəmmədi xan Bəlxi tərk etdikdən sonra atasının və Babur şahın olduğu Kabil şəhərinə gəlmiş, Babur öz qohumlarından birinin qızını ona ərə vermiş və öz yanında saxlamışdı. Bəlxdən onunla birgə çıxmış qızılbaş birlikləri isə Azərbaycana qayıtmışdılar.

[2] Aləmara (Sahib), s.555-557; Aləmara (Şükri), s.537-538; Əhsənüt-təvarix (Seddon), s.166-167.

[3] Bayqara zamanında Qəndəhar hakimi olan Əmir Zünnun Ərğun cəsur və bacarıqlı sərkərdə idi. O, Murğab vadisindəki döyüşdə (1507) Şeybani xanın qardaşı və Übeydulla xanın atası olan Mahmud sultanı şəxsən qətlə yetirmiş və özü də həmin döyüşdə qəhrəmancasına həlak olmuşdu. Onun ölümündən sonra Qəndəhar hakimi olan oğlu Şüca bəy Şeybani xana itaətini bildirmiş, bir müddət Baburun adamları onu Qəndəhardan çıxarsalar da, Şeybani xanın köməyi ilə orada hakimiyyətini bərpa etmiş, lakin Səfəvilərin Şeybanilər üzərindəki qələbəsindən sonra Şah İsmayılın vassalına çevrilmişdi: Aləmara (Sahib), s.265,268,270-275,279-281,292,296-302,319-323, 599-600.

bında Babur müttəfiqliyə sadiq olduğunu bildirmiş və həmin qalalar üzərində nəzarəti ələ almasının o bölgələri Səfəvilərlə Teymurilərin ümumi düşməni olan Şeybanilərə qarşı daha yaxşı qorumaqla əlaqədar olduğunu göstərmişdi[1].

Übeydulla xan 27 may 1521-ci ildə Heratı mühasirəyə alsa da, Əmir xan Mosullunun müqavimətini qıra bilməyib, iyunun 8-də geri çəkildi[2]. Tarixi faktlar göstərir ki, o, Şah Təhmasib zamanında da, özünün 946 / 1539-40-cı ilə təsadüf etmiş ölümünə qədər dəfələrlə Xorasana basqınlar etmiş, lakin hər dəfə geri çəkilməli olmuşdu[3].

Şah İsmayılın öz imperiyasının şərq sərhədlərində yürütdüyü siyasət nəticəsində Xorasanda Səfəvi hakimiyyəti bərqərar olmuş və Ceyhun çayına qədər uzanan ərazilər qızılbaşların nəzarəti altına keçmişdi.

### C) *Azərbaycan Səfəvilər dövlətinin Qərb qonşuları (Osmanlılar və Məmlüklər) ilə münasibətləri*

Gənc Səfəvilər dövlətinin xarici siyasətində qərb qonşusu olan qüdrətli Osmanlı imperiyası ilə münasibətlər mühüm əhəmiyyət kəsb edirdi. Lap əvvəldən rəqabət halında olan bu münasibətlər sonradan müharibələrin başlanmasına gətirib çıxarmışdı. XVI əsrin əvvəllərində Səfəvi – Osmanlı münasibətlərini şərtləndirən bir sıra amillər mövcud idi. İlk növbədə onu qeyd etmək lazımdır ki, "Azərbaycanın, Cənubi Qafqazın və İranın varlı ərazilərini tutub istismar etməyə, həmçinin Azərbaycan və Şimali İrandan keçən Avropa – Asiya tranzit ticarətinin gəlirli yolları üzərində nəzarəti ələ keçirməyə can atan"[4] Osmanlı hakim dairələri zəifləmiş və parçalanmış Ağqoyunlu səltənətinin yerində şiə məzhəbli güclü Səfəvilər dövlətinin

---

[1] Aləmara (Sahib), s.599-601; Aləmara (Şükri), s.578-579.

[2] Aləmara (Sahib), s.611-613; Aləmara (Şükri), s.589-591; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.163.

[3] Tarix-i aləmara-yi Abbasi (Bakı), s.130-159; Ş.F.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, s.116-117; R.Ə.Ağayev. Azərbaycan və Mərkəzi Asiya, s.111-112.

[4] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.105.

meydana çıxmasından bərk narahat olmuşdular. Fransız tarixçisi F.Braudelin göstərdiyi kimi, "Osmanlıların Səfəvilərə qarşı girişdikləri mücadilə, əslində, Asiyanın içərilərindən gələn ticarət yollarının ələ keçirilməsi qayəsinə yönəlik idi"[1].

Lakin daha öncə qeyd etdiyimiz kimi, Şah İsmayılın özünün də Yaxın Şərqə, o cümlədən də Anadoluya dair geniş işğalçılıq planlarının olduğunu nəzərdən qaçırmaq lazım deyildir. Planlaşdırılan fəthlər əsasında Səfəvi hökmdarı Aralıq dənizi sahillərinə çıxış əldə edərək, Avropa ölkələri ilə birbaşa əlverişli ticarət əlaqələri qurmaq məqsədi güdürdü. Bu mübarizədə tərəflər bir-birilərinə qarşı dini ideologiyadan geniş istifadə edirdilər. Səfəvi – Osmanlı münasibətlərini şərtləndirən amillər arasında Osmanlı ərazisində çoxsaylı Səfəvi tərəfdarlarının, Ələvi qızılbaşların mövcudluğu mühüm yer tuturdu[2]. Osmanlı sülaləsinin özü mənşəcə türk olmasına baxmayaraq, hərbi və dövlət təşkilatında qeyri-türklərə, xüsusən də "devşirmə" sisteminə əsasən islamı qəbul etmiş Balkan xalqları nümayəndələrinə istinad edir və özünün Anadoludakı soydaşlarına xor baxaraq, onların ünvanına "ətrak-i bi-idrak" ("ağılsız türklər"), "türkman-i bi-iman" ("imansız türkman") və s. bu kimi təhqiramiz ifadələr işlətməkdən çəkinmirdi. Səfəvilər dövləti əsgəri baxımdan tamamilə türk oymaqlarına arxalandığı halda, Osmanlı imperiyasında "devşirmə" sistemi o qədər inkişaf etmişdi ki, Anadoluda ən kiçik hərbi vəzifələr də qeyri-türklərin əlinə keçməyə başlamışdı[3]. Məhz bu səbəbdən idi ki, "Anadolu və şərqdən ona bitişik olan ərazilərdəki türkman tayfaları

---

[1] A.Y.Ocak. Osmanlı kaynaklarında ve modern Türk tarihçiliyinde Osmanlı – Safevî münasebetleri (XVI-XVII. yüzyıllar) // TTK, "Belleten", sayı: 246, 2002, s.514.

[2] Anadoludakı Ələvi qızılbaşları tam olaraq şiə adlandırmaq düzgün deyildir. Şiəliklə Ələvilik arasında Əhl-i Beyt sevgisi kimi ortaq inanclar olsa da, dini etiqad və ibadətlər baxımından böyük fərqlər də mövcuddur: A.Yaman. Alevilik ve Kızılbaşlık tarihi. İstanbul, 2007, s.25-28.

[3] F.Sümər. Oğuzlar: tarixləri, boy təşkilatı, dastanları. Bakı, 1992, s.181-183; V.Minorsky. The Middle East in the Western Politics in 13-th, 15-th and 17-th Centuries // JRAS, vol. 27, 1940, p.440.

Balkan ünsürləri ilə dolu olan Osmanlı dövlətinin tərkibinə daxil olmağa nifrət edirdilər”[1].

Anadolu türklərinin Osmanlıdan üz çevirib Səfəvilərə meyil etməsində “Osmanlı sarayındakı idari heyətdə qeyri-türk ünsürlərin söz sahibi olmaqlarından qaynaqlanan narazılıqların təsiri” böyük olmuşdur[2]. Anadoludakı türkman tayfaları Osmanlıların iqtisadi siyasətinə də etiraz edirdilər. Çünki bu tayfalar “Fateh Sultan Mehmed zamanından bəri sərt bir şəkildə tətbiq olunan torpağa yerləşdirmə və vergiyə bağlanma siyasətindən” narahat idilər. Məhz belə bir şəraitdə ortaya çıxan “Şah İsmayıl Osmanlı düzənini məhkum edir və özünün ədalət gətirəcəyini irəli sürürdü”[3].

Beləliklə, Osmanlılardan incik düşmüş Anadolunun yarımköçəri türk oymaqları yenicə qurulmuş Səfəvi dövlətinə yeganə ümid yeri, Şah İsmayıla isə onları Osmanlı zülmündən qurtarmağa gəlmiş “xilaskar”, “Mehdi” kimi baxırdılar. Onlar Şah İsmayılın obrazı ilə “gizli imamın (Mehdinin) gəlişi barədə arzunu əlaqələndirirdilər”[4]. Anadolu coğrafiyasında yaşayan türkman zümrələrin içində bulunduqları Osmanlı siyasi, sosial-iqtisadi və dini-mədəni mühitindən rahatsız olmaları Səfəvi xəlifələrinin bölgədəki təbliğatı üçün əlverişli zəmin hazırlayırdı[5].

“Aləmara”nın materiallarından aydın olur ki, Səfəvilər dövlətinin yaranması Osmanlı torpağındakı “sufilər” arasında böyük sevincə səbəb olmuşdu. Mənbə Osmanlı ərazisində böyük nüfuza sahib olan şiə yönümlü Bektaşiyyə sufi təriqətinin Səfəvilər dövləti ilə gizli təmaslarına dair digər mənbələrdə rast gəlmədiyimiz unikal məlumatlar verir. Bu məlumatlar gös-

---

[1] V.Minorsky. Shaykh Bali Efendi on the Safavids // BSOAS, vol. 20, 1957, p.438.

[2] M.Temizkan. Şah İsmail’in Anadolu oymaklarının desteğini kazanmasının sebepleri üzerine // Türk Dünyası Dil ve Edebiyat Dergisi, 1999, sayı: 8, s.481.

[3] A.Y.Ocak. Babaîler isyanından Kızılbaşlığ’a: Anadolu’da İslâm heteredoksisinin doğuş ve gelişim tarihine kısa bir bakış // TTK, “Belleten”, sayı: 239, 2000, s.148,150; həmçinin bax: R.Yildirim. Turkomans, p.148-149.

[4] Ш.М.Мустафаев. Восточная Анатолия, с.34.

[5] Ö.F.Teber. XVI. yüzyılda Kızılbaşlık farklılaşması. YDT. Ankara Üniversitesi, 2005, s.72.

tərir ki, hələ 1501-ci ildə Şah İsmayıl Təbrizdə taxta çıxdıqdan dərhal sonra Bektaşiyyə təriqətinin İstanbuldakı təkyəsinin mürşidi, xidmətində iki-üç min nəfər sufisi olan Dədə Məhəmməd öz müridi Dədə Həsəni elçi kimi gizlicə Təbrizə göndərərək, Səfəvilər dövləti ilə əlaqələr qurmuşdu və Şah İsmayılı təbrik edərək, *"ona öz salamlarını çatdırmışdı",* həmçinin şah üçün uğur gətirici hədiyyələr (tacına bağlamaq üçün əbləq və atının boynundan asmaq üçün zəng) göndərmişdi[1]. "Ələmara"dakı bu məlumat onu sübut edir ki, XVI əsrin əvvəllərində hətta İstanbulun özündə belə qızılbaş tərəfdarları mövcud idi. Bu müddəa digər faktlarla təsdiqlənir. XVI əsrdə yaşamış bir anonim yunan müəllifinin məlumatına görə, İstanbulda Şah İsmayıl tərəfdarı olan ailələrin sayı 200-dən çox idi[2].

Qızılbaş hərəkatına mənfi yanaşan və 1488-ci ildə "yolunu azmış Heydəriyyə güruhu" üzərindəki qələbə münasibətilə Sultan Yaqubu təbrik edən[3] Osmanlı hökmdarı II Bayəzid Şah İsmayılın Azərbaycan taxtını ələ keçirməsindən bərk narahat olmuşdu. Azərbaycandan Şərqi Anadoluya qaçmış Ağqoyunlu

---

[1] Ələmara (Sahib), s.41; Ələmara (Şükri), s.45. Maraqlıdır ki, "Ələmara"da Bektaşilərin Osmanlılarla da yaxşı münasibətlərinə dair faktlar var: Ələmara (Sahib), 232; Ələmara (Şükri), s.149. Məsələ burasındadır ki, XVI əsrin əvvəllərində Bektaşiyyə təriqəti "yol övladı" kimi tanınan Babağan qoluna və "bel övladı" adlanan Çələbilər qoluna ayrılmışdı. Balım sultanın başçılıq etdiyi Babağan qolu Osmanlıların tərəfini tutduğu halda, Çələbilər və müstəqil Bektaşiyyə ocaqları əsas etibarilə Səfəvilərə simpatiya bəsləyirdilər: A.Yaman. Alevilik ve Kızılbaşlık tarihi, s.109-110. Dədə Məhəmmədin başçılıq etdiyi topluluq Babağan qoluna deyil, Çələbilərə və ya müstəqil Bektaşi ocaqlarından birinə aid olmuşdur. Bektaşilərin Şah İsmayılla təmaslarına dair daha ətraflı bax: N.Musalı. Anonim bir Safevî kaynağının ışığında Bektaşî ve Alevî tarihine dair bilinmeyen gerçekler // Hacı Bektaş Veli: güneşte zerresinden, deryada katresinden (Uluslararası Hacı Bektaş Veli Sempozyumu Bildirileri). Ankara, 2010, s.376-378. Azərbaycanda Səfəvi dövrünə aid Bektaşi abidələri vardır: K.N.İmamverdiyeva. Azərbaycanda sufiliyin tarixindən (epiqrafik abidələr əsasında). T.ü.f.d. aftoreferatı. Bakı, 2010, s.13.

[2] Ş.Baştav. Osmanlılar'la Safevîler'in mücadelesi esnasında Aleviler'in rolü // Türk Kültürü Araştırmaları, XXVII/1-2, 1989, s.23-24,26. Sonrakı əsrlər ərzində İstanbuldakı Ələvilərin sayı daha da artmışdı. XIX əsrin ilk rübündə İstanbulda minlərlə Ələvi ailəsi vardı: N.Musalı. Hacı Zeynel Abidin Şirvanî seyahatnamelerinde İstanbul // I. Uluslararası Türk Edebiyatında İstanbul Sempozyumu Bildirileri. İstanbul, 2009, s.802.

[3] E.G.Browne. A History of Persian Literature, p.67.

Əlvənd mirzə ilə sıx əlaqələr saxlayan Bayəzid ona yazdığı məktublarda Əlvəndə digər Ağqoyunlu şahzadələri – Qasım bəy və Murad mirzə ilə birləşərək, Səfəvilərə qarşı çıxmağı məsləhət görür və özünün də Ağqoyunlulara hər cür yardım göstərəcəyini söz verirdi[1].

“Aləmara”nın məlumatından bəlli olur ki, Əlvənd 1502-ci ildə Şah İsmayıla ikinci dəfə məğlub olub qaçdıqdan sonra hərbi yardım üçün Bayəzidə müraciət etmiş və məhz onun köməyi ilə Şərqi Anadoluda möhkəmlənmişdi. Bir neçə dəfə Qasım bəyə Şah İsmayıla qarşı birləşməyi təklif etmiş Əlvənd, qəti rədd cavabı aldıqdan sonra onunla toqquşmalı olmuş və bu zaman Osmanlı hərbi hissələri də Əlvəndin ordusunda iştirakçı olmuşdular[2].

Sultan Bayəzid digər bir Ağqoyunlu şahzadəsi Sultan Muradla da sıx əlaqələr saxlayır, onu Səfəvilərə qarşı müharibəyə təhrik edərək, öz köməyini vəd edirdi. Sultan Murad Şah İsmayılın elçisi Qənbər ağa ilə söhbətində məhz “Rum qeysəri”-nə arxalanaraq, Səfəvilərə qarşı vuruşacağını gizlətməmişdi[3]. Almabulağı döyüşündə (1503) Sultan Muradın ordusunun tərkibində Osmanlı tüfəngçi və topçu birlikləri var idi[4].

Lakin Ağqoyunlular vasitəsilə Səfəvilərin önündə sədd çəkmək Bayəzidə nəsib olmadı və Azərbaycanda, həmçinin İranın böyük bir hissəsində Şah İsmayılın hakimiyyəti bərqərar oldu. Yeni bir siyasi vəziyyətin təşəkkül etdiyini anlayan Bayəzid Səfəvilər dövlətinə qarşı mövqeyini dəyişdirmiş və artıq onu rəsmən tanımağı qərara almışdı. 1504-05-ci ilin qışında Bayəzid, Mehmed Çavuş Balabanın başçılıq etdiyi elçi heyətini bəxşiş və ərməğanlarla həmin zaman İsfahandakı yeni tikil-

---

[1] Ş.F.Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası, s.63-64; T.H.Nəcəfli. Şah İsmayılın Sultan II Bayəzidlə qarşılıqlı münasibətlərinin müasir Türkiyə tarixşünaslığında əksi // AMEA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 2007, № 8, s.36.
[2] Aləmara (Şükri), s.69-71.
[3] Aləmara (Sahib), s.68; Aləmara (Şükri), s.73; Cahangüşa-yi xaqan, s.166.
[4] Aləmara (Sahib), s.76-79; Aləmara (Şükri), s.81-83; Travels of Venetians, p.53.

miş Nəqş-i Cahan sarayında olan Şah İsmayılın yanına göndərdi[1].

Tarixi faktlar göstərir ki, bu hadisədən sonra Bayəzid Səfəvilər dövlətinə münasibətdə "dinc, yanaşı yaşama" prinsipinə sadiq qalaraq, əsasən sülh siyasəti yürütmüşdür. Belə ki, o, hətta 1507-ci ildə Şah İsmayılın müraciətindən sonra ona Əlaüddövlənin üzərinə yürüş etmək üçün Osmanlı ərazisindən, Qeysəriyyə bölgəsinin Sarız yolundan keçməyə icazə vermişdi[2]. "Aləmara"da qeyd olunur ki, *"Şah İsmayıl öz cülusunun 7-ci ilində Bağdadı fəth edərkən"* qızılbaşlar orada VIII əsrin məşhur sünni imamı, Hənəfilik məzhəbinin banisi Əbu-Hənifənin məzarını təhqir etmiş və bu hadisə Hənəfiliyin rəsmi məzhəb olaraq qəbul edildiyi İstanbul sarayında bir sıra dairələrin ciddi narazılığına və müzakirələrinə səbəb olmuşdu. Səfəvilərə qarşı qəti hərəkət etmək tərəfdarları bu hadisədən bəhanə kimi yararlanır və *"islam yox olub gedir"* deyə fəryad edərək, sultanı Şah İsmayıla qarşı münaqişəyə təhrik edirdilər. Lakin saray çevrələrindəki bu radikal əhval-ruhiyyəyə baxmayaraq, Bayəzid Səfəvilərlə toqquşmadan qətiyyətlə imtina etdi[3]. O.Əfəndiyev yazır ki, "Osmanlı sultanının sülhsevərliyi ondan irəli gəlirdi ki, o, Şah İsmayıla qarşı açıq çıxış edəcəyi təqdirdə öz ölkəsində yaşayan çoxsaylı şiələrin (Ələvilərin – N.M.) daxili iğtişaşlar törədə biləcəyindən qorxurdu"[4].

Eyni zamanda, 1508-ci ilə qədər keçmiş Ağqoyunlu məmləkətinin fəthi və ölkədaxili düşmənlərin aradan qaldırılması ilə məşğul olan, sonra isə imperiyasının şərq sərhədlərində ciddi özbək təhlükəsi ilə üz-üzə qalan Şah İsmayıl Osmanlılarla hərbi münaqişəyə yol verməməyə çalışırdı. Ancaq Səfəvi – Osmanlı münasibətlərini gərginləşdirən digər qüvvələr vardı.

---

[1] O.Efendiyev. Sultan II. Bayezid ve Şah İsmail, s.90. "Təkmilətül-əxbar"a əsasən, o zaman Şah İsmayıl İsfahanda 1505-ci ilin 3 fevralından 23 martına kimi qalmışdı: О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.150-151. Yəqin ki, Osmanlı elçisi onun hüzuruna məhz bu müddətdə gəlmişdir.

[2] R.Yinanç. Dulkadir Beyliği, s.93.

[3] Aləmara (Sahib), s.515-516; Aləmara (Şükri), s.477-478.

[4] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.108.

Sultan Bayəzidin oğlu, Trabzon valisi Səlim Səfəvilərə qarşı sərt siyasətin tərəfdarı idi. "Aləmara" müəllifi Səlimi qəddar və amansız xarakterə malik bir şəxs kimi təsvir edir[1]. 1507-08-ci illərdə Şərqi Anadoludakı bir sıra ərazilərin Səfəvilər dövlətinə birləşdirilməsi və Şah İsmayılın yeznəsi Məhəmməd xan Ustaclunun hakim olduğu Diyarbəkr bəylərbəyiliyinin Osmanlıların Trabzon vilayəti ilə həmsərhəd olması Səlimi xüsusilə narahat etməyə başlamışdı. Hələ Şah İsmayılın Əlaüddövlə üzərinə yürüşü zamanı Səlim atası Bayəzidin laqeydliyinə sərt etiraz edərək, ona yazdığı məktubda bildirirdi: "Bir sufinin oğlu peyda olub, gəlib, at təpib, Qeysəriyyəyədək gələ və siz baxa-baxa durasız! Hanı irz-ü namus-i məlik? Hanı qeyrətiniz? Padşahlıq böylə olmaz! Onların haqlarından gəlinmək gərəkdir"[2]. "Aləmara"da deyilir ki, *"Məhəmməd xan Ustaclu tamam Diyarbəkr ölkəsini ələ keçirdikdən sonra"* Səlim bir neçə dəfə atası Bayəziddən Diyarbəkrə hücum üçün icazə istəsə də, rədd cavabı almışdı[3].

Buna baxmayaraq, Səlim atası ilə hesablaşmadan Səfəvilərə qarşı özbaşına siyasət yürüdür və iki dövlət arasında münasibətlərə xələl gətirirdi. O, 1508-ci ildə Əlaüddövlənin oğullarına məktub yazaraq, onları Şərqi Anadoludakı Səfəvi torpaqlarına hücum etməyə təşviq etmişdi. Bizim müəllifin şərhinə görə, *"qızılbaşların vəziyyətini götür-qoy edən Sultan Səlim qorxurdu ki, hərgah onlar Əlaüddövləni aradan qaldırsalar, onda bütün Rumu zəbt edəcəklər"[4].* Zülqədərlilərin Məhəmməd xan Ustaclu qarşısında ardıcıl məğlubiyyətlərindən sonra onlardan ümidini kəsən Səlim özü fəaliyyətə başlamağı qərara aldı. "Aləmara"nın məlumatlarına əsasən, 1508-12-ci illər arasında Səlim bir neçə dəfə qızılbaşlarla sərhəd münaqişələrinə girdi. İki ölkənin sərhədində mühüm mövqe olan Ərzincan bölgəsi dinc əhalinin hər iki tərəfdən qarət olunması ilə müşayiət olunan bu hərbi əməliyyatların əsas mərkəzinə çevrildi. Belə ki, Əlaüddövlənin oğullarının məğlubiyyətindən sonra Səlim

---

[1] Aləmara (Sahib), s.232; Aləmara (Şükri), s.149.
[2] Ö.F.Teber. XVI. yüzyılda Kızılbaşlık, s.113.
[3] Aləmara (Sahib), s.240; Aləmara (Şükri), s.138.
[4] Aləmara (Sahib), s.240; Aləmara (Şükri), s.138-139.

Osmanlıların Ərzincan hakimi Osman paşaya məktub yazıb, ona Səfəvilərin tabeliyindəki ərazilərə soxulmağı əmr etdi. Lakin Osman paşanın sərhədi keçmiş 12 minlik qoşununun hərəkəti Səfəvi casusları tərəfindən diqqətlə izlənilirdi. Osmanlı düşərgəsi gecə vaxtı dağın arxasında pusquda gizlənmiş qızılbaş sərkərdəsi Əhməd sultan Qacarın qoşununun qəfil hücumuna məruz qaldı. Nəticədə, Osman paşa öldürüldü, ağır məğlubiyyətə uğramış və heyətinin yarıya qədərini itirmiş "Rum qoşunu"nun qalıqları öz ərazilərinə çəkildilər. Qızılbaşlar Osmanlıların *"alaçıq və çadırlarını, mallarını və əşyalarını"* ələ keçirdilər, öldürülmüş "rumilər"in başları Məhəmməd xan Ustaclunun hüzuruna göndərildi[1].

Lakin bu hadisədən sonra Səlim özü şəxsən 30 minlik ordu ilə Ərzincandakı Səfəvi ərazilərinə basqın edib, çoxlu talançılıqlar törədərək geri qayıtdı[2]. Bayəzidin icazəsi olmadan Səfəvi hüdudları yaxınlığındakı *"sərhəddarlara və bəylərbəyilərə"* məktub yazaraq, onları kütləvi surətdə qızılbaş ərazilərinə hücuma səsləyən Səlim daha bir dəfə sərhədi keçərək, ətrafdakı əraziləri çapıb-taladı[3].

Səlimin bu hərəkətlərinə cavab olaraq, Məhəmməd xan Ustaclu öz qardaşı, Qara-Həmid qalası hakimi Qaraxana 10-12 minlik qoşun verərək, ona *"Ərzincanın Sultan Səlimə məxsus nahiyəsinə basqın edib elə bir xərabəlik törətməyi tapşırdı ki, bir də oraları abad etmək mümkün olmasın".* Bu yürüşün "kobud qeysərzadə"yə xəbərdarlıq məqsədi daşıdığını bildirən Məhəmməd xan qardaşına Səlimlə birbaşa toqquşmadan yayınmağı və əməliyyatı sürətlə həyata keçirib, geri dönməyi əmr etdi. Qaraxanın ordusunun sərhədi keçdiyini öyrənən *"o sərhədin əhalisi qızılbaşların qılıncının qorxusundan arvad-uşaqlarının əllərini tutub, dağlardakı qalalara getdilər və onların mallarını və əşyalarını, ilxılarını və sürülərini qızılbaşlar ələ keçirdilər".* Osmanlıların Ərzincan paşası güclü mühafizə olunan və ətrafındakı xəndəklər su ilə doldurulmuş qalaya sığındığından qızılbaşlar oranı tuta bilmədilər və Qaraxan, Əhməd

---

[1] Aləmara (Sahib), s.212-213; Aləmara (Şükri), s.142-144.
[2] Aləmara (Sahib), s.234; Aləmara (Şükri), s.152.
[3] Aləmara (Sahib), s.240; Aləmara (Şükri), s.157-158.

sultan Qacara 6 min döyüşçü verib, onu Toqatın kəndlərini qarət etməyə göndərdi. Cəmi 15 gün çəkmiş bu əməliyyat nəticəsində qızılbaşlar çoxlu qənimətlə geri qayıtdılar[1].

Səfəvi qaynaqları içərisində "Aləmara" yeganə mənbədir ki, Şərqi Anadoluda qızılbaşlarla Osmanlılar arasında erkən döyüşlər haqqında ətraflı məlumatlar verir. F.Kırzıoğlunun Osmanlı mənbələrinə və sənədlərə istinadən təqdim etdiyi faktlar "Aləmara"nın bu yöndəki informasiyalarını təsdiq edir. Bu faktlara görə, Trabzon valisi Səlim 1508-ci ilin may-iyun aylarında Səfəvilərin nüfuz bölgəsinə daxil olan Gürcüstandakı İmeretiya knyazlığını özünə tabe etmiş, həmçinin "Ərzincan və Bayburta qədərki əraziləri ziyana uğratmış idi". Bu məsələ ilə bağlı Şah İsmayıl öz elçisini İstanbula göndərərək, Bayəzidə Səlimdən şikayət etmiş və sultan öz oğluna təcavüzkarlıqdan əl çəkməyi əmr etmişdi. Lakin buna baxmayaraq, "Səlimnamə" müəllifi olan Kəşfi Mehmed Çələbi 1509-cu ilin yazında Səlimin Ərzincana yeni bir yürüşə çıxmasından və üzərinə göndərilmiş qızılbaş qoşununu məğlub etməsindən bəhs edir[2].

Qeyd etmək lazımdır ki, Səfəvi – Osmanlı münaqişəsinin qızışdırılmasında Məhəmməd xan Ustaclunun da böyük rolu olmuşdur. "Aləmara" müəllifi onun yaxşı bir komandan olduğunu göstərməklə yanaşı, hövsələsiz adam olduğunu, şahın yeznəsi olması ilə öyündüyünü və o zamana qədər bütün döyüşlərdən qalib çıxması səbəbindən onda özündənrazılığın baş qaldırdığını bildirir. Səlimin basqınlarından sonra o, Şah İsmayıldan xəbərsiz Osmanlı sarayına zərbafta boğçanın içində qadın geyimləri və əşyaları – kəlağayı, ləçək, yaylıq, xalxal (ayağa bağlanan bilərzik), nim-tənə (qadın jaketi) və qadın paltarı göndərərək, təhqirlər və hədələr işlətməkdən çəkinməmişdi[3].

---

[1] Aləmara (Sahib), s.240-242; Aləmara (Şükri), s.158-159.

[2] F.Kırzıoğlu. Osmanlıların Kafkas-ellerini fethi (1453-1590). Ankara, 1993, s.93-95; həmçinin bax: Bədayəül-vəqayə, v.374b. Səlimin 1508-ci ildə Ərzincana və Gürcüstana yürüşləri haqqında İbn Kamal ətraflı bəhs etmişdir: Tevârîh-i Âl-i Osmân, s.259-260,272-276.

[3] Aləmara (Sahib), s.244-245; Aləmara (Şükri), s.159-161.

Fəqət Səlimin qızılbaş ərazilərinə basqınları ara vermirdi. Mərv döyüşündən sonra Şah İsmayıl Xorasanda olarkən onun yanına Məhəmməd xan Ustacludan nümayəndə gələrək, bəylərbəyinin şaha məktubunu gətirmişdi. Məktubda Məhəmməd xan Səlimin növbəti soyğunçu basqını haqqında məlumat verir, onun öz atası Sultan Bayəzidin rüxsəti olmadan Diyarbəkr vilayətinə soxulduğunu, ətrafda yaşayan əhalini qarət etdikdən sonra getdiyini bildirirdi. Məhz bu hadisədən qəzəblənən Səfəvi hökmdarı Şeybani xanın kəsilmiş başının dərisinə saman dolduraraq, onu xəbərdarlıq etmək məqsədi ilə Sultan Bayəzidə göndərməyi qərara almışdı. İstanbuldakı Osmanlı sarayına özbək hökmdarının başı ilə yanaşı, onun xəzinəsindən ələ keçirilmiş Bədəxşan ləli ilə dolu bir qutu və Şeybani xanın qollarından açılmış, üzərində 18 dənə almaz, yaqut, zümrüd və ləl olan, Çingiz xanın adı nəqş olunmuş bir cüt bazubənd də "sovqat" kimi göndərilmişdi. Şah İsmayıl öz qələbəsini elçisi vasitəsilə Bayəzidə çatdırırdı: *"Vaxt var idi ki, zatialilərimiz Pərvərdigar-i aləmin köməyi və əlahəzrət məsum imamların – onlara salam olsun – imdadı ilə Gilan tərəfdən yeddi nəfər sufi ilə xüruc etmişdi. İndi isə Ulu Tanrının inayəti sayəsində Bəlx darvazalarından Durna (Fərat) çayı sahilinə qədər ərazini iti qılıncımızın zərbi ilə fəth etmişik. Çingiz xanın nəvələrindən olan Şahibəy xan ki, cahillik və lovğalıq üzündən böyük-böyük sözlər danışırdı, cürət meydanına öz ədəbsizlik ayağını qoymuşdu, onun başını kəsib, samanla doldurub, xidmətinizə göndəririk".* Eyni zamanda, İsmayıl Osmanlı sultanına Səlimin hərəkətləri barədə də şikayətlənirdi: *"Ərzimiz ondan ibarətdir ki, oğlunuz Sultan Səlimə deyin ki, öz halında qalsın! Bundan sonra bir də ədəbsizlik etməsin ki, yaxşı deyildir"*[1].

Lakin şah Xorasan yürüşündən geri qayıtdıqdan sonra, Təbrizdə olarkən onun hüzuruna Məhəmməd xan Ustacludan daha bir nümayəndə gələrək, Səlimin yenə də qızılbaş ərazilərinə qoşun göndərdiyi və onların Qara-Həmid hakimi Qaraxanla döyüşdükdən sonra geri çəkildiyi barədə xəbər gətirmişdi. Bu hadisə Şah İsmayılın Səlimdən şikayət etmək üçün öz

---

[1] Aləmara (Sahib), s.382-384; Aləmara (Şükri), s.329-331.

elçisi Süleyman Yasavulu İstanbula göndərməsinə səbəb olmuşdu. İsmayıl elçi vasitəsilə Bayəzidə göndərdiyi məktubda ona *"iki kontinentin və iki dənizin sultanı" ("sultanül-bərreyn vəl-bəhreyn")*[1] deyə müraciət edir və iradını çatdırırdı: *"Hərçənd zati-alilərimiz dostluq qaydalarının və köhnə əhdü-peymanın aralıqdan qalxmamasını istəsə də, lakin hər dəfə Sultan Səlimdən bizim dövlətimizin mülazimlərinə nisbətdə uyğunsuz hərəkətlər vaqe olub və olmaqdadır. İndi ulu dərgahın mülazimləri yalnız Rum mülkünün hökmdarının izzəti xatirinə dostluğu qoruyub saxlayırlar".* Daha sonra məktubda Bayəzidə müraciət edilərək, ona Səlimi bu hərəkətlərdən çəkindirmək tövsiyə olunurdu[2].

Osmanlı salnaməçisi Solakzadə göstərir ki, 1511-ci ildə Anadoluda, Təkkə elində (indiki Antalya bölgəsində) Şahqulunun başçılığı ilə baş vermiş qızılbaş üsyanı zamanı Şah İsmayıl nəinki bu üsyanı dəstəkləməmiş, hətta ona sığınan üsyan rəhbərlərini "atalığım Sultan Bayəzid xanın itaətindən çıxmaqda" qınayaraq edam etdirmişdi[3].

1512-ci ilə qədər həm Sultan Bayəzid, həm də Şah İsmayıl bir-birinə qarşı açıq hərbi əməliyyatlardan çəkinərək, əsasən sülh siyasəti yeritməyə çalışmışlar. Hətta Şərqi Anadoluda Səlimin və Məhəmməd xan Ustaclunun qoşunları arasında baş verən insidentlər də dövlətlərarası müharibəyə gətirib çıxarmamışdı. O.Əfəndiyevin qeyd etdiyi kimi, "bu iki türk dövlətinin münasibətləri, ciddi siyasi və məzhəb fərqlərinə rəğmən, bu dönəmdə barış ortamında davam etmişdi"[4].

Lakin 24 aprel 1512-ci ildə qocalmış və zəifləmiş, öz hakimiyyətinin son dövründə ölkə daxilindəki vəziyyətə nəzarət etmək iqtidarında olmayan II Bayəzidin öz oğlu Səlim tərəfindən devrilməsi ilə vəziyyət büsbütün dəyişdi. Osmanlı aristokratiyasının "şərq yürüşünün" tərəfdarı olan zümrələrinin fəal dəstəyi ilə hakimiyyətə keçən Sultan I Səlim Yavuz (1512-20) Sə-

---

[1] Yəqin ki, burada "bərreyn" deyildikdə Anadolu və Balkanlar, "bəhreyn" deyildikdə isə Aralıq və Qara dənizlər nəzərdə tutulmuşdur.
[2] Aləmara (Sahib), s.500-501; Aləmara (Şükri), s.454-456.
[3] M.Solakzadə. Tarix, s.22-24.
[4] O.Efendiyev. Sultan II. Bayezid ve Şah İsmail, s.95.

fəvilər dövlətinin aradan qaldırılmasını özünün əsas hədəfinə çevirdi. İ.P.Petruşevski hesab edir ki, "qızılbaşlarla müharibə I Səlimin şəxsi təşəbbüs aktı idi; onun vəzirləri və müşavirləri bu işi son dərəcə təhlükəli və riskli sayırdılar"[1]. Xandəmir yazır ki, Bayəzidin Şah İsmayılla münasibətləri məhəbbət və səmimiyyət məqamında olsa da, Səlim hakimiyyətə gəldikdən sonra öz atasının siyasətinə xilaf çıxıb, müharibə yolunu tutdu[2].

Lakin "Aləmara"nın məlumatına görə, hakimiyyətə keçdikdən dərhal sonra qüvvələrini səfərbərliyə alıb "Şeyxoğlu"nun üzərinə yürüş etmək daxili iğtişaşlar səbəbindən Səlimə nəsib olmadı. Mənbədə qeyd olunur ki, *"vəzir-i əzəmin və yeniçəri-ağasının"* köməyi ilə Səlim, Şeyxoğluya qarşı yumşaq siyasət yürütməkdə ittiham etdiyi *"atası Bayəzidi tutub məhbus etdi və öz adına sikkə kəsdirib xütbə oxutdu, qoşunlara baxış keçirdi".* Lakin o, ilk növbədə ona tabe olmayan şahzadələri sıradan çıxarmaqla məşğul oldu: *"Sultan Bayəzidin həbsi xəbəri onun Amasya hakimi olan oğlu Sultan Əhmədə çatdıqda [Səlim] əmirləri ilə məsləhətləşib, atasını qətlə yetirərək car çəkdirdi ki, Sultan Bayəzid tiryək atıb, özünü həlak etmişdir".* Şahzadə Əhməd öz qoşunu ilə İstanbul üzərinə hərəkət etsə də, Səlim tərəfindən hiylə yolu ilə ələ keçirilib öldürüldü. Osmanlı məmləkəti daxilində çəkişmələr təkcə bununla məhdudlaşmırdı. Əhmədin Amasyada öz adına sikkə kəsdirmiş, xütbə oxutmuş oğlu Murad yeni sultana qarşı güclü müqavimət göstərirdi[3].

Səlimin öz daxili düşmənləri ilə haqq-hesab çəkəndən sonra Səfəvilər dövləti əleyhinə yürüş edəcəyini yaxşı anlayan Şah İsmayıl önləyici tədbirlər görməyi qət etdi. Məhz Osmanlı xanədanı daxilində səltənət rəqabəti qızışdığı zaman Şah İsmayılın öz xəlifəsi kimi Anadoluya yolladığı Nurəli xəlifə Rumlu aktiv fəaliyyətə başladı. "Aləmara" Nurəlinin təlimatlandırılması və fəaliyyəti, habelə Anadolu qızılbaşlarının dini inancları ilə bağlı digər mənbələrdə rast gəlmədiyimiz maraqlı məlumatlar verməkdədir. Bizim müəllifin yazdığına görə, *"pak etiqadlı sufilərdən birini Rum vilayətində sakin olan saf fikirli sufi-*

---

[1] И.П.Петрушевский. Азербайджан в XVI-XVII вв., с.239.
[2] Həbibüs-siyər, s.544.
[3] Aləmara (Sahib), s.502-504; Aləmara (Şükri), s.457-459.

*lərin yanına göndərmək”* qərarına gələn Şah İsmayıl bunun üçün Nurəli xəlifəni seçmiş və onunla *“Rum sufiləri”*, yəni Anadolu Ələviləri üçün məktub da göndərmişdi: *“Yüksəkdən yüksək olan bu sülalənin Rumda sakin olan pak etiqadlı sufilərinə elan edirik ki, bu zamanda biz hamısı məsum olan həzrət imamların – onlara salam olsun – buyuruğuna əsasən Məhəmməd zərbini və “Əliyyən-vəliyyullah” təbilini nəvazişlə səsləndirib xüruc etmişik və on iki imamın məzhəbinə rəvac verib, əksər sünni və kafir padşahlarını və dikbaşlarını həlak edib torpağa tökmüşük, haqq məzhəbin yolunda çalışmışıq və çalışmaqdayıq. Və hal-hazırda əsil-nəsillikcə Şah-i Mərdanın şiələrindən olan Nurəli xəlifəni zati-alilərimizin naibi kimi o tərəfə rəvan edirik. Gərəkdir ki, bu yüksək sülalənin saf fikirli sufiləri onu özlərinin birbaşa xəlifəsi hesab edib, onun itaətindən boyun qaçırmasınlar və əgər bir kimsə ona itaət etməzsə, həmin şəxs zati-alilərimizin itaətindən boyun qaçırmış olacaqdır”*[1].

Mənbə həmin zaman Anadolu qızılbaşlarının ifrat yönümlü inanclara malik olduğunu üzə çıxarmaqdadır. Onlar öz mürşidləri saydıqları Şah İsmayılı müqəddəsləşdirib, ona pərəstiş edirdilər: *“Nurəli xəlifənin Ruma getməsi xəbəri sufilərə çatdıqda 10 min nəfərə qədər sufi onun başına cəm oldu və məktubu onun əlindən alıb, gözlərinin üstünə sürtüb ziyarət etdilər. Nurəli xəlifə hökmdarın başmağını sufilərin yanına aparmışdı və onlar o başmağı öpüb, gözlərinin üstünə qoyub dedilər ki, xoş olsun sizin halınıza ki, hər gün mürşid-i kamilin didarını görürsünüz. Məktubu açdıqda çoxlu ehsanlar tökdülər, az qaldı ki, öz canlarını qurban etsinlər və daha sonra o məktub oxunduqda hamısı birdən yerlərindən qalxdılar, bəziləri xəlifə-*

---

[1] Anadolunun yarımköçəri türk qızılbaş oymaqlarının farsca bilmələri ehtimalının zəifliyini, həm də Səfəvilərin türk dilinə qayğı və diqqətini, həmin dövrdə türk dilinin dövlət dili səviyyəsinə yüksəldiyini nəzərə alsaq, Şah İsmayılın bu məktubunun orijinalda türkcə yazıldığını güman edə bilərik. Şah İsmayılın Qaraman bəylərindən Turqutoğlu Musa bəyə yazdığı məktub (Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s.184; F.Sümer. Safevî Devletinin kuruluşu, s.51), həmçinin Səfəvi şahlarının Anadolu qızılbaşlarına göndərdikləri “Buyuruq” kitabları da türkcədir (bax: M.Yaman. Erdebilli Şeyh Safi ve Buyruğu. İstanbul, 1994).

*nin ayağını öpürdü və bəziləri onun əlini öpürdü və deyirdilər ki, əmr mürşid-i kamilin əmridir ki, biz sənə xidmət edib başımızı sənin yolunda qoyaq".* Çox keçmədən 4 min qızılbaş ailəsi Nurəliyə biət etdi[1].

Səfəvi təbliğatçılarının Anadolu Ələvilərinə şahın başmağını və məktubunu aparmaları, Ələvilərin də şah xəlifələrinə nəzir vermələri o dövrün gerçəkliklərindən idi[2].

Nurəlinin ətrafına əfşar, varsaq, qaramanlu, turqudlu, bozoxlu, təkəlü, həmidelli əşirətlərindən mühüm bir qüvvət toplanmışdı[3]. Tezliklə qəti fəaliyyətə başlayan Nurəli xəlifə Faiq paşanın başçılıq etdiyi Osmanlı qoşunu ilə toqquşmalı oldu. Baş vermiş döyüşdə *"əjdaha kimi hücum çəkən saf ürəkli sufilər"* Osmanlı qoşununu ağır məğlubiyyətə uğradıb, xeyli qənimət ələ keçirdilər[4]. Toqatı zəbt edən Nurəli orada Şah İsmayılın adına xütbə oxutdurdu. Toqatın işğalı zamanı İsmayılın adına xütbə oxudulması onu göstərdi ki, Nurəli xəlifənin kampaniyası Osmanlı ərazisinə sadəcə bir reyd deyildi; bu, Səfəvilər tərəfindən Anadoludakı Osmanlı hakimiyyətini devirmək cəhdi idi[5].

Eyni zamanda, Amasyada qiyam qaldırıb 20 minlik ordu yığmış[6], əvvəlcə üzərinə göndərilən Dilavər və Şahbaz paşaların qoşunlarını məğlubiyyətə uğratmış və daha sonra Rüstəm paşanın qoşununu darmadağın edib onu qətlə yetirmiş şahzadə Murad kömək üçün Səfəvi şahına müraciət etdi. O, yazdığı məktubda *"şahısevənlikdən dəm vurub",* özünün *"Şeyx Səfiəddin İshaq ocağının saf etiqadlı sufilərindən olduğunu"* qeyd edərək, hakimiyyətə keçəcəyi təqdirdə Şah İsma-

---

[1] Aləmara (Sahib), s.188-189; Aləmara (Məclis kitabxanası – 761), v.48b. Osmanlı müəllifləri Nurəlinin 20 min qoşun topladığını bildirirlər: Bədayəül-vəqayə, v.392b; T.Gündüz. Son Kızılbaş, s.114.

[2] S.Savaş. XVI. asırda Anadolu'da Alevilik. Ankara, 2002, s.38-39.

[3] İ.H.Uzunçarşılı. Osmanlı tarihi, II c., s.229.

[4] Aləmara (Sahib), s.189; Aləmara (Məclis kitabxanası – 761), v.48b-49a.

[5] R.M.Savory. The Consolidation, p.84.

[6] Həsən bəy Rumlu Muradın 10 minlik qoşun yığdığını yazır: Əhsənüt-təvarix (Seddon), s.135. Osmanlı müəllifi Cəlalzadə də, "Aləmara" müəllifinin göstərdiyi kimi, 20 min rəqəmini qeyd edir. Lakin Osmanlı arxiv sənədləri onun qoşununun 10 min olduğunu bildirirlər: R.Yildirim. Turkomans, p.473, 479-480.

yıla itaət edəcəyinə dair vəd verirdi. Muradın məktubunu alan İsmayıl cavab məktubu yazaraq, onun müraciətinə müsbət cavab verdi və *"Nurəli xəlifə Rumlunu o tərəflərə göndərəcəyini"* bildirdi[1]. Şahzadə Murad başına Heydəri tacı qoyaraq, qızılbaşlığı qəbul etdi[2].

Nurəliyə Muradla birləşməyi əmr edən Şah İsmayıl *"Ərzincan sərhədinin hakimliyini"* ona verdiyini bildirdi. Mustafa paşaya qarşı döyüşdə məğlub olan Murad Amasyanı tərk etməyə məcbur oldu[3]. Qaz-çayırı (Qaz-ovası) mövqeyində Muradın və Nurəlinin qüvvələrinin birləşməsi baş verdi və onlar Toqat əhalisinin qızılbaşlara qarşı üsyan etdiyini öyrənib, şəhəri tutaraq yandırdılar[4]. "Aləmara"ya əsasən, birləşmə zamanı Nurəlinin ixtiyarında 5 minlik, Muradın isə 3 minlik qoşunu vardı. Birləşmiş qüvvələr üzərilərinə göndərilmiş 10 minlik Osmanlı qoşununu məğlub etdilər və soyuqların düşməsi üzündən 1512-ci ilin sonlarında hərbi əməliyyatları dayandırıb, Ərzincandan cənub-qərbdəki Kəmax qalasına çəkildilər. Həmin ilin qışında Murad, Nurəli xəlifənin yanından ayrılaraq, İsfahanda qışlayan Şah İsmayılın hüzuruna yollandı[5].

Muradı qarşılamaq üçün özünün *"böyük əmirlərini"* göndərən Şah İsmayıl qiyamçı şahzadə ilə İsfahandakı Nəqş-i Cahan imarətində görüşdü və ona söz verdi ki, *"inşallah, Sizi Rum məmləkətinin bütün hüdudlarının və ölkələrinin padşahı edəcəyəm".* O, şahzadəyə daş-qaşla bəzədilmiş tac və bir dəst bər-bəzəkli qızılbaş geyimi hədiyyə etdi, onun əmirlərinə

---

[1] Aləmara (Sahib), s.503-505; Aləmara (Şükri), s.460-461.

[2] İ.H.Uzunçarşılı. Osmanlı tarihi, II c., s.249; F.Sümer. Safevî Devletinin kuruluşu, s.35. Şahzadə Muradın qiyamı təkcə Amasyanı əhatə etmirdi. Çorum, Sivas və Toqat qızılbaşlarının da bir qismi üsyan qaldıraraq, onu dəstəkləmişdilər: N.Musalı. XVI. yüzyılda Çorum // Osmanlı'dan Cumhuriyet'e Çorum (Uluslararası Sempozyum). Çorum, 2008, I c., s.96.

[3] Aləmara (Sahib), s.506-508; Aləmara (Şükri), s.462-464.

[4] F.Sümer. Safevî Devletinin kuruluşu, s.35.

[5] Aləmara (Sahib), s.506-509; Aləmara (Şükri), s.462-469. A.Allouç (Osmanlı-Safevî ilişkileri, s.122) şahzadə Muradın Şah İsmayıla sığınması ilə bağlı hadisələri 919 / 1513-14-cü ilin qışına aid etsə də, bu fikir yanlışdır. İlkin qaynaqlara əsasən, Muradın qiyamı, Nurəli ilə birləşməsi və Səfəvilərə pənah gətirməsi 918 / 1512-13-cü ilin hadisələrindəndir: İ.Bidlisî. Selim Şahname. Ankara, 2001, s.77; Əhsənüt-təvarix (Seddon), s.135-136.

isə ənamlar payladı. Şah İsmayıl Muradı arxayın edirdi ki, *"Novruzu qeyd etdikdən sonra bu məkandan qalxıb, həməl bürcünün əvvəllərində əmr edəcəyəm ki, darüssəltənə Təbrizdə qızılbaş ordusuna baxış keçirilsin".* Ordunun bütün hissələri cəm olduqdan sonra o, Muradla birlikdə Sultan Səlim üzərinə gedəcəyini, Toqatdan başlamış Üsküdara qədər Osmanlı ərazisini fəth edəcəyini bildirirdi[1]. Bu faktlar göstərir ki, Osmanlı səltənəti daxilindəki iğtişaşlara və özünün Anadoludakı çoxsaylı tərəfdarlarına ümid bəsləyən Şah İsmayıl 1513-cü ilin yazı üçün Osmanlı ölkəsi üzərinə yürüş planlaşdırırdı. Lakin 1512-ci ilin sonu – 1513-cü ilin əvvəllərində qızılbaşların Orta Asiya və Xorasan ərazilərində özbəklər tərəfindən ardıcıl məğlubiyyətlərə uğradılması Şah İsmayılın 1513-cü ilin yazında Anadoluya deyil, Xorasana yürüş etməsinə səbəb oldu. Eyni zamanda, bu hadisələr cərəyan edərkən Sultan Səlim öz daxili düşmənlərini sıradan çıxarıb taxt-tacda möhkəmlənə bildi.

"Aləmara"da qeyd olunur ki, 1512-13-cü ilin qışında Sultan Səlim öz elçisini İsfahanda qışlayan Şah İsmayılın yanına göndərib, *"iqbal və səadətlə qeysərlik taxtına əyləşdiyini"* bildirmiş və ondan şahzadə Muradı təhvil verməyi, Diyarbəkr vilayətindən əl çəkməyi tələb etmişdi: *"Hal-hazırda qardaşım oğlu Sultan Murad dərgahımızın mülazimlərindən fərar edib yanınıza gəlmişdir. Gərək onu qolu bağlı şəkildə zati-alilərimizin xidmətinə göndərəsiniz. Həmçinin əmr edin ki, sizin valiniz bizim irsi mülkümüz olan Diyarbəkr vilayətini bizim mülazimlərimizə təhvil versin ki, aralıqda dostluq qaydaları möhkəmlənsin, düşmənçiliyə çevrilməsin".* Əks təqdirdə, Sultan Səlim *"dəniz kimi coşan Rum ordusu ilə"* Səfəvilər üzərinə *"cah-calallı"* səfərə çıxacağını bildirir və Şah İsmayıla *"savaşa hazır olmaq"* barədə xəbərdarlıq edirdi.

---

[1] Aləmara (Sahib), s.509-510; Aləmara (Şükri), s.470-471. Əmir Mahmud ibn Xandəmir yazır ki, "Rum məmləkətinin padşahı" Sultan Səlimin Azərbaycan və İraq ərazilərinə olan işğalçılıq planlarına cavab olaraq Şah İsmayıl da Osmanlı torpaqlarını zəbt etmək niyyətlərini irəli sürürdü: Tarix-i Şah İsmayıl və Şah Təhmasib, v.79b-80a.

Lakin İsmayıl sultanın tələblərini rədd etdi. O, özünün cavab məktubunun əvvəlində Sultan Bayəzidin sülh siyasətini təqdir edir, Səlimi isə hədələməkdən çəkinmirdi: *"Səltənətin pənahı olan atanız səadətli, aqil, diqqətcil adam idi, bilirdi ki, zati-alilərimizlə çəkişən adam yerlə yeksan olacaqdır. İndi ki sizi lovğalıq bürüyüb, inşallah, sizin namübarək başınızı Həzrət Əmirülmömininin Xeybəri fəth edən qolunun qüvvəti ilə kəsib, Firəngdəki Portuqal padşahı üçün göndərəcəyəm"*[1]. Şah Osmanlı sultanının məktubunda əksini tapmış təklifləri *"yöndəmsiz kəlmələr"* kimi səciyyələndirirdi. Diyarbəkr məsələsinə gəldikdə isə Şah İsmayıl oranın babası Uzun Həsənə məxsus olduğunu və buna görə də Səlimin onunla *"Həsən padşahın vilayətinin davasını etməyə haqqının çatmadığını"* qeyd edirdi. O, həmçinin şahzadə Muradın öz yanında qonaq olduğunu və onu təhvil verməyəcəyini bildirirdi[2]. Lakin Şah İsmayıl Muraddan istifadə edə bilmədi. Çünki 1513-cü ilin yazında şahla İsfahanı tərk edib Həmədana gəlmiş Murad orada ağır xəstələndi, *"təxt-i rəvana"* qoyularaq, İsfahana geri göndərildi və orada vəfat etdi[3].

Hələ hakimiyyətə gəlməzdən öncə qızılbaşlara dərin nifrət bəsləyən Sultan Səlim yuxarıda qeyd olunan insidentlərdən yararlanaraq, Osmanlı imperiyasının əsas işğal gücünü Avropadan islam şərqinə keçirdi. "Aləmara"nın məlumatları onun Səfəvilər dövlətini tamamilə ortadan qaldırmaq niyyətindən

---

[1] O zamanlar bir rəqib hökmdarın başını kəsib, xəbərdarlıq məqsədi ilə digər bir potensial düşmən üçün göndərmək dəb idi. Burada Portuqal kralının qeyd olunması təsadüfi deyildir. Çünki həmin zaman Hörmüz adasına nəzarət uğrunda Səfəvi – Portuqal münasibətlərində gərginlik müşahidə olunurdu (Я.М.Махмудов. Взаимоотношения государств Ак-коюнлу и Сефевидов с западно-европейскими странами. Баку, 1991, s.138).

[2] Aləmara (Sahib), s.511-512; Aləmara (Şükri), s.471-473.

[3] Aləmara (Sahib), s.510-511,515; Aləmara (Şükri), s.471,476. Sonradan məlum oldu ki, Muradın mülazimləri arasında olan Səlimin casusu onun yeməyinə zəhər qatıb öldürmüşdü: Aləmara (Şükri), s.476; Aləmara (Məclis kitabxanası – 9421), v.136b. Xoca Sədəddin Əfəndi də şahzadənin bir Osmanlı casusu tərəfindən qətlə yetirildiyi ehtimalına yer verir: Tâcü't-tevârîh, s.349-350. Muradın Şah İsmayılın hüzurundakı yaşayışı və ölümünün təfərrüatları üçün bax: N.Musalı. Anonim bir Safevî kaynağının ışığında, s.382-388.

xəbər verir[1]. O, təkcə Səfəvilər dövlətini deyil, bütün islam dünyasını öz hökmü altına almaq, hətta Hindistana qədər getmək istəyirdi[2]. Osmanlı təhlükəsini özlərindən uzaqlaşdırmağa çalışan Avropa ölkələri iki türk-müsəlman imperiyasının arasında uzunmüddətli hərbi toqquşmanın baş verməsində maraqlı idilər. Onlar Şah İsmayıla Osmanlıya qarşı hərbi yardım edəcəkləri ilə bağlı hələ onun babası Uzun Həsənə verdikləri sözlər kimi boş vədlər versələr də, bunların heç biri həyata keçmədi[3]. Qərbi Avropa dövlətləri ilə yanaşı, Şərqi Anadoluda, Səfəvi tabeçiliyində yaşayan sünni məzhəbli kürd tayfaları da Səfəvi – Osmanlı müharibəsinin qızışdırılmasında canfəşanlıq edirdilər. Kürd əmirləri israrla Sultan Səlimə müraciət edərək, onu Azərbaycan üzərinə yürüşə təhrik edirdilər[4] və təsadüfi deyil ki, Səlimin Azərbaycana yürüşündə 46 kürd əmiri öz silahlı dəstələri ilə fəal iştirak etmişdi[5].

Sultan Səlim Şah İsmayıl üzərinə qəti hərəkətə keçməzdən öncə Səfəvi dövlətinə qarşı bir sıra siyasi, mədəni, iqtisadi və əsgəri tədbirlər gördü[6]. "Aləmara"nın materialları göstərir ki, Sultan Səlim özünün *"Əcəm səfərinə"* ideoloji don geyindirməyə çalışır və öz çıxışlarında Şah İsmayılı *"ilk üç xəlifəni ("xüləfa-yi sələsə") söyməklə qəbahətli əməllərə yol verməkdə",* habelə *"ilk üç xəlifəyə küfr və zındıqlığı nisbət verməkdə"* ittiham edirdi[7]. "Sünni üləması qızılbaşlara qarşı hərb açılmasının cihaddan da mühüm və əqdəm olduğu barədə fitva ver-

---

[1] Aləmara (Şükri), s.542; Aləmara (Məclis kitabxanası – 9421), v.155b.
[2] Ə.Tahiri. Tarix-i siyasi-yo ictimai-yi İran, s.153-154; R.Kılıç. Kanunî devri Osmanlı-İran münasebetleri (1520-1566). İstanbul, 2006, s.67.
[3] Daha ətraflı bax: Я.М.Махмудов. Взаимоотношения, с.118-140.
[4] Travels of Venetians, p.118; Doğuda Venedik elçileri, s.60; R.Yildirim. Turkomans, p.506-507.
[5] M.İ.Şəmsi. Şərəf xan Bidlisinin "Şərəfnamə" əsəri, s.57.
[6] Y.Küçükdağ. Şah İsmail'in Anadolu'yu Şiîleştirme çalışmaları ve Osmanlı Devletinin aldığı önlemler // Türk Aleviliği Araştırmaları. Konya, 2010, s.46-59; B.Dedeyev. Çaldıran Savaşına kadar Osmanlı-Safevî ilişkilerine kısa bir bakış // Uluslararası Sosyal Araştırmalar Dergisi, sayı 2/6, 2009, s.131-132.
[7] Aləmara (Sahib), s.516; Aləmara (Şükri), s.478.

mışdı"[1]. Sünni alimlərinin fitvalarında "bir nəfər şiəni öldürməyin 70 nəfər İsəvinin qətlindən savab olduğu" vurğulanırdı[2].

"Aləmara"da deyilir ki, Sultan Səlim hakimiyyətə gəlməsinin ardından siyasi məsələlər barədə Şah İsmayıla göndərdiyi ilk elçidən sonra dini ixtilaflara aydınlıq gətirmək və Səfəvilərin dini siyasətini tənqid etmək üçün Hənəfi məktəbinə mənsub sünni məzhəbli Osmanlı din xadimlərindən olan Qazı Xəlil Çələbini Azərbaycana göndərmişdi. Sultaniyyə şəhərində Şah İsmayılla görüşən Osmanlı ruhanisi şahın hüzurunda Səfəvilər dövlətinin şiə din xadimləri (Qazızadə Lahici, Molla Əli Cəbəlamili, Mir Şəmsəddin, Mir Seyid Şərif) ilə dini məsələlər barədə bəhs etmiş və bu söhbətlərdə hər iki tərəf ifrat təəssübkeşlik ortaya qoyaraq, öz mövqeyini müdafiə etmişdi. Qazı Xəlil Çələbi Şah İsmayılın yüksəliş ili olan h. 906-cı ili əbcəd hesabı ilə farsca *"məzhəb-i na-həqq"* ("haqsız məzhəb", "yanlış məzhəb") kimi mənalandırsa da, Molla Əli Cəbəlamili öz hazırcavablığı ilə ona qarşı çıxaraq, bu ifadəni ərəbcə *"məzhəbuna həqq"* ("məzhəbimiz haqdır") kimi izah etmişdi. Qazı Xəlil Osmanlı sarayına qayıdaraq, apardığı müzakirələr barədə məruzə etmiş, məhz bundan sonra Osmanlı üləması Sultan Səlimin Səfəvilər üzərinə hücumuna haqq qazandırmış və tam dəstək vermişdi[3].

Sultan Səlim öz hakimiyyəti dövründə Səfəvilər əleyhinə ideoloji və hərbi-siyasi tədbirlər görməklə yanaşı, iqtisadi müharibəyə də başlamışdı. O, Səfəvilər dövlətinə qarşı bir növ "iqtisadi embarqo" (xüsusən ipəkçilik sahəsində) tətbiq etmişdi[4]. O dövrün canlı şahidi olmuş bir müəllif yazır ki, Sultan Sə-

---

[1] M.Saray. Türk-İran siyasî münasebetlerinde Şiîliğ'in rolü. Ankara, 1990, s.19. Osmanlıların məşhur din xadimlərindən olan Kamal Paşazadənin və Müfti Həmzə Sarıgürəzin qızılbaşlar əleyhinə fitvaları üçün bax: A.Allouche. Osmanlı-Safevî ilişkileri, s.188-190; R.Kılıç. Kanunî devri, s.72-74.

[2] T.D.Həsənzadə. Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin əsərlərində Azərbaycan tarixi məsələləri. Bakı, 2001, s.181.

[3] Aləmara (Sahib), s.516-519; Aləmara (Şükri), s.478-482. Bu əhvalatın oxşar versiyasına digər bir Səfəvi qaynağında da rast gəldik (bax: Tarix-i səlatin-i Səfəviyyə, s.8-9).

[4] М.Х.Гейдаров. Торговля и торговые связи Азербайджана в позднем средневековье. Баку, 1999, c. 8-9. Osmanlı iqtisadiyyatına da mənfi təsir

lim “tacirlərin Rum ölkəsindən Əcəm ölkəsinə pul və əmtəə aparmasının qarşısını almaq və yavaş-yavaş Əcəm ölkəsinin ticarət yolunu kəsmək” haqqında göstəriş vermişdi[1].

Qızılbaş ordusunun böyük qüvvələrinin şərq sərhədlərində özbəklərə qarşı durduğu şəraitdə Şah İsmayılın Osmanlılara qarşı müharibəyə tam hazır vəziyyətdə olmaması Sultan Səlimə böyük üstünlük verirdi. Osmanlı sultanı 22 məhərrəm 920 / 19 mart 1514-cü ildə “şərq yürüşü”nə başlamaq üçün Ədirnədən yola düşdü[2]. “Aləmara”dan aydın olur ki, İsmayıla qarşı müharibədə Səlim *“Firəngdən gəlib, islamı qəbul etmiş”* cəngavərlərə böyük ümid bağlayırdı[3]. O, baharın əvvəlində hərəkətə başlayıb, İstanbuldan Üsküdara keçdi, oradakı hərbi müşavirədən sonra *“dərya-dərya qoşunla”* Anadolu boyunca hərəkət etdi[4]. Öz ordusunun arxasında təhlükəsizliyi təmin etmək adı altında Sultan Səlim Anadoludakı qızılbaşlara divan tutdu. Osmanlı salnamələrinə istinad edən E.Broun həmin vaxt 40 min şiənin (Ələvinin – N.M.) qətlə yetirildiyini qeyd edir[5]. 12 iyulda Suşəhri mövqeyindən Səfəvi sərhədini keçən[6] Səlim, sərkərdəsi Sinan paşanın komandanlığı ilə ordunun avanqard hissəsini Ərzincan üzərinə göndərərək, özü əsas qüvvələrlə onların ardınca irəlilədi. Səfəvilərin Ərzincan hakimi

---

göstərən bu “ibrişim yasağı” Sultan Süleyman hakimiyyətə gəldikdən sonra ləğv edildi: R.Kılıç. Kanunî devri, s.128-129.

[1] A.Bilgen. Adâ’î-yi Şîrâzî ve Selim-nâmesi. Ankara, 2007, s.120. Səfəvilərə mis, dəmir, qızıl və gümüş əmtəələrin, odlu silahların da ixracı qadağan edilmişdi: D.M.Əzimli. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı – XVII əsrin I yarısı). T.ü.f.d. aftoreferatı. Bakı, 2010, s.15.

[2] M.Solakzadə. Tarix, s.25-26; J.V.Hammer. Osmanlı tarihi, I c., s.373.

[3] Aləmara (Sahib), s.513; Aləmara (Şükri), s.483. Yəqin ki, burada yeniçərilər nəzərdə tutulmuşdur.

[4] Aləmara (Sahib), s.513-514; Aləmara (Şükri), s.472-473. Üsküdardakı hərbi müşavirədə vəzir-i əzəmin təklifi əsasında Azərbaycan üzərinə Diyarbəkrdən deyil, Ərzincan istiqamətindən hərəkət etmək qərara alınmışdı: N.Musalı. Farsça kaynaklara göre Üsküdar’ın tarihi ve coğrafyası // VI. Uluslararası Üsküdar Sempozyumu. Bildiriler. İstanbul, 2009, II c., s.39.

[5] E.G.Browne. A History of Persian Literature, p.72; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.112.

[6] D.Aydın. Erzurum Beylerbeyiliği ve teşkilatı. Kuruluş ve genişleme devri (1535-1566). Ankara, 1998, s.39.

Nurəli xəlifə şahla birləşmək üçün 5 minlik qoşunu ilə Təbrizə doğru geri çəkildi və Osmanlı ordusu Ərzincana yiyələndi. Ərzincanın dörd fərsəxliyində bölgə kətxudaları və ağsaqqalları layiqli peşkəşlər və töhfələrlə Sultan Səlimi qarşılamağa çıxdılar[1].

Səlim yolda olarkən İsmayıla üç təhqiramiz məktub yazmış, bunlardan yalnız üçüncüsünə şahdan cavab gəlmişdi[2]. "Aləmara"ya görə, birinci məktub İstanbuldan, ikinci məktub Üsküdardan göndərilmiş, üçüncü məktub isə Ərzincandan yola salınmışdı. Məhz oradan Səlim İsmayıla Məhəmməd Çavuş adlı elçi göndərərək, müharibəyə çağırış barədə üçüncü dəfə müraciət etdi. O, öz məktubunda *"hərəkət edib, Azərbaycanın sərhədinə çatdığını"* və tezliklə Təbrizə gələcəyini bildirirdi. Bu məktub Həmədanda dincələn və müharibəyə hazır olmayan Şah İsmayılı həyəcanlandırdı: *"Çavuş, Allahın kölgəsi olan həzrətin (Şah İsmayılın) hüzuruna gəlib, məktubu verdi və o həzrət məktubun məzmunu ilə tanış olduqda ordunun tədarük edilməsi hənüz sona çatdırılmadığına görə mübarək xatirinə bir qədər kədər yol tapdı".* Lakin o, döyüşə girməkdən çəkinməyərək, elçi vasitəsilə Səlimə xəbər göndərdi ki, *"bir halda ki siz bizim dövlətimizin ərazisinə təşrif gətirmişsiniz, Allah-taala nəyi təqdir etmişdirsə, yerinə yetəcəkdir"*[3]. Şah İsmayıl öz elçisi Şahqulu ağa ilə göndərdiyi cavab məktubunda II Bayəzid zamanındakı dinc münasibətləri xatırladaraq, müharibə istəmədiyini bildirsə də, döyüşə hazır olduğunu qeyd etdi. Cəmadiyüssani ayının sonlarında (avqustun ortalarında) Səlim İsmayıla dördüncü və savaş ərəfəsindəki sonuncu məktubunu göndərib, onun ünvanına yenə də təhdid və təhqirlər yağdıraraq əlavə edirdi ki, əgər döyüşdən yayınsan, "kişi adı sənə haramdır və yaxşı olar ki, dəbilqəni yaylıqla, zirehli paltarı çadra

---

[1] Aləmara (Sahib), s.514; Aləmara (Şükri), s.473-474.
[2] Ş.F.Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası, s.100-101.
[3] Aləmara (Sahib), s.514-515; Aləmara (Şükri), s.475-476.

ilə əvəz edəsən, başçılıq və sərkərdəlik sevdasından əl çəkəsən, çünki sən bu işə, bu iş də sənə yaraşmır”[1].

Əslində, Şah İsmayıl Sultan Səlimdən fərqli olaraq, bütün qoşunlarını toplamadan qəti döyüşə girməyə məcbur oldu. O, Səlimin üçüncü çağırışına cavab verdikdən sonra dərhal Təbrizə gəldi. Bu zaman Sultan Səlimin Ərzincandan Ərzuruma çatdığı barədə xəbər yetişdi. Təbrizdə ikən bəzi əmirlər Şah İsmayıla ehtiyatlı olmağı məsləhət gördülər və onu açıq döyüşdən çəkindirməyə çalışdılar. Lakin Şah İsmayıl bu təklifləri qətiyyətlə rədd edib dedi: *“Rum qeysəri kişidirsə, gəlsin. Onunla elə bir döyüş aparım ki, aləmdə zərbül-məsəl olsun”.* Qəti döyüşə girmək haqqında qərar qəbul etmiş şah Xoy şəhəri ətrafındakı *“Çaldıran səhrasına”* gələrək, buranın *“savaş məkanı”* olduğunu bildirmiş və orduya *“oturaq”* olmağı əmr etmişdi. Çaldıran çölündə düşərgə quran Şah İsmayıl orada ovla məşğul oldu. *“Qızılbaşlar o qədər məğrur olmuşdular ki, qeysəri heç uyuq qədər də saya salmırdılar”*[2].

Beləliklə, 2 rəcəb 920 / 23 avqust 1514-cü ildə iki ordu üzüzə gəldi. “Aləmara” müəlifi döyüş ərəfəsini şərh edərkən qızılbaş ordusunun cəmi 18 min nəfərdən, Osmanlı ordusunun isə *“saysız-hesabsız qoşundan”* ibarət olduğunu qeyd etmişdir[3]. Bizim mənbəyə görə, Osmanlı ordusu yeniçəri, sipahi, sökban, ləvənd, topçu və tüfəngçi birliklərindən təşkil olunmuşdu[4].

Ümumiyyətlə, Çaldıran döyüşündəki qüvvələr nisbəti ilə bağlı müxtəlif rəqəmlər mövcuddur. Tədqiqatlar nəticəsində

---

[1] Ə.Vilayəti. Şah İsmayıl Səfəvi, s.152. Sultan Səlim Şah İsmayılın elçisi Şahqulu ağanı parça-parça etdirmişdi: J.V.Hammer. Osmanlı tarihi, I c., s.376.

[2] Aləmara (Sahib), s.519-520; Aləmara (Şükri), s.476-477. Şah İsmayıl daxilən Osmanlının gücündən ehtiyat etsə də, bunu çox da büruzə verməmiş və öz əmirləri ilə söhbətində hətta Sultan Səlimi və onun ordusunu lağa qoyub gülmüşdü: Lütfi Paşa. Tevârîh-i Âl-i Osmân, s.205.

[3] Aləmara (Sahib), s.520; Aləmara (Şükri), s.484. Mənbənin bəzi nüsxələrində döyüş səflərindən bəhs olunarkən Osmanlıların 9 səf çəkdikləri və hər səfdə 100 minlik qüvvənin durduğu göstərilməkdədir. Yəqin ki, burada katib xətası vardır və əslində 9 səfdə cəmi 100 min nəfərin olduğu nəzərdə tutulmalıdır.

[4] Aləmara (Şükri), s.460; Aləmara (Məclis kitabxanası – 9421), v.132b.

Çaldıranda Osmanlı ordusunun 100 min, Səfəvi qoşunlarının 40 min nəfərdən ibarət olduğunu müəyyənləşdirilmişdir[1]. Ədayi Şirazi isə 100 minlik Osmanlı ordusuna qarşı Şah İsmayılın "50 min nəfərdən çox olan güclü və dayanıqlı bir ordu" çıxardığını göstərir[2]. Beləliklə, Çaldıran döyüşündə Osmanlı ordusu qızılbaşlardan 2-2,5 dəfə say üstünlüyünə malik idi. Süvarilərdən təşkil olunmuş Səfəvi ordusunda xüsusi topçu və tüfəngçi birlikləri yox idi. Halbuki Osmanlı ordusunda 500 ədəd top və 12 min tüfəngçi fəaliyyət göstərirdi[3].

İsgəndər bəy Münşinin məlumatına görə, döyüşdən bir gün öncə keçirilmiş müşavirədə Məhəmməd xan Ustaclu Osmanlılar yolda olarkən, hələ meydana yerləşməzdən öncə onlara hücum etməyi təklif etmiş, lakin Durmuş xan Şamlu qürur üzündən bu təklifə qarşı çıxmış, nəticədə, şah "mən karvanbasan quldur ("hərami-yi qafilə") deyiləm; Allah necə istəyirsə, eləcə də olacaqdır" deyə, bu təklifi qəti rədd etmiş, üzbəüz, açıq döyüşə üstünlük vermişdi[4].

"Aləmara" bu əhvalatı bir qədər başqa cür işıqlandırır. Qeyd olunur ki, döyüşdən öncə şah "ümməra-yi əzəm"dən Məhəmməd xan Ustaclunu, onun qardaşı Qaraxanı, Durmuş xan Şamlunu, Məntəş sultan Ustaclunu, Hüseyn bəy Lələni, Nurəli xəlifə Rumlunu və digərlərini çağırıb, onlarla məsləhətləşmişdi. Osmanlılara qarşı döyüş təcrübəsi olan Məhəmməd xan qat-qat çox olan "Rum ordusu" qarşısında açıq döyüşə girməyin məqsədəuyğun olmadığını bildirmiş və öz təkliflərini vermişdi. Onun fikrincə, əməliyyatlar üç cür inkişaf edə bilərdi:

1. Şahın ordusu geri çəkilib dağlara sığınmalı, ölkənin hər yerindən qızılbaş qoşunlarının gəlib çatması üçün iki ay

---

[1] R.M.Savory. The Consolidation, p.87; yenə onun. Iran under the Safavids, p.41; A.Allouche. Osmanlı – Safevî ilişkileri, s.131-132; M.J.McCaffrey. Čālderan **//** Encyclopaedia Iranica, vol. 4.

[2] A.Bilgen. Adâ'î-yi Şîrâzî ve Selim-nâmesi, s.80,86. III Muradın (1574-1595) saray tarixçisi Mehmed Təliqizadə "Şahname-yi Al-i Osman" əsərində Çaldıran döyüşü ərəfəsində Şah İsmayılın ixtiyarında 17 qızılbaş oymağından toplanmış cəmi 52770 əsgərin və 5100 qorçunun olduğunu yazır: R.Yildirim. Turkomans, p.284-285.

[3] R.Kılıç. Kanunî devri, s.92.

[4] Tarix-i aləmara-yi Abbasi (Tehran), s.42.

gözləməli idi. Bu müddət ərzində, yəqin ki, Osmanlı ordusu Azərbaycanda irəliləyib, Təbrizi tutacaqdı. Lakin qarşıdan soyuqların gəldiyini və ordusunun azuqə təminatında çətinlik yaranacağını nəzərə alan Sultan Səlim Azərbaycanda qala bilməyərək, tez bir zamanda Ruma qayıtmağı qərara alacaqdı. Belə olan təqdirdə qızılbaş ordusu dağlardan enərək, açıq döyüşə girmədən, Osmanlı ordusuna hər mənzil başında həmlələr edəcək, onları təlafata və zərərə uğradacaqdı. Məhəmməd xan Ustaclu nəzərdə tuturdu ki, partizan müharibəsi şəklində aparılacaq bu savaşda Azərbaycanın mülki əhalisi qızılbaşlara aktiv dəstək verəcəkdi.

2. Sultan Səlim qızılbaş komandanlığının açıq döyüşdən yayındığını görüb, öz ordusunun Azərbaycanda çətin vəziyyətə düçar olacağını götür-qoy edərək, Təbrizə irəliləməkdən vaz keçəcək və təcili surətdə Ruma qayıdacaqdı.

3. Əgər Səlim çıxıb getməzsə və qışı Təbrizdə, Azərbaycanda keçirməyə qərar verərsə, o vaxta qədər məmləkətin hər tərəfindən qızılbaş əmirləri gəlib çıxarlar, şahın bayraqları altında 70 minlik ordu toplanar, qızılbaşlarla Osmanlılar arasında say tarazlığı yaranardı. Digər tərəfdən isə Azərbaycandakı çətin şərtlər daxilində qışlaq edən Osmanlı ordusu həm qıtlıqdan üzüləcək, həm də ardıcıl həmlələrə məruz qalacaq, əhval-ruhiyyəsi pozulacaqdı. Bu şəraitdə ona qarşı qəti və üzbəüz döyüşə atılmaq çox əlverişli olacaqdı.

Lakin Durmuş xan bu təklifə kəskin etiraz bildirərək, Məhəmməd xanı qorxaqlıqda ittiham etdi: *“Sizin bu cür namərdanə sözlər danışmağınız təəccüb doğurur. Biz sizi cəsur və mərdanə bir adam kimi tanıyırdıq. Axı xondgarın öz ordusu ilə birlikdə nə vücudu vardır ki, biz arxamızı ona çevirib fərar edək?! Ona qarşı kişi kimi döyüşüb, onun ruzigarını bərbad edəcəyik!”.* Yekunda Durmuş xanın mövqeyini bəyənən Şah İsmayıl *“savaş təbillərinin vurulmasını”* əmr etdi[1]. Maraqlıdır ki, Şah Təhmasib də atasının məğlubiyyətində Durmuş xanı gü-

---

[1] Aləmara (Sahib), s.520-521; Aləmara (Şükri), s.484-485. Xondgar – Osmanlı sultanının tituludur, “Xudavəndigar” (sahib, ağa, başçı) sözünün qısaldılmış formasıdır. “Koroğlu” dastanında bu titulun “xotkar” şəklinə də rast gəlirik: Azərbaycan dastanları. IV c. Bakı, 2005, s.25.

nahkar sayır: "Çaldıran müharibəsindən söz düşəndə mən həmişə Durmuş xana pis dua (lənət) edirəm ki, atam həzrət Şah İsmayılı aldadıb müharibəyə sövq etdi"[1].

Osmanlı ordusunun sağ cinahına Anadolu bəylərbəyisi Sinan paşa, sol cinahına Rumeli bəylərbəyisi Həsən paşa komandanlıq edirdi, vəzir-i əzəm Hersekzadə Əhməd paşa, ikinci vəzir Dukakinoğlu Əhməd paşa və üçüncü vəzir Mustafa paşa mərkəzdə mövqe tutmuşdular[2]. Osmanlıların mərkəzində kəndlilərdən toplanan və "əzəb" ("azab") adlanan piyada dəstələr, onların arxasında artilleriya, ondan arxada isə yeniçərilər durmuşdular. Sultan Səlim öz şəxsi qvardiyası ilə yeniçərilərdən arxada idi. Osmanlılar yeniçəri korpusunun qarşısındakı və cinahlarındakı dəvələri, qatırları, arabaları, həmçinin topları zəncirlə bir-birinə bağlayıb, möhkəm sədd yaratmışdılar. Şadi paşa Osmanlı ordusunun arxa dəstəsinə komandanlıq edirdi[3]. "Aləmara"ya əsasən, Sultan Səlim şücaətli əsgərlərdən ibarət 400 nəfərlik mühafizəçi dəstəsi ilə bərabər ordunun arxasındakı təpədə dayanıb, döyüşün gedişini izləyirdi. Şah İsmayıl isə sol cinaha Məhəmməd və Qaraxan Ustaclu qardaşlarını, nisbətən az əhəmiyyət kəsb edən mərkəzə qardaşı İbrahim mirzə ilə şiə ruhanilərini (Nizaməddin Əbdülbaqi, Məhəmməd Kəmunə, Şərəfəddin Əli) təyin etmiş, özü isə Nurəli xəlifə və bəzi digər əmirlərlə birgə sağ cinahda mövqe tutmuşdu. Səfəvilərin ön dəstəsi qorçubaşı Sarı Pirə Ustaclunun 5 minlik süvarilərindən ibarət idi.

Səhər açılandan başlayan döyüş əsr vaxtınadək davam etdi. Döyüşün başlanğıcında Sarı Pirə qorçu birlikləri ilə Osmanlıların ön dəstəsinə həmlə etdi və onları böyük itkilərə məruz qoydu. Belə olan təqdirdə Səlimin işarəsi ilə Osmanlıların sağ cinahındakı bəzi hissələr öz çərxçilərinin köməyinə tələsdilər. Öz növbəsində Durmuş xan Şamlu da Sarı Pirəni dəstəkləmək üçün irəli atıldı və bu, Mustafa paşanın *"hədsiz qoşunla"* ona qarşı döyüşə girməsinə səbəb oldu. Bununla da

---

[1] Şah Təhmasibin təzkirəsi, s.35.
[2] İ.H.Uzunçarşılı. Osmanlı tarihi. II c., s.265-266.
[3] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.60.

döyüş şiddətləndi. "Aləmara" müəllifi Çaldıran savaşında Şah İsmayılın böyük şücaətlər göstərdiyini qeyd edir. Belə ki, məşhur Osmanlı pəhləvanı və sərkərdəsi Malqucoğlu (Malqoçoğlu) ilə üzləşən İsmayıl təkbətək döyüşdə onu qılıncla ikiyə bölmüşdü[1]. Bu məlumat digər mənbələrlə də təsdiqlənir. Cünabədi yazır ki, şah Malqoçoğlunun başına elə bir zərbə vurmuşdu ki, qılınc onun kəmərinə (Xandəmirə görə, "sinəsinə") qədər işləmişdi[2]. İ.H.Uzunçarşılının məlumatına əsasən, Çaldıran savaşında "axıncı komandanlarından" Malqoçzadə Balı bəyin iki oğlu – Sofiya sancaqbəyisi Əli bəy Malqoçoğlu və Silistrə sancaqbəyisi Turəli bəy Malqoçoğlu həlak olmuşlar və bunlardan ikincisi şəxsən Şah İsmayıl tərəfindən qətlə yetirilmişdi[3].

Şah İsmayılın sağ cinahdan keçirdiyi hücum xeyli effektiv oldu və o, Nurəli xəlifə ilə birgə Osmanlıların sol cinahını tamamilə sıradan çıxardı[4]. Hətta Osmanlı mənbələri də bu faktı etiraf edirlər[5]. M.Solakzadə yazır: "Bu döyüşdə Rumeli qolu şəhid oldu... Şah İsmayıl Rumeli dəstələrini yox etdi"[6]. Lakin Səfəvi ordusunun sol cinahı eyni müvəffəqiyyəti əldə edə bilmədi. Osmanlı toplarının ilk atəşləri nəticəsində Məhəmməd xan Ustaclu və onun yaxın ətrafındakı 300 döyüşçü həlak oldu. Başçısını itirən və top atəşlərinin zərbəsinə məruz qalan Səfəvi ordusunun sol cinahı pərən-pərən düşdü. Odlu silahın verdiyi üstünlükdən istifadə edən Osmanlı komandanlığı döyüşün gedişini öz xeyrinə dəyişə bildi.

Şah İsmayıl döyüşə-döyüşə özünü Osmanlı topxanasına çatdırıb, topların zəncirlərini qırmağa başlasa da, orada mühasirəyə düşdü. Cəmi 7 mühafizəçi ilə mühasirədən sağ çıxmağa nail olmuş İsmayıl onu təqib edən Osmanlı əsgərlərindən yalnız Sultanəli bəy Əfşarın özünü "padşah" kimi qələmə verib əsir düşməsi sayəsində qurtula bildi. "Aləmara"ya görə,

---

1 Aləmara (Sahib), s.521-523; Aləmara (Şükri), s.486-490.
2 Rövzətüs-Səfəviyyə, s.289; Həbibüs-siyər, s.547.
3 İ.H.Uzunçarşılı. Osmanlı tarihi. II. c., s.268-269.
4 Aləmara (Sahib), s.524; Aləmara (Şükri), s.490.
5 Tâcü't-tevârîh, s.206.
6 M.Solakzadə. Tarix, s.32.

Sultan Səlimin çadırına aparılan Sultanəli Şah İsmayıla o qədər çox bənzəyirdi ki, hətta elçi kimi Səfəvi sarayında olub şahla görüşmüş Qazı Xəlil Çələbi də onun İsmayıl olduğunu söyləmişdi. Lakin Sultanəlinin əsl kimliyi bəlli olduqdan sonra Səlim onun öldürülməsini əmr etdi[1].

İsmayılın döyüş meydanını tərk etməsindən sonra qızılbaş ordusunun mərkəzinə soxulan Osmanlılar orada *"etimadüddövlə, üləma və sədr"* başda olmaqla 500 qızılbaş döyüşçüsünü qətlə yetirdilər. Əxi sultan Şamlu şahın döyüş bayrağını aradan çıxara bildi və onun Osmanlıların əlinə keçməsinə imkan vermədi. Meydanda mühasirəyə düşmüş Nurəli xəlifə öz dəstəsi ilə mühasirəni yarıb çıxdı. Durmuş xan və Qaraxan da öz qoşunlarını mühasirədən çıxarmağa nail oldular. Məğlubiyyətə düçar olmuş qızılbaş ordusunun qalıqları pərakəndə surətdə Təbrizə doğru geri çəkilməyə başladılar. Osmanlılar qızılbaş ordugahını talan edib, oradakı bütün əmlaka yiyələndilər[2].

Bu döyüşdə tərəflərin itkiləri barədə məlumatlar müxtəlifdir. Həsən bəy Rumlu 2 min qızılbaşın və 3 min Osmanlı əsgərinin, Qazı Əhməd Qumi Osmanlılardan 5 min nəfərin, Şərəf xan Bidlisi 5 min qızılbaş süvarisinin, Zeynalabidin Şirvani hər iki tərəfdən 5 min nəfərin, rəqəmləri şişirtməyi sevən Oruc bəy Bayat isə 30 min Osmanlı süvarisinin həlak olduğunu yaz-

---

[1] 1514-cü ildə Sultan Səlimin Azərbaycana yürüş etməsində kürd əmirlərinin fəal rol oynadıqlarını və həmin zaman Osmanlı ordusunun tərkibində xeyli sayda kürd silahlı dəstələrinin olduğunu yuxarıda qeyd etmişdik. Mənbələrdən biri bu məsələyə işarə edərək bildirir ki, Şah İsmayılın oxşarı olan Sultanəli Osmanlı döyüşçüləri tərəfindən öldürülərkən üzünü əsir yoldaşlarına tutub belə demişdi: "Gedib mənim ağama deyərsiniz ki, mən sənin adına olan sevgimdən ötrü şəhid oldum və sən mənim qanımın intiqamını bu yezidi kürdlərinin üzərində qoymayasan". Həmin əsirlərdən bəziləri sonradan Osmanlı əsirləri ilə dəyişdirilmiş, öz ölkəsinə geri qayıtmış və bu əhvalatı şaha nəql etmişdilər. Səfəvi dövrünün aşıqları Sultanəlinin şücaəti haqqında nəğmələr və hekayələr qoşmuşdular: З.Канакерци. Хроника. Москва, 1969, с.38.

[2] Aləmara (Sahib), s.524-527; Aləmara (Şükri), s.490-494.

maqdadır[1]. “Aləmara” müəllifi bu barədə tam məlumat verməsə də, Osmanlıların artilleriya atəşlərindən sonra üstünlüyü ələ almasından bəhs edərkən *“20 min nəfər ruminin və 7 min qızılbaşın”* həlak olduğunu bildirir[2].

Beləliklə, məşhur Çaldıran döyüşü qızılbaşların məğlubiyyəti ilə sona çatdı. Səfəvilərdən Məhəmməd xan Ustaclu, Sarı Pirə Ustaclu, Hüseyn bəy Lələ, Xadim bəy Xüləfa, Əmir Nizaməddin Əbdülbaqi, Seyid Şərəfəddin Əli, Seyid Məhəmməd Kəmunə, Osmanlılardan Rumeli bəylərbəyisi Həsən paşa, Mora sancaqbəyisi Həsən ağa, Sofiya sancaqbəyisi Əli bəy Malqoçoğlu, Silistrə sancaqbəyisi Turəli bəy Malqoçoğlu, Pirizren sancaqbəyisi Süleyman bəy, Karesi sancaqbəyisi Məhəmməd bəy, Qeysəriyyə sancaqbəyisi Üveys bəy, Bəyşəhər sancaqbəyisi Qarlıoğlu Sinan bəy, Nigde sancaqbəyisi İsgəndər bəy, Nikubi sancaqbəyisi Mustafa bəy Mixaloğlu, Lazkiyə bəyi Ayas bəy həlak oldular[3].

“Aləmara” müəllifinə görə, Şah İsmayıl *“mənəm-mənəmlik”* etmiş, az qoşunla nəhəng ordunun qarşısına çıxmaqla taktiki səhvə yol vermişdi[4]. Həqiqətən də, əgər İsmayıl açıq döyüşə girməyib ölkənin içərilərinə çəkilsəydi, sonrakı hadisələrin göstərdiyi kimi, Osmanlı ordusu Azərbaycanda onsuz da çox qala bilməyib, geri çəkiləcəkdi. Bizim müəllif qızılbaşların məğlubiyyətinin ən mühüm səbəbini Osmanlıların odlu silahlardan geniş istifadə etməsində görür. Rəvayətə görə, döyüşdən bir gün öncə Şah İsmayıl Sultan Səlimə xəbər göndərərək, onu *“kişi kimi döyüşməyə” və “topxanadan istifadə etməməyə”* çağırmış, Səlim bu təklifi qəbul etsə də, döyüşün gedişində artilleriyadan istifadə etməklə vədinə xilaf çıxmış və bu

---

[1] Əhsənüt-təvarix (Seddon), s.149; Ş.Məmmədova. “Xülasət ət-təvarix” Azərbaycan tarixinin mənbəyi kimi, s.69; Шараф-наме, т. II, с.163; Riyazüs-səyahə, s.46; Книга Орудж-бека Байата, с.74.

[2] Aləmara (Sahib), s.524; Aləmara (Şükri), s.491. Müasir İran alimi F.Musəvi Çaldıran döyüşündə Səfəvilərin 27604 nəfər, Osmanlıların isə 41 min nəfər itki verdiklərini yazır: Tarix-i Ərdəbil və daneşməndan, I c., s.95-96. Onun bu cür “dəqiq” statistikanı haradan götürdüyünü bilməsək də, araşdırdığımız mənbələrin heç birində bu rəqəmlərə rast gəlmədik.

[3] Ə.Vilayəti. Şah İsmayıl Səfəvi, s.166; R.Kılıç. Kanunî devri, s.96.

[4] Aləmara (Sahib), s.520; Aləmara (Şükri), s.477.

faktor qızılbaşların məğlubiyyətini şərtləndirən əsas amilə çevrilmişdi[1]. İtaliya mənbələrində qeyd olunur ki, əgər Osmanlı topları olmasaydı, Səfəvilər qalib gələrdilər və əgər Sultan Səlim məğlub olsaydı, "onda İsmayılın qüdrəti Teymurləngin qüdrətini üstələyəcəkdi, çünki belə bir qələbənin şöhrəti nəticəsində o, özünü Şərqin mütləq hökmdarına çevirəcəkdi"[2]. A.Müller yazır ki, "öz dövlətlərinin paytaxtını müdafiə etmək üçün Çaldıran düzündə döyüşə atılmış qızılbaşların müqayisəyəgəlməz süvari qoşununun fanatikcəsinə cəsurluğu Osmanlı artilleriyası və yeniçərilərin odlu silahları tərəfindən məğlubiyyətə uğradıldı"[3].

İki türk sülaləsi arasında baş vermiş bu amansız savaş bütün türk-müsəlman aləmi üçün fəlakətli nəticələrə gətirib çıxardı. Əslən Cənubi Azərbaycandan olan araşdırmaçı H.Rzazadə məsələni düzgün qiymətləndirərək yazır: "Çaldıran döyüşü eyni dinə inanan və eyni dildə danışan Səfəvi və Osmanlı ordularına və islam dünyasına böyük zərər vurdu. Göründüyü kimi, bu savaşın qalibləri avropalılar oldular... Biz Şah İsmayılın və onun tərəfdarlarının igidliklərini yüksək qiymətləndiririk və bu azərbaycanlı dahinin üstün xüsusiyyətləri ilə iftixar edirik. Lakin, eyni zamanda, bu savaşın hər iki tərəf üçün ziyanlı nəticələrinə görə təəssüflənirik"[4].

Şah İsmayıl öz dəstəsi ilə Təbrizə doğru geri çəkilərkən onları təqib edən Osmanlılar güclü həmlə etmiş, nəticədə, mühafizəçilərdən ayrı düşən şah yoluna tək davam edib, bataqlığa düşmüşdü. Arxadan gələn Osmanlı qoşunundan canını qurtarmağa çalışan Şiraz hakimi Xəlil xan Zülqədər onu bataqlıqdan çıxarmayıb qaçmış, sonradan bu xəyanətinə görə edama məhkum edilmişdi. Nəhayət, şahın mehtəri Xızır ağa Ustaclu özünü yetirib, İsmayılı və onun atını bataqlıqdan çıxarmış və onlar ətrafa səpələnmiş qızılbaşlardan 700 nəfər

---

[1] Aləmara (Sahib), s.523-524; Aləmara (Şükri), s.489-490.
[2] Travels of Venetians, p.61; Doğuda Venedik elçileri, s.64.
[3] А.Мюллер. История Ислама, т. III, с.391.
[4] H.Rzazadə. Negah-i müxtəsər be zindəgi-yi Şah İsmail-i Səfəvi // "Ərdəm", I/4, 1381, s.21-22.

toplayaraq, Təbrizə hərəkət etmişdilər[1]. Digər bir məlumata görə isə, Şah İsmayıl döyüş meydanında atdan yıxılmış və Xızır ağa Ustaclu öz atını onun altına çəkərək, "Atçəkən" adı ilə məşhurlaşmışdı[2].

Həmin gecəni Təbrizdə keçirən şah səhəri gün Sərab şəhərinə çəkildi. Sərabda olarkən onun həyat yoldaşı Taclı bəyim də oraya gəlib çıxdı. Cəsur bir qadın olan Taclı bəyim Çaldıran döyüşündə şəxsən iştirak edərək yaralanmış, döyüş meydanından fərar edib, iki gün səhralıqda dolaşmışdı. Nəhayət, o, Təbrizin iki mənzilliyində öz qardaşı Durmuş xanın vəziri Mirzə Şah-Hüseyn İsfahani ilə rastlaşmış və onlar təhlükəli bölgədən uzaqlaşmaq üçün Marağa yoluna çıxmışdılar. Bu zaman Şah İsmayıl Durmuş xanı 300 nəfərlik atlı dəstə ilə Taclı bəyimi axtarmağa göndərmişdi. Durmuş xan yol üstündə bacısı Taclı bəyimlə və vəziri Mirzə Şah-Hüseynlə qarşılaşmış və onları götürüb, Səraba gəlmişdi. *"Allah eləməmiş, əgər namus qeysərin əlinə düşsə, bundan sonra yaşamağın faydası yoxdur"* deyən və həmin günlərdə dərin sarsıntı keçirən Şah İsmayıl, Taclı bəyimlə görüşərək, onu bir daha döyüşə aparmayacağını söylədi[3]. Bəzi Osmanlı müəllifləri Taclı bəyimin guya əsir düşməsi barədə əhvalatlar uydursalar da, S.Onullahi ilkin mənbələr əsasında sübut etmişdir ki, o, əsir düşməmiş, hətta sonralar, Şah Təhmasib zamanında sarayda yaşamış, dövlət işlərində iştirakçı olmuş və 946 / 1539-40-cı ildə Şirazda vəfat etmişdir[4]. Qəribədir ki, O.Ekayev "Aləmara"nın

---

[1] Aləmara (Sahib), s.527-529; Aləmara (Şükri), s.496-498; Ə.H.Məmmədov. Şah İsmayıl Xətai. Bakı, 1988, s.104.

[2] Cahangüşa-yi xaqan, s.505; M.Solakzadə. Tarix, s.32-33.

[3] Aləmara (Sahib), s.533-534; Aləmara (Şükri), s.501-502.

[4] S.M.Onullahi. Taclı xanım // Azərb. SSR EA-nın Xəbərləri (dil, ədəbiyyat və incəsənət seriyası), 1981, № 1, s.50. Bəzi Osmanlı müəllifləri də Taclı xanımın əsir düşdüyünü qəti surətdə təkzib edirlər: Zühur-i dövlət-i Səfəviyan, v.69a. Müəyyən Osmanlı tarixçilərinin guya əsir düşmüş Taclı xanımın Osmanlı dövlət xadimi Tacizadə Cəfər Çələbiyə ərə verilməsi haqqındakı yersiz iddiaları mötəbər tarixi və ədəbi qaynaqlarla təsdiq olunmur (bax: T.Gündüz. Şah İsmail'in eşi Taçlı Begüm, s.223-233; V.A.Musalı. Osmanlı təzkirələrində Azərbaycan şairləri. Bakı, 2009, s.45). Sultan Səlimin müasiri olmuş və onun Çaldıran zəfərini mədh etmiş Ədayi də Taclı xanımın əsirliyi barədə heç nə yazmır. Üstəlik, həmin hadisələrin canlı şahidi olmuş venesi-

Y.Şükri tərəfindən hazırlanmış nəşrinə istinadən "Şah İsmayılın hərəminin Sultan Səlimin əlinə düşdüyünü" iddia edir[1]. Halbuki nə "Aləmara"da, nə də digər Səfəvi mənbələrində bu cür məlumat yoxdur.

Şah İsmayıl Təbrizi tərk etdikdən sonra, 6 sentyabr 1514-cü ildə Osmanlı ordusu Azərbaycan paytaxtına daxil oldu və sentyabrın 15-nə qədər burada qaldı[2]. Sultan Səlim Təbriz əhlini *"Həsən padşah məscidinə"* toplayaraq, orada *"qızılbaş xətibinə"* sünni xütbəsi oxumağı əmr etmiş, lakin sünni xütbəsi oxumaq məcburiyyətində qalan xətib padşahın adına çatdıqda *"Rum xondgarı Sultan Səlim"* demək əvəzinə, çaşıb *"Şah İsmayıl Səfəvi əl-Musəvi Bahadır xan"* demişdi. *"Rum əmirləri"* onu qətlə yetirmək istəsələr də, Səlim xətibdə bir günah olmadığını, *"həmişə Şeyxoğlunun adı dilində cari olduğu"* üçün səhvə yol verdiyini bildirərək, onun qətlinə mane olmuşdu[3]. *"Rum ordusu"* bir neçə gün Təbrizdə qaldıqdan sonra *"azuqə azlığı və qəhətlik"* üzündən çətin vəziyyətə düşmüş və üstəlik, Səraba çəkilmiş Şah İsmayılın orada yeni ordu toplaması haqqında məlumatların gəlməsi onları Təbrizi tərk edib getməyə vadar etmişdi[4]. Təbrizi tərk edən Səlim Naxçıvan və Bayburtdan keçərək, Amasya şəhərinə getdi, 1514-15-ci ilin qışında orada qaldı[5].

---

yalı müəllif Şah İsmayılın Çaldıran məğlubiyyətindən sonra "Taclı xanım adlı arvadını və xəzinəsini götürərək" Təbrizi tərk etdiyini bildirir: Travels of Venetians, p.121; Seyyahların gözüyle, s.101. Məsələni araşdıran F.Sümer belə nəticəyə gəlir: "Taclı xanım Çaldıran savaşından qaçaraq, Xoy məlikinin (yəni Səfəvilərin Xoy hakiminin – N.M.) evinə sığınmış, sonra oradan Təbrizə getmiş və Şah İsmayıl buna çox sevinmişdir": Safevî Devletinin kuruluşu, s.55. Bütün bu faktlar Taclı xanımın əsir düşmədiyini göstərir.

[1] О.Экаев. Туркменистан и туркмены, с.122.

[2] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.119.

[3] Aləmara (Sahib), s.533; Aləmara (Şükri), s.502-503; Ş.K.Məmmədova. "Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi, s.69.

[4] Aləmara (Sahib), s.534; Aləmara (Şükri), s.503.

[5] И.П.Петрушевский. Азербайджан в XVI-XVII вв., с.240. "Aləmara"ya görə, Şah İsmayılın qayıdışınadək Osmanlı ordusunun heç də hamısı Təbrizi tərk etməmiş, onlardan bir qarnizon qalmış və qızılbaş ordusunun şəhərə dönüşü zamanı həmin qarnizon darmadağın edilmişdi: Aləmara (Sahib), s.534; Aləmara (Şükri), s.503.

Osmanlıların Azərbaycan hüdudlarından tələskənliklə geri çəkilməsi Səlimin qələbəsinin əhəmiyyətini xeyli azaltdı[1]. Çünki Yavuz Səlimin məqsədi Səfəvi dövlətinə qüvvətli bir zərbə vurmaq deyil, bu dövləti büsbütün ortadan qaldırmaq idi. Lakin o, ömrünün sonuna kimi bu məqsədə nail ola bilmədi[2]. Sultan Səlimin Şah İsmayıla qarşı apardığı müharibədə yeganə nailiyyəti 1515-16-cı illərdə Şərqi Anadoludakı fəthlər oldu. Əslində, XVI əsrin birinci yarısında, Osmanlı imperiyası öz qüdrətinin zirvəsində olarkən Şah İsmayılın və daha sonra onun oğlu Şah Təhmasibin belə bir nəhəng qarşısında tab gətirə bilmələri və öz dövlətlərinin mövcudluğunu qorumaları heç də kiçik nailiyyət deyildi[3]. Lakin Çaldıran savaşı Şah İsmayılın Anadoluda və ümumiyyətlə, bütün Yaxın Şərq regionundakı geniş işğalçılıq planlarının üzərindən birdəfəlik xətt çəkdi və bununla da onun hərbi-siyası fəaliyyətinin 1508-14-cü illəri əhatə edən üçüncü mərhələsi başa çatdı. Həmin hadisədən sonra İsmayıl geniş xarici işğallar və böyük müharibələr haqqında düşünməyərək, yalnız öz dövlətinin bütövlüyünü təmin etməyə, şərq hüdudlarını özbəklərin basqınlarından qorumağa və Cənubi Qafqazda Səfəvi hakimiyyətini möhkəmləndirməyə səy göstərdi. "Çaldıran savaşı Səfəvilərin müdafiəyə çəkilmələrinə səbəb olmuş və Osmanlı dövlətinin daha geniş bir coğrafiyada təsirini artırmasına imkan yaratmışdı"[4].

Sultan Səlimin Təbrizi tərk edib getməsindən sonra (bizim müəllif bunu *"fərar etmək"* kimi qələmə verir) Şah İsmayıl öz paytaxtına qayıtdı və dərhal Çaldıran vuruşmasında həlak olmuş Məhəmməd xan Ustaclunun əvəzinə onun qardaşı Qaraxan Ustaclunu Diyarbəkr bəylərbəyisi təyin etdi, Məhəmməd xanın dul qalmış arvadını (o, şahın bacısı idi – N.M.) Qaraxana ərə verdi və onu qoşunla həmin bölgəyə yolladı[5]. 1515-16-cı illərdə Şərqi Anadoludakı iki qızılbaş sərkərdəsi – Diyarbəkr

---

[1] А.А.Рахмани. «Тарих-и алам ара-йи Аббаси» как источник, с.40-41.
[2] F.Sümer. Safevî Devletinin kuruluşu, s.37.
[3] L.Lockhart. The Fall of the Safavi Dinasty, p.20-21.
[4] A.Taşğın. Safevî-Osmanlı savaşından itibaren dinî söylemin siyasal propaganda aracı olarak kullanılması: Dede Kargın örneği // Türk Kültürü ve Hacı Bektaş Veli Dergisi, sayı: 49, 2009, s.220.
[5] Aləmara (Sahib), s.534; Aləmara (Şükri), s.504.

hakimi Qaraxan xan Ustaclu və Ərzincan hakimi Nurəli xəlifə Rumlu həmin ərazilərin Səfəvi dövləti tərkibində qalması üçün, kiçik qüvvəyə sahib olmalarına baxmayaraq, böyük səy göstərdilər. Eyni zamanda, Çaldıran döyüşündən sonra Osmanlılar Şərqi Anadoluda öz hakimiyyətlərini bərqərar etmək üçün sistematik fəaliyyətə başladılar. Bu əməliyyatlar zamanı Səfəvilər bölgənin türk qızılbaş oymaqlarına arxalandıqları halda, Osmanlılar əsasən öz həmməzhəbləri olan kürd tayfalarına güvənirdilər. Həmin illərdə Şərqi Anadoluda qızılbaşlara qarşı aparılan əməliyyatlarda kürd mənşəli Osmanlı məmuru İdris Bidlisi başda olmaqla 35 min kürd döyüşçüsü iştirak edirdi[1].

"Aləmara"da Sultan Səlimin Yusif xəlifə Varsağa məxsus olan və 300 qızılbaş döyüşçüsünün qoruduğu Kəmax qalasına hücümu və orada qala əhalisinə qarşı qətliam törətməsi barədə məlumat verilir[2]. 1514-15-ci ilin qışında Diyarbəkrdə kürdlər Səfəvi hakimiyyətinə qarşı qiyam qaldırdılar[3]. "Aləmara"ya əsasən, üsyanın rəhbəri Əhməd Çələbi, Sultan Səlimə məktub yazaraq, ondan kömək istədi. Lakin tezliklə Anadoluya daxil olan Qaraxan uğurlu əməliyyata başladı. O, Diyarbəkrə gedən yolda üzərinə göndərilmiş Həsən paşa başda olmaqla 10 minlik Osmanlı qoşununu özünün 4 minlik qüvvəsi ilə dərədə pusquya salıb darmadağın etdi və daha sonra, 1515-ci ilin yazında Diyarbəkr şəhərini tutmağa nail oldu. Az sonra Sultan Səlimin göndərdiyi Osmanlı ordusu Diyarbəkri mühasirəyə aldı. Sultan Səlimin göstərişi ilə Qaraxana bu məzmunda

---

[1] M.İ.Şəmsi. Şərəf xan Bidlisinin "Şərəfnamə" əsəri, s.62.

[2] Aləmara (Sahib), s.534-537; Aləmara (Şükri), s.504-510; Əhsənüt-təvarix (Seddon), s.153. Kəmaxın süqutu 19 may 1515-ci ildə baş vermişdir: J.V.Hammer. Osmanlı tarihi, I c., s.385. Şərqi Anadolu uğrunda Səfəvi – Osmanlı döyüşlərinin təsvirində "Aləmara"da qızılbaşların xeyrinə bəzi şişirtmələrə və uydurmalara yer verilmişdir. Məsələn, əsərdə qeyd olunur ki, guya Kəmaxın mühasirəsi zamanı varsaq oymağının bir neçə döyüşçüsü gecə vaxtı gizlicə Sultan Səlimin çadırına soxulmuş və onun yaraq-əsləhəsini oğurlayıb, Şah İsmayıla təqdim etmişdilər. Şah bu yaraq-əsləhəni məktubla birlikdə Sultan Səlimə göndərmiş, ona "təcavüzkarlıqdan əl çəkməyi və ağlına başına yığmağı" məsləhət görmüşdü. Lakin bu məlumat digər qaynaqlarla təsdiq edilmir.

[3] Ш.М.Мустафаев. Восточная Анатолия, с.44.

xəbər göndərildi: *“Gəl, mənə itaət et ki, bu ölkəni tamam sənə verim və sən bu ölkənin külli hakimi olasan”.* Sultan hədələyirdi ki, *“əks təqdirdə, bu qalanı top zərbəsi ilə yerlə yeksan edəcəyəm və sizi cəzalandıracağam”.* Qaraxan bu təklifi qəti surətdə rədd edərək, bunun cavabında Osmanlı elçisinə bildirdi: *“Get və qeysərinə de ki, sən unudursan ki, biz Şah İsmayıl Bahadırın nökərləriyik. Biz bu ocağın sufiləri və bəndələriyik. Heç bir vaxt sufi və müridi öz mürşid-i kamilindən döndərmək, onu öz ağasından uzaqlaşdırmaq mümkün deyildir”.* Qaraxan Osmanlı sultanına məsləhət görürdü ki, əgər o, məğlubiyyətə düçar qalmaq, aləmdə rüsvay edilmək, padşahlar və dünya sakinləri arasında xar olmaq istəmirsə, qızılbaşların məmləkətini tərk etsin!

Mənbənin verdiyi məlumata görə, Qaraxan tez-tez həmlələr edir və Rum ordusunun əsgərlərini qətlə yetirirdi. O, hər gecə üç dəfə döyüş mövqelərini gəzib, müdafiənin dayanıqlığını şəxsən yoxlayırdı. Şəhərin sünni əhalisi (kürdlər – N.M.) bir gecə fürsət taparaq, qala divarını söküb, Fəthulla paşa və Şərif paşanın qoşunlarını şəhərə buraxmaq istəsələr də, qızılbaşlar hücumu dəf etmiş və onlardan 2000-2200 nəfəri qətlə yetirmişdilər[1]. Buna baxmayaraq, Bıyıklı Mehmed paşanın başçılıq etdiyi Osmanlı qoşunu 1515-ci ilin sentyabr ayında üsyançılara köməyə gələrək, Diyarbəkri qızılbaşların əlindən qurtarmağa nail oldu[2]. 1516-cı il mayın ortalarında Qoç-Hisar və Mardin yaxınlığında olan Qoruq adlı yerdə, Dədə-Karğın düzündə Bıyıklı Mehmed paşanın (“Aləmara”da və başqa Səfəvi mənbələrində bu şəxs Bığlı Mustafa paşa adlandırılır) 30 minlik Osmanlı ordusu ilə baş vermiş həlledici döyüşdə Qaraxan yeniçərilərdən birinin açdığı tüfəng atəşi ilə qətlə yetirildi. Ustaclu qoşunları Süleyman bəy və Mahmud bəyin başçılığı ilə Cənub-Şərqi Anadoluda Osmanlı üsuli-idarəsinə qarşı da-

---

[1] Aləmara (Sahib), s.538-542; Aləmara (Şükri), s.513-519.

[2] Ш.М.Мустафаев. Восточная Анатолия, s.47; J.L.Bacque-Grammont. Etudes Turco-Safavides: Quatre Letters de Biyikli Mehmed Pasa // TTK, “Belleten”, sayı: 217, 1992, p.704-705.

ha bir müddət müqaviməti davam etdirdilər[1]. Lakin bu cəhdlər nəticəsiz qaldı və 1517-ci ilin aprelində Mardin qalasının Osmanlılar tərəfindən fəthi ilə bu bölgədəki qızılbaş müqavimətinə əsas etibarilə son qoyuldu[2].

Sultan Səlimin Anadoluda aradan qaldırmaq istədiyi digər bir qüvvə Əlaüddövlə Zülqədər idi. 1511-ci ildən etibarən Səfəvilər dövləti ilə yaxınlaşmağa başlayan Əlaüddövlə zaman keçdikcə Osmanlılardan uzaqlaşmış, hətta Səlimin taxta çıxmasını da təbrik etməmişdi. Səlim onu Şah İsmayıl əleyhinə yürüşə dəvət etsə də, o, imtina etmiş, hətta öz ölkəsində Osmanlı ləvazimatçılarına ərzaq və heyvan yemi satışını qadağan etməklə bərabər, Osmanlıların iaşə və təchizatını da yağmalatdırmışdı. Əslində, R.Yinançın qeyd etdiyi kimi, Əlaüddövlə həmin zaman Şah İsmayılla ittifaq halında idi[3]. "Aləmara"nın məlumatına görə, qızılbaşlar qarşısındakı məğlubiyyətlərdən sonra Əlaüddövlə Osmanlıdan və Məmlüklərdən üz çevirib, Səfəvilərə meyillənməyə başlamışdı[4]. 1514-15-ci ilin qışında qızılbaş sərkərdələrinin Şərqi Anadoludakı Osmanlı qarnizonlarına hücumlarından ruhlanan Əlaüddövlə Osmanlılara basqınlar təşkil edib, onların ləvazimat və azuqə anbarlarını qarət etmək və yandırmaqdan çəkinməmişdi. Sultan Səlim ona itaət və təzminat tələb edən məktub ünvanlasa da, Əlaüddövlə bu məktubu Osmanlı elçisinin gözü qarşısında cırıb atmışdı[5]. Lakin bunun əvəzində 13 iyun 1515-ci ildə Durna dağı ətəklərində baş vermiş döyüşdə Osmanlılar zülqədər ordusunu qəti məğlubiyyətə uğratdılar və Əlaüddövlə qətlə yetirildi[6]. Bizim müəllifin şərhinə görə, döyüş vaxtı qoca Əlaüddövlə atı

---

[1] Aləmara (Sahib), s.545-547; Aləmara (Şükri), s.524-527; Ш.М.Мустафаев. Восточная Анатолия, с.48-49.

[2] R.Kılıç. Kanunî devri, s.116. Buna baxmayaraq, Şərqi Anadolunun həmsərhəd ərazilərində Səfəvi və Osmanlı qoşunları arasındakı lokal toqquşmalar 1518-ci ilin oktyabr ayına kimi davam etdi: D.Aydın. Erzurum Beylerbeyiliği, s.45.

[3] R.Yinanç. Dulkadir Beyliği, s.95-96.

[4] Aləmara (Sahib), s.249; Aləmara (Məclis kitabxanası – 761), v.64b-65a.

[5] Aləmara (Sahib), s.558-562; Aləmara (Şükri), s.539-543.

[6] Aləmara (Sahib), s.562; Aləmara (Şükri), s.543; R.Yinanç. Dulkadir Beyliği, s.98; J.V.Hammer. Osmanlı tarihi, I c., s.386.

ilə birgə yıxılmış və bundan yararlanan Osmanlı əsgərləri onu dövrəyə alaraq, başını kəsib, nizəyə taxmışdılar. Bu döyüşdən sonra Əlaüddövlənin kürəkəni Sultan Murad Durna dağına sığınsa da, Sultan Səlimin adından ona məktub yazılmlış və tabe olacağı təqdirdə ona Osmanlı hökmdarının *"İrandakı canişini"* təyin olunmaq vəd edilmişdi. Bundan sonra Murad, Əlaüddövlənin *"bütün xəzinələrini, cavahiratını, əşyalarını, mallarını, avadanlıqlarını və karxanalarını"* götürüb, dağdan enmiş və *"xondgarın"* xidmətinə gəlib, itaətini ərz etmişdi[1].

Zülqədər tayfasının bir hissəsi Osmanlıların xidmətinə keçsə də, digər bir qismi Səfəvilərə qoşulmağı üstün tutdu. "Aləmara"da göstərilir ki, Osmanlı əmirlərindən Fərhad paşa Məmlük sərkərdəsi Canberdi əl-Qəzzalinin[2] Suriyada qaldırdığı üsyan zamanı zülqədər tayfasından olan bir paşanın xəyanətkar mövqe tutduğu və üsyançılarla əlbir olduğu barədə Osmanlı sultanına məktub yazmışdı. İstanbuldan gələn cavabda həmin zülqədər paşasının öldürülməsi və başının Osmanlı dərgahına göndərilməsi əmr edilmişdi. Fərhad paşa hiylə işlədərək, zülqədərlərin paşasını qonaq çağırmış və o, bu təklifi qəbul edib, 10-15 adamla Fərhad paşanın hüzuruna gəlmişdi. Nəticədə, Fərhadın əsgərləri zülqədər paşasını ələ keçirərək, tikə-tikə doğramış, onunla gələn adamları da qətlə yetirmişdilər. Osmanlıya xidmət etmiş atasının Fərhad paşa ilə münaqişəsi üzündən Osmanlı sultanının əmri ilə qətlə yetirilməsinə etiraz edən Vələdxan bəy Zülqədəroğlu öz tayfadaşlarının bir qrupu ilə üsyan qaldıraraq, *"şahısevən olmuş"* və üç min nəfərlə Azərbaycana gələrək, Şah İsmayılın xidmətinə keçmişdi[3]. Salnaməçi Bicən bu barədə daha dəqiq məlumat verərək, bu hadisəni 928 / 1522-ci ilə aid etmiş və Vələdxan bəylə gələn zülqədərlərin bir qisminin şahın şəxsi xidmətinə qəbul olunduğunu, bir qisminin Xorasana, digər qisminin isə Şiraza göndərildiyini yazmışdır. Həmçinin müəyyənləşdirilmişdir ki,

---

[1] Aləmara (Sahib), s.562-563; Aləmara (Şükri), s.543-544.
[2] "Aləmara"nın Məclis kitabxanasındakı nüsxəsində (9421, v.157b) "Cavanmərd Qəzzali" yazılmışdır.
[3] Aləmara (Sahib), s.593-595; Aləmara (Şükri), s.573-575; Aləmara (Məclis kitabxanası – 9421), v.172b.

adı çəkilən Vələdxan bəy, Əlaüddövlədən sonra Mərəş və Əlbistanın hakimi və zülqədər tayfasının başçısı olmuş Şahsuvaroğlu Əli bəyin övladıdır[1].

Şərqi Anadolu əməliyyatlarında Sultan Səlim keçmiş Ağqoyunlu hökmdarı Sultan Muraddan da istifadə etməyə çalışırdı. Sultan Səlim İranı zəbt edəcəyi təqdirdə oraların hökmranlığını Sultan Murada həvalə edəcəyinə söz vermişdi. Sultan Murad ağqoyunlu və zülqədər tayfalarından 14 minlik qoşun toplayıb, Şərqi Anadoluda əməliyyatlara başlasa da, Xarput şəhəri yaxınlığında Əhməd sultan Qacar tərəfindən məğlubiyyətə uğradılıb qətlə yetirildi. Muradın oğullarından biri əsir düşdü və onun ordusundan 3 min nəfər həlak oldu, qalanları isə digər oğlu ilə birlikdə qaçıb dağılışdılar. Əhməd, Muradın kəsilmiş başını və üzük taxdığı əlini Şah İsmayıl üçün göndərdi. O, şaha yazdığı məktubda qələbəsindən bəhs edir və yazırdı: *“Hərgah adamlar desələr ki, bu [öldürülən şəxs] Sultan Murad deyildir, onun başı və əli bəndənizin şahidi olacaqdır”.* Dayısı oğlu Muradın kəsilmiş başına və əlinə nəzər salan Şah İsmayıl təəssüflənərək demişdi: *“Ey ruzigar! Sən heç kəsə vəfa etməmişsən və etməyəcəksən”.* Eyni zamanda, Səfəvi hökmdarı bu qələbə münasibətilə Əhməd sultan və onun Xarput hakimi olan oğlu üçün xələt göndərdi[2]. Beləliklə, şah bir tərəfdən gənc qohumunun öldürülməsinə bir insan kimi təəssüflənsə də, digər tərəfdən hökmdar və dövlət xadimi olaraq öz rəqibinin ortadan qaldırılmasına sevinmişdi. Həsən bəy Rumlu, Sultan Muradın 8 minlik qoşununun Qaraca (və ya Aca) sultan Qacarın 800 nəfərlik qoşunu tərəfindən 920-ci ilin sonlarında / 1515-ci ilin əvvəlində məğlubiyyətə uğradıldığını və özünün də qətlə yetirildiyini, Qaraca sultan Qacarın isə öz qüvvələrindən qat-qat çox olan düşmən ordusuna qalib gəldiyi üçün “Qudurmuş sultan” ləqəbi aldığını qeyd edir[3]. Lakin digər bir anonim tarixçi Sultan Muradın “Urfada qorçubaşı Durmuş xan Şamlu ilə döyüşdə öldürüldüyünü” və “onun başının 924-

---

[1] Cahangüşa-yi xaqan, s.600.

[2] Aləmara (Sahib), s.572-573; Aləmara (Şükri), s.552-553.

[3] Əhsənüt-təvarix (Seddon), s.151. Yəqin ki, “Qaraca” və “Qudurmuş” Əhməd sultan Qacarın ləqəbləri idilər.

cü il şəvval ayının 12-də / 17 oktyabr 1518-ci ildə Təbrizdə I Şah İsmayılın hüzuruna gətirildiyini" göstərmişdir[1].

Lakin bu uğurlara baxmayaraq, qüvvələr qeyri-bərabər idi. Ərzincan hakimi Nurəli xəlifə də ilk vaxtlar uğurlu əməliyyatlar aparmağa nail oldu. O, Osmanlı ordusunun ərzaq alınması üçün tədarük etdiyi xəzinəni *"rumlu [tayfasının] cavanlarından 3 min nəfərlə"* talayıb, Azərbaycana, şahın hüzuruna göndərmiş və əvəzində *"padşahlara layiq xələt"* almışdı[2]. Lakin 1515-ci ilin iyun ayının 19-da Ərzincanda baş vermiş həlledici döyüşdə Nurəli xəlifə həlak oldu və onun qoşunu məğlubiyyətə uğradı. Nurəlinin ölümündən sonra onun sağ qalmış adamları Şərqi Anadolunu tərk edib, Azərbaycana gəldilər[3].

Beləliklə, Osmanlılar tərəfindən 1515-16-cı illərdə Şərqi Anadoluda aparılmış əməliyyatlar nəticəsində regionun türkman tayfaları sıxışdırılır və ərazidə kürd bəyləri söz sahibinə çevrilirdilər. F.Sümer yazır: "XV əsrdə "türkman ölkəsi" adlandırılan bu bölgədəki türk əhalisi acınacaqlı bir vəziyyətə düşmüşdür. Osmanlı dövlətinin kürd bəylərini öz yerlərində saxlamasının bu işdə mühüm amil olduğu anlaşılır". Tədqiqatçı etiraf edir ki, "Şərqi Anadolu Səfəvi idarəsində qalsaydı, bir müddət sonra orada ancaq türk dilində danışılacaqdı"[4]. Lakin bölgənin Osmanlı hakimiyyəti altına keçməsi oradakı türk əhalisinin zəifləməsinə və Səfəvilər dövləti ərazisinə köçməsinə, bölgədə kürdlərin hegemon rol oynamasına gətirib çıxardı.

"Aləmara" müəllifi qeyd edir ki, bu döyüş əməliyyatları nəticəsində Şərqi Anadoluda yerləşən və əvvəllər qızılbaş əmirlərinin ixtiyarında olan Ərzincan, Xarput və Qara-Həmid başda olmaqla 42 qala və istehkam Osmanlılar tərəfindən zəbt edildi. Lakin o, bundan sonra Şah İsmayıl tərəfindən bölgəyə göndərilmiş Div sultan Rumlunun Osmanlılara qarşı uğurlu əməliyyatlar apardığını və bəzi itirilmiş əraziləri geri qaytardığını

---

[1] Qızılbaşlar tarixi, s.11; həmçinin bax: Tarix-i cahanara, v.196a.
[2] Aləmara (Sahib), s.557-558; Aləmara (Şükri), s.539.
[3] Aləmara (Sahib), s.574; Aləmara (Şükri), s.555; İ.M.Şəmsi. Şərəf xan Bidlisinin "Şərəfnamə" əsəri, s.59; D.Aydın. Erzurum Beylerbeyiliği, s.41.
[4] F.Sümər. Oğuzlar, s.165,190.

bildirir[1]. Yəqin ki, burada söhbət 1517-ci ildə Div sultanın Osmanlıların Bayburt bəylərbəyisi Qızıl Əhməd oğlu Mirzə Məhəmməd bəy üzərində qazandığı qələbədən gedir. Məlum olduğu kimi, 1516-cı ildə Div sultana məğlub olan və Osmanlıya sığınan gürcü knyazı Mənuçöhr Osmanlı dövlətindən dəstək almış və 1517-ci ildə Qızıl Əhməd oğlunun başçılıq etdiyi Osmanlı qoşunu ilə birlikdə Mesxi vilayətinə (Samtsxe-Saatabaqoya) gəlmişdi. Div sultan Dav-eli bölgəsində, Qaraca-Ərdəhan adlı yerdə onlarla vuruşmuş, nəticədə, Qızıl Əhməd oğlu həlak olmuş, Mənuçöhr isə qaçıb meşələrdə gizlənmişdi. Bu zəfər nəticəsində qızılbaşlar Mesxidə hakimiyyətlərini möhkəmlətmiş, həmçinin Tortum, Oltu və İspir bölgələrini Osmanlılardan geri almışdılar[2].

Şərqi Anadolunun xeyli hissəsini qızılbaşlardan alan və Zülqədər bəyliyini aradan qaldıran Sultan Səlim 1516-17-ci illərdə güclü Məmlüklər dövlətinə son qoyaraq, onların tabeliyindəki Suriya, Misir və Hicaz vilayətlərini öz məmləkətinə qatdı. Səlimin komandanlığı altında Suriyaya daxil olmuş Osmanlı ordusu özündən iki dəfə az olan Məmlük ordusunu darmadağın etdi və Məmlük sultanı Qansu Quri (1501-1516) öldürüldü. Osmanlıların say çoxluğu və odlu silahlardan geniş istifadə etmələri, həmçinin Məmlüklərin Hələb valisi Xeyrəddin paşanın (Xeyirbəyin) satqın çıxaraq, Osmanlı tərəfinə keçməsi döyüşün müqəddəratını həll etdi. Qansu Qurinin bacısı oğlu Tuman bəyin və ayrı-ayrı Məmlük rəislərinin Misirdə təşkil etdikləri müqaviməti də qıran Osmanlı ordusu Məmlüklər dövlətinə son qoydu. Canberdi əl-Qəzzali başda olmaqla bir sıra Məmlük əmirləri Osmanlı xidmətinə keçdilər[3].

---

[1] Aləmara (Sahib), s.576-581; Aləmara (Şükri), s.556-561.

[2] О.Эфендиев. Азербайджанское государство Сефевидов, с.63; D.Aydın. Erzurum Beylerbeyiliği, s.42; S.Mouliyani. Gürcistan: bohrani-tərin əyalət-i qələmrov-i Səfəvi // Hemayeş-i Səfəviyyə dər güstəre-yi tarix-i İran-zəmin. Təbriz, 1384, s.861.

[3] Aləmara (Sahib), s.563-571; Aləmara (Şükri), s.544-551. “Aləmara”nın çap variantlarında Tuman bəyin adı səhvən “Səmani xan” kimi yazılsa da, Məclis kitabxanasına məxsus 9421 şifrəli nüsxədə (v.158a-b) “Tumani xan” deyə qeyd olunmuşdur.

"Aləmara"nın məlumatına görə, Sultan Səlim ömrünün son illərində İstanbulda təşkil etdiyi məclislərin əksərində Şeyxoğlunun üzərinə yeni yürüşə çıxmaq istəklərindən söz açır, lakin eyni zamanda *"Firəng tərəfdən xatircəm olmadığını"* vurğulayırdı[1]. Məmlüklərin ortadan qaldırılmasından sonra Səlim Səfəvilər dövlətinə birdəfəlik son qoymaq üçün növbəti, lakin daha ciddi hazırlıqlara başladı: nəhəng ordu topladı və illərlə kifayət edə biləcək ərzaq ehtiyatının yaradılması işlərinə fikir verdi. Eyni zamanda, Şah İsmayıl da Osmanlıların mümkün hücumuna qarşı öz böyük əmirləri ilə birlikdə Azərbaycanda 80 minlik ordu toplayıb gözləyirdi. Amasyadakı qızılbaş casusları Osmanlı dövlətinin savaş hazırlıqları ilə bağlı məlumatları toplayıb, şahın hüzuruna ərz edirdilər. Lakin Səlim *"Azərbaycan vilayətini istila etmək üçün"* yürüşə çıxmağa hazırlaşarkən vəfat etdi və onun yerinə oğlu Sultan Süleyman Osmanlı taxtına əyləşdi. Səlimin ölümü ilə müharibə təhlükəsinin aradan qalxdığını anlayaraq xeyli rahatlayan Şah İsmayıl sevincini gizlətməmişdi: *"Həmd olsun Allaha ki, ordumuz amadə, düşmənimiz avarə oldu"*[2].

Səfəvi – Osmanlı müharibələri iki tərəfin sadəcə hərbi qüvvələrinin bir-birilərinə qarşı döyüş əməliyyatlarından ibarət deyildi. Əgər belə olsaydı, bəlkə də, Osmanlılar Məmlükləri ortadan qaldırdıqları kimi, Səfəviləri də sıradan çıxara bilərdilər. Lakin bu müharibələr, iki ordunun savaşından daha çox, Osmanlıların maddi qüvvəsinə qarşı Səfəvilərin mənəvi gücünün savaşı idi. Osmanlıların əsas etibarilə top-tüfənglə aparmağa çalışdıqları bu müharibələri Səfəvilər təkcə silahla deyil, həm də qızılbaş ozanlarının sazı ilə, sözü ilə, Xətai deyişləri, Şeyx Səfi buyuruqları ilə yürüdürdülər. Əgər o toplar qarşısında bu sazlar olmasaydı, Osmanlının üstün təzyiqi qarşısında Səfəvi

---

[1] Aləmara (Sahib), s.573; Aləmara (Şükri), s.553.

[2] Aləmara (Sahib), s.596-598; Aləmara (Şükri), s.575-577. Sultan Səlim 1520-ci il sentyabrın 22-də vəfat etmişdi. Ömrünün son illərində onun Səfəvilərə qarşı yeni yürüşə başlamaq üçün gördüyü hazırlıqlar haqqında bax: J.V.Hammer. Osmanlı tarihi, I c., s.415; B.Javanshir. İran'daki Türk boyları ve boy mensubu kişiler (Safevî dönemi – I Şah Tahmasp hâkimiyetinin sonuna kadar / 1576). YDT. İstanbul: Mimar Sinan Güzel Sanatlar Üniversitesi, 2007, s.196-197.

müqaviməti, yəqin ki, çökərdi. V.Minorski doğru olaraq yazır ki, "qüvvət Osmanlı tərəfində idi, fəqət Səfəvilərin təbliğatı daha bacarıqlı və daha təsirli idi"[1]. Maddi vəsaitlər, texniki imkanlar və hərbi qüvvə üstünlüyü Osmanlının tərəfində olsa da, mənəvi güc Səfəvilərin əlində idi. Təsadüfi deyildir ki, Rum qoşunlarının yürüşləri zamanı Şirvanda şah hökuməti əleyhinə baş vermiş bir-iki feodalın başçılıq etdiyi bəzi kiçik qiyamları nəzərə almasaq, Osmanlılar heç bir zaman Səfəvilərə qarşı xalq kütlələrinin geniş çıxışlarını təşkil edə bilməmiş və Səfəvilərə daxildən zərbə vurmağı bacarmamışdılar. Halbuki Səfəvilər istədikləri zaman Anadoluda Osmanlı səltənəti əleyhinə yönəlmiş gerçək xalq üsyanlarını alovlandıra bilirdilər. Bu, ilk növbədə Səfəvi şahlarının mürşid-i kamil obrazında özünü büruzə verən mənəvi iqtidarı ilə əlaqədar olmuşdur.

Səfəvilərin qərb sərhədindəki digər qonşuları Misir Məmlükləri idilər. 1258-ci ildə Bağdadın monqol-tatar orduları tərəfindən işğalından sonra Abbasi xəlifələri nəslinə Qahirədə sığınacaq vermiş Məmlüklər bu himayədarlıqlarından istifadə edərək, özlərini bütün müsəlman aləminin liderləri mövqeyində hiss edirdilər. Onlar Qahirəni bütün islam dünyasının baş şəhəri sayır, peyğəmbərin vəsiyyət və tövsiyələrinə yalnız orada düzgün əməl olunduğunu iddia edirdilər[2]. Bu baxımdan yanaşdıqda, şiəliyə əsaslanan Səfəvilər dövlətinin meydana gəlib sürətlə böyüməsi Məmlükləri narahat edirdi. Məmlük sultanı Qansu Quri 910 / 1504-05-ci ildə II Bayəzidə yazdığı məktubda "şərq diyarında yolunu azmış qızılbaş güruhunun qələbəsi" hadisəsini xatırladaraq, bunu "o tərəfləri bürümüş ictimai fəlakət" kimi qiymətləndirmişdi[3].

"Aləmara"nın məlumatına görə, 1507-08-ci illərdə Səfəvilərin Şərqi Anadoludakı keçmiş Ağqoyunlu ərazilərində möhkəmlənmələri və Diyarbəkrin qızılbaş valisi Məhəmməd xan Ustaclunun uğurlu fəaliyyəti Anadoluda xüsusi maraqları olan

---

[1] V.Minorsky. Shaykh Bali-Efendi on the Safavids, p.441.
[2] Н.А.Иванов. Османское завоевание арабских стран (1516-1574 гг). Москва, 1984, с.3; Ş.F.Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası, s.88.
[3] E.G.Browne. A History of Persian Literature, p.69.

Məmlük əyanları arasında ciddi narahatlıqlar doğurmuş və Qahirə sarayında Qansu Qurinin iştirakı ilə müzakirələrin açılmasına səbəb olmuşdu[1]. Həmin zaman Anadoludakı Osmanlı – Səfəvi hüdudu Sivas bölgəsində Suşəhri məntəqəsindən keçir, ondan sonra Fərat çayı boyunca Məmlük – Səfəvi sərhədi başlayırdı: Divriği, Darəndə, Malatya, Ayıntab Məmlüklərin, Kəmax qalası ilə Xarput və Urfa şəhərləri də Səfəvilərin hüdud məntəqələrini təşkil edirdilər[2].

Bicənin "Cahangüşa-yi xaqan" əsərindən aydın olur ki, h. 917-ci ilin başlanğıcında, baharın əvvəllərində / m. 1511-ci ilin aprelində Məmlüklərlə Səfəvilər arasında sərhəd insidenti baş vermişdi. Bu hadisə haqqında "Aləmara"da da geniş məlumata rast gəlirik. Qansu Qurinin həbəş qulamları korpusunun hər biri *"bədheybət divə bənzəyən", "dağ kimi atlara süvar olmuş"* 300 nəfər xüsusi hazırlıqlı döyüşçüsü Sədan Həbəşinin komandanlığı ilə sərhədi pozub, kəşfiyyat aparmaq və Səfəvi qoşunlarının döyüş qabiliyyətini yoxlamaq məqsədi ilə Diyarbəkr bəylərbəyiliyinin ərazisinə daxil olmuş, lakin həmin çəmənliklərdə ov etməklə məşğul olan Dəli Duraq ləqəbli qızılbaş sərkərdəsi Murad bəy Ustaclunun 100 (Bicənə görə, 70) nəfərlik dəstəsi tərəfindən darmadağın edilmişdilər. Döyüşün əvvəlində Dəli Duraq şəxsən Sədanı öldürmüş, həbəşlərdən 180 nəfər qətlə yetirilmiş, 20 nəfəri əsir düşmüş, qalanları qaçıb, öz ölkələrinə getmişdirlər. Əsirlərin çoxu Səfəvilərin tərəfinə keçmiş, Misirə geri qayıtmaq istəyən üç həbəş isə şəxsən Şah İsmayılın əmri ilə sərbəst buraxılmış və onlara ənamlar verərək, öz ölkələrinə yola salmışdılar[3]. Şah İsmayıl eyni zamanda Həmzə xəlifə adlı elçisini göndərərək, Qansu Qurini Şeybani xan üzərindəki qələbəsi barəsində məlumatlandırdı[4]. Geri qayıtmış həbəşlərdən məğlubiyyət və şahın alicənablığı haqqında məlumat alan Məmlük sultanı dərhal *"Şeyxoğlunun*

---

[1] Aləmara (Sahib), s.235; Aləmara (Şükri), s.152-153.
[2] F.Sümer. Safevî Devletinin kuruluşu, s.38.
[3] Aləmara (Sahib), s.236-239; Aləmara (Şükri), s.153-156; Cahangüşa-yi xaqan, s.480-484.
[4] Ə.Nəvai. Şah İsmail-i Səfəvi, s.93-96; Ə.Vilayəti Şah İsmayıl Səfəvi, s.273-275.

*yanına dostluq izharı və bu hərəkətlərin üzrünün istənilməsi üçün gözəl nitq qabiliyyətinə malik seçkin bir adamın göndərilməsini"* qərara almış və elçi ilə bərabər Şah İsmayıl üçün *"Misir, Məğrib, Rum, Firəng və Zəngibar töhfələri"* yollamışdı[1]. Əbdi bəy yazır ki, Qansu Qurinin elçisi 917 / 1511-12-ci ilin qışında şah Qumda olarkən onun hüzuruna gəldi[2]. Həmin elçi öz sultanı adından şahı Xorasanın fəthi münasibətilə təbrik etməklə yanaşı, sərhəd insidentinə görə də üzrxahlıq etmişdi[3].

Həmin zaman qərbdə Osmanlılar, şərqdə özbəklərlə münaqişə vəziyyətində olan Səfəvilər dövləti üçün Məmlüklərlə toqquşmaq sərf etmirdi və Şah İsmayılın əsirləri hörmətlə azad etməsi, Qansu Quriyə mülayim tonda məktub yazması da sərhəd insidenti ilə gərginləşə biləcək münasibətləri yumşaltmaq məqsədi güdürdü. Venesiya mənbələrinə əsasən, Çaldıran savaşının ardından, 1514-cü ilin dekabrında Səfəvilərlə Məmlüklər arasında artmaqda olan Osmanlı təhlükəsinə qarşı hərbi ittifaq yaradılsa da, tezliklə Qansu Qurinin müttəfiqlik şərtlərinə etinasızlığı ucbatından bu koalisiya pozuldu[4]. Nəticədə, 1516-17-ci illərdə Osmanlılar Məmlük dövlətinə son qoyub, onun ərazisini bütünlüklə işğal etdilər.

"Aləmara"da göstərilir ki, Osmanlılarla Məmlüklər arasında Suriyada müharibə gedən vaxt Şah İsmayıl 18 minlik qoşunla Təbrizdən çıxıb, Diyarbəkr ətrafına gəlmiş və orada Osmanlı dəstələri ilə toqquşmalar baş vermişdi[5]. Buna bənzər məlumata başqa Səfəvi mənbələrində təsadüf etməsək də, o dövrün italiyalı müəllifi Marino Sanudonun gündəliklərində əksini tapmış Venesiya sənədlərində rast gəlirik. Bu sənədlərə əsasən, həqiqətən də, Suriyada Sultan Səlimlə Qansu Quri arasında savaş gedərkən Şah İsmayıl 60 minlik ordu ilə Məmlüklərə kömək etmək üçün Diyarbəkrə doğru hərəkət etmiş, lakin Osmanlı hökmdarının Diyarbəkrlə Suriya arasında keçiş yolu olan əl-Birə (Birəcük) adlı yerdə təxminən eyni sayda əsgər

---

1 Aləmara (Sahib), s.240; Aləmara (Şükri), s.157.
2 Təkmilətül-əxbar (Bakı), s.45.
3 Cahangüşa-yi xaqan, s.485.
4 Travels of Venetians, p.121-122; Seyyahların gözüyle, s.103.
5 Aləmara (Sahib), s.575-576,579; Aləmara (Şükri), s.555-556,559.

yerləşdirməsi üzündən Səfəvi şahı bu maneəni dəf edib Suriyaya irəliləməyi bacarmamışdı[1].

"Aləmara"da qeyd olunur ki, Məmlük dövlətinin süqutundan sonra Osmanlı xidmətinə keçmiş Məmlük sərkərdələri olan Qəzzalilər nəslinin bəzi nümayəndələri Osmanlıya asi olub, Səfəvilərə sığınmışdılar. Qəzzalinin 17 yaşlı oğlu öz tərəfdarları ilə birlikdə Şamdan çıxaraq, Osmanlı dəstələri ilə yolüstü toqquşmalardan sonra yaz vaxtı Azərbaycana gəlmiş və Şah İsmayılın xidmətinə keçmişdi[2]. Çox güman ki, bu hadisə Osmanlının Suriya hakimi təyin etdiyi sabiq Məmlük sərkərdəsi Canberdi əl-Qəzzalinin Sultan Süleymana qarşı qiyam qaldıraraq 6 fevral 1521-ci ildə öldürülməsindən[3] sonra baş vermişdir.

### *D) I Şah İsmayılın Qafqaz siyasəti*

"Aləmara"nın materiallarına əsasən, Çaldıran məğlubiyyətindən sonra Şah İsmayıl Cənubi Qafqazda öz mövqelərini gücləndirmək üçün xüsusi tədbirlər gördü. Şirvan hələ 1500-cü ildən Səfəvilərdən asılı olsa da, bu asılılıq bir o qədər də güclü deyildi. Şirvanşah II İbrahim Şeyxşah (1502-1524) Şah İsmayılın ali hakimiyyətini tanıdıqdan və ona tabe olduqdan sonra Şirvanda hakimiyyətini davam etdirmişdi. Lakin o, 1507-09-cu illərdə itaətdən çıxmış, yalnız İsmayılın Şirvana ikinci yürüşündən sonra yenidən xərac ödəməyə razı olmuşdu[4]. Şeyxşah 1517-ci ildə öz elçilərini Təbrizə göndərib, qəti olaraq

---

[1] Bax: A.Allouche. Osmanlı – Safevî ilişkileri, s.139.

[2] Aləmara (Sahib), s.580; Aləmara (Şükri), s.560; Aləmara (Məclis kitabxanası – 9421), v.172a.

[3] J.V.Hammer. Osmanlı tarihi, I c., s.426. 1520-ci ildə qiyam qaldıran Canberdi əl-Qəzzali Şah İsmayıla məktub yazıb, ondan yardım istəmişdi. Şah İsmayıl sərhədə qoşun yığmağa başlasa da, Hələb yaxınlığında Qəzzalinin ordusu Osmanlılar tərəfindən darmadağın edildiyi üçün müdaxilə edə bilməmişdi: R.Kılıç. Kanunî devri, s.131. "Aləmara"da Canberdi əl-Qəzzalinin Şah İsmayılla yaxşı münasibətlərə malik olduğu və hətta Div sultan Rumlu ilə birlikdə Səfəvi – Osmanlı hüdudundakı bir yerdə Şah İsmayılın çadırına gələrək, onunla görüşüb söhbətləşdiyi qeyd edilmişdir: Aləmara (Sahib), s.580; Aləmara (Şükri), s.559-560.

[4] S.Aşurbəyli. Şirvanşahlar, s.318-319.

Səfəvilərdən vassal asılılığına düşdü[1]. O, hətta özü bundan sonra şəxsən 1518-ci və 1521-ci illərdə iki dəfə İsmayılın hüzuruna gələrək, onunla görüşmüşdü[2]. “Aləmara”da 1503 və 1510-cu illərin hadisələrindən bəhs edilərkən Şirvanın adı Səfəvilərdən asılı olan vilayətlər sırasında çəkilsə də[3], Şeyxşahın itaətsizliyi və Şah İsmayıl tərəfindən Şirvana təyin edilmiş bəylərbəyini qovması xüsusi vurğulanır[4]. Yalnız İsmayılın növbəti hücum təhlükəsi Şeyxşahı *“öz böyüklərini də götürüb, boynuna qılınc asaraq, dünyanın pənahı olan ulu dərgaha gəlməyə”* məcbur etmiş və o, Şah İsmayıl tərəfindən yaxşı qarşılanmışdı. Mənbəyə görə, bu əhvalat Fərrux Yəsarın ölümündən 18 il keçdikdən sonra, bahar vaxtı (yəni 1518-ci ilin yazında) baş vermişdi. Bu hadisədən sonra onların münasibətləri tamamilə qaydasına düşmüş və Şah İsmayıl hətta Şeyxşahın qızı ilə evlənmişdi[5]. “Aləmara”da qeyd olunur ki, II İbrahim Şeyxşah vəfat etdikdə (930 / 1524) onun oğlu *“Sultan Xəlil dünyanı qoruyan hökmdarın (Şah İsmayılın – N.M.) fərmanına uyğun olaraq, Şirvanda onun yerinə hakimiyyətə əyləşmişdi”*[6]. Bu fakt həmin zaman artıq Şirvanşahların tamamilə Səfəvilərdən asılı olduğunun göstəricisidir.

XVI əsrin əvvəllərində Gürcüstan bir neçə knyazlığa (Kartli, Kaxeti, Mesxi və İmeretiya, yəni Başı-açıq) bölünmüş, Səfəvilərlə Osmanlıların rəqabət məkanına çevrilmişdi. Gürcülər Təbriz sarayına bac-xərac ödəsələr də, imkan yarandıqda tabesizlik nümayiş etdirirdilər. “Aləmara” müəllifi 921 / 1515-16-cı ilə müvafiq gələn hadisələrdən bəhs edərkən gürcü knyazlarının *“bir-biriləri ilə müttəfiq olaraq, cəmiyyət etdiklərini, Qa-*

---

[1] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.129.

[2] S.Aşurbəyli. Şirvanşahlar, s.320.

[3] Aləmara (Sahib), s.66,379; Aləmara (Şükri), s.71,325.

[4] Aləmara (Sahib), s.604; Aləmara (Şükri), s.582.

[5] Aləmara (Sahib), s.610-611; Aləmara (Şükri), s.587-588. Bu nikah 1523-cü ilin noyabrında baş tutmuşdu: Həbibüs-siyər, s.599.

[6] Aləmara (Sahib), s.626; Aləmara (Məclis kitabxanası – 761), v.162b. II İbrahim Şeyxşahın oğlu II Xəlilulla Şah İsmayılın qızı Pərixan xanımın əri idi: О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, s.64.

*rabağ vilayətinə basqın edib, soyğunçuluq və talançılıq törətdiklərini, o vilayəti çoxlu dağıntılara məruz qoyduqlarını"* qeyd edir. Məhz bu hadisə Şah İsmayılın Div sultan Rumlunu 15 minlik qoşunla Gürcüstan üzərinə göndərməsinə səbəb oldu. Gürcüstana daxil olan qızılbaş ordusu gürcü qoşunlarını məğlubiyyətə düçar edib, onlardan iki min nəfəri qətlə yetirdi və Div sultan *"fəth və zəfərlə geri qayıtdı"*[1].

Bizim müəllif Div sultanın rəhbərlik etdiyi qızılbaşların Gürcüstan üzərinə daha bir yürüşündən bəhs edir. Onun təsvirinə əsasən, bu yürüş Şeyxşahın Şah İsmayılın hüzuruna gəlməsindən bir qədər öncəyə, həmin ilin qış aylarına (yəni 1518-ci ilin əvvəllərinə) təsadüf etmişdi. Qızılbaşlar 20 min süvari və 17 min piyadadan ibarət gürcü ordusunu məğlub edərək, onlardan 7 min nəfəri qırdılar. Tiflisi işğal edən Div sultan bir ay orada qalmağa nail olmuş, yalnız ailəsinin Məhəmməd Zaman mirzənin qiyamı ucbatından Bəlxi tərk edib Qarabağa gəldiyini öyrəndikdə şahın razılığı ilə Tiflisdən əl çəkib, Qarabağa getmişdi[2].

Qızılbaş ordusunun Gürcüstana növbəti yürüşü Kaxeti ("Zəkəmat") hakimi Levond ("Əlvənd") xanın itaətsizliyi ilə əlaqədar oldu. Gürcülərin qüvvələrini yenə də darmadağın edən Div sultan, Levondu əsir tutub, Qarabağda qışlayan Səfəvi hökmdarının hüzuruna apardı. Şah İsmayılın ayağını öpən gürcü knyazı bağışlanmasını xahiş etdi və şah onun təqsirini əfv edərək, onu öz əvvəlki mülkünə hakim təyin etdi. Bundan sonra Mesxi çarı Qurqura (IV Kvarkvare) da şahın dərgahına gəlib, öz irsi mülkünə təsdiq edildi[3]. O.Əfəndiyev Div sultanın

---

[1] Aləmara (Sahib), s.604-605; Aləmara (Şükri), s.582-583.

[2] Aləmara (Sahib), s.606-607; Aləmara (Şükri), s.584-585. 1518-ci ildə baş vermiş və qızılbaşların Tiflisi ələ keçirməsi ilə nəticələnmiş bu yürüş haqqında gürcü mənbələri də məlumat verirlər: «Парижская хроника». Тбилиси, 1991, с.28; Давид Багратиони. История Грузии. Тбилиси, 1971, с.138; Вахушти Багратиони. История царства грузинского. Тбилиси, 1976, с.30. Lakin bəzi gürcü tarixçilərinin bu yürüşə Şah İsmayılın şəxsən başçılıq etdiyini bildirmələri tarixi gerçəkliyi əks etdirmir (bax: Д.В.Кацитадзе. К вопросу нашествия шаха Исмаила I на Грузию // Труды Тбилисского Государственного Университета, т.108, серия востоковедения, IV, Тбилиси, 1964, с.394-395).

[3] Aləmara (Sahib), s.604-609; Aləmara (Şükri), s.582-587.

Levonda qarşı yönəlmiş bu yürüşünün 927 / 1521-ci ildə baş verdiyini və bunun nəticəsində Kaxeti, Mesxi, Kartli və Başı-açıq hakimlərinin Şah İsmayılın Naxçıvandakı qərargahına gəlib, tabe olduqlarını bildirir[1].

1516-21-ci illər ərzində edilmiş yürüşlər nəticəsində Gürcüstanın böyük bir ərazisi Səfəvilər dövlətinə tabe edildi. Lakin gürcü knyazları fürsət tapdıqca itaətsizlik göstərirdilər. 1522-ci ildə Kartli çarı David (Davud) xərac ödəməkdən imtina etmiş, nəticədə, qızılbaşlar Teleti döyüşündə onun ordusunu məğlub edərək, Tiflis şəhərini tutub qarət etmiş və çoxlu əsir aparmışdılar[2].

"Aləmara"da göstərilir ki, Şah İsmayılın Şeyxşahın qızı ilə evlənməsindən iki ay sonra (1524-cü ilin yanvarında) Levond yenidən qiyam qaldırmış və bu, qızılbaş ordusunun onun qoşunlarını növbəti dəfə darmadağın etməsi ilə nəticələnmiş, Levondun özü isə Başı-açıq vilayətinə qaçmaqla canını qurtarmışdı[3]. Buna baxmayaraq, Şah İsmayılın ölümü ərəfəsində, 1524-cü ilin mayında o, yenidən baş qaldırmış və Şəkiyə basqın etmişdi. Şah İsmayılın Gürcüstanı ram etməklə bağlı siyasəti onun oğlu və varisi Şah Təhmasib tərəfindən aktiv surətdə davam etdirilmişdir[4].

---

[1] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.63.

[2] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.120; Вахушти Багратиони. История царства грузинского, с.32-33,199; Давид Багратиони. История Грузии, с.138-139.

[3] Aləmara (Sahib), s.611; Aləmara (Şükri), s.588. Digər Səfəvi qaynaqları Şah İsmayılın Çaldıran döyüşündən sonra hər hansı bir döyüş əməliyyatına qatıldığını qeyd etməsələr də, "Aləmara"da bu yürüşə şəxsən onun özünün başçılıq etdiyi yazılmışdır. Müasir gürcü tarixçisi N.Gelaşvili də bu fikri dəstəkləyir: Persian Anonymous Chronicles about Shah Ismail I's Intrusion to Georgia (Kakheti) // "Georgia and Orient: past, present, future". Conference Abstracts. Tbilisi, 2008, p.20-21.

[4] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.64,105-107.

## 2.4. ŞAH İSMAYIL XƏTAİNİN ŞƏXSİYYƏTİ

### *A) Zahiri görünüşü və siyasi nailiyyətləri*

Şah İsmayıl özünün 37 illik ömrü ərzində çox keşməkeşli bir həyat yolu keçmişdir. O, hələ bir yaşında ikən atasını itirdikdən sonra əvvəlcə həbsə atılmış, daha sonra böyük qardaşı öldürülmüş, İsmayıl isə atasının sadiq tərəfdarları vasitəsilə Gilana qaçırılaraq gizlədilmiş, nəhayət, 12 yaşına çatıb 13-cü yaşına adlayarkən fədakar türk qızılbaş tayfalarını ətrafına toplayaraq "xüruc etmiş" və nəticədə, 1500-01-ci illərdə Şirvanşah Fərrux Yəsarı və Ağqoyunlu Əlvənd mirzəni məğlub edərək, Azərbaycan səltənətinin taxtını ələ keçirib, Səfəvilər dövlətinin əsasını qoymuşdu.

"Aləmara" ilə tanış olmayan Ə.Tahiri "Səfəvi mənbələrinin heç birində onun (Şah İsmayılın – N.M.) üzünün, bədən dərisinin, saçının rəngi və ya bu kimi zahiri əlamətləri haqqında heç bir qeydə rast gəlinməməsindən" şikayətlənir[1]. Halbuki digər müvərrixlərdən fərqli olaraq, bizim müəllif İsmayılın xarici görünüşünü təsvir edir, onun hakimiyyətə gəlmək ərəfəsində *"başına qırmızı tac qoymuş 14 yaşlı, şabalıdı saçlı, ağ üzlü və qoç baxışlı bir cavan"* olduğunu bildirir[2]. Şah İsmayılın müasiri olmuş italiyalı səyyahların müşahidələri "Aləmara"nın bu məlumatını təsdiq edir və tamamlayırlar. Onlar Şah İsmayılın ağbəniz, yaraşıqlı, orta boylu, mütənasib bədən quruluşlu, enlikürək, şabalıdı saçlı və solaxay olduğunu, bığ saxladığını yazırlar[3]. Şah İsmayılın "Aləmara" nüsxələrində əksini tapmış rəsmləri də onun görkəmini təsəvvür etmək baxımından maraq doğururlar[4].

---

[1] Ə.Tahiri. Tarix-i siyasi-yo ictimai-yi İran, s.146.

[2] Aləmara (Sahib), s.42; Aləmara (Şükri), s.46.

[3] Travels of Venetians, p.111,202.

[4] Şah İsmayılın təsvir edildiyi digər miniatürlər və rəsmlər də vardır. "Cahangüşa-yi xaqan"ın London nüsxəsindəki Şah İsmayıl miniatürləri barəsində M.Abbaslının əsəri vardır: Şah İsmayıl Xətainin ömür yolu miniatürlərdə. Bakı, 1981. Şah İsmayılın italiyalı rəssam tərəfindən çəkilmiş portreti Florensiya şəhərinin Uffiçi Qalereyasında, ağac üzərindəki qravürası isə Londonda-

Azərbaycan torpaqlarını birləşdirməyə nail olmuş Şah İsmayıl qısa müddət ərzində Sultan Murad Ağqoyunlu, Əmir Hüseyn Kiya Çəlavi, Rəis Məhəmməd Kərrə, Kürd Sarom xan, Əlaüddövlə Zülqədər, Barik bəy Pornak, Məlik Fəyyaz Müşəşəyi, Məhəmməd Şeybani xan və s. kimi rəqiblərini sıradan çıxararaq, istinadgahı Azərbaycan, rəsmi ideologiyası şiəlik olan nəhəng bir türk imperatorluğu yaratmağa nail oldu. Sultan Səlim öz məktublarında onu qədim türk hökmdarı Əfrasiyab (Alp Ər Tonqa) ilə eyniləşdirir[1], Əhl-i Həqq təriqətinə bağlı Azərbaycan əhalisi arasında məşhur olan şeirlərdə isə o, "Türküstanın piri", "Azərbaycan türklərinin başçısı" kimi xarakterizə olunurdu[2]. "Aləmara"nın məlumatına görə, *"o şəhriyarın qısa bir müddət ərzində Gilandan 7 nəfər sufi ilə birlikdə, xəzinəsiz və ordusuz xüruc edib, belə bir kiçik zaman müddətində neçə-neçə əzimülşan padşahları öz yolundan kənarlaşdıraraq bu böyüklüyündə həşəmətə yüksəlməsi"* hələ onun öz müasirlərinin heyrətinə səbəb olmaqda idi[3].

### *B) Sərkərdəlik məharəti və şəxsi şücaətləri*

"Aləmara" üzərində apardığımız hesablamalara əsasən, mənbədə Şah İsmayıl zamanında qızılbaş ordusunun həyata keçirdiyi irili-xırdalı 100-ə qədər döyüş əməliyyatı haqqında məlumat verilmişdir ki, bunların da təxminən 1/3 hissəsindən çoxu şəxsən İsmayılın komandanlığı altında aparılmış və o, iştirak etdiyi döyüşlərdən yalnız birini – Osmanlılara qarşı keçirdiyi Çaldıran vuruşmasını uduzmuşdu. O, özünün peşəkar

---

kı Britaniya Muzeyində saxlanılır: E.Əliyev (Vüqarlı). Şah İsmayılın Florensiyadakı portreti haqqında // Elmi Araşdırmalar, VI/1-2, 2004, s.177-179; E.Əliyev (Vüqarlı). Şah İsmayılın Londondakı portreti haqqında // Elmi Araşdırmalar, VII/3-4, 2005, s.219-222.

[1] E.G.Browne. A History of Persian Literature, 1924, p.12. XVI əsr Osmanlı təzkirəçisi Qınalızadə də Səfəvi şahını "Əfrasiyab-i mərəke-yi girudar" ("döyüş meydanının Əfrasiyabı") adlandırır: V.A.Musalı. Osmanlı təzkirələrində Azərbaycan şairləri, s.42.

[2] В.Ф.Минорский. Материалы для изучения персидской секты «Люди истины» или Али-илахи. Москва, 1911, с.73,76,80; V.Minorsky. The Poetry of Shah İsmail I, p.1006a.

[3] Aləmara (Sahib), s.145; Aləmara (Məclis kitabxanası – 761), v.37a.

süvari ordusuna arxalanaraq, açıq döyüşü üstün tutur və öz rəqiblərini çox vaxt qədim türk savaş ənənələri əsasında məğlub etməyi sevirdi. Şah İsmayılın hərbi taktikasında sürət və çeviklik ən önəmli faktorlar idilər. Onun döyüş taktikasında müdafiə anlayışına yer yox idi[1]. Səhra döyüşlərində o, əsasən düşmənin səflərini qəti hücumla cinahlardan yarmaqla qələbə qazanmağa üstünlük verirdi. Həmçinin geri çəkilməyi imitasiya edərək, düşməni pusquya salmağı nəzərdə tutan "Turan taktikası" və ya "qurd oyunu" adlanan manevri məharətlə tətbiq edirdi. Şirvanşah Fərrux Yəsara qarşı Cəbani (Çobanı), Ağqoyunlu Əlvəndə qarşı Şərur, Ağqoyunlu Murada qarşı Almabulağı düzündə, Əlaüddövlə Zülqədərə qarşı Ceyhan çayı sahilində, özbək hökmdarı Şeybani xana qarşı Mərv yaxınlığında, Orta Asiya xanlarının birləşmiş qüvvələrinə qarşı Ceyhun çayı sahilində və Osmanlı Sultan Səlimə qarşı Çaldıran səhrasında apardığı döyüşlər onun ən böyük meydan müharibələri hesab oluna bilər. Təkcə meydan müharibələrində deyil, şəhər və dağ döyüşlərində də özünün sərkərdəlik məharətini isbat etməyə nail olmuşdu. İranın mühüm şəhərlərindən olan İsfahan və Yəzdi mühasirə və küçə döyüşləri nəticəsində fəth etməsi, Əmir Hüseyn Kiya Çəlaviyə qarşı Mazandaranın güclü istehkamlara malik dağlıq ərazilərində və lur hökmdarı Məlikşah Rüstəmə qarşı Luristan vilayətinin dağlarında apardığı uğurlu əməliyyatlar buna bariz nümunədir. Qüvvələr nisbətinin rəqibin xeyrinə olduğu bir sıra döyüşlərdən qalib çıxması İsmayılın komandanlıq istedadının göstəricisidir.

O, müharibədə şərəf və mərdliyi ən mühüm prinsiplər hesab edirdi. 1513-cü ildə Şah İsmayıl Ceyhun çayı kənarında özbəklərin və qazaxların çoxsaylı ordusu ilə üzləşərkən qızılbaş əmirlərindən biri salın ipini kəsmək və gəmiləri sahilə çıxarmaqla çayın o biri sahilində yerləşmiş rəqib qoşunun qızılbaşların mövqe tutduqları digər sahilə keçməsini əngəlləməyi təklif etsə də, İsmayıl bunu özünə ar bilmiş, bədnamlıq əlaməti saymış və rəqibinin sərbəst şəkildə çayı keçib döyüşə başla-

[1] Müqayisə et: Ə.Əsgər, M.Qıpçaq. Türk savaş sənəti. Bakı, 1996, s.127.

ması üçün şərait yaratmış, hətta çaydakı bütün gəmiləri onlara göndərib, asanlıqla suyu keçmələrini təmin etmişdi[1].

Odlu silahlara, xüsusən də artilleriyaya nifrət edir, *"namərdin mərddən ayırd edilməsi və müəyyənləşdirilməsi üçün qılınc sıyırmağın"* zəruriliyini vurğulayır, artilleriyadan istifadənin namərd işi olduğunu deyirdi[2]. Almabulağı döyüşü ərəfəsində qızılbaşlar Ağqoyunlulardan 20 ədəd artilleriya ələ keçirsələr də, döyüş zamanı *"Süleyman şanlı xaqan (Şah İsmayıl – N.M.) topxananı işlətməməyi əmr etmişdi"*[3]. Yuxarıda göstərdiyimiz kimi, onun odlu silahlara mənfi münasibəti Çaldıran vuruşmasından bir gün öncə Sultan Səlimə müraciətindən də aydın görünür[4]. O.Əfəndiyev yazır ki, "I Şah İsmayıl zamanında Səfəvilər odlu silahın tətbiq edilməsini insanlığa zidd əməl və qorxaqlıq, cəsarətsizlik əlaməti hesab edirdilər"[5].

İştirak etdiyi döyüşlərdə təkcə bacarıqlı sərkərdə deyil, həm də məğlubedilməz pəhləvan kimi ad çıxarmışdı. Bizim müəllif yazır ki, döyüşlərdə *"özünü hər kimə yetirərdisə, onu bir zərbə ilə yerə sərərdi",* bəzən isə hətta rəqibinin *"başına elə zərbə endirərdi ki, qılınc onun kəmərinə qədər işləyib, onu ikiyə bölərdi"*[6]. Özünün qüvvətli qılınc zərbələri ilə rəqibini *"xiyar kimi doğrayardı"*[7]. Savaş vaxtı düşmən ordusunun adlısanlı bahadırları ilə təkbətək döyüşə girməkdən çəkinmirdi: o, Mustafa paşa, Məlik Fəyyaz, Ərəb Nəim, Pəhləvan Möhsün, Polad Sultan, Əbülxeyr xan, Malqoçoğlu və s. kimi öz zəmanəsinin ən məşhur sərkərdə və pəhləvanlarını məhz ikitərəfli çarpışmalarda məğlub edib, yerə sərmişdi. Həmçinin yaxşı ox atmaq qabiliyyətinə malik idi. Bəzən atdığı oxun ucu düşməninin başının arxasından çıxardı[8]. Şah İsmayılın döyüş vaxtı *"insanlara dastanlardakı Rüstəmi unutdura biləcək igidliklər gös-*

---

[1] Aləmara (Sahib), s.488; Aləmara (Şükri), s.437.
[2] Aləmara (Sahib), s.523; Aləmara (Şükri), s.489.
[3] Aləmara (Sahib), s.76; Aləmara (Məclis kitabxanası – 761), v.20a.
[4] Aləmara (Sahib), s.523-524; Aləmara (Şükri), s.489-490.
[5] О.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с. 61.
[6] Aləmara (Sahib), s.45,523; Aləmara (Şükri), s.49,488-489.
[7] Aləmara (Sahib), s.78; Aləmara (Məclis kitabxanası – 761), v.20b.
[8] Aləmara (Sahib), s.478; Aləmara (Şükri), s.424.

*tərdiyini"*[1] bildirən "Aləmara" müəllifi yazır ki, *"heç kim qılınc vurmaqda, zorda, pəhləvanlıqda və şücaətdə o şəhriyara çata bilməzdi"*[2].

Çətin və çıxılmaz vəziyyətlərdə bütün ordunu arxasınca aparmağa və qalib gəlməyə nail olurdu. Şirvana yürüş zamanı Kür çayının, İraqda əməliyyatlar apararkən Dəclə çayının keçilməsi ilə əlaqədar problem və tərəddüdlər yaranarkən məhz İsmayıl ilk olaraq özünü atla suya vurmuş və əsgərləri arxasınca səsləyərək, ordunu itkisiz çaydan keçirməyə müvəffəq olmuşdu[3]. Almabulağı döyüşündə Sultan Muradın əsgərləri sürətli qızılbaş süvarilərinin həmləsinin qarşısını almaqdan ötrü döyüş səfləri önündə od qalasalar da, yenə də məhz İsmayıl çəkinmədən özünü *"həmin yandırıcı atəşə"* ataraq keçib getmiş və qızılbaşlar da onun ardınca hərəkət etmişdilər[4]. Süvari qızılbaş ordusu əsasən düzənliklərdə və açıq ərazilərdə əməliyyatlar aparmağa öyrəncəli olduğundan bəzən qalaların alınması və ya dağlarda döyüşlər onlar üçün problem yaradırdı. Belə gərgin anlarda yenə də İsmayıl önə çıxır və şəxsi fədakarlığı sayəsində döyüşün müqəddəratını həll edirdi. Məsələn, dağlıq ərazidə yerləşən Gülxəndan qalasına hücum zamanı özü şəxsən ordunun önündə getmiş, *"qılınc zərbi ilə qala darvazasının çərçivəsini sındıraraq",* qalaya birinci daxil olmuşdu[5]. Marankuh dağı ətrafında çayın axarını dəyişdirərkən Şah İsmayıl əlinə bel alaraq, əsgərlərlə birlikdə çalışmışdı[6].

### *C) Mənəvi keyfiyyətləri*

Bəzi tədqiqatçılar onu çoxlu qanlar tökməkdə və mərhəmətsizlikdə ittiham edirlər[7]. Halbuki o, əksər hallarda, hətta ən zəif rəqibləri ilə müharibədən əvvəl *"savaşa və döyüşə ehtiyac*

---

[1] Aləmara (Sahib), s.164; Aləmara (Məclis kitabxanası – 761), v.42b.
[2] Aləmara (Sahib), s.235; Aləmara (Şükri), s.153.
[3] Aləmara (Sahib), s.53,163; Aləmara (Şükri), s.58,126.
[4] Aləmara (Sahib), s.76; Aləmara (Məclis kitabxanası – 761), v.20a.
[5] Aləmara (Sahib), s.116; Aləmara (Məclis kitabxanası – 761), v.30a.
[6] Aləmara (Sahib), s.130; Aləmara (Məclis kitabxanası – 761), v.33a.
[7] T.Yazıcı. Şah İsmail, s.278; История Востока в шести томах, т. III. Москва, 1999, с.101.

*olmaması üçün"* sülh təklifləri edər, yalnız qəti rədd cavabı aldıqdan sonra hərbi əməliyyatlara başlayardı[1]. Heç vaxt məğlub etdiyi qoşunun arxasınca gedib onları təqib etməz və onların salamatlıqla qaçıb qurtulmalarına imkan yaradardı[2]. *"Aman vermək imandandır"* deyən[3] Şah İsmayıl təslim olanları bağışlayır, hətta onları öz mülazimləri cərgəsinə qəbul edirdi[4]. Lakin ciddi siyasi, ideoloji rəqib hesab etdiyi şəxslərə qarşı amansız davranır, onları diri-diri, yaxud cəsədlərini yandırır, şiəliyin yayılmasına açıq etirazlar olan yerlərdə zorakılıqdan istifadə edilməsini və qətllər törədilməsini məqbul hesab edirdi[5]. A.Müllerin və İ.Petruşevskinin göstərdikləri kimi, bu cür hadisələr İsmayılın şəxsiyyətindən deyil, onun yaşadığı zamanın reallıqlarından irəli gəlirdi[6]. Uşaq çağlarından atasını, böyük qardaşını itirmiş, həbsə atılmış, anasından ayrı düşmüş, böyük çətinliklərlə üzləşmiş Şah İsmayılın əhval-ruhiyyəsinə bütün bu amillər öz təsirini göstərməyə bilməzdi və o, sonrakı fəaliyyətində düşmənlərindən qisas almaqdan əl çəkməmişdi. Çünki o, yaxşı bilirdi ki, zəiflik göstərəcəyi təqdirdə rəqibləri onu da babası, atası, qardaşı kimi məhv edərdilər. Buna baxmayaraq, İsmayıl hərbi əməliyyatlar aparılan ərazilərdə müqavimət göstərməyən dinc əhalinin zərər çəkməsinə razı deyildi. O, Təbəs vilayətinə yürüş edərkən qızılbaşlar tərəfindən əsir alınmış dinc sakinlərin dərhal azad olunmasını əmr etmişdi[7].

İsmayıl orduya qayğıkeşliklə yanaşır, hər bir əsgərin ehtiyacları ilə maraqlanır, *"atı zəif olanlara öz şəxsi tövləsindən at bağışlayır, əsləhəsi olmayanlara cəbbəxanadan əsləhə əta edir və hər bir kəsə layiq olduğu qədərincə inayət göstərirdi"*[8].

---

[1] Aləmara (Sahib), s.44,67,103,118,161,190,198,356,477,579 və s.
[2] Aləmara (Sahib), s.159,393,509 və s.; Aləmara (Şükri), s.118,133,141, 302,341,444,469,504,512.
[3] Aləmara (Sahib), s.65; Aləmara (Şükri), s.174.
[4] Aləmara (Sahib), s.45,52,79,120,164,187,239,478; Aləmara (Şükri), s.49, 56,69,95,127,135,157,425 və s.
[5] Aləmara (Sahib), s.49,132,139,515; Aləmara (Şükri), s.54,99,103,480-481.
[6] А.Мюллер. История Ислама, т. III, с.392; И.П.Петрушевский. Азербайджан в XVI-XVII вв., с.244.
[7] Aləmara (Sahib), s.142; Aləmara (Şükri), s.96.
[8] Aləmara (Sahib), s.76; Aləmara (Məclis kitabxanası – 761), v.20a.

Çox vaxt ələ keçirilmiş qənimətin əksəriyyətini ordusuna paylayardı. Döyüşlərdə *"şəhidlik dərəcəsinə çatmış sufilərin övladlarına əvvəlkindən daha artıq şəfqət göstərir, onları yüksək mərtəbəyə qaldırırdı"*[1]. Xüsusi igidliklər göstərmiş şəxslərə qiymətli mükafatlar verərdi[2]. Onun ordudakı rütbə və vəzifə təyinatlarında əsil-nəsəb ciddi rol oynamır, igidlik ön planda tutulurdu[3]. Lakin savaşda səhlənkarlıq və qorxaqlıq göstərənləri, kimliyindən asılı olmayaraq, sərt cəzalandırırdı[4]. Əsgərlərini döyüş zamanı zəiflik göstərməməyə çağıraraq, onlara *"ey dostlar, mərdliklə namərdliyin arası bir addımdır"* deyə xəbərdarlıq edirdi[5].

Şah İsmayıl Səfəviyyə təriqətinin mürşid-i kamili, qızılbaş döyüşçüləri isə onun müridləri hesab olunurdular. Qızılbaşlar arasında İsmayılın müqəddəsliyinə fanatik bir inam mövcud idi və onlar onun yolunda ölümə atılmağı özlərinə şərəf bilirdilər. "Aləmara"dan aydın olur ki, xarizmatik şəxsiyyəti və parlaq qələbələri sayəsində qızılbaşlar ona müqəddəs bir insan kimi pərəstiş edirdilər[6]. Şah İsmayılı sevənlər onu fövqəlinsan hesab edir və kəramət sahibi olduğuna inanırdılar[7]. Bu tipli informasiyalara venesiyalıların səyahətnamələrində də rast gəlmək mümkündür[8].

Dövlət idarəçiliyində şiəliyə əsaslanan Şah İsmayıl dini ideologiyadan heç də yalnız sadəcə siyasi bir alət olaraq istifadə etməyi düşünmür, sidq ürəklə tapındığı həmin məfkurədən irəli gələn prinsiplərin həyata keçirilməsini özü üçün müqəddəs bir borc hesab edirdi. O, sadəcə hakimiyyət uğrunda mübarizə aparmağı məqbul hesab etmir və özünün haqq bildiyi məzhəbə rəvac vermək yolunda çarpışdığını bildirirdi[9]. Öz

---

[1] Aləmara (Sahib), s.170; Aləmara (Məclis kitabxanası – 761), v.44a.
[2] Aləmara (Sahib), s.355; Aləmara (Şükri), s.298.
[3] Aləmara (Sahib), s.229; Aləmara (Məclis kitabxanası – 761), v.59b.
[4] Aləmara (Sahib), s.471-472,531-533; Aləmara (Şükri), s.417-418,498-500.
[5] Aləmara (Sahib), s.470; Aləmara (Şükri), s.417.
[6] Aləmara (Sahib), s.189,525; Aləmara (Şükri), s.492.
[7] S.N.Ergün. Hatâyî Divanı (Şah İsmail-i Safevî: edebî hayatı ve nefesleri). İstanbul, 1956, s.12.
[8] Travels of Venetians, p.115.
[9] Aləmara (Sahib), s.58; Aləmara (Şükri), s.62.

azğınlıqları ilə məşhur olan Xuzistan hökmdarı Məlik Fəyyaz ona sərvət vermək müqabilində canını qurtarmaq istəsə də, Şah İsmayıl maddi nemətlər uğrunda deyil, əqidə uğrunda vuruşduğunu bildirmiş, *"mənim sənin malına və mülkünə heç bir tamahım yoxdur"* deyərək, Fəyyaza qarşı savaşı sona qədər davam etdirmişdi[1]. Mənbələrin şahidliyinə əsasən, o, sərvət uğrunda vuruşmadığını göstərmək üçün öz qoşununa 1500-cü ildə Şirvana yürüş zamanı şirvanşah xəzinəsindən ələ keçirilmiş ləl-cavahiratı və digər qənimətləri bütünlüklə suya tullamağı əmr etmişdi[2].

Dövlət işlərində öz əmirləri ilə məsləhətləşməyi sevsə də, fikir müxtəlifliyi üzə çıxdıqda çox zaman qətiyyət göstərərək, öz qərarlarını onlara qəbul etdirməyə nail olurdu. Peyğəmbər nəslinin davamçısı, müqəddəs hakimiyyətin – "vilayət dudmanı"nın xələfi olaraq hökmranlıq edən Şah İsmayıl öz idarəçiliyində haqq-ədalətə diqqət yetirməyə çalışırdı. Bizim müəllif onu *"ədalətli və rəiyyətpərvər hökmdar", "insaflı və mürvətli padşah"* deyə yad etmişdir. O, müxtəlif yerlərdə olarkən sakinlərlə görüşür, onların problemlərini dinləyir, ədalətsizliyə məruz qalanların haqqını bərpa edir, *"yoxsulların və rəiyyətin əhvalı ilə maraqlanır", "rəiyyətə və tabeçiliyindəkilərə köməklik göstərməklə məşğul olur",* miskinlərə ənamlar paylayır, dövlət işlərində ədalət nümayiş etdirirdi[3]. Malın və canın əbədi olmadığını bildirən Şah İsmayıl öz tabeçiliyindəkilərə dünyada yaxşı əməllərlə ad-san qazanıb, yadigar qoymağı məsləhət görürdü[4]. Tarixi qaynaqlar Şah İsmayılın siyasətini, xalqa münasibətini yüksək qiymətləndirir, onun ədalətli və səxavətli bir hökmdar olduğunu qeyd edirlər[5].

---

[1] Aləmara (Şükri), s.137; Aləmara (Məclis kitabxanası – 9421), v.13a.
[2] Cəvahirül-əxbar, s.115; Xülasətüt-təvarix, s.61-62; Ş.Məmmədova. "Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi, s.26.
[3] Aləmara (Sahib), s.95,160,249,340,386,500; Aləmara (Şükri), s.121,129, 137,176-177,272.
[4] Aləmara (Sahib), s.411; Aləmara (Şükri), s.359.
[5] O.Əfəndiyev. Şah İsmayıl Xətainin şəxsiyyətinə dair // Şah İsmayıl və onun dövrü (beynəlxalq konfrans). Bakı: Xəzər Universiteti, 1996, s.42.

Dini motivli bir dövlət qurmasına baxmayaraq, bəzi tədqiqatçılar onu az qala içki düşkünü kimi xarakterizə edirlər. Məsələn F.Sümer qeyd edir ki, Şah İsmayılın "miniatürlərə görə, saqqalı təraş olunmuş, uzun bığlı, türkman üzlü bəyləri ilə gecə-gündüz içdiyini bilirik". Görkəmli tədqiqatçı miniatürlərdə əksini tapmış qabların içərisindəki içkinin məhz şərab olduğunu necə müəyyənləşdirdiyini bildirməsə də, iddia edir ki, "içkiyə qarşı aşırı düşkünlüyü onun gənc yaşında həyata vida etməsində, hər halda, çox mühüm bir amil olmuşdur"[1]. Lütfi paşa isə Şah İsmayılın döyüşdən öncə orduya şərab içirdiyini iddia edir[2]. Halbuki mötəbər mənbələr Şah İsmayılın orduda şərab içilməsinə və sərxoşluğa qarşı mənfi münasibət göstərdiyini qeyd edirlər[3]. İfrat eyş-işrətdən xoşlanmayan Şah İsmayıl öz məmləkətinin ətrafında daim at cövlan etdirməsi ilə öyünürdü və hətta Sultan Hüseyn Bayqaranın ona hədiyyə göndərdiyi rəqqasələr qrupunu da acıqla geri qaytarmışdı[4].

Dini ideologiyanı əldə rəhbər tutaraq, öz səltənətini müqəddəslik örtüyünə bürüməyə çalışan İsmayıl ibadətə xüsusi fikir verirdi. Onun İraqdakı Kərbəla, Nəcəf, Kazimeyn, Samirə ziyarətgahlarında, İmam Rzanın Məşhəddəki məqbərəsində xüsusi rituallar həyata keçirdiyi məlumdur. O, hətta Nəcəfdəki Həzrət Əli məqbərəsində saatlarla təkbaşına ibadət etmişdi[5]. Bəzi vaxtlarda isə bütün gecəni oyaq qalaraq, münacatla məşğul olurdu[6]. Nə olursa olsun, daim ədəb-ərkana fikir verirdi. Hətta təhqiramiz məktub və tələblərlə gəlmiş özbək elçiləri ilə nəzakətlə söhbət etmiş, etik qaydalardan kənara çıxmamış və onlara ənamlar verərək geri göndərmişdi[7].

---

[1] F.Sümer. Safevî Devletinin kuruluşu, s.38,57.
[2] Lütfi Paşa. Tevârîh-i Âl-i Osmân, s.213.
[3] Aləmara (Sahib), s.202; Aləmara (Şükri), s.112; Cahangüşa-yi xaqan, s.252.
[4] M.Abbaslı. Şah İsmayıl Xətainin ömür yolu miniatürlərdə, s.21.
[5] Aləmara (Sahib), s.167-168; Aləmara (Şükri), s.128.
[6] Aləmara (Sahib), s.621; Aləmara (Şükri), s.80,83.
[7] Aləmara (Sahib), s.310-311; Aləmara (Şükri), s.259.

### D) Şairliyi, əyləncələri və ailə vəziyyəti

Anonim müəllif Şah İsmayılın savadlı bir dövlət başçısı olduğunu göstərir və onu *"səltənət və bilik dəryasının incisi"* adlandırır[1]. "Aləmara"da Şah İsmayılın şairliyi haqqında da məlumat verilir, onun Həzrət Əlinin mədhinə bədahətən 35 beytlik qəsidə dediyi xatırladılır[2]. Birdəfəyə bədahətən bu qədər beyt deyə bilmək Xətainin şairlik istedadının yüksək səviyyəsindən xəbər verir. Bundan başqa, yuxarıda qeyd etdiyimiz kimi, Şah İsmayılın Şeybani xanın cavabında dediyi beyt də əsərdə əksini tapmışdır[3]. Mənbədə Şah İsmayıla aid edilən daha bir nəzm parçası da vardır. Bu, onun Məşhədi fəth etdikdən sonra dediyi bir beytdir:

"يك طواف مرقد سلطان على موسى رضا
هفت هزار و هفتصد و هفتاد حج اكبر است"

"Sultan Əli Musa Rza qəbrinin bir təvafi,
Yeddi min yeddi yüz yetmiş həcc-i əkbərə təndir"[4].

Xətainin qızılbaşlar arasında məşhurlaşmış və yəqin ki, bu məşhurluq səbəbindən "Aləmara"ya daxil edilmiş həmin fikri Azərbaycan ədəbiyyatında sonralar öz təsirini göstərmişdir. Məsələn, XVI əsrin ikinci yarısında və XVII əsrin əvvəllərində yaşayıb-yaratmış qızılbaş sərkərdəsi, Əmani təxəllüsü ilə şeirlər yazan Məhəmməd bəy Bayburtlu öz qoşmalarının birində, ehtimal ki, Xətainin bu beytinin təsiri ilə yazırdı:

"Bu yol gedən qılmaz laf-i kəzafi,
Canü-dildən olur sufi-yi safi,
Yetmiş həccdür İmam Rza təvafi,
Sidqi rəhbər edüb, könül, əzm elə"[5].

---

[1] Aləmara (Şükri), s.448-449.
[2] Aləmara (Sahib), s.528; Aləmara (Şükri), s.497.
[3] Aləmara (Sahib), s.310; Aləmara (Şükri), s.259.
[4] Aləmara (Sahib), s.347; Aləmara (Şükri), s.291.
[5] P.Kərimov, M.Hüseyni. XVII əsr Azərbaycan lirikası (antologiya). Bakı, 2008, s.85. Səfəvi şahlarının əhalini Məşhədə ziyarətə getməyə rəğbətləndirmələri təkcə məzhəbçiliklə əlaqədar olmayıb, həm də iqtisadi mahiyyət kəsb edirdi. Bu siyasət, ziyarətə çəkilən xərclərin, verilən böyük miqdarda nəzirlərin ölkə daxilində qalması məqsədini güdürdü: E.Doğan. Safevîler dö-

Xətainin ərəb və farsca da bəzi şeirlər qələmə alması məlum olsa da, onun şeirlərinin mütləq əksəriyyəti türkcədir. Lakin "Aləmara" farsca yazıldığı üçün orada Xətainin yuxarıda bəhs etdiyimiz yalnız bir-iki beyt farsca şeirindən nümunələr verilmişdir.

Özü şair olan İsmayıl ədəbiyyata qayğı ilə yanaşırdı. Mənbədə onun təbrizli sadə xalq şairi, dərviş Baba Eşqi Təbərrayi ilə münasibətlərindən söz açılır. O, Baba Eşqi ilə hələ Təbrizdə şiə xütbəsi oxunarkən tanış olmuşdu. Həmin zaman Baba Eşqi kütlənin içərisindən irəli çıxaraq, Şah İsmayılın qarşısına gəlmiş və əlində təbərzin tutaraq, ucadan təbərra etmiş, bu hərəkəti ilə məşhurlaşmışdı[1]. İraq-i Ərəbin fəthindən sonra şahın ordusu ilə birgə müqəddəs yerləri ziyarət edən Baba Eşqi Təbərrayi öz qəsidələrindən birini Nəcəfdə, Həzrət Əlinin məzarı yanında şah üçün böyük bir şövqlə oxumuş və bunun müqabilində İsmayıl *"ona padşahanə xələt vermiş, həmçinin nağd qızıl pulla 100 tümən məbləğində ənam təqdim etmişdi"*[2]. Həyatı və yaradıcılığı haqqında məlumatımız az olan bu azərbaycanlı şair sonradan Hüseyn bəy Lələ Herat hakimi olarkən onun xidmətində durmuş və 1513-cü ildə özbəklərin Xorasana yürüşü zamanı öldürülmüşdü[3].

"Aləmara"da qeyd olunur ki, Şah İsmayıl bəzən Təbriz meydanında çovqan yarışları təşkil edər və bu yarışlarda şəxsən özü də iştirak edərdi[4]. Onun sevimli məşğuliyyətlərindən biri də ov idi. O, erkən gəncliyində balıq ovuna meyil edər, sonralar isə şir, pələng, ahu, dağ keçisi, ceyran, gur və s. heyvanların ovu ilə məşğul olardı[5]. "Aləmara"da onun Tarom ya-

---

neminde Osmanlı ülkesine seyahat (Safevîler'in Hac yolculukları) // Uluslararası Şah İsmail ve Safevîler Sempozyumu. İstanbul, 8 Kasım 2009.

[1] Aləmara (Sahib), s.61; Aləmara (Məclis kitabxanası – 761), v.16b.

[2] Aləmara (Sahib), s.168; Aləmara (Məclis kitabxanası – 761), v.43a-b.

[3] Aləmara (Sahib), s.457; Aləmara (Şükri), s.403-404.

[4] Aləmara (Sahib), s.41; Aləmara (Şükri), s.45.

[5] Ş.F.Fərzəliyev. Qiyasəddin Xondəmir və Həsən bəy Rumlu Şah İsmayıl Xətainin fərdi xüsusiyyətləri haqqında // Şah İsmayıl Xətai (məqalələr toplusu). Bakı, 1988, s.85; G.Şükürov. Safevîler'de av geleneğinin oluşumu ve I. Şah İsmail dönemi av merasimleri // Acta Turcica, yıl 1, sayı 1, Ocak 2009, s.56-71.

xınlığında, Təbəs mahalında, İsfahan ətrafındakı Zayəndə-rud çayı sahillərində, Bağdad ətrafında, Luristanda, Mosulda, Hisar-i Şadmanda, Çaldıran düzündə, Şirvanda ov etməsi qeyd olunmuşdur. Onun şir və pələng ovuna daha çox həvəsi vardı və şir xəbəri gətirənə bir baş yəhərli at və yaraq verəcəyini vəd etmişdi[1].

"Aləmara"da Şah İsmayılın yalnız iki həyat yoldaşı barəsində söz açılmışdır. Bu əsərə görə, Şah İsmayıl Əbdi bəy Şamlunun qızı və Durmuş xanın bacısı Taclı bəyimlə evlənmiş, bu nikahdan qarlı bir qış günündə İsfahanın Rənan kəndində gələcək Səfəvi hökmdarı Təhmasib dünyaya gəlmişdi[2]. Bundan başqa, Şah İsmayıl ömrünün sonlarında Şirvanşah II İbrahim Şeyxşahın qızı ilə evlənmişdi[3].

Özündən sonra 4 oğul (Təhmasib, Sam, Əlqas, Bəhram) və 5 qız (Xanişbəyim və ya Xansəti, Pərixan, Məhinbanu, Firəngiz, Zeynəb) övladı qoyub getmişdi[4].

### *E) Ölümqabağı vəsiyyətləri və vəfatı*

"Aləmara"ya əsasən, Şah İsmayıl ömrünün sonunda *"şikar etmək üçün Şirvana yollanmış",* lakin röyada atası Şeyx Heydəri görmüş, *"axirət səfərinin yaxın olduğunu"* anlayaraq, ov işlərini yarımçıq qoyub, Ərdəbilə qayıtmağı qərara almışdı. Şahın məiyyəti Şirvandan çıxarkən Üləmə sultan Təkəlü şahzadə Təhmasibi Ərdəbilə gətirmək üçün göndərilmişdi. Ölümünə yaxın İsmayıl öz oğlu və vəliəhdi Təhmasibin azyaşlı olduğundan və düşmənlərin bundan istifadə edə biləcəyindən,

---

1 Aləmara (Sahib), s.169; Aləmara (Məclis kitabxanası – 761), v.43b.

2 Aləmara (Sahib), s.82; Aləmara (Şükri), s.169; həmçinin bax: Xülase-yi tarix-i padişahan-i Əcəm, v.33a-33b; Ə.Məmmədov. Xətai haqqında dastan // Elm və Həyat, 1977, №10, s.19. Amma bəzi digər məlumatlara görə, Taclı xanım şamlu tayfasından deyildir və o, mosullu tayfasının əmirlərindən birinin qızıdır: Cəvahirül-əxbar, s.122; S.Onullahi. Taclı xanım, s.47; T.Gündüz. Şah İsmail'in eşi Taçlı Begüm, s.224.

3 Aləmara (Sahib), s.610; Aləmara (Şükri), s.588. Şah İsmayılın başqa qadınları da vardı (bax: Tarix-i aləmara-yi Abbasi (Bakı), s.120; Təkmilətül-əxbar (Bakı), s.49; Xeyrat-i hesan (Bakı), s.18,34).

4 Aləmara (Sahib), s.625; Aləmara (Məclis kitabxanası – 761), v.162b; О.Эфендиев. Азербайджанское государство Сефевидов, с. 288.

beləliklə də, *"özünün çəkdiyi əziyyət və zəhmətlərin zay olacağından"* narahat idi və bu səbəbdən də qızılbaşlara etdiyi son vəsiyyətində onları dövlətçiliyi qorumaq naminə birliyə çağırmışdı: *"Sufi olmağın yolu və üsulu odur ki, nifaqdan əl çəkib, ittifaq edəsiniz ki, düşmən dörd tərəfdən üzərinizə hərəkət edə bilməsin. Nə qədər ki sizin aranızda ittifaq vardır, heç bir padşahın qüdrəti çatmaz ki, özündə qızılbaşlarla vuruşmağa iradə tapa bilsin. Çünki onların hamısının gözünü qorxutmuşsunuz".* O, görkəmli qızılbaş əmiri Div sultan Rumlunu yeddi il müddətinə Təhmasibin vəkili təyin etmiş, ona böyük əmirlərə və qızılbaş ordusuna mehribanlıqla davranmağı, onları özündən incik salmamağı və Təhmasib 18 yaşına çatdıqda dövlət işlərini tamamilə ona təhvil verməyi tapşırmışdı. Ölümünə üç gün qalmış vəziyyəti xüsusilə ağırlaşmış, hərarəti artmış və hətta namazı oturan yerdə qılmağa məcbur olmuşdu[1]. Beləliklə, 19 rəcəb 930 / 23 may 1524-cü ildə axşam vaxtı Şah İsmayıl Ərdəbildən Təbrizə gedən yolda, Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Sayıngədiyi adlı məhəldə vərəm xəstəliyindən vəfat etdi[2].

"Aləmara"da qeyd olunur ki, onun ölümü qızılbaşlar arasında dərin həyəcan yaratmışdı, onlar *"taclarını yerə vurub, yaxalarını yırtır, başlarına kül tökürdülər".* Döyüşçülər matəm əlaməti olaraq, atlarının yallarını və quyruqlarını qırxırdılar[3]. Qızılbaş ordusu üçün sanki dünyanın axırı idi, *"qiyamət qopmuşdu".* Şahın cəsədi sədr, üləma və müctəhidlər tərəfindən qüsl edilib, kəfənə tutulduqdan sonra darülirşad Ərdəbil şəhərinə aparılmış və öz əcdadı Şeyx Səfiəddinin qəbrinin civarın-

---

[1] Aləmara (Sahib), s.622-623; Aləmara (Şükri), s.598-599. "Aləmara"da Şah İsmayılın ölüm ərəfəsində Şirvanda ov etdiyi yazılsa da, daha dəqiq olan budur ki, o, Şəkidə ov etmişdir (bax: О.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.64).

[2] N.Fəlsəfi. Çənd məqale-yi tarixi və ədəbi, s.86.

[3] Matəm əlaməti olaraq baş geyimlərinin yerə vurulması və atların quyruğunun qırxılması qədim türk ənənələrindəndir. Bu fakta Dədə Qorqud dastanının son boyundakı Bamsı Beyrəyin öldürülməsi epizodunda da rast gəlirik: "Ağ-boz atının quyruğını kəsdilər. Kırk-əlli yigit qara geyüb gög sarındılar. Qazan bəgə gəldilər, sarıqların yerə urdılar. "Beyrək" deyü çok ağladılar": Kitabi-Dədə Qorqud. Bakı, 2004, s.168.

da dəfn edilmişdi[1]. Şah İsmayılın xalq tərəfindən çox sevildiyini XVI əsrin Venesiya mənbələri və hətta həmin əsrə aid olan anonim bir Osmanlı salnaməsi də təsdiq edir[2].

Bicən və Həsən bəy Rumlu kimi bizim müəllif də öz əsərinin sonunda Şah İsmayılın şəxsiyyəti və fəaliyyəti ilə bağlı maraqlı ümumiləşdirməyə yer vermişdir: *"Ömrünün müddəti 38 il və səltənət müddəti 24 il olmuşdur. Bütün rəiyyəti və tabeçiliyindəkiləri ədalətlə idarə etmiş və yaşatmışdır. O həzrətin qorxusundan sipahilərdən heç kəs insafsızlıq və fırıldaq qapılarını xalqın üzünə açmırdı. O həzrətin padşahlığı əyyamında qüdrətli dövlətin ixtiyarında olan vilayətlər tamam İraq-i Əcəmdən, Ceyhun çayının kənarınadək tamam Xorasandan, Farsdan, Kirmandan, Xuzistandan, Hüveyzədən ibarət idi və bəzi vaxtlarda hətta Diyarbəkr mülkü də Azərbaycan məmləkətinin əlavəsinə ("zəmimə"sinə) çevrilmişdi. O həzrət döyüş meydanında xəncər vuran cəngavər, əyləncə məclisində gövhər yağdıran bulud idi. Çox səxavətli idi, onun nəzərində adi daş və cavahir eyni şey idi. Bütün döyüşlərdə qızılbaş ordusunun önündə gedərdi. Döyüşlərdə heç vaxt yara almamış[3], həmişə Tanrının hifz və himayətində olmuşdur. Əksər vaxtlarda xəzinəsində[4] bir dinar da olmazdı. Zəngul şikarına ("şikar-i zəngul") və hər növ ov heyvanının ("seyd") ovuna tam meyli vardı, xüsusən də özünəməxsus şəkildə həyata keçirdiyi şir ovuna marağı böyük idi"[5].*

---

[1] Aləmara (Sahib), s.624; Aləmara (Şükri), s.600-601.

[2] Travels, p.115,206; Seyyahların gözüyle, s.93-94,214-215; R.Yildirim. Turkomans, p.270.

[3] Lakin M.Solakzadəyə (Tarix, s.32) görə, Çaldıran döyüşündə "Şah İsmayılın qoluna tüfəng gülləsi dəyərək yaralanmışdı". J.V.Hammer Şah İsmayılın həmin döyüşdə yeniçərilərin gülləleri ilə qolundan və ayağından yaralandığını yazır: Osmanlı tarihi, I c., s.381.

[4] Burada dövlət xəzinəsi deyil, şahın şəxsi xəzinəsi nəzərdə tutulmuşdur.

[5] Aləmara (Sahib), s.625; Aləmara (Məclis kitabxanası – 761), v.162a-b. "Şikar-i zəngul" – "zəngul ovu" deməkdir. Buradakı zəngul sözünün anlamı məlum deyildir. İran alimləri Ə.M.Sahib və Y.Şükri fars dilində belə bir ifadənin olmadığını qeyd edərək, bunun ov heyvanlarından və ya yırtıcı cəngəllik heyvanlarından birinin adı olduğu ehtimalını irəli sürürlər: Aləmara (Sahib), s.637; Aləmara (Şükri), s.615. Lakin bizim fikrimizcə, "şikar-i zəngul" termini hansısa heyvanın adı ilə deyil, ovun təşkili prinsipi ilə bağlı olmuşdur.

İ.Hüseynovun haqlı olaraq ifadə etdiyi kimi, "Şah İsmayıl Səfəvi özünün 25 illik fəaliyyəti ilə Azərbaycan tarixində ən böyük simalardan biri olmuşdur"[1]. Əcnəbi şərqşünaslar da onun şəxsiyyətini yüksək qiymətləndirmişlər. K.Markham yazır: "Şah İsmayıl öz əcdadlarının bir çoxu kimi sufi filosofu idi. O, cəsur və alicənab bir hökmdar idi və şərq sülalələrinin ilk hökmdarlarında aşkar olunan, demək olar ki, dəyişməz keyfiyyətlərdən savayı, bir çox dəyərli keyfiyyətlərə də malik idi"[2]. Digər bir Qərb tarixçisi R.Seyvori İsmayılı "xarizmatik xarakterə, liderlik istedadına və şəxsi şücaətə", həmçinin "yüksək dərəcədə dövlət idarəçiliyi və siyasi fərasətə" malik bir şəxs kimi səciyyələndirmişdir[3]. Alman tədqiqatçısı H.Braun qeyd edir ki, "onun yaratdığı dövlətin möhkəm təməlli və davamlı olduğu sübuta yetirilib; o, öz potensialını korrekt şəkildə üzə çıxarmaq bacarığına malik idi və özünü qeyri-məhdud fəthlər ambisiyasının şirnikləndiriciliyindən çəkindirə bilmirdi"[4].

"Aləmara"nın materialları I Şah İsmayılı görkəmli dövlət xadimi və peşəkar sərkərdə kimi dəyərləndirməyə imkan verir[5].

---

"Aləmara"da Luristanın fəthindən sonra oranın hakimi Məlikşah Rüstəmin Şah İsmayılın şərəfinə "zəngul ovu" təşkil etməsindən danışılır. Mənbənin təsvirinə görə, lurlar 3 gün ərzində ətraf yerlərdən hər növ ov heyvanını (həm ahu kimi əti yeyilən heyvanları, həm də aslan kimi yırtıcı heyvanları) qovub, bir yerə cəmləşdirmişdilər və bundan sonra şah öz əmirləri ilə birlikdə ova başlamışdı: Aləmara (Sahib), s.180; Aləmara (Məclis kitabxanası – 761), v.46b. Buradakı zəngul sözü muğamdakı zəngulədən yaranmış ola bilər. Ov heyvanları səs-küy salınaraq qovulduqları üçün bu şikarın "zəngul ovu" adlandırılması mümkündür.

[1] İ.Hüseynov. Səfəvi dövlətinin banisi Şah İsmayıl Xətai // "Azərbaycan" jurnalı (əski əlifba ilə), 1945, № 3-4, s.51.

[2] C.R.Markham. A General Sketch, p.271.

[3] R.M.Savory. Iran under the Safavids, p.49.

[4] The Muslim World: A Historical Survey, part III, p.189. Məşhur ingilis filosofu F.Bekon 1597-ci ildə nəşr edilmiş "Mənəvi və siyasi təcrübələr və ya öyüdlər" adlı kitabında Şah İsmayıla yüksək qiymət vermiş və onu dünya tarixinin ən görkəmli şəxsiyyətlərindən biri hesab etmişdir (bax: Şah İsmayıl Xətai: xronoloji-tarixi məlumatlar. Tərtib edən: H.S.Hüseynqulu oğlu. Bakı, 1997, s.5).

[5] N.S.Musalı. Səfəvilər dövrünün anonim müəllifi Şah İsmayıl Xətainin şəxsiyyəti haqqında // "Renessans" jurnalı, 2006, № 3-4, s.81-86.

# III FƏSİL

# I ŞAH İSMAYILIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ DÖVLƏT QURULUŞU MƏSƏLƏLƏRİ VƏ İCTİMAİ-İQTİSADİ MÜNASİBƏTLƏR



Şah İsmayıl öz dövlət xadimləri ilə birlikdə
(İslami Şura Məclisi kitabxanasına məxsus
635 saylı "Aləmara" nüsxəsindən bir fraqment,
vər. 128b)

## 3.1. DÖVLƏT QURULUŞU MƏSƏLƏLƏRİ

### *A) Səfəvi səltənətinin ümumi səciyyəsi*

Əsası I İsmayıl tərəfindən qoyulmuş Səfəvilər dövləti bütün türk dünyası tarixində ən qüdrətli imperiyalardan biri olmuşdur. O.Əfəndiyevin çoxsaylı araşdırmaları nəticəsində Səfəvilər dövlətinin XVI əsr ərzində bir Azərbaycan dövləti olması elmi dəlillər əsasında sübuta yetirilmişdir[1]. Rus tarixşünaslığında Səfəvilər dövlətinin Azərbaycan türklərinin dövləti kimi təqdim olunmasında İ.P.Petruşevskinin böyük xidmətləri olmuşdur[2]. F.Sümerin Səfəvilərlə bağı araşdırmalarından sonra Türkiyə elmi dairələrində də bu dövlətin bir türk imperiyası olduğu gerçəkliyi özünə daha geniş yer tapmışdır[3].

İtaliyalı tarixçi A.Bauzani qeyd edir ki, "kiçik zaman fasilələri istisna olmaqla miladın 1000-ci ilindən 1925-ci ilinə qədər İranın taleyi ardıcıl türk sülalələri tərəfindən idarə olunmuşdur"[4]. C.M.Smit haqlı olaraq Səfəvi sülaləsinin hökmranlığını "İran üzərindəki min illik türk ağalığı dövrünün ən möhtəşəm və ən effektiv hakimiyyəti" hesab etmişdir[5]. Səfəvi imperatorluğuna Qaraqoyunlu və Ağqoyunlu sülalələrindən sonra üçüncü türkman konfederasiyası kimi yanaşılması fikri Avropa tarixşü-

---

[1] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов в начале XVI века. Баку, 1961; О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке. Баку, 1981; O.Efendiyef. Le Rôle des tribus de langue turque dans la création de l'état Séfévide // Turcica, t. VI, 1975, p.24-33.

[2] И.П.Петрушевский. Азербайджан в XVI-XVII вв. // ССИА, вып. I, Баку, 1949, с.225-298; yenə onun, Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI–начале XIX века. Ленинград, 1949, с.69-72; yenə onun. Ислам в Иране в VII-XV веках. Ленинград, 1966, с.372.

[3] F.Sümer. Safevî Devletinin kuruluşu ve gelişmesinde Anadolu Türklerinin rolü. Ankara, 1992.

[4] A.Bausani. The Persians from the Earliest Days to the Twentieth Century. London, 1971, p.129.

[5] J.M.Smith. Turanian Nomadism and Iranian Politics // Iranian Studies, vol. XI, 1978, p.74.

naslığında möhkəm mövqe tutmaqdadır[1]. Fransız tarixçisi R.Mantran isə birmənalı şəkildə Şah İsmayılın "Azərbaycanda örnək bir türk dövləti yaratdığını" göstərir[2].

XIII əsrdən etibarən bir sıra imperiyaların metropoliyası olan Azərbaycan XVI əsrdə Səfəvilər dövlətinin də metropoliyası idi. Bu səbəbdəndir ki, "Aləmara"da I Şah İsmayıl tərəfindən fəth olunan digər vilayətlər *"zəmime-yi məmləkət-i Azərbaycan" ("Azərbaycan məmləkətinin əlavəsi")* adlandırılırlar[3]. Səfəvi imperiyası I Şah Abbasın paytaxtı İsfahana köçürməsindən sonra da türk dövləti xarakterini tam mənası ilə saxlamaqda idi. Təsadüfi deyildir ki, "Aləmara" müəllifinin timsalında məmləkətin sıravi təbəələri XVII əsrin ikinci yarısında da Səfəvilər sülaləsini türk xanədanı[4], onların idarə etdikləri dövləti isə Ağqoyunluların birbaşa varisi olan türk dövləti hesab edirdilər[5]. Bizim anonim müəllifin müasiri olmuş, 1683-84-cü illərdə Azərbaycana və İrana səfər etmiş alman səyyahı E.Kempfer də Səfəvilər dövlətinin türk xarakterini açıq-aşkar göstərmişdir: "Padşahın hərbçiləri Şah İsmayıl zamanında Səfəvi xanədanını səltənətə yüksəltmiş türkdilli qövmlərdəndirlər. İranın hər yerində bu türk hərbçiləri hökmrandırlar"[6]. "Aləmara"da və digər mənbələrdə Səfəvilər dövləti onu quran və inkişaf etdirən türk qızılbaş tayfalarının şərəfinə "qızılbaş ölkəsi", "qızılbaş dövləti", Səfəvi hökmdarı isə "qızılbaş padşahı"

---

[1] V.Minorsky. "Tadhkirat al-muluk": A Manual of Safavid Administration. London, 1943, p.30; A.Lambton. Landlord and Peasant in Persia. London, 1953, p.106; The Cambridge History of Iran, vol. VI (ed. by P.Jackson and L.Lockhart). Cambridge, 1986, p.331; H.R.Roemer. Die Türkmenishen Qizilbaş – Gründer und Opfer der Safawidischen Theokratie // ZDMG, band. 135, 1985, s.232; J.P.Roux. Türklerin tarihi. İstanbul, 2007, s.376.

[2] R.Mantran. Osmanlı İmparatorluğu tarihi. I c. İstanbul, 2000, s.174-175; bax: M.Çelenk. XVI. ve XVII. yüzyıllarda Safevî Şiîliği. YDT. Bursa: Uludağ Üniversitesi, 2005, s.74-75.

[3] Aləmara (Sahib), s.625.

[4] Aləmara (Sahib), s.6,8,9,10; Aləmara (Şükri), s.11,12.

[5] Aləmara (Sahib), s.59-60; Aləmara (Şükri), s.63.

[6] M.C.Məşkur. Nəzəri be tarix-i Azərbaycan. Tehran, 1349, s.242.

deyə qeyd olunur[1]. Azərbaycan türkcəsi Səfəvilər zamanında dövlət dili səviyyəsində işlədilirdi[2].

"Aləmara"dan aydın olur ki, qızılbaş ifadəsi təkcə 12 imama etiqad rəmzi kimi və ya bir dini inanc formasını ifadə etmək üçün deyil, siyasi, coğrafi və həm də etnik anlamda istifadə olunurdu. Bu fikrin sübutu üçün bəzi nümunələrə müraciət edək. Şah İsmayılın Bağdad səfəri zamanı əvvəllər Barik bəy Pornaka xidmət etmiş bir kürd nökər başına qızılbaş tacı qoyaraq, Səfəvilərin tərəfinə keçir. Lakin qızılbaş ordusu Dəclə çayını adlayarkən onu su aparır. Şah ölənin kim olduğunu aydınlaşdırmağı tapşırır və onun qızılbaş deyil, kürd olduğu məlum olur[3]. Əsərin digər bir yerində qızılbaşlıq yenə də etnik kimlik kimi qarşımıza çıxır və farslardan (taciklərdən) fərqləndirilir. Burada qeyd olunur ki, Şah İsmayıl Hisar-i Şadman qalası ətrafındakı dərədə və laləzarda ova çıxan zaman onun yanında *"qızılbaşlardan Div sultan, taciklərdən isə Mir Seyid Şərif Sədr və Şeyxzadə Lahici vardı"*[4]. Bu qeydlərdən görünür ki, qızılbaş tacı örtən hər kəs qızılbaş ola bilməzdi. Səfəvi xidmətində olan digər xalqların nümayəndələri bu ada layiq görülmürdülər. Qızılbaşlıq yalnız Səfəvi ordusundakı türk tayfalarına xas olan bir kimlik idi. Təsadüfi deyil ki, Sadıq bəy Əfşar Azərbaycan türkcəsini "qızılbaş dili" kimi xarakterizə edir[5]. Hacı Zeynalabidin Şirvani yazır ki, "qızılbaş tayfalarının hamısı

---

[1] Aləmara (Şükri), s.293,465,563; Tarix-i aləmara-yi Abbasi (Bakı), s.35,78, 226,326,419,649,687,696; Sadiq bəy Əfşar. Məcməül-xəvas. Bakı, 2008, s.41; R.M.Savory. Iran under the Safavids. Cambridge, 1980, p.34.

[2] А.Е.Крымский. История Персии, ее литературы и дервишской теософии, т. III. Москва, 1914-1917, с.140; E.G.Browne. A History of Persian Literature in the Modern Times (A.D.1500-1924). Cambridge, 1924, p.15; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.9; A.Bausani. The Persians, p.146; M.Cavadova. Şah İsmayıl Xətainin leksikası. Bakı, 1977, s.7; B.Baranowski, K.Baranowski. Historia Azerbejdzanu. 1987, s.73; Doğuştan Günümüze Büyük İslam Tarihi. IX. c. İstanbul, 1992, s.552; История Востока в шести томах, т. III. Москва, 1999, c.112.

[3] Aləmara (Sahib), s.163; Aləmara (Şükri), s.126.

[4] Aləmara (Şükri), s.425.

[5] P.Kərimov, M.Hüseyni. XVII əsr Azərbaycan lirikası (antologiya). Bakı, 2007, s.4-5.

türk, qılınc əhli və şiə məzhəbli idilər”[1]. Səfəvi dövlətində olan əcnəbi səyyahlar da qızılbaş kəlməsini etnik kimlik olaraq türk sözünün sinonimi kimi işlətmiş, onları farslardan fərqləndirmişlər[2].

İstinadgahı Azərbaycan, paytaxtı Təbriz olan Səfəvilər dövləti geniş əraziləri əhatə edirdi. Səfəvilər dövlətinin sahəsi heç bir vaxt I Şah İsmayılın hakimiyyət müddətinin ortalarında olduğu qədər geniş olmamışdır[3]. Səfəvi dövlətinin o vaxtkı ərazisi 3,5 mln. kv.km.-dən ibarət idi[4]. Həmin zaman imperiyanın tərkibinə Qarabağ, Çuxursəəd, Təbriz (Cənubi Azərbaycan), Diyarbəkr, Ərzincan, Həmədan, İraq-i Əcəm, Kirmanşah-Kəlhur, İraq-i Ərəb, Fars, Kuh-i Giluyə, Kirman, Bəlx, Mərv, Məşhəd, Herat, Astarabad əyalətləri daxil idi. Yerli sülalələrin idarəçiliyində olan Şirvan, Şəki, Qəndəhar, Bədəxşan, Gilan, Mazandaran, Luristan, Xuzistan, Bidlis, Sistan vilayətləri, Gürcüstan knyazlıqları Səfəvilərdən vassal asılılığında idilər. Hətta 1511-12-ci illərdə Şah İsmayılın yardımı ilə Babur şahın yiyələndiyi Orta Asiyada da Səfəvi şahının adına xütbə oxunmuş və orada qızılbaş qoşunları yerləşdirilmişdi[5].

“Aləmara”ya əsasən, Səfəvilər dövləti ərazisində müxtəlif xalqların nümayəndələri – türklər, taciklər (bu termin əsasən farsları əhatə etsə də, bəzən ümumiyyətlə oturaq əhaliyə şamil edilirdi), giləklər, mazandaranilər, kürdlər, lurlar, əfqanlar, ərəblər, gürcülər və s. yaşayırdılar. Diqqəti çəkən cəhət odur ki, Azərbaycanda və bütövlükdə Səfəvi dövləti ərazisində məskunlaşmış türklər “türkman”, “qızılbaş” və ya sadəcə “türk” adlandırıldıqları halda, Osmanlı türkləri “rumi”, Mərkəzi Asiya türkləri isə “cağatay” və “özbək” adlandırılırlar. Mənbənin mətnində, bir dəfə də olsun, ermənilərin qeyd edilməməsi, onların

---

[1] Riyazüs-səyahə, s.39.

[2] E.Mirzəyeva. Azərbaycan şəhərlərinin etnik və dini mənzərəsi (XV-XVII əsrlər) // Azərbaycan Səfəvilər dövlətinin yaranmasının 505 illiyinə həsr olunmuş elmi-praktiki konfransın materialları. Bakı, 2006, s.97.

[3] K.M.Rohrborn. Provinzen und Zentralgewalt Persiens im 16 und 17 Jahrhundert. Berlin, 1966, s.3.

[4] Я.М.Махмудов. Взаимоотношения государств Ак-коюнлу и Сефевидов с западно-европейскими странами. Баку, 1991, с.141.

[5] Aləmara (Sahib), s.404-405; Aləmara (Şükri), s.352-353.

həmin dövrün ictimai-siyasi proseslərində heç bir rolunun olmadığının bariz göstəricisidir.

Səfəvilər dövlətinin rəsmi dövlət dini mötədil şiəliyin isnaəşəri (12 imam) cərəyanı idi. Sübut edilmişdir ki, Şah İsmayıl hakimiyyətə gələrkən İran əhalisinin əksər hissəsi sünni olmuş və onlara şiəliyi Səfəvilər qəbul etdirmişlər[1]. "Aləmara"dan aydın olur ki, şəhərlər alındıqdan dərhal sonra, cümə günü orada şiə islahatı keçirilirdi. Bu islahat iki hissədən, yəni 12 imam adına sikkə zərb edilib xütbə oxunmasından və təbərra deyilməsindən (peyğəmbər nəslinin düşmənlərinin lənətlənməsindən) ibarət idi [2]. Səfəviyyə təriqətinin ana kitabı sayılan "Qara məcmuə"də təbərranın açıqlaması bu cür verilir: "Təbərra oldur kim, Məhəmməd və Əli həzrətləri düşmanlarına nifrət edib qaçmaqdır, Əhl-i Beytə ədu olan məlunlara lənət qılmaqdır. Onun əsəri Məhəmməd və Əlidən qeyriyə könül verməyib, murad almaqdır"[3]. Səfəvilər hakimiyyətə gəldikdən sonra şiə islahatı zamanı deyilən təbərralarda birbaşa olaraq "peyğəmbər nəslinin (Əhl-i Beytin) hakimiyyət hüququnu pozmuş, xilafəti mənimsəmiş" ilk üç xəlifə – Əbu-Bəkr, Ömər və Osman başda olmaqla bütün "din və dövlət düşmənləri" ("əda-yi din-ü dövlət") hədəfə alınır və lənətlənirdilər[4]. Əslində bu islahat özünü imamlar sülaləsinin varisi elan edən Səfəvi xanədanının hakimiyyətinin təməllərinin ideya-siyasi cəhətdən möhkəmlənməsinə xidmət edirdi.

Şahın əmri ilə hərəkət edən qızılbaşlar yeni ideologiyanı bərqərar etmək üçün zor işlətməkdən və etirazları yerindəcə yatırmaqdan çəkinmirdilər. Bir sıra yerlərdə sünni din xadimlə-

---

[1] Riyazüs-səyahə, s.23; F.Sümer. Safevî Devletinin kuruluşu, s.2; O.A.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.58; S.A.Arjomand. Religious Extremism (Ghuluw), Sufism and Sunnism in Safavid Iran (1501-1722) // Journal of Asian History, XV/1, 1981, p.1; R.Ghirshman, V.Minorsky and R.Sanghvi. Persia – the Immortal Kingdom. London, 1971, p.141; V.Minorsky. The Poetry of Shah Ismail I // BSOAS, X/4, 1942, p.1007a-1008a; M.Çelenk. Safevî Şiîliği, s.113,174.

[2] Aləmara (Sahib), s.60-61,165,398-399; Aləmara (Şükri), s.64-65,345-346.

[3] Qara məcmuə (Bakı), s.56.

[4] Aləmara (Sahib), s.583; Aləmara (Şükri), s.562-563. Səfəvi zamanında təbərrayilər adlanan xüsusi qruplar fəaliyyət göstərirdilər və onlar ictimai yerlərdə ucadan təbərra deyirdilər: R.Savory. Iran under the Safavids, p.27-28.

ri edam edilir, hətta vəfat etmiş sünni üləmasının məzarları təhqir olunur və onların sümükləri qəbirdən çıxarılaraq yandırılırdı[1]. Lakin yeni ideologiya heç də yalnız zorakı metodlarla yayılmırdı. Bu məqsədlə sosial-iqtisadi xarakterli proqramlar da həyata keçirilirdi. Məsələn, şiəliyi qəbul edənlərə pul mükafatı verilirdi[2]. I Şah Təhmasib zamanında şiə bölgələrinin vergi yükü azaldılırdı[3]. Bu tədbirlər şiəliyə dinc yolla rəvac vermək məqsədi güdürdü.

Ölkənin rəsmi qanunları Cəfəri məzhəbinin fiqhinə əsaslanırdı. Bu barədə ilk vaxtlar hansısa bir əsər tapmaq çətinlik törətsə də, nəhayət, Elxanilər dövrünün müctəhidi Cəmaləddin Mütəhhər Hillinin (1250-1325) "Qəvaidül-ehkam" kitabının birinci cildi Qazı Nəsrulla Zeytuninin şəxsi kitabxanasından üzə çıxarılaraq, əldə rəhbər tutulmuşdu[4]. Lakin Səfəvi şeyxləri sufi yönümlü olduqlarından fiqhə bir o qədər də fikir vermirdilər. Məsələn, Şah İsmayıl bəzi qərarların qəbulu zamanı Cəfəri fiqhinə deyil, təsəvvüf ədəb-ərkanına istinad edirdi[5]. Şiə əqidəsinə və fiqhinə dərindən bələd olan alimlərin çatışmaması İsmayılı ərəb ölkələrindən şiə mütəxəssislərini dəvət etməyə vadar etmişdi. Molla Əli Cəbəlamili də belələrindən idi[6]. Bun-

---

[1] Aləmara (Sahib), s.515; Aləmara (Şükri), s.477.
[2] Aləmara (Sahib), s.399; Aləmara (Şükri), s.346.
[3] Ş.Məmmədova. "Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991, s.38.
[4] Cahangüşa-yi xaqan, s.149-150; O.A.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, c.59. Sonradan Səfəvilər dövründə şiəliyi yayan bir sıra yeni əsərlər meydana gəldi. Bunların içində XVI əsr müəlliflərindən Qəribinin ((V.A.Musalı. XVI əsr müəllifi Qəribi və onun naməlum təzkirəsi // Filologiya məsələləri, 2007, № 3, s.351) və Əhməd ibn Məhəmməd Müqəddəs Ərdəbilinin türkcə risalələri xüsusi yer tuturdu. Sonuncu müəllif türkcə "Əqaidül-islam" əsərini yazmışdır. 1585-ci ildə vəfat etmiş bu şəxsi ondan bir qədər öncə yaşamış və Təbrizdə şiə xütbəsi oxumuş adaşı və həmyerlisi Mövlana Əhməd Ərdəbili ilə eyniləşdirmək doğru deyildir. "Əqaidül-islam"ın XIX əsrdə Təbrizdə daşbasma üsulu ilə türkcə yayımlanmış iki nəşrini AMEA kitabxanasının "Şərq ədəbiyyatı" bölməsində görmüşük. Bu şəxs və onun yaradıcılığı haqqında bax: F.Musəvi. Tarix-i Ərdəbil və daneşməndan. I c. Nəcəf, 1347, s.48-72.
[5] Aləmara (Şükri), s.121; Aləmara (Məclis kitabxanası – 9421), v.6a.
[6] Aləmara (Sahib), s.516; Aləmara (Şükri), s.479. Burada adı çəkilən Molla Əli Cəbəlamili çox güman ki, Şeyx Əli əl-Kərəkidir (1465-1533/34). O, Səfə-

dan əlavə, Səfəvilər hakimiyyətə gəldikdən sonra mötədil şiəliklə səsləşməyən bir sıra sufi təriqətlərinə və radikal şiə yönümlü meyillərə qarşı aktiv mübarizəyə başlamışdılar[1]. Lakin bu, heç də asan məsələ deyildi. Çünki aşağıda nəzərdən keçirəcəyimiz kimi, bu cür meyillər qızılbaş tayfaları arasında da geniş yayılmışdı və ümumiyyətlə, Səfəvilər dövlətində ortodoksal şiəliyin möhkəmlənməsi uzun bir zaman almışdı[2].

### *B) Səfəvi şahı maddi və mənəvi hakimiyyətin başçısı kimi*

Dini ideologiyanın güclü təsiri ilə hakimiyyətə gəlmiş Səfəvilərin qüdrət mənbəyi dünyəvi və ruhani hakimiyyətin vəhdəti olmuşdur[3]. Şah İsmayıl Xətai "mənəm həm pir ü həm sultan-i aləm" deyərək, özünün həm dini, həm dünyəvi rəhbər olduğunu açıqlayırdı[4]. Səfəvi şahı özündə dini və dünyəvi hakimiyyəti birləşdirmiş mütləq və qeyri-məhdud hökmranlığa malik monarx, qaynaqların dili ilə desək, "Allahın yer üzündə kölgəsi" idi[5]. V.Minorskinin dəyərləndirməsinə əsasən, "Şah İsmayıl tərəfindən yaradılmış dövlət teokratiya idi"[6]. Seyid olduqlarını bildirərək, peyğəmbər nəslinin qanuni varisi və qeybdə olan on ikinci imamın nümayəndələri kimi çıxış edən Səfəvi şahları hakimiyyət məsələsində "vilayət" (Həzrət Əli və Həzrət Fatimə vasitəsilə peyğəmbər nəslinin hakimiyyəti) prinsipini irəli sürürdülər[7].

---

vilər dövlətinə gəlmiş ilk cəbəlamilli din alimi idi: M.F.Münfərd. Mühacirət-i üləma-yi şiə əz Cəbəlamil be İran dər əsr-i Səfəvi. Tehran, 1377, s.83; M.Çelenk. Safevî Şiiliği, s.187-198.

[1] Aləmara (Sahib), s.179; Aləmara (Şükri), s.135; З.А.Кулизаде. Из истории азербайджанской философии VII-XVI вв. Баку, 1992, с.182-183.

[2] S.A.Arjomand. Religious Extremism, p.3.

[3] X.Qasımov. Səfəvilər dövründə dinin mövqeyi və roluna dair // Şah İsmayıl və onun dövrü (beynəlxalq konfrans). Bakı: Xəzər Universiteti, 1997, s.75.

[4] İ.Görkaş. Şah İsmail Hatâyî'nin "Pir ü Sultan-ı Âlem" fikri ve "Kızıl Taç" simgesi // Türk Kültürü ve Hacı Bektaş Veli Dergisi, sayı: 49, 2009, s.139.

[5] Aləmara (Sahib), s.575,598,611; Aləmara (Şükri), s.555,577 və s. Orta əsrlərdə bəzi digər müsəlman sülalələrində də hökmdarlar bu titulla yad edilirdilər.

[6] V.Minorsky. Iranica: 20 articles. Tehran, 1964, p.252.

[7] Təkmilətül-əxbar (Bakı), s.27.

Digər Səfəvi mənbələrində olduğu kimi, “Aləmara”da da Şah İsmayıl yeddinci şiə imamı Musa əl-Kazim vasitəsilə peyğəmbər nəslindən hesab olunur və *“xələf-i dudman-i vilayət”, “şəhriyar-i kişvər-i imamət”* adlandırılır[1]. Fanatik əhval-ruhiyyədə olan “Aləmara” müəllifi Səfəvi sülaləsinin on ikinci imamın zühuruna kimi hakimiyyətdə qalıb, *“küfrü yer üzündən silməli”* olduğunu[2] yazaraq əlavə edir ki, *“onların dövləti əmr sahibi olan həzrətin (on ikinci imamın) – ona salam olsun – zühuruna kimi zaval görməyəcəkdir”*[3]. Şah İsmayılın *“Allahın və cəmi məsumların tərəfindən xüruc edib, on iki imamın haqq məzhəbinə rəvac vermək məqsədi daşıdığını”*[4] bildirən “Aləmara” müəllifi ona şahlığın *“Nəcəf şahından (Həzrət Əlidən) miras qaldığını”*[5] və Şah İsmayılın *“Həzrət Sahibüz-Zamanın varisi və naibi”* olduğunu qeyd edir[6]. Əslində, Səfəvi şahları özlərini qeybdə olan on ikinci şiə imamının qanuni nümayəndəsi elan etməklə o vaxta qədər bu funksiyanın daşıyıcıları olan şiə müctəhidlərinin rolunu mənimsəməyə cəhd edirdilər[7]. Səfəvi mənbələrində əksini tapmış bir rəvayətə görə, İsmayıl xüruc etmək iznini məhz İmam Sahibüz-Zamandan almışdı[8]. Təsadüfi deyil ki, Şah İsmayıl öz çıxışlarında deyirdi: *“Mən özümü hamısı məsum olan əlahəzrət imamların mülazimlərindən biri hesab edirəm və bu müddət ərzində gördüyüm işləri o həzrətlərin göstərişi ilə etmişəm”*[9]. O, bir sıra hallarda qəbul etdiyi mühüm qərarları yuxuda Həzrət Əlini görüb birbaşa ondan göstəriş alması ilə izah edirdi[10]. Öz “Təzkirə”sində etiraf etdiyi

---

[1] Aləmara (Sahib), s.497; Aləmara (Şükri), s.136,290.
[2] Aləmara (Sahib), s.12; Aləmara (Şükri), s.15.
[3] Aləmara (Sahib), s.22; Aləmara (Şükri), s.27.
[4] Aləmara (Sahib), s.69; Aləmara (Şükri), s.73.
[5] Aləmara (Sahib), s.193; Aləmara (Məclis kitabxanası – 761), v.49b.
[6] Aləmara (Sahib), s.379; Aləmara (Məclis kitabxanası – 761), v.97b.
[7] R.M.Savory. The Safavid State and Polity // Iranian Studies, vol. VII, 1974, p.186-194.
[8] Aləmara (Sahib), s.42-43; Aləmara (Şükri), s.46-47; Cahangüşa-yi xaqan, s.86-88; A.Lambton. State and Government in Medieval Islam. London, 1981, p.275.
[9] Aləmara (Sahib), s.348; Aləmara (Şükri), s.291-292.
[10] Aləmara (Sahib), s.39,51,60,119,160,361,623; Aləmara (Şükri), s.43,55, 64,94,306,600.

kimi, sonralar I Şah Təhmasib də bu üsuldan geniş surətdə bəhrələnmişdir[1]. Xətai "Divan"ının tədqiqi əsasında S.Əliyarlı belə bir nəticəyə gəlmişdir ki, Şah İsmayıl hakimiyyətə gəldikdən sonra özünü imamın təcəllası kimi təqdim etməyə çalışırdı[2].

Səfəvi şahı həm də Səfəviyyə təriqətinin mürşid-i kamili, qızılbaş döyüşçüləri isə onun müridləri hesab olunurdular. Digər sufi təriqətlərində olduğu kimi, Səfəviyyə təriqətində də hələ lap əvvəldən qəbul edilmiş normalara əsasən sufilər, müridlər öz mürşidlərinə sözsüz və qeyd-şərtsiz tabe olmalı, onun göstərişlərini müzakirə etməməli idilər[3]. Buna görə də Səfəvi şahının əmrlərini yerinə yetirməmək və ona qarşı çıxmaq "nasufilik" və "küfr" hesab olunur və ölümlə cəzalandırılırdı[4]. Qızılbaş əmirləri Qara Piri bəyin və Danə Məhəmməd bəyin "Aləmara"da əksini tapmış çıxışlarından aydın olur ki, qızılbaşlar arasında İsmayılın müqəddəsliyinə fanatik bir inam mövcud idi və onlar onun yolunda ölümə atılmağı özlərinə şərəf bilirdilər[5]. Şahın tərəfdarları öz mürşidlərinin qeyri-adi bir mənəvi qüdrət sahibi olduğuna inanır və ona səcdə edirdilər: *"[Şah İsmayılın] kəramətini müşahidə edən sufilərin hamısı səcdəyə düşdülər və dedilər: Həqiqətən də, o, Mürtəza Əli Əleyhissəlamın övladıdır. Mürşid belə olsun gərək!"*[6].

Qızılbaşlar hətta Həzrət Əlinin Şah İsmayılda təcəlla etdiyini düşünürdülər. "Aləmara" müəllifinin etirafına əsasən, Çaldıran döyüşünə qədər İsmayılın ardıcıl qələbələr qazanması və bütün döyüşlərdə fəal iştirak etməsinə baxmayaraq, bir dəfə də olsun yaralanmaması ona gətirib çıxarmışdı ki, *"qızılbaş*

---

[1] Şah Təhmasibin təzkirəsi, s.29-30.

[2] S.Əliyarov. Azərbaycanda bidətçilik hərəkatına dair ədəbi mənbələrin araşdırılması təcrübəsindən // Azərbaycan filologiyası məsələləri. I buraxılış. Bakı, 1983, s.185-186.

[3] Qara məcmuə (Tehran), s.72-73,113-114; O.Əfəndiyev, N.Musalı. Şeyx Səfiəddin Ərdəbillinin yeni nəşr edilmiş "Qara məcmuə" əsəri haqqında // "Elm" qəzeti, 17.07.2002, s.5.

[4] Aləmara (Sahib), s.107,202,341; Aləmara (Şükri), s.86,113; История человечества, т.V, с.263.

[5] Aləmara (Sahib), s.55,351,525; Aləmara (Şükri), s.59-60,294-295,492; həmçinin bax: Travels of Venetians, p.206; Seyyahların gözüyle, s.214.

[6] Aləmara (Sahib), s.107; Aləmara (Məclis kitabxanası – 761), v.27b.

*camaatı yoldan azmağa yaxın idi və həmişə deyərdilər ki, “hami özüdür”, yəni Mürtəza Əli Əleyhissəlam odur ki, gəlmişdir”*[1]. Bu məlumatı İsgəndər bəy Münşi də təsdiq edir: “Əgər Çaldıran döyüşündə də o həzrət zəfər qazansaydı, onda belə bir təhlükə vardı ki, qızılbaş tayfalarının sadəlövhlərinin o həzrətin şanı barəsindəki əqidəsi və inancı elə bir həddə çatardı ki, onların etiqad ayağı din və imanın doğru yolundan azıb, onları səhv gümanlara doğru aparardı”[2]. İtaliyalı Dr. Rota 1508-ci ildə Hələbdən raport verirdi ki, İsmayıl “öz saray adamları və təbəələri tərəfindən peyğəmbər kimi qəbul edilir”[3]. Ağqoyunlu Sultan Yaqubun saray tarixçisi Xunci hələ onun babası Cüneydin və atası Heydərin müridlər tərəfindən ilahi müqəddəslər kimi tanındığını yazmışdır[4]. Azərbaycana səyahət etmiş bir venesiyalı tacirə görə, İsmayıl öz xalqı, xüsusən də əsgərləri tərəfindən sevilir və ilahiləşdirilirdi, amma onun özü “Tanrı və ya peyğəmbər adlandırılmasından heç də xoşlanmırdı”[5]. Lakin Çaldıran vuruşmasının ardından vəziyyət dəyişdi: “Sufi qızılbaşların pərəstişkarlıq həvəsi Çaldıran məğlubiyyətindən sonra sovuşdu. Buna baxmayaraq, mütləq avtokratiya vəziyyəti Səfəvi şahlarında mürşid-i kamil rolunun mirası kimi qaldı”[6].

Səfəvilər dövlətinin banisi I Şah İsmayıl ata tərəfdən seyid olduqları söylənilən ərdəbilli türk şeyxlərinin nəslindən olmaqla və bu vasitə ilə hakimiyyət məsələsində “vilayət” prinsipini ortaya qoyaraq, özünün Həzrət Əlinin davamçısı olduğunu irəli sürməklə yanaşı, ana tərəfdən də Ağqoyunlu hökmdarı Uzun Həsənin nəvəsi idi və özünü həmin sülalənin qanuni va-

---

[1] Aləmara (Sahib), s.525; Aləmara (Şükri), s.492. Hətta çox sonralar belə Cənubi Azərbaycanın Maku bölgəsində yaşayan Əhl-i Həqq təriqətinə mənsub Qaraqoyunlu camaatı arasında Şah İsmayıl Həzrət Əlinin təcəllası hesab olunurdu: В.А.Гордлевский. Каракоюнлу // Избранные сочинения, т. III, Москва, 1962, с.405.
[2] Tarix-i aləmara-yi Abbasi (Bakı), s.117.
[3] V.Minorsky. The Middle East in the Western Politics in 13-th, 15-th and 17-th Centuries // JRAS, vol. 27, 1940, p.450.
[4] Тарих-и аламара-йи Амини, с.80.
[5] Travels of Venetians, p.206; Seyyahların gözüyle, s.215.
[6] A.Banani. Reflections on the Social and Economic Structure of Safavid Persia at its Zenith // Iranian Studies, vol. XI, 1978, p.85.

risi hesab edirdi[1]. Ağqoyunlu və Səfəvi sülalələri arasındakı hüquqi varislik prinsipləri o dövrün bir sıra mənbələrində öz əksini tapmışdır. “Aləmara”da Şah İsmayılın 1501-ci ildə hakimiyyətə gəlməsi ilə bağlı fəsil *“Şah İsmayılın Təbrizdə Həsən padşahın taxtına əyləşməsi”* kimi xarakterizə olunur[2]. İsmayıl Təbrizə daxil olduqdan sonra məhz babası Uzun Həsənin qızıl taxtına əyləşərək, özünü şah elan etmişdi. Bu aksiya heç də təsadüfi xarakter daşımırdı. İsmayıl bununla özünün Ağqoyunlu sülaləsinin hüquqi varisi olduğunu nümayiş etdirirdi. O, Uzun Həsənin varisi kimi hakimiyyətə gəldikdən sonra bütün Ağqoyunlu valilərinə məktub yazaraq, itaət tələb etmiş[3] və hərbi-siyasi vasitələrlə 1508-ci ilədək bütün Ağqoyunlu ərazilərini öz hakimiyyəti altına ala bilmişdi.

Əsərdə Şah İsmayılın öz dilindən onun hakimiyyəti aşağıdakı kimi səciyyələndirilir: *“Bu gün dövlət Həsən padşahın xanədanından alınıb və onun qızının oğluna keçib… Və mən, Allahın və əlahəzrət məsum imamların tərəfindən rüxsət almışam ki, cahanı zülm və tüğyan əhlinin vücudundan pak edim və Allahın vəlisi olan Əlinin doğru dininə rəvac verim”*[4]. Şah İsmayılın bu sözlərindən də aydın olur ki, Səfəvi şahının hakimiyyəti iki təməl prinsipə söykənirdi: Ağqoyunlu padşahları ilə qohumluq əlaqələri və peyğəmbər nəslinin davamçısı olmaq iddiaları. Səfəvi hökmdarı özünün iqtisadi siyasətində Həsən padşahın qanunlarından bəhrələnirdi[5].

Şah İsmayıl beynəlxalq münasibətlər sistemində də Uzun Həsənin qanuni varisi kimi çıxış edirdi. O, qonşu dövlətlərlə ərazi mübahisələri zamanı öz mövqeyini əsaslandırmaqdan ötrü bu arqumentdən geniş surətdə faydalanırdı. Məsələn, Şah İsmayıl Sultan Səlimin Çaldıran döyüşündən öncə Ağqoyunluların doğma diyarı və keçmiş paytaxtı Diyarbəkrə olan

---

[1] The Cambridge History of Iran, vol. VI, p.339,341; О.А.Эфендиев. Азербайджанское государство Сефевидов, с.36.

[2] Aləmara (Sahib), s.59-60; Aləmara (Şükri), s.63.

[3] Aləmara (Sahib), s.61; Aləmara (Şükri), s.65.

[4] Aləmara (Sahib), s.201; Aləmara (Şükri), s.111.

[5] Aləmara (Sahib), s.95; Aləmara (Məclis kitabxanası – 761), v.24b; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.100.

iddialarının əsassızlığını və həmin bölgənin vaxtı ikən Uzun Həsənə məxsus olduğunu irəli sürərək, oraya Sultan Səlimin deyil, məhz özünün haqqı çatdığını bildirir və cavabını bu cür tamamlayır: *"Sizin hüququnuz çatmır ki, zati-alilərimizlə Həsən padşahın vilayətinin davasını edəsiniz"*[1]. Həmçinin o da məlumdur ki, Şeybani xanın keçmiş Ağqoyunlu ərazisi olan Kirman bölgəsinə hücumunu pisləyən məktubunda Şah İsmayıl Kirmanın "öz irsi torpaqlarının bir hissəsi olduğunu" qeyd edirdi[2]. Öz növbəsində Şeybani xan məktubunda Şah İsmayılı "tərəkəmə Ağqoyunlularla qohumluq əlaqələrinə arxalanaraq hakimiyyət iddiasına düşməkdə" ittiham edirdi[3].

Bizim mənbədə göstərilir ki, Səfəvi sarayında xarici dövlətlərin elçilərinin rəsmi qəbulu zamanı Şah İsmayılın Uzun Həsənin padşahlıq taxtına *("təxt-i padişahi-yi Həsən padişah")* əyləşərək, əcnəbi qonaqları qəbul etməsi mühüm protokol qaydalarından hesab edilirdi[4]. Bununla Şah İsmayıl xarici dövlətlərin nəzərinə özünün Uzun Həsənin varisi olduğunu çatdırmaq istəyirdi. Əsərdən həm də aydın olur ki, bir sıra digər sülalələrin və qonşu dövlətlərin nümayəndələri Şah İsmayılı Ağqoyunlu dövlətinin qanuni varisi kimi qəbul edirdilər. Bu baxımdan zülqədər tayfasının başçısı, Mərəş və Əlbistan hökmdarı Əlaüddövlə Bozqurdun Şah İsmayıla göndərdiyi məktub diqqəti xüsusilə cəlb edir: *"Eşitmişik mərdlikdən və mərdanəlikdən bir paya sahibsən və xüruc etmək iradəsi göstərib, İranı Həsən padşahın övladlarından almışsan. Lakin sən biganə (yad) deyilsən və elə həmin sülalədənsən"*[5].

Beləliklə, mənbədən aşkar olur ki, Şah İsmayıl bütün fəaliyyəti ərzində özünü babası Uzun Həsənin hüquqi varisi hesab etmiş və onun hakimiyyətinin legitimliyinin təmin olunmasında bu faktor heç də az rol oynamamışdı. "Aləmara"nın bu

---

[1] Aləmara (Sahib), s.512; Aləmara (Şükri), s.473. Şah İsmayıl hələ 1508-ci ildə II Bayəzidə göndərdiyi bir məktubda özünü "Ağqoyunluların qanuni varisi saydığını" açıqlamışdı: R.Kılıç. Kanunî devri, s.46.

[2] M.N.Şeybani. Cəng-i Şah İsmail-i Səfəvi ba ozbəkan // Bərrəsiha-yi tarixi, II/2, 1346, s.48-49.

[3] M.Abbaslı. Şah İsmayıl Xətainin ömür yolu miniatürlərdə. Bakı, 1981, s.5.

[4] Aləmara (Sahib), s.146; Aləmara (Məclis kitabxanası – 761), v.37b.

[5] Aləmara (Sahib), s.200; Aləmara (Şükri), s.110.

faktları ilə səsləşən informasiyalara Şah İsmayılın sarayında olmuş Venesiya elçisi K.Laskarinin raportunda və digər mənbələrdə də rast gəlmək mümkündür[1].

Bizim anonim müəllifin öz əsərində Səfəviləri Ağqoyunluların varisi kimi təqdim etməsi isə onu göstərir ki, Səfəvi dövlətinin sıravi təbəələri hətta XVII əsrin ikinci yarısında da bu dövləti Ağqoyunlu dövlətinin bir davamı hesab edirdilər. Bu isə Səfəvilərlə onlardan əvvəlki türk sülalələri arasındakı varislik münasibətlərini inkar edən müasir İran tarixşünaslığındakı konsepsiyanın[2] kökündən yanlış olduğunu sübut edir. Əslində, Səfəvilərin hakimiyyəti İranda Səlcuqlardan Qacarlaradək sürmüş türk hegemonluğunun mühüm bir parçasını təşkil etmişdir. Səfəvilər özlərini Ağqoyunlular vasitəsilə özlərindən əvvəlki türk sülalələrinin varisi hesab edirdilər[3]. "Aləmara"da və digər mənbələrdə Şah İsmayıl dəfələrlə qədim türk hökmdarlarına məxsus olan "xaqan" titulu ilə anılmaqdadır[4].

### *C) Hakimiyyət iyerarxiyası*

**Vəkil** – I Şah İsmayıl zamanında idarəçilik sistemində şahdan sonra ikinci vəzifə hesab olunurdu və mənbələrdə tam formasında "vəkil-i nəfs-i nəfis-i hümayun" ("hökmdarın nəfis

---

[1] Я.М.Махмудов. Взаимоотношения, с.124; А.Даврижеци. Книга историй. Москва, 1973, с.444; З.Канакерци. Хроника. Москва, 1969, с.37; Rövzətüs-Səfəviyyə, s.96; Tarix-i Şah İsmayıl və Şah Təhmasib, v.26a. Osmanlı tarixçisi Gelibolulu Ali Əfəndi, Şah İsmayılın ata tərəfdən seyid, ana tərəfdən isə Ağqoyunlu sülaləsinə mənsub olduğu üçün həm şahlıq, həm də mürşidlik iddiasına düşdüyünü yazır: R.Yildirim. Turkomans, p.501.

[2] Bu barədə bax: О.А.Эфендиев. К освещению некоторых вопросов истории Сефевидов в современной иранской историографии // Против буржуазных фальсификаторов истории и культуры Азербайджана (сборник статей). Баку, 1978, с.126.

[3] N.S.Musalı. Tarixşünaslıqda Səfəvi sülaləsi hakimiyyətinin hüquqi əsaslarına münasibət məsələsinə dair // AMEA: Gənc alimlərin (aspirantların) materialları. Bakı, 2003, s.180-183; N.S.Musalı. Ağqoyunlu və Səfəvi xanədanları arasındakı hüquqi varislik məsələsi "Tarix-i aləmara-yi Şah İsmayıl" əsərinin məlumatları əsasında // AMEA aspirantlarının elmi konfransının materialları. Bakı, 2004, s.230-232.

[4] Aləmara (Sahib), s.76,132; Aləmara (Şükri), s.3,74; Tarix-i aləmara-yi Abbasi (Bakı nəşri), s.13,33,69,70,72 və s.

zatının vəkili") deyə qeyd edilirdi[1]. "Aləmara"da vəkil *"kama çatmış hökmdarın (nəvvab-i kamyabın) və mürşid-i kamilin canişini"* kimi xarakterizə edilir[2]. Buradan aydın olur ki, vəkil vəzifəsini tutan şəxs həm dünyəvi, həm də dini cəhətdən hökmdarın köməkçisi hesab edilirdi. Əvvəlcə bu vəzifəni Şah İsmayılın lələsi Hüseyn bəy Şamlu tutsa da, 1507-ci ildə onun əvəzinə Əmir Nəcm Rəşti vəkil postuna təyin edildi. Bizim müəllif əvvəllər zərgər olmuş bu şəxsin *"ulu dərgaha yaxın adam"* olduğunu vurğulayır[3]. O, hələ İsmayılın *"xürucunun lap əvvəlindən onun xidmətində olub, canfəşanlıq etmişdi".* "Aləmara"da Şeybani xanın Xorasanı fəth edib Səfəviləri hədələdiyi, Teymuri şahzadələrinin Azərbaycana sığındığı vaxtlardan danışılarkən qeyd olunur ki, şah düşərgəsi ilə birlikdə Təbrizdə ikən *"Əmir Nəcm öz canını haqqa təslim etdi və cənnət bağına köçdü". "Təbriz alimləri və fazilləri"* tərəfindən namaz və qüsl mərasimi həyata keçiriləndən sonra onun cəsədi Şah İsmayılın əmri ilə Nəcəfə aparılaraq, orada dəfn olundu[4]. Onun övladı qalmadığından Şah İsmayıl Rəis Yar Əhməd Xuzanini *"mütləq vəkillik əmrinə sərəfraz edib buyurdu ki, bununla yanaşı, Əmir Nəcm Zərgərin adının zati-alilərimizin xatirindən silinib getməməsi üçün bundan sonra Rəis Yar Əhmədi "Nəcm-i Sani" (ikinci Nəcm – N.M.) adlandırsınlar"*[5]. Yar Əhməd Xuzani hələ 1503-cü ildə İsfahanın alınması zamanı Şah İsmayılla tanış olmuş və onun ordusuna *"12 min batman taxıl peşkəş etmişdi"*[6]. Şahın rəğbətini qazanan Yar Əhməd bir qədər sonra "nazir-i büyutat", daha sonra "mustovfi-yi məmalik" vəzifələrinə təyin olunmuş, Nəcm Rəştinin ölümündən sonra isə vəkil mənsəbinə yüksəldilmişdi. Mənbədə Əmir Nəcm-i Saninin vəkil kimi *"bütün mülki və maliyyə məsələlərini"* həll etməyə məsul oldu-

---

[1] R.M.Savory. The Principial Offices of the Safavid State during the Reign of Ismail I // BSOAS, vol. 23, 1960, p.94.
[2] Aləmara (Sahib), s.317; Aləmara (Şükri), s.293.
[3] Aləmara (Sahib), s.117-118; Aləmara (Məclis kitabxanası – 761), v.30a-b.
[4] Aləmara (Sahib), s.314-315; Aləmara (Şükri), s.305. Xandəmirin məlumatına görə, Əmir Nəcm 915 / 1509-cu ildə Təbriz – Xoy yolunda sətəlcəm xəstəliyindən vəfat etmişdi: Həbibüs-siyər, s.500.
[5] Aləmara (Sahib), s.315; Aləmara (Şükri), s.305.
[6] Aləmara (Sahib), s.101; Aləmara (Məclis kitabxanası – 761), v.26b.

ğu və *"vəkalət möhürünü boynundan asdığı"* göstərilir[1]. Lakin onun 1512-ci ildə Orta Asiyaya yürüş edən qızılbaş ordusuna komandan təyin edilməsi faciəvi sonluqla bitdi. Hərbi işdən başı çıxmayan Nəcm-i Saninin səriştəsizliyi üzündən qızılbaş ordusu ağır məğlubiyyətə uğradı, onun özü isə özbək sərkərdəsi Übeydulla xan tərəfindən əsir tutulub edam edildi[2]. Ümumiyyətlə, Nəcm-i Saniyə vəkil vəzifəsinin tapşırılmasını Şah İsmayılın kadr siyasətinin ən uğursuz təyinatı hesab etmək mümkündür.

Bunun ardınca Nemətullahi təriqətinin şeyxi, hələ 1504-cü ildə Rəis Məhəmməd Kərrənin qiyamı zamanı şahla yaxın əlaqələr qurmuş məşhur seyid Əmir Əbdülbaqi vəkil vəzifəsinə irəli çəkildi. "Aləmara"da "etimadüddövlə" ("dövlətin etimadlı adamı") titulu ilə xatırlanan bu şəxs 1514-cü ildə Osmanlılara qarşı Çaldıran döyüşündə həlak olmuşdur[3]. Onun ölümündən sonra bu posta təyinat almış Mirzə Şah-Hüseyn İsfahani öz sələflərindən fərqli olaraq, bu vəzifədə nisbətən uzun müddət qaldı. Vəkilin bəzi hallarda hərbi səfərlərdə iştirakçı olduğunu görsək də, onun funksiyası əsasən mülki məsələlərlə məhdudlaşırdı[4]. Vəkil şahın göstərişi ilə xarici dövlətlərlə diplomatik yazışmalar aparırdı: Mirzə Şah-Hüseyn Şah İsmayılın əmrinə əsasən Bəlx və Qəndəhar insidentlərinə görə Babur şaha etiraz notası göndərmişdi[5]. Dövlət büdcəsinə, xəzinəyə nəzarət də vəkilin funksiyalarına daxil idi. O, sərbəst surətdə xəzinədən dövlət işləri üçün vəsaitlər xərcləyir, lakin bu xərclərin təyinatı barədə vaxtaşırı şah qarşısında hesabat verirdi. Məsələn, Mirzə Şah-Hüseyn xəzinədən xərclədiyi 50 min tümən məbləğində pulun haraya sərf edildiyini göstərən "tumar" adlı

---

[1] Aləmara (Sahib), s.386; Aləmara (Şükri), s.333

[2] Aləmara (Sahib), s.440; Aləmara (Şükri), s.388.

[3] Aləmara (Sahib), s.526; Aləmara (Şükri), s.493; О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.253.

[4] Xüsusən də Mirzə Şah-Hüseynin vəkilliyi mülki işlər çərçivəsindən kənara çıxmır və hərbi məsələlərə müdaxil olmurdu. Onun xələfi olan Xoca Cəlaləddin Cahanşahi mənbələrdə daha çox baş vəzir, ali divanın böyük vəziri (vəzir-i əzəm-i divan-i ali) kimi xatırlanır: Aləmara (Sahib), s.621,626; Aləmara (Şükri), s.589,597; Tarix-i aləmara-yi Abbasi (Bakı), s.338.

[5] Aləmara (Sahib), s.600; Aləmara (Şükri), s.579.

sənədləri şaha təqdim etmişdi. Bundan əlavə, vəkil saray məmurlarının korrupsiyaya qurşanmaması üçün daim onların gəlir-çıxarlarını nəzarətdə saxlayır və şaha hesabat verirdi[1].

Xeyli müddət vəkil vəzifəsini tutması nəticəsində Mirzə Şah-Hüseynin nüfuzunun artması qızılbaşların qəzəbinə tuş gəldi və o, korrupsiyada ittiham etdiyi mehtərbaşı Şahqulunun başçılıq etdiyi bir qrup qızılbaş tərəfindən 28 cəmadiyüləvvəl 929 / 15 aprel 1523-cü ildə Təbrizdəki şah sarayının həyətində tikə-tikə doğranaraq öldürüldü[2]. R.Seyvori əslində bu qətlin arxasında məşhur qızılbaş sərkərdəsi Durmuş xan Şamlunun əlinin olduğunu göstərmişdir[3]. "Aləmara" müəllifi yazır ki, Mirzə Şah-Hüseyn türkmanlarla düşmənçilik etməkdən həmişə çəkinər və onlardan qorxardı. Amma axırda qorxduğu iş başına gəlmiş və bu, onun ölümü ilə nəticələnmişdi. Maraqlıdır ki, Şah İsmayıl Mirzə Şah-Hüseynin vəzifəsini onun böyük oğluna vermək istəsə də, həmin adam şahın ayaqlarına düşərək yalvarmış, bu vəzifənin ona verilməməsini xahiş etmişdi: *"Təklif etdiyiniz mənsəb bu qulamınıza uyğun deyildir. Mən bu vəzifənin öhdəsindən gələ bilmərəm. Səbəbi budur ki, əgər şahın tərəfini saxlayaraq sədaqət göstərsəm və divan malını ağılla idarə etsəm, o zaman qızılbaşlar mənimlə düşmənçilik edəcəklər və atama etdiklərini mənə də edəcəklər. Yox, əgər divan malına qarşı laqeydlik etsəm və qızılbaşların tərəfini saxlasam, o zaman öz vəlinemətimə nankor çıxmış olacağam. Yaxşısı budur ki, mən bir kənara çəkilib, şərəfli hökmdarın başının sədəqəsi olaraq mənə verdiyi bir tikə çörəyi yeyim və aləmin pənahı olan şahın ömrünün uzun və müqəddəs zatının sağlam olması üçün dua edim"*[4]. Bu məlumat artıq Şah İsmayılın hakimiyyətinin sonunda mərkəzi dövlət aparatının mənafeləri ilə yüksək qızılbaş əmirlərinin mərkəzdənqaçma meylləri arasındakı ziddiyyətin özünü aydın şəkildə büruzə verdiyini göstərir.

---

[1] Aləmara (Sahib), s.618; Aləmara (Şükri), s.595.
[2] Aləmara (Sahib), s.620; Aləmara (Şükri), s.596; Həbibüs-siyər, s.596-597.
[3] R.M.Savory. Iran under the Safavids, p.48.
[4] Aləmara (Sahib), s.621; Aləmara (Şükri), s.597.

Mirzə Şah-Hüseynin ölümündən sonra onun yerinə təyin edilmiş Xoca Cəlaləddin Cahanşahinin fəaliyyəti Şah İsmayılın vəfatının ardından onun oğlu I Təhmasibin qəyyumuna çevrilmiş Div sultan Rumlunun xoşuna gəlməmiş və xoca tonqalda yandırılmışdı[1].

Səfəvi dövlət aparatındakı vəzifələri, şərti olaraq, hərbi, mülki və dini vəzifələr deyə üç qrupa ayırmaq mümkündür.

**Əmirülümәra** – ən yüksək hərbi vəzifə hesab olunurdu. "Aləmara"da bu terminlə yanaşı, I Şah Abbas zamanından ortaya atılmış "sipəhsalar" istilahından da geniş istifadə edilir. Bu vəzifə hələ Ağqoyunlu dövlətində də vardı. Məsələn, Aybə sultan Baysunqurun və Rüstəm padşahın zamanında əmirülümәra və ya sipəhsalar vəzifəsini tuturdu[2]. Requlyar ordunun olmadığı və qoşunun müharibə vaxtı qızılbaş tayfa əmirlərinin silahlı dəstələrindən təşkil edildiyi ilk Səfəvilər dövründə əmirülümәra, yəni "əmirlər əmiri" mahiyyətcə Səfəvi qoşunlarının baş komandanı idi[3]. 1501-09-cu illərdə bu vəzifəni icra edən Hüseyn bəy Lələ "Aləmara"da *"zəfər dəstgahlı qızılbaş ordusunun sərdarı"* kimi xarakterizə edilir[4]. 1509-23-cü illərdə bu mənsəbi Çayan sultan ləqəbi ilə tanınan Məhəmməd bəy Ustaclu, 1523-24-cü ildə isə onun oğlu Bayəzid sultan tutmuşdur. Şah Təhmasib taxta çıxdıqdan sonra isə onun qəyyumu olan Div sultan Rumlu həm sipəhsalar, həm də vəkil vəzifələri-

---

[1] Aləmara (Sahib), s.626; Aləmara (Məclis kitabxanası – 761), v.162b. Görünür, Şah İsmayılın hakimiyyətinin sonunda, Mirzə Şah-Hüseynin ölümündən sonra iki vəkil mövcud idi. Şah İsmayıl, 1523-cü ildə əmirülümәra Çayan sultanın vəfatından sonra onun oğlu Bayəzid sultan Ustaclunu həm vəkil, həm də əmirülümәra təyin etmişdi. Onun 1524-cü ildə ölümündən sonra isə bu vəzifələr Şah İsmayıl tərəfindən Div sultan Rumluya verilmişdi: Cahangüşa-yi xaqan, s.607; Xülasətüt-təvarix, s.153; Aləmara (Sahib), s.623; Aləmara (Şükri), s.599. Yəqin ki, Xoca Cəlaləddin Cahanşahi mülki və maliyyə işləri, Bayəzid sultan, daha sonra Div sultan isə hərbi-siyasi işlər üzrə şahın vəkili olmuşlar.

[2] Aləmara (Sahib), s.29; Aləmara (Şükri), s.33.

[3] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.254.

[4] Aləmara (Sahib), s.72; Aləmara (Məclis kitabxanası – 761), v.19a.

ni həyata keçirirdi[1]. Özünü yaxşı tərəfdən göstərməyə nail olmuş Div sultanı Şah İsmayıl əvvəlcə *“özünə vəkil-i nəfs-i hümayun təyin etmişdi”. “Şah, Div sultanı külli İranin və Turanın sipəhsaları təyin etmişdi və ona vəkalət mənsəbini vermişdi”.* Daha sonra isə İsmayıl öz ölümü ərəfəsində Div sultanın Şah Təhmasibin də vəkili olacağı haqqında qərarını açıqlamışdı[2].

Əmirülümərа ilə yanaşı “Aləmara”da *“ümərа-yi əzəm”* (“böyük əmirlər”) və *“ümərа-yi namdar”* (“adlı-sanlı əmirlər”) adlandırılan əmirlər qrupu xüsusilə fərqləndirilir. Hətta şah bir sıra mühüm tədbirlər və hərbi əməliyyatlar ərəfəsində onlarla məsləhətləşirdi. Bu məşvərət *“canəqi”* və ya *“kənkaş”* adlandırılırdı. Məşvərət zamanı şah əmirlərin fikirlərini dinləyir və sonda öz yekun qərarını açıqlayırdı[3]. “Aləmara” nüsxələrindən birində Təbriz şəhərində şahın öz yaxın çevrəsi ilə birlikdə *“divan-i yaran”* (“dostlar məclisi”) adlanan toplantı tərtib etdiyi və burada daxili və xarici siyasət məsələlərinin müzakirə olunduğu qeyd edilmişdir[4].

Bundan əlavə, sərhədləri qorumağa təhkim olunmuş *“ümərа-yi sərhəd”* və ya *“sərhəddarlar”* da vardı[5]. Səfəvilər dövründə əmir vəzifəsi əsasən Azərbaycan hərbçi qızılbaş əyanlarına verilir, mülki işlərdə çalışan şəxslər isə adətən bu vəzifəyə layiq görülmürdülər[6]. “Aləmara”da əmirliyin mühüm atributu kimi *“ələm və təbil sahibi”* olmaq göstərilir[7]. Əmirlərə şahın fərmanı ilə “ölkə”, “tiyul” adlanan torpaq sahələri və xan, sultan, bəy rütbələri verilirdi. “Ölkə” və ya “tiyul” almış, həmin yerin bəylərbəyisinə və ya hakiminə çevrilmiş əmirlər dövlət xəzinəsinə vergi verir və “çerik” adlanan tayfa qoşunu saxlayırdılar. Müharibə vaxtı onlar şahın yazılı göstərişindən sonra öz qoşunları ilə gəlib yürüşlərdə iştirak edirdilər. Məsələn, “Aləmara”da qeyd olunur: *“Şah İsmayıl buyurdu ki, ustaclu və*

---

[1] Aləmara (Sahib), s.623; Aləmara (Şükri), s.599; O.A.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.254.
[2] Aləmara (Şükri), s.417; Aləmara (Məclis kitabxanası – 9421), v.165a.
[3] Aləmara (Sahib), s.60,520; Aləmara (Şükri), s.64,484.
[4] Aləmara (Məclis kitabxanası – 9421), v.130b.
[5] Aləmara (Sahib), s.240,246; Aləmara (Şükri), s.138,163.
[6] Ş.F.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə. Bakı, 1983, s.58.
[7] Aləmara (Sahib), s.489; Aləmara (Şükri), s.439.

*şamlu oymaqlarına, həmçinin Gəncəyə, Şirvana və Qarabağa məktublar göndərilsin ki, tərtibə salınmış qoşunlar cahanın pənahı olan dərgaha üz tutsunlar. Qısa müddət ərzində 15 minlik qoşun ulu dərgaha varid oldu"*[1].

A.P.Novoseltsev yazır: "İlk vaxtlar bütün əmirlər real mövqeyindən və rolundan asılı olmayaraq, bəy titulu daşıyırdılar. İsmayıl titulların müəyyən subordinasiya və ya iyerarxiyasını həyata keçirdi. Ən yüksək rütbə xan hesab olunur, ondan sonra isə sultanlar və bəylər gəlirdilər"[2]. "Aləmara"da sultan rütbəsinin bəy rütbəsindən üstün olduğu göstərilir. Belə ki, lurlara qarşı döyüşdə fərqlənmiş gənc qızılbaş hərbçisi Yaqub bəy Halvaçıoğluya sultan rütbəsi verilmiş[3], Məmlüklərlə sərhəd toqquşmasından qalib çıxmış Murad bəy Ustaclunun da rütbəsi *"sultanlıq mənsəbinə"* yüksəldilmişdi[4]. Eyni zamanda, sultan titulu daşıyan əmirlərin də rütbəsi yüksəldilərkən onlara xan titulu verilirdi. Məsələn, Məhəmməd xan Ustaclunun qardaşı Qaraxan əvvəlcə sultan rütbəsinə malik olsa da, sonradan göstərdiyi şücaətlər sayəsində xan tituluna layiq görülmüş və Qaraxan xan Ustaclu adlandırılmağa başlanmışdı[5]. Ş.Fərzəlibəylinin məlumatına görə, I Şah İsmayıl dövründə xan titulu sultan titulundan yüksək olsa da, bir elə üstünlük hiss olunmurdu və yalniz I Şah Təhmasib hakimiyyətindən etibarən xan titulunun sultandan üstünlüyü açıq-aşkar hiss edilməyə başlamışdı[6]. Bir qayda olaraq, bəyə sultan, sultana isə xan rütbəsi verilsə də, bəzən bu ardıcıllıq pozula da bilirdi. Məsələn, zülqədərlərə qarşı müharibədə şücaət göstərmiş sıravi ustaclu döyüşçüsü Kor Şahruxa Diyarbəkr valisi Məhəmməd xan Ustaclunun təqdimatı əsasında Şah İsmayıl tərəfindən, bəy titu-

---

[1] Aləmara (Sahib), s.66; Aləmara (Şükri), s.71.
[2] История Востока в шести томах, т. III, Москва, 1999, с.102.
[3] Aləmara (Sahib), s.174; Aləmara (Məclis kitabxanası – 761), v.45a.
[4] Aləmara (Sahib), s.239; Aləmara (Şükri), s.159.
[5] Aləmara (Şükri), s.122,139; Aləmara (Məclis kitabxanası – 9421), v.6a, 15a.
[6] Ş.F.Fərzəliyev. XV-XVI əsrlərdə Azərbaycanda işlədilən bəzi ad, ləqəb və titulların etimologiyası haqqında // Azərbaycan SSR EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1977, № 3, s.83.

luna malik olmadan, birbaşa sultan rütbəsi verilmişdi[1]. Öz tayfadaşlarından ibarət qoşun dəstələri saxlayıb əyalətlərdə hakimlik edən qızılbaş əmirləri müharibə zamanı öz qüvvələri ilə birlikdə əmirülüməranın sərəncamı altına toplaşırdılar.

**Əmir-i divan** (divan əmiri) - əmirlər divanının başçısı və ya müasir dillə desək, ordunun baş qərargahının rəisi hesab olunurdu. O, baş komandan sayılan əmirülümərانın müavini idi[2]. Şah İsmayılın hakimiyyətinin ilk illərində bu vəzifəni Bayram bəy Qaramanlu icra edirdi[3].

**Qorçubaşı** – şahın şəxsi qvardiyasının komandanı sayılırdı. Bu vəzifəni əvvəlcə Abdal bəy Dədə tutmuş, 915 / 1509-10-cu ildə onun əvəzinə Yegan bəy Təkəlü, 1512-ci ildə isə Sarı Pirə Ustaclu təyin edilmiş, bu sonuncunun Çaldıran döyüşündə həlak olmasından sonra həmin post Yaraş bəy Ustacluya verilmişdi[4]. Qorçubaşıya tabe olub, müxtəlif qızılbaş tayfalarını təmsil edən döyüşçülər "qorçu" adlanırdılar. K.M.Rohrborn "qorçu" istilahının əsasını təşkil edən "qor" sözünü silah mənasında izah etmiş, XVII əsrin italiyalı səyyahı Pyetro della-Valle isə "qorçu"nun türkcə "görmək" felindən yarandığını iddia etmişdir[5]. Lakin H.Zərinəzadə bu sözün türkcə "qoruyucu" mənası verdiyini göstərmişdir[6]. Biz də onun fikrinə şərik oluruq. Çünki "Aləmara"da bu terminin "qoruqçu" formasına da rast gəlirik[7]. Qorçular şah xəzinəsindən məvacib alırdılar. "Aləmara"da göstərilir ki, Şah İsmayıl Taclı bəyimlə evlənməsi münasibətilə qorçulara ikiqat artıq məvacib vermişdi[8]. Onlar hərbi səfərlər zamanı şahı müşayiət edir və döyüşlərdə fəal iştirakçı olurdular. Qorçubaşı Abdal bəy Dədə 1500 qorçu ilə

---

[1] Aləmara (Sahib), s.231; Aləmara (Məclis kitabxanası – 761), v.60a.
[2] R.Şükürova. Əbu-Bəkr Tehrani və onun "Kitab-i Diyarbəkriyyə" əsəri. İstanbul, 2006, s.83-84.
[3] Aləmara (Sahib), s.127; Aləmara (Məclis kitabxanası – 761), v.32b; Xülasətüt-təvarix, s.83.
[4] M.Haneda. The Evolution of the Safavid Royal Guard // Iranian Studies, XXII/2-3, 1989, p.70.
[5] M.Haneda. The Evolution of the Safavid Royal Guard, p.60-62.
[6] H.H.Zərinəzadə. Fars dilində Azərbaycan sözləri (Səfəvilər dövrü). Bakı, 1962, s.225.
[7] Aləmara (Şükri), s.168.
[8] Aləmara (Sahib), s.82; Aləmara (Məclis kitabxanası – 761), v.21b.

bərabər Firuzkuh qalasının alınmasında, qorçubaşı Sarı Pirə Ustaclu isə 5 min qorçu ilə Çaldıran vuruşmasında ön cərgədə mübarizə aparmışdı[1]. Çətin anlarda qorçular şah sarayını müdafiə edirdilər: 1502-ci ildə Əlvəndin Təbrizə soxulması zamanı 300 qorçu sarayı cəsarətlə qorumuşdu[2]. Bəzən hökmdar qorçular vasitəsilə öz əyalət hakimlərinə, kiçik bəyliklərin başçılarına məktublar və ya mühasirəyə alınmış düşmən qalalarının rəislərinə təslim olmaq barədə tələbnamələr göndərirdi[3].

**Sədr** – Səfəvi dövründə ən ali ruhani vəzifəsi idi. XVII əsr fransız səyyahı Şarden onu xristianlardakı "le grand pontife" (baş yepiskop) və Osmanlılardakı "müfti" vəzifələri ilə eyniləşdirir[4]. Mirzə Səmia yazır ki, "sədrə aid olan səlahiyyətlər şəriət hakimlərinin və ianələrə nəzarət edən şəxslərin təyin olunması, seyidlərə, üləmalara, müdərrislərə, şeyxülislamlara, pişnamazlara, qazılara, mütəvəllilərə, hafizlərə və müqəddəs türbələrin, mədrəsələrin, məscidlərin, məqbərələrin bütün digər xidmətçilərinə, vəqflərin vəzirlərinə, nəzarətçilərinə, mustovfilərinə və vəqf müəssisələrinin digər işçilərinə, katiblərə, qüslçülərə və həffarlara (qəbirqazanlara) rəhbərlik etməkdən" ibarət idi[5]. İlk sədr İsmayıla uşaq vaxtı müəllimlik etmiş, ona "Quran"ı, ərəb və fars dillərini öyrətmiş Mövlana Şəmsəddin Lahicani olmuş[6], 1504-cü ildə isə şah *"sədrlik mənsəbini Qazı Mir Məhəmməd Kaşiyə vermişdi"*[7]. O, 915 / 1509-10-cu ildə qanunsuz işlərdə ittiham edilib öldürüldükdən sonra bu vəzifəyə təyinat almış Mir Şərəfəddin Şirazi 1513-cü ildə Şah İsmayılın Xorasan yürüşündə onu müşayiət etmişdi. Çaldıran vuruşmasında bəzi əmirlər və din xadimləri ilə bərabər ordunun mərkəzində qərar tutan *"sədr-i islam Mir Seyid Şərəfəddin"* elə hə-

[1] Aləmara (Şükri), s.95,490.
[2] Aləmara (Şükri), s.68.
[3] Aləmara (Sahib), s.36,194; Aləmara (Şükri), s.41,121.
[4] V.Minorsky. "Tadhkirat al-muluk", p.111.
[5] Təzkirətül-müluk (Tehran), s.2.
[6] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.259.
[7] Aləmara (Sahib), s.132; Aləmara (Məclis kitabxanası – 761), v.34a.

min döyüşdəcə həlak olmuşdu[1]. Ondan sonra bu vəzifəni Azərbaycanın məşhur seyidlərindən Şihabəddin Abdulla Lalə[2] tutsa da, tezliklə onu Cəmaləddin Məhəmməd Astarabadi əvəz etdi və 931 / 1524-25-ci ildəki vəfatına qədər bu postda qaldı[3]. "Aləmara"dan aydın olur ki, sədr vəzifəsi Teymurilərdə də var idi və 1504-cü ildə Sultan Hüseyn Bayqara, Əmir Kəmaləddin Sədri elçi kimi Şah İsmayılın hüzuruna göndərmişdi[4].

Baş sədrdən əlavə, əyalət sədrləri də fəaliyyət göstərirdilər. "Aləmara"ya əsasən, şahzadə Təhmasibin lələsi qismində Herat hakimi təyin olunmuş Əmir xan Mosullu şahzadənin təbibi və müəllimi Əmir Məhəmməd Təbəsidən çoxlu məbləğdə rüşvət alaraq, onun Herat əyalətində sədr təyin edilməsinə yardımçı olacağını vəd etmiş, lakin həmin postu tutan Mir Məhəmməd ibn Yusifin atası vəkil Mirzə Şah-Hüseynin köhnə dostu olduğundan onu kənarlaşdırmaq mümkün olmamışdı. Buna görə də Mir Məhəmməd ibn Yusifə acığı tutan Əmir xan 1521-ci ildə Übeydulla xanın Herata hücümu zamanı sədrin guya özbəklərlə əlbir olmasına dair saxta sənədlər tərtib etdirərək, onu qətlə yetirdi. Əhvalatın mahiyyətindən xəbər tutan Şah İsmayıl Durmuş xan Şamlunu Herata hakim təyin edərək, Əmir xanı həbs etdirdi, üç ay sonra o, həbsdə ikən vəfat etdi. Əmir xanın həbsdə ölməsi türkman tayfasının bəzi rəislərini qeyzləndirdi. Mehtərbaşı Şahqulu bəy öz tayfadaşlarını ətrafına toplayıb, bu işdə vəkil Mirzə Şah-Hüseyni ittiham etdi: *"Bu gün bir tacik türkmanlarla düşmənçilik edir və bizi öz mürşidimizin nəzərindən salır. Əgər Əmir xanın qanını bu tacikdən almasam, kişi deyiləm".* Nəinki türkmanlar, hətta təkəlü oymağı

---

[1] Aləmara (Sahib), s.411,478,526; Aləmara (Şükri), s.359,425,493. 1511-12-ci illərdə Mir Şərəfəddin İraqda olarkən sədr vəzifəsini müvəqqəti olaraq Əmir Əbdülbaqi Nemətullahi icra etmişdi: О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.259-260.

[2] Bizim mənbədə onun adı "Şeyx Şihabəddin" yazılmışdır: Aləmara (Sahib), s.411; Aləmara (Şükri), s.359.

[3] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.260.

[4] Aləmara (Sahib), s.140; Aləmara (Məclis kitabxanası – 761), v.35b. Səfəvi sarayında Əmir Kəmaləddinə "Elçibəy" deyə müraciət edirdilər.

da Şahqulu bəyi müdafiə etdi. Mirzə Şah-Hüseyn mehtərbaşını şahın hüzurunda faktlar əsasında korrupsiyada təqsirləndirib, onun vəzifədən kənarlaşdırılmasına nail olsa da, Şahqulu bəyin başçılıq etdiyi sui-qəsdçilər dəstəsi axırda fürsət tapıb, vəkili öldürə bildi[1].

Sədr vəzifəsi uğrunda hətta əyalətlərdə belə gərgin mübarizənin getməsi bu postun əhəmiyyətinin göstəricisidir. Şah tərəfindən təyin edilən əyalət sədrləri yerlərdə şiəliyi yaymaq, sədr olduqları əyalətdəki dini qulluqçuları təyin etmək və işdən çıxarmaq, əhalidən hər il xüms və zəkat vergilərini yığmaq kimi funksiyaları həyata keçirirdilər[2].

**Vəzir** və ya "vəzir-i əzəm-i divan-i ali" ("ali divanın böyük vəziri") – mülki administrasiyanın ənənəvi başçısı rolunda çıxış etsə də, Şah İsmayıl dövründə onun funksiyaları xeyli məhdud idi[3]. Belə bir vəziyyət vəkil postunun mövcudluğu ilə izah olunur. I İsmayıl zamanında vəzirlər divani maliyyə məsələlərindən savayı, məmləkətin digər işlərinə baş qoşa bilməzdilər[4]. "Aləmara"dan aydın olur ki, vəzir postunu eyni anda iki şəxs tuta bilərdi. Məsələn, Səfəvi dövləti yaranarkən Ağqoyunluların keçmiş vəziri, təbrizli Əmir Zəkəriyya Keçəçi vəzir təyin olunsa da, 1504-cü ildə *"Mahmudxan Deyləmi vəzirlikdə Əmir Zəkəriyyaya şərik edildi"*[5]. Vəzir vəzifəsini iki şəxs apararkən onların funksiyası məmləkətin əyalətləri arasında bölüşdürülürdü[6]. Baş vəzirlərlə yanaşı, əyalət vəzirləri də mövcud idi. Məsələn, Mirzə Şah-Hüseyn Çaldıran döyüşünə qədər

---

1 Aləmara (Sahib), s.612-620; Aləmara (Şükri), s.589-596.

2 T.Musəvi. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər. Bakı, 1977, s.20-21,64-65.

3 О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.256.

4 Ə.R.Kərimi. Vəzarət dər doure-yi Səfəviyyə // Məcəlle-yi Hokumət-i İslami, № 15, 1379, s.277-287.

5 Aləmara (Sahib), s.132; Aləmara (Məclis kitabxanası – 761), v.34a. Əvvəllər Ağqoyunlulara xidmət etmiş, sonra isə Azərbaycan Səfəvilər dövlətinin ilk vəziri olmuş və Şah İsmayıl tərəfindən "Azərbaycanın kilidi" adlandırılmış məşhur azərbaycanlı dövlət xadimi Əmir Zəkəriyya Təbrizi 918 / 1512-13-cü ildə Xorasanda vəfat etmiş və Məşhəd şəhərində basdırılmışdı: Lübbüt-təvarix, v.164b-165a.

6 Ş.F.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, s.55.

İsfahan hakimi Durmuş xan Şamlunun vəziri idi. Durmuş xan həm də eşikağasıbaşı olub sarayda yaşadığından Mirzə Şah-Hüseyn onun İsfahandakı gəlir-çıxarına nəzarət edirdi. O, vaxtaşırı olaraq Təbriz sarayına gəlib Durmuş xanla görüşür, ona hesabat verir və bölgənin gəlirlərindən ibarət "barxana" təqdim edirdi[1].

**Bəylərbəyi** – şah tərəfindən əyalətlərə təyin olunmuş hakimlərə verilən titul idi və bəzən bu vəzifə irsi xarakter daşıyırdı[2]. Bəylərbəyilər adətən qızılbaş tayfalarının əyanları içərisindən təyin edilirdilər. Z.Bayramov qeyd edir ki, Elxanilər və Teymurilər dövründə bəylərbəyi istilahı işlənsə də, Qaraqoyunlu, Ağqoyunlu sülalələrinin və Şah İsmayılın hakimiyyəti zamanında bu terminə təsadüf edilməmiş, yalnız Şah Təhmasibin hakimiyyətinin ilk dövrlərindən başlayaraq əyalət hakimləri yenə də bəylərbəyi adlandırılmışlar[3]. "Aləmara"da hakim termini ilə yanaşı, bəylərbəyi ünvanına da rast gəlirik. Məsələn, Şah İsmayıl Diyarbəkr bəylərbəyiliyini Məhəmməd xan Ustacluya[4], Bəlx bəylərbəyiliyini Div sultan Rumluya[5], Qarabağ bəylərbəyiliyini isə Rüstəm bəy Qacara vermişdi[6]. Bəylərbəyilər öz tayfadaşlarından ibarət hərbi qüvvə saxlayır və müharibə vaxtı şahın sərəncamına yollanırdılar. Bəylərbəyi birbaşa şaha tabe olmaqla hərbi sahədə digər mərkəzi hökumət məmurları ilə hesablaşmırdı. Hətta sipəhsalar bəylərbəyiyə tabe olan hərbi qüvvədən şahın göstərişi olmadan müharibə vaxtı da istifadə edə bilməzdi. Əyalətlərdə maliyyə işlərində tam sərbəst olan bəylərbəyilər birbaşa şah qarşısında məsul idilər və topladıqları vergilərin müəyyən bir qismini dövlət xəzinəsinə təhvil verirdilər[7]. Onlar öz daxili işlərində mərkəzi höku-

---

[1] Aləmara (Sahib), s.530; Aləmara (Şükri), s.501; Aləmara (Məclis kitabxanası – 9421), v.143b.
[2] Aləmara (Sahib), s.639.
[3] Z.H.Bayramov. Azərbaycan bəylərbəylikləri və onun statusu // Azərb. SSR EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1984, № 1, s.31.
[4] Aləmara (Sahib), s.244; Aləmara (Şükri), s.110.
[5] Aləmara (Sahib), s.476; Aləmara (Şükri), s.420.
[6] Aləmara (Sahib), s.170; Aləmara (Məclis kitabxanası – 761), v.44a.
[7] Z.H.Bayramov. Azərbaycan bəylərbəylikləri, s.32.

mətdən praktiki olaraq asılı deyildilər[1]. Bəylərbəyilər həm də hakimlik etdikləri əyalətin əmirülümərası hesab olunurdular[2]. Bəylərbəyilərin sərəncamında olan vilayətlər mahallara bölünürdü və bu mahalların da öz hakimləri olurdu. Şəhər rəhbərləri daruğa[3], qala hakimləri kutval[4], kənd və məhəllə icmasının başçıları kətxuda və ya rəis adlandırılırdılar[5].

**Lələ** – şahzadənin tərbiyəçisi hesab olunurdu. Şeyx Heydərin böyük oğlu Sultan Əli ölümü ərəfəsində öz lələsi Hüseyn bəy Şamlunu Səfəviyyə təriqətinin rəhbəri elan etdiyi kiçik qardaşı İsmayılın lələsi təyin etmiş, onun tərbiyəsi ilə bağlı bütün işləri Hüseyn bəyə tapşırmışdı[6]. Həqiqətən də, Hüseyn bəy Lələ azyaşlı İsmayılın Gilanda gizlədilməsində və o zamanlar hərəkatın idarə olunmasında mühüm rol oynamışdı. İsmayıl şah olduqdan sonra onu yüksək vəzifələrə irəli çəkmiş və bir çox hallarda onunla məsləhətləşməyi lazım bilmişdi.

Bəzən şahzadənin lələsi olan şəxs digər dövlət vəzifələrini də icra edirdi. Məsələn, möhürdar vəzifəsini daşıyan, Sarom xanla döyüşdə həlak olan Sarı ləqəbli qızılbaş əmiri həm də Şah İsmayılın qardaşı İbrahim mirzənin lələsi idi[7].

Digər türk dövlətlərində olduğu kimi, Səfəvilərdə də şahzadələrə müəyyən bölgələrin hakimliyini tapşırmaq geniş yayılmışdı. Şah İsmayıl qardaşı Süleyman mirzəyə Təbrizin hakimliyini versə də, həmin şahzadə Ərdəbildə yaşayır, Təbrizi isə onun adından lələsi Əhməd sultan Şamlu idarə edirdi və vergilərdən şahzadə üçün "ixracat" və "xərc-i büyutat" adlanan pay göndərirdi[8]. 1513-cü ilin sonlarında Şah İsmayıl Mərkəzi

---

[1] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.272.
[2] Aləmara (Sahib), s.190; Aləmara (Şükri), s.607.
[3] Aləmara (Sahib), s.92,149; Aləmara (Şükri), s.247,271.
[4] Aləmara (Sahib), s.54,115,132; Aləmara (Şükri), s.586,587.
[5] Aləmara (Sahib), s.98; Aləmara (Şükri), s.84.
[6] Aləmara (Sahib), s.33; Aləmara (Şükri), s.37.
[7] Aləmara (Şükri), s.104.
[8] Aləmara (Sahib), s.481; Aləmara (Şükri), s.427. Anonim venesiyalı tacir yazır ki, Şah İsmayıl Əlaüddövlə üzərinə yürüşdən qayıdarkən 1507-08-ci ilin qışını Xoyda keçirmiş və Novruz bayramından sonra Təbrizə gəlmişdi. "İsmayıl Təbrizə geri döndüyü zaman şəhərin məsuliyyətini həvalə etdiyi iki qardaşının onun əmrlərini tam yerinə yetirmədiklərini gördü... O, onları doğ-

Asiyada olarkən Hisar-i Şadman qalası ətrafında ov zamanı atının iki qabaq ayağı büdrəmiş və o, atdan daşın üstünə yıxılaraq, üç gün yataqda qalmalı olmuşdu. Şah ordusunda olan Mənuçöhr adlı bir qulam İsmayılın öldüyünü güman edərək, dərhal Azərbaycana yollanmış və Ərdəbilə gələrək, Süleyman mirzəyə Şah İsmayılın ölüm xəbərini gətirmişdi. Süleyman mirzə Ərdəbildə bəzi “qalmaqalçı cahillər”in, xüsusən də Qızıl Məhəmməd Türkmanın təhriki ilə şah olmaq həvəsinə düşmüş və qiyam qaldırmışdı. Maraqlıdır ki, onun lələsi nəinki bu tədbiri müdafiə etməmiş, hətta ona qarşı çıxmışdır. Təbriz ətrafındakı toqquşmada Süleyman şəxsən öz lələsini qətlə yetirsə də, sonradan onun dəstələri qorçubaşı Sarı Pirə Ustaclunun qardaşı Məntəş sultan tərəfindən darmadağın edildi və Süleyman mirzə Qızıl Məhəmmədlə bərabər qətlə yetirildi[1]. Orta Asiyadan qayıtmış Şah İsmayıl əvvəlcə qardaşının ölümünə qəzəblənərək, Məntəş sultanı həbsə alsa da, Çaldıran savaşı ərəfəsində onu yenidən azad etdi və o, yenə də “böyük əmirlər”in sırasına daxil oldu[2].

Herat şəhəri qızılbaşların əlinə keçdikdən sonra uzun müddət Səfəvi şahzadələrinin iqamətgahına çevrildi. 1515-ci ildə Şah İsmayıl Əmir xan Mosullunu öz oğlu Təhmasibin lələsi təyin etdi və onu şahzadə ilə birgə Herata göndərərək, Xo-

---

ma Ərdəbilə sürgün etdi və onların oradan kənara çıxmalarına qadağa qoydu. Onların hər birinə yalnızca 200 nəfərlik süvari dəstə verildi”: Travels of Venetians, 198; Seyyahların gözüyle, s.199. Bu qardaşlardan birinin Süleyman olduğu ehtimalı böyükdür. Bu hadisədən sonra, 1508-ci ilin iyun ayında Şah İsmayıl Təbrizdəki Xanəhməd bağının əvvəlki qaydada Süleyman mirzəyə məxsus olması haqqında fərman vermişdi: T.Musəvi. Orta əsr Azərbaycan tarixinə dair, s.53,101. Görünür, onun yaşayışını təmin etmək üçün “ixracat”ın bir hissəsi həmin bu Xanəhməd bağının gəlirlərindən təmin olunurdu. Süleyman mirzənin anasının adı Anaxatun idi və oğlunun qətlindən sonra da bu qadın Təbrizin gəlirindən dövlət hesabına təqaüd alırdı: E.Şeyxül-Hükəmayi. Fihrist-i əsnad-i büqe-yi Şeyx Səfiəddin Ərdəbili. Tehran, 1387, s.127.

[1] Aləmara (Sahib), s.479-482; Aləmara (Şükri), s.426-428; Cahangüşa-yi xaqan, s.469-471.

[2] Aləmara (Sahib), s.500,520; Aləmara (Şükri), s.454,483.

rasan əyalətininin bəylərbəyiliyini ona həvalə etdi[1]. 1521-ci ildə onlar geri çağırıldılar və şahın digər oğlu Sam mirzə öz lələsi Durmuş xan Şamlu ilə birlikdə Herata göndərildi[2].

**Eşikağasıbaşı** – onu “saray dərgahının rəisi” kimi səciyyələndirirlər[3]. O, şah divanının bütün yasavullarının, eşikağasılarının, qapıçılarının və carçılarının rəisi olub, şah məclislərinin təşkil və tərtibinə məsul idi[4]. Şah İsmayıl zamanında bu vəzifəni Durmuş xan Şamlu tuturdu[5]. O, “xan-i ali-şan” (“yüksək şanlı xan”) rütbəsinə malik idi[6]. Saray həyatı ilə bağlı bütün işləri nəzarətdə saxlayan bu şəxs həm də dövlətxananın keşiyinə rəhbərlik edir, xarici səfirlərin qəbulu və ya xüsusi mərasimlər zamanı əlində daş-qaşla bəzədilmiş dəbdəbəli əsa tutaraq, şahın yanında durur, bəzən şahın göstərişi ilə əyalət hakimlərinə məktublar yazırdı[7]. Bundan əlavə, o, hərbi əməliyyatlarda da fəal iştirak edirdi.

Eşikağasıbaşının tabeçiliyində böyük bir saray məmurları kontingenti dururdu. Yasavullar bu məmurların ən önəmlilərindən idilər. **Yasavul** istilahı “qanun” və “fərman” mənası verən “yasa” sözündən götürülüb və bu vəzifənin daşıyıcıları hökmdarın hüzurunda əmr və fərmanları icra edən şəxslər idilər. Onlar yürüşlər zamanı süvari halda şahı müşayiət edir, bəzən vacibi xəbərlərin, fərmanların, məktubların çatdırılması üçün qasid və ya çapar kimi göndərilir, qızıl və ya gümüş çomağa malik olurdular[8]. Səfəvi sarayında iki qrup yasavul mövcud idi: söhbət yasavulları və qur-yasavullar. “Təzkirətül-müluk”da deyilir: “Söhbət yasavulları yalnız mötəbər əmirlərin oğulları ola bilərdilər və köhnə zamanlarda onların sayı 8-9 nəfərdən çox

---

[1] Aləmara (Sahib), s.603; Aləmara (Şükri), s.582; F.Sümer. Safevî Devletinin kuruluşu, s.55.

[2] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.164.

[3] Ş.K.Məmmədova. “Xülasət ət-təvarix” Azərbaycan tarixinin mənbəyi kimi, s.53.

[4] Aləmara (Sahib), s.638.

[5] R.M.Savory. Iran under the Safavids, p.48.

[6] Aləmara (Sahib), s.191; Aləmara (Məclis kitabxanası – 761), v.49a.

[7] Aləmara (Sahib), s.146,160,167,190; Aləmara (Məclis kitabxanası – 761), v.37b,41a,43a,49a.

[8] Aləmara (Sahib), s.651; Aləmara (Şükri), s.609.

olmazdı. Xüsusi məclislərdə onlar eşikağasıbaşının yerinə xidmət edirlər. Ümumi məclislərdə isə hökmdarın bərabərində dururlar və məclisə eşikağasılar xidmət göstərirlər. Onlar Ali Divanın eşikağasıbaşısının əmrinə tabedirlər və o, onların maaş və məvaciblərini təsdiq edir"[1]. "Aləmara"da qeyd olunur ki, İlyas bəy Halvaçıoğlunun övladı Həsən bəy *"naib-i eşikağasıbaşı"* və *"əmirşikarbaşı"* vəzifələrini tutmaqla yanaşı, həm də *"yasavul-i söhbət-i məclis-i behişt-ayin"* ("cənnətə bənzər məclisin söhbət yasavulu") mənsəbini daşıyırdı[2]. Buradan belə nəticə hasil olur ki, söhbət yasavullarından ən adlı-sanlısı həm də eşikağasıbaşının naibi (müavini) vəzifəsini daşıyırdı. Əcnəbi elçilərin qəbulu zamanı söhbət yasavulları şahın hüzurunda dururdular[3]. Bəzən isə onlara şahın məktubunu qonşu dövlətlərə aparmaq tapşırığı verilirdi: Şah İsmayıl, Osmanlı şahzadəsi Səlimin Səfəvi sərhədlərinə basqınını pisləyən məktub yazaraq, onu Süleyman Yasavulla "Rum qeysəri" Sultan Bayəzidə göndərmişdi[4].

Söhbət yasavullarından savayı, qur-yasavullar (silah yasavulları) da mövcud idi. Onlar haqda dolğun informasiyanı XVII əsr fransız səyyahı Sanson verir. O yazır ki, qur-yasavulların sayı 2 min nəfərdir; onlar gecələr saray çevrəsini mühafizə edirlər, şah yolla gedərkən izdihamın qarşısını alırlar, divanbəyinin apardığı məhkəmə iclasları zamanı asayişi qoruyurlar, edam hökmlərini, əmlakın müsadirəsini, xanların şəxsi həbsini və s. həyata keçirirlər[5]. "Aləmara"da qur-yasavul Süleyman bəy Şamlu barədə məlumat verilir. O, Çaldıran döyüşündə şahın şəxsi mühafizəçilərindən olub, fədakarlıqlar göstərmiş, döyüşdən sonra İsmayıl onu xəyanət etmiş Fars valisi Xəlil xan Zülqədərin qətlə yetirilməsi fərmanı ilə Şiraza yollamış, ölüm hökmünü icra edən Süleyman geri qayıtdıqda şah Urmiya

---

[1] Təzkirətül-mülük (Tehran), s.27.
[2] Aləmara (Sahib), s.170; Aləmara (Məclis kitabxanası – 761), v.44a. Bu şəxs bəzi hallarda Hüseyn bəy Halvaçıoğlu adlandırılmışdır: Aləmara (Sahib), s.171; Aləmara (Məclis kitabxanası – 9421), v.10a; Zühur-i dövlət-i Səfəviyan, v.69a.
[3] Aləmara (Şükri), s.242; Aləmara (Məclis kitabxanası – 9421), v.54b.
[4] Aləmara (Sahib), s.501; Aləmara (Şükri), s.455.
[5] V.Minorsky. "Tadhkirat al-muluk", p.117.

əyalətini ona bağışlamışdı[1]. Qur-yasavullar (onlar "Aləmara"-da yasaqçı da adlandırılırlar) dövləti cinayətlərdə ittiham edilən şəxslərin həbslərini də yerinə yetirirdilər[2]. Döyüş əməliyyatları zamanı Şah İsmayılı 300 nəfərlik qur-yasavul dəstəsi mühafizə edirdi[3].

Saray məmurlarının digər bir qismi **eşikağası** adlanırdı. Eşikağasılar məclis vəzifəsi daşıyan şəxslər olub, əmirlərin və digər mötəbər ağaların şahın hüzurunda xidmət etməyə layiq olan oğullarından ibarət idilər. "Onlar ümumi məclislərdə xidmət göstərirdilər və divan eşikağasıbaşısına tabe idilər. O, onların maaş və məvaciblərini verir və onları nəyi etmək və nəyi etməmək barədə təlimatlandırırdı"[4]. Xarici səfirlərin qəbulu zamanı eşikağasılar hökmdarın hüzurunda dururdular[5]. Eşikağasılar xacəsaraylarla birlikdə səfərlər zamanı şah hərəmini mühafizə edirdilər[6]. **Xacəsaraylar** əsasən axtalanmış gürcü və hindlilərdən ibarət olur və şah hərəmxanasında xidmət göstərirdilər[7].

"Aləmara"da eşikağasıbaşının sərəncamında olan saray xidmətçiləri sırasında qapıçılar da qeyd olunur[8]. İki **qapıçıbaşı** fəaliyyət göstərirdi: divan qapıçıbaşısı və xəlvət (xüsusi apartamentlər) qapıçıbaşısı. Bütün qapıçılar bu iki şəxsə tabe idilər[9].

Saray mətbəxində qulluq göstərən işçilər qədim türk-moğol sözü olub, "etibarlı adam" mənası verən **"tuşmal"** termini ilə ifadə olunurdular. "Aləmara"da göstərilir ki, Şah İsmayıl Luristanı özünə tabe etdikdən sonra Məlikşah Rüstəm onu öz ordusu ilə birlikdə üç gün qonaq etmiş və Səfəvi şahının hər qorçusuna xidmət etmək üçün bir tuşmal ayırmışdı[10]. Saray

---

[1] Aləmara (Sahib), s.531-533; Aləmara (Şükri), s.499-500.
[2] Aləmara (Sahib), s.619; Aləmara (Şükri), s.171,595.
[3] Aləmara (Sahib), s.525; Aləmara (Şükri), s.490.
[4] Təzkirətül-müluk (Tehran), s.27-28.
[5] Aləmara (Sahib), s.293; Aləmara (Məclis kitabxanası – 761), v.75b.
[6] Aləmara (Sahib), s.529-530; Дастур ал-мулук, с.55.
[7] Aləmara (Sahib), s.86,149; Aləmara (Məclis kitabxanası – 761), v.22b,38b.
[8] Aləmara (Şükri), s.352; Aləmara (Məclis kitabxanası – 9421), v.95a.
[9] Təzkirətül-müluk (Tehran), s.28.
[10] Aləmara (Sahib), s.179.

mətbəxinin rəisi “tuşmalbaşı” adlanırdı və o, şəxsən özü şah üçün hazırlanmış yeməklərin dadına baxır və mətbəxlə bağlı işləri nəzarətdə saxlayırdı[1]. Səfəvi şahının məclislərində musiqiçilər dəstəsi (sazəndələr və nəvazəndələr) iştirak edir, süfrəyə rəngarəng təamlar və şərbətlər düzülürdü[2].

**Möhrdar-i möhr-i hümayun** (və ya möhrdar-i xasse-yi şərifə) – şahın möhürünün daşıyıcısı olub, hörmətli və etibarlı şəxs hesab edilir, məclislərdə həmişə şaha yaxın yerdə əyləşirdi[3]. Səfəvilər dövlətinin ilk möhürdarı Sarı Əli bəy Təkəlü olmuş, lakin 1506-cı ildə Kürd Sarom xana qarşı döyüşdə qətlə yetirilmişdir[4]. 1507-ci ildə Diyarbəkrin keçmiş Ağqoyunlu valisi Əmir xan Mosullu Səfəvi hakimiyyəti altına keçmək üçün şah düşərgəsinə yollanarkən İsmayıl öz əmirlərini onu qarşılamağa göndərmiş, onlar düşərgənin bir fərsəxliyinə yetişdikdə Əmir xanı möhürdar təyin edərək, bu xəbərin müjdəsini möhürlə birgə öz elçisi Fərrux ağa vasitəsilə Əmir xana çatdırmışdı: *“Fərrux ağa gəlib çatdı, qızıl qutuya qoyulmuş mübarək möhürü Əmir xanın qarşısına gətirib, möhürdarlıq mənsəbinin müjdəsini ona yetirdi və Durmuş xan mübarək möhürü götürüb, onun buynundan asdı. Əmirlər “mübarək olsun!” dedilər”[5].* Möhürdar vəzifəsini tutan Əmir xan, Səfəvi sarayında mühüm mövqe sahibi idi. “O, Sufinin (Şah İsmayılın – N.M.) möhürünün daşıyıcısı olub, böyük nüfuza malik bir şəxs idi”[6].

**Divanbəyi** – “Aləmara”da əksini tapmış dövlət məmurlarındandır[7]. V.Minorski onu “Ali Məhkəmənin sədri” kimi səciyyələndirmişdir[8]. “Təzkirətül-müluk”a görə, “alicah müqərrəbülxaqan divanbəyi” (“xaqana yaxın olan yüksək məqamlı divan-

---

[1] Sazman-i idari-yi hokumət-i Səfəvi ya təliqat-i Minorski bər “Təzkirətül-müluk” (tərcüme-yi M.Rəcəbniya). Tehran, 1369, s.128-129; Дастур ал-мулук, с.67.
[2] Aləmara (Sahib), s.146; Aləmara (Məclis kitabxanası – 761), v.37b.
[3] Aləmara (Sahib), s.639-640; Aləmara (Şükri), s.607.
[4] Aləmara (Sahib), s.151; Aləmara (Şükri), s.104; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.151.
[5] Aləmara (Sahib), s.192; Aləmara (Məclis kitabxanası – 761), v.49b.
[6] Travels of Venetians, p.109; Seyyahların gözüyle, s.86.
[7] Aləmara (Sahib), s.255,282,404; Aləmara (Şükri), s.183,230,239,352.
[8] V.Minorsky. “Tadhkirat al-muluk”, p.119.

bəyi") böyük əmirlərdən biridir. O, həftənin dörd günü sədrin iştirakı ilə keşikxanada 4 başlıca cinayətin (ölüm, zorlama, göz çıxartma və diş sındırma) istintaqını aparır, həftənin digər iki iş günündə isə öz evində ictimai hüquqla (ürf) əlaqədar olan mülki işlərə baxırdı[1]. O, ölkənin digər məhkəmələrini nəzarətdə saxlayır, bütün hüquqi və cəzavi qanunlar onun və tabeçiliyindəkilərin əli ilə icra olunurdu. Hətta əyalətlərin sakinləri də, əgər öz hakimlərindən narazı olsaydılar, ona müraciət edərdilər və o, onların şikayətlərinə baxıb, həqiqəti şahın diqqətinə çatdırardı[2].

**Xəlifətül-xüləfa** – sufi təriqətlərində geniş yayılmış xəlifə titulu mürşid tərəfindən hidayət və irşad icazəsi almış şəxslərə aid olunurdu[3]. Hələ Şeyx Səfiəddinin mürşidi Şeyx Zahidin yer üzündə 400 xəlifəsi vardı[4]. Səfəvilər dövlətinə xəlifə vəzifəsi Səfəviyyə təriqətinin sistemindən miras qalmışdı. Səfəvi xəlifələri "mürşid-i kamil" Şah İsmayıl tərəfindən Səfəvilər dövləti sərhədlərindən kənara şiəliyi yaymaq və müridləri təşkilatlandırmaq üçün göndərilirdilər. Bir qayda olaraq, qızılbaş tayfalarının nümayəndələri olan xəlifələr əsasən Anadoluda fəaliyyət göstərirdilər. Məsələn, Şah İsmayıl Nurəli xəlifə Rumlunu Anadoluya göndərib, oradakı müridlərə ona tabe olmağı əmr etmişdi[5]. Nurəli xəlifə öz ölümü ərəfəsində qızını Sufiyan xəlifə Rumluya ərə verərək, onu öz naibi və canişini (varisi) təyin etmiş və demişdi: *"Mənim canişinim sənsən. Qızımı da sənə ərə verirəm. Şahdan rüxsət alarsan və başçı olarsan. Mənim yerimi mərdliklə qoruyarsan"*[6]. Bu, onu göstərir ki, xəlifənin öz varisini təyin etmək hüququ var idi. Amma bu təyinatı şah da təsdiq etməli idi. Xəlifətül-xüləfa bütün xəlifələrin başçısı he-

---

[1] Təzkirətül-müluk (Tehran), s.12-13; Z.Veliyeva. Safevî Devlet Teşkilatı "Tezkiretü'l-mülük"e göre. YDT. Ankara Üniversitesi, 2007, s.176-179.
[2] Aləmara (Sahib), s.646-647; Aləmara (Şükri), s.608.
[3] Aləmara (Sahib), s.629.
[4] Aləmara (Sahib), s.8; Aləmara (Şükri), s.11.
[5] Aləmara (Sahib), s.188; Aləmara (Məclis kitabxanası – 761), v.48b.
[6] Aləmara (Sahib), s.574; Aləmara (Şükri), s.554; Aləmara (Məclis kitabxanası – 9421), v.164b. Sufiyan xəlifə Rumlu, Nurəli xəlifə ilə şahzadə Muradın Osmanlı qoşunlarına qarşı döyüşündə 300 nəfərlik dəstəyə komandanlıq etmiş və böyük şücaət göstərmişdi: Aləmara (Şükri), s.468-469.

sab olunur və şah tərəfindən təyin edilirdi. Şah İsmayıl zamanında bu postu qızılbaş sərkərdəsi Xadim bəy Xüləfa daşıyırdı[1]. Xəlifətül-xüləfa böyük hakimiyyətə malik idi. O, "mürşid-i kamil"in, yəni şahın təriqət məsələləri üzrə müavini sayılırdı[2].

**Ələmdarbaşı** – şərəfli vəzifələrdən biri hesab olunurdu. O, müharibə və təmtəraqlı mərasimlər zamanı şahın döyüş bayraqlarını qaldıran ələmdarların rəisi idi. Ələmdarbaşı döyüş əməliyyatlarında fəal iştirak edirdi. Məsələn, 1510-cu ildə Şah İsmayıl ələmdarbaşı Danə Məhəmməd bəy Əfşarı Mərv üzərinə hərəkət edən qızılbaş ordusunun ön dəstəsinə komandan təyin etmişdi[3]. Səfəvi ordusunun müxtəlif döyüş bayraqları vardı. Şah İsmayılın şəxsi bayrağı çox iri olub, ağ qumaşdan hazırlanmışdı[4] və üzərində "Quran-i kərim"ın 61-ci ("Səf") surəsinin 13-cü ayəsində qeyd olunmuş "nəsrum-minəllahi və fəthun qərib" ("Allahdan kömək və yaxın bir zəfər vardır") və ya onun qısaca forması olan "nəsrum-minəllah" ("Allahdan kömək") ifadəsi əksini tapmışdı[5]. Müin Müsəvvirin "Aləmara"ya çəkdiyi illüstrasiyalardan görünür ki, Səfəvilərin döyüş bayraqları arasında "ya Əli mədəd" yazılmış qəhvəyi haşiyəli üçbucaqlı ağ bayraq və qızılbaşlıq rəmzi olan qırmızı rəngli üçbucaqlı bayraq da vardı[6]. Səfəvi ordusunda qırmızı döyüş bayraqlarının olması faktını Xətai "Divan"ındakı məlumatlar da təsdiq edir:

"Qızıl ələm, qızıl bayraq, qızıl tac,
Geyinsə qazilər, ol gün həzərdir"[7].

Bundan əlavə, qızılbaş ordusunda ay-ulduzlu bayraqlardan da istifadə olunurdu[8]. Çaldıran məğlubiyyətindən sonra isə "əl-qisas" sözü yazılmış qara bayraqlar peyda olmuşdu[9].

---

[1] Aləmara (Sahib), s.170; Aləmara (Məclis kitabxanası – 761), v.43b.
[2] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.266.
[3] Aləmara (Sahib), s.351-352; Aləmara (Şükri), s.294-295.
[4] Aləmara (Şükri), s.108.
[5] Aləmara (Sahib), s.162,184,187,203,355,365,491,493,521,537,540,579.
[6] Aləmara (Rza Abbasi Muzeyi, No. 600), v.42b,94b,114b,186b,210a,332b.
[7] Şah İsmayıl Xətai. Əsərləri. I c. Bakı, 1975, s.81.
[8] M.Abbaslı. Şah İsmayılın ömür yolu miniatürlərdə, s.26.
[9] N.Fəlsəfi. Çənd məqale-yi tarixi və ədəbi. Tehran, 1342, s.81.

"Aləmara"nın məlumatına görə, qızılbaş ordusunda hər bayraq min nəfərlik dəstənin əlaməti idi: *"İraq tərəfdən böyük bir tozanaq qopdu və 5 min nəfərlik qoşunun nişanəsi olan 5 bayraq göründü"*[1]. Bu informasiyanı Oruc bəy Bayat da təsdiq edir[2].

**Təvaçıbaşı** – təvaçılar müharibə gözlənilən təqdirdə dövlətin tabeliyində olan əyalətlərə gedərək, hərbi qüvvə toplayan əmirlər olmuşlar. Onlar döyüşçüləri səfərbər edir, qoşunların haraya toplaşacağını bildirirdilər[3]. "Aləmara"da göstərilir ki, 1504-cü ildə Çəlaviyə qarşı əməliyyatlar aparılan zaman təvaçıbaşı vəzifəsini Əbdi bəy Şamlu tuturdu[4]. H.Zərinəzadənin fikrincə, təvaçı qədim türk sözü olub, "qıvraqlıq", "cəldlik" mənalarını verən "tavraqçı" sözündən əmələ gəlmişdir[5].

**Çərxçibaşı** – döyüş zamanı ordunun ön dəstəsi *"çərxçi"*, onun komandanı isə *"çərxçibaşı"* adlanırdı. Bu vəzifə daimi deyildi və yalnız həmin döyüşün müddətini əhatə edirdi. Məsələn, Ağqoyunlu Əlvəndə qarşı döyüşdə İlyas bəy Halvaçıoğlu, Əbülxeyr xana qarşı döyüşdə Div sultan Rumlu, Çaldıran vuruşmasında isə Sarı Pirə Ustaclu qızılbaş ordusunun çərxçibaşısı təyin edilmişdi[6].

**Əmirşikarbaşı** – şahın ov işlərini təşkil edirdi və "quşçubaşı" ünvanına da sahib idi. Tabeçiliyində min nəfərdən çox adam vardı ki, onlar ov əşyalarının və ləvazimatlarının hazırlanması, şahın ov şahinlərinin və itlərinin təlim edilməsi ilə məşğul olurdular[7]. Əmirşikarbaşı hərbi yürüşlər zamanı öz tabeçiləri ilə birlikdə qaravulda durmalı idi[8]. Şah İsmayıl zamanında Həsən bəy Halvaçıoğlu bu vəzifəni daşıyırdı[9]. Şahın ov

---

[1] Aləmara (Sahib), s.333; Aləmara (Şükri), s.277.
[2] Книга Орудж-бека Байата, с.34.
[3] Ş.K.Məmmədova. "Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi, s.61; Ş.F.Fərzəlibəyli. XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı, 2003, s.65-66.
[4] Aləmara (Sahib), s.127; Aləmara (Məclis kitabxanası – 761), v.32b.
[5] H.Zərinəzadə. Fars dilində Azərbaycan sözləri, s.229.
[6] Aləmara (Sahib), s.59,492,523; Aləmara (Şükri), s.63,440,490.
[7] Aləmara (Sahib), s.639.
[8] Дастур ал-мулук, с.42.
[9] Aləmara (Sahib), s.170; Aləmara (Şükri), s.195.

işi təkcə əyləncə deyildi. Bu, həm də on minlərlə döyüşçünün iştirak etdiyi hərbi manevrlər idi[1]. Müharibə və yürüşlər vaxtı ov təşkil edilərək, ordunun ərzaq ehtiyatı artırılırdı[2].

**Mehtər-i rikabxane-yi mübarəkə** – "Aləmara"da əksini tapmış bu ünvanı "Təzkirətül-müluk"dakı "əmiraxurbaşi-yi cilov" vəzifəsi ilə eyniləşdirmək mümkündür. O, şah ordusunun at tövləsinin və ilxısının, cilovdar, şatır və mehtərlərin rəisi funksiyasını həyata keçirirdi. Şahın əmri ilə vəkil Mirzə Şah-Hüseynin təhqiqatından bəlli olmuşdu ki, uzun müddət bu vəzifəni tutmuş Şahqulu bəy Türkman qanunsuz olaraq 17-18 min tümən məbləğində nağd pul və əmlaka yiyələnmişdir. Bu fakt aşkara çıxdıqda şah onun həbsinə fərman vermiş, lakin onun mənimsədiyi vəsait xəzinəyə geri qaytarıldıqdan sonra sərbəst buraxılmışdı. Bundan sonra Şahqulu vəkili öldürərək Gilana, oradan da gəmi ilə Şirvana qaçmışdı. Lakin hadisədən xəbər tutan şirvanşah onu həbs edib, Şah İsmayılın hüzuruna göndərmiş və orada o, edam edilmiş, evi və sərvəti müsadirə olunmuşdu[3]. "Aləmara"da bir də **piyadabaşi-yi sər-cilov** vəzifəsi qeyd olunur[4] ki, biz onun da mehtər-i rikabxane-yi mübarəkəyə tabe olduğunu güman edirik.

**Mustovfi-yi məmalik-i məhrusə** – bir növ maliyyə naziri funksiyasını icra edirdi. "Aləmara"da göstərilir ki, Yar Əhməd Xuzani hələ "Nəcm-i Sani" ləqəbi alaraq vəkil təyin edilməzdən öncə, 1509-cu ildə bir müddət məhz bu vəzifəni daşımışdı[5].

**Münşiül-məmalik** – onun tabeçiliyində çoxlu katiblər vardı və onlar bütün şah məktublarında, fərmanlarında və digər rəsmi sənədlərdəki formulanın tərtib olunmasını həyata keçirirdi-

---

[1] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.265.
[2] Ə.Əsgər, M.Qıpçaq. Türk savaş sənəti. Bakı, 1996, s.69.
[3] Aləmara (Sahib), s.618-620; Aləmara (Şükri), s.595-597. Qazı Əhməd Qumi, həmin Şahqulunun ərəbgirlü oymağından olduğunu bildirir: Xülasətüt-təvarix, s.150.
[4] Aləmara (Sahib), s.151; Aləmara (Məclis kitabxanası – 761), v.38b.
[5] Aləmara (Sahib), s.315; Aləmara (Məclis kitabxanası – 761), v.80a.

lər[1]. Adətən münşiül-məmalik Səfəvi şahının digər bir hökmdara hansı məzmunda məktub göndərmək istədiyini öyrəndikdən sonra məktubun ilkin variantını tərtib edirdi və onu şah üçün oxuyurdu. Şahın düzəlişləri, təklifləri və qeydləri nəzərə alındıqdan sonra saray münşilərindən biri son dərəcə dəqiqliklə, heç bir səhvə yol vermədən, gözəl nəstəliq xətti ilə, yaraşıqlı bir tərzdə məktubu yazırdı. Bütün bu işlər münşiül-məmalikin birbaşa nəzarəti altında aparılırdı[2]. "Aləmara"ya əsasən, münşi şahın xarici ölkələrə göndərdiyi məktubu tərtib edir və yazırdı[3], digər hökmdarlardan gələn məktubu şahın hüzurunda ucadan oxuyurdu[4]. Bizim müəllif yazır ki, 1513-cü ildə Səfəvilər dövlətində *"münşi-yi divan-i əla"* vəzifəsini Xoca İmadəddin ləqəbli Mir Məhəmməd Hadi Şirazi tuturdu[5]. Şah İsmayıl dövrünün ən məşhur münşilərindən biri azərbaycanlı Xoca Ətiq Ordubadi olmuşdur. O, şah dəftərxanasında çalışmış, "tuğra-yi şahi" adlı xətt növünü ixtira etmişdi[6].

"Aləmara"da *fərman, hökm, rəqəm, ərizə, namə* (adi məktub), *rüqə* (rütbəcə yüksək şəxsin özündən aşağı dərəcəli şəxsə məktubu), *vəliəhdnamə* (şahın özü üçün varis təyin etməsi haqqında sənəd), *qəsəmnaməçə* (and məktubu və ya andla təsdiqlənmiş anlaşma sənədi), *vəqfnaməçə* (vəqf sənədi), *fəthnamə* (qələbə haqqında məktub), *kitabət* (bərabər səviyyəyə malik yüksək rütbəli şəxslər arasında yazışma), *istimalətnamə* (kimisə öz tərəfinə çəkmək üçün yazılan məktub), *rizanamə* (razılıq məktubu), *tumar* (lülə şəklində bükülmüş divan sənədi), *übudiyyətnamə* (öz bağlılığını bildirmək haqqında yazılmış məktub), *müsalihənamə* (sülh müqaviləsi) və s. kimi orta əsr sənədlərinin adları çəkilir.

**Nazir-i büyutat** – şahın və onun ailə üzvlərinin, həmçinin çoxsaylı saray əyanlarının tələbatlarını ödəməkdən ötrü yara-

---

[1] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.266-267.
[2] Дастур ал-мулук, с.62-63.
[3] Aləmara (Sahib), s.143; Aləmara (Məclis kitabxanası – 761), v.36b.
[4] Aləmara (Sahib), s.337,496; Aləmara (Şükri), s.280,449.
[5] Aləmara (Sahib), s.496; Aləmara (Şükri), s.449.
[6] M.Tərbiyət. Danişməndan-i Azərbaycan. Bakı, 1987, s.135; M.Adilov. Azərbaycan paleoqrafiyası və tarixi orfoqrafiya məsələləri. Bakı, 2002, s.91.

dılmış müxtəlif tipli karxanaların ümumi başçısı vəzifəsini həyata keçirirdi[1]. Həm “Aləmara”da, həm də “Təzkirətül-müluk”-da bu cür karxanaların sayının 33 olduğu göstərilir[2]. “Aləmara”da bu karxanalardan konkret olaraq topxana, cəbbəxana (və ya qurxana), cilovxane-yi mübarəkə (at ilxısı), xəzane-yi amirə (xəzinə), rikabxana (qarderob), toyle-yi xassə (tövlə), fərraşxana (xalçaçılıq emalatxanası), zərrabxana və nağaraxana qeyd edilmişdir[3]. Yürüş vaxtı karxanaların avadanlığı dəvələrə yüklənib aparılırdı[4]. 1505-ci ilin əvvəllərində Təbəsdəki qızılbaş düşərgəsində olan Teymurilər dövlətinin vəziri Xoca Nizamülmülk Şah İsmayılın şəxsi cilovxanasında 200-ə qədər bədöv atın saxlandığını müşahidə etmişdi[5].

“Aləmara”da qeyd edilir ki, 1508-ci ildə Bağdad alınarkən Yar Əhməd Xuzani nazir-i büyutat vəzifəsində idi[6]. Yuxarıda qeyd etdiyimiz kimi, bu şəxs sonradan vəzifə pillələrində sürətlə tərəqqi edərək, mustovfi və vəkil postlarına irəli çəkilmişdi.

“Aləmara”da malcəhət, tövcih (töycü), bac, xərac, mal-i əmani, tərcüman, peşkəş, payəndaz, ixracat, savəri, iqamət kimi vergi növləri haqqında məlumatlar vardır. Dövlət gəlirləri Təbrizdəki mərkəzi xəzinəyə daxil olur və onun xəzinədarı **sahib-i cəm-i xəzane-yi amirə** adlandırılırdı[7]. Müxtəlif vergilərin toplanıb dövlət xəzinəsinə yığılması **təhsildar** adlandırılan vergi məmurlarının öhdəsində idi[8].

---

[1] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.263-264.
[2] Aləmara (Şükri), s.204,338; Təzkirətül-muluk, s.12. Lakin Şarden karxanaların sayının 32 olduğunu bildirir (bax: М.Х.Гейдаров. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVII вв. Баку, 1987, с.92).
[3] Aləmara (Sahib), s.72,76,146,405,489,619,625; Aləmara (Şükri), s.77,78, 119,383,439,486,595.
[4] Aləmara (Şükri), s.544.
[5] Aləmara (Sahib), s.146. Əsərin bir əlyazma nüsxəsində “təxminən 200-300 bədöv at” deyə yazılmışdır: Aləmara (Məclis kitabxanası – 761), v.37a.
[6] Aləmara (Sahib), s.164; Aləmara (Məclis kitabxanası – 761), v.42a.
[7] Aləmara (Sahib), s.619; Aləmara (Məclis kitabxanası – 761), v.160b.
[8] Aləmara (Sahib), s.330; Aləmara (Şükri), s.274-275,595.

**Qazı** – mülki və məişət məsələlərinə baxan dini hakim rolunda çıxış edirdi. “Aləmara”da 1504-cü ilin hadisələrindən bəhs edilərkən qeyd olunur ki, *“Qazı Mir Hüseyn Yəzdi nalayiq hərəkətləri üzündən xaqanın qəzəbinə giriftar oldu və qətlə yetirildi”*[1]. Baş qazıdan əlavə, şəhərlərdə də qazılar fəaliyyət göstərirdilər. Onlar həm də bir növ notarius funksiyasını həyata keçirirdilər[2].

**Şeyxülislam** və ya axund – öz evində şəriət məsələlərinə baxır, həmçinin “əmr be məruf” (“doğru yola dəvət”), “nəhy əz münkər” (“pis yoldan çəkindirmək”) kimi dini hökmlərin icrası ilə məşğul olurdu. Şeyxülislamlar hökmdardan illik məvacib alır və məclislərdə sədrin böyüründə əyləşirdilər[3]. Səfəvi dövlətində bu vəzifəni ilk dəfə Təbrizdə şiə xütbəsi oxumuş Mövlana Əhməd Ərdəbili tutmuş, Şah İsmayılla Taclı bəyimin kəbinini də məhz o kəsmişdi[4]. Həmçinin şəhər şeyxülislamları da olur və onlar şəhərin came məscidində xütbə oxuyurdular[5].

**Münəccimbaşı** – “Aləmara”ya əsasən, münəccimlər hələ Qaraqoyunlu sarayında mühüm mövqe tuturdular. Cahanşah Şeyx Cüneydə qarşı tədbirlər görməzdən öncə öz münəccimləri ilə məsləhətləşmişdi[6]. Uzun Həsənin də sarayında Baba Əbdürrəhman adlı bir “öncəgörən” vardı və Ağqoyunlu hökmdarı onunla məsləhətləşir və ona ehtiram göstərirdi[7]. Səfəvi şahları da münəccimlərin “xidmət”lərindən geniş istifadə edirdilər[8]. “Aləmara”dan məlum olur ki, Mövlana Nəsir Kaşani adlı münəccim Şah İsmayılın zamanında xüsusilə məşhur idi və Təhmasib anadan olduqdan sonra İsmayıl onu çağırıb, şahzadənin uğurlu vaxtda anadan olub-olmaması, gələcək taleyi haqda maraqlanmışdı[9]. Münəccimlərdən və şanəbinlərdən

---

[1] Aləmara (Sahib), s.132; Aləmara (Məclis kitabxanası – 761), v.34a.
[2] Aləmara (Sahib), s.93; Aləmara (Məclis kitabxanası – 761), v.24a.
[3] Aləmara (Sahib), s.646.
[4] Aləmara (Sahib), s.81; Aləmara (Məclis kitabxanası – 761), v.21b.
[5] Aləmara (Sahib), s.398-399; Aləmara (Şükri), s.346.
[6] Aləmara (Sahib), s.22; Aləmara (Şükri), s.27-28.
[7] Ə.B.Tehrani. Kitabi-Diyarbəkriyyə. Bakı, 1998, s.209,222.
[8] R.M.Savory. Iran under the Safavids, p.224.
[9] Aləmara (Sahib), s.86; Aləmara (Məclis kitabxanası – 761), v.22b.

Şeybanilər, Məmlüklər, Əlaüddövlə Zülqədər də "yararlanırdılar"[1].

Səfəvi sarayında həkimlər, təbiblər də fəaliyyət göstərirdilər. 1513-cü ilin əvvəllərində Şah İsmayıl İsfahanda olarkən bərk xəstələnmiş və **saray həkimləri** onun sağalması üçün çoxlu dava-dərman, müalicə etmişdilər[2].

**Elçi** – diplomatik missiya ilə xarici ölkələrə göndərilən nümayəndələrə deyilirdi. Bəzi müəlliflər elçi termininin "əluk" (xəbər, məlumat) sözündən götürüldüyünü iddia etsələr də, əslində bu termin xalq, camaat ifadəsini özündə əks etdirən "el" sözü ilə əlaqəlidir[3]. Elçilər adətən gözəl nitq qabiliyyətinə malik, hörmətli və aqil insanlardan təyin olunurdular. Şah İsmayılın qonşu hökmdarlara Qənbər ağa Sufi, Xəlil ağa Rumlu, Fərrux ağa, Şeyxzadə Lahici kimi elçilər göndərdiyi məlumdur[4]. Nümayəndə heyəti adətən geniş tərkibli olurdu: Şah İsmayıl Sultan Murada 40 nəfərlik[5], Sultan Hüseyn Bayqara isə Şah İsmayıla birinci dəfə 100, ikinci dəfə 50 nəfərlik elçilik heyəti göndərmişdi[6]. Bir neçə məqsədlə elçi göndərilirdi: dostluq qurmaq, ultimatum vermək, problemli məsələləri həll etmək, sülh yaratmaq, təbrik etmək, başsağlığı vermək və s. Elçini öldürmək qəbuledilməz norma hesab olunsa da, bəzən onlara qarşı sərt tədbirlərə də rast gəlirik. Məsələn, Teymuri şahzadələri

---

[1] Ələmara (Sahib), s.261,282,488,493,563; Ələmara (Şükri), s.190,230,437, 444,544.

[2] Ələmara (Sahib), s.461; Ələmara (Şükri), s.407. Saray həkimlərinə "həkimbaşı" adlanan məmur başçılıq edirdi. Səfəvi sarayında tibbi xidmət haqqında bax: N.S.Musalı. Səfəvi sarayında səhiyyə xidmətinin təşkili məsələsi Məhəmməd Rəfi Ənsarinin "Dəsturül-mülük" əsərində // Abstracts of the 1-st İnternational Conference "Traditional Medicine and Materia Medica in Medieval Manuscripts". Baku, 2006, p.47-48

[3] Ş.F.Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı, 1995, s.167-168.

[4] Ələmara (Sahib), s.67-69,177-178,336-339; Ələmara (Şükri), s.71-74,281-283.

[5] Ələmara (Sahib), s.68; Ələmara (Şükri), s.72; Cahangüşa-yi xaqan, s.165.

[6] Ələmara (Sahib), s.80,145; Ələmara (Məclis kitabxanası – 761), v.21a,37a.

Şeybani xanın elçisi Molla Mahmudu öldürmüş[1], Şeybani xan isə qızılbaş elçisi Xəlil ağa Rumlunu həbsə salmışdı[2].

Elçi öz hökmdarının məktubunu aparmaqla yanaşı, ona verilmiş şifahi instruksiya əsasında diplomatik danışıqlar da aparır, bəzən isə ona getdiyi ölkə haqqında hətta casusluq məlumatları toplamaq da tapşırılırdı[3]. Elçi əcnəbi hökmdarın sarayına, bir qayda olaraq, öz şahının göndərdiyi töhfələrlə gedir, bəzən isə xüsusi məqsəd güdən hədələyici və xəbərdaredici "hədiyyələr" də aparırdı[4]. Elçilik heyəti yalnız sarayına getdiyi hökmdarın icazəsindən sonra geri qayıda bilərdi və adətən onlar geri göndərilərkən ənamlarla da mükafatlandırılırdılar[5].

**Mehmandar** – sarayda xüsusi bir vəzifə idi və əcnəbi elçilər və qonaqlar gələrkən onlar mehmandarlara tapşırılırdılar[6]. Bəzən hörmətli qonaqlar gəldikdə yüksək dövlət məmurlarından biri onlara mehmandar təyin olunurdu. Məsələn, Şah İsmayıl Bayqaradan gələn Əmir Kəmaləddin Sədr adlı elçiyə Əmir Nəcm Rəştini, Məmlük əmiri Qəzzali-oğluna isə Div sultan Rumlunu mehmandar təyin etmişdi[7].

**Minbaşı və yüzbaşı** – qızılbaş ordusu əski türk hərbi ənənəsinə uyğun onluq say sistemi əsasında qurulduğu üçün ordu onluqlara, yüzlüklərə və minliklərə bölünürdü. Bəzən min nəfərə çatmayan bir neçə yüz nəfərlik dəstəyə də yüzbaşı rəhbərlik edirdi. Məsələn, 1514-cü ildə Məhəmməd Zaman mirzənin Astarabadda qaldırdığı qiyamın yatırılması vaxtı 700 nəfərlik qoşuna komandanlıq edən yüzbaşı Bülənd (və ya Pəsənd) bəy uğurlu əməliyyata görə şah tərəfindən sultan rütbə-

---

[1] Aləmara (Sahib), s.295; Aləmara (Şükri), s.244.
[2] Aləmara (Sahib), s.339; Aləmara (Şükri), s.283. Mənbənin məlumatına görə, sonralar Osmanlıya elçi göndərilən bu şəxs Sultan Səlimin əmri ilə tikə-tikə doğranmışdı: Aləmara (Sahib), s.385; Aləmara (Şükri), s.332.
[3] Aləmara (Sahib), s.294,338; Aləmara (Şükri), s.243,283.
[4] Aləmara (Sahib), s.383-384; Aləmara (Şükri), s.330-331.
[5] Aləmara (Sahib), s.140,311; Aləmara (Şükri), s.195,259.
[6] Aləmara (Sahib), s.335,382,409; Aləmara (Şükri), s.329,357.
[7] Aləmara (Sahib), s.140,590; Aləmara (Şükri), s.195,569.

si ilə mükafatlandırılmış[1] və Məşhəd hakimi təyin olunmuş, onun qardaşına isə yüzbaşı rütbəsi verilmişdi[2]. Şah İsmayıl 1508-ci ildə Şərqi Anadoluda Səfəvi hakimiyyətinin möhkəmləndirilməsində xüsusi rol oynamış minbaşılar və yüzbaşılar üçün *"başdan-ayağa xələtlər"* göndərmişdi[3].

**Çaparlar** yaxud qasidlər – məmləkətdə vacibi xəbərlərin sürətlə çatdırılmasına xidmət göstərirdilər[4].

**Carçılar** – meydanlarda, bazarlarda, küçələrdə ucadan car çəkib, şahın fərmanlarını və əmrlərini və ya digər dövlət adamlarının göstərişlərini əhaliyə çatdırırdılar[5].

**Şatırlar** – yüksək rütbəli şəxslərin önündə gedərək, onlar üçün yol açan şəxslərə deyilirdi. Bir sıra hallarda onlar öz ağalarının yazılı və ya şifahi göstərişlərini və ya müraciətlərini lazımi yerlərə çatdırmaq üçün göndərilirdilər[6].

**Qadınların dövlət işində və ictimai həyatda iştirakı.** "Aləmara"nın materialları ilə tanışlıq XV-XVI əsrlərdə qadınların cəmiyyət həyatında önəmli rol oynadıqlarını göstərir. Teymurilər sülaləsindən olan qadın şahzadə Gövhərşad bəyim elm və təhsilə qayğı göstərirdi və Heratda öz adını daşıyan mədrəsə tikdirib istifadəyə vermişdi. Bundan əlavə, onun himayəsi ilə Heratda bəzi tikinti-quruculuq işləri aparılmışdı. Gövhərşad bəyim xeyriyyəçiliklə də məşğul olur və ehtiyacı olanlara nəzir-niyaz paylayırdı[7]. Ağqoyunlu Uzun Həsənin həyat yoldaşı (Səlcuqşah bəyim) iqtisadi fəaliyyətlə məşğul olur, mülk torpaqlar satın alır və vəkilləri vasitəsilə onları idarə edirdi[8]. Şah İsmayılın həyat yoldaşı Taclı bəyim şücaətli bir qadın idi, qılınc vurmaqda, nizə döyüşündə, at çapmaqda məharət

---

[1] Bu şəxs təkəlü tayfasından olub, sultan rütbəsi aldıqdan sonra Burun sultan ləqəbi ilə tanınmağa başlamışdı.

[2] Aləmara (Sahib), s.551-553; Aləmara (Şükri), s.531-532,538.

[3] Aləmara (Şükri), s.141; Aləmara (Məclis kitabxanası – 9421), v.15a.

[4] Aləmara (Sahib), s.361,381,500; Aləmara (Şükri), s.410,557.

[5] Aləmara (Sahib), s.253,304,474,568,643; Aləmara (Şükri), s.88,176,180, 185,191,255,422,549.

[6] Aləmara (Sahib), s.149,338,507; Aləmara (Şükri), s.201,210,277,283,465, 520,524.

[7] Aləmara (Sahib), s.266; Aləmara (Şükri), s.205.

[8] Aləmara (Sahib), s.92; Aləmara (Məclis kitabxanası – 761), v.24a.

sahibi idi və Çaldıran döyüşündə üzünə niqab taxaraq, şəxsən iştirak etmişdi[1]. Şeybani xanın arvadı Moqol xatun (Müqbilə xanım) Mavəraünnəhrin siyasi həyatında böyük rol oynayırdı və özbək xanları bir sıra hallarda siyasi-diplomatik məsələləri həll etmək üçün onun məsləhətinə əməl edirdilər[2]. O zamanlarda ananın rəyi nəzərə alınmadan qız ərə verilmirdi[3]. Bu kimi faktlar onu göstərir ki, həmin dövrdə müsəlman türk xalqları arasında qadınlar siyasi, iqtisadi, hərbi və mədəni sahələrdə fəaliyyətlə məşğul olur, cəmiyyət həyatında yaxından iştirak edirdilər.

## 3.2. SƏFƏVİ ORDUSU

### *A) Hərbi qüvvələrin kəmiyyəti*

Azərbaycan Səfəvilər dövlətinin silahlı qüvvələri türk qızılbaş tayfalarının süvari döyüşçülərindən ibarət idi. Səfəvi ordusu şahın şəxsi qvardiyası hesab olunan qorçular korpusundan, qızılbaş oymaqlarına mənsub olan əyalət hakimlərinin öz tayfadaşlarından topladıqları "çerik" adlanan hərbi qüvvələrdən və ayrı-ayrı şəhər və qalalarda saxlanan qarnizonlardan ("müstəhfiz" və ya "saxlov") təşkil edilirdi. "Aləmara"da qeyd olunur ki, şahın qorçular korpusunun tərkibinə Çaldıran vuruşması zamanı 5 min nəfər döyüşçü daxil idi[4]. I Şah Təhmasibin hakimiyyəti dövründə də Səfəvi qorçuları 5 min nəfərdən ibarət idi[5].

Bundan əlavə, əyalət hakimlərinin müxtəlif kəmiyyətli qoşun dəstələri mövcud idi. Adətən sərhəd əyalətlərində daha çox, mərkəzi vilayətlərdə isə nisbətən az saylı hərbi kontingent saxlanılırdı: Osmanlı, Məmlük sultanlıqlarının və Zülqədər bəyliyinin hüdudlarında yerləşən Diyarbəkr əyalətinin bəy-

---

[1] Aləmara (Sahib), s.80-81,527; Aləmara (Şükri), s.148-149,495.
[2] Aləmara (Sahib), s.364,494-495; Aləmara (Şükri), s.309,445-446.
[3] Aləmara (Sahib), s.134; Aləmara (Məclis kitabxanası – 761), v.34a.
[4] Aləmara (Şükri), s.490.
[5] Ş.Məmmədova. "Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi, s.72; M.Haneda. The Evolution of the Safavid Royal Guard, p.60-61.

lərbəyisi Məhəmməd xan Ustaclunun 10-12 minlik[1], Şeybanilər dövləti ilə həmsərhəd olan Bəlx əyalətinin bəylərbəyisi Bayram xan Qaramanlunun 5-6 minlik qoşunu[2] olduğu halda, Fars hakimi Xəlil xan Zülqədərin sərəncamında cəmi 1500 nəfərlik dəstə vardı[3]. Ümumiyyətlə, "Aləmara"da Səfəvilərin vilayət qoşunlarının sayı barəsində aşağıdakı məlumatları üzə çıxarmışıq: Diyarbəkr – 10-12 min; Ərzincan – 5-6 min; Azərbaycan – 15 min; İraq-i Ərəb – 12 min; Fars – 1500; Kirman – 500; Yəzd – 300; Damğan – 300; Bəlx – 5-6 min; Mərv – 4 min; Astarabad – 2 min[4]. Lakin bu siyahı heç də tam deyildir. Çünki orada İraq-i Əcəm, Həmədan, Kuh-i Giluyə, Məşhəd, Herat və s. mühüm bölgələrin hakimlərinin malik olduqları hərbi qüvvənin sayı göstərilməmişdir.

Mühüm şəhərlərdə və qalalarda sayı bir neçə yüz nəfərə çatan qızılbaş qarnizonları saxlanılırdı[5]. Şəhər qarnizonlarına daruğa, qala qarnizonlarına isə kutval rəhbərlik edirdi.

İsmayıl öz babası Uzun Həsənin taxt-tacına yiyələnmək uğrunda apardığı mübarizədə elə də böyük orduya sahib olmasa da, Azərbaycan Səfəvilər dövləti bərqərar olduqdan sonra onun silahlı qüvvələrinin kəmiyyəti bir neçə il ərzində xeyli dərəcədə artmışdı. Şah İsmayılın hakimiyyəti dövründə qızılbaş qoşunlarının ümumi sayı barədə digər Səfəvi mənbələrinin heç birində konkret rəqəmlərə rast gəlinməsə də, yalnız "Aləmara"nın materialları bu məsələnin aydınlaşdırılması baxımından dəyərli faktlar verməkdədir. Bu mənbədən məlum olur ki, Çaldıran döyüşü ərəfəsində keçirilən hərbi müşavirədə Məhəmməd xan Ustaclu açıq vuruşmaya girməyib dağlara çəkilməyi, bütün qoşunun gəlməsi üçün iki ay gözləməyi təklif edərək, belə olacağı təqdirdə, *"ən azından 70 minlik qoşunun toplaşacağını"* bildirmişdi[6]. Həmçinin bizim müəllif Sultan Səlimin ömrünün son illərində onun mümkün hücumunu dəf et-

---

[1] Aləmara (Sahib), s.241; Aləmara (Şükri), s.158.
[2] Aləmara (Sahib), s.401; Aləmara (Şükri), s.363.
[3] Aləmara (Sahib), s.530; Aləmara (Şükri), s.498-499.
[4] Aləmara (Sahib), s.66,111,169-170,241,326,327,401,507,514,530; Aləmara (Şükri), s.71,158,270,271,363,398,465,474,498-499,533 və s.
[5] Aləmara (Sahib), s.112,326-327; Aləmara (Şükri), s.103-104,270-271.
[6] Aləmara (Şükri), s.484; Aləmara (Məclis kitabxanası – 9421), v.138b.

mək üçün Şah İsmayılın Azərbaycana 80 minlik ordu cəmləşdirdiyini göstərir[1]. Qızılbaş ordusunun I İsmayıl zamanındakı miqdarı barədə təsəvvür yarada biləcək bu rəqəmlər sənədlərlə də təsdiqlənir. Venesiyanın Kiprdəki canişini Zuan Qradeniqo 29 aprel 1515-ci ildə öz hökumətinə raport verirdi ki, "sinyor Sufi 100 mindən çox döyüşçü və xeyli artilleriya yığmışdır". 28 oktyabr 1518-ci ildə isə Bartolomeo da Mosta Kiprdən Venesiya hökumətinə yazdığı məktubda İsmayılın 70 minlik orduya malik olduğunu göstərirdi[2]. Digər bir venesiyalı müəllif də Şah İsmayılın müharibə zamanı 100 minlik ordu səfərbər edə biləcəyindən bəhs etməkdədir[3]. "Aləmara" ilə Venesiya sənədlərinin müqayisəsi əsasında belə bir nəticəyə gəlmək olar ki, bəhs olunan dövrdə Azərbaycan Səfəvilər dövlətinin müharibə zamanı ortaya çıxarıla biləcək real hərbi qüvvəsinin sayı 70-100 min nəfər arasında tərəddüd edirdi. Lakin artıq Şah Təhmasib zamanında Səfəvi qoşunlarının ümumi miqdarı 120 min nəfərə çatmışdı[4].

Səfəvi ordusunun komanda heyəti (əmirülüməra, əmir-i divan, qorçubaşı, əmirşikarbaşı, ələmdarbaşı, təvaçıbaşı, çərxçibaşı, minbaşı, yüzbaşı və s.) haqqında bundan öncəki paraqrafda məlumat verilmişdir.

### *B) Ordunun silahları və əsləhəsi*

"Aləmara"da göstərilir ki, hər bir qızılbaş döyüşçüsünün qılıncı, oxu, kamanı, nizəsi, qalxanı və atı vardı[5]. Bu məlumatı Anciolello da təsdiq edir. O yazır ki, Səfəvi əsgərləri dəbilqə örtürlər, hamısı süvaridirlər, nizə, qılınc, qalxan, kaman, ox və toppuzla silahlanırlar[6]. Portuqaliyalı elçi A.Tenreiro qızılbaşlar

---

[1] Aləmara (Sahib), s.590; Aləmara (Şükri), s.569.

[2] Я.М.Махмудов. Новый сборник документов по истории Сефевидского государства (Шах Исмаил I в «Дневниках» Марино Санудо) // «Известия» АН Азерб. ССР (серия истории, философии и права), 1986, № 1, с.61-62.

[3] Travels of Venetians, p.116; Seyyahların gözüyle, s.95.

[4] Ş.K.Məmmədova. "Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi, s.72.

[5] Aləmara (Şükri), s.77.

[6] Travels of Venetians, p.115; Seyyahların gözüyle, s.94.

haqqında eyni vəziyyəti müşahidə etmişdir: "Onlar bəslədikləri yaxşı atlarla və madyanlarla gəzirlər. Oxla, qılınc və ya pala ilə, möhkəm qalxanlarla yaxşı təchizata malikdirlər... Mizraqdan da istifadə edirlər"[1].

Uzun müddət tarixşünaslıqda Səfəvi ordusunun odlu silahlara yiyələnməsi I Şah Abbasın hərbi islahatları ilə əlaqələndirilsə də, aparılan tədqiqatlar artıq XIV-XV əsrlərdə Azərbaycanda odlu silahların ilk nişanələrinin mövcud olduğunu üzə çıxarmışdır[2]. "Səfəvilər hələ lap əvvəldən odlu silahlara malik idilər", lakin onların ixtiyarındakı bu cür silahların sayı olduqca az idi[3]. "Aləmara"ya əsasən, qızılbaş ordusu 1502-ci ildə Əlvəndə qarşı Təbrizdəki küçə döyüşlərində[4], 1505-ci ildə Yəzd şəhərinin alınması zamanı Məhəmməd Kərrəyə[5], 1508-ci ildə Zülqədər bəyliyinin qoşunlarına qarşı[6], 1509-10-cu ilin qışında Yəzd şəhərini özbəklərdən müdafiə edərkən[7], 1512-ci ildə Orta Asiyadakı Qərşi qalasının alınması vaxtı[8], 1515-ci ildə Diyarbəkr uğrunda döyüşlərdə[9] tüfəngdən istifadə etmişdi. Şah İsmayılın Urgənc hakimi Barsil xanın köməyinə göndərdiyi qoşunun daxilində tüfəngçilər də vardı[10]. Tüfəngdən atəş açmaq üçün barıt və qurğuşundan istifadə edilirdi[11]. Almabulağı döyüşü ərəfəsində və ondan sonra qızılbaşlar Sultan Muradın ordusundan hərbi qənimət kimi "ərradə" adlanan xüsusi ara-

---

[1] S.Özbaran. Portegizli seyyahlar İran, Türkiye, Irak, Suriye ve Mısır yollarında. İstanbul, 2007, s.36.

[2] S.M.Onullahi. XIII-XVII əsrlərdə Təbriz şəhəri. Bakı, 1982, s.115; S.Ə.Əhmədov. Azərbaycanda top və tüfənglərin istifadəsinə dair (XIV-XV əsrlər) // AMEA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), Bakı, 2001, № 3, s.97; Ağqoyunlularda, Şeyx Heydərin və Şah İsmayılın ordusunda odlu silahların mövcudluğu haqqında həmçinin bax: R.Savory. Iran under the Safavids, p.43-44.

[3] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.281.

[4] Aləmara (Sahib), s.64; Aləmara (Şükri), s.67.

[5] Aləmara (Sahib), s.138; Aləmara (Məclis kitabxanası – 761), v.35b.

[6] Aləmara (Sahib), s.224; Aləmara (Məclis kitabxanası – 761), v.58a.

[7] Aləmara (Sahib), s.328; Aləmara (Şükri), s.272.

[8] Aləmara (Sahib), s.420; Aləmara (Məclis kitabxanası – 761), v.108b.

[9] Aləmara (Sahib), s.542; Aləmara (Şükri), s.519.

[10] Aləmara (Şükri), s.335; Aləmara (Məclis – 9421), v.89a.

[11] Aləmara (Şükri), s.88.

balar üzərində yerləşdirilmiş toplara və “xərpa-yi cəng” adlanan artilleriya qurğularına yiyələnmişdilər[1]. Həmçinin 1515-ci ildə Diyarbəkr döyüşlərində Qaraxan Ustaclunun əsgərləri Osmanlılardan 2 böyük top və bir neçə ədəd badlic ələ keçirmişdilər[2]. I Şah İsmayıl zamanında qızılbaş ordusunun odlu silahlara malik olması digər Səfəvi mənbələri ilə də təsdiqlənir. Bu məlumatlara görə, qızılbaşlar 1501-ci ildə Bakının alınması zamanı top və tüfəng işlətmiş[3], eyni ildə Şərur döyüşündə, 1505-ci ildə Yəzdin alınması vaxtı, 1506-cı ildə Şir Saromun kürdləri ilə vuruşmada, 1507-ci ildə Əlaüddövlənin ordusu əleyhinə, 1521-ci ildə Heratın özbəklərə qarşı müdafiəsi zamanı tüfəngdən istifadə etmişdilər[4]. Həmçinin venesiyalı tacir, Məhəmməd xan Ustaclunun əsgərlərinin kürdlərə qarşı Həsən-Keyfin mühasirəsi əməliyyatlarında 2 mortiradan və 3-4 “əcəmi formalı, kiçik lüləli muşketdən” istifadə etdiklərini bildirmişdir[5].

Qızılbaşlar arasında odlu silahların çox da intişar tapmaması əsasən onunla əlaqədar idi ki, bu cür silahlar üçün tələb olunan piyada qoşunlar çevik əməliyyatlar keçirməyə üstünlük verən süvari qızılbaş ordusunun sürətli yürüş və manevr imkanlarını olduqca aşağı sala bilərdi. Buna görə də, yuxarıdakı faktlardan göründüyü kimi, Səfəvi ordusu sürət və çeviklik tələb edən uzaq yürüşlərdə və səhra müharibələrində deyil, əsas etibarilə küçə döyüşlərində və qala mühasirələrində odlu silahlara müraciət edirdi. Bundan əlavə, Şah İsmayılın Sultan Səlimə “Aləmara”da əksini tapmış müraciətindən və digər faktlardan göründüyü kimi, qızılbaşlar odlu silahlara həvəs

---

[1] Aləmara (Sahib), s.72; Aləmara (Şükri), s.77.
[2] Aləmara (Sahib), s.543; Aləmara (Şükri), s.520.
[3] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.280.
[4] Xülasətüt-təvarix, s.72; Həbibüs-siyər, s.479; Cahangüşa-yi xaqan, s.242,259; Əhsənüt-təvarix (Seddon), s.171; Tarix-i Şah İsmayıl və Şah Təhmasib, v.101a.
[5] Travels of Venetians, p.153; Seyyahların gözüyle, s.138.

göstərmir və ondan geniş istifadəni qorxaqlıq və namərdlik hesab edirdilər[1].

Ümumiyyətlə, "Aləmara"nın mətnində odlu silahlardan badlic, xərpa-yi cəng, top, tüfəng, tüfəng-i kuçek-xəzaneyi (kiçik xəzinəli tüfəng) və zərbzən, soyuq silahlardan əmud, gürz, toppuz (əzici silahlardır), təbərzin, nəcəq (balta növləridir), şəmşir, tiğ (qılınc növləridir), xəncər, dəşnə (qısa, nazik və düz xəncər), nizə, sinan (mizraq), xədəng, navək, peykan (ox adlarıdır), tir-ü kaman (ox və yay), döyüş ləvazimatından isə bərkəstəvan (döyüş zamanı atlara geyindirilirdi), kəmərbənd, bazubənd, tərk (dəbilqə), zireh, cövşən, xəftan, çaharayinə (döyüşçü geyimləridir), qılaf (qılınc qabı), sipər (qalxan), tirkeş və ya qarban (çiyindən asılan dəri oxqabı) və s. adı çəkilir. Şah İsmayıl qiymətli silahlardan ibarət kolleksiyaya malik idi. Burada vaxtı ikən müxtəlif xanədanların (Ağqoyunlu, Qaraqoyunlu, Məmlük, Teymuri) hökmdarlarına məxsus olmuş silahlar saxlanılırdı[2].

### *C) Savaş taktikası və hərbi nizam*

"Aləmara"da Səfəvi ordusunun Şirvanşahlara, Ağqoyunlulara, Çəlavilərə, Kərrəhilərə, kürd və lur əmirlərinə, Müşəşə ərəblərinə, Orta Asiya xanlarına, Məmlüklərə, Osmanlılara, gürcü knyazlarına və s. qarşı apardığı döyüşlərin geniş təsviri əksini tapmışdır. Qızılbaşların hərbi strukturunda və taktikasında qədim türk ənənələrinə bağlılıq böyük rol oynayırdı. Sə-

---

[1] Aləmara (Sahib), s.523; Aləmara (Şükri), s.489. I Şah İsmayılın və qızılbaşların odlu silahlara mənfi münasibəti haqqında həmçinin bax: О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.61; N.Fəlsəfi. Zindəgani-yi Şah Abbas-i Əvvəl, s.175; R.Savory. Iran under the Safavids, p.44. Ş.Mustafayev yazır: "Əsasən əski türk dövlətçilik ənənələrinə sadiq qalan Səfəvi elitası və ordusu qızılbaş türkman tayfalarından təşəkkül etmişdir. Bu səbəbdəndir ki, orduda oğuz-türkman köçəriliyinə xas olan "şərəf kodeksi" və dəyərlər kompleksi hökm sürürdü. Bu kodeksin ünsürlərindən biri, Koroğlunun timsalında gördüyümüz kimi, odlu silaha mənfi münasibət idi": "Orta çağın payızında" türklərdə cəngavərlik idealı // Elmi Araşdırmalar, VII/3-4, 2005, s.213.

[2] Aləmara (Sahib), s.377; Aləmara (Şükri), s.323; Aləmara (Məclis kitabxanası – 9421), v.84b.

fəvi ordusu dəfələrlə düşməni cinahlardan sıxıb məhv etməyi nəzərdə tutan döyüş planından, həmçinin süni geri çəkilmə nəticəsində düşmənin pusquya salınıb məhv edilməsindən ibarət olan "Turan taktikası" və ya "qurd oyunu"[1] adlanan üsuldan istifadə etməklə qalib gəlmişdi. Bu kimi taktikaların incəlikləri, üstün cəhətləri və çatışmamazlıqları tədqiqat əsərlərində göstərilmişdir[2].

Qızılbaş döyüşçüləri üçün müharibə zamanı mərdlik və şərəf ən önəmli prinsiplər idilər. Qüvvələr nə qədər qeyri-bərabər olsa da, döyüşdən qaçmaq həqarət hesab olunurdu[3]. 1513-cü ildə Şah İsmayıl Amu-dərya (Ceyhun) çayı kənarında Dəşt-i Qıpçaq hökmdarı Qasım xanın oğlu Əbülxeyr xanla özbək əmirlərinin birləşmiş çoxsaylı ordusu ilə üzləşərkən qızılbaş əmirlərindən biri salın ipini kəsmək və gəmiləri sahilə çıxarmaqla çayın o biri sahilində yerləşmiş rəqib qoşunun qızılbaşların mövqe tutduqları digər sahilə keçməsini əngəlləməyi təklif etsə də, İsmayıl bunu özünə ar bilmiş, bədnamlıq əlaməti saymış və özbəklərin sərbəst şəkildə çayı keçib döyüşə başlamaları üçün şərait yaratmış, hətta çaydakı bütün gəmiləri onlara göndərib, asanlıqla çayı keçmələrini təmin etmişdi[4]. Bu kimi ənənələr Ağqoyunlu tayfa ittifaqına daxil olan türkman tayfaları arasında da qorunub saxlanmışdı. Məsələn, Əlvənd öz sərkərdəsi Osman sultan Türkmana 20 minlik qoşun verib, onu İsmayılın 10 minlik qoşununun üstünə göndərmək istəsə də, Osman bunu özünə sığışdırmamış və qarşı tərəfin 10 minlik qoşununun üzərinə elə 10 min nəfərlə gedəcəyini bildirmişdi[5].

Qızılbaşlar qala müdafiəsi zamanı divarlar üzərində barıt kisələri, ağır daşlar, neftlə dolu kuzələr hazır qoyur, düşmənə qarşı ox və güllə ilə yanaşı, yandırılmış barıt və neftdən, ağır

---

[1] Aləmara (Sahib), s.174,215,364-369,468-469; Aləmara (Şükri), s.131,308-314,414-416. C.Heyət. Türklərin tarix və mədəniyyətinə bir baxış. Bakı, 1993, s.53; Ə.Əsgər, M.Qıpçaq. Türk savaş sənəti, s.158-159.
[2] Ю.Агаев, С.Ахмедов. Ак-коюнлу – Османская война (1472-1473 гг.). Баку, 2006, с.56-57.
[3] Aləmara (Sahib), s.44,236; Aləmara (Şükri), s.48,154.
[4] Aləmara (Sahib), s.488; Aləmara (Şükri), s.437.
[5] Aləmara (Şükri), s.58.

daşlardan da istifadə edirdilər[1]. Adətən qalaların ətrafında dərin xəndək qazılırdı və müdafiə zamanı həmin xəndək su ilə doldurulurdu[2].

Qalanı və ya şəhəri mühasirə edən zaman qızılbaşlar "sibə" adlanan səngərlərdə mövqe tutur, qalanı almaq üçün lağım atılır, qala divarlarına nərdivanlar qoyulur və bürclər uçurulurdu[3].

Qızılbaş komandanlığı müharibədən öncə kəşfiyyat aparmağa, düşmən tərəfdəki şəraiti dərindən araşdırmağa səy göstərirdi[4]. Döyüş ərəfəsində qızılbaş ordusunun "təlayə" adlanan vizual kəşfiyyat dəstəsi gizlicə irəli gedərək, düşmənin sayını, vəziyyətini və mövqelərini öyrənirdi[5]. Bundan başqa, Səfəvilər müsəlman şərqinin bir sıra ölkələrinə səpələnmiş sadiq tərəfdarları və dərvişləri vasitəsilə geniş casus şəbəkəsi yaratmağa nail olmuşdular. Almabulağı döyüşündən əvvəl Ağqoyunlu Sultan Murad İsfahanda olarkən Səfəvi casusları onun ordusu haqqında kəşfiyyat məlumatlarını operativ şəkildə Şah İsmayıla ötürmüşdülər[6]. Səfəvi şahının adamları hətta Məmlük hökmdarı Qansu Qurinin sarayındakı rəsmi məclislərə də yol tapa bilmişdilər[7]. Kəşfiyyat məlumatlarının toplanmasında elçilər də böyük rol oynayırdılar[8]. "Döyüşlər ərəfəsində elçilər diplomatik missiya ilə yanaşı, casusluq funksiyasını da yerinə yetirir, düşmənin vəziyyəti və həqiqi niyyətləri barədə sultana məlumat çatdırırdılar"[9]. Məlumat toplamaq üçün müxtəlif üsullara baş vurulurdu; düşmən tərəfdən "dil" tutaraq, ondan lazımi informasiyalar alınırdı. Həmçinin qızılbaş casusları qızıl və pul verməklə rəqib dövlətlərin qulluğunda olan şəxsləri Səfəvilər üçün işləməyə və məlumat ötürməyə həvəsləndirirdi-

---

[1] Aləmara (Sahib), s.224; Aləmara (Məclis kitabxanası – 761), v.58a.
[2] Aləmara (Sahib), s.242,563; Aləmara (Şükri), s.159,544.
[3] Aləmara (Sahib), s.423-424; Aləmara (Şükri), s.370-371.
[4] Aləmara (Sahib), s.231; Aləmara (Şükri), s.130.
[5] Aləmara (Sahib), s.357,427,508; Aləmara (Şükri), s.132,299,374,468.
[6] Aləmara (Sahib), s.71; Aləmara (Məclis kitabxanası – 761), v.19a.
[7] Aləmara (Sahib), s.235; Aləmara (Şükri), s.152.
[8] Aləmara (Sahib), s.294; Aləmara (Şükri), s.243.
[9] R.Şükürova. Əbu-Bəkr Tehrani və onun Kitab-i Diyarbəkriyyə" əsəri, s.80.

lər[1]. Qızılbaş ordusu hərbi yürüşlər zamanı yerli şəraiti yaxşı bilən bələdçilərin xidmətindən istifadə edirdi[2].

Qızılbaşların şəxsi döyüş keyfiyyətlərini şərh edən "Aləm-ara" müəllifi onların tərifini göylərə ucaldır. O, yazır ki, qızılbaş ordusu *"ox atışı ilə göyün yüksək qatlarından ağcaqanadı vurub yerə sala bilən kamandarlardan, nizə zərbəsi ilə qaranlıq gecədə balığı dənizin dibindən çıxara bilən nizədarlardan və döyüş gününü zifaf gecəsi bilən igidlərdən"* ibarət idi[3]. Qeyd olunur ki, *"qızılbaşlar dünyada heç kəsdən qorxmurlar və Allah-taala onların ürəyində vahimə xəlq etməmişdir"*[4]. Döyüşlərdə ələ keçirilən qənimət qızılbaşlar arasında bölüşdürülür, daha çox şücaət göstərmiş şəxslər daha böyük paya sahib olurdular[5]. Bundan əlavə, xüsusi fərqlənənlərə şah tərəfindən mükafatlar bağışlanırdı[6]. Məsələn, özbəklərə qarşı döyüşdə seçilmiş Əxi sultana Şah İsmayıl tərəfindən 5 min tümən məbləğində tac hədiyyə olunmuşdu[7]. Müharibədə həlak olmuş qızılbaşların pulları onların varislərinə çatdırılır[8], onların övladları dövlət tərəfindən himayə edilirdi[9]. Döyüşçülərin maddi təminatına yüksək diqqət yetirilirdi: *"Bütün ordu dünya malından firavan idi və heç birisinin ehtiyacı yox idi"*[10].

Döyüş əməliyyatları zamanı ordunun ön dəstəsi "çərxçi", sağ cinah "meymənə", sol cinah "meysərə" adlanırdı. Bundan əlavə, yuxarıda qeyd etdiyimiz kimi, "təlayə" adlanan kəşfiyyat dəstəsi, gözətçilik funksiyasını yerinə yetirən "qaravul"[11], həmçinin mühasirə zamanı mühəndis-istehkam işlərini həyata keçirən "əmələ"[12] qrupu da fəaliyyət göstərirdi. Şah İsmayıl ordu-

---

[1] Aləmara (Sahib), s.338; Aləmara (Şükri), s.282.
[2] Aləmara (Sahib), s.185,217,451.
[3] Aləmara (Sahib), s.77; Aləmara (Məclis kitabxanası – 761), v.20b.
[4] Aləmara (Sahib), s.577; Aləmara (Məclis kitabxanası – 761), v.149b.
[5] Aləmara (Sahib), s.176; Aləmara (Məclis kitabxanası – 761), v.45a.
[6] Aləmara (Sahib), s.72,174,231.
[7] Aləmara (Sahib), s.355; Aləmara (Şükri), s.298.
[8] Aləmara (Sahib), s.422; Aləmara (Şükri), s.369.
[9] Aləmara (Sahib), s.170; Aləmara (Məclis kitabxanası – 761), v.44a.
[10] Aləmara (Sahib), s.202; Aləmara (Şükri), s.112.
[11] Aləmara (Şükri), s.79,80,130,318,475.
[12] Aləmara (Sahib), s.101; Aləmara (Məclis kitabxanası – 761), v.26b.

dakı ustalara Ceyhun çayı üzərində körpü salmaq haqqında göstəriş vermişdi[1]. Qoşunda mehtərlər və nökərlər də vardı[2].

Tamamilə süvarilərdən ibarət olan Səfəvi qoşunu üçün sürət və çeviklik ən önəmli faktor idi. Qızılbaşların hər biri *"gündə 20 fərsəx yol gedə bilən Şam və ərəb cinsli bədöv atlara malik idilər"[3].* Yüksək sürəti ilə seçilən, xüsusi hazırlığa malik olan, "bədöv" adlandırılan həmin atlar *"çayı qayıq kimi üzüb keçə bilirdilər"[4].* Orduda yük daşınması üçün dəvələrdən, ulaqlardan və qatırlardan istifadə olunurdu. Uzaq yürüşlərə çıxan zaman əsgərlərin hər biri özü ilə iki at götürürdü[5]. "Hərbi yürüş zamanı ehtiyat minik heyvanlarının götürülməsinin böyük əhəmiyyəti var idi. Belə ki, minik heyvanlarının tez-tez yorulması nəticəsində ordunun yürüş sürəti aşağı düşürdü. Süvarilərdən təşkil olunmuş Səfəvi ordusu üçün bunun önəmi daha çox idi"[6]. Yürüşlərin birində Şah İsmayılın qoşun başçılarına verdiyi göstəriş bu baxımdan maraqlıdır: *"Hər bir qızılbaşa əmr ediniz ki, özləri ilə iki at götürsünlər, gündüz birinə, gecə isə digərinə minsinlər və tezliklə özlərini oraya yetirsinlər"[7].*

1505-ci ildə şahın Təbəs vilayətinə yürüşünü təsvir edərkən bizim müəllif qızılbaş düşərgəsi və ordunun formalaşması qaydaları haqqında olduqca maraqlı informasiyalar verir: *"Bir fərsəxə qədər ərazi atlas və zərbafta çadırlarla örtülmüşdü. Hər çadırda xalis ərəb və bayat cinslərindən olan üç-dörd bədöv at bağlanmış və bir qatar sağlam dəvə yatmışdı. Hər çadırın qapısında bir qızıl yəhərli kəhər at dururdu. Əgər bir tərəfdən hansısa bir ordu gecə və ya gündüz basqını təşkil etmək istəsəydi, bütün qoşun – on iki min nəfər qızılbaşın hamısı – hazır vəziyyətə gəlib süvar olardı. Əsgərlərin hamısı başlarına əlvan taclar qoymuşdular, tacın ətrafına gözəl çalmalar sarımışdılar və daş-qaşla bəzədilmiş tumarlar və əbləqlər*

---

[1] Aləmara (Sahib), s.395; Aləmara (Şükri), s.342.
[2] Aləmara (Sahib), s.145; Aləmara (Şükri), s.49,197.
[3] Aləmara (Şükri), s.67-68.
[4] Aləmara (Sahib), s.80; Aləmara (Şükri), s.192.
[5] Aləmara (Sahib), s.45,213; Aləmara (Şükri), s.143.
[6] Ə.S.Quliyev. XVI əsrin ortalarında Səfəvi ordusu // AMEA aspirantlarının elmi konfransının materialları. Bakı, 2004, s.236.
[7] Aləmara (Sahib), s.229; Aləmara (Şükri), s.272.

*bənd etmişdilər. [Onların] əksəri zərbafta parçalardan və samur dərisindən paltarlar geymişdilər və hamısının qəbzəsi qiymətli qaşlarla bəzədilmiş xəncəri və qılıncı vardı. Hər birinin rəkibdarı rəkib boğçalarını çiyinlərindən asmış şücaətli cavan türk oğlanları idilər və əgər döyüşçülər məndillərini başlarına bağlasaydılar, onda tac və sarığı nökərlər əllərində tutardılar. Şatırlar da ömürlərinin erkən çağlarını yaşayan növrəstə cavanlar idilər. Əgər bir iş baş versəydi, o zaman onlar da nəcəq zərbəsi ilə düşməni doğrayardılar".*

Qızılbaş ordusu tayfaçılıq prinsipləri əsasında təşkil edilmişdi: *"Hər neçə min nəfər eyni ocaqdan olsaydılar, hamısı bir-birinin qohum-əqrəbası və əmioğlusu olardılar, bir-birinin yolunda ölümə gedərdilər. Əgər döyüşdə kimsə onların qohumunu öldürsəydi, hamısı hərəkətə gələrdilər. Ölən şəxsin tayfadaşları onun ya oğlunu, ya qardaşını, ya da əmisi oğlunu xidmətə götürərdilər. Əgər ata tərəfdən yaxın qohumu olmasaydı, onda ana tərəfdən, yox, əgər ana tərəfdən də qohumu olmasaydı, onda arvadı tərəfdəki qohumlarından [xidmətə cəlb olunardı]. Xülasə, Şah [İsmayıl] Bahadır xan bu cür nizam-intizam yaratmışdı"*[1].

Şah İsmayıl zamanında qızılbaş iyerarxiyasının necə formalaşmasından bəhs edən müəllif yazır: *"O vaxtlar qızılbaşların qaydası bu cür idi ki, hər kim döyüş günü daha çox hünər göstərsəydi, padşahın yanında onun izzəti daha artıq olacaqdı və ali mənsəbə çatacaqdı. Əsil-nəsəbin bir o qədər də əhəmiyyəti yox idi, olsaydı da ikinci dərəcəli idi. Əgər tövlə mehtəri döyüşdə igidlik etsəydi, sipahiliyə daxil olardı və əgər daha da cəsur olsaydı, əyalət sahibinə çevrilərdi"*[2]. Bəzi hallarda ölən əmirin yerinə onun gənc oğlunun təyin edildiyinin də şahidi oluruq[3].

"Aləmara"da hərbçiliklə bağlı türkcə bir çox istilaha yer verilmişdir. Həm də bu istilahlar təkcə hərbi vəzifələrin və rütbələrin adları (bəy, bəylərbəyi, xan, çavuş, daruğa, keşikçi, kutval, qorçu, qorçubaşı, qoruqçu, qur-yasavul, minbaşı, yüzbaşı,

---

[1] Aləmara (Şükri), s.197-198; Aləmara (Məclis kitabxanası – 9421), v.38a.
[2] Aləmara (Sahib), s.229; Aləmara (Məclis kitabxanası – 761), v.59b.
[3] Aləmara (Şükri), s.112-113.

təvaçıbaşı, yasaqçı, yasavul, bahadır, çapar, tüfəngçi) ilə məhdudlaşmır, hərbi işin bütün sferalarını əhatə edir: axtarma (döyüşdən sonra qalib tərəfin döyüş meydanında axtararaq topladığı qənimət), atlan-atlan (atlanmaq haqqında döyüş əmri), cəbbə, dustaq, ilğar (qoşunun müqavimətə rast gəlmədən sürətli hərəkəti), keşik, qarban (oxqabı), qoruq, qaravul, qoşun, ordu, qovğa, qoyluğa (cəza üsulu), san (ordunun sayı mənasında), sibə (səngər, döyüş mövqeyi mənasında), sursat, top, toppuz, tüfəng, yağı, yaraq, yasaq, yürüş və s. Bu materiallardan məlum olur ki, Səfəvi ordusunda döyüş əmrləri türkcə verilirdi və hərbi terminlərin də əksəriyyəti bu dildə idi. Qızılbaşlar döyüşə atılarkən türkcə "qurban olduğum, sədəqə olduğum, pirim, mürşidim!" deyə nərə çəkirdilər[1].

### *D) Hərbi musiqi*

Qızılbaşlar çox zaman döyüşə musiqi sədaları altında gedərdilər. Səfəvi ordusunda saz, nağara, təbil, kos və gərənay kimi çalğı alətləri var idi. Son iki alət ölkəmizdə unudulduğundan onlar barədə xüsusi izahat verməyi vacib hesab edirik.

Xalqımızın qədim zərb alətlərindən olan kos və ya kus dastanlarımızda, klassik şairlərimizin şerlərində dönə-dönə xatırladılımış, XVII əsr alman səyyahı E.Kempfer onun haqqında bəhs etmişdir. Qədim musiqi alətlərimizin tədqiqatçısı A.Nəcəfzadə mənbələrə istinadən kos barəsində yazır: "Adətən hərbi yürüşlərdə istifadə edilmişdir. Kosun səsi o qədər güclü idi ki, döyüş meydanlarında səslənərkən düşmən lərzəyə gələrdi. Rəvayətlərdə deyilir ki, kos o qədər iriymiş ki, onu xüsusi arabalarda iki cüt öküz çəkib apararmış. Kosu ağacdan hazırlanmış iki toxmaqla və ya dəridən hazırlanmış qamçı ilə döyəcləyib səsləndirirdilər"[2]. "Aləmara"da qızılbaş ordusunda "nağaraxana" adlanan təbilçilər qrupunun olduğu göstərilir. Onlar öz zərb musiqiləri ilə döyüşün başlamasını bütün qoşuna xəbər verirdilər. Şah İsmayıl Mərv yaxınlığında özbəklərə

---

[1] E.G.Browne. A History of Persian Literature, p.15; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.73.

[2] A.Nəcəfzadə. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti. Bakı, 2004, s.107-108.

qalib gəldikdən sonra Şeybani xanın düşərgəsindən digər qənimətlərlə yanaşı, bir cüt kos aləti də ələ keçirilmişdi və qızılbaşlar Şah İsmayılın əmri ilə sonrakı yürüşlərdə ondan istifadə edirdilər. Onun həcmi çox iri idi və kənarları cam formasında olub, həftcuşdan[1] düzəldilmişdi. Döyüşün başlanmasını bildirmək üçün bu kosu böyük bir kürsünün üzərinə qoyurdular, təbilçilər oraya çıxaraq, onu əllərindəki duval (dəri qayış) vasitəsilə səsləndirirdilər və sədası çox uzaqlara yayılırdı[2].

Gərənaya gəldikdə isə, o, borusu üzərində heç bir çalğı dəliyi olmayan qədim nəfəs alətlərimizdəndir. Onun adına Nizaminin və Fədai Təbrizinin yaradıcılığında, həmçinin E.Kempferin səyahətnaməsində rast gəlmək olur. Bir vaxtlar Azərbaycanda geniş istifadə edilən bu alət, artıq, demək olar ki, ölkəmizdə unudulmuşdur[3]. “Aləmara”da dəfələrlə qızılbaş ordusunun yürüşlərinin gərənay sədaları ilə müşayiət olunması göstərilmişdir[4]. Döyüş meydanlarında səsləndirilən digər bir alət buq və ya buğ idi[5]. Buğ – gildən hazırlanmış qədim nəfəs alətidir[6].

Şah İsmayıl zamanında Azərbaycanda, Anadoluda, İranda, İraqda, Əfqanıstanda, Orta Asiyada, Gürcüstanda uğurlu hərbi əməliyyatlar aparmış qızılbaş ordusu özünü yüksək döyüş qabiliyyətinə malik qoşun birləşməsi kimi göstərməyə nail olmuşdur[7].

---

[1] Həftcuş – 7 metalın (dəmir, qalay, qurğuşun, qızıl, sink, mis və gümüş) qarışığından ibarət olan mürəkkəb filizdir.

[2] Aləmara (Sahib), s.489; Aləmara (Şükri), s.439.

[3] A.Nəcəfzadə. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti, s.91.

[4] Aləmara (Sahib), s.101,162,208,526,552; Aləmara (Şükri), s.69,80,96, 493,520,523. Gərənay alətindən Əmir Teymurun və Şeybanilərin ordusunda da istifadə edilirdi: Aləmara (Sahib), s.18,286; Aləmara (Şükri), s.23,181, 234.

[5] Aləmara (Sahib), s.173; Aləmara (Məclis kitabxanası – 761), v.44b.

[6] A.Nəcəfzadə. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti, s.46.

[7] N.S.Musalı. XVI əsrin birinci rübündə Azərbaycan Səfəvilər dövlətinin hərbi qüvvələri (“Tarix-i aləmara-yi Şah İsmayıl” əsərinin materialları əsasında) // Azərbaycan Səfəvilər dövlətinin yaranmasının 505 illiyinə həsr olunmuş elmi-praktiki konfransın materialları. Bakı, 2006, s.86-94

## 3.3. İCTİMAİ-İQTİSADİ MÜNASİBƏTLƏR

### A) *Hakim təbəqə*

Səfəvilər dövləti tamamilə türk qızılbaş oymaqlarının səyləri ilə yaradılmışdı və onların hərbi qüvvəsinə arxalanan bir türk imperiyası idi. Yarımköçəri qızılbaş tayfalarının əmirləri bu imperiyanın ən önəmli hakim sinfini təşkil edirdilər. Ə.Tacbəxş etiraf edir ki, "türkman başçıları və qızılbaş elatlarının köməyi ilə çoxlu uğurlar əldə etmiş Şah İsmayıl onların hamısını mühüm mənsəblər və vəzifələrlə razı saldı və nəticədə, türk mənşəli tayfaların başçıları İsmayılın əli ilə bütün İranda tam qüdrət və istibdad ilə öz hakimiyyətlərini bərqərar etdilər"[1]. M.S.İvanovun təbirincə desək, "Azərbaycan tayfaları bu dövlətdə rəhbər rol oynayırdılar"[2]. Ölkənin bütün hərbi vəzifələrinə onlar təyin olunurdu, silahlı qüvvələr tamamilə onların nəzarətində idi və imperiyanın əksər ərazisi faktiki olaraq bu əmirlər arasında torpaq payları şəklində bölünmüşdü.

"Aləmara"da ustaclu (13 əmir), şamlu (9 əmir), türkman[3] (8 əmir), rumlu (6 əmir), təkəlü (6 əmir), qacar (5 əmir), əfşar (4 əmir), zülqədər (4 əmir), talış[4] (4 əmir), qaramanlu (3 əmir), varsaq (3 əmir) və qıpçaq (1 əmir) kimi qızılbaş tayfalarının və onlara mənsub olan əmirlərin adları çəkilir. Bu məsələni xüsusi araşdırmış F.Sümer Şah İsmayıl zamanında fəaliyyət göstərmiş böyük qızılbaş tayfaları arasında rumlu, ustaclu, təkəlü, şamlu və zülqədər oymaqlarını, nisbətən kiçik tayfalar sırasında varsaq, çepni, ərəbgirlü, turqudlu, bozcalu, əcirlü, xınıslu, çəmişkəzəklü, qacar, qaramanlu, mosullu, pornak oymaqlarını

---

[1] Ə.Tacbəxş. İran dər zaman-i Səfəviyyə. Təbriz, 1340, s.38.

[2] М.С.Иванов. Очерк истории Ирана. Москва, 1952, с.61.

[3] Türkman tayfası özündə Ağqoyunlu dövlətindən Səfəvi dövlətinə transfer olunmuş mosullu, baharlu, pornak və s. kimi boyları birləşdirirdi.

[4] Səfəvi ordusu tərkibindəki talış tayfası türk-moğol mənşəli idi və hətta sonralar şahsevən tayfalarından biri də talış-mikeyli adlanırdı: Sazman-i idari-yi hokumət-i Səfəvi ya təliqat-i Minorski bər "Təzkirətül-müluk", tərcüme-yi M.Rəcəbniya. Tehran, 1368, s.27; həmçinin bax: B.Javanshir. İran'daki Türk boyları ve boy mensubu kişiler (Safevî dönemi – I Şah Tahmasp hâkimiyetinin sonuna kadar / 1576). YDT. İstanbul: Mimar Sinan Güzel Sanatlar Üniversitesi, 2007, s.589-590.

sadalamışdır[1]. Qeyd etməliyik ki, adı çəkilən tayfalardan bəziləri (baharlu, qaramanlu, mosullu, pornak) hələ Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində mühüm mövqelərə sahib olmuşlar[2]. Mənbədə bəzi qızılbaş oymaqlarının sayı haqqında bilgi verilir. Məsələn, Şərqi Anadoludakı Səfəvi tərəfdarı olan varsaq eli 5 min ailədən ibarət idi. Bu oymağa “xəlifə” tituluna malik üç qardaş (Yusif xəlifə, Qasım xəlifə və Həsən xəlifə) rəhbərlik edirdi[3].

Köçəri tayfa əmirləri ilə yanaşı, şiə ruhaniləri, mülki bürokratiya məmurları və oturaq əsilzadələr (mülkədarlar) aristokratiyanın digər təbəqələrini təşkil edirdilər[4]. Bu qruplar arasında da xeyli azərbaycanlılar var idi. “Aləmara”da Mövlana Əhməd Ərdəbili, Əmir Zəkəriyya Keçəçi Təbrizi, Xoca Cəlaləddin Cahanşahi, Şihabəddin Abdulla Lalə kimi azərbaycanlı din və dövlət xadimlərinin adları çəkilir[5]. Lakin özlərini “qılınc əhli” sayan qızılbaşlar mülki işlərə bir o qədər də həvəs göstərmirdilər. R.Seyvori yazır ki, “qızılbaşlar iranlıları həqarətlə “tacik”, yəni qeyri-türk adlandırırdılar və hesab edirdilər ki, onlar yalnız maliyyə işlərinə və ümumiyyətlə, administrativ məsələlərə nəzarət etməyə yararlıdırlar”[6]. Ə.Kəsrəvi göstərir ki, “Səfəvilər zamanında əmirlər və sipahilər türk olduqlarından sarayda da türkcə danışılırdı, padşahlar özləri də hətta avropalı elçilər və səyyahlarla türkcə danışırdılar və farsdilliləri münşilik və maliyyə işlərindən savayı heç bir işə qəbul etmirdilər”[7]. Ümumiyyətlə, farslar və ya mənbələrdə qeyd olunduğu kimi taciklər Səfəvilər dövləti tərkibində asılı, müti vəziyyətdə idilər[8].

---

[1] F.Sümer. Safevî Devletinin kuruluşu, s.43-56.
[2] T.H.Nəcəfli. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı, 2000, s.30-31,41; R.Şükürova. Əbu-Bəkr Tehrani və onun “Kitab-i Diyarbəkriyyə” əsəri, s.71-72.
[3] Aləmara (Şükri), s.504-505; Aləmara (Məclis kitabxanası – 9421), v.144a.
[4] А.А.Рахмани. «Тарих-и алам ара-йи Аббаси» как источник по истории Азербайджана. Баку, 1960, с.140.
[5] Aləmara (Sahib), s.60-61,81,132,411,621,626; Aləmara (Şükri), s.64,359, 597.
[6] R.M.Savory. Iran under the Safavids, p.32.
[7] Ə.Kəsrəvi. Azəri ya zəban-i bastan-i Azərbaygan. Tehran, 1304, s.25-26.
[8] И.П.Петрушевский. Очерки, с.70.

### B) *Şah İsmayılın sosial-iqtisadi tədbirləri və vergilər*

Şah İsmayılın daxili siyasətində dövləti mərkəzləşdirməyə canatma müşahidə olunur ki, bu da xəzinənin doldurulması, ölkənin bərbad vəziyyətdə olan kənd təsərrüfatının, sənətkarlığının və ticarətinin bərpası maraqları ilə diktə olunurdu[1]. Ağqoyunlu hakimiyyətinin son onilliyində baş vermiş aramsız feodal müharibələri ölkə iqtisadiyyatını iflic vəziyyətinə saldığından, mərkəzləşmiş Səfəvilər dövlətinin meydana gəlməsi əhalinin bir çox təbəqələrinin maraqlarına cavab verirdi. Səfəvi mənbələri, bir qayda olaraq, Şah İsmayılın xalqla rəftarını tərifləyir və yüksək qiymətləndirirlər[2]. "Aləmara"da onun rəiyyətə və yoxsullara qayğısından, ölkəni ədalətlə idarə etməsindən və dövlət məmurlarının xalqa qarşı özbaşınalıq etməsinə yol verməməsindən bəhs olunur[3]. Bizim müəllif qeyd edir ki, Şah İsmayıl Bahadır xan xalqı Ağqoyunlu padşahlarının hakimiyyətinin sonlarında hökm sürən zülm və zorakılıqdan qurtarmış, ölkədə əmin-amanlıq yaratmışdı[4].

"Aləmara"nın materiallarından aydın olur ki, Şah İsmayıl hakimiyyətə yiyələndikdən sonra o vaxta qədər feodal özbaşınalığından əziyyət çəkən sadə xalqın maddi vəziyyətini normallaşdırmaq siyasəti yeridir və oturaq mülkədarların, ərbabların qiymətləri süni surətdə qaldırmaq planlarına qarşı çıxırdı. Bu baxımdan onun İsfahanda həyata keçirdiyi tədbirlər mənbədə xüsusilə ətraflı şərh olunmuşdur. "Aləmara"da göstərilir ki, Şah Təhmasibin doğulduğu ildə, qarlı qış vaxtı İsmayıl İsfahanın Nəqş-i Cahan bağında yeni tikdirdiyi Mehdi imarətində seyidlər, alimlər və əyanlarla birgə məclis qurub oturmuşdu. *"Elə bu an çöldən rəiyyət adamlarının dad-fəryadı gəldi. Şah soruşdu ki, bu nə hay-küydür? Dedilər: "Qurbanın olaq, rəiy-*

---

[1] О.А.Эфендиев. К некоторым вопросам внутренней и внешней политики шаха Исмаила I // Труды Института Истории АН Азерб. ССР, т. XII, Баку, 1957, с.150.

[2] И.П.Петрушевский. Ислам, с.372.

[3] Aləmara (Sahib), s.95,340,500,625; Aləmara (Şükri), s.121,129,137,171-177.

[4] Aləmara (Şükri), s.191; Aləmara (Məclis kitabxanası – 9421), v.36b.

*yətdirlər". Buyurdu ki, "içəri gəlsinlər!". Onlar daxil olub dedilər ki, "qurbanın olaq, taxıl yoxdur; taxılın bir batmanı 100 dinara qalxıb, əldə edə bilmirik". O həzrətin rəngi qızardı, soruşdu: "Səbəb nədir?". Dedilər ki, "ərbablar yığıb saxlayırlar və satmırlar; çünki hələ yeni məhsulun yetişməsinə çox var, köhnə məhsuldan isə az qalmışdır; bir qədər də saxlayıb, daha baha qiymətə satacaqlar". Həzrət buyurdu: "Car çəksinlər ki, taxılı olanlar özləri üçün bir illik ehtiyat saxlayıb, qalanını bazara gətirib töksünlər və əvvəlki məzənnə neçəyə idisə, eləcə də satsınlar". Ərz etdilər ki, "sabiq İsfahan vəzninə əsasən, taxılın 4 batmanı 1 şahıya idi". Buyurdu ki, "6 batmanını 1 şahıdan satsınlar!". Gedib car çəkdilər. Bir qismi əməl etdi, amma ümdə ərbablar imtina etdilər. Yenidən dad-fəryad qalxdı. O həzrət buyurdu ki, "evləri axtarsınlar!". Getdilər, evləri axtardılar və çoxlu taxıl gətirdilər. Lakin İsfahanın ümdə ərbabları yenə də əndişə etmədilər və taxılı bazara çıxarmadılar. Şah buyurdu ki, "İsfahanı biz Durmuş xana vermişik və İsfahanın xanı odur. Nə üçün əhali sıxıntı çəkməlidir?". Şahın ona irad tutduğunu görən Durmuş xan əmr etdi ki, "ərbablardan iltizam alınsın ki, əgər üzə çıxsa ki, onlar taxıla malikdirlər və şahın carını eşidib gətirməyiblər, ondan sonra onların malları və başları divana çəkiləcəkdir". Bu barədə bir-birinin ardınca car çəkdirdilər. Elə ki İsfahan ərbabları bu dəfəki carı eşitdilər, əndişə elədilər ki, "bu dəfə də cara itaət etməsək və malik olduğumuz artıq taxılı bazara aparmasaq, qayda-qanun yaratmaqdan ötrü bizim hamımızı sərt şəkildə cəzalandıracaqlar". İsfahan ərbablarının hər biri evlərində və anbarlarında arpa, buğda, darı, paxla və dən nə qədər var idisə, hamısını yükləyib, xarman-xarman bazara və meydana gətirib, üst-üstə tökdülər və şah həzrətlərinin buyurduğu qərara uyğun qiymətə satdılar. İsfahanın yoxsulları və miskinləri rifah və asudəlik içində yüksək məqamlı, günəş bargahlı hökmdarın ömrünün və dövlətinin davamına dua etməyə başladılar. Beləliklə, Şah İsmayıl Bahadır xan həmin şəhərin nizam-intizamını dürüst etdi"[1].*

---

[1] Aləmara (Şükri), s.176-177; Aləmara (Məclis kitabxanası – 9421), v.30b-31a. Qazı Əhməd Qumi yazır ki, 910 / 1504-05-ci ildə İsfahanda qıtlıq yaranan zaman oranın əsilzadələrindən Əmir Qiyasəddin Məhəmməd və Şah

Bu kimi faktlar onu sübut edir ki, Şah İsmayıl hakimiyyətə gəldikdən sonra həyata keçirdiyi tədbirlərlə zəhmətkeş kütlələrin, rəiyyətin vəziyyəti əvvəlkinə nisbətən yaxşılaşmağa başlamışdı. Bu məsələ əsasən Azərbaycan, Qərbi İran və İraq ərazilərinə aid idi. Lakin o da məlumdur ki, Səfəvilərin Xorasanda və Orta Asiyada özbəklərlə, Şərqi Anadoluda Osmanlılar və Zülqədəroğlularla apardıqları müharibələr zamanı dinc əhali hər iki tərəfdən qarətlərə və incidilməyə məruz qalırdı. Bizim müəllif xüsusi vurğulayır ki, bu kimi feodal müharibələri *"rəiyyətin xanəxarablığına bais olur", "el-obanın, acizlərin və miskinlərin rifahiyyətinin"* pozulmasına gətirib çıxarırdı[1].

Müharibələrin gedişində əhalidən bəzi vergilər tutulurdu. "Aləmara"da "mal-i əmani" və "tərcüman" kimi bu cür vergilərin adı çəkilir. 1509-10-cu ilin qışında özbəklər Kirmana basqından sonra Yəzd şəhərini mühasirəyə almış və yalnız şəhər əhalisinin mal-i əmani vergisi ödəməsindən sonra çıxıb gedəcəklərini bildirmişdilər. Mənbədən aydın olur ki, bu vergi şəhər rəhbərliyi və ya nüfuzlu şəxslər tərəfindən adətən hər evdən qızıl pulla bir tümən məbləğində yığılıb, qarşı tərəfin göndərdiyi təhsildara təhvil verilimәli idi. Mal-i əmani ödənildikdən sonra düşmən ordusunun həmin ərazini işğala və qarətə məruz qoymayaraq çıxıb getməsi nəzərdə tutulurdu. Özbək sərkərdəsi Canvəfa mirzə Qoşqar Bahadırı bu vergini alıb gətirmək üçün təhsildar kimi şəhərə göndərmişdi. Yəzddəki qızılbaş komandanlığı hiylə işlədərək, vaxt udmaq üçün özbəklərin bu təklifi ilə razılaşmış, verginin toplanmasına 10 gün möhlət istəmiş, nəticədə, bölgəyə əlavə qızılbaş qoşunlarının gəldiyini görən özbəklər geri çəkilməli olmuşdular[2]. Bu vergi əsasən soyğunçu basqınlar vaxtı yığılırdı.

Tərcüman vergisi isə özündə dövləti cinayət əvəzində ödənilən böyük məbləğli cəriməni əks etdirirdi. Bu vergi çox

---

Təqiəddin Məhəmməd taxılı saxlayıb satmadıqlarına görə edam olunmuşdular: Xülasətüt-təvarix, s.86-87.

[1] Aləmara (Şükri), s.118; Aləmara (Məclis kitabxanası – 9421), v.4b.

[2] Aləmara (Sahib), s.330-331; Aləmara (Şükri), s.275-276. Mal-i əmani vergi termini Teymurun dövründə işlənməyə başlanmışdır: V.Piriyev. Azərbaycan XIII – XIV əsrlərdə. Bakı, 2003, s.229.

zaman işğal olunmuş ərazilərdə əvvəllər hakimiyyətdə olmuş və işğalçılara düşmən münasibət bəsləyən sülalələrin nümayəndələri ilə sıx əlaqələr saxlamaqda və əməkdaşlıq etməkdə, habelə işğalçılara müqavimət göstərməkdə və ya onların siyasi-ideoloji sisteminə qarşı çıxmaqda ittiham olunan sakinlərdən onlara toxunulmaması müqabilində alınırdı. Səmərqənd şəhərini tutan Şeybani xan Babur şahla əməkdaşlıqda ittiham etdiyi 100 nəfərə qədər şəhər sakinini həbs etdirmiş, onların başçısı olan 10 nəfəri edam etdirsə də, qalanlarından tərcüman alaraq buraxmışdı[1]. Mərv döyüşündən sonra Şah İsmayılın Herata göndərdiyi qızılbaş sərkərdəsi Qulucan bəy şiə xütbəsi oxumaqdan imtina etdikləri üçün şəhərin qazısını, xətibini, kələntərini qətlə yetirmiş, şeyxülislam isə 5 min tümən tərcüman ödəməklə canını qurtarmaq istəmiş, Qulucan bəy şeyxin pulunu alsa da, onu edam etdirmiş, ələ keçirdiyi məbləği isə, adambaşına bir tümən düşməklə, şiə olduqlarını elan edən şəhər sakinlərinə paylamışdı[2]. Bəzi hallarda tərcüman vergisi zəbt olunmuş məntəqənin bütün əhalisi üzərinə yüklənirdi. Qızılbaş ordusunun Orta Asiyada əməliyyatlar apararkən ələ keçirdiyi Hisar-i Şadman qalasının əhalisindən 12 min tümən tərcüman tutulmuş, Buxara şəhərinin 3 fərsəxliyində isə bölgə kətxudalarından 3 min tümən tərcüman vergisi alınmışdı[3]. Bəzən korrupsiyada və digər dövləti cinayətlərdə ittiham olunan məmurlar da edam olunmaqdan qurtulmaq üçün dövlətə vurduqları ziyanın müqabilində tərcüman vergisi verməyə vadar olurdular. “Aləmara”ya əsasən, tərcüman həm pulla, həm də malla (“nəqdən və cinsən”) ödənilə bilərdi[4].

Əsərdə adı çəkilən vergilərdən biri də iqamət və savəri vergisidir. Həm də kunalqa adını daşıyan bu vergi rəiyyətlərin, təbəələrin və ya vassalların yolda olan şah çaparlarına, xarici səfirlərə, dövlət məmurlarına və yüksək feodal əyanlara öz ev-

---

[1] Aləmara (Sahib), s.262; Aləmara (Şükri), s.190-191.
[2] Aləmara (Sahib), s.399; Aləmara (Şükri), s.346. Bu şeyxülislamın adı Şeyx Seyfəddin Əhməd Təftəzanidir. O, 30 il boyunca Heratın şeyxülislamı olmuşdur: Xülasətüt-təvarix, s.113.
[3] Aləmara (Sahib), s.416,426; Aləmara (Şükri), s.363,372-373.
[4] Aləmara (Sahib), s.619; Aləmara (Şükri), s.595.

lərində qalmağa yer və ərzaq vermək öhdəliyini ehtiva edirdi[1]. Şeybani xan Şah İsmayıla yazdığı hədələyici məktubların birində şahı həqarətlə öz vassalı hesab edərək, İraqa gələcəyi zaman özü üçün yol boyu hər mənzilbaşında iqamət və savəri hazırlamasını ona əmr edirdi[2]. 1513-cü ildə özbəklər Xorasana hücum edən zaman Hüseyn bəy Lələ Heratı tərk edib Sistana getmiş, orada Səfəvilərin vassalı olan Sistan hakimi Məlik Mahmud ona savəri və iqamət təqdim etmişdi: *"Elə ki onlar qala ətrafına gəldilər, Məlik Mahmud qaladan çıxıb, savəri və iqamət təqdim etdi və onların bütün zəruri ehtiyaclarını qarşıladı"*[3]. Osmanlılardan qaçıb Şah İsmayıla sığınan Məmlük əmiri Qəzzali-oğlu, Səfəvi sərhədini keçdikdən sonra ona mehmandar təyin olunmuş Div sultan Rumlu hörmət əlaməti olaraq, yol boyu onun və adamlarının bütün ehtiyaclarını və xərclərini öz pulu ilə qarşılamış və *"yol üstündə kimsənin bir dinar iqamət və savəri gətirməsinə imkan verməmişdi"*[4].

Hökmdar sülaləsinə mənsub olan şəxslərin, dövlət adamlarının və onların məiyyətinin saxlanılması üçün büdcədə nəzərdə tutulduğundan əlavə xərclər ortaya çıxdıqda "ixracat" adlı vergi tətbiq olunurdu[5]. "Aləmara"dan aydın olur ki, bu vergi, xüsusən də, sürgünə göndərilmiş Səfəvi şahzadələrinin və önəmli dövlət xadimlərinin, onların məiyyətinin xeyrinə, yaxud Səfəvilərə sığınmış başqa sülalə və dövlətlərin nümayəndələri üçün nəzərdə tutulurdu. Səfəvilərə sığınmış Teymuri şahzadəsi Bədiüzzaman mirzənin Şənb-i Qazanda yaşayışını təmin etməkdən ötrü Şah İsmayılın əmri ilə *"mirzənin sərkarı üçün gündəlik ixracat təyin edilmişdi"*[6]. Şah İsmayılın qardaşı Sü-

---

[1] О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.43; yenə onun, Азербайджанское государство Сефевидов в XVI веке, с.224.
[2] Aləmara (Sahib), s.310; Aləmara (Şükri), s.281.
[3] Aləmara (Sahib), s.459; Aləmara (Şükri), s.406.
[4] Aləmara (Sahib), s.590; Aləmara (Şükri), s.570. "Töhfə", "sovqat" və ya "hədiyyə" mənasını verən savəri termini türk mənşəlidir: В.Ф.Минорский. Материалы для изучения персидской секты «Люди истины» или Али-илахи. Москва, 1911, с.105-107.
[5] И.П.Петрушевский. Очерки, с.272-273.
[6] Aləmara (Sahib), s.311. Bu ixracatın gündəlik məbləği min dinar idi: Xülasətüt-təvarix, s.133.

leyman mirzə hökmdarın əmri ilə Təbrizdən uzaqlaşdırılıb Ərdəbildə yaşasa da, onun lələsi Əhməd sultan Şamlu Təbriz hakimi olaraq qalmaqda idi və *"mirzənin sərkarının ixracatı Təbrizin mədaxilindən ödənilirdi"*[1].

Hökmdar bölgələrə səfərə çıxan zaman onu qarşılamağa gələn yerli feodallar, mülkədarlar şaha yerli əhali adından "payəndaz" və "peşkəş" adlanan hədiyyələr təqdim edirdilər. Payəndaz əsasən qiymətli parçalardan, peşkəş isə müxtəlif əmtəələrdən, heyvanlardan və hətta kölələrdən ibarət olurdu. Şah İsmayılın İsfahan bölgəsinə səfəri zamanı oranın ən varlı şəxslərindən olan Rəis Yusif Rənani onu Atəşgah adlı yerin yaxınlığında qarşılamış, hökmdara payəndaz olaraq zərbafta, məxmər və darayi parçalar, həmçinin Xətayda istehsal olunmuş qumaşlar təqdim etmiş, peşkəş kimi isə "əşrəfi" adlanan qızıl pullarla bəzədilmiş 12 ədəd qiymətli süfrə, 500 ədəd çini qab-qacaq, 100 ədəd kaman, 100 ədəd misri qılınc, 100 ədəd zirehli geyim ("cövşən"), 12 gürcü qulamı, 12 bakirə kəniz, 10 nəfər hindli xacəsaray, 50 baş bədöv Şam atı və yabı, 10 qatardan ibarət qatırlar, dəvələr və s. bağışlamışdı[2].

Rəiyyət dövlət qarşısında müəyyən mükəlləfiyyətlər daşıyırdı və bəzi vaxtlarda dövlət tədbirlərinin təşkilinə, ictimai işlərin görülməsinə cəlb olunurdu. Bu mükəlləfiyyətlər "biyar və şikar" adlanırdı[3]. Şah ova çıxmağa hazırlaşarkən həmin ərazidən xeyli sayda kişi əhalisi səfərbərliyə alınırdı və bu camaat bir neçə günlük məsafədən ov heyvanlarını qovaraq, şahın ov edəcəyi məkana (şikargaha) toplayırdı[4].

"Aləmara"da bəzi digər vergilərin (malcəhət, bac, xərac, tövcih) də adları çəkilir. Lakin elmi ədəbiyyatda Səfəvilər dövründə toplanan vergilər barədə ətraflı məlumat olduğundan, onlardan bəhs etməyə lüzum görmürük[5].

---

1 Aləmara (Sahib), s.481; Aləmara (Şükri), s.427.
2 Aləmara (Sahib), s.85-86; Aləmara (Məclis kitabxanası – 761), v.22b.
3 И.П.Петрушевский. Очерки, с.289-290.
4 Aləmara (Sahib), s.621; Aləmara (Şükri), s.598.
5 Səfəvi dövrünün vergi sistemi haqqında daha ətraflı bax: И.П.Петрушевский. Очерки, с.264-293; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.38-46; yenə onun, Азербайджанское государство Сефевидов в XVI веке, с.224-229.

### C) Torpaq mülkiyyəti formaları və kənd təsərrüfatı

Şah ailəsinə məxsus torpaqlara və hər cür digər mülkiyyətə "xassə" deyilirdi. Həmin mülkiyyətin gəlir-çıxarı "Aləmara"ya əsasən "sərkar-i xasse-yi şərifə" adlanan qurum tərəfindən idarə olunurdu. Həmin qurum döyüşlərdə ələ keçirilmiş qənimətlərdən hökmdar üçün ayrılmış payı, əcnəbi padşahların və vassal hakimlərin şaha göndərdikləri hədiyyələri də qəbul edirdi[1]. Sərkar təsisatı cavabdeh olduğu sahə ilə bağlı mülkiyyət, tədarükat, təchizat və hesabdarlıq işlərinin idarəçiliyini özündə cəmləşdirirdi[2]. Səfəvi şahları xassəyə dövlət torpaqlarının ən münbit sahələrini daxil edirdilər. Artıq I Şah İsmayıl zamanında Cənubi Azərbaycandakı bəzi ərazilərdən savayı, İsfahan vilayətində də şah ailəsinə məxsus əmlak mövcud idi[3].

Dövlət mülkiyyətində olan torpaqlar "mal-i divan" termini ilə ifadə olunurdu və bu mülkiyyətə nəzarət "sərkar-i divan" adlanan qurum tərəfindən həyata keçirilirdi. Divan torpaqlarının əkin sahələri təsərrüfat işləri aparmaq üçün ayrı-ayrı kəndlilərə icarəyə verilir və həmin icarədarlar "müstəciran-i mal-i divan" adlandırılırdılar[4]. Orta əsrlər islam şərqində geniş yayıldığı kimi, Səfəvilər dövlətində də dövlət torpaqlarının hərbi xidmət müqabilində ayrı-ayrı əmirlərə şərti torpaq sahibliyi qismində paylanması təcrübəsi həyata keçirilirdi.

XV əsrdə dövlət torpaqlarının soyurğal hüququ ilə əmirlərə verilməsi geniş xarakter almışdı. Soyurğal sahibi öz ərazisini irsən ötürür, həmçinin vergi və inzibati-məhkəmə immunitetinə malik olurdu. Bu isə öz növbəsində mərkəzi hakimiyyətin zəifləməsinə və əyalət sahibləri üzərində nüfuzunu itirməsinə gətirib çıxarırdı. Səfəvilər hakimiyyətə gəldikdən sonra bu ten-

---

[1] Aləmara (Sahib), s.79,187,321,387,393,409,489.

[2] Aləmara (Sahib), s.634.

[3] Aləmara (Sahib), s.85; Aləmara (Şükri), s.175. Səfəvi dövrünün sonlarına doğru şahın xassə mülkiyyətindən gələn gəlirin illik miqdarının 176224 tümən 5489 dinar olduğunu müəyyənləşdirmişik: N.S.Musalı. Səfəvilər dövlətinin statistikasını əks etdirən bir əlyazma haqqında // Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri (XII Respublika elmi konfransının materialları). Bakı, 2011, s.120.

[4] Aləmara (Sahib), s.92; Aləmara (Məclis kitabxanası – 761), v.24a.

densiyanı aradan qaldırmaq məqsədi ilə soyurğalların məhdudlaşdırılması və onların əvəzinə əmirlərə hərbi xidmət müqabilində, irsi deyil, müvəqqəti və ya ömürlük torpaq sahibliyini ehtiva edən tiyulların paylanması siyasətini həyata keçirdilər[1].

"Aləmara"dan aydın olur ki, hökmdar bəzən tiyul verdiyi şəxsi həm də "sultan" rütbəsi və qiymətli hədiyyələrlə mükafatlandırırdı[2]. Soyurğal əvəzinə Səfəvilər zamanında tiyulun meydana çıxması mərkəzi hakimiyyətin qüvvətlənməsinə xidmət edirdi. Dövlət torpaqlarına hakim təyin olunarkən həmin torpaqlar şahın fərmanı ilə tiyul kimi əyalət hakiminə verilirdi. Tiyul iki formada (vəzifə təyinatı ilə bağlı müəyyən müddətə və şahın fərmanı ilə ömürlük) olurdu. Müvəqqəti verilmiş tiyulun sahibi vəzifədən çıxarıldıqda, başqa işə keçirildikdə və ya öldükdə tiyul ondan geri alınaraq, başqasına verilirdi. Digər tərəfdən, şah istədiyi vaxt tiyuldarı bu hüquqdan məhrum edə bilərdi. Ona görə də tiyul sahibinin tiyulu satmaq, bağışlamaq hüququ yox idi. Yeni şah hakimiyyətə gəldikdə isə onun fərmanı ilə tiyuldarın sahiblik hüququ yenidən təsdiq olunmalı idi. Tiyul sahibi gəlirinin bir hissəsini natura və ya pul şəklində saraya vergi verir, digər hissəsini isə öz ixtiyarında saxlayaraq, özünə və yerli idarə orqanlarına sərf edirdi[3]. Təkcə torpaqlar deyil, dövlətə məxsus su mənbələri də şərti mülkiyyət kimi müəyyən şəxslərə verilə bilərdi[4].

"Aləmara"da tiyul hüququ ilə verilən ərazilər tiyuldarın "ölkəsi" və ya "əyaləti" hesab olunur və bu torpaq paylarının müharibədə göstərilmiş hərbi xidmət müqabilində verildiyi vurğulanır[5]. Şah İsmayıl dövründə imperiya ərazisi ayrı-ayrı qızılbaş oymaqlarının rəisləri arasında bölünmüşdü. L.Lokhart yazır: "O, özünün h. 907-ci ilin əvvəllərində / m. 1501-ci ilin iyulunda Təbrizdə Azərbaycan şahı kimi taxta çıxması ilə nəticələnən

---

[1] И.П.Петрушевский. Очерки, с.158; О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.211-212.
[2] Alәmara (Sahib), s.2; Alәmara (Şükri), s.5.
[3] N.H.Cəfərli. Səfəvilərin dövlət quruluşunda maliyyə və vergi sistemi // AMEA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 2001, № 3, s.85-93.
[4] Alәmara (Şükri), s.176; Alәmara (Məclis kitabxanası – 9421), v.30a.
[5] Alәmara (Sahib), s.67; Alәmara (Şükri), s.72.

hərbi kampaniyadakı uğurunu əsas etibarilə böyük türkman tayfaları olan təkəlülərin, zülqədərlərin, şamluların, rumluların, ustacluların, əfşarların, qacarların və varsaqların hərbi dəstəyinə borclu idi. Şah İsmayıl bu tayfaların başçılarının xidmətləri müqabilində onlara torpaq payları verir, bunun vasitəsilə də feodal sisteminin əsasını təşkil edirdi"[1].

"Ölkə" almış əmirlərlə birgə həmin əraziyə qızılbaş tayfalarının böyük kontingenti də köçürdü. Şahdan mərkəzi Bağdad olmaqla İraq-i Ərəb torpaqlarına sahiblik hüququ almış Xadim bəy Xüləfa orada 12 minlik "sufi" ailəsinin rəisinə çevrilmişdi[2]. Tiyul nəzəriyyəcə müvəqqəti olsa da, bəzən onların irsən keçdiyini də görürük. Mərkəzi Şiraz olmaqla Fars vilayəti hələ 1503-cü ildə fəth edildikdən sonra şahın fərmanı ilə Səfəvilərin xidmətində olan zülqədər tayfasının əyanlarına verilmişdi[3] və bu vilayət 1594-95-ci illədək həmin nəslin sərəncamında qalmışdı[4]. "Aləmara"da göstərilir ki, özünün 1500 nəfərlik dəstəsi ilə Çaldıran döyüşündə iştirak edən Fars əyalətinin hakimi Xəlil xan Zülqədər xəyanətkar çıxmış, həlledici anda şahın əmrinə tabe olmamış və fərar edərək, öz əyalətinə qaçıb getmişdi. Döyüşdən sonra şah onu edam etdirsə də, maraqlıdır ki, onun nəsli həmin əyalətə sahiblikdən məhrum edilməmiş və onun əvəzinə oğlu Əlixan sultan Fars hakimi təyin olunmuşdu[5]. 1507-ci ildə Şərqi Anadolu Səfəvilər dövlətinə birləşdirildikdə *"şah Diyarbəkri və onun ətrafını Məhəmməd xan Ustacluya verdi və onu o sərhədin bəylərbəyisi təyin etdi".* Həmin əyalət *"Məhəmməd xan Ustaclunun ölkəsi"* hesab edilirdi[6]. O, Çaldıran döyüşündə öldürüldükdən sonra Diyarbəkr əyaləti onun qardaşı Qaraxan Ustacluya, onun da 1516-cı ildə Osmanlılara qarşı döyüşdə həlak olmasından sonra azyaşlı oğlu Abdullaya verilmiş və Mahmud sultan Ustaclu onun lələsi və naibi təyin edilmişdi[7]. Lakin Diyarbəkri Osmanlılardan müdafiə

---

[1] L.Lockhart. The Fall of the Safavi Dinasty, p.19.
[2] Aləmara (Sahib), s.169-170; Aləmara (Məclis kitabxanası – 761), v.43b.
[3] Bax: Шараф-наме, т. II., с.147.
[4] K.M.Rohrborn. Provinzen und Zentralgewalt, s.30.
[5] Aləmara (Sahib), s.532; Aləmara (Şükri), s.500.
[6] Aləmara (Sahib), s.192,205; Aləmara (Şükri), s.110,115,121.
[7] Aləmara (Sahib), s.534,547; Aləmara (Şükri), s.504,527.

etmək mümkün olmamış və Qaraxanın oğlu Abdulla xan Ustaclu çox sonralar, Şah Təhmasib zamanında Şirvan bəylərbəyisi postuna təyin olunmuşdur[1]. "Aləmara"da 1509-10-cu ilin hadisələrindən bəhs olunarkən Kirman əyalətinin Məhəmməd xan Əfşara məxsus olduğu qeyd edilir[2]. Həmin ərazi I Şah Abbas zamanında da əfşar tayfasının rəislərinə mənsub idi[3]. İsfahan vilayəti Durmuş xan Şamluya[4], Damğan vilayəti İlyas bəy Halvaçıoğluya[5], Ərzincan Nurəli xəlifə Rumluya[6], Urmiya Süleyman bəy Şamluya məxsus idi[7]. 1510-cu ildə özbəklərə qarşı uğurlu müharibədən sonra ələ keçirilmiş geniş ərazilər də qızılbaş rəislərinə paylandı: Mərv Abdal bəy Dədəyə, Herat Hüseyn bəy Lələyə, Astarabad Zeynal xan Şamluya[8], Bəlx Bayram xan Qaramanluya[9] şəfqət edildi. Çaldıran döyüşü zamanı Şah İsmayılın həyatını xilas edən Xızır ağa Ustacluya Darabcərd hakimliyi verilmişdi[10]. Eyni zamanda, bir çox hallarda əyalətlərin irsən keçməsinin qarşısı alınır və şah istədiyi vaxt ərazi sahibini öz hüququndan məhrum etmək səlahiyyəti daşıyırdı. Məsələn, Herat əyaləti Hüseyn bəy Lələyə mənsub olsa da, daha sonra Zeynal xan Şamluya, onun ardınca isə Əmir xan Mosulluya verilmiş, lakin o, cinayət əməllərində ittiham olunub həbsə alındıqda həmin vilayət Durmuş xan Şamluya bəxş edilmişdi. Əmir xan Mosullu həbsdə vəfat etdikdən sonra saray adamları türkman tayfasına onun oğlu Gülabi xanın başçı təyin olunmasını təklif etsələr də, şah Gülabi xanın hələ çox gənc olduğunu və işin öhdəsindən gəlməyə onun gücünün yetməyəcəyini söyləyərək, bu təklifi qəbul etməmişdi[11].

---

[1] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.89.
[2] Aləmara (Sahib), s.326; Aləmara (Şükri), s.270.
[3] А.А Рахмани. «Тарих-и алам ара-йи Аббаси» как источник, с.134.
[4] Aləmara (Şükri), s.177; Aləmara (Məclis kitabxanası – 9421), v.30b.
[5] Aləmara (Sahib), s.111; Aləmara (Məclis kitabxanası – 761), v.28b.
[6] Aləmara (Sahib), s.506; Aləmara (Şükri), s.462.
[7] Aləmara (Sahib), s.533.
[8] Aləmara (Sahib), s.451,454; Aləmara (Şükri), s.398,401,410.
[9] Aləmara (Sahib), s.393; Aləmara (Şükri), s.341.
[10] Aləmara (Sahib), s.531; Aləmara (Şükri), s.499.
[11] Aləmara (Sahib), s.553-554,603,615,618; Aləmara (Şükri), s.535,582, 592,594.

Bayram xan Qicduvanda həlak olduqdan sonra onun əyaləti oğluna deyil, Div sultan Rumluya həvalə edilmişdi[1].

Bəzi hallarda əmirlərə "ölkə" verilərkən onların rəyi nəzərə alınırdı. Dövlətlərarası münaqişə və müharibə zonalarında "ölkə" alan əmir sərhədin qorunması ilə yanaşı, mərkəzi hakimiyyətin köməyi olmadan düşmən ərazisindən nə qədər torpaq fəth edə bilərdisə, həmin torpaqlar onun "ölkə"sinin tərkibinə qatılırdı. Məsələn, Şah İsmayıl Nurəli xəlifə Rumluya Bəlx sərhədində "ölkə" vermək istəsə də, Nurəli xəlifə *"Rum sərhədində ölkə istədiyini"* dilə gətirmiş, şah onun xahişini yerə salmamışdı. Nurəlini Osmanlılarla münaqişə zonası olan Ərzincana hakim təyin edən Şah İsmayıl ona belə təlimat vermişdi: *"Öz adamlarını götür və Ərzincan tərəfə get ki, o sərhədi tamamilə sənə bəxş edirəm. Bundan başqa, hər haranı ki iti qılıncının zərbi ilə tutarsan, sənin olsun"*[2].

Bəzən mərkəzi aparatda mühüm vəzifələr tutan şəxslərə torpaq payları verildikdə onlar öz qohumlarından və tayfadaşlarından kimisə həmin əraziyə hakim təyin edir, özləri isə sarayda yaşamağa davam edirdilər[3]. Məsələn, Yəzd əyaləti Hüseyn bəy Lələyə verilmiş, o isə əvvəlcə Şüeyb ağaya, onun ölümündən sonra Musa bəy Şamluya Yəzdin idarəçiliyini tapşırmışdı[4]. Bəylərbəyi təyin edilmiş əmir həmin ərazinin sahibi hesab olunurdu: *"Allahın kölgəsi olan həzrət (Şah İsmayıl) Div sultana buyurdu ki, sən bu səfərdə mərdanəlik göstərib xidmət yerinə yetirdiyindən, Ceyhun çayı kənarından ta Əndicana qədər uzanan ərazini sənə bağışlayıram və Bəlx bəylərbəyiliyini sənə şəfqət edirəm"*[5]. Bəylərbəyi öz vilayətinə daxil olan bütün mahalların hakimlərindən mülazimlər vasitəsilə vergilər yığır və onların bir qismini şah xəzinəsinə təhvil verirdi[6]. Bəylərbəyi döyüş zamanı ələ keçirilmiş qənimətin 1/5 hissəsini özünə götürür, müəyyən bir hissəsini şaha göndərir, qalanlarını əsgər-

---

[1] Aləmara (Sahib), s.476; Aləmara (Şükri), s.420.
[2] Aləmara (Şükri), s.462; Aləmara (Sahib), s.506.
[3] Aləmara (Sahib), s.193; Aləmara (Şükri), s.121.
[4] Aləmara (Sahib), s.133,327; Aləmara (Şükri), s.271.
[5] Aləmara (Sahib), s.476; Aləmara (Şükri), s.420. Bizcə, burada Əndican əvəzinə Əndixud olmalıdır.
[6] Aləmara (Sahib), s.543; Aləmara (Şükri), s.521.

lərə paylayırdı[1]. Birbaşa şaha tabe olan əyalət sahibləri geniş hüquqlara malik idilər. J.Şarden yazır ki, "xanların hamısı öz əyalətlərinin tamam qüdrətini öz ixtiyarlarında saxlayırlar və orada kiçik padşah statusundadırlar"[2].

"Aləmara"da Səfəvilər dövründə mərkəzi Gəncə hesab olunan Qarabağ əyaləti haqqında maraqlı məlumatlar verilir. K.Rohrborn gürcü mənbələrinə istinadən Qarabağ bəylərbəyiliyinin yaradılmasını 1554-cü ilə aid etmiş və qacar tayfasından olan Şahverdi sultan Ziyadoğlunu Qarabağın ilk bəylərbəyisi hesab etmişdir[3]. Lakin "Aləmara"nın faktları göstərir ki, bundan çox əvvəllər, hələ Şah İsmayılın hakimiyyətinin erkən çağlarından Qarabağ bəylərbəyiliyi mövcud idi və həmin vaxtlardan etibarən orada qacarlar hökmranlıq edirdilər. 1501-ci ildə Əlvəndin məğlubiyyətindən dərhal sonra Gəncə şəhəri də Səfəvilərin tabeçiliyinə keçmiş və Şah İsmayıl oranı *"qızılbaş əmirlərinə tapşırmışdı"*[4]. Anonim müəllif 1508-ci ilin hadisələrindən bəhs edərkən yazır ki, Şah İsmayıl *"Qarabağ bəylərbəyiliyini və o sərhədi Qara Pirinin oğlu Rüstəm bəyə inayət etmişdi"*[5]. Buradan aydın olur ki, Qarabağ bəylərbəyiliyi heç də 1554-cü ildə Şah Təhmasib tərəfindən deyil, hələ I Şah İsmayılın hakimiyyətinin ilk dönəmlərində yaradılmışdı və oranın ilk qızılbaş bəylərbəyisi Şahverdi sultan deyil, "Tozqoparan" ləqəbli məşhur sərkərdə Qara Piri bəy Qacarın oğlu Rüstəm bəy Qacar olmuşdur[6]. Qara Piri bəy Ziyadoğlular nəslinə deyil, qacarların başqa bir qoluna mənsub idi[7]. Ziyadoğlular nəslinə gəlincə, bu nəslin məlum olan ilk nümayəndəsi Şah Təhmasib

---

[1] Aləmara (Sahib), s.242; Aləmara (Şükri), s.159. Müharibədə əldə edilmiş qənimətin 1/5 hissəsinin (pənc-yek) xanlar xanına çatması qədim türk ənənələrindən idi: "Quşun ala qatını, qumaşın arusını, qızın gögçəgini, doquzlama çırğab çuka Bayındır xana pənc-yek çıkardılar. Baqisin ğazilərə bəxş etdilər": Kitabi-Dədə Qorqud. Bakı, 2004, s.124.

[2] K.M.Rohrborn. Provinzen und Zentralgewalt, s.56.

[3] K.M.Rohrborn. Provinzen und Zentralgewalt, s.4.

[4] Aləmara (Sahib), s.59; Aləmara (Şükri), s.63.

[5] Aləmara (Sahib), s.170; Aləmara (Məclis kitabxanası – 761), v.44a.

[6] N.S.Musalı. Səfəvilər zamanında Qarabağ bəylərbəyiliyinin yaradılması və onun inzibati quruluşu // Qarabağ dünən, bu gün və sabah (V Respublika elmi-əməli konfransının materialları). Bakı, 2006, s.165-169.

[7] F.Sümer. Safevî Devletinin kuruluşu, s.54.

dövrünün əvvəllərində, XVI əsrin 20-ci illərində Səfəvi xidmətinə girmiş Xəzər bəy olmuş, onun oğlu Ümmət xan da Təhmasibə sədaqətlə xidmət etmiş, nəhayət, Ümmətin ölümündən sonra onun oğlu Şahverdi sultan Gəncə (Qarabağ) bəylərbəyisi təyin olunmuşdu[1]. Məlumdur ki, qacarlar hələ Ağqoyunlu dövründən Qarabağda fəaliyyət göstərmişlər[2]. O.Əfəndiyevin qeyd etdiyi kimi, "məhz I Şah İsmayıl dövründə Qarabağda hakimiyyət qaramanlu tayfasından qacarlara keçmişdi"[3]. I Şah Abbas dövründə Qarabağ bəylərbəyiliyində yaşayıb-yaratmış Fəzli bəy İsfahaninin "Əfzəlüt-təvarix" əsərində 1540-41-ci illərin hadisələrindən bəhs edilərkən həmin vaxt Gökcə sultan Qacarın Qarabağ bəylərbəyisi kimi göstərilməsi[4] də bu bəylərbəyiliyin XVI əsrin ilk yarısında var olduğunu və orada qacar tayfasının hökm sürdüyünü bir daha təsdiq edir.

"Aləmara"dan aydın olur ki, Şah İsmayıl zamanında dövlət torpaqları hesabına "tiyul", "ölkə" şəklində hərbi-köçəri əmirlərə verilən ərazilər əsasən müvəqqəti və ya ömürlük xarakter daşısa da, bəzən şahın izacəsi və göstərişi ilə irsən də ötürülürdü. Eyni zamanda, müstəsna hallarda soyurğal verilməsi hadisəsinə də rast gəlirik. Məsələn, Şah İsmayıl İsfahanın mühasirəsi zamanı ərzaq çatışmamazlığı hiss edən qızılbaş ordusuna qida məhsulları gətirən və Səfəvi ailəsinə sədaqət göstərən yerli mülkədar Rəis Yusifə Rənan kəndində *"su və mülkdən ibarət olan padşah əmlakını"* soyurğal olaraq bəxş etmişdi[5]. 1508-ci ildə İraq-i Ərəb fəth edildikdən sonra şah Həzrət Əli məqbərəsinin xidmətkarlarına *"soyurğallar inayət eyləmişdi"*[6]. Diqqəti çəkən cəhət odur ki, əgər XV əsrdə so-

---

[1] И.Павлова. Хроника времен Сефевидов (сочинения Мухаммед-Масума Исфахани «Хуласат ас-сияр»). Москва, 1993, с.59.
[2] Əhsənüt-təvarix (Ə.Nəvai), s.632.
[3] О.А.Эфендиев. Карабах в составе государств Каракоюнлу, Аккоюнлу и Сефевидов (XV-XVI вв.) // Карабах: очерки истории и культуры. Баку, 2004, с. 64.
[4] S.M.Onullahi. "Əfzəl ət-təvarix" əsəri Azərbaycan tarixinin mənbəyi kimi // Azərb. SSR EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1978, № 2, s.43.
[5] Aləmara (Sahib), s.85,95; Aləmara (Məclis kitabxanası – 761), v.22b,24b.
[6] Aləmara (Sahib), s.168; Aləmara (Məclis kitabxanası – 761), v.43b.

yurğallar yarımköçəri tayfa əyanlarına verilən iri ərazilərdən ibarət idisə, Səfəvilər hakimiyyətə gəldikdən sonra hərbçilərə deyil, əsasən şiə ruhanilərinə və xüsusi xidmətlər göstərmiş oturaq mülkədarlara, həm də əvvəlkindən fərqli olaraq, xeyli kiçik həcmdə soyurğallar verilirdi. Soyurğal sahibi vergi vermir və öz torpağını irsən ötürmək hüququna malik olurdu.

Səfəvilər zamanında soyurğal termini həm də hökmdarın rəiyyətə verdiyi hədiyyə, bəxşiş mənasında işlədilirdi. Soyurğalın özündə əşyavi hədiyyələri ehtiva edən bu şəkli "cins soyurğalı" adlanırdı[1]. Soyurğalın bu növü haqqında "Aləmara"da da məlumat verilir. Mənbədə qeyd olunur ki, Şah İsmayıl Simnanda olarkən yerli əhaliyə *"ənamlar və soyurğallar paylamışdı"*[2].

Oturaq feodallara məxsus ərazilərə "mülk" deyilirdi. Mülkədarlar öz ərazilərini sata, bağışlaya və icarəyə verə bilərdilər. Mülk alqı-satqısı zamanı eni və uzunu 60 arşın olan "cərib" adlı yer ölçüsü vahidindən istifadə olunurdu. Çoxlu mülk sahələrinə malik olan mülkədarlar bəzən öz təsərrüfatlarının idarə olunması üçün iqtisadi səriştəsi olan şəxsləri öz mülklərinə "mütəsəddi" təyin edirdilər. Mütəsəddi həm də mülkədarın sifarişi ilə onun üçün yeni torpaqlar alır, bir sözlə, iqtisadi məsələlərdə onun vəkili kimi çıxış edirdi[3].

Dini şüarlar altında hakimiyyətə gəlmiş Səfəvilərin zamanında dini müəssisələrə və şiə ruhanilərinə vəqf torpaqları verilməsi prosesi geniş xarakter almışdı. "Aləmara"da Şah İsmayıl dövründə fəaliyyət göstərən ən iri vəqflər kimi Azərbaycandakı Şeyx Səfi və Qazan padşah məqbərələrinin, Nəcəfdəki Həzrət Əli məqbərəsinin və Məşhəddəki İmam Rza məzarının vəqfləri qeyd olunur[4]. Məqbərələrin vəqflərini idarə etmək, yəni "touliyyət" funksiyasını həyata keçirmək üçün "mütəvəlli" vəzifəsi daşıyan ruhanilər təyin olunurdu. *"İraq əhlinin kübar seyidlərindən olan"* Seyid Məhəmməd Kəmunə *"Həzrət Əmirül-*

---

[1] Ş.K.Məmmədova. "Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi, s.31.
[2] Aləmara (Sahib), s.340; Aləmara (Məclis kitabxanası – 761), v.87b.
[3] Aləmara (Sahib), s.90,92; Aləmara (Məclis kitabxanası – 761), v.23b-24a.
[4] Aləmara (Sahib), s.92,162,343,480; Aləmara (Şükri), s.124,290-291,427.

*mömininin şərəfli məqbərəsinin mütəvəllisi”* və *“həzrətin ziyarətgahının kiliddarı”* idi[1]. 1508-ci ildə Şah İsmayıl Bağdadı tutarkən *“Nəcəf-i Əşrəfin touliyyətini”* yenidən ona tapşırmaqla kifayətlənməmiş, həmçinin onun şəxsən özünə İraq-i Ərəb vilayətində bəzi torpaqlar bağışlamışdı[2]. Vəqflər geniş imkanlara malik idilər. Şah İsmayıl özü şəxsən Həzrət Əli məqbərəsinə ipək və güləbətin saplardan toxunmuş zərif xalılar, keçədən hazırlanmış döşənəklər, zərbafta pərdələr, qızıl və gümüş qəndillər, öz şəxsi malından 30 min tümən bağışlamışdı[3].

Ərdəbildəki Şeyx Səfi məqbərəsində xeyli miqdarda qızıl və gümüş əşyalar saxlanılırdı. 1513-cü ilin sonunda Süleyman mirzə qiyam qaldırarkən həmin əşyaları əridib sikkə zərb etdirmiş və öz tərəfdarlarına paylamışdı[4]. Gəlir gətirə bilən hər hansı əmlak vəqf ola bilərdi. Lakin vəqfin əsas sahəsini torpaq mülkiyyəti təşkil edirdi[5]. Vəqf torpaqlarında geniş təsərrüfat işləri həyata keçirilirdi. “Aləmara”ya görə, hələ XV əsrin əvvəllərində, Xoca Əli dövründə Ərdəbildə, Şeyx Səfi məqbərəsinin xanəgah təsərrüfatında nadir darı növləri və əla keyfiyyətli Misir düyüsü becərilirdi. Belə ki, həmin zaman Xoca Əli Ərdəbilə gəlmiş Əmir Teymuru öz xanəgahında qonaq etmiş və şeyxin müridləri hökmdarın qarşısındakı süfrəyə süddə düyüdən hazırlanmış bir boşqab “şirbirinc” adlı yemək qoymuşdular. Belə bir yeməyi öz hökmdar şəxsiyyətinə layiq bilməyən Əmir Teymurun üzündə narazılıq əlamətləri sezilmişdi. Bunu hiss edən Xoca Əli əlavə izahat verməyi lazım bilmiş, xanəgah təsərrüfatında yetişdirilmiş və bu xörəyin hazırlanmasında istifadə olunmuş ərzaqların keyfiyyətini tərifləmiş və hökmdarın şirbirinci yeməsini təkid etmişdir: *“Çünki bunun südü ahu südündəndir, düyüsü bizim xanəgah bağçasında əkdiyimiz Misir mülkünün düyüsündəndir və qarşınıza qoyulmuş bu dəyirmi və yastı çörək elə bir darıdandır ki, Siz ömrünüz boyu belə bir*

---

[1] Aləmara (Sahib), s.162; Aləmara (Şükri), s.124.
[2] Aləmara (Sahib), s.165; Aləmara (Məclis kitabxanası – 761), v.42b.
[3] Aləmara (Sahib), s.168; Aləmara (Şükri), s.128-129.
[4] Aləmara (Sahib), s.480; Aləmara (Şükri), s.427.
[5] Ş.K.Məmmədova. “Xülasət ət-təvarix” Azərbaycan tarixinin mənbəyi kimi, s.33.

*çörəyin dadına baxmamışsınız".* Xörəyi yeyən Teymur onu çox bəyənmişdi[1].

Dini müəssisələrlə yanaşı, ayrı-ayrı ruhanilərə də vəqflər verilirdi. Məsələn, böyük şeyxlərə xüsusi hörmət göstərən Əmir Teymur xorasanlı ruhani Baba Səngkuhiyə torpaq vəqfləri vermişdi. Onun əmri ilə *"neçə-neçə kənd ayrılmışdı ki, hər il onların hasilini Babaya versinlər və ondan sonra onun övladlarına versinlər ki, onların vəqfində qalsın"*[2].

Vəqflər vergi immunitetinə malik olduqlarından bəzi mülkədarlar böyük bir həvəslə öz şəxsi torpaqlarını vəqf elan edərək, özləri həmin vəqfin mütəvəllisinə çevrilir və torpağın faktiki sahibi olaraq qaldıqları halda, asanlıqla vergidən yayına bilirdilər[3]. Şəxsi əmlakı *"on dörd məsuma vəqf etmək"* xüsusilə geniş yayılmışdı. Bunun üçün yerli qazının möhürü ilə xüsusi *"vəqfnaməçə"* tərtib olunurdu. Məsələn, hələ Ağqoyunlu dövründə İsfahan vilayətinin ən varlı şəxslərindən sayılan, Həsən padşahın fərmanı ilə xüsusi imtiyazlara sahib olan Rəis Bərəkə 10 min tümənlik əmlakını vəqfə çevirmişdi. Rüstəm padşahın hakimiyyətinin sonlarında İsfahan hakimi Hacı Kövsəc Bayandurun onunla konflikti düşmüş və onu edam etdirib, qanunsuz surətdə onun vəqfinə yiyələnmişdi. Az sonra, 1497-ci ildə Rüstəmin əvəzinə Gödək Əhməd taxta çıxdıqda Bərəkənin qardaşı oğlu Rəis Yusif vəqf sənədlərini götürüb, Təbrizə yollanmış və yeni hökmdara şikayət etmişdi. Gödək Əhməd tezliklə İsfahana gəlib məsələyə yerindəcə aydınlıq gətirəcəyinə söz versə də, bir qədər sonra o öldürülmüşdü. Vəqf sahibinin haqqı yalnız Şah İsmayıl hakimiyyətə gəldikdən sonra bərpa edilmiş və "Həsən padşahın dəftəri"nə əsasən Rəis Bərəkənin malik olduğu imtiyazlar və ərazilər yenidən onun ailəsinə qaytarılmışdı[4].

Feodalların separatçılığı ilə mübarizə aparan Şah İsmayılın zamanında mərkəzi hakimiyyətin güclənməsi, feodal ara müharibələrinin azalması kənd təsərrüfatının dirçəlməsinə tə-

---

[1] Aləmara (Sahib), s.20; Aləmara (Şükri), s.24.
[2] Aləmara (Sahib), s.16; Aləmara (Şükri), s.20.
[3] A.Lambton. Landlord and Peasant, p.113.
[4] Aləmara (Sahib), s.93-95; Aləmara (Məclis kitabxanası – 761), v.24a-b.

kan verirdi[1]. "Alәmara"nın materiallarından aydın olur ki, Sәfәvilәr dövlәtinin әrazisindә, o cümlәdәn Azәrbaycanda taxılçılıq geniş yayılmışdı, *"buğda, arpa vә sair qida mәhsulları",* hәmçinin çәltik becәrilirdi[2]. Şәhәr yaxınlığında yaşayan oturaq mülkәdarların bir qismi bağ-bostan tәsәrrüfatı ilә dә mәşğul olmağı üstün tutur vә öz mәhsullarını yoxsul hәmkәndlilәri vasitәsilә şәhәr bazarında satdırırdılar[3]. Maldarlıqla isә әsasәn yaylaq-qışlaq tәsәrrüfatına üstünlük verәn tәrәkәmә tayfalar mәşğul olurdular. Onlar istifadә etdiklәri otlaqların müqabilindә dövlәt xәzinәsinә illik vergi *("sovqat")* verirdilәr[4]. İmperiyanın hәr tәrәfinә yayılmış türkman elatlarının başlıca mәşğuliyyәti maldarlıq idi. Hansısa bir әmirә "ölkә" verildikdә o, oraya öz tayfası ilә gedirdi. Lakin hәmin tayfalar şәhәrlәrdә vә digәr yaşayış mәskәnlәrindә deyil, maldar tәsәrrüfatın inkişafı üçün münasib olan әrazilәrdә mәskunlaşır vә tәrәkәmә hәyat tәrzi keçirirdilәr. Mәsәlәn, Kirman hakimi Mәhәmmәd xan Әfşar özü 500 nәfәrlik qoşunu ilә Kirman şәhәrindә yaşasa da, onun tayfası, yәni *"әfşar eli"* öz malları vә qoyunları ilә birlikdә şәhәrdәn 6 fәrsәx kәnardakı örüşlәrdә mәskәn tutmuşdu[5]. V.Minorski yazır: "Türkmanlar әtrafdakı әhalidәn ayrı yaşayırdılar. Onlar öz sürülәri ilә yaylaqlardan qışlaqlara köç edәn maldarlar idilәr. Klanlarla tәşkilatlanmışdılar vә öz birbaşa başçılarının göstәrişinә tabe idilәr. Türkmanların milli fars әnәnәlәrinә heç bir bağlılıqları yox idi. Neftlә su bir-birinә qarışmadığı kimi, türkmanlarla farslar da sәrbәstcә qarışmırdılar"[6]. Şah İsmayıl dövründә Sәfәvilәr dövlәtinә gәlmiş bir portuqaliyalı diplomatın qızılbaş türkmanların iqtisadi hәyatı vә mәişәti haqqında müşahidәlәri "Alәmara"nın mәlumatlarını vә V.Minorskinin dәyәrlәndirmәlәrini tamamlayır: "Onların hәyatları kiçik başlı heyvan vә at bәslәmәklә keçir... Qadınları çox gözәldir, ipәkdәn mükәmmәl xalı toxuyurlar. Hәr zaman çadır-

---

[1] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов, с.201-202.
[2] Alәmara (Sahib), s.20,97; Alәmara (Mәclis kitabxanası – 761), v.6a,25b.
[3] Alәmara (Sahib), s.88; Alәmara (Şükri), s.165.
[4] Alәmara (Sahib), s.50; Alәmara (Şükri), s.54.
[5] Alәmara (Sahib), s.327; Alәmara (Şükri), s.270-271.
[6] V.Minorsky. "Tadhkirat al-muluk", p.188.

larla dolaşırlar... Onların hər bir qrupu təxminən 500-600 çadırdan ibarətdir... Hər zaman yay və ya qış olduqda iqlimi daha yaxşı olan başqa yerlərə köçürlər. Biz şahın bütün ərazi və dağlarında bu xalqı gördük... Qırmızı başlıq taxırlar, türkcə danışırlar və özlərinə "qırmızı başlar" mənasına gələn "qızılbaş" deyirlər"[1].

Türkmanlardan savayı, İranın bəzi yerli tayfaları da tərəkəmə həyat tərzi sürüb, maldarlıqla məşğul olurdular. Məsələn, Xürrəmabad bölgəsində yaşayan 40 min evlik lur tayfasının peşəsi maldarlıq idi və onların mal-qara və qoyun sürüləri var idi[2]. Ümumiyyətlə, maldarlıqda inək, qoyun, dəvə, keçi, at saxlanması geniş yayılmışdı. İmperiyanın Xəzərsahili vilayətlərində balıqçılıq intişar tapmışdı. Araşdırdığımız mənbədə Qülzüm dənizi adlandırılan Xəzər dənizində balıqçı gəmiləri ("kəşti-yi mahigiri") üzürdü[3].

### *D) Şəhərlər, sənətkarlıq və ticarət*

Səfəvilər dövründə şəhərlər və şəhər həyatı inkişaf etməkdə idi. "Aləmara"da həmin dövrə aid Dəmirqapı, Şamaxı, Gəncə, Naxçıvan, İrəvan, Lənkəran, Təbriz, Ərdəbil, Urmiya, Xalxal, Xoy, Sufiyan, Sultaniyyə, Sərab, Səlmas, Şənb-i Qazan, Tarom, Qəzvin, Marağa, Miyanə kimi Azərbaycan şəhərlərinin adları çəkilir. Əsrlər boyunca nəhəng imperiyaların paytaxtı olmuş Təbriz şəhəri *"darüssəltənə"* ("sultanlıq məkanı") adlandırılır. "Aləmara"da qeyd olunur ki, 1501-ci ildə Təbriz əhalisinin sayı 200-300 min nəfər idi[4]. 1524-cü ildə Təbrizdə olmuş portuqaliyalı A.Tenreiro bu şəhərin 60 min evdən ibarət olduğunu yazmışdır[5]. Həmin zaman Səfəvilər dövlətinə daxil olan şəhərlər arasında əhali çoxluğu cəhətdən Təbriz birinci yeri tuturdu[6]. Şəhərdə hökmdar sarayı, Həsən padşah məscidi, Şah

---

[1] S.Özbaran. Portegizli seyyahlar, s.36.
[2] Aləmara (Sahib), s.175; Aləmara (Məclis kitabxanası – 761), v.45a.
[3] Aləmara (Sahib), s.378; Aləmara (Şükri), s.324.
[4] Aləmara (Şükri), s.64.
[5] S.Özbaran. Portegizli seyyahlar, s.162.
[6] S.M.Onullahi. XIII-XVII əsrlərdə Təbriz şəhəri, s.72.

Qazan günbəzi və s. məşhur tikililər var idi[1]. Maraqlıdır ki, Təbriz şəhəri qala divarları ilə əhatə olunmamışdı: *"Təbriz şəhərinin hasarı yoxdur"*[2]. Bu məlumatı Şah İsmayıl dövründə Azərbaycana səfər etmiş bir venesiyalı tacir də təsdiq edir: "Bu böyük şəhərin çevrəsi, məncə, təxminən 24 mil olub, Venesiya kimi, onun da qala divarları yoxdur"[3]. Bizim müəllifin müasiri olmuş bir fransız səyyahı da Təbrizin qala divarları ilə əhatələnmədiyini yazır: "Onun nə divarları, nə də müdafiə istehkamları vardır"[4].

Səfəvi şeyxlərinin vətəni olan və imperiya daxilində dini mərkəz kimi mühüm yer tutan Ərdəbil şəhəri *"darülirşad"* ("irşad məkanı") adlanırdı. Azərbaycan şəhərləri Səfəvilər dövlətinin iqtisadi həyatında önəmli rol oynayırdılar. Təkcə Urmiyadan xəzinəyə gələn illik mədaxil 4 min tümən məbləğində idi[5]. Səfəvi şəhərlərinin iqtisadi strukturunda aparıcı rol sənətkarlıq və ticarətə məxsus idi[6]. Şəhərlərdə ərbablar, tacirlər, ruhanilər *(qüzzat, sadat, füzəla, məşayix),* sənətkarlar *(hünərməndan, əsnaf-i karan, mərdom-i senf),* dükançılar, baqqallar və s. yaşayıb fəaliyyət göstərirdilər[7]. Səfəvi şəhərlərində orta əsr sənətkarlığının bütün başlıca növləri təmsil olunmuşdu[8]. "Aləmara"nın materialları həmin dövrdə toxuculuq (ipək, güləbətin, zərbafta, darayi, atlas, məxmər, qumaş, kətan, bez parçalar və s.), xalçaçılıq, dəmirçilik, zərgərlik, misgərlik ("səffar"lar), gön-dəri emalı, pinəçilik, dulusçuluq, çörəkbişirmə ("xəbbaz"-lar), dəyirmançılıq, inşaatçılıq (bənnalar), parfümeriya istehsalı və s. kimi sənətkarlıq sahələrinin inkişaf etdiyini göstərir[9].

---

[1] Aləmara (Sahib), s.64,529,533; Aləmara (Şükri), s.68,498,502.
[2] Aləmara (Sahib), s.152; Aləmara (Məclis kitabxanası – 761), v.39a.
[3] Seyyahların gözü ile, s.153.
[4] J.Şardən . Səyahətnamə. Bakı, 1994, s.72.
[5] Aləmara (Sahib), s.533.
[6] К.К.Куция. Социально-экономическая структура и социальная борьба в горадах Сефевидского Ирана. Тбилиси, 1990. с.50.
[7] Aləmara (Sahib), s.101,135,221,297,410,446-447; Aləmara (Şükri), s.84, 173,246,357,393.
[8] К.К.Куция. Социально-экономическая структура, с.6.
[9] Aləmara (Sahib), s.86,89,134,145,168,362,447,471; Aləmara (Şükri), s.100,128-129,197,216,291,307,418,454,501 və s.

*"Kargah"* adlanan emalatxanalar vardı[1]. Lakin buna baxmayaraq, Səfəvi şəhərləri hələ də kənd təsərrüfatından tam olaraq ayrılmamışdılar. Məsələn, şəhərlərdə iri buynuzlu mal-qaranın saxlandığı "gavdan"lar mövcud idi[2]. Səfəvi dövründə Azərbaycan şəhərlərində əhalinin kənd təsərrüfatı ilə də məşğul olması faktlarına rast gəlinsə də, şəhər sakinlərinin əksəriyyətinin gəlirlərinin başlıca mənbəyi sənətkarlıq və ticarət idi[3].

Şəhərlər adətən qala divarları ilə əhatəyə alınır, onların bir çoxunda *"narınqala"* adlanan iç qalalar da olurdu. Şəhərlərin daxilində məscidlər, mədrəsələr, "Hüseyniyyə" adlanan şiə dini mərkəzləri, karvansaralar, hamamlar, meydanlar, bağlar, bazarlar, ictimai və dövlət binaları, yaşayış evləri, o sıradan zənginlərin hündür divarlarla əhatə olunmuş imarətləri var idi. Şəhərətrafı ərazi *"bölük"* və ya *"bölükat"* adlanırdı. Məsələn, İsfahan ətrafında 9 bölük yerləşirdi[4].

Şəhər inzibati idarəsinin başında daruğa dururdu. O, şəhərdə və onun ətrafında nizam-intizama nəzarət edirdi və məhkəmə hakimiyyətinə malik idi. Daruğanın mahiyyətcə şəhər həyatının bütün sferalarına müdaxilə etmək hüququ vardı[5]. O, əhalini "oğurluqdan, qarətdən, qalmaqaldan, sitəmkarlıqdan, qətl hadisələrindən, fırıldaqdan, şəriətə zidd olan qumar, şərab içmək və digərlərinin hüquqlarına təcavüzdən çəkindirmək" funksiyasını daşıyırdı. Daruğa şəhərdəki bütün hüquq-mühafizə dəstələrinə ümumi komandanlığı icra edirdi. Şəhər idarəçiliyində əhəmiyyətinə görə ikinci şəxs kələntər idi. O, şəhərin iqtisadi həyatına nəzarət edirdi. Şəhər məhəllələrinin başçıları isə "rəis" adlanırdılar. Məhəllə rəislərinin və əsnaf ağsaqqallarının təyin olunması kələntərin səlahiyyətinə daxil idi. O, bu təyinatları hər məhəllənin sakinləri və hər sənət növünün təmsilçiləri ilə məsləhətləşərək irəli sürürdü[6]. Şəhər idarəçiliyindəki vəzifələrdən biri də "sahib-i ehdas" idi. O, "şəb-

---

[1] Aləmara (Sahib), s.297.
[2] Aləmara (Sahib), s.100; Aləmara (Məclis kitabxanası – 761), v.26a.
[3] М.Х.Гейдаров. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Ремесло и ремесленные центры. Баку,1982, с.110.
[4] Aləmara (Sahib), s.91; Aləmara (Məclis kitabxanası – 761), v.24a.
[5] К.К.Куция. Социально-экономическая структура, с.105.
[6] Aləmara (Sahib), s.634.

gərdan" adlanan və gecələr şəhərdə asayişi qoruyan patrul dəstəsinin komandiri hesab olunurdu[1]."Dəsturül-müluk"da bu vəzifə "mirşəb" ("gecə əmiri") adlandırılmışdır[2]. "Aləmara"nın məlumatına görə, Mərv döyüşündən sonra qızılbaşların ön dəstəsi Herata daxil olan zaman şəhərin ehdas rəisi Pəhləvan Məhəmməd idi. O, qızılbaş zabiti Qulucan bəyə qarşı saymamazlıq göstərdiyi üçün şəhər çarşısında qətlə yetirilmişdi[3]. Şəhər əsnaflarının mənəvi və inzibati başçıları nəqib adlanırdılar və onlar kələntərlərin köməkçi və müavinləri hesab olunurdular[4]. Nəqiblər şəhərin adlı-sanlı şəxsləri arasından təyin edilirdilər. "Aləmara"da onlar *"alicənab nəqiblər"* adı ilə xatırlanırlar[5].

XV əsrin sonlarında aparılan feodal ara müharibələri, iqtisadiyyatın bütün sahələrinə olduğu kimi, ticarətə də ağır zərbə vurmuşdu. Tacir karvanları tez-tez quldur basqınlarından əziyyət çəkirdilər[6]. Lakin bu cür hərəkətləri *"alçaq əməl"* adlandıran Şah İsmayılın dövründə görülmüş xüsusi tədbirlər bu sahədəki problemləri xeyli dərəcədə aradan qaldırdı. "Aləmara"-da göstərilir ki, müsəlmanlardan və ya kafirlərdən ibarət olmasından asılı olmayaraq, hər hansı bir tacir karvanının qarət edilməsinə qarşı sərt cəza tədbirləri görülür, tacirləri öldürənlər tutulub edam olunurdular[7]. Quldurlar həbs edildikdə onların taladıqları malların kimə aid olduğu müəyyənləşdirilir, həmin mallar öz sahiblərinə (əgər sahibləri ölmüşsə, varislərinə) geri qaytarılırdı[8]. Səfəvilər dövlətinin beynəlxalq ticarət əlaqələri də güclənirdi. Səfəvi ərazisində yerli ("Əcəm") tacir karvanları ilə yanaşı, *"Firəng, Rum, Hind qafilələrinə"* də rast gəlmək olar-

---

[1] Aləmara (Sahib), s.646.
[2] Дастур ал-мулук, с.83.
[3] Aləmara (Sahib), s.398; Aləmara (Şükri), s.345-346.
[4] М.Х.Гейдаров. Социально-экономические отношения, с.36,65,72,82-83,113; V.Minorsky. "Tadhkirat al-muluk", p.148-149.
[5] Aləmara (Şükri), s.4.
[6] Дж.М.Ибрагимов. Феодальные государства на территории Азербайджана XV века. Баку, 1962, с.50.
[7] Aləmara (Sahib), s.596; Aləmara (Şükri), s.575.
[8] Aləmara (Məclis kitabxanası – 9421) v.172a.

dı[1]. Araşdırdığımız mənbənin materialları həmin dövrdə Azərbaycan Səfəvilər dövlətinin Osmanlı dövləti, Avropa ölkələri, Hindistan, eləcə də Xətay və Çinlə[2] ticari münasibətlərə malik olduğunu aşkara çıxarır. Karvan-ticarət yollarının öyrənilməsi göstərmişdir ki, XVI əsrdə Azərbaycan ticarət yollarının inkişaf etmiş şəbəkəsinə malik ölkələrdən birinə çevrilmişdi[3].

"Ələmara"dan məlum olur ki, Səfəvilər zamanında dinar, dirhəm, əşrəfi, şahı, tümən kimi pul vahidlərindən istifadə olunurdu[4]. Şah İsmayıl hakimiyyətə gəldikdən dərhal sonra Təbriz şəhərində üzərində "Əliyyən-vəliyyullah" ("Əli Allahın dostudur") sözləri həkk olunmuş sikkələr zərb edilib, dövriyyəyə buraxılmışdı[5]. Bu gün də müxtəlif muzeylərdə I İsmayıl dövrünə aid bu cür pullar saxlanılmaqdadır[6]. Bizə gəlib çatan sikkələrə əsasən, I İsmayılın zamanında Səfəvilər dövlətinin siyasi və iqtisadi cəhətdən əhəmiyyətli şəhərlərinin, demək olar ki, hamısını əhatə edən 60-dan çox zərbxanada pul kəsilsə də, bu işdə əsas rol paytaxt Təbrizdəki zərbxanaya məxsus idi[7]. Ticarətdə işlədilən çəki vahidləri kimi "Ələmara"da misqal, mən (batman) və xərvar qeyd olunmuşdur.

Ümumiyyətlə, Şah İsmayılın mərkəzləşdirmə siyasəti nəticəsində XVI əsrin birinci rübündə Azərbaycan Səfəvilər dövlətində iqtisadiyyatın dirçəlişi üçün əlverişli şərait yaradılmışdı.

---

[1] Ələmara (Sahib), s.595; Ələmara (Şükri), s.574.

[2] Ələmara (Sahib), s.86; Ələmara (Məclis kitabxanası – 761), v.22b.

[3] С.У.Дадашева. Азербайджан в международной торговле XVI века. Автореферат к.и.н. Баку, 1991, с.17.

[4] Əşrəfi – çəkisi 3,45 qram olan qızıl sikkədir. Şahı – gümüş pul olub, 50 mis dinara tən gəlir. Tümən 10 min dinara bərabərdir.

[5] Ələmara (Sahib), s.60; Ələmara (Şükri), s.64.

[6] F.Məlikzadə. Zərfi mənsub be Şah İsmail-i Səfəvi dər muze-yi Topqapi-səray-i İstanbul // Bərrəsiha-yi tarixi, VI/3, 1350, s.91-110; M.Müşiri. Sikkəha-yi Şah İsmail-i Əvvəl. Tehran, 1351, 32 s. Həmçinin www.vcoins.com adlı internet saytına müraciət edə bilərsiniz.

[7] А.М.Раджабли. Монетное дело в Сефевидском государстве. Автореферат к.и.н. Баку, 1963, с.7.



Şah İsmayılın Luristan hakimi Məlikşah Rüstəmlə görüşü

(İslami Şura Məclisi kitabxanasına məxsus 635 saylı “Aləmara” nüsxəsindən bir illüstrasiya, vər. 59a)

# NƏTİCƏ

I Şah İsmayılın hakimiyyəti dövründən bəhs edən farsdilli mənbələr içərisində naməlum müəllif tərəfindən dastansayağı üslubda yazılmış "Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri xüsusi yer tutur. Azərbaycan Səfəvilər dövlətinin tarixinə dair ətraflı və orijinal məlumatları sözügedən əsəri qiymətli tarixi mənbə kimi dəyərləndirməyimizə imkan verir. Tehranda iki dəfə çap edilmiş bu əsərin İranda, Hindistanda, İngiltərədə, İrlandiyada və ABŞ-da 13 əlyazma nüsxəsi aşkar edilmişdir. Bu nüsxələrdən dördü miniatürlərlə bəzədilmişdir. Nüsxələr arasında müəyyən fərqlər nəzərə çarpsa da, süjet xətti eynidir. Araşdırmalar nəticəsində mənbənin Şah Süleymanın zamanında, 1086 / 1675-76-cı ildə, dil-üslub xüsusiyyətlərinə görə azərbaycanlı olduğu müəyyənləşdirilmiş anonim bir müəllif tərəfindən qələmə alındığı isbat edilmişdir. Bizim müəllif sadə xalq içərisindən çıxmış, Səfəviyyə təriqətinin ardıcıllarından olmuş və öz əsərini Səfəvilər sülaləsinə, xüsusən də I Şah İsmayıla dərin rəğbət ruhunda yazmışdır. O, əsasən xalq arasında dolaşan şifahi rəvayətlərə üstünlük versə də, yeri düşdükcə "Cahangüşa-yi xaqan", "Əhsənüt-təvarix", "Şah İsmayıl və Taclı xanım vaqiəsi", "Tarix-i Əkbəri" kimi dövrün yazılı mənbələrindən də bəhrələnmişdir. Müəllif həmçinin folklor və klassik ədəbiyyat nümunələrindən misallar gətirmiş, öz şəxsi düşüncə və müşahidələrinə də yer vermişdir. Mənbənin mətnində türkcə 160-dan çox söz, istilah və ifadə əksini tapmışdır.

"Aləmara"da I Şah İsmayılın 13-cü əcdadı Firuzşah Zərrinkülahdan başlayaraq Səfəvi əcdadlarının və şeyxlərinin həyatı müxtəsər şəkildə şərh edilmiş, daha sonra isə I Şah İsmayılın tarixi geniş səpkidə işıqlandırılmışdır. Mənbənin materialları Azərbaycan Səfəvilər dövlətinin qurucusu olan I Şah İsmayılın hərbi-siyasi fəaliyyətini dörd mühüm mərhələyə bölməyə imkan verir:

Birinci mərhələ (1499-1502-ci illər) – İsmayılın Lahicandan çıxıb qiyam qaldırmasından başlayaraq, onun Əlvənd üzərindəki ikinci qələbəsi ilə sona çatmışdır. Bu mərhələdə Şah İsmayıl Şirvanşah Fərrux Yəsar və Ağqoyunlu Əlvənd şah kimi mühüm rəqiblərini sıradan çıxararaq, Azərbaycan torpaqlarını

birləşdirmiş və Təbrizdəki şahlıq taxtında möhkəmlənə bilmişdi.

İkinci mərhələ (1503-1508-ci illər) – bu dönəmdə Şah İsmayıl ana babası Uzun Həsənin varisi kimi keçmiş Ağqoyunlu məmləkətini bütünlüklə itaət altına almağı qarşıya məqsəd qoymuş və Sultan Murad Ağqoyunlu, Əmir Hüseyn Kiya Çəlavi, Rəis Məhəmməd Kərrə, Kürd Sarom xan, Əlaüddövlə Zülqədər, Barik bəy Pornak və s. kimi rəqiblərini məğlub edərək, buna nail olmuşdu.

Üçüncü mərhələ (1508-1514-cü illər) – Luristan və Xuzistanın fəthindən etibarən Çaldıran döyüşünə qədər davam etmişdi. Həmin mərhələdə Şah İsmayıl bütün türk-islam dünyasında hegemonluq uğrunda qonşu Şeybani və Osmanlı dövlətlərinə qarşı aktiv fəaliyyət göstərmiş, həmin dövlətlərin təcavüzünə qarşı təkcə müdafiə olunmağı düşünməyərək, özü də geniş işğalçılıq planlarına malik olmuşdur.

Dördüncü mərhələ 1514-1524-cü illəri əhatə etmişdir. Çaldıran məğlubiyyətindən sonra İsmayıl geniş fəthlər və böyük müharibələr barədə planlarından əl çəkərək, öz imperiyasının sərhədlərinin qərbdə Osmanlıların, şərqdə isə Şeybanilərin basqınlarından müdafiəsini təşkil etmək, həmçinin Cənubi Qafqazda mövqelərini möhkəmlətmək istiqamətində çalışmışdır.

Araşdırdığımız mənbənin məlumatları Şah İsmayıl Xətainin döyüşçü, sərkərdə, dövlət xadimi və şair kimi yüksək keyfiyyətlərini üzə çıxarmağa kömək edir. Onun hakimiyyət olimpinə doğru sürətli sıçrayışı və olduqca qısa bir müddət ərzində hətta ən qüdrətli hökmdarları belə vahiməyə salan nəhəng və uzunömürlü bir imperiya təsis etməsi dünya tarixində rast gəlinən nadir hadisələrdəndir.

Səfəvilər dövləti yarımköçəri türk qızılbaş tayfalarının səyləri ilə yaradılmışdı və tamamilə bu tayfaların hərbi gücünə arxalanırdı. İmperiyanın metropoliyası Azərbaycan, paytaxtı Təbriz şəhəri idi. “Aləmara”nın materialları sübut edir ki, hətta paytaxtın İsfahana köçürülməsindən çox sonralar, XVII əsrin ikinci yarısında da Səfəvi dövlətinin sıravi təbəələri hakimiyyətdə olan sülaləni türk mənşəli, onların dövlətini isə Ağqo-

yunlu xanədanının birbaşa varisi hesab edirdilər. Rəsmi dini ideologiyanın isna-əşəriyyə (on iki imam) şiəliyi olduğu Azərbaycan Səfəvilər dövlətində teokratik monarxiya sistemi hökm sürürdü. Qeyri-məhdud səlahiyyətə malik şah hakimiyyəti bir tərəfdən "vilayət" prinsipinə əsaslanaraq, Həzrət Əli xilafətinin davamçısı olduğunu irəli sürür, digər tərəfdən isə Ağqoyunlularla qohumluq əlaqələrindən çıxış edərək, özünü Uzun Həsənin legitim varisi hesab edirdi. Qızılbaşlar öz mürşidləri bildikləri şaha müqəddəs bir varlıq kimi pərəstiş edirdilər. Vəkil şahın dini və dünyəvi işlər üzrə köməkçisi hesab olunurdu. Səfəvilərin dövlət quruluşunda bir sıra hərbi (əmirülümərа, qorçubaşı, ələmdarbaşı, təvaçıbaşı və s.) dini (sədr, qazı, şeyxülislam, xəlifətül-xüləfa və s.) və mülki (vəzir, mustovfi, möhürdar, münşi və s.) vəzifələr mövcud idi. "Aləmara"da 40-a qədər dövlət vəzifəsi haqqında məlumatlar əksini tapmışdır.

Qızılbaş əmirlərinə xan, sultan və bəy rütbələri verilirdi. Bu əmirlər dövlətin əsas hakim təbəqəsini təşkil edirdilər və ölkənin vilayətləri şahın fərmanı ilə faktiki olaraq onların arasında bölüşdürülmüşdü. Tədqiq etdiyimiz mənbədə I Şah İsmayıl zamanında fəaliyyət göstərmiş 12 oymağa mənsub 66 qızılbaş əmiri haqqında bilgilərə rast gəldik.

Real olaraq döyüşə çıxarıla biləcək ümumi sayı 70-100 min nəfər civarında olan Səfəvi ordusu əksərən süvarilərdən ibarət olub, əsasən soyuq silahlarla yaraqlansa da, onların bəzi hallarda, xüsusən də küçə döyüşləri və qala mühasirələrində odlu silahlardan da istifadə etdiyini görürük. Azərbaycan Səfəvilər dövlətinin silahlı qüvvələri türk qızılbaş oymaqlarının nümayəndələrindən təşkil olunur və onluq say sisteminə əsaslanırdı. Şah İsmayıl zamanında Azərbaycanda, Anadoluda, İranda, İraqda, Əfqanıstanda, Orta Asiyada, Gürcüstanda yüzədək hərbi əməliyyat aparmış qızılbaş ordusu özünü yüksək döyüş qabiliyyətinə malik qoşun birləşməsi kimi göstərməyə nail olmuşdur.

Səfəvilərin hakimiyyətə gəlməsi və mərkəzləşmiş dövlətin yaradılması ölkənin iqtisadi həyatının canlanmasına və sosial inkişafa səbəb olmuş, xalq kütlələrinin vəziyyətinin əvvəlkinə nisbətən yaxşılaşmasına gətirib çıxarmışdı. I Şah İsmayılın ti-

carətə himayəsi sayəsində daxili və xarici ticarət əlaqələri möhkəmlənmiş, ticarətin inkişafı üçün münbit şərait yaradılmışdı.

Tədqiqatlarımız nəticəsində "Tarix-i aləmara-yi Şah İsmayıl" əsərinin XVI əsrin birinci rübündə Azərbaycan Səfəvilər dövlətinin hərbi-siyasi və ictimai-iqtisadi vəziyyətinə dair önəmli qaynaq olduğu aşkara çıxarılmış, adı çəkilən əsərin faktları əsasında həmin dövrün tarixinə aid bir sıra yeni müddəalar irəli sürülmüşdür.

# ƏLAVƏLƏR

**I ƏLAVƏ**
**“Tarix-i aləmara-yi Şah İsmayıl”**
**nüsxələrindəki miniatürlərin siyahısı**

***a) Tehrandakı Rza Abbasi Muzeyinə məxsus nüsxənin miniatürləri:***

| Vərəq | Miniatürdə təsvir edilmiş mövzu |
|---|---|
| 11a | Şeyx Zahidin Şeyx Səfiəddini bir mürşid kimi öz varisi təyin etməsi |
| 13a | Sultan Xoca Əli Siyahpuşun Əmir Teymurun qırmancını geri qaytarması |
| 17a | Əmir Teymurun Ərdəbildə Sultan Xoca Əlini ziyarət etməsi |
| 42b | İsmayılın Sultan Hüseyn Baranini öldürməsi |
| 48b | Şah İsmayılın 12 imam adına xütbə oxutdurması |
| 51a | Ağqoyunlu Əlvənd mirzənin Əlaüddövlə Zülqədəri ziyarət etməsi |
| 87a | Qızılbaşlarla Zülqədərlilər arasında döyüş və Sarı Qaplanın öldürülməsi |
| 94b | Şah İsmayılın Barik sultanı öldürməsi |
| 114b | Murad bəy Ustaclunun həbəşlərlə döyüşü |
| 135b | Babur şahın Şahibəy xanı təqib etməsi |
| 165a | Şahibəy xanın elçisi Sultan Hüseyn Bayqaranın oğullarının hüzurunda |
| 186b | Halvaçıoğlunun Canvəfa mirzəni atın üzərindən qaldırması |
| 199b | Əxi sultanın Culi Özbəyi öldürməsi |
| 210a | Adi Bahadırın Şahibəy xanı bataqlıqdan çıxarması |
| 217a | Şah İsmayılın elçisi Mazandaran hakimi Ağa Rüstəmin hüzurunda |
| 241b | Orta Asiyadakı Qərşi qalası uğrunda qızılbaşlarla özbəklər arasında döyüş |
| 273b | Özbək xanlarından Canibəy sultan Dəşt-i Qıpçaq hökmdarı Qasım xanın hüzurunda |

| | |
|---|---|
| 280a | Şah İsmayılın Əbülxeyr xanı öldürməsi |
| 298b | Şah İsmayılın Malqoçoğlunu öldürməsi |
| 332b | Canberdi Qəzzalinin Şah İsmayılın hüzuruna gətirilməsi |
| 339b | Şah İsmayılın Qəzzali-oğlunu qəbul etməsi |

***b) Tehrandaki İslami Şura Məclisi kitabxanasına məxsus 635 saylı nüsxənin miniatürləri:***

| Vərəq | Miniatürdə təsvir edilmiş mövzu |
|---|---|
| 16b | Cənubi Azərbaycanın Tarom şəhəri yaxınlığında qızılbaşlarla Ağqoyunlu qoşununun döyüşü |
| 20a | Qara Piri bəy Qacarın və İlyas bəy Halvaçıoğlunun başçılıq etdiyi qızılbaş qoşunlarının Ağqoyunlu sərkərdəsi Osman sultan Türkmanın qüvvələrinə qalib gəlməsi |
| 26a | Almabulağı döyüşü ərəfəsində qızılbaşlarla Ağqoyunlu sərkərdəsi İsfəndiyar sultanın dəstəsi arasında toqquşma |
| 28a | Şah İsmayılla Ağqoyunlu Sultan Murad arasında Həmədan yaxınlığında baş vermiş Almabulağı döyüşü |
| 41b | Şah İsmayılın Çəlavilərə qarşı Firuzkuh qalası ətrafında apardığı hərbi əməliyyat |
| 45a | Mazandarandakı Övlad qalası ətrafında gedən döyüş |
| 56a | Şah İsmayılın Sarom xanın başçılıq etdiyi kürd üsyançılarına qarşı döyüşü |
| 59a | Şah İsmayılın Luristan hakimi Məlikşah Rüstəmlə görüşü |
| 60b | Qızılbaşların Xuzistana yürüşü |
| 68a | Şah İsmayılın Əlaüddövlə Zülqədərə qarşı müharibəsi |
| 80a | Murad bəy Ustaclunun Məmlük əmiri Sədan Həbəşiyə qarşı döyüşü |
| 101b | Şahibəy xanın Teymuri şahzadələrinə qarşı yürüşü |
| 122a | Şah İsmayılın ordusunun Mərv qalasına hücumu |
| 128b | Mərv döyüşündən sonra Şah İsmayılın öz ordugahında dövlət xadimləri ilə söhbəti |

| | |
|---|---|
| 145b | Şah İsmayılın vəkili Nəcm-i Saninin Orta Asiyadakı Qərşi qalasına hücumu |

***c) Dublindəki Çester Bitti kitabxanasına məxsus MS. Per. 278 şifrəli nüsxənin miniatürləri:***

| Vərəq | Miniatürdə təsvir edilmiş mövzu |
|---|---|
| 20a | Şah İsmayılın böyük qardaşı Sultan Əlinin Şirvan ordusu ilə döyüşü |
| 47b | Rum ordusunun Şah İsmayıl qarşısında məğlubiyyəti |
| 77a | Şah İsmayılın Luristan hökmdarı Məlikşah Rüstəmə qarşı döyüşü |
| 89b | Murad xan Ustaclunun Məmlük hökmdarının zənci döyüşçüləri ilə savaşı |
| 119b | Sultan Hüseyn Bayqara ilə oğlu Bədiüzzaman arasında döyüş |
| 136b | Şahibəy xanın Əmir Zünnunla döyüşü |
| 149a | İbrahim mirzənin Canvəfa mirzə ilə döyüşü |
| 152b | Halvaçıoğlunun Asar Bahadırla döyüşü |
| 160a | Naculi Bahadırın Danə Məhəmməd sultanı öldürməsi |
| 162b | Qızılbaş əmiri Mirzə Məhəmmədin özbək sərkərdələrindən Kuçam və Pərçamla vuruşması |
| 167b | Şahibəy xanın öldürülməsi |
| 176b | Halvaçıoğlu ilə Barsil xanın Şərif Sufiyə qarşı döyüşü |
| 191a | Nəcm-i Saninin bir qalanın ətrafında özbəklərlə savaşı |
| 193a | Bayram xan Qaramanlunun Abdulla sultanın qalasını fəth etməsi |
| 195a | Məhəmməd Teymur xanın Bayram xan tərəfindən məğlub edilməsi |
| 197b | Bayram xanın qırğız padşahı ilə döyüşü |
| 199b | Sipar Cani sultanın Bayram xanın əlində ölməsi |

| | |
|---|---|
| 215a | Məhəmməd paşanın Nurəli xəlifə Rumlu tərəfindən qətlə yetirilməsi |

## II ƏLAVƏ
## "Tarix-i aləmara-yi Şah İsmayıl"ın mətnindəki türkcə sözlər[1]

| Yazılışı | Oxunuşu | Mənası |
|---|---|---|
| آقا | ağa | |
| اغروق | ağruq | "ağırlıq", "ağır yük" sözlərindən yaranmışdır və ordunun yüklərini bildirən termindir |
| اخترمه | axtarma | döyüşdən sonra qalib tərəfin döyüş meydanında axtararaq ələ keçirdiyi qənimət |
| آستانه | astana | |
| آش | aş | |
| آتاليق | atalıq | himayədar və ya ağsaqqal |
| اتلان اتلان | atlan-atlan | atlanmaq haqqında döyüş əmri |
| الشه | alaşa | ala rənginə görə fərqlənən at növü |
| آزوقه | azuqə | qədim türkcə "azuq", "azık" sözündən |
| بهادر | bahadır | |
| بچه باشى | beçəbaşı | müğənnilər dəstəsinin |

[1] "Aləmara"dakı türkcə sözlər əsərin nəşrlərindən və Məclis kitabxanasındakı 9421 şifrəli əlyazma nüsxəsindən seçilmişdir. Düzəltmə və mürəkkəb sözlər daxilindəki qeyri-türk söz və şəkilçilər cədvəldə kursivlə verilmişdir. Mənbədəki türkcə sözlərin müəyyən edilməsi zamanı H.Zərinəzadənin "Fars dilində Azərbaycan sözləri" (Bakı, 1962) əsərinə, "Azərbaycan dilinin izahlı lüğəti"nə (Bakı, 2006, 4 cilddə), habelə Ə.M.Sahibin və Y.Şükrinin mənbəyə yazdıqları şərhlərə müraciət edilmişdir. Sözlərin oxunuşu Azərbaycan dilinə uyğun formada təqdim olunmuşdur. Mənası bəlli olan sözlərə dair izahat verilməmişdir.

| | | |
|---|---|---|
| | | başçısı |
| بلدچی | *bələd*çi | |
| بیگ | bəy | |
| بیگم | bəyim | |
| بیگلربیگی | bəylərbəyi | vilayət hakimi |
| بنه | binə | tərəkəmələrin mal-qara ilə köçüb, kənddən kənar-da məskən saldıqları yer, yurd |
| بقچه | boğça | böyük bir yaylıqdan düzəldilən bağlama |
| بشقاب؛ پوشقاب | boşqab | |
| بلوك | bölük | bölgə |
| بلوكات | bölük*at* | şəhərətrafı bölgələr |
| بوق | buq | nəfəsli musiqi aləti |
| بلاغ | bulaq | |
| جار | car | |
| جبه | cəbbə | yaraq-əsləhə |
| جلدو | cəldu | mükafat |
| جنقی؛ جانقی | cənəqi; canəqi | məşvərət məclisi |
| جق؛ جوق | -cıq; cuq | kiçiltmə və ya əzizləmə şəkilçisi |
| جغه؛ جقه؛ جیقه | cıqqa | taca və ya bayrağa bağlanan qotaz |
| جلو | cilov | |
| جمجمه | cumcuma | bataqlıq |
| چادر | çadır | |
| چاق | çaq | salamat |
| چاپار | çapar | |

| | | |
|---|---|---|
| چاوش؛ چاووش | çavuş | şahın və ya hökmdarın gəlişini bildirən, onun üçün yol açan, onun əmrlərini uca səslə elan edən və onun göstərişlərini başqa şəxslərə çatdıran məmur |
| چکمه | çəkmə | |
| چرخچی | *çərx*çi | döyüş vaxtı ordunun ön dəstəsi |
| چرخچی باشی | *çərx*çibaşı | ön dəstənin komandiri |
| داغ | dağ | "dağ çəkmək", "yara vurmaq" mənasında |
| داروغه | daruğa | şəhər hakimi, bəzi dövlət idarə və təşkilatlarının başçısı |
| دده | dədə | |
| دگنگ | dəyənək | |
| دیوان بیگی | *divan*bəyi | məhkəmə divanının başçısı |
| دوستاق؛ دوستاخ | dustaq | |
| ایل | el | |
| ایلچی؛ الچی | elçi | |
| ایشیك آقاسی | eşikağası | sarayın təşrifat məmuru |
| ابلق | əbləq | taca və külaha, hətta atın başına və cilovuna vurulan bəzək |
| علمدارباشی | *ələmdar*başı | bayraq daşıyan ələmdarların başçısı |
| امیرشکارباشی | *əmirşikar*başı | şahın ov işlərinin əsas təşkilatçısı |
| گنج اوغلان؛<br>گنج اغلان | gənc oğlan | |
| گوده | gövdə | |
| کوده | küdə (gödə) | gödək, qısa |

| | | |
|---|---|---|
| خاقان | xaqan | |
| خان | xan | |
| خانم | xanım | |
| خاتون | xatun | |
| خفتان | xəftan | kaftan, döyüşçü geyimi |
| خواجه | xoca | |
| ایلغار | ilğar | qoşunun müqavimətə rast gəlmədən sürətli hərəkəti |
| کشك؛ کشیك | keşik | |
| کشکچی؛ کشیکچی | keşikçi | |
| کنکاش | kənkaş | müşavirə |
| کسیب | kəsib | qənimət |
| کرشمه | kirişmə | göz qırpımı |
| کوچ | köç | |
| کمك | kömək | |
| کپك | köpək | |
| کرپی | körpü | |
| کوچك | küçik (farsca “kuçek” şəklini almışdır) | kiçik |
| کوتوال | kutval | qala rəisi |
| کوتل | kutəl | yedək at |
| کتل | kütəl | dağ keçidi, aşırım |
| قاب | qab | |
| قاجاقان | qaçağan | |
| قاجاقاج؛ قاچاقاچ | qaçaqaç | |
| قدغن | qadağan | |

| | | |
|---|---|---|
| قلتاق | qaltaq | namussuz |
| قاپوچی | qapıçı | |
| قرا | qara | |
| قراول | qaravul | |
| قربان | qarban | çiyindən asılan dəri oxqabı |
| قرداش | qardaş | |
| قلیج | qılıc | qılınc |
| قشلاق | qışlaq | |
| قزل | qızıl | |
| قزلباش | qızılbaş | |
| قورچی | qorçu | qoruyucu; şahın şəxsi qvardiyasının döyüşçüsü |
| قورچی باشی | qorçubaşı | şah qvardiyasının komandanı |
| قرق؛ قوروق | qoruq | |
| قرقچی | qoruqçu | |
| قشون | qoşun | |
| غوغا | qovğa | dava-dalaş |
| قیلوغه؛ قیلوقه | qoyluğa | cəza üsulu |
| قلقچی؛ قلغچی؛ قولوقچی | qulluqçu | |
| قوریساول | qur-yasavul | silah yasavulu |
| لچك | ləçək | |
| لله | lələ | şahın tərbiyəçisi |
| لو | -lu | tayfa və nəsil adlarına, soyad sonluqlarına artırı-lan mənsubiyyət şəkilçisi |
| مین باشی | minbaşı | min nəfərlik dəstənin başçısı |

| | | |
|---|---|---|
| نارين | narın | |
| نجق | nəcəq | balta növü |
| نوكر | nökər | |
| اوجاق (اجاق) | ocaq | ailə, nəsil |
| اغلى، اوغلى | -oğlu | soyadlara və ləqəblərə artırılan sonluq |
| اردو | ordu | |
| اوطراق | oturaq | |
| اويماق | oymaq | |
| الكا | ölkə | |
| ارتوك | örtük | |
| پياده باشى | *piyada*başı | |
| ساق | sağ | sağlam, salamat |
| سان | san | say |
| سنجاق بيگى | sancaqbəyi | Osmanlı dövlətində mahal hakimi |
| سراى | saray | |
| سارو | sarı | sarı rəng |
| ساروق | sarıq | başa sarınan parça |
| ساورى | savəri | "hədiyyə" anlamını verən vergi növü |
| سيبه | sibə | səngər |
| سراغ | soraq | soraqlamaq |
| سوقات؛ سوغات | sovqat | |
| سوراق | sovuraq | sovurmaq |
| سوى | soy | mənşə, nəsil |
| سيورغال | soyurğal | torpaq mülkiyyəti formalarından biri |

| | | |
|---|---|---|
| سورسات؛ سیورسات | sursat | |
| شاه سون؛<br>شاهی سون | *şah*-sevən;<br>şahısevən | |
| شلتاق | şıltaq | |
| تالان | talan | talamaq |
| ترخان | tarxan | əmir, sərkərdə, başçı |
| تنسوقات | tənsuqat | nadir əşyalar |
| تفاچی باشی | tafaçıbaşı<br>(təvaçıbaşı) | ordunun səfərbərliyinə cavabdeh olan yüksək rütbəli məmur |
| تکامیش | təkamış | təqib |
| تمور | təmür | dəmir |
| تیول | tiyul | torpaq mülkiyyəti formalarından biri |
| توپ | top | |
| توپچی | topçu | |
| توپوز؛ طپوز | toppuz | |
| توره | törə | adət-ənənə |
| توله | tula | köpək, it balası |
| طغرا | tuğra | |
| توشمال | tuşmal | saray mətbəxinin işçisi (hərfi mənası: “etibarlı adam”) |
| تفنگ | tüfəng | |
| تفنگچی | tüfəngçi | |
| تومان | tümən | “on minlik” mənasını verən pul vahidi və ya qoşun birliyi |
| الاغ | ulaq | eşşək, uzunqulaq |
| النگ | üləng | çəmən |

| | | |
|---|---|---|
| امید | ümid (umud) | “ummaq” felindən yaranmışdır |
| اتو؛ اطو | ütü | |
| اوزنگو | üzəngi | |
| وار | var | var-dövlət, sərvət |
| یاغی | yağı | düşmən |
| باپونچی؛ یاپانچی | yapıncı | |
| یارا | yara | ixtiyar, səlahiyyət |
| یراق | yaraq | silah |
| یساق | yasaq | |
| یساقچی | yasaqçı | |
| یساول | yasavul | |
| ییلاق | yaylaq | |
| ینکچری | yengiçəri | yeniçəri |
| ینکچری آقاسی | yengiçəriağası | yeniçəri qoşununun komandanı |
| یورش؛ یرش | yürüş | |
| یوزباشی | yüzbaşı | yüz nəfərlik dəstənin başçısı |
| بو شیخ اوغلی در | bu *Şeyx*oğludur | |
| قیصر ساق اولسن | *Qeysər* sağ olsun | |
| اوزی دور؛<br>اوزی در | özüdür | |

## III ƏLAVƏ
## "Tarix-i aləmara-yi Şah İsmayıl"da türkcə şəxs adları, soyadlar və ləqəblər:

Abdal, Ağası, Arslan, Aslan, Babur, Barsil, Bayaqu, Bayqara, Bayram, Bayrək (Beyrək), Baysunqur, Bəktaş, Bıyıklı, Budaq, Çingiz, Dədə, Durmuş, Elçibəy, Halvaçıoğlu, Gözəl, Kuçum, Qaplan, Qaraca, Qaragünə, Qaraxan, Qayıtmaz, Qazan, Qoşqar, Qulu, Qutluq, Məntəş, Sarı, Səncər, Taclı, Teymur, Uğurlu.

## IV ƏLAVƏ
## "Tarix-i aləmara-yi Şah İsmayıl"da türk oymaq və ulusları:

Ağqoyunlu, Baharlu, Barani, Bayandur, Bayat, Cağatay, Çakirlü, Əfşar, Xətay, Xötən, İnanlu, Qacar, Qaraqoyunlu, Qaramanlu, Qazax, Qəlmaq (Kalmık), Qərəvi, Qıpçaq, Qırğız, Moğol, Mosullu, Osmanlı, Özbək, Pornak, Rumlu, Səlcuq, Şamlu, Təkəlü, Türkman, Ustaclu, Varsaq, Yaka-türkmən, Zülqədər.

## V ƏLAVƏ
## I Şah İsmayıl dövründə qızılbaş əmirləri ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsasında):

***Ustaclu tayfası (13 nəfər):*** Məhəmməd xan, Qaraxan xan, Abdulla xan, Xızır ağa, Süleyman bəy, Şahrux sultan (Kor Şahrux), Sarı Pirə, Köpək sultan, Mahmud bəy, Məntəş sultan, Murad bəy, Çayan sultan, Məhəmməd sultan Sufioğlu;

***Şamlu tayfası (9 nəfər):*** Hüseyn bəy Lələ, Əhməd sultan, Əxi sultan, Əbdi bəy, Durmuş xan, Zeynal xan, Musa bəy, Həsən bəy, Süleyman bəy;

***Türkman tayfası (8 nəfər):*** Əlişəkər bəy Baharlu, Məhəmmədi xan Baharlu, Mənsur bəy Pornak, Əmir xan Mosullu, Gülabi xan Mosullu, Abdal sultan Türkman, Şahqulu bəy Türkman, Qızıl Məhəmməd Türkman;

***Rumlu tayfası (6 nəfər):*** Div sultan, Nurəli xəlifə, Xəlil ağa, Sufiyan xəlifə, Badincan (Badımcan) sultan, Qaragünə sultan;

***Təkəlü tayfası (6 nəfər):*** İlyas bəy Halvaçıoğlu, Həsən bəy Halvaçıoğlu, Yaqub bəy Halvaçıoğlu, Üləmə sultan, Sarı Əli bəy Möhürdar, Burun sultan;

***Qacar tayfası (5 nəfər):*** Qara Piri bəy, Rüstəm bəy, Əhməd sultan, Mahmud bəy, Xəlil xan;

***Əfşar tayfası (4 nəfər):*** Sultanəli bəy, Məhəmməd xan, Danə Məhəmməd sultan, Vəlican sultan;

***Zülqədər tayfası (4 nəfər):*** Xəlil xan, Əlixan sultan, Zöhrab sultan, Vələdxan bəy;

***Talış tayfası (4 nəfər):*** Abdal bəy Dədə, Xadim bəy Xüləfa, Mirzə Məhəmməd, Pirqeyb xan;

***Qaramanlu tayfası (3 nəfər):*** Bayram xan, Hüsam bəy, Əlican sultan;

***Varsaq tayfası (3 nəfər):*** Yusif xəlifə, Qasım xəlifə, Həsən xəlifə;

**Qıpçaq tayfası (1 nəfər):** Mənsur bəy.

## VI ƏLAVƏ
## "Tarix-i aləmara-yi Şah İsmayıl" əsərinin mətnindəki atalar sözləri və zərb-məsəllərdən nümunələr:

Allahın yandırdığı çırağı üfürüb söndürmək istəyən öz saqqalını yandırar.

Aman mürvət şərtidir.

Aman vermək imandandır.

Aman vermək mərd adamın işidir.

Döyüşün gedişi gah qələbə olar, gah məğlubiyyət.

Dünya intiqam evidir.

Eşitmək hara, görmək hara?!

Əcəli çatan tələsər.

Əcəli çatmış seyd (ov heyvanı) səyyada (ovçuya) sarı üz tutar.

Əgər məşuqə tərəfindən bir səy olmasa, biçarə aşiqin səyləri kifayət etməz.

Əl mənimdir, ətək sənin.

Əsla biqeyrətlik etmə ki, dünyada və axirətdə işə yarayan bircə şey varsa, o da qeyrətdir.

Əyan olan işə bəyan nə lazım?!

Günahdan əvvəl cəza verilməz.

Günəşin qabağında zərrə nədir ki?!

Heç iki oldu ki, üç də olsun?!

Hər gülün minnətini yüz xar çəkər.

Hər yoxuşun bir enişi də var.

İlanla tovuzquşu cütləşməz.

İnsaf mərdanəlik əlamətidir.

Kafir hamını öz əqidəsində görər.

Kim bişirdi, kim yedi.

Kişi vədindən dönməz.

Mərdliklə namərdliyin arası bir addımdır.
Mürşidin zəhməti rəhmətdir.
Nə əkərsən, onu da biçərsən.
On dərviş yerləşər bir kilimə, iki padşah sığışmaz bir iqlimə.
Sufiliyin qaydası söz eşitməkdir.
Təvazökarlıq alicənab üçün üstün cəhət, gəda üçün adi xüsusiyyətdir.
Yaxşı oğul dayısına oxşayar.
Yaxşıya yaxşılıq düşər, pisə də pislik.



“Aləmara”nın İran İslami Şura Məclisinin kitabxanasına
məxsus 761 saylı əlyazma nüsxəsinin ilk səhifəsi



“Aləmara”nın İran İslami Şura Məclisinin kitabxanasına məxsus 761 saylı əlyazma nüsxəsinin son səhifəsi



“Aləmara”nın İran İslami Şura Məclisinin kitabxanasına
məxsus 635 saylı əlyazma nüsxəsinin ilk səhifəsi



“Aləmara”nın İran İslami Şura Məclisinin kitabxanasına məxsus 635 saylı əlyazma nüsxəsinin son səhifəsi



“Aləmara”nın İran İslami Şura Məclisinin kitabxanasına
məxsus 9421 saylı əlyazma nüsxəsinin ilk səhifəsi



“Aləmara”nın İran İslami Şura Məclisinin kitabxanasına
məxsus 9421 saylı əlyazma nüsxəsinin son səhifəsi



Şah İsmayılın kürd üsyançılarına qarşı döyüşü
(“Aləmara”nın İran İslami Şura Məclisinin kitabxanasına
məxsus 635 saylı əlyazma nüsxəsinin 56a vərəqi)



Qızılbaşların Mərv qalası üzərinə hücumu
("Aləmara"nın İran İslami Şura Məclisinin kitabxanasına
məxsus 635 saylı əlyazma nüsxəsinin 122a vərəqi)



Şah İsmayılın Malqoçoğlunu öldürməsi
("Aləmara"nın Rza Abbasi Muzeyinə məxsus 600 saylı
əlyazma nüsxəsinin 298b vərəqi)



Şah İsmayılın Qəzzali-oğlunu qəbul etməsi
(“Aləmara”nın Rza Abbasi Muzeyinə məxsus 600 saylı
əlyazma nüsxəsinin 339b vərəqi)

## İXTİSARLAR

Aləmara – Tarix-i aləmara-yi Şah İsmayıl (Tarix-i aləmara-yi Səfəvi)
AMEA – Azərbaycan Milli Elmlər Akademiyası
ASE – Azərbaycan Sovet Ensiklopediyası
BSOAS – Bulletin of the School of Oriental and African Studies
c. – cild
DVİA – Diyanet Vakfı İslâm Ansiklopedisi
EA – Elmlər Akademiyası
ed. – edited
fasc. – fascicle
h. – hicri-qəməri
h.ş. – hicri-şəmsi
JRAS – Journal of Royal Asiatic Society
İA – İslâm Ansiklopedisi
m. – miladi
t. – tome
t.e.d. – tarix elmləri doktoru
t.e.n. – tarix elmləri namizədi
TTK – Türk Tarih Kurumu
t.ü.f.d. – tarix üzrə fəlsəfə doktoru
vol. – volume
YDT – Yayınlanmamış Doktora Tezi
ZDMG – Zeitschrift der Deutcshen Morgenlandischen Gesellschaft
АН – Академия Наук
вып. – выпуск
д.и.н. – доктор исторических наук
к.и.н. – кандидат исторических наук
СИЭ – Советская Историческая Энциклопедия
ССИА – Сборник статей по истории Азербайджана
т. – том
ч. – часть

## THE REIGN OF SHAH ISMAIL I
## (According to "Tarikh-i alamara-yi Shah Ismail")

### SUMMARY

Shah Ismail I (life: 1487-1524; reign: 1501-1524) – an eminent statesman, a skilful warlord and a talented poet – is one of rare personalities, which Azerbaijan has gave to the world history. He is the founder of the Safavid state, the heartland of which was Azerbaijan. He also is the author of a poetry collection in Azeri Turkish with the pen-name of "Khatai". The personality of Shah Ismail occupies an important place in the political and literary history of Azerbaijan. The empire founded by him was one of the most powerful states, created by Turkic nations throughout the whole history. The Azerbaijani people, who always have approached to Shah Ismail with a great sympathy, have invented many poems, tales, and sagas about him and have kept alive his image in its written and oral literature. At present, there is a district, a subway station, an avenue, a hospital, ship, military order and etc. in Azerbaijan, named after Shah Ismail Khatai. There also is a monument, erected in his honor in the centre of Baku. Various sides of Shah Ismail's military and political activities, literary creations and philosophical world view have been investigated by Azerbaijani scholars and these investigations still are going on.

Dear reader! This book is the result of my scientific researches conducted for last ten years. After finishing the MA course in the faculty of history of Baku State University in 2001, I began to work at the Department of Medieval History of Azerbaijan of the Institute of History of Azerbaijan National Academy of Sciences. Soon, associate member of the Academy, the head of the Department of Medieval History of Azerbaijan and my scientific adviser, Prof. Dr. O.Efendiyev, who dedicated the whole of his professional life to the researches on Safavid history, advised me to study the narrative work "Tarikh-i alamara-yi Shah Ismail" and to find out its historical value. I defended my dissertation in this field in 2006 and received the

degree of the doctor of philosophy in history. I kept adding new passages to my dissertation work and making amendments to it in following years and by doing this, have made it ready for publication.

"Tarikh-i alamara-yi Shah Ismail" ("The World Adorning History of Shah Ismail") is distinguished by its style, volume and content among Safavid sources where the biography of Shah Ismail is told. Another popular name for it is "Tarikh-i alamara-yi Safavi". Using the two publications and several manuscripts of this work, I tried to determine its scientific importance and to throw the light upon the military, political, social and economic processes during the times of Shah Ismail's ruling. I also have used various Safavid, Aqqoyunlu, Ottoman, Sheybanid, Great Mogul, Venice, Georgian and other like sources, researches of modern scholars to compare and analyze.

My book consists of an introduction, three chapters, a conclusion, appendixes and a bibliography.

The first chapter of the book is called ***"Tarikh-i alamara-yi Shah Ismail and its peculiarities"***. "Alamara" is an epic work by an anonymous author, written in a simple conversation manner of Persian language. This voluminous work is not composed in the style of court chronicles, but in a saga form. In spite of few exceptions, the dates of occurred events are not indicated, but the chronological order is followed. More than 160 Turkish words and phrases are used in the work.

The underlying point of the work is describing the military and political activities and heroisms of Shah Ismail I. First pages shortly tell about the life paths of Safavid ancestors, beginning from 13$^{th}$ forefather of Shah Ismail – Firuzshah Zarrinkulah. Later, rather wide and detailed description of the life and activities of Shah Ismail I, his childhood, his accession to power, numerous military campaigns, political and diplomatic steps follows. Here you can find information about neighboring countries too.

We know that "Alamara" has 13 manuscript copies. 9 of them are found in various personal and state libraries of Iran.

1. Belonged to the personal library of Iranian scholar Dr. H.Miftah. Scriber: Shapur Gurji; handwriting style: nastaliq; dimensions: 31x21 cm; volume: 412 pages.
2. Previously was included in the library of Dr. H.Miftah. At present is kept under the cipher 761 in the library of Mejlis of Islamic Council of Iran. Date: 1819; scriber: Ali Reza ibn Mahmudjan al-Bahbahani; handwriting style: nastaliq; dimensions: 30x20 cm; volume: 326 pages.
3. Belongs to the personal library of A.M.Sahib in Shiraz. Date: 1825; scriber: Hasan ibn Muhammad Jafar al-Musavi; handwriting style: nastaliq; dimensions: 28x19 cm; volume: 424 pages.
4. Is kept in the library of religious and philosophical higher school of Sipahsalar. Date: 1716-17 or 1794-95; handwriting style: nastaliq; dimensions: 29x20 cm; volume: 241 leaves.
5. Was included in the personal library of M.T.Shihab, located in the city of Sari of Mazandaran region. Date: 1714-15; volume: 364 pages.
6. Previously was in the property of V.Sheybani. At present belongs to Reza Abbasi Museum in Tehran. Date: 1689; handwriting style: nastaliq; dimensions: 35.5x21.5 cm; volume: 353 leaves. This copy comprises 21 miniatures, drawn by Muin Musavvir.
7. Was in the personal collection of Ahmad Khan-Melik Sasani. Date: 1823-24; scriber: Mahmudjan ibn Muhammad Ali Bahbahani; handwriting style: nastaliq.
8. Is kept under the cipher 9421 in the library of Mejlis of Islamic Council of Iran. Date: XVIII century; handwriting style: nastaliq; dimensions: 26x18 cm; volume: 177 leaves.
